Müasirləri Əzim Əzimzadəni fenomenal yaddaşa malik olduğunu bildirərək, gördüklərini, müşahidə etdiklərini xeyli müddət yadda saxladığını qeyd edirdilər. Buna "Müsəlmanların ziyarəti" silsiləsinə daxil olan onlarla kompozisiya, yaxud "Köhnə Bakı tipləri" silsiləsi buna əyani misaldır. 1939-cu ildə yaratmış olduğu "Ziyarət" kompozisiyalarında rəssam vaxtı ilə Kərbəla səfəri zamanı gördüklərini (yaxud eşitdiklərini) təsvirə almışdı. "Köhnə tiplər qalereyası" na (1937) o, özünün dediyinə görə, 1912-ci ildə Bakıda rast gəldiyi tipləri daxil etmişdi. Ə.Əzimzadə uzun zaman nəinki hadisələri, yaxud tiplərin zahiri görkəmini hafizəsində saxlaya bilirdi, o, eyni zamanda istədiyi vaxt onların "portretini" çəkməyi bacarırdı. Ə.Əzimzadə, ümumiyyətlə, öz tiplərini, hətta çoxfiqurlu tematik rəsmlərini "əzbərdən" çəkirdi. Naturaya baxıb çəkməzdi. Lakin bu, heç də o demək deyil ki, o, canlı naturaya etinasızlıq göstərirdi, onu öyrənmirdi, müşahidə etmirdi. Belə olsaydı, mürəkkəb hərəkətləri, rakursları, ifadələri verməkdə çətinlik çəkərdi. O, şəhərin gur yerlərini – bazarları, meydanları, dəniz kənarı bulvarı gəzməyə, karvansaralarda, məscidlərə getməyə adət eləmişdi (2, s. 55).

Qılman İlkin Ə.Əzimzadə ilə bağlı "Bakı və Bakılılar" əsərində yazırdı: "Yay vaxtı, bağda istirahətdə olduğu zamanlar qonşuları, tanış-bilişləri ilə tez-tez görüşüb danışardı. Təbii ki, belə zamanlarda o müsahibələrini hərtərəfli diqqətdən keçirər, onların oturuşuna, əl-qol atıb danışmasına, gülməsinə, hirslənməsinə göz goyardı. Söz yox ki, rəssam arabir naturadan da tiplər çəkirdi. Onun yaşadığı məhəllədə, İçərişəhərdə, hətta ətraf kəndlərdə tanışları, dostları çox idi. Evində demək olar ki, həmişə gəlib-gedən olurdu. Uzun söhbətlər zamanı o, bəzən qələmini işə salır,

ərki çatdığı adamların şəklini çəkirdi (2, s. 56**)** Əzimzadə teatr tamaşaları sahəsində də fəaliyyət göstərirdi. Ayrı-ayrı dram və opera əsərlərinə verdiyi quruluş, bədii tərtibat və geyim eskizləri ilə tamaşaların bədii və estetik təsirini xeyli artırırdı. 1920-ci ildən sonra, Sovet hakimiyyəti illərində Əzimzadə yaradıcılığı üçün daha geniş imkanlar açılmışdı. Əvvəla o Bakıda ilk dəfə olaraq, Rəssamlıq məktəbi təşkil etmiş və uzun müddət onun direktoru olmuşdur. İndiki rəssamların yaşlı nəsli əsas etibarilə Əzimzadənin yetirmələridir. Sovet hakimiyyəti illərində Əzimzadə ictimai və pedaqoji fəaliyyəti ilə yanaşı olaraq, satirik karikatura sahəsində də fəaliyyətini davam etdirirdi. İstər «Molla Nəsrəddin» məcmuəsinin və istərsə də respublikanın başqa mətbuat orqanlarının səhifələrindən onun çəkdiyi şəkillər əskik olmurdu (3, s. 239) Yaşının keçməsinə və xəstəliyinə baxmayaraq gecə-gündüz işləyir, qəzetlər üçün siyasi karikaturalar çəkir, rəssamlar ittifaqının emalatxanasında böyüdülüb trafaret vasitəsi ilə yüzlərlə nüsxə çap olunan təşviqat plakatları yaradırdı. O, Azərbaycan Respublikasının xalq rəssamı adına layiq görülmüşdü. Əzim Əzimzadə 1943-cü ilin 15 iyununda 63 yaşında vəfat etmişdi. Azərbaycan karikatura sənətinin banisi Əzim Əzimzadənin əməyi yüksək qiymətləndirilərək, 1927-ci ildə Azərbaycanın Xalq Rəssamı, Əmək Qəhrəmanı adlarına layiq görülmüşdür.

Görkəmli rəssamın Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən əsərlərindən biri **"Neft qurbanı"** rəsm əsəridir (5, MATM, TMF. 524). Əsərdə Bakının XX əsrə aid neft mədənləri üçün xarakterik olan hadisələr öz əksini tapmışdı. Mövzunun ciddiliyindən asılı olaraq rəssam, əsərində müvafiq süjetlər axtarmış, eyni zamanda həmin süjetlərə uyğun ifadə vasitələri seçmişdir. Rəsm əsərindən göründüyü kimi o zaman ağır, çətin, qorxulu iş quyu qazmaq, neft çıxarmaq, bir də neft təmizləmək idi. Ölüm, həmişə bu peşə sahiblərinin başları üstündə hərlənirdi. Zəhərli qaz, yeraltı sular, palçıq qazmaçıları bərk incidir, adamları əldən salırdı. Dərinə getdikcə hava azalır, zəhərli qaz artır, iş ağırlaşır, yeraltı su təbəqələri açılır, su basqını başlayır, quyu divarları uçub tökülür, tez-tez bədbəxt hadisələr baş verirdi (1, s. 29). Bu baxımdan, rəssam gördüyü hadisəni müxtəlif süjetlər üzrə olduğu kimi qələmə alaraq onu tamaşaçıya çatdırırdı.

Əsərdə Ə.Əzimzadə böyük bir ustalıqla faciə ilə bitən hadisənin mövzusunu acı satira vasitəsi ilə tamaşaçılara təqdim etmişdir. XX əsrin əvvəllərində xarici istehsalçıların yerli əhalinin ehtiyac içində yaşayan minlərlə nümayəndəsindən ucuz qüvvəsi kimi istifadə edərək, onları həris pul qazanma ehtirasına qurban verir və buna adi hal kimi baxırdılar. Rəssam "Neft qurbanı" adlanan bu kiçik qrafik lövhədə qazanc üçün hər cür işə razı olan qara fəhlənin kəşfiyyat üçün kəndirlə neft quyusuna salladılaraq, həyatı ilə vidalaşmaq bahasına bir parça çörək qazanmaq kimi acı həqiqəti məharətlə çatdırmışdır. Neft quyuları sahiblərinin insan həyatına zərrə qədər də olsa qiymət verməyərək, ölümlə nəticələnməsinə baxmayaraq hər dəfə bədbəxt fəhlələrin taleləri ilə bu dərəcədə laqeyd davranmaları qabarıq şəkildə, bütün real çılpaqlığı ilə göstərilmişdir.

Rəsm əsərində ölən fəhlənin başı üstündə oturan və "saralmış" kağızlardan dua oxuyan molla təsvir olunmuşdur. Sahibinin isə artıq yeni bir işçi axtarmasında danışıqlar aparması, insanı dəhşətə gətirən bir fakt olaraq, tamaşaçısını düşündürməyə vadar edərək, əsərin dərin məzmununa dəlalət edir.

Bununla yanaşı, Əzimzadənin əsərlərinin əsas mövzusunu sosial təzadlar, adətlər və xalqın məişəti təşkil edirdi. Cəmiyyətin müxtəlif təbəqələrinin mənfi ünsürləri - xəsis tacirlər, fırıldaqçı din xadimləri, şarlatanlar onun satirik qələminin hədəfində olurdular.

Əzim Əzimzadənin başqa bir qrafik etnoqrafik lövhəsi Azərbaycan xalqının bütün qadağalara baxmayaraq, bu günədək böyük bir məhəbbətlə qoruyub saxladığı milli bayramı olan Novruz bayramına həsr olunmuşdu. (6, MATM, İF. 163). Görkəmli rəssamın muzeyin fondunda Novruz bayramına həsr olunmuş əsərdə milli adət-ənənəlimiz uyğun, hamının bir-birini bu əziz bayramla təbrik etməsi, bütün şəhərdə - küçədə, bazarda, həyətlərdə tənətnəli bir şadyanalıq əhvalı təsvir olunmuşdur. Rəssam kiçik həcmli bir əsərində Novruz bayramına xas olan bütün nəzərə almış, xalqımız üçün bayramdan xeyli sonra da uzun müddət davam edən sevinc, şadlıq hissini və ovqatı tamaşaçıya geniş surətdə təqdim etmişdir. Əsərdə də göründüyü kimi, kimisi əl verib, qucaqlaşıb təbrikləşir, kimisi kosanın ətrafına toplaşıb, kimisi bazarlıq edir, digərləri isə bayramlıq xonçalar göndərirlər.

Görkəmli fırça ustası sulu boya ilə işlədiyi əsərində gözəl, şux rənglərdən istifadə edərək, Novruz bayramının şən əhval ruhiyyəsini daha da qabarıq təsvir etmişdir.

Bununla yanaşı, rəssam əsərində müxtəlif süjetləri canlandırmışdır. Göründüyü kimi, Bakı məhəllələrinin birini əsərində canlandıran rəssam uşaqları həyətləri gəzməklə kosa-kosa adlanan bir oyun oynadığını göstərir. Əsərdə, Novruzda damları gəzib nünnünü (qurşaqsallama, şalsallama, baca-baca, yaxud *nünnünü* də deyilir. N.Ə.) getmək adəti də öz əksini tapır. Bakı evləri əksəriyyətlə alçaq, bir mərtəbəli evlər olduğundan küçədən onların damına çıxmaq asan idi. Nünnünü gedən adam ip ucuna kiçik bir torba bağlar, onu mətbəxin bacasından (əgər mətbəxdə adam varsa) və ya sadəcə, evin damından, bacasından evə sallar, özünü tanıtdırmamaq məqsədilə şəhadət barmağını burnuna vurmaqla nünnünü səsi çıxarıb ev yiyəsini xəbərdar edərdi (7, s. 131). Bayram milli bayram olduğundan kasıb dövlətli təbəqəsi olsa da hamı bir-birini bayram münasibəti ilə təbrik edib, salamlaşırlar. Əsərdə də gördüyümüz kimi eyvanlar xalçalar ilə bəzədilərək bayram abu-havası təsvir olunur.

Əzimzadə bütün əsərlərində Azərbaycan milli ənənələrinin etnoqrafik dəqiqliklərinə xüsusi yer vermiş və fikirlərini öz qrafik qələminə uyğun iti satiranın gücü ilə həyata keçirmişdir. Rəssamın Azərbaycan xalqının adət ənənəsinə həsr olunmuş digər bir rəsm əsəri olan **"Kişi toyu"** (7, MATM, İF. 144) muzeydə mühafizə edilərək ekspozisiyada nümayiş etdirilir. Rəssam əsərində XX əsrin əvvəlinə aid xalça – palazla döşənmiş çadırda kişi toy məclisi təsvir etmişdir. Müəyyən bir kütlənin toylarında əyləncə sayılan səhnəni öz qarfikasında canlandıran Əzim Əzimzadə bu mövzunu kəskin satira atəşinə tutmuşdur. Toyda məzhəkə xatirinə kişi məclisinə

qadın paltarı geyinmiş kişi dəvət edib, ona çürük meyvə ataraq, fit, çırtma çalaraq, əl vurub, təhrik edər və bu yolla əylənərmişlər. Ortada dövrə vuran mütrüf işə şəbeh çıxararaq toyxanadakı qonaqları güldürməklə məşğul olardı (3, s. 384).

Bir ziyalı kimi bu adəti əsərində tənqid edən Əzimzadə Azərbaycanın əsrlərlə formalaşmış zəngin adət və ənənələrinin bu cür təhrif olunmasına öz münasibətini bildirmişdir.

Muzey ekspozisiyasında nümayiş etdirilən bu rəsm əsərləri müşahidələr, axtarışlar və insan ruhunun azadlığını təmsil edən əsərlər toplusudur. Dövrün "güzgüsü hesab" olunan bu rəsm əsərləri Azərbaycan incəsənəti irsini yenidən dərk edərək, onu öz baxışlarından keçirir, günümüzün ritmləri və durumunu ifadə edir, məkan və əhatənin enerjisini duyaraq, sirli və yeni olanları öz fəhmi ilə araşdırır.

Beləliklə, Azərbaycan tarixini, mədəniyyətini təbliğ və tədqiq etməklə Milli Azərbaycan Tarixi Muzeyi gənc nəslin tarixi yaddaşın formalaşmasında və estetik tərbiyəsində xüsusi xidmətlər göstərir. Muzeyin ekspozisiyasında tarixi hadisələrin rəssamın dili ilə canlandırılması, insanın ideya-mədəni yüksəlişində kömək edir. Milli vətənpərvərlik idealı əsasında estetik zövqün, ictimai praktikanın hər bir sahəsində yüksək estetik fəaliyyətə qabiliyyət və tələbatın formalaşdırmaqla yanaşı onlarda, bədii yaradıcılıq üçün vərdişlərin və qabiliyyətlərin təkmilləşməsi və inkişafına böyük təsir göstərir.

İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı

1. Azərbaycanın neft səlnaməsi. Kataloq. Tərtibatçı və ön sözün müəllifi: F.Cabbarov. Bakı, 2014.
2. Əzim Əzimzadə. Mətnin müəllifi və tərtib edəni M. Nəcəfov. Bakı, 1980.
3. Qılman İ. Bakı və Bakılılar (Üçüncü nəşri). Bakı, 2006.
4. Məmmədbəyov N. Azərbaycan rəssamları ilə tanışlıq. Bakı, 2004.
5. Mərdanov M. Azərbaycan Təhsil Tarixi. II cild, Bakı, 2011.
6. Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondu: 524.
7. Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondu: 163.
8. Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondu: 144.
9. Sarabski H. Köhnə Bakı. Bakı, 1982.

Nushaba Asadova

Art works of the prominent artist Azim Azimzade as a historical source

Summary

Key words: *Painting, Azim Azimzade, "Molla Nasreddin", "Victimof oil", "Male`s wedding", "Novruz Bayram"*

This article highlights the role of paintings of well-known artist Azim Azimzade whose art works have been displayed in the funds and expositions of National Azerbaijan History of Museum and represent significance being main sources to study our countrye`s history.

Due to the research and popularization of Azerbaijan history and culture of the National Azerbaijan History Museum, provides asset formation services and aesthetic education of the younger generation.

Furthermore, museum's exposition helps to revitalize and take a view to historical events through the artist's eyes, as well as contributing to general cultural development of museum's visitors. So, aesthetic perception based upon national patriotic ideology has a significant impact aimed at perfecting and development abilities of equal access to art in all its forms and creativity.

Нушаба Асадова

Художественные работы выдающегося художника Азима Азимзаде как исторический источник

Резюме

Ключевые слова: *живопись, Азим Азимзаде, "Молла Насреддин", "Жертва нефти", "Мужская свадьба", "Новруз Байрамы"*

В статье отражена роль художественных полотен известного мастера азербайджанской живописи – Азима Азимзаде, работы которого представлены в фондах и экспозициях Национального музея истории Азербайджана и служат одним из источников изучения истории нашей страны.

Благодаря исследованию и популяризации истории и культуры Азербайджана, Национальный музей истории Азербайджана оказывает услуги по формированию и эстетическому воспитанию молодого поколения.

Экспозиция музея помогает оживить и взглянуть на исторические события глазами художника, способствует общему культурному развитию посетителей музея. Эстетическое восприятие на основе национальной патриотической идеологии оказывает большое влияние на совершенствование и развитие способностей для художественного творчества.

Севиль Казиева

Об одном автографе Узеира Гаджибейли

Ключевые слова: *Узеир Гаджибейли, нотные рукописи, дарственная надпись, «Кер-оглы», Исмаил Идаятзаде*

UOT 94 (479,24)

История развития музыкальной культуры Азербайджана начала XX века неразрывно связана с именем основоположника профессиональной азербайджанской музыки, выдающегося общественного деятеля и ученого, композитора Узеира Гаджибейли. В Национальном музее истории Азербайджана хранятся уникальные экспонаты, относящиеся к его жизни и деятельности. Среди них: нотные рукописи произведений Узеира Гаджибейли: партитура «Гимна», посвященная 10-летию установления советской власти в Азербайджане, и «Кантата», посвященная 1000-летию со дня рождения поэта Фирдоуси (5, инв.№ 570/2,3).

В начале 1930-х годов азербайджанскими композиторами создаются первые национальные образцы в области симфонической музыки: сюита «Фрагменты» А.Зейналлы, «Торжественный марш», посвященный 10-летию Азербайджанского рабочего драматического театра, «Гимн» и «Кантата» Уз.Гаджибейли. Большая часть оркестровых произведений отображала образы современности (3,с.38). Исполнение гимна было приурочено к празднованию 10-летия Советского Азербайджана 28 апреля 1930 года. Позже, в 1931 году по инициативе ученика Уз.Гаджибейли, молодого талантливого композитора А.Зейналлы, этот гимн прозвучал в исполнении оркестра филармонии в Ленинграде (ныне Санкт-Петербург) на концерте, посвященном азербайджанской музыке, впервые знакомя слушателей с произведениями композиторов Азербайджана.

К празднованию тысячелетия со дня рождения великого иранского поэта Фирдоуси, широко и торжественно отмечавшегося в Азербайджане в 1934 году,

Уз.Гаджибейли пишет кантату на стихи из поэмы «Шахнаме». Произведение написано для хора с солистами (сопрано и тенор) и народными танцами в сопровождении симфонического оркестра.

Успешное исполнение кантаты на юбилее вызвало большой интерес у зрителей. В частности, своими впечатлениями о концерте поделился иранский писатель Сеид Нафиси в интервью азербайджанскому журналисту. Он подчеркнул, что азербайджанский народ обладает большими музыкальными способностями и талантом. «Произведения Уз.Гаджибейли очень популярны в Иране. Музыкальные отрывки из его опер и оперетт, зная наизусть, с удовольствием напевает молодежь. После посещения Баку, я еще раз убедился, что здесь развитию музыкальной культуры и искусства уделено большое внимание и поэтому дает возможность рождению талантов. Смело могу сказать, что с музыкальной точки зрения Азербайджан – является Италией Востока. Музыка Уз.Гаджибейли, специально написанная к юбилею Фирдоуси, бесценна, несравненна и достойна большого внимания» (2,с.369).

Несмотря на функционирование в Баку мемориального музея великого композитора, в котором сохранились обстановка, интерьер, рабочий кабинет, личные вещи, фотографии, документы и т.д., Национальный музей истории Азербайджана также хранит множество экспонатов, связанных с именем классика азербайджанской профессиональной музыки. Это фотографии, рассказывающие о его учебе в Горийской семинарии, в Москве, документы, раскрывающие творческую, научную и педагогическую деятельность – афиши, программы, книги, либретто опер и музыкальных комедий, нотные издания произведений, а также материалы азербайджанских актеров, педагогов-музыкантов, композиторов, которые являлись учениками маэстро. Одним словом, вся история музыкальной культуры и искусства Азербайджана XX века, сохранившаяся и представленная в НМИА, непосредственно или косвенно связана с великим гением и сыном азербайджанского народа.

Среди этих многочисленных экспонатов особый интерес представляет нотное издание 1937 года сочинения Уз.Гаджибейли – трио «Ашыг саягы» для скрипки, виолончели и фортепиано. Ашыгская музыка, наполненная гармоничным восприятием жизни и природы, всегда привлекала внимание композитора. Поэтическое воспевание родного края является основным содержанием пьесы «Ашыг саягы». Это первое в истории азербайджанской музыки камерно-инструментальное произведение, написанное композитором на основе азербайджанских мугамов, возможно, под впечатлением Первого съезда ашыгов Азербайджана, состоявшегося в 1928 году (5, с.47, 67). Музыка пьесы, созданная в 1931 г., стала основой ряда оригинальных сцен его оперы «Кер-оглы» (3, с.18). Экспонат находится в Фонде подарков и памятных вещей НМИА в коллекции материалов талантливого театрального режиссера и

актера Исмаила Идаятзаде и примечателен тем, что на нотах имеется автограф с дарственной надписью самого автора (6, инв.№ 1972):

«Kor-oğlu operasının müqtədir rejissoru və sovet səhnəsinin qəlbi yaradıcılıq atəşilə dolu olan qızğın xadimi İsmail Hidayətzadə bir yadigar».

Hacıbəyli. 8/XII-1937.

«На память талантливому режиссеру оперы Кор-оглы и пламенному деятелю советской сцены, полному душевного творческого огня, Исмаилу Идаятзаде»

У.Гаджибейли. 8/XII-1937.

Творческая деятельность актера и режиссера И.Идаятзаде началась с 1917 года. В 1919 году он был уже постановщиком и исполнителем главной роли пьесы «Сиявуш» (в переводе Мирзы Рзы Ваиззаде) на сцене Азербайджанского Государственного театра. Афиша и программа этого спектакля хранятся в Фонде документальных источников НМИА (5,инв.№719,720). Будучи одним из ярких характерных актеров азербайджанской сцены, И.Идаятзаде являлся не менее ярким известным режиссером. В 1930-е годы он ставит успешно спектакли как в драматическом, так и в оперном театрах. С 1938 г. он – главный режиссер Театра оперы и балета им. М.Ф.Ахундова. Его оперные постановки «Кер-оглы», «Аршин мал алан», «Хосров и Ширин», «Низами», «Кармен», а также постановка в 1940 году первого азербайджанского балета «Девичья башня» А.Бадалбейли снискали любовь и признание многих зрителей.

Премьера оперы «Кер-оглы» Уз.Гаджибейли состоялась в Баку 30 апреля 1937 года на сцене Азербайджанского Государственного театра оперы и балета им. М.Ф.Ахундова. Дирижировал спектаклем автор, исполнителем роли Кер-оглы был неповторимый, непревзойденный Бюль-Бюль, достигший вершины своего вокально-сценического мастерства в создании образа народного героя. Огромному успеху спектакля сопутствовала и блестящая работа постановщика и режиссера И.Идаятзаде, сумевшего талантливо и правдиво воплотить на сцене оперный шедевр. В музейной коллекции материалов И.Идаятзаде хранятся программы и фотографии, посвященные спектаклю, а также уникальный альбом «Kor oğlu» с изображением на обложке Кер-оглы на коне и тисненой надписью “M.F.Axundov adına Az.SSR Böyük Dövlət Opera və Balet Teatrosu. Bakı, 1937” (Большой Государственный театр оперы и балета им. М.Ф.Ахундова. Баку, 1937) (6, инв.№ 2117). Альбом составлен из аннотированных фотографий спектакля. В него включены фотопортреты Уз.Гаджибейли, И.Идаятзаде, художника Рустама Мустафаева, Бюль-Бюля, исполнительницы партии Нигяр Гюляры Искендеровой, Мамед Багирова, Махбубы Пашаевой, примы-балерины Гамар Алмасзаде и других, а также фотографии, запечатлевшие различные сцены из спектакля.

«Гаджибеков стал счастливым художником, который соединил прошлое,

настоящее и будущее музыкальной культуры своего народа неразрывными узами», - писал о великом композиторе маэстро Ниязи (1, с.40).

Узеир Гаджибейли оставил богатейшее наследие, являющееся ценным вкладом не только в азербайджанскую, но и в мировую музыкальную культуру. По инициативе Ниязи в 1975 году день рождения композитора – 18 сентября – был провозглашен Днем Музыки, а с 1995 года Днем Национальной музыки. С 2009 года в Баку проводятся ежегодные сентябрьские, памяти Уз.Гаджибейли, Международные музыкальные фестивали, на которые съезжаются музыканты из разных стран мира. Об исполнителях II фестиваля 2010 года, посвященного 125-летию со дня рождения композитора, рассказывают две афиши, хранящиеся в фонде документальных источников Музея истории Азербайджана. Одна – об участии на фестивале музыкального ансамбля из Швейцарии «Amaltea», другая – Азербайджанского Государственного камерного оркестра имени Гара Гараева под управлением дирижера Теймура Геокчаева, концерты которых состоялись в Международном Мугам-центре (5, инв.№ 1399,1400).

О признани немеркнущего творчества и таланта Узеира Гаджибейли свидетельствует увековечение памяти композитора в Австрии – на родине величайших представителей европейской классической музыки – Вольфганга Амадея Моцарта и «короля вальса» Иоганна Штрауса.

В 2006 году, впервые в Европе, в Вене был установлен памятник деятелю азербайджанской культуры Узеиру Гаджибейли в знак почтения его огромных заслуг и роли в истории музыкального искусства XX века.

Материалы композитора с любовью и гордостью хранятся в Национальном музее истории Азербайджана, отдавая дань памяти и уважения великому Узеиру Гаджибейли.

Список использованной литературы и источников:

1. Maestro Niyazi. Kataloq. Bakı, “Elm” , 2002.
2. Məmmədli Qulam. Üzeyir Hacıbəyov. 1885-1948 (həyat və yaradıcılığının salnaməsi) Bakı, 1984
3. Üzeyir Hacıbəyli ensiklopediyası. Bakı, 2008.
4. Абасова Э.Г., Касимов К.А. Очерки музыкального искусства Советского Азербайджана. Баку, 1970.
5. Композиторы Азербайджана. Баку, 1986.
6. Фонд Документальных Источников НМИА.
7. Фонд Подарков и Памятных Вещей НМИА.

Sevil Qazıyeva

Üzeyir Hacıbəylinin bir avtoqrafı haqqında
(MATM-nin materialları əsasında)

Xülasə

Açar sözlər: *Üzeyir Hacıbəyli, not yazısı, avtoqraf, xatirə yazısı, "Koroğlu", İsmayıl Hidayətzadə*

Məqalədə Üzeyir Hacıbəylinin öz əli ilə qələmə aldığı "Himno" və "Kantata" əsərlərinin, habelə nəşr edilən "Aşıq sayağı" əsərinin not yazılarından bəhs olunur. Çapdan çıxmış nəşrin üzərində müəllifinin "Koroğlu" operasını uğurla səhnələşdirən rejissor İsmayıl Hidayətzadəyə yazdığı xatirə sözləri var.


Sevil Kaziyeva


On Uzeyir Gadjibeyli's own signature in the collection of National Azerbaijan History Museum


Summary

Keywords: *Uzeir Gajibeyli, dedicatory autographs, hand-written musical notation, "Kerogli", Ismayil Idayatzadeh*

This paper focuses on museum's collection of composer Uzeyir Gadjibeyli which includes the hand-written musical notation of music compositions such as "Hymn", "Cantata", as well as the printed music notation of "Ashugskoe" with author's dedicatory inscription to the stage director Ismayil Idayatzadeh for successfully staging of "Kerogli" opera.






AŞIQ SAJAQlЬ
Violon, violoncell və pianо ycyndyr
АШУГСКОЕ
Для скрипки, виолончели и ф-пиано
Musiqisi Yz. Hacıbəyliniндir
Муз. Уз. Гаджиевского
Moderato assai.
Violino
V--cello
Moderato assai.
Piano

Инара Мурадалиева

О вкладе Мансуровых в азербайджанскую музыкальную культуру XIX-XX вв. (по материалам Национального музея истории Азербайджана)

Ключевые слова: *Мансуровы, мугам, музыкальные меджлисы, тар, ЮНЕСКО*

UOT 94 (479.24)

История музыкального искусства Азербайджана богата традициями различных исполнительских жанров, и, прежде всего, в ней запечатлены имена воистину выдающихся мастеров мугама. Среди них есть те, кто по праву считаются создателями современной культуры мугама и мугамного исполнительского искусства. Мы с гордостью вспоминаем имена выдающихся мастеров XIX века, таких как Саттархан, Хаджи Хюсю, Мешеди Иси, Алескер Ширин, Садыхджан другие, а также имена мастеров начала XX века – Джаббара Гаръягды, Мешеди Джамил Амирова, Сеида Шушинского. Огромную славу заслужили и исполнители инструменталисты мугама – Гурбан Примов, Ахмед Бакиханов и другие.

Коллекции фондов музея истории Азербайджана богаты свидетельствами о жизни и творчестве многих деятелей музыкальной культуры. Среди них можно встретить и представителей т.н. «музыкальных династий» Азербайджана – например, таких как семья Мансуровых. Изучение музейных документов и артефактов о жизни и творчестве Сулеймана, Бахрама и Мирза Мансура Мансуровых дает возможность обогатить наши знания о людях, которые своей работой внесли весомый вклад в развитие музыкальной культуры нашего народа.

В развитии искусства мугама в Азербайджане в XIX – начале XX веков огромную роль сыграли так называемые музыкальные меджлисы, которые, по сути, представляли собой клубы любителей мугама, собирающих как профессионалов-исполнителей, так и любителей и знатоков этого вида национального музыкального жанра. Среди них наибольшей известностью

пользовались меджлисы Шуши и Шемахи. Однако со временем не меньшее значение приобрел и бакинский меджлис, основоположником и руководителем которого считается Мелик-Мамед бек Мансуров (1845-1909). Следует отметить, что первая запись о деятельности этих музыкальных клубов относится к 1863 году (2, с. 35).

Сам Мелик-Мамед бек Мансуров был знатоком мугама, в целом, эрудированным музыковедом и великолепным музыкантом. Не случайно в его доме часто устраивались музыкальные вечера, постоянными участниками которых были известные представители бакинской музыкальной среды Мирза Саттар, Шекили Алескер, Гурбан Примов, Мирза Фарадж, Джаббар Гаръягды оглы, Сеид Шушинский, молодые в то время Узеир Гаджибейли и Муслим Магомаев и многие другие. Во время этих мероприятий не только прослушивалось исполнение мастеров мугама, но и происходили дискуссии, гости и знатоки мугама обсуждали различные вопросы, связанные с этим музыкальным жанром (4, с. 56). Так, поскольку наряду с музыкантами, частыми гостями меджлисов были и поэты, то последние следили за правильным исполнением газелей в мугамах – дестгяхах.

Бакинский меджлис пользовался широкой известностью не только в самом городе и его окрестных селах, но и во всем Азербайджане и даже за его пределами. Достаточно упомянуть, что его нередко посещали музыканты из Шемахи, Карабага, Иревана, Тифлиса, а также Ирана или Иранского Азербайджана. Такие виртуозы, как Гаджи Гуси, Мирза Садых (Садыхджан), Мешади Зейнал, Ала Палаз оглы Молла Рза, Абдул-Баги (Бюльбюльджан) являлись друзьями Мелик-Мамеда Мансурова и постоянными участниками музыкальных вечеров, устраивавшихся в его доме.

Эти меджлисы сыграли большую роль в профессионализации исполнительского искусства мугама в Азербайджане, поскольку они не только способствовали повышению мастерства исполнителей, но одновременно и служили целям пропаганды мугама среди народа. Так, нередко во время этих устраивались своеобразные конкурсы среди певцов – ханэнде, когда несколько из них должны были исполнять один и тот же мугам. Соответственно, слушатели, будь то профессионалы или любители, могли высказать свою порой критическую оценку исполнению того или иного певца, что могло послужить причиной дискуссий, а иногда и ожесточенных споров. В некоторых случаях для их разрешения на следующие вечера могли быть приглашены наиболее известные во всем Азербайджане и Кавказе исполнители мугама. Но именно в этих дискуссиях и спорах зарождались и крепли сегодня ставшие уже общепризнанными нормы и традиции азербайджанского искусства мугама.

Так сын Мелик-Мамед бека Мансурова Сулейман следующим образом описывал свое знакомство с выдающимся азербайджанским таристом

Садыхджаном: «Известного тариста Садыхджана я впервые увидел в Тифлисе. Его манера игры меня просто поразила. Садыхджан был в буквальном смысле слова просто виртуозом. Он держал тар на уровне груди и сильно прижимал к челюсти. Как можно высоко поднимал гриф, чтобы не уставала левая рука. Часто играл только левой рукой. Иногда, войдя в азарт, поднимал тар высоко над головой. Вернувшись в Баку, я рассказал о нем отцу и его это заинтересовало. Садыхджан приезжает в Баку с концертами. Вместе с отцом пошли слушать его исполнение. А играл он превосходно. После концерта отец попросил пригласить его к нам на меджлис. С тех пор Садыхджан стал самым уважаемым и близким человеком нашей семьи…» (3, с. 80).

В развитии музыкальной культуры нашего народа, особенно исполнительного искусства мугама в Азербайджане оставила семья Мансуровых, потомки Мелик-Мамед бека. Так, его сыновья – Сулейман, Мирза Мансур, внуки – Бахрам, Энвер, Надир, а также правнуки – Эльдар и Эльхан Мансуровы, не только усвоили наследие Мелик-Мамеда, но и развили его дальше.

Сулейман бек Мелик-Мамед бек Мансуров родился в Баку 15 октября 1872 году. Начальное образование он получил в медресе, затем продолжил обучение в русско-татарской школе. Кроме родного азербайджанского он владел и некоторыми восточными и европейскими языками. После смерти своего отца – Мелик-Мамед бека, в 1909 году всем состоянием рода стал управлять Сулейман бек Мансуров.

Он был крупным арендатором и предпринимателем, но что важнее – проявил себя как истинный любитель музыки и меценат. Так, при его финансовой поддержке и непосредственном участии в 1907 году в Баку впервые на мусульманском Востоке был создан первый профессиональный оркестр народных инструментов в составе двадцати пяти музыкантов. Первый концерт этого оркестра прошел с большим успехом в Театре Г.З.Тагиева. В дальнейшем коллектив выступал с концертами в театрах и концертных салонах Баку, и эти выступления находили широкий отклик в местной прессе. Сулейман бек также продолжил дело начатое отцом – бакинские мугамные меджлисы.

Сулейман бек был любителем путешествий, объездил многие страны Европы, Востока, различные города тогдашней Российской империи. Особенно часто ему приходилось посещать Францию, Швейцарию и Австрию. Надо сказать, как музыкально одаренный человек и талантливый исполнитель, он чувствовал непреодолимую тягу к музыкальной среде Вены, этой музыкальной колыбели и и одному из культурных центров Старого света. (4, с. 97).

В 1963 году Национальный музей истории Азербайджана приобрел материалы Сулеймана Мансурова у его сына, которые ныне хранятся в разных фондах музея. Прежде всего, это цветной портрет (5, инв. № 1372), черная лакированная шкатулка из «папье-маше» с изображением сцен охоты (6, инв.

№ 5446), катушки струн (7, инв. № 5445), камертон для тара (7, инв. № 5550), пепельница из белого фарфора, изготовленная на фабрике М.С.Кузнецова (8, инв. № 5299). Наибольшую ценность представляет тар Сулеймана Мансурова, изготовленный из тутового дерева и относящийся ко второй половине XIX века. Гриф тара украшен 30-ю ромбовидными белыми перламутровыми пластинами, на таре имеются 22 основных навязных ладка, 11 струн, длина тара 82 см (8, инв. № 5298).

Сулейман бека связывали с Узеиром Гаджибейли добрые отношения. Он знал Узеир бека, когда тот еще был начинающим музыкантом и посещал мугамные меджлисы Мелик-Мамед бека Мансурова. В 1920 годы в Баку открылся первый Азербайджанский музыкальный техникум, там же была создана комиссия по мугаму, в которую входили знатоки мугамов: Мирза Фарадж Амиров, Сулейман и Мирза Мансур Мансуровы, Ширин Ахундов, Гурбан Примов, Джаббар Гарягды оглы и другие. В этой школе часто проводились концерты. Узеир бек хотел видеть среди преподавателей техникума и Сулейман бека, но тот, отклонив предложение, посоветовал взять вместо себя брата − Мирза Мансура.

Мирза Мансур бек был младше своего брата Сулейман бека на 15 лет, Он родился в городе Баку 5 января 1887 года. Образование он также получил сначала в медресе, а затем в русско-татарской школе. С детства он, как и старший брат, был влюблен в музыку, и, став взрослее, научился играть на таре. Первые сыгранные им мугамы были «Раст» и «Шур». Мирза Мансур бек Мансуров по праву считается известным теоретиком азербайджанского мугама. Как профессиональный тарист, он продолжил традиции школы Садыхджана (2, с. 85).

С 1922 года Мирза Мансур по приглашению Узеира Гаджибейли стал преподавать в первой Азербайджанской Государственной Тюркской музыкальной школе (позднее переименованной в техникум). В 1926 году произошло слияние этого учебного заведения с Азербайджанской консерваторией, и с этого года в течение двадцати лет Мирза Мансур вел курсы мугама в Азербайджанской Государственной консерватории. Узеир Гаджибейли высоко ценил талант Мирза Мансура как тариста, преподавателя, тонко разбирающегося в секретах мугама, и часто советовался с ним по многим вопросам. Он использовал его опыт и знания, когда задумал записать мугамы на ноты. И это не случайно, ведь именно братья Мансуровы были одними из тех, кто сохранил традиции классического исполнения мугамов. Преподавая в консерватории, Мирза Мансур составил программу по обучению мугамов, которая используется преподавателями по сегодняшний день (3, с. 134).

В 30-е годы по распоряжению Узеир бека, известный музыкальный деятель Хуршуд ханум Гаджар поручила в то время еще молодым композиторам Тофику Кулиеву и Закиру Багирову записать на ноты мугамы «Раст», «Забул – сегях» и

«Дугях» с игры на таре Мирзы Мансура. Все композиторы того поколения обязаны своим знанием мугамов Мирза Мансуру, который учил их основам этого жанра.

Мирза Мансур был и хорошим мастером. Реконструированный им тар во многом облегчал игру исполнителя. Им были реконструированы всего 4 тара. Первый тар находится в Эрмитаже, второй – в Лувре, третий – в Стамбуле, четвертый был его личным инструментом (2, с. 117).

За большие заслуги в области музыки, Мирза Мансур Мансуров в 1940 годы был удостоен почетного звания «Заслуженный деятель искусств Азербайджана» (2, с. 78).

Еще один достойный продолжатель музыкальных традиций рода Мансуровых, сын Сулейман бека, выдающийся тарист, народный артист Азербайджана Бахрам Мансуров родился 12 февраля 1911 года в Баку. Первое образование он получил в медресе, затем – в русско-татарской школе, а после установления советской власти в Азербайджане поступил в школу № 10.

Будучи студентом педтехникума, с 1929 года Бахрам работал в оркестре объединения «Азконцерт» под руководством Зульфугара Гаджибейли. В составе этого оркестра он выступал во многих городах и районах Азербайджана, а также в других республиках бывшего Советского Союза. По инициативе Узеира Гаджибейли и Муслима Магомаева в 1931 году был создан первый нотный оркестр народных инструментов, где и стал работать Бахрам Мансуров (1, с. 49).

Основная творческая деятельность Бахрама Мансурова связана с Театром оперы и балета. В 1922 году впервые в 10-летнем возрасте, увидев оперу «Лейли и Меджнун» Узеира Гаджибейли, Бахрам был восхищен ею. Звучание тара Гурбана Примова, партии Лейли и Меджнуна в исполнении Соны Гаджиевой и Гусейнгулу Сарабского очаровали юного Бахрама, и в 1932 году по инициативе Муслима Магомаева, который был художественным руководителем и главным дирижером Театра оперы и балета, он был приглашен на должность солиста-аккомпаниатора. В этом Театре оперы и балета и на этой должности Бахрам Мансуров проработал 54 года.

В 1941 году Б.Мансурова пригласили в Бакинский музыкальный техникум преподавать мугам. Это стало началом преподавательской деятельности, которую он не прекращал до конца своей жизни. Применяемые им новые методы обучения мугаму имели под собой фундаментальную основу. Опираясь на советы отца – Сулеймана и дяди – Мирза Мансура, молодой преподаватель создал свой оригинальный метод обучения студентов. Он объяснял ученикам историю происхождения и названия мугамов. Тем самым, у них в памяти создавался образ мугама, как синтеза истории, философии и музыки.

В нескольких фондах Национального музея истории Азербайджана хранятся материалы,имеющие отношение к Бахраму Мансурову. Среди них камертон для тара (7, инв. № 5557), юбилейные марки, приуроченные к 105-летию со

дня рождения (6, инв. № 2354), тар (8, инв. № 6801), изготовленный из тутового дерева и относящийся ко второй половине XX века.

Бахрам Мансуров стал первым азербайджанским музыкантом, в исполнении которого азербайджанские мугамы были представлены в ЮНЕСКО. Начало этому было положено в 1967 году, когда находившиеся в Баку с официальным визитом представители ЮНЕСКО Ален Даниелу и Жак Кларк впервые услышали в его исполнении азербайджанские мугамы.

За достойный вклад в развитие музыкальной культуры Азербайджана, Бахрам Мансуров не раз удостаивался высоких государственных наград. Он был награжден двумя орденами «Знак Почета», многими медалями бывшего СССР. В 1956 году ему было присвоено звание заслуженного, в 1978 году – народного артиста Азербайджана, творческий путь которого был тесно связан со становлением и развитием профессиональной музыкальной культуры нашей страны.

Бахрам Мансуров был крупнейшим мастером традиционного искусства. По мастерству владения таром ему не было равных. Фактически в Азербайджане, кроме него, никто не владел приемом «мизраби – дястикари», т.е игре на грифе левой рукой. Он был единственным исполнителем многих технически сложных приемов после таких корифеев, как Садыгджан, Сулейман и Мирза Мансур Мансуровы (1, с. 126).

В 2016 году сын Бахрама Мансурова Эльдар Мансуров подарил Национальному музею истории Азербайджана миниатюрную книжку «Мансуровы – история рода», которая хранится в фонде подарков и памятных вещей (7, инв. № 5737).

Таким образом, в музыкальной культуре Азербайджана династии Мансуровых принадлежит особое место. Еще в 60-е годы XIX века сын Ага Салах бека – Мелик-Мамед бек стал основоположником мугамных меджлисов в Баку и на Апшероне. После него изучение, пропаганду древних азербайджанских мугамов и технику исполнения продолжили его сыновья – Сулейман бек, заслуженный деятель искусств Мирза Мансур бек, внуки – народный артист республики Бахрам Мансуров, а также братья Бахрама и тоже таристы – Надир и Энвер. Сыновья Бахрама Мансурова – народный артист Азербайджана, композитор Эльдар Мансуров и заслуженный артист Азербайджана тарист Эльхан Мансуров и сегодня достойно продолжают музыкальные традиции своего народа и свой династии.

Список использованной литературы:

1. Mansurov B.S. Xatirələr. Bakı. 2003.
2. Mansurov B.S. Ömür qısa. Bakı, 2003.
3. Mansurov S.M. Xatirələr. Bakı, 2005.

4. Мансуровы. История рода. Баку, 2006.
5. НМИА, Фонд документальных источников.
6. НМИА, Фонд материальных вспомогательных исторических дисциплин.
7. НМИА, Фонд подарков и памятных вещей.
8. НМИА, Фонд этнографии.

İnarə Muradəliyeva
Mənsurovlar ailəsinin XIX-XX-ci əsrin Azərbaycan musiqi mədəniyyətinə töhfəsi haqqında(Azərbaycan Milli Muzeyinin materiallarına əsasən)

Xülasə

Açar sözlər: *Mənsurovlar, muğam, Bakının məclisləri, tar, UNESKO*

Milli Azərbaycan Tarixi Muzeyinin fondlarının kolleksiyaları Azərbaycan musiqi mədəniyyətinin bir çox şəxsiyyətinin həyat və yaradıcılığına dair zəngin materiallara malikdir. Onların arasında Mənsurovlar ailəsi kimi Azərbaycanın "musiqiçi sülalələri"nin nümayəndələri də var. Süleyman, Bəhram və Mirzə Mənsur Mənsurovların həyat və fəaliyyəti haqqında muzey sənədlərinin və bu şəxsiyyətlərin əsərlərinin tədqiqi Azərbaycan musiqi mədəniyyətinin inkişaf prosesini öyrənmək baxımından önəmlidir.

Inara Muradaliyeva
About the contribution of the Mansurovs family into the Azerbaijani musical culture of the 19-20 centuries (Based on the materials of the National Museum of History of Azerbaijan)

Summary

Keywords: *Mansurovs, mugham, Baku Mejlis, tar, UNESKO*

Collections of the Funds of the National Museum of History of Azerbaijan are rich in testimonies about the life and activities of many figures of musical culture of Azerbaijan. Among them one can meet also representatives of the "Musical dynasties" of Azerbaijan – for instance, such as the Mansurovs family. Studying Museum's documents and artifacts about the life and activities of Suleyman, Bahram and Mirza Mansur Mansurovs gives an opportunity to enrich our knowledge about people who, through their work, have made a significant contribution to the development of the musical culture of Azerbaijan.

Rəna Səfərova

Partizan Firuzə Fətəliyeva

Açar sözlər: *Firuzə Fətəliyeva, tibb bacısı, partizan, Böyük Vətən müharibəsi, Acımuşkay daş karxanası*

UOT 94 (479.24)

1975-ci il idi. Azərbaycan Tarixi Muzeyi 1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 30 illiyinə həsr olunmuş sərgi təşkil etməyə hazırlaşırdı. Sərgi üçün Muzey ekspozisiyasının birinci mərtəbəsindəki zalları ayrılmışdı. Bu, böyük bir sahəni əhatə edirdi. Muzey əməkdaşlarının bir qrupu müharibə dövrünə aid yeni materiallar toplamaqla məşğul idi. Belə bir vaxtda Muzeyə təxminən 60 yaşlarında bir qadın gəldi. O, özü ilə içərisinə tibb ləvazimatı qoymaq ücün istifadə etdiyi müharibə dövrünə aid qəhvəyi dəridən futlyar, özünün pasport üçün çəkdirdiyi şəklini, "Ukrayna partizanı" vəsiqəsini və Sabir Gəncəlinin (Məmmədovun) Bakıda, "Gənclik" nəşriyyatında 1970-ci ildə çapdan cıxmış 119 səhifəlik "Üç qız, üç tale" kitabını gətirmişdi (2). Bu qadın Böyük Vətən Müharibəsi illərində Ukraynada partizan hərəkatının iştirakçısı, tibb bacısı Firuzə Fətəliyeva idi. Söhbət əsnasında o, özü haqqında ətraflı məlumat verdi, müharibədə gördüyü dəhşətlərdən, iztirab, işgəncə, fəlakətlərdən, sərt meşə həyatından, döyüşçülərimizin qəhrəmanlığından danışdı. Məqalə Firuzə Fətəliyeva ilə söhbət zamanı edilən qeydlər əsasında bu igid azərbaycanlı qızı tanıtmaq məqsədi daşıyır.

Firuzə 1916-cı ildə İrəvan şəhərində doğulmuşdur. 1918-ci ilin mart qırğınları ─ adamların evlərini qoyub qaçması, anaların fəryadı, atışma səsləri, axıdılan günahsız qanlar Firuzənin uşaqlıq dövrünə təsadüf etmişdi. Firuzəgilin ailəsi İrəvanı tərk etmək məcburiyyətində qalır. Anası və üç yaşlı qardaşı Cabbar yolda vəfat edir. Atası Əhməd kişi doqquz uşaqla Zəngəzura qaçmalı olur. Oradan da tale onları Tiflisə aparır. 1920-ci ildə onlar Gəncəyə köçürlər. Firuzə orta məktəbi bitirib tibb fakültəsinə daxil olur, 1933-cü ildə texnikumu bitirərək Gəncənin mərkəzi xəstəxanasında baş tibb bacısı vəzifəsində işləyir.

1941-ci il iyunun 22-də müharibənin başlaması xəbəri bütün ölkəni düşmənə qarşı ayağa qaldırdı. 25 yaşlı Firuzə könüllü olaraq orduya gedir. O, 747-ci hərbi səhra hospitalında cərrahiyyə baş tibb bacısı təyin edilir. Tale onu Qara dənizin sahillərinə gətirib çıxarır. Firuzə Fətəliyevanın döyüş yolu Krımda başlayıb, Kerç uğrunda gedən döyüşlərdə davam edir.

Faşistlər Krım yarımadasına soxulmuşdular. Hitlerin hərbi strateji planında bu yarımada mühüm yer tuturdu. O zaman almanların buraxdıqları "Krımın səsi" qəzeti yazırdı: "Krım cəbhəsinin əhəmiyyəti misilsizdir. Kim Krımı tutsa, Qara dənizin sahibi olacaq.Yaxın Şərqə yollar buradan keçir. Alman ordusunun Krımda qələbəsi beynəlxalq əhəmiyyət kəsb edir" (6, c.103).

Düşmən sürətli hərbi əməliyyat planı ilə Krıma özünün yaxşı təchiz olunmuş bir neçə diviziyasını çıxartmışdı. Sevastopol mühasirəyə alınmışdı. Kerçdə düşmənin 25 min canlı qüvvəsi toplanmışdı. Krımı faşistlərdən azad etmək üçün sovet əsgəri hissələrinə Kerç-Feodosiya tərəfdən desant çıxartmaq lazım gəldi. 1941-ci ilin bu ilk desant əməliyyatında Zaqafqaziya cəbhəsinin 44-cü və 51-ci ordusu (416-cı atıcı diviziya[1] və 125-ci Qırmızıbayraqlı Melitopol minaatan alayı 51-ci ordunun tərkibinə daxil idi—R.S.), həmçinin Qara dəniz və Azov dənizi donanmaları iştirak edirdi. Anap tərəfdən desant hissələrlə Kerçə qədəm qoyanlar arasında Firuzə Fətəliyeva da vardı.

İki gündən sonra toplar və mərmilər faşistlərin Kerç sahilində möhkəmləndirdikləri mövqeləri dağıtmağa başladı. Beş gün ərzində Kerç yarımadasına bir-birinin ardınca 25 minlik güclü qoşun çıxarıldı. Sovet əsgərləri Krımı faşistlərdən azad etmək üçün igidliklə döyüşə girdilər. Dekabrın 30-da Zaqafqaziya cəbhəsindən dənizlə Feodosiya şəhərinə də desant hissələri gətirildi. Düşmən Feodosiyadan Vladislavka kəndinə qədər qovuldu. Tezliklə Qafqazın igid oğullarından təşkil olunmuş 396-cı atıcı diviziya tərəfindən Vladislavka kəndi də düşməndən təmizləndi. Top, güllə yağışının altında yaralı əsgərlərə nicat vermək üçün tibb işçilərimiz bir an dayanmadan işləyirdilər. Firuzə Fətəliyeva da döyüş meydanına atılıb yaralı əsgərləri xilas edir, yaralarını sarıyır, onlara digər tibbi yardım göstərirdi. Krım cəbhəsində planları pozulmuş faşistlər 1942-ci ilin mayında yenidən qüvvə toplayıb, Kerç yarımadasını hər tərəfdən mühasirəyə aldılar.

Xalq Daxili İşlər Komissarlığının 276-cı atıcı diviziyası, 95-ci sərhəd alayının döyüşçü və komandirləri, 1-ci və 2-ci batalyonlar və cəbhənin hissə və bölmələrinin müxtəlif qoşun növlərinin hərbçiləri, düşmənlə mübarizəni davam etdirmək üçün digər çıxış yolu olmadığından Kerçin 3 km-də, Acimuşkay daş karxanaları deyilən yerdən şimalda mövqe tutmuşdular. Mayın 13-də karxanaların bütün keçidləri döyüşçülərlə dolmuşdu. Mühasirədə olanlar üzərinə düşmənin 46-cı diviziyasının

[1] Mili Azərbaycan Tarixi Muzeyinin Hədiyyələr və Xatirə əşyaları fondunda 416-cı atıcı diviziyada ilk Sovet İttifaqı Qəhrəmanı Ağaşirin Cəfərovun materialları mühafizə olunur. O, 1943-cü ilin oktyabrında Melitopol şəhəri yaxınlığındakı döyüşlərdə sərrast atəşilə düşmənin 300-dən artıq canlı qüvvəsini məhv etmişdi.

iki seçmə piyada alayı, tanklar, minamyotlar, 88-ci sapyor (hərbi-texniki hissə) batalyonu və SS qoşunlarının xüsusi komandası göndərilmişdi (5, c.126).

Alman hərbi hissələrinin havadan və yerdən fasiləsiz hücumuna məruz qalan 13 min döyüşçümüz dar keçidlərlə bir-birinə calanan iki böyük və bir kiçik yeraltı karxanalara çəkilib, düşmənin həmlələrini cəsarətlə dəf edirdilər. Tibb sanitar batalyonunun tərkibində yeraltı karxanalarda yerləşən baş tibb bacısı Firuzə Fətəliyeva da digər tibb işçiləri ilə birlikdə yaralanmış döyüşçülərə lazımı yardım göstərərək Azərbaycan oğullarının həyatını xilas edir, mənfur düşmənin üzərində qələbə qazanılmasına töhfələrini verirdi. Lakin karxanalar uzunmüddətli mühafizə üçün yararlı deyildi. Yemək, dərman, silah və döyüş ləvazimatı tükənirdi. Su quyuları karxanalardan xaricdə olduğundan, hər dəfə su üçün çıxmaq ölümlə nəticələnirdi. Firuzə Fətəliyeva xatırlayırdı: "Hər vedrə su üçün, bir vedrə qan verilirdi. Artıq yemək, su, silah qalmamışdı". Lakin Acimuşkay yeraltı qarnizonunun qəhrəman döyüşçüləri son güllələri qalanadək düşmənə müqavimət göstərməkdə davam edir, heç cür təslim olmurdular. 1942-c i ilin mayında Simferopoldan Berlinə göndərilən gizli xəbərdə deyilirdi: "Kerçin 3 km-də yerləşən Acimuşkay karxanaları bolşeviklər tərəfindən güclü möhkəmləndirilmiş müqavimət nöqtəsinə çevrilmişdir" (4, c.107).

Hitler komandanlığı yeraltı mağaralarda yerləşənləri əsir almaq, müqavimət göstərənləri qəddarcasına məhv etmək əmrini vermişdi. 1942-ci il mayın 20-də məğlubedilməz döyüşçülərlə mübarizə üçün Berlindən Kerçə gizli silah gətirən təyyarələr gəldi. Bu silah faşist almanların kəşf etdikləri zəhərli qaz idi. Qaz böyük balonlarda və xüsusi konstruksiyalı qranatlarda yerləşdirilmişdi. Almanlar karxanalara qaz buraxmağa başladılar. Hər karxananın girişində 10-20 alman karxanalara zəhərli qaz buraxırdı. Acimuşkay qəhrəmanlarından biri, kiçik-leytenant Aleksandr İvanoviç Trofimenkonun gündəliyindən: "Hər kəs ölümün yaxınlaşdığını hiss edirdi, yüzlərlə adam Vətən uğrunda ölürdü. Sağ qalanlar isə yalnız davam gətirmək, daha çox düşmən məhv etmək,qələbə qazanmaq fikri ilə yaşayırdı." (3, c.37). Tibb batalyon komandiri Məmmədəli Babayevin əmrilə tibb sanitar batalyonunun komsomol təşkilatı katibi Firuzə Fətəliyeva döyüşçülərin partiya, komsomol və hərbi biletlərini yığıb, uzunboğaz əsgər çəkməsinin içinə doldurur, karxananın dərinliyində münasib yer tapıb, tibb alətləri ilə çala qazaraq, onları gizlədir (1, s.16-17).

1942-ci il oktyabrın 30-da, 170 günlük mühasirədən sonra almanlar karxanaları tutub, 1300 nəfərdən, sağ qalmış 48 nəfəri əsir götürürlər. Firuzə Fətəliyeva və daha iki azərbaycanlı tibb bacısı—Xədicə Lətifova və Böyükxanım Bağırova da əsirlər içərisində idi. Faşistlər karxanalardan çıxan gücsüz, taqətsiz adamları üç gecə-gündüz işgəncə verə-verə xarabalığa çevrilmiş Vladislavkaya gətirib, yükdaşıyan vaqonlarda qatarla Pyatixatki stansiyasına apararaq, qatara yük vurmaq üçün işlədirlər. Vətənin var-dövləti qutulara, kisələrə doldurulub, Almaniyaya göndərilirdi. Əsirlər digər bir qatarla Almaniyaya aparılacaqdılar. Firuzə və rəfiqələri alman

zabiti geyimində bir azərbaycanlının köməkliyi ilə oradan uzaqlaşdırılıb, gecə ikən kəndli qızlar geyimində Kiyevə gedən ilk qatara minib, Smila şəhərciyində qatardan düşürlər. Onlar zabitin tapşırığı ilə Zəkəriyyə adlı bakılı çörəkçini axtarıb tapırlar. Zəkəriyyə kişi Smilada özünü almanlara sovet almanı (der sovyetdeutsche) kimi qələmə verib pasport şöbəsində işləyən ukraynalı Lida vasitəsilə qızlar üçün pasport düzəldir (1, s.36).

Zəkəriyyə kişinin çörəkxanası və həyat yoldaşı Mariya İvanovnanın bufeti bir növ gizli təşkilatın mərkəzi idi. Bu partizan cütlük qızlara etibar edib, tapşırıqlar verirdi: qızlar faşistlərin danışıqlarına qulaq asır, hərəkətlərinə göz yetirir, bəzən alman zabitlərinin sərxoşluğundan istifadə edib, bir çox sirləri öyrənirdilər. Onların verdiyi məlumatlar sayəsində cəbhəyə gedən alman qatarları, körpülər partladılırdı. Partizan qərargahı qızları "Qafqaz tərlanları" adlandırır və onlara təşəkkürünü göndərirdi (1, s.46).

Çox vaxt Firuzə kəşfiyyata tək getməli olurdu. Firuzənin dediklərindən: Şpolaya gedən yolda faşistlərin kiçik hərbi təyyarə meydanı hər tərəfdən güclü keşikçi dəstəsi ilə qorunurdu. Firuzə orada düşmənin gücünü, təyyarəçilərin sayını, hətta mümkün olarsa, düşmənin planını öyrənmək tapşırığı almışdı. Firuzə əyninə kəndli paltarı geyib kəşfiyyata gedir. Yolda qabağını kəsən alman əsgərlərindən bir sıra hərbi sirləri öyrənə bilir. Təyyarə meydanının yanından keçəndə hitlerçilərin qaynaşdığını, nəyə isə hazırlaşdıqlarını müşahidə edir. Firuzənin gətirdiyi məlumatlar dərhal partizanlara çatdırılır. Səhər Smilaya Dubovoyun[2] partizan dəstəsi tərəfindən həmin təyyarə meydanının məhv edilməsi xəbəri çatır.

Partizan qərargah rəisinin tapşırığı ilə Firuzə Fətəliyeva dilənçi kimi geyinərək Dyabloviç kəndinə gedib, kənd şurası sədrinə "Mən Mariyayam" parolunu deyir və "Axşam Pyotr gəlir" xəbərilə geri qayıdır. Bu, axşam iki partizan dəstəsinin görüşəcəyi və faşistlərin böyük tələfat verəcəkləri demək idi. Çox keçmədən P.A.Dubovoyun və Q.A.Kalaşnikovun partizan dəstələri iki tərəfdən hücum edib, düşmənin Korsundakı qarnizonunu dağıdır, silah anbarını ələ keçirirlər.

Partizanlara dərman, bint, pamıq lazım idi. Firuzə rəfiqəsi Xədicənin bufetinə gələn, rusca danışa bilən, alman xəstəxanasında baş feldşer işlədiyini, kommunist olduğunu söyləyən Hayns adlı alman zabitinin köməkliyi ilə hər cür dərman, çoxlu bint və pambıq əldə edir. Bunlarla onlarca partizanı ölümdən qurtarmaq olardı.Gizli təşkilat Firuzə Fətəliyevanın hünərini qiymətləndirir, ona öz təşəkkürünü bildirir.

Faşistlər gizli təşkilatın yerini bilmək, partizanların başçılarını tutmaq üçün qalaq-qalaq pul təklif edir, şəhərlərdə "oblava"lar təşkil edir, şübhəli görünən adamları həbs edirdilər. Belə "oblava"lardan biri zamanı Firuzə digər adamlarla birlikdə tikanlı məftillə çəpərlənmiş düşərgəyə salınır. Cəsur qız "Öldürsələr də, çarmıxa çəksələr də, bir kəlmə belə deməyəcəyəm" qərarında qəti idi. Rəfiqəsi Xədicə vasitəsilə hadisədən xəbər tutan Hayns unter zabit geyimində düşərgəyə,

2 Pyotr Antonoviç Dubovoy—Böyük Vətən müharibəsi illərində Çigirində ən böyük partizan dəstəsinin komandiri idi.

baş komendantın yanına gedib: "Çox namuslu, Almaniyaya sadiq tatar qadınını tutmusunuz. Onun oglu Qafqaz cəbhəsində qəhrəmancasına vuruşduğu halda, özü tikanlı məftillər arasında göz yaşı tökür. Mən onu yaxşı tanıyıram və zaminə götürürəm"-deyərək Firuzəni azad edir.

1943-cü il idi. Smilanın aylarla əsarət boyunduruğu altında inləyən adamları hər gün sovet qoşunlarının Ukrayna, Belorusiya torpaqlarına qədəm qoyması, Xarkov ətrafında, Qara dəniz sahillərində faşistlərin darmadağın edilməsi kimi yeni xəbərlər eşidirdilər. Faşistlər Avropanı lərzəyə salan təntənələrinin sona çatdığını görüb, vəlvələyə düşmüşdülər. Sovet qoşunları bütün cəbhə boyu onları geri qovurdu, arxada isə meşələrə çəkilmiş xalq intiqamçıları faşistləri əl-qol açmağa qoymurdu. Meşəyə qaçmaq, partizanlara qoşulmaq lazım idi. Legiondan qaçmış bakılı Süleyman Əliyev, şəkili Abid Qarayev, həkim Məmmədəli Babayev, Firuzə və rəfiqələri Zəkəriyyə kişi ilə partizanlar arasında rabitə yaradan Qrişa və Katyanın köməkliyi ilə gecə ikən arabada Dimansı kəndinə gedib, Dubovoyun partizan dəstəsinə qoşulurlar. Səhərə yaxın Şimaldan xeyli adam da qaçıb partizanlara qoşulur. Təzə gələnlər hesabına partizan dəstəsində yeni bölük yaradılır. Firuzə Fətullayeva, Xədicə Lətifova və Böyükxanım Bağırova bölüyün tibb bacıları təyin olunurlar.

Partizanlar Znamenko kimi böyük dəmir yolu qovşağında─ Znamenko-Smila, Znamenko-Kirovoqrad istiqamətində qatarların hərəkətini pozurdular. Onlar təkcə yay, payız aylarında düşmənin yüzə qədər yük qatarını partlatmışdılar. Bu əməliyyatlarda Azərbaycanın igid qızları Firuzə, Xədicə, Böyükxanım da fəal iştirak edirdilər. Onlar gecə kəşfiyyatlarına gedir, saatlarla davam edən döyüşlərdə öz həyatlarını təhlükə altına ataraq yaralı partizanları ölümün pəncəsindən xilas edirdilər. Şaxtalı-qarlı aylarda ağ ipək paraşüt parçalarından qarda seçilməmək üçün partizan döyüşçülərə plaş tikirdilər. Onlar keçilməz İrdin bataqlığının cəngəlliklərində, nəmli, çiskinli meşələrin qoynunda xalq intiqamçılarının sağlamlığı qeydinə qalır, ana, bacı kimi qayğı göstərirdilər.

Sovet ordusu ilə partizanların əlaqəsi get-gedə daha da möhkəmlənirdi. Böyük və geniş Dnepr çayını keçməkdə partizanların qoşunlarimiza köməyi çox oldu. Onlar öz qüvvələrini İrdinin keçilməz bataqlığı və qalın meşə ərazisinə gətirərək, burada düşmənin möhkəmləndirilmiş müdafiə qüvvələrini zərbə altına aldılar. Noyabrın13-də Sovet ordusu düşmənin güclü atəşi altında Dnepri keçərkən, partizanlar faşistlərin üzərinə həmlə edib, onları çaşbaş saldılar. Qoşunlarımız bundan istifadə edib Dnepri müvəffəqiyyətlə keçərək, düşmənin mövqelərini tutdular.

1943-cü ilin dekabrında P.A.Dubovoyun göstərişi ilə partizanlar qoşunlarımızın hücumunu daha da sürətləndirmək üçün Çiqirinə həmlə edib, düşmən qarnizonunu məhv etməli, silah və ərzaq anbarlarını ələ keçirməli idilər. Axşam saat 10-da partizanlar rota komandirinin əmrilə hər tərəfdən qəfildən düşmən qarnizonuna hücum edib, gözətçiləri susdurub, faşistlərin yatdıqları binaların qapı-pəncərələri ağzına minalar düzürlər. Minalar partlayıb binaların külünü göyə sovurur. Onlarca

hitlerçinin meyiti yerə sərilir. Partizanların altı nəfəri yaralanır. Firuzə və rəfiqələri onların yaralarını sarıyıb, tibbi yardım göstərir və həmin yerdən uzaqlaşdırırlar.

Çiqirin partizanların son ən böyük əməliyyat meydanı idi. Əməliyyat uğurla başa çatdı. Düşmən qarnizonu məhv edildi. Partizanlar vaxt itirmədən anbarları açıb, xeyli sursat götürüb, meşəyə çəkildilər. P.A.Dubovoy cərgə qarşısında igidlərə təşəkkür yazılmış əmri oxudu. Siyahıda igid partizanlar Abid Qarayev, Süleyman Əliyevlə birgə baş tibb bacısı Firuzə Fətəliyeva, tibb bacıları Xədicə Lətifova və Böyükxanım Bağırova da vardı.

1943-cü il dekabrın 31-də səhərə yaxın faşistlər ağacları qıra-qıra partizanların yüksək təpə üstündə yerləşən düşərgəsi Xalodnıyarı mühasirəyə aldılar. P.A.Dubovoyun tapşırığı ilə partizanlar kolları, torpaq qazmaları özlərinə sipər edib, pulemyotlardan, avtomatlardan atəş açaraq, onlarca hitlerçini məhv etdilər. Bu döyüşdə də tibb bacıları Firuzə Fətəliyeva və onun rəfiqələri şəfalı əlləri ilə onlarca yaralı partizanı ölümdən qurtardılar. Onlar dizə qədər qara girərək, böyük məharətlə gülləbaran içərisindən yaralı yoldaşlarını çəkib çıxarır, tibbi yardım edib, meşənin daha etibarlı yerinə aparırdılar. Həmin döyüşdə çoxlu hitlerçi əsir alınır. Onlar dindirilərkən almanların 6-cı ordusunun 30 diviziya, 8 tank briqadası və başqa hərbi qüvvələrlə Dneprin sağ sahilində geniş döyüş əməliyyatına hazırlaşdığı, bu məqsədlə əvvəlcə Kirovoqrad vilayətindəki partizan dəstələrini məhv etmək, arxanı möhkəmləndirib, sonra hücuma keçmək istədikləri məlum olur (1, s.105).

Sovet qoşunları Kiyev-Jitomir tərəfdə və cənubda xeyli irəliləmişdi. Arada qalan Kirovoqrad-Smila zonasında möhkəmlənmiş alman ordusu tezliklə mühasirəyə alınacaqdı. Bu zaman həmin ərazidə yerləşən partizan düşərgələri döyüş meydanına çevriləcək, atəş altında qalacaqdı. Qərargahda komandirlərin yığıncağı keçirilir və radio rabitəçilərinə tapşırılır ki, baş partizan qərargahı ilə əlaqə saxlayıb, "partizanlar səhərədək meşəni tərk edib, sovet qoşunları ilə birləşsinlər" xəbərini çatdırsınlar.

Partizanlar komandirlərin tapşırığı ilə əl baltalarını işə salıb 35 iri kirşə hazırladılar, bütün ərzaq və ağır silahları ora yüklədilər. Firuzə və digər tibb bacıları yaralıları ayrıca kirşələrə yerləşdirdilər. Duyuq düşmüş faşistlərin atəşləri altında partizan ordusu hərəkətə gəldi. Baş tibb bacısı Firuzə Fətəliyeva və bir neçə döyüşçü yaralandı. Dörd yüz nəfərdən artıq partizan Sovet ordusunun 5-ci sovet qvardiya hissələrinin cərgəsinə qoşuldu. Smila şəhərinin azadlığı uğrunda qanlı döyüş başlandı. Məmmədəli Babayev, Süleyman Əliyev və başqa igidlər qəhrəmancasına həlak oldular. Qələbə böyük qurbanlar hesabına əldə edildi. Düşmən darmadağın olundu. Cəbhədə qoşunlarımız bir-birinn ardınca qələbələr qazanır, şəhərlər, kəndlər azad edirdilər. Krasnaya Sloboda kəndində isə yaralı partizanlar və qadınlar evə qayıtmaq üçün müalicə olunurdular.

Firuzə evə qayıdanda (yanvar, 1944-cü il) atasının bir il əvvəl vəfat etdiyini, qardaşı Fazilin Mozdokda döyüşdə həlak olduğunu, kiçik qardaşı Nurəddinin 1941-ci ilin sentyabrında Dnepropetrovski ətrafında düşmənlə igidcəsinə vuruşub, sovet

əsgərləri geri çəkiləndə xüsusi şöbənin tapşırığı ilə Petrikovka rayonunda qalıb, gizli iş apardığını (iki ildən artıq radiorabitə vasitəsilə öyrəndiyi məlumatları sovet hissələrinə verib, partizanlarla əlaqə saxlayırdı─R.S.), 1943-cü ilin oktyabrında eseslər tərəfindən tutulub, doqquz nəfər yoldaşı ilə birlikdə güllələndiyini öyrənir. Müharibədən sonra Firuzə Fətəliyeva öz xeyirxah peşəsini davam etdirir. Bakıda Uroloji xəstəxanada ömrünün sonuna kimi (1985-ci il) baş tibb bacısı vəzifəsində calışır.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

Gəncəli S. Üç qız, üç tale. Bakı, 1973.

Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) Hədiyyələr və Xatirə Əşyaları fondu (HXƏF): 4392.

Гритченко А, Меерович Е. Слушайте голос героев войны. Баку, 1973.

Кондратьев В.И. Герои Аджимушкая. Рассказы о мужестве подземного гарнизона. М., 1975.

Кондратьев В.И. Предсмертные письма советских борцов с немецко-фашистскими захватчиками 1941-1945. М., 1979.

Смирнов.С.С. Подземная крепость. М., 1965.

Rena Safarova
Partizan Firuza Fataliyeva

Summary

Keywords: *Firuza Fataliyeva, nurse, partisan, Great Patriotic War, Adzhimushkay quarries*

The article deals with to the participant of the partisan movement in Ukraine Firuza Fatalieva during the Great Patriotic War. She fought on the Crimean front. Following the seizure of Kerch by hitlerites in may 1942, as part of a medical battalion with wounded fighters for 170 days she went into hiding in Adzhimushkay quarries, providing medical assistance to the wounded. Then joined the underground fighters in the Ukrainian city of Smila, joined the partisan force of the Dubovoy and fought in Smila, Shpola, Chigirin and others. She returned to Azerbaijan in January, 1944

Рена Сафарова
Партизанка Фируза Фаталиева
Резюме

Ключевые слова: *Фируза Фаталиева, медсестра, партизанка, Великая Отечественная война, Аджимушкайские каменоломни*.

Статья посвящена участнице партизанского движения на Украине в годы Великой Отечественной войны Фирузе Фаталиевой. Она сражалась на Крымском фронте. После захвата гитлеровцами Керчи в мае 1942 года, в составе санитарного батальона с ранеными бойцами в течение 170 дней скрывалась в Аджимушкайских каменоломниях, оказывала медицинскую помощь раненым. Затем присоединилась к подпольщикам в украинском городке Смила, вступила в партизанский отряд Дубового и сражалась в Смиле, Шполе, Чигирине и др. Вернулась в Азербайджан в январе 1944 года.

Günel Alıyeva

Akademik Yusif Məmmədəliyevin İkinci Dünya müharibəsi illərindəki fəaliyyətinə dair (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Açar sözlər: *İkinci Dünya müharibəsi, Yusif Məmmədəliyev, yüksək oktanlı benzin, Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyaları*

UOT 94 (479.24)

Azərbaycanın tarixçiləri, tədqiqatçıları kimyaçı alim, akademik Yusif Məmmədəliyevin həyatını yetərincə tədqiq etmiş və ictimaiyyətə çatdırmağa çalışmışlar. Lakin bu tədqiqatların mənbələr, sənədlər üzərindən işlənilməsi az olduğundan Muzey materialları əsasında məqalənin yazılmasına ehtiyac vardır.

Yusif Məmmədəliyevin Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən kolleksiyası onun həyat və fəaliyyətini sənədlər və eksponatlar üzərindən əks etdirir və eləcə də İkinci Dünya müharibəsində azərbaycanlı alimin xidmətlərini əyani şəkildə sübut edir. Muzeydə Y.Məmmədəliyevə aid 30 ədəd sənədlərdən, 7 ədəd orden və medallardan, xatirə əşyalarından, ümumilikdə 63 ədəd materiallardan ibarət kolleksiyanın xronoloji dövrü 1943-1961-ci illəri əhatə edir. Məmmədəliyevin müharibə illərindəki böyük xidmətlərinə görə təltif edilmiş "Lenin" ordeni (10), həmçinin "Stalin mükafatı laureatı" medalı (12) Muzeyin Köməkçi materiallar fondunda mühafizə edilir. Onun müharibə illərindəki fəaliyyətini yalnız Köməkçi Tarixi Fənn materialları fondundakı orden medallarla deyil, həmçinin Hədiyyələr və xatirə əşyaları fonduna mühafizə edilən 1963-cü ildə ailəsi tərəfindən Muzeyə hədiyyə edilmiş sənədlər, fotoşəkillər, məktublar, müəlliflik şəhadətnaməsi, əlyazmalar və digər eksponatlarla daha dərindən tədqiq etmək mümkündür.

1941-ci ildə Dövlət Müdafiə Komitəsi Y.H.Məmmədəliyevin neft qazlarının tətbiqi və kimyəvi emalı sahəsindəki dəyərli işlərini sınaqdan keçirdikdən sonra Bakıda izopropilbenzol istehsal edən xüsusi zavod tikilməsi haqqında qərar qəbul etdi. Bu zavod qısa zamanda tikildi və Sovetlər İttifaqı yüksəkoktanlı benzin komponenti almaq üçün imkan əldə etdi (3, səh.12). Bu işinə görə Y.Məmmədəliyevə SSRİ

Xalq Komissarları Sovetinin 20 yanvar 1946-cı il 213 nömrəli qərarı ilə verilmiş III dərəcəli Stalin mükafatı və Stalin mükafatı laureatı vəsiqəsi (Vəsiqə №1391) Hədiyyələr və Xatirə əşyaları fondunun dəyərli materialları sırasına daxildir (11).

Müharibə ərəfəsində SSRİ-də yeni növ hərbi aviasiya texnikası— istifadəsi üçün yüksək oktanlı benzin tələb edən qırıcı YAK-1, MiQ-3, LAQQ-3, hücumçu İL-2 və d. təyyarələr istehsal edilmişdi (20, c.130). Müharibənin ən gərgin dövründə düşmən üzərində üstünlüyə sahib olmaq üçün qeyd edilən yeni nəsil təyyarələrin yüksək oktanlı benzinlə təmin edilməsi əsas prioritet məsələ idi. Lakin, 1941-ci ilin əvvəllərində Sovet dövlətində B-78 aviasiya yanacağı ehtiyatının tələbatının yalnız 4 faizi təmin olunurdu (13, c. 46).

Y.Məmmədəliyevin elmi fəaliyyətinin yüksəlişi məhz İkinci Dünya müharibəsi illərinə─ sovet ordularının alman qüvvələrinə ard-arda məğlub olduğu dövrə düşür. Almanlar ölkənin içərilərinə irəliləyərək Leninqradı mühasirəyə almış, Moskvaya gəlib çıxmışdılar. Qeyd etdiyimiz kimi, ölkədə toluolun qıtlığı çox kritik həddə idi, xaricdən idxal olunsa da ("Lend-Liz") müharibə üçün tələbatın cüzi hissəsini təmin edirdi. 15 sentyabr 1941-ci ildə göndərilmiş "Azərb.SSR-nin zavodlarında aviasiya benzininin emalı barədə" Neft Sənayesi Xalq Komissarlığının məruzəsindən (2) görürük ki, təkcə müharibənin başlanmasının 2 ayı ərzində Azərbaycanda aviobenzin istehsalında 38.5 faiz, aviayağ istehsalında isə 10.5 faiz artım olmuşdur. Lakin bu göstəricilər müharibə üçün qanedici deyildi. Y.Məmmədəliyev isə tədqiqat obyektini məhz dövrün ən aktual probleminə yönləndirərək adını tarixə yazmış olur.

SSRİ Dövlət Müdafiə Komitəsi 1942-ci ilin 24 martında aviasiya benzini və aviasiya yağı istehsalını yüksəltmək üçün xüsusi qərar qəbul etdi (21). Bu dövlət əhəmiyyətli problemin aradan qaldırılması üçün 1942-ci ilin 3-8 mayında Sverdlovskda (Rusiya, indiki Yekaterinburq şəh.) bu məsələ ilə bağlı keçirilən SSRİ Elmlər Akademiyasının ümumi yığıncağında alimlərin elmi fəaliyyətlərinin gələcək istiqamələri müzakirə olundu. Bu əhəmiyyətli məsələlərin həlli ilə Serqey Semyonoviç Nemetkin, Aleksandr Nikolayeviç Nesmeyanov, Nikolay Nikolayeviç Semyonov, Aleksandr Dmitriyeviç Petrov və digər tanınmış kimyaçı alimlər məşğul olmalı idilər (14, c.137). Lakin, bu mürəkkəb və həlledici problemin aradan qaldırılmasına Azərbaycanın görkəmli kimyaçı alimi Yusif Məmmədəliyev müvəffəq oldu (şəkil 1). Əminliklə demək olar ki, onun hərbi sənayedə çevriliş edən kəşfi almanlar üzərində qələbə çalınmasında və dünyanın bu böyük fəlakətdən qurtuluşunda ən mühüm amillərdən biri oldu.

1942-ci ildə Y. Məmmədəliyev "Aromatik birləşmələrin alkilləşmə və dealkilləşməsi ilə toluolun sintezi" (17) adlı doktorluq dissertasiyasını müdafiə etdi. Bu dissertasiya ilə gənc alim dünya kimya elmində tədqiq olunmamış yeni bir üsul təklif etdi və metilxloridlə benzolun qarşılıqlı təsirindən toluolunun alınmasına nail oldu. Bu metodla Y.Məmmədəliyev 2 dəfə çox toluolun əldə edilmə yolunu irəli sürmüş oldu. Müharibə dövründə belə bir göstəricili kəşf qeyri-real görsənirdi. Bu kəşf

Böyük Vətən müharibəsində SSRİ-nin qələbə çalmasını təmin edən başlıca amillərdən biri oldu. Bu texnologiyanın tətbiqi aviasiya üçün aviabenzin istehsalını 30% artırmaq imkanı verdi. Belə ki, xaricdən aviabenzinin əlavə idxalı birdəfəlik olaraq sovet istehsalatı ilə (4 mln. 900 min ton) əvəz olundu (16, c. 286, 322.). Bu kəşf 1943-cü ilin qışından İkinci Dünya müharibəsinin sonunadək sovet qırıcı təyyarələrinin hava hücumlarında hakimlik etməyə səbəb olan amillərdən başlıcası oldu.

1943-cü ildə SSRİ Ali Attestasiya komissiyası tərəfindən bu mühüm elmi əhəmiyyətli kəşfə görə Y.Məmmədəliyevə verilən kimya elmləri doktoru alimlik dərəcəsi (6) və professor elmi adı (4) vəsiqələri Milli Azərbayan Tarixi Muzeyinin Hədiyyələr və xatirə əşyaları fondunda mühafizə edilir.

Yüksək oktanlı benzinin müharibə üçün nə qədər vacib olması haqqında amerikalı iqtisadçı D.Yerqin yazmışdı: "Yəqin ki, bu günə qədər ittifaqın yanacaq təminatı sistemində texniki baxımdan ən çətin tapşırığı 100 oktanlı aviasiya benzininin istehsalı idi. Bu benzin ilə təyyarənin texniki xüsusiyyətlərinin yaxşılaşdırılması, daha yüksək sürət, yüksək enerji, havaya qalxma zamanının azaldılması, uçuş məsafəsinin genişləndirilməsi, çeviklikliyin artırılması əldə edilir. Ancaq müharibə illəri ərəfəsində bu çox bahalı yanacaq növü üçün hər hansı bir satış bazarı yox. Müharibə başlandıqdan sonra məlum oldu ki belə bir bazar var və bu çox əhəmiyyətlidir. Yüksək oktanlı benzinin üstünlüyü 1940-cı ildə Britaniya uğrunda döyüşlərdə, "Spitfire"-lar 87 markalı benzinlə təchiz olunmuş "Messerşmidt"lərdən daha yaxşı nəticələr göstərərkən təsdiqləndi"(15, c. 568).

Müharibə sona çatanadək dissertasiya mətni məlum səbəblərə görə məxfi saxlanıldı. 1941-1944-cü illər ərzində Bakı zavodlarında 1 mln. tondan artıq B-78 aviabenzini istehsal edildi (18, c. 53). 1945-ilə qədər döyüş təyyarələrinin aviasiya yanacağı sərfiyyatının 84 faizini B-100 və B-78 təşkil etdi (qeyd etmək lazımdır ki, yanacaq markaları adlarında nömrələr oktan sayına, hərflər isə şəhərə görə adlandırılırdı: "B" - Bakı, "Q" - Qroznu və s.) (19, c.46).

Y.Məmmədəliyev mühəndis-texnoloq R.H.İsmayılovla birlikdə bu işə görə müəlliflik şəhadətnaməsi almaq üçün Ümumittifaq patent ekspertizası institutuna material göndərdilər. Qayda üzrə göndərilən tədqiqat işinə verilən rəydə akademik A.Balandin yazmışdı: "Müəlliflər ilk dəfə olaraq alkilbenzolların sintezi və tətbiqi prosesini işləyib hazırlamışlar. Müəlliflərin metodu istər ideyasının orijinallığına, istərsə də prosesin əsas göstəricilərinə görə dünya neft emalı sənayesində yenilikdir və sovet elmi-texniki zəkasının böyük nailiyyəti kimi qiymətləndirilməlidir" (1, s.22-23).

İkinci Dünya müharibəsi illərində Yusif Məmmədəliyevin elmi sahəyə gətirdiyi yeniliklər dünya elmində olduqca əhəmiyyətlidir. Müharibə illərində çoxlu sayda partladıcı maddələr tələb olunurdu. Onun ərsəyə gətirdiyi yeni növ partladıcı maddə tankların zərərsizləşdirilməsində mühüm rol oynamışdı. Akademik Y.H.Məmmədəliyev partlayıcı maddə olan üçnitrotoluolu (trotili) - tank əleyhinə

şüşələrə doldurulmuş yandırıcı qarışıq növünü işləyib hazırlamış və hərbi sənayeyə tətbiq etmişdi. Trotilin istehsalının çox qısa bir müddətə təşkil olunması, Böyük Vətən müharibəsi illərində sovetlər ölkəsinin qələbəsini təmin edən misilsiz töhfələrdən biri olmuşdur (3, s.12).

Faşist Almaniyası üzərində SSRİ-nin qələbəsini təmin edən amillər haqqında müharibədən sonrakı illərdə də belə danışılırdı: "Müharibəni Mikulinin motorları, Yakovlevin təyyarələri, Məmmədəliyevin benzini hesabına udmaq mümkün oldu". Y.Məmmədəliyevin müharibə illərində elm sahəsindəki görkəmli fəaliyyəti qiymətləndirilərək 18 sentyabr 1944-cü ildə «Qafqazın müdafiəsinə görə» medalı ilə (9), 1944-cü ildə Lenin ordeni ilə (10) (şəkil 2) SSRİ Xalq Komissarları Sovetinin 20 yanvar 1946-cı il 213 nömrəli qərarı ilə III dərəcəli Stalin mükafatı və Stalin mükafatı laureatı adı ilə (11), 2 fevral 1946-cı ildə «1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə» medalı ilə (7) təltif olunmuşdur.

Bu materiallar sırasına daxil olan 2 fevral 1946-cı ildə «1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə» Д 0199875 №-li medalı və onun vəsiqəsi dövrün tədqiqi baxımından əhəmiyyətli mənbə hesab olunur (7) (şəkil 3).

Müharibənin qurtarması ərəfəsində SSRİ Elmlər Akademiyasının prezidenti akademik V.L.Komarovun Bakıya gəlişi ilə İsmayıllıyə binasında Azərbaycan tarixində ilk Elmlər Akademiyasının yığıncağı keçirildi. 1945-ci ilin mart ayında Azərbaycan Elmlər Akademiyası yaradıldı və onun ilk 15 həqiqi üzvlərindən biri görkəmli kimyaçı alim Yusif Məmmədəliyev oldu (8).

Y.Məmmədəliyevin sənədləri, fotoşəkilləri və digər materialları içərisində müəllimi N.D.Zelinskiyə həsr etdiyi monoqrafiyası (12) və bu monoqrafiyaya görə N.D.Zelinskinin Y.Məmmədəliyevə xüsusi minnətdarlığını bildirən məktubunun surəti kolleksiyanın maraq doğuran eksponatlarından biridir (5). Onun və həmçinin Azərbaycan kimyaçılarının fəaliyyəti, xüsusilə də aromatik karbohidrogenlərin alkilləşdirilməsi sahəsində aktiv rolu müəllimi, dünya şöhrətli alim akademik N.D.Zelinskinin 90 illik yubiley təntənələri zamanı məxsusi qeyd olunmuşdu. Dövrünün məşhur alim və pedaqoqları B.A.Kazanski, A.N.Nesmeyanov və A.F.Plate yubilyarın neft kimyası sahəsində xidmətlərindən bəhs edən məqalədə yazırdılar: "Nikolay Dmitriyeviç və onun məktəbinə aid alimlər tərəfindən kəşf edilən və işlənib hazırlanan karbohidrogenlərin katalitik çevrilməsini nəzərdən keçirməyi yekunladırarkən biz həmçinin olduqca vacib bir reaksiyanın üzərində dayanmalıyıq... Biz alkilləşdirmə reaksiyasını nəzərdə tuturuq... Benzolun etilbenzol, izopropilbenzolun əmələ gəlməsi ilə alkilləşdirilməsi prosesinin işlənib hazırlanmasının bir hissəsi Y.H.Məmmədəliyevə məxsusdur. Böyük eksperimental işin nəticəsində ona bu reaksiyanın elə rahat şəraitdə aparılmasını işləyib hazırlamaq müəssər olub ki, artıq benzolun ali homoloqlarını əldə etmək olduqca asandır..." (22, s.42).

Y.Məmmədəliyevin Milli Azərbaycan Tarixi Muzeyindəki kolleksiyası 2015-ci il 15 may-15 oktyabr tarixlərində Milli Azərbaycan Tarixi Muzeyində keçirilmiş

"Azərbaycan II Dünya müharibəsi illərində" sərgisində nümayiş etdirilmiş və ziyarətçilərin böyük marağına səbəb olmuşdur. Bu kolleksiya Y.Məmmədəliyevin timsalında Azərbaycan xalqının müharibə üçün misilsiz xidmətlərini sübut edir.

İstifadə edilmiş mənbə və ədəbiyyatların siyahısı:

1. Akademik Yusif Məmmədəliyev. Bakı: «Azərbaycan Ensiklopediyası» NPB, 1996. 196 s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsi. Siyasi Sənədlər Arxivi. Xüsusi qiymətli sənədlər siyahısı: s. 26,saxl. v.248.
3. Həsənov H. Dünya şöhrətli alim/Xalq qəzeti,31 dekabr 2015.
4. Milli Azərbaycan Tarixi Muzeyi. HXƏF 1492 (a). Attestat.№ 001798. Ali Attestasiya komissiyasının 31 iyul 1943-cü il tarixli qərarı ilə Y.Məmmədəliyevə «Orqanik kimya kafedrasının professoru» elmi adının verilməsi haqqındadır. Moskva, 6 mart 1946-cı il.
5. MATM HXƏF № 1508 (a). Akademik N.D.Zelinskinin Y.Məmmədəliyevə məktubu. 26.II.1951.
6. MATM. HXƏF № 1492b. Diplom XM № 000177. Y.Məmmədəliyevə «Kimya elmləri doktoru» alimlik dərəcisinin verilməsi barədədir. Moskva, 6 mart 1946-cı il.
7. MATM Köməkçi Tarixi Fənn Materialları Fondu № 124. "Böyük Vətən müharibəsində fədakar əməyinə görə" medalı № 0199875.
8. MATM. Sənədli Mənbələr Fondu: № 363/6
9. MATM. KTFMF № 123. Yusif Məmmədəliyev. "Qafqazın müdafiəsinə görə" medalı № 000143
10. MATM. KTFMF № 143. Yusif Məmmədəliyev. Lenin ordeni № 14565.
11. MATM. HXƏF № 1478. Vəsiqə №1391. Y.Məmmədəliyev. III dərəcəli Stalin mükafatı və Stalin mükafatı laureatı. 21 oktyabr 1946-cı il.
12. MATM. HXƏF № 1508. Y.Məmmədəliyev.Akademik Nikolay Dmitriyeviç Zelinskiy. Bakı, 1951-ci il.
13. Военная академия тыла и транспорта. Тыл Советской Армии в Великой Отечественной войне 1941—1945 гг. Ч. 1. Л., 1963.
14. Говорят сталинские наркомы. Смоленск: Русич, 2005 г. 632 с.
15. Ергин Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть. М., «Альпина Паблишер», 2012. 944 с.
16. Лисичкин С.М. Очерки развития нефтедобывающей промышленности СССР. М., Издательство Академии наук *СССР*, 1958. 428 с.
17. Мамедалиев,Ю.Г.Синтезтолуолаалкилированиемидеалкилированием

ароматических углеводородов. Дис. док. хим. наук. Баку, 1942 г. 178 с.
18. Нефть СССР (1917-1987 гг.). М., 1987. 384 с.
19. Никитин В.В. Горючее-фронту 1941-1945,М., Воениздат 1984. 205 с.
20. Поспелов П.Н. и др. Великая Отечественная война Советского Союза. Краткая история. М., Воениздат, 1970. 631 с.
21. Постановлении ГКО в 1942 г : http://www.soldat.ru/doc/gko/gko1942.html.
22. Химические успехи, М., 1951, том 20, выпуск 1.

Gunel Aliyeva

The eminent chemist, scientist Yusif Mammadaliyevs activity During the Second World War

Summary

Key words: *Second World War, Yusif Mammadaliyev, aviation, high-octane benzine, collections of National Museum of Azerbaijan History*

In the article have explored scientific achievements of an outstanding azerbaijani scientist, doctor of chemical sciences, academician Y.H.Mammadaliyev during the Second World War on the exhibits of the National Museum of Azerbaijan History. Under the command of Yusif Mammadaliyev invented the method of obtaining high octane aviation fuel, which had great importance for aviation and contributed to an early victory over the enemy. The materials which storing in the National Museum of Azerbaijan History are proves and allows to study more deeply all achievements of Y.Mammadaliyev

Гюнель Алыева

Деятельность выдающегося химика*, учёного *Юсифа Мамедалиевой во время Второй Мировой Войны

Резюме

Ключевые слова: *Вторая Мировая война, Юсиф Мамедалиев, авиация, высокооктановый бензин, kоллекции Национального Музея Истории Азербайджана*

В статье исследуются научные достижения выдающегося азербайджанского учёного, доктора химических наук, академика Ю.Г.Мамедалиева в период II Мировой войны по экспонатам Национального Музея Истории Азербайджана.

Под руководством Юсифа Мамедалиева был разработан способ получения высокооктанового авиационного топлива, имевшего огромное значение для авиации и способствовавшего скорейшей победе над врагом. Затем он вместе со своими сотрудниками разработал зажигательную смесь для борьбы с танками. Все эти достижении Ю.Мамедалиева доказывают и позволяет более глубоко исследовать материалы которые хранятся в Музее Истории Азербайджана.

İlyas Babayev, Kay Kaniyut, Laçın Mustafayev, Martin Qruber

2016-ci ildə Şəmkir-Qaracəmirli Beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən MATM-ın Arxeologiya fonduna təhvil verilən arxeoloji tapıntılar

Açar sözlər: *Arxeologiya fondu, küpə, cam, 5-ci təpə, son tunc-erkən dəmir dövrü, oynoxoyya*

UOT 902

1 avqust – 15 sentyabr 2016-cı ildə Şəmkir-Qaracəmirli Beynəlxalq arxeoloji ekspedisiyası iki sahədə qazıntılar aparmışdır. Qurbantəpə və 5-ci təpə adlandırılan yeni sahədə. Arxeoloji tədqiqatlar Azərbaycan və Almaniya arxeoloji qrupu ilə birgə həyata keçirilmişdir. Qazıntılar AMEA-nın müxbir üzvü, t.ü.e.d., prof. İlyas Babayevin rəhbərliyi altında aparılmışdır. Almaniya qrupu isə doktor Kay Kaniyutun rəhbərliyi ilə tədqiqatlara qoşulmuşdur. Məlumat üçün əlavə edək ki, Kay Kaniyutun dəstəsi 2013-cü ildə də arxeoloji tədqiqatlarda iştirak etmişdir (2, səh. 399-403). Lakin bu tədqiqatlar əsasən kəşfiyyat xarakterli olduğundan, geniş qazıntılara 2016-cı ildən başlanılmışdır. 2016-cı ilin qazıntı mövsümü üçün nəzərdə tutulan sahə 5-ci təpə olsa da, Azərbaycandan olan arxeoloqlar Qurbantəpədə yerləşən saray qalıqlarının tədqiqatlarını da davam etdirmişlər. Məlum olduğu kimi Qurbantəpədə aşkar edilən tikili qalıqları Əhəmənilər imperiyasının (e.ə. 550-330) idarəçiliyi ilə əlaqədar Cənubi Qafqazda yaranan indiyə kimi məlum olan ən böyük inzibati mərkəzin qalıqlarıdır (5, səh. 110-121). Şəmkir-Qaracəmirli ekspedisiyası Qurbantəpə də daxil olmaqla İdealtəpə, Rizvantəpə, İlyastəpə, Şimal kompleksi və s. kimi Əhəmənilər dövrünə aid ayrı-ayrı abidələrdə arxeoloji qazıntılar aparmışdır. O cümlədən bu abidələr sırasına 2016-cı ildə 5-ci təpə də əlavə edilmişdir. Abidələr arasındakı məsafənin bir qədər aralı olmasına baxmayaraq, hər iki sahədəki arxeoloji qazıntılar ekspedisiya rəhbəri İ. Babayevin nəzarəti və ümumi qazıntı planı əsasında həyata keçirilmişdir. Qazıntı aparılan ərazilərdən olduqca maraqlı və mühüm elmi əhəmiyyət kəsb edən yeni faktlar əldə edilmişdir. Bu heç də təsadüfi xarakter daşımır. Şəmkirin Qaracəmirli abidələrində arxeoloji qazıntılar zamanı mütamadi olaraq yeni tapıntılar əldə olunur. Bu faktlar abidənin nə qədər zəngin

olub, böyük tarixi, arxeoloji informasiya yükünə malik olduğunu göstərir. 5-ci təpə abidəsinin tapıntıları Əhəmənilər imperiyasının idarəçiliyi dövrünə aid olmasa da, tədqiqatların dövrü və öyrənilməsi çevrəsini xeyli genişləndirdi.

5-ci təpə kiçik ölçülərə malikdir. Qazıntıların ilk günlərində son tunc-erkən dəmir dövrünü əhatə edən xeyli sayda keramika fraqmentləri və eneolit dövrünə aid materiallar aşkar edilmişdir. Eneolit dövrünə aid tapıntılar obsidian, keramika və digər materiallardan ibarət idi. Abidədə böyük marağa səbəb olan faktlardan biri müxtəlif dövrlərə aid qəbirlərin müşahidə edilməsidir. Ümumilikdə bu ilin qazıntı mövsümündə 5-ci təpədə 22 qəbir açılmışdır. Lakin bu qəbirlərin bəziləri erkən orta əsrlərə aiddir. Arxeoloji qazıntı zamanı tapılan materialların müəyyən hissəsi (yaxşı vəziyyətdə olanları) AMEA Milli Azərbaycan Tarixi Muzeyinə gətirilərək Arxeologiya fonduna təhvil verilmişdir. Muzeyə təhvil verilən tapıntıların zahiri görünüşü materialların ekspozisiyada sərgilənməsi üçün yararlı olduğunu söyləməyə imkan verir. Eyni zamanda muzeyə daxil olan materialların Arxeologiya fondunda mühafizə edilən eyni dövrlərin oxşar nümunələri ilə anoloji müqayisə və təhlil edilməsi gələcək tədqiqatlar üçün vacibdir.

5-ci təpədən Arxeologiya fonduna təhvil verilən materiallar son tunc-erkən dəmir dövrü üçün xarakterik olan tapıntılardır. Materialların demək olar hamısı torpaq qəbirlərdən tapılmışdır. Abidədə boş qəbirlər də (kenotaf) izlənilmişdir. Skeletin müşahidə edilmədiyi qəbirlərdən xeyli tapıntılar əldə edilmişdir.

Yeni abidədən Arxeologiya fonduna eyni adda iki ədəd kasa tipli gil qab daxil olmuşdur. Bunlardan biri iri həcmli, qara rəngli qabdır (AF 28124, s/q 42). Heç bir naxışı yoxdur. Lakin daxili və xarici divarları parlaq cilalanmışdır. Qabın hündürlüyü 9,8 sm, oturacağının diametri 8 sm, ağzının diametri 16,5 sm, gövdənin diametri 18 sm-dir. Digər kasa tipli gil qab boz rənglidir (AF 28129, s/q 51), (şək. 1). Ağzı geniş olub, bir qədər xaricə qatlanmışdır. Gövdəsi şaquli şəkildə oturacağa qədər zolaqlarla şüyrələnib. Oturacağı yastıdır. Hündürlüyü 10 sm, oturacağının diametri 6,5 sm, ağzının diametri 13,3 sm, gövdənin diametri 15 sm-dir. Buna bənzər qablar Xaçbulaqda tədqiq olunmuş daş qutu qəbirlərdən əldə edilmişdir. Azərbaycan və Gürcüstanın e.ə. II minilliyin sonu - I minilliyin ilk rübünə aid müxtəlif abidələrində rast gəlinən saxsı qabları bu tapıntılara nümunə gətirmək olar (1, səh. 83-87).

Fonda təhvil verilən materiallar içərsində 1 ədəd vaza tipli saxsı qab (AF 28125, s/q 43) və bir ədəd tək qulplu su qabı da (AF 28126, s/q 45), (şək. 2) vardır. Vaza enli gövdəli, qara rəngli, üstü cilalıdır. Qısa və enli boğazlı olub, ağzının kənarı xaricə doğru genişlənir. Qabın hündürlüyü və gövdənin diametri 21 sm, oturacağın 9 sm, ağzının diametri 13 sm-dir. Tək qulplu su qabı iri həcmli və tay qulpludur. Boz rəngli gildən hazırlanmışdır. Qulp qabın ağzının kənarını çiyni ilə birləşdirir. Qabın üzəri şaquli şəkildə zolaqlı xəttlərlə şüyrələnib. Belə təsvir forması dəmir dövrü üçün əlamətdardır. Bəzən şüyrələmə çızma xəttlərlə qabarıq formada naxışlanır. Bu tip naxışlara Əhəmənilər dövrü qablarında daha tez-tez rast gəlinir. Qabın

çiyin hissəsi qulpun aşağı birləşmə səviyyəsində 5 nazik batıq paralel xəttlə (üfiqi) naxışlanıb. Qabın hündürlüyü 29 sm, boğazının hündürlüyü 6,5 sm, oturacağının diametri 17 sm, ağzının 11 sm, qulpun diametri 2,2 sm-dir. Lakin bu qabın forması, rəngi, hazırlanma texnologiyası onun son tunc dövrünə aid olmasını əyani surətdə göstərir. Xaçbulaqdan tapılan bir anoloji nümunəni buna misal göstərmək olar (1, səh. 81-93: Tabl. IV, şək. 3).

Qazıntılar zamanı aşkar edilən maraqlı tapıntılardan biri gil nehrədir (AF 28127, s/q 46), (şək. 3). Nehrə boz rəngli gildən hazırlanmışdır. Qulpu çiynində üfüqi şəkildədir. Nehrənin yandan hava çıxmaq üçün qoyulan lüləyinin uzunluğu 1 sm, diametri 3 sm, deşiyinin diametri isə 1,4 sm-dir. Qabın çiyni 5 paralel üfiqi batıq xəttlərlə naxışlanıb. Gövdə zolaqlı sadə xəttlərlə şaquli şüyrələnmişdir. İstifadə zamanı nehrənin ağzı örtülərək iplə bərk sıxılır. Buna görə qabın ağzının kənarı xaricdən qalındır. Qabın hündürlüyü 49,5 sm, boğazının hündürlüyü 5,8 sm, ağzının diametri 11,5 sm, gövdənin çevrəsi 109 sm, qulpun diametri 2,7 sm-dir. Tapıntı torpaq qatı altında sıxıldığından götürülərkən müxtəlif hissələrə ayrılmışdır. Qabın hissələri birləşdirilərək tam formaya gətirilmişdir. Saxsı nehrələrin arxeoloji qazıntılardan tapılması 3 min il öncə bu ərazilərdə oturaq mədəniyyətə malik maldar əhalinin yaşamasından xəbər verir. Eyni ilə bu tapıntıya bənzər nümunə MATM-ın ekspozisiyasında nümayiş olunur. Ekspozisiyada mühafizə olunan gil nehrə Xınıslıdan əldə edilmişdir (AF 1328, inv 21459, s/q 59/16).

Qazıntıdan müxtəlif formalı və ölçülü küpələr aşkar edilmişdir. Ümumiyyətlə küpə tipli saxsı qablar arxeoloji abidələrdə tez-tez müşahidə edilir. Bu qablara olan tələbat onun istehsalını genişləndirmiş və uzun zaman məişətdə və təsərrüfatda istifadə olunmuşdur. Bu tip qabların quruluşu da istifadə üçün olduqca əlverişlidir. Əldə edilən küpələr şar gövdəlidirlər. Təsviri verilən küpə qara rənglidir (AF 28128, s/q 48), (şək. 4). Qabın ağzının kənarı xaricə qatlanmışdır və qısa boğazlıdır. Küpənin gövdəsində paralel batıq xəttlərlə bir sıra rombvari naxışlar var. Hündürlüyü 29 sm, oturacağının diametri 10,5 sm, ağzının diametri 12,5 sm, gövdənin çevrəsi 1 m-dir. Digər nümunə də şar gövdəli, boz rəngli, qısa boğazlı küpədir (AF 28131, s/q 64). Qabın ağzının kənarı bir qədər xaricə qatlanmışdır. Oturacağı düz, üstü sayadır. Küpənin hündürlüyü 15 sm, oturacağının diametri 9,5 sm, gövdənin 16,5 sm, ağzının diametri 8,9 sm-dir. Növbəti küpə qara rəngli, üzəri cilalı, orta ölçülüdür (AF 28133, s/q 70). Küpənin ağzının kənarı qismən xaricə qatlanmış və bir tərəfdən sınmışdır. Düz oturacaqlı, enli ağızlıdır. Qabın hündürlüyü 16,6 sm, oturacağının diametri 8,7 sm, gövdənin 19 sm, ağzının diametri 12 sm-dir. Bəzi küpələrin üzərində müxtəlif naxışlara rast gəlmək mümkündür (AF 28135, s/q 73), (şək. 5). Bu qara rəngli küpənin üzəri yaxşı cilalanmış, keyfiyyətli bişirilmişdir. Qabın çiyin hissəsi 4 cərgə batıq nöqtələrlə haşiyələnmişdir. Nöqtələr cüt olmaqla iki xətt üzrə paralel şəkildədir. Gövdənin yuxarı hissəsi də bu tip naxışlarla dalğavari şəkildə naxışlanmışdır. Düz oturacağı olan küpənin ağzının kənarı bir qədər xaricə meyllidir. Küpənin hündürlüyü

16,8 sm, oturacağının diametri 8 sm, gövdənin 20 sm, ağzının diametri 12,8 sm-dir. Sonuncu şar gövdəli saxsı küpə də qara rəngli, üzəri cilalanmış və düz oturacaqlıdır (AF 28136, s/q 74). Ağzının kənarı bir qədər xaricə qatlanmışdır. Qabın çiyin hissəsi 2 cüt, 4 cərgə bir-birinə paralel batıq nöqtələrlə haşiyələnmişdir. Gövdənin yuxarı hissəsi eyni ilə çiyin hissədə olduğu kimi, lakin dalğavari şəkildə (bucaq altında sınaraq) naxışlanıb. Gövdənin orta hissəsində, dalğavari naxışların altında basma nöqtələrdən ibarət bucaq şəkilli naxışlar var. Keyfiyyətli bişirilib. Küpənin hündürlüyü 21,5 sm, oturacağının diametri 10 sm, govdənin 23 sm, ağzının diametri 14,5 sm-dir. Yuxarıda qeyd etdiyimiz kimi saxsı küpələrdən müxtəlif dövrlərdə istifadə olunmuş və Azərbaycanın bir çox arxeoloji abidələrində rast gəlinməkdədir. Qaracəmirlidən əldə edilən küpələr son tunc dövrünə aid Xaçbulaq tapıntıları ilə eyni forma və quruluşa malikdirlər (1, səh. 83-87; 3, səh. 73-83). Qaracəmirlinin kurqan və digər qəbir abidələrindən də anoloji tapıntılar əldə edilmişdir. Fərq yalnız bundadır ki, Qaracəmirli kurqanlarından tapılan oxşar nümunələr e.ə. XVI-XV əsrlərə aid edilirlər. (6, səh. 128-153, Tabl. X, XI, səh. 174-175).

Maraqlı tapıntılardan biri də hündürlüyü 6 sm olan boz rəngli, tək qulplu fincandır (AF 28130, s/q 63), (şək. 6). Üstü xaricdən şaquli şəkildə zolaqlı xəttlərlə şüyrələnib. Oturacağı düz və 5,7 sm ölçüsündədir. Qulpu ağzının kənarı ilə gövdənin aşağı hissəsini birləşdirir. Ağzının kənarı bir qədər xaricə meylli olub, 10,5 sm diametrə malikdir. Gövdəsinin diametri 8,9 sm, qulpunun hündürlüyü 5 sm-dir. Bu tapıntıya bənzər nümunələr Xaçbulaq, Mingəçevir, Daşkəsən və digər e.ə. II minilliyin sonu I minilliyin əvəllərinə aid abidələrdən aşkar edilmişdir (7, səh. 74-75).

Cam formalı qablar arxeoloji abidələrdə tez-tez təsadüf edilən tapıntılardandır. Xüsusilə son tunc-erkən dəmir dövrü üçün xarakterikdir (6, səh. 128-153, Tabl. IX, XVIII, səh. 173, 182). 5-ci təpənin torpaq qəbirlərindən izlənilən materialların siyahısına camları da əlavə etmək olar. Təqdim edilən cam tipli gil qab qara rəngli, üzəri cilalanmış və düz oturacaqlıdır (AF 28132, s/q 69). Ağzının kənarı bir qədər qatlanmışdır. Gövdənin bəzi yerlərində qopuqlar vardır. Hündürlüyü 7,5 sm, oturacağının diametri 7,5 sm, gövdənin 17 sm, ağzının diametri 15,8 sm-dir. Digər gil cam da qara rəngli, düz oturacaqlı, üzəri cilalıdır (AF 28137, s/q 77), (şək. 7). Ağzının kənarı azca xaricə çıxıntılıdır. Hər iki camın bişmə keyfiyyəti yüksəkdir. Qabın hündürlüyü 8 sm, oturacağının diametri 5,5 sm, gövdənin 17 sm, ağzının diametri 15,5 sm-dir.

Diqqət çəkən tapıntılardan biri oval formalı (qayıqvari) gil qabdır (AF 28134, s/q 71), (şək.8). Qara rəngli qabın üzəri cilalanmışdır. Ağzının kənarı düz və içəriyə meyilli olub, hər iki ucunda içəriyə kiçik batıq vardır. Düz oturacaqlı qab yuxarıya doğru enlənir. Qabın hündürlüyü 9 sm, oturacağın ölçüləri 6,5 x 9,5 sm, ağzının ölçüləri 16,5 x 22 sm-dir. Eyni ilə bu qabın oxşarı muzeyin ekspozisiya zalında yerləşdirilmişdir (AF 1299). Qeyd edək ki, ekspozisiyada yerləşdirilən bu nümunə də Şəmkirin Qaracəmirli kəndindən əldə edilmişdir. M. Hüseynova xeyli sayda bu

tip qabların Tibet məbədlərində saxlandığını və ritual xarakter daşıdığını vurğulayır. Müxtəlif məsafələrdə, eyni zamanda fərqli dövrlərə aid kurqanların anoloji müqayisəsini aparan müəllif qeyd edir ki, tapıntı köçəri həyat şəraiti üçün əlverişli olub, mədəni təsiri və müxtəlif mədəniyyətlərin əlaqəsini göstərir (6, səh. 139-140).

Son tunc-erkən dəmir dövrünə aid növbəti 3 ədəd tapıntı tuncdandır. Bunlardan biri tunc xəncərdir (AF 28140, s/q 81), (0089), (şək. 9). Kiçik ölçülü xəncər sona doğru nazilir. Tiyənin qəbzəyə birləşdiyi yerdə enli yastı birləşdirici halqası vardır. Dəstəyi ağacdan olub çürümüşdür. Tiyənin dəstəyə keçən hissəsi ensiz çıxıntı şəklindədir. Xəncərin dəstəyə bərkidilən dəyirmi halqası var (0090). Halqanın bir tərəfi yuxarıya doğru daralır. Tunc xəncərin dəstə hissəsinin sonluğu konusvaridir (çətirə bənzər) (0091). Konusvari sonluğun ara məsamələri vardır. Xəncərin uzunluğu 14,7sm, eni 2,8 sm, halqa ilə eni 3,2 sm, qalınlığı 8 sm, halqanın diametri 4 sm, halqanın qalınlığı 0,4 sm, sonluğun diametri 3,5 sm-dir. Bu tip xəncərlər Cənubi Qafqazda geniş yayılmış və Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterikdir. Azərbaycanın Xanlar, Gədəbəy, Şəmkir, Mingəçevir, Qarabaq, həmçinin Gürcüstanın və Ermənistanın bir sıra abidələrindən tapılmışdır. (6, səh. 28-29; 7, səh. 74-75). Bu dövrün arxeoloji abidələrindən tapılan oxşar nümunələrin bəziləri MATM-ın Arxeologiya fondunda da mühafizə olunur (AF 974, inv 1940).

Bu dövrə aid növbəti material diametri 14 sm-lik tuncdan qadın asma bəzəyidir (AF 28141, s/q 82), (şək. 10). Tunc predmet nazik təbəqə şəklindədir. Üzərində batıq həndəsi təsvir və təsvirin sonunda batıq nöqtələr vardır. Kənarı batıq çevrə ilə əhatələnmişdir. Çevrənin kənar sonluğu qabarıq və çökək kiçik xəttlərlə naxışlanıb. Digər tunc asma bəzək nümunəsi də eyni ilə o birisi kimidir (AF 28142, s/q 83). Hər iki predmet skeletin baş nahiyyəsindən tapılmışdır. Bu dövrün qadın bəzək əşyaları içərisində özünəməxsusluğu ilə seçilir. MATM-ın ekspozisiya zalında eyni dövrün oxşar nümunələri vardır (AF 984, inv. 564/3119).

Yuxarıda qeyd etdiyimiz kimi 5-ci təpədə aparılan qazıntıların ilk günlərində eneolit dövrünə aid xeyli sayda obsidian və keramika hissələri tapılmışdır. Bu fakt təpənin eneolit dövrünə aid olan təbəqəsinin olmasını və son tunc-erkən dəmir dövründə isə ölülərin basdırıldığını deməyə əsas verir. Lakin təpədə izlənilən qəbirlər son tunc-erkən dəmir dövrü ilə məhdudlaşmır. Ərazidən erkən orta əsrlərə aid bir neçə qəbir də aşkar edilmişdir. Təmizlənən qəbirlərdən erkən orta əsrlərə aid dəyərli materiallar toplanmışdır. Bu dövrün bəzi qəbirləri inventarın yoxluğu ilə müşayiət olunur. Heç şübhəsiz qeyd edilən anoloji fakt bu ərazilərdə xristianlığın yayılması ilə bağlıdır. İnventarsız, arxası üstə uzadılmış şəkildə izlənilən skeletlər xristian qəbirlərinin aşkar edilməsini deməyə əsas verir.

Erkən orta əsrlərə aid torpaq qəbrindən tapılan maraqlı nümunələrdən biri tunc üzükdür (AF 28138, s/q 79), (şəkil 11). Lentvari üzüyün qaşına qabarıq daş, yaxud şüşə keçirilmişdir. Üzüyün diametri 2,5 sm, qaşın diametri 1 sm-dir. Təxminən II-III əsrlərə aid olduğu güman edilir. Bu dövrə aid Arxeologiya fonduna

təhvil verilən digər material açıq qırmızımtıl rəngli üzəri anqoblanmış tək qulplu saxsı dolçadır (AF 28139, s/q 80). Lentvari qulp qabın boğazı ilə çiyin hissəsini birləşdirir. Qabın boğazı ortadan çökəkdir. Oturacağı düzdür. Forma etibarı ilə qab kobud hazırlanmışdır. İstehsal zamanı dulus çarxından istifadə olunmamışdır. Bişmə keyfiyyəti yüksəkdir. Dolçanın hündürlüyü 18,5 sm, qulpunun uzunluğu 9,3 sm, eni 2,4 sm, gövdənin diametri 14,2 sm, oturacağının diametri 8,3 sm-dir. Orta əsrlərdə geniş yayılmış saxsı qab nümunələrindəndir.

Muzeyə təhvil verilən materiallar içərisində 2014-cü ildə İlyastəpə abidəsindən əldə edilən, Əhəmənilər dövrünə aid (e.ə. V-IV əsrlər) 1 ədəd qırmızımtıl rəngli, ağzı gül ləçəyi formasında olan oynoxoyya (şərab qabı) tipli gil qab vardır (AF 28118, s/q 62). Qab tək qulplu, düz oturacaqlıdır. Qabın ağzının əymə hissəsində, hər iki tərəfdə yapma şəkilli düyməciklər və çiynində iki sıra paralel nöqtələrdən ibarət naxışlar var. Yüksək texnologiya ilə bişirilən qab əldə hazırlanmasına baxmayaraq, görünüşcə olduqca cəlbedici və kiçik ölçülərə malikdir. Hündürlüyü 13 sm, gövdənin diametri 10 sm, oturacağın diametri 5 sm-dir. Növbəti 3 ədəd saxsı qab da Əhəmənilər dövrünə aid olub, 2015-ci ildə İlyastəpə abidəsindən tapılmışdır. Bura kiçik həcmli, tay qulplu, boz rəngli oynoxoyya tipli gil qab daxildir (AF 28119, s/q 14), (şək. 12). Qabın çiyin və boğaz hissəsi üç qırmızımtıl paralel xəttlə naxışlanmışdır. Qulpun üstündə qırmızı boya ilə paralel xəttlər çəkilmişdir. Hündürlüyü 12 sm, gövdənin diametri 9,3 sm, oturacağın diametri 5 sm-dir.

Oynoxoyya tipli qablar antik dövrdə Albaniyanın keramika istehsalında xüsusi yer tutmuşdur. E.ə. IV - b.e. III-IV əsrlərinədək bu tip qablardan Albaniyanın məişətində geniş istifadə olunmuşdur (9, səh. 180-182; 10, səh. 118-119). Antik dövrə aid abidələrdə aparılan arxeoloji qazıntılar zamanı bu tip saxsı qab nümunələrinə müntəzəm rast gəlinir. Oynoxoyya tipli qabların yerli istehsalatda peyda olması antik yunan mədəniyyətinin Azərbaycanın keramika istehsalına göstərdiyi təsirinin nəticəsidir (4, səh. 141-142). Azərbaycan mədəniyyətinə olan bu təsir ilk dəfə Əhəmənilər vasitəsilə baş vermişdir. Antik dünyanın Əhəmənilərlə olan müxtəlif səpkili əlaqələri e.ə. V əsrdən gec olmayaraq sözügedən imperiya tərkibindəki, indiki Şimali Azərbaycan ərazisində yaşayan əhaliyə də təsir etməyə başlamışdır. Bu səbəbdən hələ ellin mədəniyyətinin şərqdə yayılmasınadək Azərbaycan antik dünya mədəniyyəti ilə tanış olmuş və onun müsbət keyfiyyətlərindən yararlanmışdır (8, səh. 143-148).

Növbəti tapıntı ağzı gül ləçəyi formasında olan bozumtul rəngli, kiçik həcmli, tay qulplu saxsı qab nümunəsidir (AF 28120. s/q 15). Ağız hissəsi azca əyməlidir. Boğazı ağzının kənarına doğru genəlir. Hündürlüyü 9,6 sm, gövdənin diametri 7,8 sm, oturacağın diametri 5,3 sm-dir. 5,2 sm uzunluğa, 1,1 sm diametrə malik qulp ağzının kənarı ilə qabın çiynini birləşdirir. Qulpun üstündə yapma düymə vardır. Ağzı əyməli bu tip su qabları antik dövrdə (e.ə. V - b.e. III əsrləri) Azərbaycan ərazisində geniş yayılmışdır. Arxeologiya fonduna daxil olan Əhəmənilər dövrünə aid sonuncu saxsı qab 2015-ci ildə İlyastəpədən aşkar edilən tay qulplu, bozumtul-

qara rəngli kiçik formalı küpədir (AF 28121, s/q 16). Düz oturacaqlı küpənin oturacağının diametri 6,3 sm, hündürlüyü 12,4 sm, gövdəsinin 10,8 sm, ağzının diametri 7,2 sm-dir.

Muzeyə təhvil verilən materiallar içərisində 2 ədəd təsadüfi tapıntı da vardır. Bunlardan biri erkən tunc dövrünə aid olan boz rəngli, orta ölçülü iki qulplu küpə Namazov Ayaz Məhərrəm oğlu tərəfindən Kür çayının sağ sahilindən 2-3 km aralı təsərrüfat işləri görülərkən aşkar edilərək ekspedisiyaya təhvil verilmişdir (AF 28122, s/q 5), (şək. 13). Küpənin gövdəsi mərkəzi hissədən xaricə meyllidir. Enli ağızlı küpənin ağzının kənarı düzdür. Qabın ağzının kənarı batıq xəttlə haşiyələnmişdir. Qulplar küpənin çiyni ilə boğazını birləşdirir. Oturacağı düzdür. Qulplarının çiyinə birləşən hissəsində, hər iki tərəfdə ümumi sayı 4 olmaqla düymə şəkilli batıqlar vardır. Qabın boğazı ilə çiyin hissəsini batıq dairəvi xətt ayırır. Qabın hündürlüyü 35 sm, oturacağın diametri 8,8 sm, ağzının diametri 15,5 sm-dir.

Erkən tunc dövrünə aid digər nümunə üzəri qırmızımtıl rəngə çalan, bozumtul gildən hazırlanan yarımşar gövdəli iki qulplu küpədir (AF 28123, s/q 6). Bir qulpu sınmışdır. Küpənin ağzının kənarı xaricə qatlanmışdır. Qulp qabın boğazı ilə çiynini birləşdirir. Qabın çiyin hissəsi boğaz hissədən xaricə çıxıntılıdır. Qabın hündürlüyü 23 sm, oturacağının diametri 8,5 sm, ağzının diametri 16,5 sm, gövdənin diametri 27 sm-dir. Bu nümunəni Şəmkir rayonunun Kür qəsəbəsində yaşayan Qəhrəmanov Rasim Məhəmmədəli oğlu quyu qazarkən şəxsi həyətindən (N. Nərimanov küç. Ev 4) tapmış və ekspedisiyaya təhvil vermişdir. Ekspedisiya üzvləri tərəfindən bu əraziyə baxış keçirilərkən keramika fraqmentləri və quyuda çay daşlarından ibarət qurğunun nizamla düzülmüş qalıqları müşahidə edilmişdir. İstər arxeoloji qazıntılar zamanı, istərsə də təsadüfən aşkar edilən maddi mədəniyyət nümunələri Kür çayı sahili boyunca, xüsusilə Şəmkir rayonunun ərazisində əsrlər boyu intensiv yaşayışın olduğunu, müxtəlif mədəniyyətlərin qovuşaraq yeni mədəniyyət yaratdığını, maddi mədəniyyətimizin müxtəlif sahələri izlənilməklə istehsal mədəniyyətinin yüksək inkişaf etdiyini aydın surətdə özündə əks etdirir. Bu səbəbdən paleolit dövründən başlayaraq, neolit, eneolit, tunc, dəmir, antik və son dövr orta əsrlərədək olan geniş bir zaman kəsiyində Kür çayı ətrafında olan ərazilər abidə sıxlığı ilə təmsil olunur.

Mövzuda yeni arxeoloji tapıntıların arxeoloji təsviri və müqayisəli təhlili öz əksini tapmışdır. Eyni dövrün MATM-ın Arxeologiya fondunda saxlanılan və Azərbaycanın müxtəlif abidələrindən tapılan oxşar nümunələrlə anoloji müqayisəsinin aparılmasına cəhd edilmişdir.

İstifadə olunmuş ədəbiyyatın siyahısı:

1. Aslanov Q.Q., Kəsəmənli H.P. Xaçbulaqda tədqiq olunmuş bir qrup daş qutu qəbirlər haqqında // ИАН АзССР 1975/1
2. Babayev İ.A., Mustafayev L.X., Hüseynov S.A., Alışov N.Ə. (Azərbaycan),

Knauss F., Kaniuth K., Fassbeinder J. (Almaniya), Qaqoşidze Y. (Gürcüstan),Balaxvansev A.(Moskva). Beynəlxalq Şəmkir-Qaracəmirli arxeoloji ekspedisiyasının çöl-tədqiqat işləri haqqında (2013-cü il) // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014, Bakı-2015
3. Kəsəmənli H.P., Cəfərov H.F. 1971-ci ildə Xacbulaqda tədqiq edilmiş son tunc dövrü qəbirləri // ИАН АзССР 1974/3
4. Бабаев И.А. Города Кавказской Албании в IV в.до н.э.- III в.н.э., Баку «Элм» 1990
5. Бабаев Ильяс (Азербайджан), Юлон Гагошидзе (Грузия), Флориан Кнаусс (Германия). Некоторые итоги и перспективы раскопок дворцовых зданий середины I тысячелетия до н.э. в Гараджамирли (Азербайджан). Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı/ Beynəlxalq elmi konfransın materialları. Bakı 2012
6. Гусейнова М. Из истории Южного Кавказа Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв до н.э.) Баку, «Bizim kitab», 2011
7. Кесаманлы Г.П. О новоявленных памятниках Хачбулага (Азербайджанская ССР) // ИАН АзССР 1972/1
8. Мустафаев Л.Х. Влияние культуры античного мира на керамическое производство Кавказской Албании // **Гілея** : науковий вісник : збірник наукових праць / гол. ред. В. М. Вашкевич. – К. : "Видавництво "Гілея", 2015. – Вип. 97 (6). – 489
9. Османов Ф. История и культура Кавказской Албании IV в. до н.э. – III в. н.э. Баку, 2006
10. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.) Баку: «Элм», 1985

İ.Babayev, K.Kaniuth, L.Mustafayev, M.Gruber
Handing archaeological findings to Archaeological fund of National History Museum of Azerbaijan by Shamkir-Qarajamirli international archaeological expedition in 2016

Summary

Key words: *Archaeological fund, earthenware, jug, 5th hill, late bronze-early iron, oynokhoya*

The paper deals about archaeological findings given to Archaeological fund of National History Museum of Azerbaijan by Shamkir-Qarajamirli international archaeological expedition in 2016. Materials including to Archaeological fund belongs to late bronze-early iron and was found from 5th hill. Besides it 4 pottery vessels belonging to Achaemenid period which found in Ilyastapa in 2014-2015

years and 2 random findings belonging to early bronze has given to Archaeological fund too. In article author correctly describes new materials and tried to give an analogous comparison with samples founding during archaeological excavations in the territory of the country and archaeological materials protected at Archaeological fund.

И.Бабаев, К.Каниют, Л.Мустафаев, М.Грубер
Археологические находки, **переданные** *в 2016 г. в Археологический фонд Национального музея истории Азербайджана Шамкир-Гараджамирлинской археологической экспедицией*

Резюме

Ключевые слова: *Археологический фонд, кувшин, чаша, пятый холм, поздняя бронза- раннее железо, ойнохойя*

В статье рассматриваются археологические находки, переданные Археологическому фонду Национального Музея Истории Азербайджана международной археологической экспедицией Шамкир-Караджамирли в 2016 году. Материалы, поступившие в Археологический фонд, относятся к позднему бронзово-раннему железу и были найдены с 5-го холма. Кроме того, в Археологический фонд было также предоставлено 4 глиняных сосуда, принадлежащих к периоду Ахеменидов, которые были найдены в Ильястапе в 2014-2015 годах и 2 случайных находки относящихся ранней бронзы. В статье автор правильно описывает новые материалы и пытался дать аналогичное сравнение с образцами, основанными на археологических раскопках на территории страны, и археологическими материалами, защищенными в Археологическом фонде.



şəkil 1



şəkil 2



şəkil 3



şəkil 4



şəkil 5



şəkil 6



şəkil 7



şəkil 8




şəkil 9



şəkil 10



şəkil 11



şəkil 12



şəkil 13

Aida İsmayılova

Azərbaycanın orta əsr basmanaxışlı küplərində dini-fəlsəfi dünyagörüşünün izləri

Açar sözlər: *orta əsrlər, Arxeologiya fondu, basmanaxışlı qablar, dini-fəlsəfi görüş, təsvir*

UOT 902

Vətən tarixşünaslığında öyrənilməsinə ehtiyac duyulan nəzəri məsələlərdən birini orta əsrlərdə mövcud olmuş dini-fəlsəfi dünyagörüşün forma və məzmunu təşkil edir. Əlbəttə ki, bu məsələlərin öyrənilməsində yazılı qaynaqlarla yanaşı, əşyavi mənbələrin, yəni arxeoloji materialların da rolu danılmazdır. Çünki arxeoloji materiallar da bu və ya digər dərəcədə təmsil etdikləri dövrün sosial-iqtisadi həyatı, mədəni-ticari əlaqələri ilə bərabər, incəsənəti, insanların dini-fəlsəfi dünyagörüşü, bədii təfəkkürü haqqında məlumatların daşıyıcısıdır. Bu baxımdan Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) Arxeologiya fondunda qorunan basmanaxışlı küplər böyük maraq doğurur. Həmin küplər XII-XIII əsrin əvvəlinə aid olub, Mingəçevir, Gəncə və Beyləqan şəhər yerlərindən aşkar olunublar. Təsadüfi deyil ki, məhz basmanaxışlı qablar və onların hissələri ayrıca olaraq Qara Əhmədov (3, s. 74-80; 4, s. 74-76; 11, s. 198-205), İsaq Cəfərzadə (1; 12, s.69-74), Vadim Leviatov (14, s.4-10) və digər tədqiqatçılar tərəfindən tədqiqat obyekti seçiliblər. Buna baxmayaraq Gəncə şəhər yerindən aşkar olunmuş basmanaxışlı küplər isə demək olar ki, öyrənilməyib. Hazırki məqalədə basmanaxışlı qabların səthlərindəki təsviri naxışlara əsasən qruplaşdırılması, eləcə də onların semantik mənalarının öyrənilməsi əsas məqsəd qarşıya qoyulmuşdur.

MATM-ın Arxeologiya fondunda qorunan qabları, daha dəqiq desək küpləri üç qrupa ayırmaq olar: üzəri saya, təsvirli və basmanaxışlı. Üzəri saya olan küplərin adından da göründüyü kimi, onlarda heç bir dekora rast gəlinmir. İkinci qrupa aid olanların üzərində memarlıq abidələrinin cizgilərini xatırladan həndəsi fiqurların təsvilərini görə bilərik. Təsvirlər əsasən rombvari fiqurlardan, düz və ya dalğalı

xətlərdən ibarətdir. Bəzi küplərin üzərinə cızma naxışlara da rast gəlinir. Üçüncü qrupa aid olan küplərin üzərinə vəhşi pişik (şir) təsvirləri həkk olunmuşdur. Bundan başqa küplərin üzərində mürəkkəb kompozisiyaları da görmək mümkündür.

Əşyavi mənbə qismində tədqiqata cəlb etdiyimiz basmanaxışlı küp fraqmentləri arasında Qədim Gəncə tapıntıları (AF 2120) da yer alıb. Uzunluğu 10,8, eni isə 9,5 sm olan fraqmentlərdən birinin üzərinə basma üsulu ilə quş və həyat ağacı təsvirləri vurulub. Digər fraqmentin üzərində hərəkət halında keçi təsvirləri həkk olunub. Bu fraqmentin uzunluğu 16,4, eni isə 6,3 sm təşkil edir. uzunluğu 11,8, eni 11,4 sm olan üçüncü fraqmentin üzərindəki təsvirlər aydın seçilməsə də, zoomorf səciyyəli olduğunu güman edirik. Hər üç fraqment qalın divarlıdır və yaxşı bişirilməyib. Maraq doğuran digər bir fraqmentin üzərində isə insan, daha dəqiq desək kişi təsviri həkk olunub. Onun bir əlində quş (çox güman ki, yırtıcı), digər əlində isə çomaq (və ya dəyənək) var. Təsvirin ətrafında isə it rəsmi, onun ətrafında isə üç-üç qruplaşdırılmış nöqtələr və ziqzaqvari xətlər mövcuddur. Bu fraqmentin ölçülərinə gəldikdə isə onun uzunluğu 11,7, eni isə 6,3 sm-dir. Oxşar təsvirləri beşinci fraqmentin üzərində də görmək mümkündür. Belə ki, burada da ətrafında it və heyvan təsvirləri olan insan (kişi) silueti öz əksini tapmışdır. İnsan və heyvan təsvirlərinin ətrafını nöqtələr bəzəyir. Uzunluğu 15,3, eni isə 15 sm olan həmin fraqmentin üzərində yarım üçbucaq təsvirlərini də görmək olar. Sayca altıncı fraqmentin üzərində balıq və it (fraqmentə əsasən belə demək olar) təsvirlərini görmək olar. Onların da ətrafı nöqtələr və ziqzaqvari xətlərlə bəzədilib. Yerdə qalan digər üç fraqmentdən ikisinin üzərində heyvan, birinin üzərində həndəsi təsvirlər var. Sonuncunun uzunluğu 8,5, eni isə 6,5 sm-dir (şəkil 1, 2). Qeyd edək ki, oxşar təsvirlərə Qobustan qayalarında da rast gəlmək mümkündür. Belə ki, Qobustan qayaüstü rəsmləri arasında xeyli sayda insan təsvirləri yer alıb (1, s. 159; 175; 312). Bundan başqa E.Reslerin Gəncədən tapdığı, son tunc-erkən dəmir dövrünə aid saxsı küpün üzərində də insan təsviri çox aydın şəkildə diqqəti cəlb edir (15, s. 134).

Mövzunun öyrənilməsində 1938-ci ildə Qədim Gəncə şəhər yerindən tapılmış iki qab fraqmenti də böyük əhəmiyyət kəsb edir (AF 2112). Birinci fraqmentin saxsısı qırmızı rəngdə olub, üzərində basma üsulu ilə vurulmuş həyat ağacı və heyvan təsvirləri var. Heyvanların ətrafı nöqtələrlə bəzədilmişdir. Təsvirdən aşağıda romb əmələ gətirən xətlər də ki, onların da ətrafı nöqtələrlə işlənilib. Fraqment yaxşı bişirilməyib, uzunluğu 9, eni isə 6,5 sm-dir. İkinci fraqmentin də saxsısı qırmızı rəngdə olub, qalın divarlıdır. Fraqmentin üzərində basma üsulu ilə vurulmuş əllərini yuxarı qaldırmış insan, heyvan və həyat ağacı təsvirləri var. Bu fraqment də yaxşı bişirilməyib. Onun ölçülərinə gəldikdə isə uzunluğu 10, eni 5,7 sm-dir (şəkil 3).

Tədqiqata cəlb etdiyimiz digər Qədim Gəncə tapıntısı da saxsısı qırmızı rəngdə olan qalın divarlı küp fraqmentindən ibarətdir (AF 2642). Qabın orta zolağında balıq, keçi və it təsvirləri həkk olunub. Onların ətrafı isə nöqtələrlə işlənilib. Qabın çiynindən aşağı hissədə isə bir-birinə paralel və nisbətən aralı keçi təsvirləri öz

əksini tapıb. Onların ətrafı isə üç-üç qruplaşdırılmış nöqtələrlə bəzədilib. Fraqment yaxşı bişirilməyib və en kəsiyinin daxili qatında qara təbəqə aydın görünür. Fraqmentin uzunluğu 23,5, eni isə 20 sm-dir. Bu fraqment üzərində həkk olunmuş insan və onun ətrafındakı heyvan təsviləri belə qənaətə gəlməyə əsas verir ki, burada dulusçu təsərrüfatla bağlı öz düşüncələrini əks etdirmişdir. Son illərdə Şəmkir şəhər yerindən də aparılmış aparılmış arxeoloji qazıntılar zamanı oxşar təsvirlərə malik küp fraqmentləri tapılmışdır (2, s. 212-214).

Tədqiqatımız üçün maraq doğuran digər bir arxeoloji tapıntı isə 1940-cı ildə Gəncə şəhər yerindən aşkar olunmuş, disk formalı, gili qırmızı rəngdə olan qapaq fraqmentidir (s/q 69). Uzunluğu 15,5, eni isə 8,5 sm olan həmin fraqmentin üzərində də bir-birini izləyən keçi və həyat ağacı təsvirləri həkk olunub. Təsvirlərin ətrafı isə nöqtələrlə bəzədilib. Fraqmentin üzəri firuzəyi rəngli mineralla inkrustasiya edilib (şəkil 8).

Mövzunun öyrənilməsində Beyləqan şəhər yerindən tapılmış basmanaxışlı küp fraqmentləri də mühüm əhəmiyyət kəsb edir. Onlardan bir neçəsi tədqiqatımızın mənbə bazasına daxil edilmişdir. Həmin fraqmentlərdən biri 1954-cü ildə tapılmış saxsısı qırmızı rəngdə olan küpün hissəsidir. Fraqment qalın divarlı olub, üzərində bitki və heyvan təsvirləri var. Belə ki, iki heyvan arasında həyat ağacı və xaç təsviri vardır. Xaçın və heyvanların ətrafı nöqtələrlə bəzədilmişdir. Fraqmentin üzəri həmçinin füruzəyi rəngli mineralla inkrustasiya edilib. Onun ölçüsünə gəldikdə, uzunluğu 14,3, eni isə 11 sm-dir (şəkil 4).

1963-cü ildə Beyləqan şəhər yerindən aşkar olunmuş dolça tipli qab da öz bədii tərtibatına görə maraqlıdır. Belə ki, qabın gövdəsi yarımşar şəkilli olub, ağzının ətrafında boğazboyu naxış zolağı həkk olunub. Qulpunun bir ucu qabın ağzına, digər ucu isə gövdəsinə biləşmişdir. Qabın üzərində gövdə boyu quş, həyat ağacı, ilan təsvirləri və nöqtələrə rast gəlinir. Bu maraqlı qabın oturacağının diametri 6, ağzının diametri 8,3, hündürülüyü isə 15 sm-dir (şəkil 5).

Beyləqan şəhər yerindən tapılmış digər maraqlı küp fraqmentinin üzərində isə iki naxış zolağı arasında şirə bənzər heyvanlar, həyat ağacı və əllərini yuxarı qaldırmış insan təsviri həkk olunub. Təsvirlərin ətrafı nöqtələrlə bəzədilib. Fraqmentin uzunluğu 24, eni isə 13,7 sm-dir (s/q 4223) (şəkil 7).

Tədqiqat üçün maraq doğuran arxeoloji materialların bir hissəsini Mingəçevir tapıntıları təşkil edir. Mənbə bazasında yer almış, 1949-cu il tapıntısı olan bu fraqmentin uzunluğu 26, eni 15,5, hündürlüyü isə 1,5 sm-dir (şəkil 6). Onun saxsısı qırmızı rəngdə olub, qalın divarlıdır. Qabın üzərində gövdəsi boyu bir-birini izləyən quş təsvirləri, onların ətrafında isə kiçik nöqtələr həkk edilib. Naxış zolağının mərkəzində, qarşı-qarşıya durmuş iki quşun arasında isə həyat ağacı təsvir edilib. Məlumdur ki, bənzər təsvirlər Mingəçevirdən aşkar olunmuş daş kapitelin üzərində də mövcuddur. Belə ki, həmin kapitelin üzərində iki tovuzquşu arasında bitki təsviri verilib. Bundan başqa oxşar təsvirlər Gəncə və Xocavənd rayonlarından tapılmış divar bəzəkləri üzərində də əks olunub.

Küp fraqmentlərinin üzərindəki təsvirlərin sayını aşağıdakı cədvəldən izləmək olar:

Sıra №	Abidə	Həyat ağacı	Keçi	Quş	İt	Balıq	Qaban	Şir	İnsan
1	Beyləqan	12	12	16	5	4	1	3	1
2	Gəncə	3	7	4	7	3	-	1	4
3	Mingəçevir	1	-	2	-	-	-	-	-

Cədvəldən də gördüyümüz kimi Beyləqan küplərinin üzərində "həyat ağacı", keçi, quş, tazı, balıq, qaban və s. təsvirlərə rast gəlinir. Beyləqan tapılmış saxsı məmulatının tədqiqatçılarından olmuş Q.Əhmədovun məlum monoqrafiyasında basmanaxışlı küplərdə insan təsvirinə üç halda rast gəlindiyini bildirmişdir (11, s. 202). Fraqmentlərdən birində iki tovuzquşu arasında insan sifəti göstərilmişdir. Digərində isə əli yuxarı qaldırılmış insanın heyvanları qovması səhnəsi təsvir olunub. Üçüncü halda isə insan heyvan qarşısında dayanmış halda verilib. Burada ziddiyyətli məqam ondan ibarətdir ki, Q.Əhmədov digər bir əsərində, daha dəqiq desək 1959-cu ildə nəşr olunmuş "Azərbaycanın şirsiz saxsı" məmulatı kitabında basmanaxışlı küplər üzərində iki halda insan təsvirinə rast gəlindiyini yazıb (3, s.76). Göründüyü kimi, Q.Əhmədovun məlumatdına bir qədər qeyri-dəqiqlik var. Bu qeyri-dəqiqliyə aydınlıq gətirmək məqsədilə tərəfimizdən Arxeologiya fondunda qorunan basmanaxışlı küp fraqmentlərinə baxış keçirilmiş və yalnız bir halda insan təsvirli basmanaxışlı küp fraqmentinə rast gəlmişik. Həmçinin küplərdən birinin üzərində ikiağaclı xaç təsviri də vardır. Xaç rəsminə Beyləqan və Gəncə şəhər yerlərindən tapılmış küplər üzərində də rast gəlinmişdir. Beyləqan küplərinin üzərindəki səhnələri Q.Əhmədov geniş şərh edərək, bu təsvirlərin kökünün tunc dövrü ilə əlaqəli olması haqda mülahizələri təsdiq etmişdir. Eyni zamanda bu təsvirlərin öz dövrünün bədii-sənət xüsusiyyətlərini də əxz etdiyini qeyd etmişdir. "Həyat ağacı" təsvirinin isə əvvəlki anlamından çıxaraq orta əsrlərdə daha çox bəzək nümunəsi səciyyəsi daşıdığını vurğulamışdır. Belə düşünürük ki, həyat ağacının bəhs olunan dövrdə küplərin üzərində verilməsi tək dekor xarakter daşımamışdır. Çox güman ki, bu "həyat ağacı" ilə bağlı əski ideoloji təsəvvürlər tam olmasa da müəyyən mənada öz semantik mənasını da ifadə etdiyini düşünmək olar. Belə ki, həyat ağacı adətən iki heyvanın arasında verilir. "Həyat ağacı" simvolunun izləri Qədim İkiçayarasına gedib çıxır (13, s. 47-52). Bundan başqa bu simvol bir çox xalqların mifologiyasında da mövcuddur. Həmçinin türk xalqlarının mifologiyasında da biz ağac kultunun izlərini görə bilərik. Belə ki, ağac türk xalqlarının mifologiyasında həm həyatı, həm də ölümü simvolizə etmişdir. Hətta "Dədə Qorqud"da belə bir fikir vardır: "Başın ala bakar olsam, başsız ağaç! Dibin ala bakar olsam, dibsiz ağaç!.. (10, s. 612). Bir məsələni qeyd etmək lazmdır ki, bəhs edilən dövrdə həyat ağacının təsviri mədəni

varisliklə bağlı ola bilərdi.

Bu tip təsvirlər sonrakı dövrlərdə də izlənilmişdir. Q.Əhmədov küplərin üzərində olan xaç işarəsini isə xristianlıqla əlaqələndirmişdir. Bir məsələni nəzərə çatdırmaq lazımdır ki, xaç işarəsinin yayılması xristianlıqdan da qədimdir. V.Toporov bu işarənin hələ neolit dövründə yaranmasını, hətta onun ayrı-ayrı elementlərinin üst paleolit dövründə meydana gəlməsi fikrini irəli sürmüşdür (16, s. 12-14). Göründüyü kimi xaç işarəsinin kökləri daha qədim dövrə gedib çıxır. Buna görə biz də hesab edirik ki, xaç işarəsini ancaq xristianlıqla əlaqələndirmək olmaz. Küplərin hazırlandığı dövr XII-XIII əsrin əvvəllinə aiddir və həmin dövrdə islam dini artıq möhkəmlənmişdi. Görünür ki, xristian dininin əlamətləri hələ də tam sıradan çıxmamışdır.

Göründüyü kimi, basmanaxışlı küplərin üzərində heyvan təsvirləri içərisində keçi olanlar üstünlük təşkil edir. Təsadüfi deyildir ki, keçi təsvirlərinin kökü qədim dövrə gedib çıxır. Belə ki, Qobustan qayaüstü rəsmlərində bunu görmək mümkündür. Qobustan petroqliflərini tədqiq edən Cəfərqulu Rüstəmov, Firuzə Muradova Qobustanın Kiçikdaş abidələrində xeyli sayda keçi təsvirlərinin olması haqqında qeyd ediblər. Qobustanda heyvan təsvirlərindən ən çoxu keçi şəkilləridir. Onlar əsasən Yazılıtəpədə, Böyükdaş dağının aşağı düzən sahəsində, Kiçikdaş dağında yenə düzən sahədə qeydə alınmışlar. Böyükdaş və Kiçikdaş dağı ərazisindəki ən qədim insan düşərgələri ətrafında isə onlara az təsadüf olunur. Keçi rəsmləri Qafqazda və Orta Asiyada, eləcə də Altay bölgəsində çoxluq təşkil edir. Rəsmlərdə keçilərdə qayalarda dördayaq, qısa quyruqlu və dik qalxıb irəli tərəf əyilmiş vəziyyətdə təsvir olunublar. Bundan başqa keçi təsvirləri həm tək, həm də qoşa şəkildə Altay və İssıkgül ətrafında, eləcə də Tacikistanın Dağlıq Bədəxşan Muxtar Vilayətində də qeydə alınıblar.

Maraqlı məqam ondan ibarətdir ki, Qobustanda da bir yerdə təsvir olunmuş keçi və xaç rəsmlərinə rast gəlinmişdir. Qayaüstü rəsmlərin birində xaç, iri keçi gövdəsinin ön hissəsində, ürək nahiyəsində həkk olunmuşdur. Xaç eyni ölçülü düz xəttin düz bucaq altında kəsişməsi ilə alınıb. Xaçın bütün dörd ucu qövsavri xətlə kəsilib. Elə bu təsvirdə keçinin qarnının altında, ayaqlarının arasında həkk edilib. Xaç, eyni ölçülü iki düz xəttin düzbucaq altında kəsişməsindən alınıb. Rəsmlərin dövrü ilə bağlı mübahisə yaradır, belə ki, bir yerdə təsvirin e.ə. V-IV əsrlərə, digər bir yerdə isə eramızın IX-X əsrlərinə aid olduğu qeyd edilib. Güman ki, burada e.ə V-IV əsrlər keçi təsvirinə, IX-X əsrlər isə xaça aiddir. Arxeoloq N.Müseyibli qayaüstü abidələrdə təsvir olunmuş xaç işarələrini insanların dünya haqqında ibtidai bilikləri ilə əlaqələndirib (6, s. 28).

Yazılıtəpədə olan keçi təsvirlərini mərhum arxeoloq C.Rüstəmov qurban kimi qeyd etmişdir. O, Yazılıtəpənin qədim dövrdə ada kimi su ilə əhatə olunduğu zamandan orada ilk rəsmlərin çəkilməsinə başlanıldığını ehtimal edir. Sonrakı dövrlərdə isə qədim sakinlər ətrafı qamışlıq, palçıq və su ilə əhatə olunmuş Daşlı təpədə gördükləri rəsmləri möcüzə kimi qəbul edib, keçiləri öz totemləri hesab

etmiş və Yazılıtəpəyə qurban gətirmişlər (8, s. 50). Totemlə bağlı Tahir Şahbazov qeyd edir ki, klassik formada olmasa da, Azərbaycanda totemizmin izlərinə rast gəlinir. Müəllif yazır ki, "pişiyi öldürmək günahdır", "qaranquşu incitmək, yuvasını dağıtmaq olmaz" kimi inamlar totemizmin təzahürləridir (9, s. 236). Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində rast gəlinən buynuz təsvirləri də totemizmin müəyyən mərhələsi kimi düşünülə bilər (6, s. 27).

Basmanaxışlı küplərin üzərində olan it, şir, qaban, balıq və quş təsvirləri qədim dövrdən ayrı-ayrı xalqların mifologiyasında müəyyən yer tutub. Təbii ki, onların izləri zaman-zaman özünü orta əsrlər dövründə də göstərir. Bir məsələni qeyd etmək yerinə düşər ki, orta əsrlər dövründə həmin təsvirlər aid olduğu dönəmdəki kimi mənanı ifadə etməyə bilər. Məlumdur ki, it insanın ilk əhlilləşdirdiyi heyvanlardan olub, sonradan onun sadiq dostuna çevrilib. Maraqlıdır ki, qədim türk tayfalarından olan junqlar, yəni alplar arasında it kultu vardı. Junqların davamçıları olan albanlarda da bu kult yaşayırdı. Strabon "albanların həm özləri, həm də itləri böyük həvəslə ov edirlər, ona görə yox ki, ov onların peşəsidir, daha çox ona görə ki, onların meyilləri vardır." (7, s.112).

Gəncə şəhər yerindən tapılmış küpün üzərində bir əlində yırtıcı quş, bir əlində isə dəyənək tutan insan təsvirini ov səhnəsini əks etdirdiyini söyləmək olar. Orta əsrlərə aid "Qabusnamə"də ov etməklə bağlı belə bir maraqlı məsələ qeyd edilib: " Ovu sevirsənsə, qızılquş, çərğ, şahin, qaplan və tazı ilə ova get. Həm ovun ov olsun, həm təhlükə baş verməsin." (5, s. 82-83). Buradan göründüyü kimi ov üçün qızılquş və ya şahin quşları gərəkli olub. Çox güman ki, qeyd etdiyimiz küpün üzərində olan təsvirdə insanın əlində tutduğu quş yırtıcı olub və həmin səhnə ov məqamını əks etdirir.

Göründüyü kimi, basmanaxışlı küplər üzərində olan təsvirlər təkcə öz dövrünün məhsulu olmayıb, qədim dövrdən bəri mədəni varislik yolu ilə ötürülümüş ənənələrə söykənir. Onlar qədim dövrdə oluğu kimi ilkin semantik anlamlarını ifadə etməsələr də, orta əsrlər dönəmində də öz aktuallığını tam itirməyib. Həmin təsvirli saxsı qab fraqmentləri dövrün bədii-estetik təfəkkürünü, fəlsəfi düşüncəsini, dünyagörüşünü əks etdirir və XII-XIII əsrin əvvəlinə aid sənətkarlığı, tətbiqi-dekorativ sənəti öyrənmək üçün dəyərli əşyavi mənbədir.

İstifadə olunmuş ədəbiyyatın siyahısı:

1. Cəfərzadə İ. Qobustan qayaüstü rsəmləri. Bakı, 1999.
2. Dostiyev T., Bəşirov R., Mirzəyev R., Hüseynli N. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı, 2013.
3. Əhmədov Q. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, 1959.
4. Əhmədov Q. Örənqala (qısa tarixi arxeoloji oçerk). Bakı, 1962.
5. Qabusnamə. Farscadan tərcümə: R. Sultanov. Bakı, 2006.

6. Müseyibli N. Qobustan və Gəmiqaya petroqliflərində işarə və damğalar. // Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı. Bakı, 2003. № 1,
7. Nəcəf Ə. Miflərin köçü: Qoyunlar və çobanlar. Bakı, 2017.
8. Rüstəmov C. Qobustan dünaysı. Bakı, 1994.
9. Şahbazov T. Azərbaycanda heyvan kultunun bəzi xüsusiyyətlərinə dair. // Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, 2004, № 2.
10. Bahaeddin Ö. Türk mitolojisi. II cilt. Ankara, Türk Tarih Kurumu, 2014.
11. Ахмедов К. Неполивная керамика Оренкала IX-XIII вв. // МИА, 1959. № 67.
12. Джафарзаде И. М. Историко-археологический очерк старой Ганджи. Баку, 1949.
13. Комороци Г.К. К символике дерева в искусстве древнего Двуречья. Древний Восток и мировая культура. М., 1981.
14. Левиатов. В. Керамика Старой Ганджи. Баку, 1940.
15. Пассек т. Латынин Б. Очерк до-истории Северного Азербайджана. // Известия общества обследования и изучения Азербайджана. Баку, 1926.
16. Топоров В. Н. Крест. // Мифология народов мира II, 1982.

Aida İsmailova

Traces of the religious-philosophical worldwide view on medieval Azerbaijani earthnware with stamping patterns (On the materials of the National Museum of History of Azerbaijan)

Summary

Key words: *Medieval, Archaeological fund, stamping vessels, religious-philosophical view, description.*

The paper deals about stamping earthenware belonging to XII-begining XIII century and protecting at Archaeological fund of National History Museum of Azerbaijan. Stamping earthenware was found from medieval cities Beylagan, Ganja, Mingachevir and they have descriptions of the tree of life, dog, goat, bird, fish, and wild boar and on them. In the article the statistical counting of these descriptions is carried out, images of several samples from each monument were is described, their semantic meaning is indicated, and their importance in studying of artistic-aesthetic perception, religious-philosophical worldwide view, and the way of thinking of their time is noted.

Аида Исмаилова

Следы религиозно-философского мировоззрения на средневековых азербайджанских кувшинах с тиснеными узорами (на материалах Национального Музея истории Азербайджана)

Резюме

Ключевые слова: *средние века, Археологический фонд, кувшины с тиснеными узорами, религиозно-философского мировоззрения, изображения*.

Статья посвящена кувшинам с тиснеными узорами XII – нач. XIII вв., хранящимся в фонде археологии Национального Музея истории Азербайджана. Эти кувшины обнаружены в средневековых городищах Бейлаган, Гянджа и Мингечевир. На них имеются изображения древа жизни, собаки, козы, птицы, рыбы, кабана, льва и человека. В статье проведен статистический подсчет этих предметов, представлены изображения нескольких образцов из каждого памятника, указывается их семантический смысл, а также отмечается их значение в изучении художественно-эстетического восприятия, религиозно-философского мировоззрения, склада мышления своего времени.

Эмин Мамедов, Геннадий Агаев

Статистические данные о ходе раскопок археологического комплекса в Мингечауре в 1946-1953 гг.

Ключевые слова: *Самунис-Мингечаур, археологические коллекции, фонд, музей*

UOT 902

Исключительным событием в истории археологической науки Азербайджана, предоставившим в руки исследователей огромный фактологический материал для изучения ряда исторических эпох, в том числе по истории античного города Самуниса-Мингечевира, явилось начало во второй половине 40-х годов XX века масштабных археологических работ в зоне строительства на Куре, одного из крупнейшего на всем Кавказе Мингечевирской гидроэлектростанции.

На протяжении более семи лет, с 1946 по 1953 гг., в зоне Мингечевира археологами были выявлены яркие памятники материальной и духовной культуры азербайджанского народа, охватывающие период более пяти тысяч лет [3, с.8].

На основания исследования и выявленных материальных памятников из Мингечевира в 50-х годах XX века руководителем археологической экспедиции С.М. Казиевым была составлена стратиграфическая таблица Мингечаура.

Весь археологический материал из Мингечевира состоял из 9 культурных слоев, 10 типов погребений, 4 поселений, 7 жилищ и 5 видов обжигательных печей. Все эти культурные памятники подразделяются на четыре разновременных исторических периода. Наиболее ранние памятники здесь относятся к последней четверти IV тысячелетия до н.э., поздние же датируются XVIII веком.

В период проведения археологических работ в комплексной Мингечевирской экспедиции участвовали научные сотрудники и аспиранты Института истории

и секции отдела археологии Академии наук Азербайджанской ССР, а также сотрудники Музея истории Азербайджана [7].

На протяжении всего периода раскопок в зоне Мингечевира начальником экспедиции, согласно решению Академии наук Азербайджанской ССР, был назначен один из видных азербайджанских археологов, кандидат исторических наук Салех Мустафа оглы Казиев.

В работе экспедиции участвовали Е.А. Пахомов, И.М. Джафарзаде, О.Ш. Исмизаде, Г.И. Ионе, Р.М. Ваидов и Г.М.Асланов (1946-1953 гг.), В.П. Фоменко (1946-1952 гг.), Т.И. Голубкина (1946-1950 гг.), Ш.Г.Исакова, Х.А. Мамедова, Ж.А. Акопова и Х.П. Абдуллаев (1949-1950 гг.), О.А. Даниелян (1949-1952 гг.), М.М. Гусейнов и И.Г. Нариманов (1951-1952 гг.), И.Н. Юсупов (1950-1952 гг.), Л.Д. Осипова (1947- 1948 гг.), Д. Халидов (1950-1951 гг.), Т.А. Буниятов (1952 г.), А.В. Рагимов (1946-1949 гг.), Г.М. Ахмедов (1952-1953 гг.), художник Али Саттар (1947-1952 гг.) [3, с.8], О.А. Абибуллаев, Н.В. Минкевич-Мустафаева, Г.М. Ахмедов, М.И. Атакишиева, З.А. Кильчевская и А.Н. Гусейнов [8].

Большой вклад в систематизацию археологического материала из Мингечевира внесли такие видные ученые-археологи, как Е.А. Пахомов, И.М. Джафарзаде, С.М. Казиев, О.Ш. Исмизаде, Р.М. Ваидов, Г.М. Асланов, Дж.А. Халилов, Г.И. Ионе и Т.И. Голубкина, которым принадлежат первые опубликованные научные статьи и книги, в которых обобщаются и анализируются выявленные в ходе раскопок археологические материалы.

Исключительно ценные факты из истории изучения древнего Самуниса-Мингечевира на основании обнаруженных артефактов мы познаем из фундаментальной монографии «Древний Мингечаур» (1959 г.), подготовленной участниками экспедиции археологами Г. Аслановым, Р. Ваидовым и Г. Ионе [3, 190с.]. Данная работа представляет большую актуальность в исследовании периода античности древнего Мингечевира. На основании археологических материалов Национального музея истории Азербайджана, можно восстановить исторический фон, на базе которого впоследствии формировалась городская культура.

В 1960 году по имеющим экспедиционным отчетам и полевым дневникам, а также проведенных зарисовок с натуры, С.М. Казиевым был издан научный каталог «Альбом кувшинных погребений» [6, 27с.]. Красочно и комплексно иллюстрированный, изданный на азербайджанском и русском языках широкоформатный альбом является ценным источником для изучения культуры кувшинных погребений древнего и средневекового периодов истории Азербайджана. Эта работа своего рода стала важным этапом в изучении особенностей городских некрополей античного Самуниса-Мингечевира.

Другим ценным вкладом в историографию Азербайджана был труд известного ученого К.В. Тревера «Очерки по истории и культуре Кавказской

Албании (IV в. до н.э. – VII в. н.э.). [11, 389с.] Хронологические рамки этой работы довольно обширны и охватывают более чем тысячелетнюю историю Кавказской Албании.

В 1961 г. на основании многолетних археологических раскопок, проводимых в Мингечауре на левом берегу р. Куры, охватывающий территорию в 14 гектаров, археолог Р.М. Ваидов опубликовал монографию на тему «Мингечаур в III-VIII веках.» [2, 162с.]. Большое место в этом исследовании занимает описание и анализ раннесредневековых поселений и остатков материальной культуры. Автор на основании обнаруженных археологических материалов исследовал социально-экономическую деятельность, ремесло, материальную и духовную культуру местного населения в III-VIII вв. Исключительно велико значение албанских надписей, обнаруженных на каменных и глиняных изделиях, которые занимают существенное место в его исследовании.

В 1971 г. Ш.Г. Садыхзаде подготовила альбом «Древние украшения Азербайджана» в котором были привлечены множество археологических материалов обнаруженных из Мингечевира [10, 19с.].

В 1985 г. вышла монография Дж.А. Халилова, посвященная истории «материальной культуры Кавказской Албании древнего периода IV в. до н.э. – III в. н.э.». [12, с.385]. В данной работе после представления обзора по истории изучения памятников материальной культуры Албании, автор подробно характеризует археологические памятники Албании, дает четкую классификацию и сравнительный анализ последних и, базируясь на них, освещает состояние экономики городов и ремесленного производства, торговли, по мере возможности раскрывает структуру общественного строя и рассматривает вопросы духовной культуры и идеологии албанского общества в древний период.

Впервые на основании экспедиционных отчетов и личных дневников участников археологической экспедиций мы можем представить статистические данные о динамике раскопок археологического комплекса в Мингечевире.

В 1946 г. было обследовано более 4000 кв. м., выявлено 250 захоронений, обнаружено свыше 6000 артефактов [5, с.4-49]. В 1947 г. было обследовано более 3000 кв. м., а также выявлено 350 захоронений и обнаружено свыше 4000 артефактов [8].

С 1948-1949 гг. обследовано более 12986 кв. м., из 200 участков было выявлено 167 захоронений, 11 из них датировались до I век н.э., а также 16 относились к кувшинным погребениям, 99 погребений с деревянной обкладкой, 1 погребение сасанидского периода и 2 кургана.

В результате исследований выявлено свыше 10.000 археологических материалов, большинство из которых составляли предметы быта из керамики, орудия труда, оружие из бронзы и железа, предметы украшения из природных

минералов, а также из бронзы, серебра и золота и т.д. [9].

Вследствие исследования всего археологического комплекса в 1946-1953 гг. была обследована территория площадью, составляющая около 35 000 кв. м., с глубиной в среднем от 2,5 до 3 м., и добыто свыше 20.000 различных археологических предметов [4, с.608-622].

Определенная часть археологических материалов античного периода обнаружена в период проведения раскопок в Мингечевире в 1941-1953 гг. и занесены в главную книгу поступления Национального музея истории Азербайджана КП № 37, от 18 января 1967 года. В инвентарную книгу Акт под № 137, акт № 8457 (1941г.), акт № 138 книга поступлении инв. № 8458 (1946 г.), акт № 139, книга поступления инв. № 8459 (1947 г.), акт № 140, книга поступления инв. № 8460 (1948 г.), акт № 141, книга поступления инв. № 8461 (1949 г.), акт № 142, книга поступления инв. № 8462 (1950 г.), акт № 143, книга поступления инв. № 8463 (1951 г.), акт № 144, книга поступления инв. № 8464 (1952 г.), акт № 145, книга поступления инв. № 8465 (1953 г.).

Следует отметить, что все эти данные выявлены вследствие исследований археологических материалов, хранящихся в фонде археологии Национального музея истории Азербайджана.

Таким образом, видно, что общая численность артефактов из Мингечевира, поступивших в состав фонда археологии в 1959 г. на постоянное хранение, составляет 7425 единиц. 5603 предмета из них были зафиксированы в инвентарных книгах.

В последующие годы еще 1822 археологических материалов были внесены в книги по инвентаризации под номерами: книга №6 (инв. № 3137-3140, 1946-1947 гг.); книга №12 (инв. №10457-10785, 1946 г.); книга №18 (инв. № 13392-13784, 1941-1948-1951-1952 гг.); книга №20 (15809, 1950 г., 15817, 1946-1947-1952 гг.); книга №27 (21734, 21736-21737, 21739-21740, 21747-21749); книга №29 (23581-23586, 1949-1950 гг., 23588-23600, 1951-1953 гг., 23602-23611, 23613-23617, 23620-23622, 23624-23626, 23628, 23631, 23635, 23636-23639, 23642-23643, 23645-23648-23652, 23670-23673-23681-23699, 1948 г., 23719-23732, 1948 г., 23738-23739, 23742-23744-23746-23748-23750-23768, 1949 г.).

Большая часть указанных археологических материалов с 1959 года по сей день находится на хранении в научном отделе и фонде археологии Национального музея истории Азербайджана.

Более 1100 археологических материалов из Мингечевира были подвергнуты камеральным и реставрационным работам, а также занесены в электронные паспорта Национального музея истории Азербайджана. Данная работа по описанию паспортов продолжается и поныне.

В настоящее время все вещественные артефакты Мингечевирской коллекции содержатся в специальном помещении научного отдела

археологического фонда Национального музея истории Азербайджана, общей площадью около 214,5 кв. м. [1, с.120].

Керамические изделия средних и мелких размеров содержатся в коробках на стеллажах в 36-ти шкафах. Наиболее крупные археологические предметы это хозяйственные кувшины с широкой емкостью, размещены вдоль стены. Для кирпичных и черепичных изделий, а также для труб водопровода из керамики были выделены два деревянных ящика.

Все археологические материалы по своему уникальны и составляют ряд хронологических групп, следующих друг за другом в определенной исторической последовательности.

Таким образом, все вышеуказанные вещественные материалы, содержащиеся в археологическом фонде Национального музея истории Азербайджана, нашли отражение в научных отчетах, документах и полевых дневниках, хранящихся в архивах Национального музея истории Азербайджана и Института Археологии-Этнографии Национальной академии наук Азербайджана.

Подводя итоги результатов археологических раскопок предшествующих лет с 1935, 1941 и 1946-1953 гг., становится, очевидно, что Мингечевирские археологические раскопки представляют собой единственный в своем роде археологический комплекс, позволяющий проследить непрерывную линию исторического процесса развития культуры местного населения с древнейших времен до наших дней и последовательную смену ее этапов.

Более того, археологические материалы из Мингечевира в свое время позволили корректировать выводы других раскопок и исследований, производимых как в Азербайджане, так и в других регионах Южного Кавказа.

Значительная часть археологического материала, обнаруженного в результате исследований в Мингечевире, относится к античному периоду, характеризующие материальную и духовную культуру населения в этот исторический период. Кроме того, эти материалы подтверждают наличие здесь на рубеже двух эпох крупного города с развитой архитектурой и торгово-ремесленной инфраструктурой.

По мнению выше упомянутых исследователей, этим городом, упоминаемый в письменных источниках, является Самунис - один из античных городов Кавказской Албании.

Список использованной литературы:

1. Quluzadə Nasir. Arxeologiya fondunda mingəçevir materiallarinin komplektləşdirilməsilə bağlı tətbiq olunan yeniliklər// Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu. II Respublika elmi konfransının

materialları. Bakı, 2012.
2. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, 1961.
3. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур (эпоха энеолита и бронзы) Баку, 1959.
4. Джафарзаде И.М. К вопросу древней истории Азербайджана по археологическим данным. 10 лет Академии наук Азерб. ССР. Баку, 1957.
5. Казиев С.М. Археологические раскопки в Мингечауре// Материальная культура Азербайджана. Баку, 1949.
6. Казиев С.М. Альбом кувшинных погребений. Баку, 1960.
7. Научный архив Национального Музея истории Азербайджана. 1941 г. инв. № 165.
8. Научный архив Национального Музея истории Азербайджана. Научный архив Национального Музея истории Азербайджана. Протоколы заседаний ученого совета МИА за 1945-1947 гг. инв. № 252.
9. Научный архив Национального Музея истории Азербайджана. Протоколы заседаний ученого совета Музея истории Азербайджана за 1945-1947 гг., инв. № 298.
10. Садыхзаде Ш.Г. «Древние украшения Азербайджана». Баку, 1971, 19с.
11. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. Москва, 1959.
12. Халилов Дж.А.. Материальной культуры Кавказской Албании древнего периода (IV в. до н.э. – III в. н.э.). Баку, 1985.

Emin Məmmədov, Gennadi Ağayev
1946-1953-cü illərdə Mingəçevir arxeoloji kompleksində aparılan qazıntılarına dair statistik məlumatlar (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Xülasə

Açar sözlər: *Samunis-Mingəçevir, arxeooji kolleksiya, fond, muzey*

İlk dəfə qazıntı hesabatları və ekspedisiya üzvlərinin şəxsi gündəlikləri əsasında Mingəçevir arxeoloji kompleksinə aid bəzi statistik göstəricilər təqdim edilmişdir. 1946-1953-cü illər ərzində dərinliyi orta hesabla 2,5-dən 3 m-ə qədər olan 35000 kv m-ə yaxın ərazi arxeoloji qazıntılara cəlb olunmuş və 20000 mindən artıq müxtəlif maddi mədəniyyət nümunəsi tapılmışdır.

1959-cu ildə daimi mühafizə üçün muzeyə daxil olmuş Mingəçevir arxeoloji tapıntılarının ümumi sayı 7425 ədəd olub ki, onlardan 5603 ədədi inventarlaşdırmaya

cəlb edilmiş, 1822 ədədi isə kitablarda qeydə alınmışdır. Qeyd etmək lazımdır ki, bütün bu materiallar bu gün də Milli Azərbaycan Tarixi Muzeyinin müvafiq fondlarında qorunur. Əksər tədqiqatçıların fikrincə qədim yazılı mənbələrdə xatırlanan Qafqaz Albaniyasının bu antik şəhəri Samunisdir.


Emin Mammadov, Gennadi Agayev
Statistical data on the excavation of the archaeological complex in Mingechevir in 1946-1953 (Based on the materials of the National Museum of History of Azerbaijan)

Summary


Key words: *Samunis-Mingechevir, archaeology collection, fund, museum*

For the first time on the basis of expedition reports and personal diaries of the expedition participants the statistical data on the archaeological complex in the city of Mingechevir are presented. During the period 1946-1953 about 35,000 square meters of the archeological area with an average depth of 2.5 to 3 m was surveyed. It was obtained more than 20,000 different archaeological items.

In 1959 a total number of artifacts received for the permanent storage in the National Museum of History of Azerbaijan accounted for 7425 units of which 5603 units were subjected to the inventory, some 1822 archaeological materials were listed into books. It should be noted that at present all these materials are kept in the funds of the museum. According to some scholars the artifacts that mentioned in written sources were found in Samunis which is considered to be one of the ancient cities of Caucasus Albania.



Стратиграфическая таблица, составленная в 50-х годах XX века С.М. Казиевым



Схематическая карта Мингечаура, составленная в 40-х годах XX века руководителем археологической экспедиции С.М. Казиевым

Aygün Məmmədova

2016-2017-ci illərdə Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika fonduna təqdim olunan numizmatik materiallar

Açar sözlər: *muzey, fond, sikkələr, dəfinələr, Sasanilər, Şirvanşahlar*

UOT 902

Daim aktuallığını qoruyan numizmatika elmi yeni tapıntılar sayəsində maraqlı məlumatlarla zənginləşir.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fonduna müntəzəm olaraq daxil olan yeni materiallar Azərbaycan tarixinin bir sıra həllini tapmamış məsələlərinin həll edilməsində önəmli vasitədir.

2017-ci ildə Şamaxı şəhərindən 35 kilometr şimali-qərbdə, dəniz səviyyəsindən təqribən 1800 metr yüksəklikdə, Dəmirçi kəndinə məxsus yaylaqda yeni arxeoloji abidə - daş qutu qəbirlərdən ibarət Dəmirçi nekropolu aşkar olunmuşdur (1).

2015-ci ilin ortalarında Şamaxı - Dəmirçi - Lahıc yolunun çəkilişi zamanı təsadüfən üzə çıxmış, 3 hektara yaxın sahəsi olan bu abidəyə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları baxış keçirsələr də, sonralar bəzi sərişdəsiz insanlar orada ekskavatordan istifadə etməklə ciddi dağıntılar törətmişdilər.

Abidənin əhəmiyyəti nəzərə alınaraq, SOCAR və Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi, Miras Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşkilatçılığı ilə 2017-ci ilin may ayından AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Dəmirçi arxeoloji ekspedisiyası üzvləri bu abidədə bir ay ərzində tədqiqat axtarışları aparmışlar.

Ekspedisiya üzvləri tərəfindən öyrənilən daş qutu qəbirlərdə zəngin və rəngarəng çeşidli maddi-mədəniyyət nümunələri (məişət və bəzək əşyaları, sikkələr və d.) qeydə alınmışdır (1).

Gələcək turizm layihələri üçün maraq kəsb edən bu abidədən aşkarlanmış arxeotapıntılar, o cümlədən numizmatik materiallar Dəmirçi ekspedisiyası üzvləri, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası"

şöbəsinin əməkdaşları t.e.d. Qafar Cəbiyev və t.ü.f.d. Elmira Abbasova tərəfindən 2017-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyə olaraq təhvil verilmişdir. Muzeyin Tarixi Əşyaların Fond-Satınalma Komissiyasının 7 sentyabr 2017-ci il tarixli qərarı ilə (akt 66) Numizmatika Fonduna verilməsi məqsədəuyğun hesab edilən həmin sikkələr sırasında Sasani hökmdarı II Bəhrama (274-293) aid gümüş drahma xüsusilə maraqlıdır (şəkil 1).

Avers: şahənşah həyat yoldaşı və oğlu ilə təsvir edilib, sikkə dairəsi daxilində, kənarlarda pəhləvi yazıları.

Revers: mərkəzdə atəşgah, sağ və sol tərəfində onu qoruyan mühafizəçilər. Sağ mühafizəçinin başı üzərində buğa simvolu.

Yetərsiz qorunma vəziyyətində olan, diametri 2,8 sm, 3,8 q çəkiyə malik bu gümüş drahmanın kənarında dəlik vardır.

1963-cü ildə Qəbələ rayonunda aşkarlanmış dəfinədəki (158 ədəd) sikkələri təyin və tədqiq edən t.e.d., professor Əli Rəcəbli II Bəhram dövrünə aid çoxsaylı gümüş dirhəmlərin əksəriyyət təşkil etdiyini (154 ədəd) müəyyən etmişdir (5; s. 74).

Erkən sasani numizmatikasının ən görkəmli və maraqlı nümunələri Sasani şahənşahı II Bəhramın hakimiyyəti dövrünə aiddir.

Yazılı mənbələrdə yetərincə işıqlandırılmamış II Bəhram dövrünün ictimai-siyasi hadisələri erkən Sasani epiqrafikası, sikkələr və d. maddi-mədəniyyət tapıntılarına əsasən müəyyən edilmişdir. Onun sikkələrində digər rəsmi Sasani şahənşahlarından fərqli olaraq ikili və üçlü təsvirlər vardır. Məhz bu şahənşahın hakimiyyəti illərində zərb edilən sikkələrə zərbxananı ifadə etmək məqsədilə iki, bəzən isə üç pəhləvi hərflərindən ibarət monoqramlar həkk edilməyə başlanılmışdır.

II Bəhram yeganə hakimdir ki, sikkələrində həyat yoldaşı, Mesena çarı Şapurun qızı, II Bəhramın xalası qızı şahzadə Şapurduxtakla birgə təsvir edilmişdir. Sasanilərin sikkə zərbi texnikasına aid tədqiqatlar sayəsində məlum olmuşdur ki, qısa bir müddət – 17 illik zərb ərzində belə sikkələrə 20-yə yaxın müxtəlif təsvirlər həkk edilmişdir. Bu Sasani numizmatikasında istisna haldir.

II Bəhramın həyat yoldaşı və oğlunun tacları üzərində müxtəlif vaxtlarda fərqli heyvanların (qaban, at, ayı, vəhşi quş başı və hətta sehrli Simurq quşu) təsvirləri həkk edilmişdir. Zərdüştlük inancına əsasən, bu heyvanlar sanki "səmanın şaha və ailəsinə olan rəğbətini" ifadə edirdilər (4; s. 40).

Rəsmi atəşpərəstlik dinini əsas təbliğat vasitəsi olaraq Sasani sikkələrində əks etdirən II Bəhram dövründə bundan əlavə onlarca qayaüstü təsvirlər də yaradılmışdır (3; s. 87).

Numizmatika Fondunda qorunan bu sikkə ilk orta əsrlər tarixini tədqiq edən araşdırmaçılar üçün maraq kəsb edir.

2016-cı ildə Numizmatika Fonduna daxil olan digər unikal sikkələrdən biri də şirvanşah Məhəmməd ibn Əhməd (370-381 = 981-991) adından zərb edilmişdir (akt 102).

Zaqatala rayonunun Yuxarı Çardaqlı kəndi ərazisində tapılmış (tapılma ili

dəqiq məlum deyil) dəfinənin bir hissəsi - 15 sikkə MATM-nə təyinat və təhvil verilmə üçün təqdim edilmişdir. T.e.d., prof. Əli Rəcəblinin təyinatı sayəsində həmin dəfinədən aşağıda şəklini təqdim etdiyimiz sikkə müəyyən edilmişdir.

لا اله الا الله وحده /لاشريك له / الطائع لله /اسد

= Allahdan başqa ilah yoxdur, O, vahiddir, şəriki yoxdur, ət-Tai lillah. Aşağıda: Əsəd - ?.

Revers: Mərkəzdə, beş sətirdə:

محمد رسول ألله/ الملك المو / يد ابو الاسوار / محمد بن احمد /شروانشاه

= Məhəmməd Allahın elçisidir, məlik əl-müvəyyəd, Əb ul-əsvər, Muhəmməd bin Əhməd, şirvanşah. Ətrafında: Qurani-Kərim, IX surə, ayə 33 (2; s. 31-32).

Tarixi tədqiqatlardan aydın olur ki, "şirvanşah Əhməd ibn Məhəmməd ibn Yəzidin (h. 345-370) vəfatından sonrakı il oğlu və varisi Məhəmməd şirvanşah titulunu qəbul edərək Qəbələ hakimi Əbd əl-Barr ibn Ənbasla mübarizə apararaq, bu şəhəri ələ keçirmişdir. Növbəti ildə isə o, Bərdə şəhərini də ələ keçirərək oranın hakimliyini Musa ibn Əliyə həvalə etmişdir.

Hicri 373 = 983-cü ildə şirvanşah Muhəmməd ibn Əhməd Şabran qala divarının tikintisinə əmr vermişdir. Hicri 378 = 988-ci ildən isə Gilanlı fəqih əl-Tuzinin təklifi ilə əl-Bab (Dərbənd) şəhərinə rəhbərlik etmişdir.

Əl-Babın sabiq hakimi, əmir Məymunun Bəlid (Bəldu-?) adlı qulamı vasitəsilə şirvanşah Muhəmmədə sui-qəsd təşkil edilmiş, nəticədə yaralı şirvanşah Şirvana aparılmış, əmir Meymun isə yenidən əl-Bab şəhərinə qayıtmışdır.

Bir müddətdən sonra Məhəmməd ibn Əhmədin səhhəti yaxşılaşsa da, onun Bərdəyə təyin etdiyi Musa ibn Əli ona qarşı üsyan qaldırmış və xütbədə yalnız öz adının səsləndirilməsinə əmr vermişdir.

Hicri 380 = 990-cı ildə əl-Babın sakinləri etiraz edərək əmir Meymunu şəhərdən qovmuş və şirvanşah Məhəmməd ibn Yəzidin rəhbərliyini qəbul etdiklərini bildirmişdilər. Məhəmməd ibn Yəzid Dərbənd qalasını möhkəmlədərək şəhərin müdafiəsini gücləndirmişdir.

Məhəmməd ibn Yəzid hicri 381 = 991-ci ildə dünyasını dəyişmişdir" (6; s. 51).

Son illərin numizmatik tapıntıları sırasında onun adından zərb edilmiş h. 371 = 891/2-ci ilin Şirvan və h. 373 = 983/4-cü ilin Bərdə gümüş dirhəmləri nadir hesab olunur (7; şəkil 3 və 4).

Şəxsi kolleksiyada saxlanılan və 2016-cı ildə MATM-nə təyinat üçün təqdim edilən digər unikal sikkələrdən biri də şirvanşah Yəzid ibn Əhmədə (381-418 = 991-1027) aiddir (şəkil 5).

Şirvanşah Məhəmməd ibn Əhməddən sonra hakimiyyət gələn qardaşı II Yəzid barədə məlumat verən V.Minorski, "onun İran-sasani əsilzadələri ilə qohumluq əlaqələrinə diqqət yetirərək, şirvanşahın övladlarının adlarının fars onomastikasına uyğun olduğunu qeyd etmişdir. Şirvanşah II Yəzidin bu addımını V.Minorski,

Xilafətdə mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində baş qaldıran separatizm dönəmində şirvanşahın özünə qədim və məşhur sülaləyə arxalanmaq cəhdi ilə əlaqələndirmiş, Yəzidilərin hakimiyyətinin permanent xarakter daşıdığını" vurğulamışdır (6, s. 52-53; 2, s. 33).

Əl-Bab, Qəbələ, Şəki hakimləri ilə müharibələr aparmış, Şirvanın ərazisini genişləndirməyə çalışmış şirvanşah II Yəzidin uzunmüddətli hakimiyyəti (37 il) dövrünə aid aşağı əyarlı gümüş dirhəmlərindən biri xəlifə əl-Qadir billahın (991 - 1031) dönəmində zərb edilmişdir (6, s. 90).

II Yəzidin oğlu Ənuşirvan 416 = 1025-ci ildə Yəzidiyyədə ***(Şamaxıda)*** atasının müavini olduğu dönəmdə, atasına qarşı ***üsyan qaldır***mışdır. ***Nəticədə atasının əmriylə uzun müddət Gülüstan qalasında həbsdə saxlanılmış və dünyasını dəyişmişdir*** (6, s. 53).

II Yəzidin sikkə zərbi "gümüş böhranı" dönəminə təsadüf edir. Bu dövrün gümüş dirhəmləri aşağı əyarlı, çəkisi isə normadan xeyli yüksəkdir. MATM NF-da qorunan 4 q çəkili Yəzidiyyə dirhəmi söylədiyimizə sübutdur (2; s. 33).

II Yəzid ibn Əhməd dövrünə dair digər tipli bilon və *ağır çəkili* gümüş dirhəmlər də məlumdur *(şəkil 6 və 7)*.

Şirvanşah Yəzid ibn Əhməd h. 418 = 1027/8-ci ildə dünyasını dəyişmişdir (6, s. 53).

Şəxsi kolleksiyada saxlanılan və 2016-cı ildə MATM-nə təyinat üçün təqdim edilən digər unikal sikkələrdən biri də şirvanşah Qubad ibn Yəzidə (435-441 = 1043-1049) aiddir.

Avers: Mərkəzdə, altı bucaqlı kartuşda, dörd sətirdə iman simvolu və xəlifə adı= Allahdan başqa ilah yoxdur, O, vahiddir, şəriki yoxdur, əl-Qaim bi əmriallah. Ətrafında: zərbxana və zərb ili aydın deyil.

Revers: İkili dairədə dörd sətirdə:

محمد رسول أنله/الملک المظفر | قباد بن يزد شر /وانشاه

= Məhəmməd Allahın rəsuludur, əl-məlik əl-muzəffər, Qubad ibn Yəzid şirvanşah. Ətrafında: Qurani-Kərim, IX surə, ayə 33.

V.Minorskinin tədqiqatlarına əsasən, h. 436-cı ildə = 1044-cü ildə əl-Bab (Dərbənd) əmiri ilə rəislər arasındakı münaqişə nəticəsində əmirin zövcəsi, Qubadın bacısı Şəmkuyə (mətndə Şəkmuyə) əsir alınmış və qardaşına (Qubada) göndərilmişdir. Şirvanşah Qubad bacısını bir müddətdən sonra azad etmiş və 437=145-ci ildə əl-Bab əmirinə geri yollamışdır (6, s. 56).

Şirvanşah Qubadın əmri ilə h. 435/6-cı ildə = 1045-ci ildə türk-oğuz hücumunun qarşısının alınması üçün əl-Yəzidiyyə (Şamaxı) şəhəri (həmin dövr üçün bu şəhər artıq 125 ildən artıq tarixə malik idi) ətrafında möhkəm qala divarları inşa edilmişdir.

Altı il hakimiyyətdə olan şirvanşah Qubad 1049-cu ildə dünyasını dəyişmişdir (6, s. 56). Bu şirvanşah adından olan digər bilon dirhəm fərqli tipə malikdir (şəkil 9).

18 - 22 aprel 2017-ci ildə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin "Numizmatika və epiqrafika" elmi-fond şöbəsinin müdiri, t.e.d., prof. Əli Rəcəbli Rusiya Federasiyasının Veliki Novqorod şəhərində keçirilən XIX Ümumrusiya Numizmatika Konfransında iştirak edərək "Şirvanşahların nadir sikkələri" adlı məruzə ilə çıxış etmişdir. Məruzədə V Məhəmməd ibn Əhməd (981-991), Qubad ibn Yəzid (1043 - 1049) və Burhan Əlinin (1540 – 1549) nadir sikkələrinə əsaslanaraq Azərbaycan tarixinin qeyd edilən dövrü ilə əlaqədar məlumatlara yenidən nəzər salmağın vacibliyi diqqətə çatdırılmışdır.

2016-2017-ci illərdə Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika fonduna daxil olan qeyd etdiyimiz yeni numizmatik materiallar tədqiqatçılar üçün maraqlı tədqiqat obyektləridir.

İstifadə eilmiş ədəbiyyat siyahısı:

1. Cəbiyev Q. Şamaxıda nadir arxeoloji tapıntılar // Xalq qəzeti, 20.06.2017
2. Rəcəbli Ə.M. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII – XVI yüzillər) (üç dildə). Bakı, 2015.
3. Дашков С. Б. Цари царей — Сасаниды. История Ирана III — VII вв. в легендах, исторических хрониках и современных исследованиях. М., 2008.
4. Луконин В.Г. Исторический аспект в изучении памятников культуры Сасанидского Ирана. // СГЭ. Вып. XXXII. Л., 1971.
5. Луконин В.Г., Раджабли А. Клад из Чухур-Кабала // Луконин В.Г. Иран в III веке. Новые материалы и опыт исторической реконструкции. М., 1979.
6. Минорский В.Ф. История Ширвана и Дербенда X-XI веков. М., 1963.
7. www.zeno.ru

Aygun Mammadova

The numismatical materials presented to Numismatical Fund of the National Azerbaijan History Museum for 2016-2017

Summary

Keywords: *museum, fund, coins, hoard, Sasanid, Shirvanshah*

This article reviews coins which are acquired by the Numismatical fund of the National Azerbaijan History Museum for the period 2016-2017, which came into possession of private collections.

The author examines unique coins of Sasanid king Varakhran II (274-293), as well as late Shirvanshahs' –Muhammad ibn Akhmad (981-991), Yazid ibn Akhmad

(991-1027) and Kubad ibn Yazid (1043-1049), in the completion conclusions are drawn.

Айгюн Мамедова
Нумизматические материалы, представленные в Нумизматический Фонд Национального Музея Истории Азербайджана за 2016-2017 гг.

Резюме

Ключевые слова: *музей, фонд, монеты, клад, Сасаниды, Ширваншахи*

В статье представлена информация о некоторых монетах, поступивших в 2016-2017 гг. в Нумизматический Фонд Национального Музея Истории Азербайджана, а также, хранящихся в личных коллекциях.

Автором проанализированы уникальные монеты сасанидского царя II Варахрана (274-293), а также поздних ширваншахов – Мухаммеда ибн Ахмада (981-991), Йазида ибн Ахмада (991-1027) и Кубада ибн Йазида (1043-1049), сделаны соответственные выводы.



Şəkil 1. NF 56398. Sasanilər. II Bəhram (274-293), gümüş drahma, 3,8 q



Şəkil 2. NF 56307. Şirvanşahlar. Məhəmməd ibn Əhməd (981-991), zərbxana və zərb ili aydın deyil, gümüş dirhəm, 3,9 q



Şəkil 3. Şirvanşahlar. Məhəmməd ibn Əhməd (981-991), h. 371 = 891/2, Şirvan, gümüş dirhəm, 4,3 q 891/2, Şirvan, gümüş dirhəm, 4,3 q



Şəkil 4 . Şirvanşahlar. Məhəmməd ibn Əhməd (981-991), h. 373 = 983/4, Bərdə, gümüş dirhəm, 2,86 q (aversdə atlı təsviri



Şəkil 8 . Şirvanşahlar. Qubad ibn Yəzid (1043-1049), zərbxana və zərb ili aydın deyil, bilon dirhəm, 4,8 q (şəxsi kolleksiya)



Şəkil 5. Şirvanşahlar.II Yəzid ibn Əhməd (991 - 1027), zərb ili aydın deyil, bilon dirhəm, 2,3 q (şəxsi kolleksiya



Şəkil 6. Şirvanşahlar. II Yəzid ibn Əhməd (991 - 1027), zərb ili aydın deyil, bilon dirhəm, 2,7 q (avers və reversdə zəncirvari sikkə möhürü)



Şəkil 7. Şirvanşahlar. II Yəzid ibn Əhməd (ü991 - 1027), ərb ili aydın deyil, gümüş dirhəm, 4,4 q



Şəkil 9. Şirvanşahlar. Qubad ibn Yəzid (1043-1049), zərbxana və zərb ili aydın deyil, bilon dirhəm, 4,3 q

Aygün Quliyeva

Etnoqraf Mariya Quliyevanın elmi və ictimai fəaliyyətinə dair (MATM Sənədli mənbələr fondunun materialları əsasında)

Açar sözlər: *Etnoqraf, Mariya Quliyeva, ekspedisiya, ekspozisiya, tədqiqat, sənəd.*

UOT 39

Azərbaycan muzeyşünaslığının keçdiyi tarix salnaməsini vərəqləyərkən, tanınmış simalarla rastlaşırıq. Bu gün dünya şöhrətli Milli Azərbaycan Tarixi Muzeyinin yaranmasında kimlərin böyük rolu, xidməti olmuşdur? Muzeyin formalaşdığı dövrdə Azərbaycan tarixini, maddi mədəniyyətini kimlər tədqiq və təbliğ etmişdir?

Azərbaycan Dövlət Muzeyinin təşkilində dövrünün tanınmış alimləri- Nikolay Pçelin, professorlar İshaq Cəfərzadə, Yelpatyevski, Yevgeni Paxomov (3, s.14) Sara Aşurbəyli**,** görkəmli rəssamlardan Əzim Əzimzadə, Rüstəm Mustafayev, Sabsay (5) və başqaları mühüm rol oynamış, sonralar bu siyahı genişlənərək milliyyətindən asılı olmayaraq, bir çox peşəkar kadrlar cəmləşmişdir.

Azərbaycan etnoqrafiyasının öyrənilməsi sahəsində atılmış ilk addımlar da Azərbaycan Dövlət Muzeyinin adı ilə bağlıdır. 1936-cı ilin martında ZSFSR Elmlər Akademiyası Azərbaycan filialının tərkibində yaradılan Arxeologiya və Etnoqrafiya bölməsindən daha öncə, hələ 1920-ci illərdə Muzeyin Tarix şöbəsinin tərkibində Etnoqrafiya yarımşöbəsi fəaliyyətə başlamış, bu missiyanın həyata keçməsində 1923-cü ildə yaradılan "Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyəti"nin də çox böyük xidmətləri olmuşdu. Bu cəmiyyətin tərkibində Muzey əməkdaşları da fəaliyyət göstərmiş, onların səyi ilə ilk çöl-etnoqrafik materialları toplanılmış, Ə.Qubaydulinin, M.Quliyevanın, Ə.Ələkbərovun etnoqrafiyaya dair qiymətli məqalələri cəmiyyətin xüsusi orqanı olan "Xəbərlər" eləcə də "Советская Этнография" məcmuələrində dərc olunmuşdu.

Muzeyin tarixçi alimləri, arxeoloji ekspedisiyalarda iştirak edərək, eyni zamanda

etnoqrafik materiallar da toplayıb, muzey fondunu zənginləşdirməyə çalışmışlar. Bu zaman xalqımızın tarixi əhəmiyyətli bir çox maddi-mədəniyyət nümunələri əldə edilmiş, toplanan etnoqrafik materiallar 1925-ci ildən etibarən sənədləşdirilərək, Etnoqrafiya fondunun inventar kitablarında qeydə alınmışdır. Fondun inventar kitabları nəzərdən keçirilərkən etnoqrafik materialların əldə edilmə mənbəyindən məlum olur ki, toplama işində D.Şərifovun (4, s.193) Ə.Ələsgərovun, Y.Paxomovun, S.Qazıyevin və b. əməyi olmuş, arxeoloji qazıntılarda rəhbərliklə yanaşı, etnoqrafik materialların toplanması ilə də məşğul olmuşlar. Bu dövrdə etnoqrafiya fondunda Azərbaycan əhalisinin həyatını, özünəməxsus bənzərsizliyini, mənəvi mədəniyyət nailiyyətlərini əks etdirən eksponatlar toplanmış, respublikada yaşayan müxtəlif millətlərin həyat tərzini təsvir edən bələdçi kitabları hazırlanmışdı (3, s.15).

Azərbaycan etnoqrafik irsinin təbliğində Milli Azərbaycan Tarixi Muzeyinin fəaliyyət istiqamətlərini öyrənmək məqsədilə, Muzeyin "Sənədli Mənbələr fondu"nun materialları araşdırılarkən, etnoqraf Mariya Vladimirovna Quliyevanın elmi fəaliyyətindən bəhs edən sənədlər aşkar olundu. Sənədlər, əski əlifba ilə, bəzən rus və ya latın qrafikasında çap olunmuş, bəziləri möhür və məsul şəxslərin imzası ilə təsdiq edilmişdir.

Bakı şəhəri V.İ.Lenin adına Azərbaycan Dövlət Darülfünunundan verilmiş 1930-cu illərə məxsus diplom sənədindən aydın olur ki, gənc M.Quliyeva Şərq fakültəsinin "Etnoloji" şöbəsini bitirərək, Muzeydə istehsal təcrübəsinə yiyələnən ilk muzeyşünas-etnoqraflardan olmuşdur (SMF-500/18).

M.Quliyevanın Muzeyin Sənədli Mənbələr fondunda mühafizə olunan şəxsi sənədlərilə tanışlıq zamanı, XIX əsrin sonu - XX əsrin əvvəllərinə məxsus 2 qrup sənədlər aşkar olunaraq tədqiqata cəlb olunmuşdur. I qrup sənədlərə fondun 500 saylı qovluğunda mühafizə olunan, M.Quliyevanın müxtəlif dövrlərdə çəkdirdiyi foto şəkilləri və tərcümeyi-halı, diplom və bitirdiyi tədris ocaqlarının sənədləri, ekspedisiyalara ezam olunması ilə əlaqədar və müxtəlif materialların bölgələrdən muzeyə çatdırılması üçün sənədlər, keçmiş SSRİ-nin bir çox şəhərlərində keçirilən qurultaylara dəvətnamələr və s. şəxsi sənədlər, II qrup sənədlərə isə elmi fəaliyyətilə bağlı Muzey ekspozisiyasının broşürları, etnoqrafik ekspedisiyalar zamanı çəkilmiş xronikal fotolar və ezamiyyət qeydləri, məharətlə çəkilmiş əl işləri – geyim hissələrinin təsvirləri, xəritə və yaşayış məskənlərinin – alaçıqların təsvirləri, müxtəlif fabrik və zavodların fotosurətləri, əlyazma halında məqalələri və Muzeydə sərgi işi ilə bağlı bir çox materiallar daxildir. Bu sənədlər XX əsrin əvvəllərinə aid dəyərli tarixi-etnoqrafik mənbə hesab oluna bilər. Müxtəlif dövrlərdə muzeydə təşkil olunan sərgilərin braşür-kitabçaları- Muzeyin 10 illiyi (1920-1930) münasibətilə "Социально-комплексная экспозисия Азербайджанского Государственного Музея" (к 10-летию музея, 1920-1930), (SMF-500/23) tanınmış arxeoloq V.M.Sısoyevin öz dəst-xəttilə yazıb M.Quliyevaya hədiyyə etdiyi, 1925-ci ildə nəşr olunmuş "Краткий путеводитель по древностям гор. Баку и его районов**"** (SMF-

500/112) adlı kitabçası, həmin dövrün tanınmış şərqşünası M.Şaqinyanın 1935-ci ildə nəşr olunmuş "Памятка с выставки 15-летие Советского Азербайджана" (SMF-500/27) nadir kitabçalara da rast gəlinir.

Mariya Vladimirovna Prokofyeva 1896-cı ildə Gürcüstanın Kutaisi vilayətinin Xoni kəndində müəllim ailəsində anadan olmuş, ilk təhsilini, 1907- 1913- cü illərdə anasının müəllimlik etdiyi Tiflis Şəhər Xalq Təhsili Nazirliyinin 7 illik "Müqəddəs Nina adına Tiflis qadın təhsil müəssisəsi"ndə almışdır (SMF-500/2). Sənədlər arasında həmin illərdə çəkdirdiyi fotoşəkillər də mühafizə olunmaqdadır (SMF-500/1). 1914-cü ildə, sonralar repressiya qurbanlarından olan Azərbaycan SSR Xalq Maarifi Komissarı olmuş Mustafa Quliyevlə (1893-1938) ailə quraraq, Quliyeva soyadını qəbul etmişdir.

M.Quliyeva 1919-cu ilin sonlarından Bakıya gələrək, Bakı şəhər Torpaq Nazirliyində texniki işçi, sonralar Lənkəran şəhər Fəhlə Kəndli Müfəttişliyində katib işləmişdir (SMF-500/116).

Muzeyin ilk etnoqraflarından olan Mariya Quliyeva 1925-ci ildə konservator-etnoqraf (SMF-500/28) vəzifəsi ilə fəaliyyətə başlayaraq, 1926-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsində təhsil almış, 1928-ci ilin noyabrından Etnoqrafiya şöbəsinə müdir təyin olunmuşdur. Eyni zamanda həmkarlar təşkilatına üzv təyin edilən M.Quliyeva, Azərbaycan Dövlət Tibb İnstitutunda və Diş Həkimləri İnstitutunda tələbələrə rus dili fənnini tədris etmişdir.

1931-ci ilin noyabrından isə daha mühüm bir iş – Azərbaycan Tibb İnstitutunda ilk muzeyin təşkil edilməsi işi də ona həvalə edilmişdir (SMF-500/22). Azərbaycan Sovet İttifaqının 12 illiyi münasibətilə təşkil olunmuş sərgidə "Azərbaycan Tibb İnstitutu" adlı bölmədən 2 fotoşəkil də mühafizə olunmaqdadır (SMF-500/35).

Etnoqraf M.Quliyeva o zamanlar üçün çox əhəmiyyətli olan elmi qurultaylara da dəvət olunurdu. Belə tədbirlərdən biri 1929-cu ilin 30 oktyabrında Ukrayna Elmi Şərqşünaslıq Assosiasiyasının keçirdiyi qurultay idi.

1932-ci ilin mart ayında "Советская Этнография" jurnalının redaksiyasından göndərilmiş məktubun məzmunundan bəlli olur ki, M.Quliyevanın ünvanına bu nəşriyyatdan müraciət daxil olaraq, Azərbaycan və onun əhalisi, Bakı və muzeyləri haqqında nəşrə məlumat göndərilməsi tələb olunmuşdur (SMF-500/24).

Azərb. SSR Xalq Maarif Komissarlığının verdiyi sənəddə M. Quliyeva Orta məktəb müəllimi statusu alaraq, o zamanlar SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin "Müəllimlərə şəxsi advermə" haqqındakı qərarına əsasən 1940-cı ildə orta məktəb müəllimi adını almış (SMF-500/31), elmi-ictimai fəaliyyətinə görə dəfələrlə fəxri fərman və "zərbəçi işçi" kimi mükafatlarla təltif olunaraq (SMF-500/25), 1944-cü ildə əməyə görə "Qafqazın müdafiəsi uğrunda" medalına da layiq görülmüşdür (SMF-500/4).

Azərbaycan Dövlət Muzeyinin kiçik elmi işçisi olduğu illərdə M.Quliyeva, Azərbaycan etnoqrafiyasının Muzey vasitəsilə təbliğində də xeyli işlər görmüş,

bu məqsədlə dəfələrlə elmi ekspedisiyalara ezam olunaraq, Muzeydə müxtəlif mövzularda ekspozisiya və sərgilərin təşkilində yaxından iştirak etmişdir. Ali məktəblərdə rus dilinin tədrisi ilə məşğul olan M.Quliyeva, dəqiq elmi axtarışlar apararkən, Muzeydəki etnoqrafik materiallar üzərində ərəb-fars dilli kitabələrin tərcüməsi ilə də özü məşğul olurdu (SMF-500/21).

1930-cu il fevralin 2-sində Muzeyin Tarix-Etnoqrafiya Şöbəsi kollegiyasının qərarı ilə, tarix şöbəsinin ekspozisiyasında Azərbaycanın maddi mədəniyyətini aşağıdakı bölmələrdə təqdim etmək qərara alınmışdı.

1)Köçəri məişət (qəbilə quruluşundan kapitalizmin yayılmasına qədər);

2)Yarımköçəri məişət (qəbilə quruluşundan kapitalizmin yayılmasına qədər);

3)əkinçi məişəti (qəbilə quruluşundan kapitalizmin yayılmasına qədər);

4)şəhər və onun inkişafı: sənətkar- sənaye kəndi, sənətkar- ticarət şəhəri, sənaye şəhəri**.** (3, s.17)

Bu sərginin hazirliğlarına 1928-29-cu illərdə Muzey tərəfindən Azərbaycan rayonlarına qısamüddətli səfərlər təşkil olunduğu zaman başlanılmıs, tərcüməçi kimi də fəaliyyət göstərən (2, s.79) M.Quliyeva, ilk dəfə 1927-ci il 17 iyun tarixində "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" heyətinin tərkibində, köçəri türklərin yaşayışı barədə lazımi məlumatı əldə etmək üçün Qazax və Dilican qəzalarına ezamiyyətə göndərilmisdir (500/9). Bu ezamiyyətdən əldə olunan məlumat və materialların Azərbaycan Tarixi Muzeyində sosial-kompleks ekspozisiyasının qurulmasında böyük əhəmiyyəti olmuş və eyni zamanda, əldə edilən nəticə, "Qazax qəzasındakı Yevlaxın yarımköçəri türklərinin alaçığı" adlı məqaləsi 1928-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin "Xəbərlər" toplusunda da dərc olunmuşdur.

Muzeyin "Mənbələr fondu"nda mühafizə olunan sənədlər içərisində M.Quliyevanın sözü gedən məqaləsinin əlyazmasına da rast gəlinir. 8 səhifəlik məqalədə Qazax ərazisində məskunlaşan köçmə maldarların yaşayış məskəni olan alaçıqlar haqqında məlumat verilmişdir. Sənədlər arasında bu məqalənin rus dilində verilmiş "Xülasə"si də mühafizə olunmaqdadır. Məlumatdan aydın olur ki, "Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyəti" Azərbaycanın qərb bölgəsində Qazax qəzasının yarımköçəri türk yaylaqlarının tədqiqi üçün təşkil olunmuş ekspedisiya baş tutmuş, Qazax qəzasında köçərilərin ilin 6 ayını orada keçirdikləri yay alaçıqlarının xarakterik xüsusiyyətləri haqqında tədqiqat aparılaraq 4 növ alaçıq qeydə alınmışdır. Onların inşası barədə 6 səhifəlik ətraflı məqalə yazılaraq, ümumi görünüşündən Qazax qəzasının türk alaçıqları ilə, Şimali Rusiya civarındakı Asiyanın qırğız alaçıqları arasında böyük oxşarlıq olması aşkar edilmişdir (SMF-500/115(ç)).

Maraqlı faktlardan biri də budur ki, ilk muzeyşünas etnoqraflarımızın əksəriyyətində rəssamlıq bacarığı olmuş, ekspedisiyalar zamanı istər gördükləri təbiət mənzərələrini, istərsə də etnoqrafik etüdləri mahir rəssam bacarığı ilə qələmə

almışlar. Mariya Quliyevanın da rəssamlıqda xüsusi istedadı olmuşdur. Hələ Tiflisdə ikən ibtidai təhsil aldığı illərdə bir sıra fənnlərlə yanaşı əl işi və təsviri sənət fənnlərini də əla qiymətlərlə mənimsəmiş (SMF-500/2), sonralar bu rəssamlıq qabiliyyəti onun etnoqraf kimi gələcək fəaliyyətində də önəmli rol oynamışdı. Etnoqrafik səfərlər zamanı M.Quliyeva, olduğu bölgələrdə araşdırdığı hər hansı bir obyekt və ya tədqiqat işi ilə bağlı materialları sadə qələm və mürəkkəblə kağız üzərinə həkk etmiş, yerində lazımi qeydlər aparmışdır. Bununla yanaşı, muzeyin Etnoqrafiya fondunda mühafizə olunan 1926-1930-cu illərə aid edilən akt dəftəri də M.Quliyevanın imzası və dəsti-xəttilə qələmə alınmışdır. Aktlar, muzeyə alınmış, hədiyyə edilmiş, arxeoloji və etnoqrafik səfərlərdən əldə edilmiş maddi mədəniyyət nümunələrinin siyahıya alınmış qeydləridir. Aktlarda materialların sayı, kim tərəfindən, hansı qiymətə, nə vaxt alınması qeyd edilmiş, hər aktın arxasında fond sıra sayı qeyd edilmişdir.

Etnoqrafın "Sənədli Mənbələr fondu"nda mühafizə olunan ekspedisiyalarla bağlı materialları içərisində karton üzərində karandaş və mürəkkəblə çəkilmiş "Qazax qəzasının yaylaqları" başlıqlı xəritə diqqəti cəlb edir (SMF-500/115(b)).

Xəritədə, M.Quliyevanın tədqiq etdiyi Qazax mahalının dəqiqliklə kiçik miqyaslı aeroplanaalması təsvir edilmişdir. Dəyərli tarixi-etnoqrafik mənbə sayılan xəritədə indiki Qazax rayonunun Poylu, Qıraq Kəsəmən, Qazaxlı, Məmmədli, Qazax, Dağ Kəsəmən; Kür Çayı yaxınlığında Tatlı, Çaylı, Ağstafa çayı ətrafında- Dəmirçilər, Cəfərli, Karvansaray, Sofulu; Dilican yaylaqlarında- Sofulu, Çubuxlu, Çaylı, Kələgir, Dəlidağ, Paylinlər, Şıxlı adlı ərazilər qeyd olunub. O zaman bu yaylaqlar Azərbaycan ərazisinin tərkibində mövcud olmuş, etnoqrafik səfərlər zamanı həmin ərazilər də tədqiqata cəlb olunmuşdur. Xəritənin aşkar edilməsi Dilican yaylaqlarının tarixinə nəzər salmaq zərurətini də ortaya çıxardı. XVII əsr Fransız səyyahı Jan Şardenin qeydlərindən də məlum olduğu kimi Dilican ərazisi qədim Azərbaycan torpağı olub, onun Qazax ölkəsinə, Qamçı xana aid edilməsi qeyd edilmişdir. Ərazinin toponimindən də qədim türk tayfasına məxsus olması aydındır. "Dele-Tele" qədim türk tayfasının adı, "Can-kan-qaan-xan" sözün fonetik forması olub, "yüksək hörmət, şöhrət sahibi" mənasını verib, "Ata hakim" anlamını da daşımışdır.

Qazax qəzasının Dilican ərazisi, 1826- cı ildə 82 kənddən, 60 təsərrüfatdan ibarət olub, 1930-cu ildən ləğv edilmiş, qanunsuz olaraq Ermənistan ərazisinin tərkibinə qatılaraq şəhər statusu almışdır. 1958-ci ildən Respublika tabeli şəhərə çevrilmişdir (1, s.133).

Xəritədə göstərilən 5 kənd - Murteyil, Haqqıxlı, Alaçıqqaya, Ağkilsə və Polad Dilican dərəsinin kəndləri olmuş, ərazidə ən böyük su mənbəyi isə Ağstafaçaydır. Yaxınlıqdakı Ana Güney yaylaqlarında son günlərəcən qalmaqda olan ev xarabalıqları, kalafa yerləri, azərbaycanlı qəbirləri və bu qəbirlərin baş və sinə daşları üzərindəki yazılar bu yerlərin qədimdən yaşayış məskəni olduğunu sübut edir. Ana Güneydən Qazağa (Qazax – A.Q) aparan araba yolu indi də qalmaqdadır.

Xəritədə qeyd olunmuş tarixi ərazilər, o cümlədən, Qazax rayonunun Dilican yaylaqları, Dilican dərəsi boyu ərazilər tamamilə Alban mədəniyyəti nümunələri (6) ilə zəngin olmalarına baxmayaraq, erməni separatçıları tərəfindən zaman-zaman işğal olunmuş, qanunsuz olaraq bu ərazilərə sahib çıxmışlar. Tədqiqat zamanı məlum oldu ki, bu türk-Oğuz yurdu toponimlərinin hazırda dəyişdirilməsi, ərazidə azərbaycanlıların yaşamaması bu tarixin və tarixi yerlərimizin yaddaşlardan silinməsinə gətirib çıxara bilər.

İlk etnoqrafik səfər zamanı M.Quliyeva Qazax bölgəsində yaşayış məskənlərini öyrənməyə çalışmış, eyni zamanda "Qazma"- torpaq evin, torpaq evin çardağı, "tövlə ev-dam" (SMF-500/115(I)(b)№7) adlanan heyvanat üçün nəzərdə tutulmuş tikili hissəsinin təsvirini dəqiqliyi ilə yarada bilmiş, tikinti zamanı istifadə olunan hər bir hissəsinin adlarını qeyd edərək, "Nəmi, dəyə" nin də daxili tərtibatı haqqında maraqlı təsvirlər vermişdir.

Etnoqraf, Dağ Kəsəmən kəndində mövcud olan əsl alaçıq evlərin fasad və interyerini dəqiq təsvir edərək, alaçığın bütün hissələrinin adlarını, ev müxəlləfatını dəqiqliklə təsvir etmişdir. Kənddə bu yaşayış evi tipinə misal olaraq, Çalpapaq Qədməliyevin, Molla Səfərli kəndində Cahangir Səfərova məxsus dəyənin təsvirlərini göstərmək olar. Digər şəkildə də həmin dəyənin xarici görünüşü və gündəlik həyatdan götürülmüş mənzərə təsvir olunmuşdur. Dəyənin yanında nəmi və araba təsviri, qarşısındakı ocaqda qazan, səhəng və s. məişət əşyalarının təsvirləri diqqəti cəlb edir (SMF-500/115 №7,8).

Qazaxın Şıxlı kəndində olan M.Quliyevanın əl işlərində (SMF-500/2, 500/3 saylı təsvirlərdə) Həsən Məhəmməd kişinin 6 nəfərlik dəyəsinin, Qıraq Kəsəmən kəndində İsgəndər kişi Mollasalovun dəyəsinin dəqiq ölçülərini, interyerin görünüşünü və ev əşyalarının təsvirlərini də vermişdir. Təsvirdən göründüyü kimi, alaçıq mərkəzdə daşla bərkidilmiş sütun-dirək ətrafında qurularaq, "sunaq" adlanan dirəyin yuxarı hissəsindən, alaçığın çevrəsini təşkil edən çubuqlar bərkidilmişdir. Alaçıq kəsimində 15 çubuq dirək görünür. Yerdən alaçığın ortasına qədər ev sahibinin qamışdan hazırladığı "çətən" adlanan dirəklər bərkidilərək arası doldurulub, digərləri ilə çarpaz toxunmuşdur. Alaçığın xaricini örtmək üçün keçədən istifadə olunurmuş. Keçənin hazırlanmasında ev sahibi adətən ləzgi ustaları dəvət etmişdir. Alaçığın diametri 3 sajn olub, interyeri zövqə və tələbata uyğun olaraq ev- məişət əşyaları ilə, dirəklərə bənd edilmiş uşaq yatacağı- yüyrüklə təchiz olunmuşdur. Göründüyü kimi etnoqraf, qeydlərində alaçığın qurulma qaydasını dəqiqliklə qeyd edərək həmin proses zamanı istifadə olunan materialların əldə edilməsi haqqında da məlumatlar vermiş, bir əl işində də yaylaqda Murteyil kəndində olan ayrımlara məxsus "Dam" yaşayış məskəninin daxili görünüşünü də tədqiq etmişdir. Dam həmin ərazidə yaşayan milli azlıqların alaçığı əvəz edən yaşayış evi olmuş, daxili-gündəlik tələbata uyğun olaraq yorğan-döşəkdən ibarət yük yeri, səhəng, nehrə, cəhrə və s. məişət əşyaları ilə bəzədilmişdir.

Ekspedisiyada olduğu bölgələrdə, M Quliyeva, əhalinin geyim mədəniyyəti ilə də maraqlanaraq, öyrənməyə çalışmış, müxtəlif geyim hissələrinin sadə karandaşla təsvirlərini vermişdir.

1927- ci il Qazax qəzasına etnoqrafik səfər zamanı (SMF-500/112(2),(3)) M.Quliyeva, Qazax qəzasının Şıxlı, Böyük Kəsik kəndlərinin türk qadın geyimlərinin təsvirini verərək öz məqaləsində qeyd etmişdir. Əl işinə nəzər saldıqda bu bölgələrdə geyilən dizə qədər uzun köynək, qara haşiyəli qırmızı enli və sadə şalvar, müxtəlif materiallardan kaftan, yerə qədər enli tuman, önlük, corab, çarıq və çustların şəkli olduğu kimi verilib. Bu təsvirlərin birində əl işi ilə Qazax qəzasının Şıxlı, Kəsəmən, Böyük Kəsik kəndlərində türk qadın baş geyiminin hissələrini və geyinmə qaydasını səlis şəkildə təsvir etmişdir. Təsvirə əsasən məlum olur ki, 1927-ci illərə qədər bu ərazidə yaşayan qadınlar 8 hissədən ibarət örtükdən istifadə etmiş, örtüyü başda rahat saxlamaq məqsədilə müxtəlif metallardan hazırlanmış təpəliklərdən istifadə olunduğu da diqqətə çatdırılmışdır (SMF-500/115).

Ekspedisiya zamanı M.Quliyeva ayrım qadınlarının geyim və baş örtüklərini tədqiq edərək, təsvir və qeydlər aparmışdır (SMF-500/115). Etnoqrafın çəkdiyi illüstrasiyadan aydın olur ki, ayrım qadınları Qazaxın yerli qadınlarından fərqli olaraq, 3 hissəli yaylıq- cuna, qara yaylıq və xirət bağlamış, örtüyün müvazinətini saxlamaq üçün qarmaqlı təpəliklərdən istifadə etmişlər.

1928-ci ilin oktyabrında Gəncədə ekspedisiyada olmuş D.Şərifovun Çovdar kəndindən əldə etdiyi belə təpəliklərdən biri, indi də AMEA MATM- ın Etnoqrafiya fondunda mühafizə olunmaqdadır (Ef- 861).

Bu ekspedisiyanın nəticəsi olaraq, 1931-ci ildə qurulmuş sərgidə Muzeyin Şərq zalında, Azərbaycan etnoqrafiyasına dair "Köçəri-maldar təsərrüfatını əks etdirən sərgi qurularaq- dəyənin maketi hazırlanmış, daha sonra Yarımköçəri təsərrüfatı tərənnüm edən qaradam ev tipinin interyeri qurulmuşdur.

1928-ci ilin sentyabr ayında da Muzeyin Etnoqrafiya yarımşöbəsi, Nuxa və Göyçay qəzalarının taxılçılıq, ipəkçilik xüsusiyyətlərini araşdırmaq məqsədilə ekspedisiya təşkil etmişdi. Bu səfərin əsas vəzifələri kəndli məişətini tədqiq etmək, öyrənmək, nəticəsini yarımşöbənin ekspozisiyasında nümayiş etdirmək idi (3).

1929-cu il sentyabr ayının 1-də təşkil olunan ekspedisiyanın tərkibində etnoqraf M.Quliyeva da həmin bölgələrə ezam olunur (SMF-500/15). Bu zaman oturaq əkinçi təsərrüfatı və məişətini, habelə Nuxa (Şəki) şəhəri fəhlə və sənətkarlarının həyat tərzini öyrənmək məqsədilə Nuxa və Göyçay qəzalarında ekspedisiyada oldugu zaman çöl-tədqiqat işləri aparmış, müxtəlif cür ev tiplərinin fotoşəkilləri (SMF-500/107, 500/110), Kiçik və Böyük Dəhnə kəndlərində aparılan ekspedisiyalara dair 12 vərəqdən ibarət qeydləri qələmə almışdır. M.Quliyevanın arxiv sənədləri arasında Nuxa və Göyçay qəzalarında olarkən rusca yazdığı 8 vərəqlik "İşçi gündəliyi"nə də təsadüf olunur (SMF-501/в, SMF- 501/г).

Ekspedisiya zamanı M.Quliyeva toplanmış materiallar əsasında "Nuxa

qəzasında kəndli mülkləri" ("Крестьянская усадьба Нухинского уезда") mövzusunda tədqiqat aparmış (2, s.79), Böyük Dəhnə kəndində təndir və təndir çörəyi bişirilməsi prosesinə aid fotolar əldə etmişdir (SMF-500/113-114).

Şəkinin Nic kəndində olarkən Şuşalı udin qadının müxtəlif profilli şəkillərini çəkərək, udin qadın geyiminin hissələri haqqında ətraflı məlumat vermişdir (SMF-500/115).

Etnoqrafik səfərlərin nəticələrinə əsasən bu rayonlarda taxıl, ipək istehsalı sahəsində çalışan əkinçinin, ekspozisiyanın "Əkinçi məişəti" (qəbilə quruluşundan kapitalizmin yayılmasına qədər) bölməsində səciyyəvi otağı yaradılmış, maddi mədəniyyət əşyalarının maketləri, fotoşəkillər, planlar, cədvəllər, kəndli təsərrüfatının nümunələri sərgilənərək nümayiş etdirilmişdir.

M.Quliyevanın foto kolleksiyasında Gəncə, Qutqaşen, Lənkəran, Şəmkir (SMF-500/75,76), Yevlax rayonlarında (SMF-500/70-71) yaşayan sakinlərin, kəndli kolxozçuların həyatından bəhs edən fotolar vardır (SMF-500/72,67). Bəzi fotoşəkillərdə tikinti prosesi də öz əksini tapmışdır (SMF-500/98-99).

Bir fotoşəkildə, Lənkəran rayonunda yer xanasında həsir toxunması prosesi öz əksini tapmışdır. Şəkil yer xanasının, eləcə də tipik talış qadın geyiminin öyrənilməsi üçün maraqlı vəsaitdir (SMF-500/69).

M.Quliyeva güman ki, ekspedisiyaların birini Lənkəran bölgələrində keçirmiş, xovsuz xalça nümunəsi olan cecim haqqında bir sıra dəyərli qeydlər aparmışdır. Bu qeydlərində həm xovsuz xalça və həm də şərbaflıq nümunəsi olan cecim toxunan dəzgahın hər bir hissəsinin adını qeyd edərək, cecimin növlərindən və naxışlarından bəhs etmiş, hazırlanma prosesindən təsvirlər çəkmişdir.

M.Quliyevanın məqaləsinə istinad olunaraq, ekspozisiyanın II bölməsi "Yarımköçəri məişət (qəbilə quruluşundan kapitalizmin yayılmasına qədər)" adı altında, maldarların yay fəsli üçün nəzərdə tutulan müvəqqəti səyyar mənzili- alaçıq sərgiyə qoyulmuşdu (3, s.15) (SMF-500/23).

Oturaq əkinçi təsərrüfatını əks etdirən bölmədə isə əkinçi otağı, əkinçi tipləri adlı maketlər nümayiş olunmuşdur.

Ekspozisiyanın hər bir bölməsinə dair bir çox materiallara M.Quliyevanın arxivində rast gəlinir.

Şəhər və onun inkişafı: sənətkar- sənaye kəndi, sənətkar- ticarət şəhəri, sənaye şəhəri (3, s.17) mövzusunda bölmə üçün M.Quliyevanın fotokolleksiyasında Gəncə ipək sap istehsalı fabrikinin (SMF-500/84, 94), qadınların barama çeşidləmə (SMF-500/86), mahud parça fabrikindən və pambıq parça hazırlanan şöbəsinin (SMF-500/96, 500/97) iş prosesi zamanı çəkilmiş şəkillər, 1931-ci ildə çəkilmiş İliç buxtasındakı neft mədənlərinin (SMF-500/91), Atəşgah məbədi yaxınlığındakı Suraxanı neft mədənlərinin şəkillərinə rast gəlinir.

Ekspozisiya hazırlandığı zaman, M.Quliyeva, artıq bir mütəxəssis kimi püxtələşmişdi. Buna səbəb onun etnoqrafik ekspedisiyalarda iştirakı, Gəncə-

Qazax bölgəsi əhalisinin məişət mədəniyyətini ətraflı öyrənməsi ilə əlaqədardı. Bu sərgilərin hazırlandığı zaman gənc etnoqraf, ekspedisiyalardan topladığı materiallar əsasında həmin yaşayış evlərinin- alaçıqların qurulmasında tarixçi Sara Aşurbəyli ilə birlikdə çiyin-çiyinə çalışırdı (3, s. 15). (SMF-500/20).

Fotoşəkillər arasında S.Aşurbəylinin bacıları ilə birlikdə çəkdirdiyi uşaqlıq şəkli də mühafizə olunur (SMF-500/4). Zəngin Azərbaycan milli geyim və zinət əşyaları ilə bəzənmiş bacıların şəkli, bu gün də bir çox etnoqrafik mövzuda qurulan sərgilərdə və elmi məqalələrdə mənbə kimi istifadə olunmaqdadır.

Azərbaycan Dövlət Muzeyinin 10 illiyi münasibətilə (1920-1930) "Azərbaycan Dövlət Muzesinin sosial-kompleks ekspozisiyası" adlı 1№li bülletenində Muzey əməkdaşlarının fəxri əməyi sadalanarkən etnoqrafiya sahəsində M.V.Quliyevanın da adı xüsusi qeyd olunmuşdur (SMF-500/27).

1938-ci ildə Muzeydə Böyük Oktyabr Sosialist inqilabının 20-ci ildönümü münasibətilə Azərbaycan Sosializm quruculuğu nailiyyətləri sərgisi təşkil edilmiş, Sovet hakimiyyətində təhsil, elm və incəsənət sahəsində əldə edilmiş nailiyyətlər nümayiş etdirilməli idi. 10 bölmədən ibarət olan sərgidə "Azərbaycan qadını keçmişdə və indi" mövzusunda sərgi bolməsi də qurulmuşdur (3, s.46-47).

"Azərbaycan qadını" mövzusunda "Türk qadınının vəziyyəti keçmişdə və indi" sərlövhəli eksponatlar nümayiş etdirilirdi. Bu bölmə üçün nəzərdə tutulmuş bir çox foto və plakatların surətinə sənədlər arasında rast gəlmək olur. Bununla yanaşı Azərbaycan bölgələrində, eləcə də Gəncə şəhərində fəaliyyət göstərən «Türk qadın klubu» üzvlərinin də əmək prosesində çəkilmiş şəkilləri var.

Qeyd etmək lazımdır ki, çoxsaylı tamaşaçı kütləsi tərəfindən maraqla qarşılanan "Sovet Azərbaycanının 15 illiyi münasibəti ilə" sərgisinə görə 1935-ci ildə erməni əsilli tarixçi Marietta Şaginyan Azərbaycan Dövlət Muzeyinin bu təşəbbüsünü yüksək qiymətləndirərək, Muzeyi "Mədəniyyət Universiteti" adlandırmışdı (SMF-500/23).

M.Quliyevanın şəxsi əşyaları arasında dəyərli sənədlərdən biri də 1920-ci ildə tərtib olunmuş Şimali və Cənubi Azərbaycan xəritəsidir. Rus dilində tərtib olunmuş xəritə, 1dyumda 20 verst olmaqla, Qafqaz və İran Azərbaycanının fiziki coğrafiyasının, etnoqrafiya və iqtisadiyyat icmalının əlavəsi kimi hazırlanmışdır. Hazırda Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycan Xalq Cümhuriyyəti bölməsində" nümayiş olunan xəritədə Qazaxın Dilican yaylaqları, Borçalı və İrəvan mahalı da Azərbaycan hüdudları daxilində göstərilmişdir.

Azərbaycan etnoqrafiyasının öyrənilməsində M.Quliyevanın ekspedisiyalar zamanı apardığı tədqiqatları bu gün də dəyərli mənbədir. Onun şəxsi kolleksiyasında mühafizə olunan hər bir sənəd özü özlüyündə geniş tədqiqat obyekti ola bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, Elm, 2002.

2. Əliyeva N. Azərbaycanın qədim və orta əsrlər dövrü tarixi Milli Azərbaycan Tarixi Muzeyinin elmi əməkdaşlarının əsərlərində (1920-50-ci illər). Milli Azərbaycan Tarixi Muzeyi-2010. Bakı, 2010.
3. Hacıyeva Z. Azərbaycan Dövlət Muzeyi 1920- 1960. Bakı, 2012.
4. Quluzadə N., Ağayev G. Davudbəy Şərifov və Azərbaycanın arxeoloji irsi. AMEA MATM Azərbaycanın ilk peşəkar arxeoloq və muzeyşünası Davud bəy Şərifovun anadan olmasının 130 illiyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu", V Respublika elmi konfransının materialları. Bakı, 2015.
5. Шагинян М. «Памятка о выставки 15-летие Советского Азербайджана» Баку- 1935.
6. Əziz Ələkbərli "Yadıma düşdükcə Dilcan dərəsi" tarix http:// qacqınlarcəmiyyəti.az/?p=841//

Aygun Kuliyeva
On the scientific and social activities of the ethnographer Maria Kuliyeva (on materials of the fund of documentary sources of NMHA)

Summary

Key words: *ethnographer, Maria Kuliyeva, expedition, exposition, investigation, document.*

The article reviews the documents of the former employee of NMHA of ANAS, ethnographer Maria Kuliyeva, stored in the fund of documentary sources of the Museum, and on the basis of these materials her scientific and public activities were thoroughly studied. Author gives information about material culture samples of Azerbaijan which investigated by Maria Kuliyeva during her trips and photos existing among docuemts of etnographer. Besides it her contribution in the creation of exposition of the Azerbaijan State Museum in the 1920-30s years is emphasized. In addition, the article presents information about on maps acquired by Maria Kuliyeva and still stored and demonstrated as priceless historical documents.

Айгюн Кулиева
О научной и общественной деятельности этнографа Марии Кулиевой (на материалах фонда документальных источников НМИА)

Резюме

Ключевые слова: *этнограф, Мария Кулиева, экспедиция, экспозиция, исследование, документ*

В статье дан обзор документов бывшего сотрудника НМИА НАНА, этнографа Марии Кулиевой, хранящихся в фонде документальных источников Музея, и на основе этих материалов подробно изучена ее научная и общественная деятельность. Опираясь на эти документы, упомянуты фотографии снятые во время этнографических экспедиций и даны сведения об исследованных ученым-этнографом образцах материальной культуры Азербайджана, а также освещен ее вклад в создание в 1920-30 гг. экспозиции Азербайджанского Государственного Музея. Кроме того, в статье представлена информация о картах, приобретенных Марией Кулиевой и поныне хранимых и демонстрируемых как бесценные исторические документы.

Fəridə Xəlilova

Rəşid bəy Əfəndiyevin MATM Etnoqrafiya fondunda mühafizə edilən bəzi materialları haqqında

Açar sözlər: *Rəşid bəy Əfəndiyev, ipəkçilik, ipək, kümdarlıq, rəsm*

UOT 39

Azərbaycanın əlverişli coğrafi mövqeyi, iqlimi, relyef quruluşu burada müxtəlif təsərrüfat sahələrinin inkişafı üçün zəmin yaratmışdır. Bu təsərrüfat sahələri sırasında ipəkçilik xüsusi yer tutmuşdur. Azərbaycanın Böyük İpək yolunun üzərində yerləşməsi ticarətdə də ipəyin rolunu möhkəmləndirmişdir. Erkən Orta əsrlərdən Azərbaycan ərazisinin müxtəlif bölgələrində ipəkçilik mühüm təsərrüfat növlərindən birinə çevrilmişdir. Təsadüfi deyil ki, Azərbaycan ipəyi dünyada şöhrət qazanmışdır. Çünki ipəkçilik təsərrüfatı yalnız yerli bazarın deyil, xarici ticarət bazarının da tələbatını ödəməyə yönləndirilmişdir. XIX əsrin ortalarında ölkədə yaranmış əlverişli şərait, Azərbaycan ipəkçilərinin zəngin bilik və təcrübəsi, ipəkçiliyin ölkənin iqtisadiyyatındakı mühüm rolu onun daha da inkişafına təkan verdi(2, s.218).

Azərbaycanın Şamaxı, Gəncə, Qarabağ, Təbriz, Ərdəbil, Şəki kimi şəhərləri ipəkçilik təsərrüfatının mərkəzinə çevrilmişdir. Xüsusilə, XVIII-XIX əsrlərdə Azərbaycan Rusiya İmperiyası tərkibinə daxil olduqdan sonra, xarici bazar üçün xammal yetişdirən digər təsərrüfat sahələri kimi, ipəkçiliyə də xüsusi diqqət artırıldı. Təkcə 1836-cı ildə çar hökumətinin qərarı ilə Nuxada "Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini inkişaf etdirmək" adlı cəmiyyətin yaradılmasını göstərmək olar. İlk vaxtlar hakim zümrələrin zəruri məişət tələbatına xidmət edən Azərbaycan ipəyi tezliklə nəinki daxili bazarın rəvac satış məhsuluna çevrilmiş, habelə tədricən beynəlxalq ticarət meridianlarına yol tapmağa başlamışdır (4, s.15, 12-13). Cənubi Qafqazda ipəkçiliyin geniş inkişaf etdiyi ərazi Azərbaycan olmuşdur. Təkcə Nuxa qəzasında 18 min və Ərəş qəzasında 7 mindən çox kəndli ailəsinin xüsusi çəkillikləri var idi (5, s.21).

Azərbaycan ipəkçilik sənəti ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılmış, xeyli sayda əsərlər ərsəyə gətirilmişdir. XX əsrdə fəaliyyət göstərmiş Azərbaycanı Tətqiq

və Tətəböö cəmiyyətinin də bu istiqamətdə göstərdiyi xidmətlər təqdirəlayiqdir. Cəmiyyətin təşkil etdiyi etnoqrafik səfərlər sayəsində Azərbaycanın Gəncə, Lənkəran, Zaqatala, Şamaxı və digər qəzalarında, o cümlədən o zamankı Naxçıvan MSSR və DQMV-də fəaliyyət göstərən bölmələrdə yerli əhalinin etnoqrafik dünyagörüşünə aid dəyərli məlumatlar toplanmışdır. Cəmiyyətdə fəaliyyət göstərən etnoqrafların vaxtaşırı ekspedisiyalarının nəticəsində toplanmış materiallarda yerli əhalinin dünyagörüşü, məişət həyatı, məşğuliyyəti, o cümlədən təsərrüfat fəaliyyəti haqqında faktlar öz əksini tapmışdır. Onların sırasında ipəkçilik haqqında məlumatlar da yerini almışdır. 1928-ci ildən Azərbaycan Tətqiq və Tətəböö Cəmiyətində bölmə rəhbəri seçilmiş Rəşid bəy Əfəndiyevin Azərbaycan etnoqrafiyasına dair topladığı məlumatlar kifayət qədər böyük əhəmiyyətə malikdir.

Rəşid bəy Əfəndiyev görkəmli pedaqoq, maarifçi, yazıçı, tərcüməçi olmuşdur. Bundan başqa o arxelogiya və etnoqrafiya elmərinə də öz töhfəsini vermişdir. Alim Qəbələ və Şəkidə arxeloji, etnoqrafik tətqiqatlar aparmış, xüsusilə Şəkidə ipəkçiliyin inkişafına dair qiymətli məlumatlar toplamışdır. Həmçinin Rəşid bəy Əfəndiyevin rəsmlərində yerli əkinçilik təsərrüfatının özünəməxsus cəhətləri, toxuma prosesi, bunun üçün istifadə edilən xüsusi alətlər, dəzgahlar, ipək sap hazırlanması yer almışdır. Azərbaycanda ipəkçiliyin mərkəzi sayılan Şəkidə ipəkçilik təsərrüfatı, kümdarlıq peşəsinin incəlikləri haqqında maraqlı faktlar əks etdirilmişdir. Bu tətqiqatlarla bağlı alim "Şəki vilayətində kümdarlıq peşəsinin tarixi, ipəkçilik sənayesi və ticarəti haqqında" adlı məruzə hazırlamışdır. Əsər üç hissədən ibarətdir:

Rəşid bəyin öz əli ilə yazdığı türkcə (ərəb qrafikasında) 38 səhifəlik original mətndən; Makinadan çıxarılmış 30 səhifəlik rusca mətndən; Əsərlə bağlı Rəşid bəyin özünün çəkdiyi rəngli şəkillərdən (21 rəsm)(3,10).

R.Əfəndiyevin "Nuxa kəzasında qumdar qəndci mulqinin planı" adlı təsvirində kəndli təsərrüfatının quruluşu tam şəkildə əks olunmuşdur (6). Təsərrüfat sahəsinə "doxkaz" adlanan girişdən daxil olduqda üzbəüz tərəfdə darvaza, sağ tərəfində isə bərə qoyulduğunun şahidi oluruq. Bərə tərəfdə ot tayalarının yerləşdiyini görmək olar. Belə qənaətə gəlirik ki, heyvanların sahəsi səliqəli şəkildə mərkəzdən ayrılır. Mərkəzdə isə qonaq otağı və hərəmxana yerləşir. Həyətin bir küncündə "qum damı"(küm damı-F.X.), digər küncündə isə tövlə (müəllif "toyla" adlandırmışdır) tikilmişdir. Burada əkinçilik və maldarlıq sahələrinin səliqəli şəkildə ayrıldığının şahidi oluruq. Məlum olduğu kimi kəndli təsərrüfatı tikililəri ayrı-ayrı hissələrə bölünürdü.

Müxtəlif bölgələrdə tut ağacları xüsusi bağlarda yetişdirilirdi. Bu da tut bağları, bəzi yerlərdə isə toxmacarlıq, yaxud çəkillik adlanırdı (2,219).

Nəzərə alsaq ki ipəkçilik ən gəlirli sahələr sırasında olmuşdur, tut bağlarının salınmasına daha çox üstünlük verilirdi. Azərbaycanda ipəkçiliyin inkişafı ilə əlaqədar olaraq XX əsrin əvvəllərindən etibarən baramaçılıqda əsas yem mənbəyinə - yarpağa olan tələbatın artması nəticəsində geniş çəkillik təsərrüfatı yaranmış və beləliklə də çəkil plantasiyaları ticarət bağçılığı, tut yarpağı isə artıq əmtəə xarakteri

almışdır (5, s.20). Bu təsvirdə də toxmacarlıq sahəsinin böyük bir ərazidə salındığını görürük. Sahənin xüsusi giriş qapısı da vardır. Beləliklə, müəllifin qeyd etdiyi kimi, burada da tut bağları "toxmacarlıq" adlandırılırdı.

Sözügedən təsvirdə toxmacarlıqla yanaşı digər əkinçilik təsərrüfatları - bostan, dirrik, fındıqlıq, meyvə ağacları təsərrüfat sahəsinin ətrafında yerləşirdi. Kəndlinin təsərrüfat planına nəzər yetirdikdə kənar hissədə xəndək qazıldığını görə bilərik. Təsərrüfatın bostanla toxmacarlıq hissəsindən arx çəkilmişdir. Yaşayış yerinin sağında su hovuzu yerləşir. Göründüyü kimi, bir təsərrüfatçı üçün bütün lazımi şərait yaradılmışdır.

Kümdar kəndlinin təsərrüfatında növbəti mərhələ məhz ipəkqurdunun bəslənməsi idi. Onlar yaşayış evlərində, xüsusi kümxanalarda, talvar və ev çardaqlarında, bəzən də tövlələrdə saxlanırdı (2, s.222). Təsərrüfat sahəsində küm damı böyük əhəmiyyətə malik idi. Bəzi kəndlilər isə küm damı üçün qarğıdan xüsusi yer tikirdilər (7). İpəkçiliklə məşğul olan kəndli üçün qurdun bəslənməsi dövrü son dərəcədə diqqət tələb edən mərhələ idi. Küm damlarının harada düzəldilməsindən asılı olmayaraq oranın təmizliyinə, tempraturuna diqqət yetirilməli, ümumilikdə qurdun inkişafı üçün lazım olan bütün tələbatın ödənilməsin üçün şərait yaradılmalı idi. R. Əfəndiyevin təsvirlərinə əsasən ipəkqurdunun bəslənməsi məqsədilə evlərin çardaqlarından istifadə edildiyinin şahidi oluruq (6). Bu şəkil bizə onu deməyə imkan verir ki, əslində "qum-dam"ları bir qayda olaraq, xüsusi tikilmiş ərazidə olmurdu. Burada toxmacarlıq səliqə ilə evin önündə salınmışdır. Təbii ki, kəndli özü üçün yaratdığı münasib şəraitdən asılı olaraq evin damında öz təsərrüfatının bir hissəsini qururdu. Müəllifin rəsmaltı qeydlərindən məlum olur ki, ipəkqurdu ilk günlər ev şəraitində bəslənir, birinci yuxudan sonra isə geniş sahələrə köçürülürdü. Kənddə xüsusi şəraiti olmayan kümdarlar evin çardağından praktiki olaraq istifadə etmişdir. Bu işə ailənin əli iş tutan bütün üzvləri , xüsusən qadınlar cəlb edilmişdir.

Barama bəslənən otağın içərisində gözəgörünən yerdə yumurta qoyardılar, ya da kümxananın girəcəyindən heyvan kəlləsi – at kəlləsi, maral buynuzu və s. asardılar ki, bununla da guya baramanı pis gözdən – bədnəzərdən qoruyardılar (2, s.223). Bu inanclar haqqında məlumat Rəşid bəy Əfəndiyevin adını çəkdiyimiz əsərində məlumat verilir: " ... küm damının astanasında həmin məqsədlə at, eşşək nalı çaxar, bir düzüm göz muncuğu, balıqqulağı, vaşaq dırnağı, dağdağan toxumu asar, otağın içərisinə at, maral və it kəllələri qoyar, qapısına bədnəzər duası yazıb yapışıdırardılar" (3, s.24).

Rəşid bəy Əfəndiyev qadınların ipəkçilik sənətindəki rolunu kölgədə qoymamış, öz yaradıcılığında onların fəaliyyətini də işıqlandırmışdır. Qadın əməyi qurdun bəslənməsi, yemlənməsi, ipək sapın hazırlanması, bir sözlə ipəkçiliyin böyük bir mərhələsində önəmli rola malik olmuşdur. R.Əfəndiyevin təsvirlərində belə qadın əməyindən istifadə olunması vurğulanmışdır. İpək sap hazırlanması toplanan məlumatlardan da göründüyü kimi, böyük zəhmət və uzun mərhələli

proseslərdən ibarət idi. Təkcə kələfin açılması prosesi müxtəlif formalarda təqdim olunmuşdur (7). Sözügedən təsvirlərdə qadınlar müxtəlif metodlarla kələf açır, sap əyirir, qaytan toxuyur, pilə darayır. Burada qadınlar qolunda, dizində kələf açırlar. Digər bir metod isə "kələfçə" adlanan alətdə kələfin sarınması idi. Kələfçə dayaqlı, mərkəzində düz dirəyə birləşdirilmiş bir neçə hissəli kiçik dirəklərdən ibarət alət idi. Onun fırlanması ilə kələfin açılması daha rahat başa gəlirdi.

Burada qadın əməyinin özəllikləri ilə yanaşı ipəkçilikdə istifadə olunan primitiv alətlərin və metodların verilməsi etnoqrafik mənbə kimi böyük əhəmiyyətə malikdir. Belə ki, R. Əfəndiyev rəsmlərində pilənin bişirilməsi verilməsə də, həm alət vasitəsilə, həm də əl iyi vasitəsilə əyrilməsi metodları göstərilmişdir. "İy və əyircənə ilə pilədən arvat sap əyirir. Kavaxdan çıxan pilədir" adlanan rəsmdə əl iyi və balqabağın təsviri verilmişdir.

Balqabağın təsvirinə digər bir rəsmdə də rast gəlirik. Rəsm "dəmir daraqda pilə dariyir" adlanır. Burada balqabaq müəllif tərəfindən "pilə kavagı" adlandırılmışdır. Qeyd edək ki, bu cür balqabaq nümunələri MATM Etnoqrafiya fondunda qorunub saxlanılır (9).

Digər maraqlı bir rəsmdə bir qaytan aləti təsvir edilmişdir(6). Oval formalı alət üzərində xanım ipək saplardan qaytan toxumaqla məşğuldur. Müəllif bu aləti "qaytan-dağarı" adlandırır. Təsvirin əhəmiyyəti ondan ibarətdir ki, Etnoqrafiya fondunda eyni tipli əmək aləti olsa da, tam halda deyil və işlədilmə texnologiyası qaranlıqdır (8). Bu rəsm bizə həmin inventar haqqında dəyərli məlumat verir. "Kaytan-dagarında aşıxları ilə arvat kaytan toxuyur" adlanan təsvirdən göründüyü kimi müəllif sapların dolandığı kiçik alətləri "aşıx" adlandırır. Burada xanım dağar üzərində "aşıxları" dolamaqla qaytan toxuyur.

Azərbaycan toxuculuq sənətində hələ qədim dövrlərdən istifadə olunan yer hanasının bir variantının R. Əfəndiyevin topladığı materiallar sırasında yer alması etnoqrafik baxımdan əhəmiyyətlidir. Onun "Cecim toxunan xana. Şəqi kəzasında Dəhnələr qəndində" adlı təsvirində verdiyi yer hanası digər yer hanasından fərqli olaraq dördkünc formadadır (6). MATM Arxeologiya və Etnoqrafiya fondlarında hər iki formada yer hanası mövcuddur. R.Əfəndiyevin verdiyi təsvir sayəsində eyni tipli yer hanasının qurulmasını təmin etmək mümkündür. Bu baxımdan adı çəkilən təsvir də dəyərli etnoqrafik məlumat bazası rolu oynayır. Təsvirdə cecimin toxunması texnologiyası göstərilir. Tarix boyunca cecim toxuculuğu ilə ev şəraitində qadınlar məşğul olurdu. Sözügedən təsvirdə də cecim toxunması işini qadın həyata keçirir. Göründüyü kimi, hana iki tərəfdən ağac dirəklərdə bərkidilmiş uzunsov dəzgahdır. Saplar isə mərkəzi hissədə çarpazlaşmış dirək rolunu oynayan çatmadan asılmışdır. Cecim toxuyan qadın dəzgahın altında yerləşdirdiyi oturacağın üzərində əyləşərək toxuma prosesini həyata keçirir. Cecimin toxunma texnologiyası haqqında A. N. Mustafayev ətraflı izah vermişdir (4).

Kümdarlıq yerli əhali arasında bir ailə peşəsi idi. Çünki vaxtaşırı qurdların yemlənməsi, onların yetişdirilməsi, toxmaçarlıq, bir sözlə, bütün təsərrüfatı idarə

etmək böyük zəhmət və diqqət tələb edirdi. Məsələn, qurdların yemlənməsinin gecikdirilməsi böyük zərərə səbəb olardı. Adətən qurdun oyadılmasından başlamış, onun barama sarımasına və yığımına qədər olan bütün dövrdə əsasən qadınlar işləyirdi (2, s.212). Lakin müəllif təsərrüfatda kişilərin rolunu da kölgədə qoymamışdır. "Kargı, çətənə və kamışdan əmələ gələn həcətlər, tigintilər. Kargı xiyabanı" adlandırılar rəsmdə kişilərin qarğı toplayıp ipəkqurdunun bəslənməsi üçün istifadə edilən tərəcələri hazırladıqları göstərilmişdir. Odur ki, kümdar təsərrüfatçıların məhsuldarlığı birbaşa işçi qüvvəsindən asılı olurdu. R. Əfəndiyev Şəkidə kümdarlıq təsərrüfatının özəlliklərini təsvir edərkən xüsusilə qadın və kişilərin müştərək çalışması və nizamlanmış təsərrüfat qurulmasını vurğulayır.

Keci sapları adətən kümdar qadınlar özləri, xam ipək sapı isə peşəkar kişi ustalar sarıma dəzgahı (mancalıq) vasitəsilə hasilə gətirirdilər (1, s.246). İpəksarıma dəzgahı, əl iyi və əl cəhrəsinə nisbətən daha təkmil idi. Onun özü iki cür: dörduclu və altıuclu cəhrəli olurdu. Bu dəzgaha xalq arasında "mancalıq" deyirdilər. Mancalıqdakı altıuclu cəhrə ayaq rıçaqı ilə hərəkətə gətirilirdi (2, s.216). Beləliklə, ipəkçilik təsərrüfatında kiçik emalatxanalarda istifadə olunan "mancalıq" adlanan dəzgahlar əsas rol oynayırdı. İpək sapın alınması prosesi böyük fiziki qüvvə tələb etiyindən artıq bu sahədə kişilər əsas işçi qüvvəsi idi. Təbii ki, bütün təsərrüfatın yekun məqsədi ipək sapın alınması və onun vasitəsilə müxtəlif məmulatların hazırlanmasından ibarət idi. "Mancalıq" sahibləri ipəkçiliklə məşğul olan kəndlərə gedir və kəndlilərin ipəyini sarıyırdılar. Sarıma haqqı olaraq pul, əksər hallarda isə ipəyin 1/10 və ya 1/12 hissəsini alırdılar (11, s. 12).

R. Əfəndiyevin təqdim etdiyi bir rəsmdə əvvəlki dövrlərdə mövcud olmuş "mancalıq" təsvir edilmişdir (6). Bu təsvirdən də göründüyü kimi əsas iş prosesində kişi usta və qadın çalışır. Bu rəsm dəzgahın incəlikləri və müxtəlif alətlərin təsvirlərinin verilməsi baxımından çox əhəmiyyətlidir. Ayaq mancalığı, bir qayda olaraq iri mis (çuğun) tiyandan, xüsusi olaraq üzərinə tiyan yerləşdirilmiş kürədən, böyük cəhrədən və ya ortasından dirsəkli mil keçirilmiş çarxdan, təpkeşdən, çarxı müəyyən hündürlükdə saxlayan haça direklərdən və ayırıcı məftil gözlüklərdən ibarət olurdu (1, s.247). R. Əfəndiyev təsvirdə ustanın istifadə etdiyi aləti "qamçı" adlandırmışdır. Eyni alət MATM Etnoqrafiya fondunda qorunub saxlansa da adlanması haqqında dəqiq məlumat yox idi (10). Bu baxımdan müəllifin təsviri son dərəcədə əhəmiyyətlidir. Ümumiyyətlə, istənilən sənət sahəsi məhsulunun hazırlanma texnologiyası haqqında bu və ya digər şəkildə təsəvvürün olmasına baxmayaraq, elə sənət sahələri vardır və yaxud əvvəllər mövcud olmuşdur ki, onlarda istifadə olunan texnologiyalar və alətlər haqqında məlumatlar yoxdur. Bu nöqteyi nəzərdən R. Əfəndiyevin sənətkarları iş başında, dəzgah, alətlərlə təsvir etməsi əhəmiyyətli mənbə rolunu oynayır.

Rəşid bəy Əfəndiyevin nəzərdən keçirdiyimiz etnoqrafik materialları təkcə ipəkçilik sənəti deyil, tikmə sənəti, milli geyimlərin xarakterik xüsusiyyətlərinin

öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Lakin R.Əfəndiyevin təsvirini verdiyi bu və ya digər etnoqrafik məlumatlar ətraflı şəkildə öyrənilməmişdir.

Nəzərə almaq lazımdır ki, müxtəlif bölgələrdən toplanmış məlumatlar xalqın etnik mənşəyi, dünyagörüşü, mədəniyyəti bir sözlə, kimliyi haqqında dolğun təsəvvür yaratmağa qadirdir. Məhz bu mənbələrin öyrənilməsi və toplanan məlumatların komplekslşdirilməsi yerli adət-ənənələrin, xalqımıza məxsus bütün növ milli xüsusiyyətlərin digər xalqlar tərəfindən mənimsənilməsinin və həmçinin saxtalaşdırılmasının qarşısını almağa kömək edəcək.

İstifadə olunmuş ədəbiyyatın siyahısı:

1. Axundova G.S. Qarabağda ipəkçilik sənəti.//Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı 2005.
2. Azərbaycan Etnoqrafiyası: 3 cilddə. I cild. Bakı, 2007.
3. Əfəndiyev R. Şəki vilayətində kümdarlıq peşəsinin tarixi, ipəkçilik sənayesi və ticarəti haqqında. Bakı, 2006.
4. Mustafayev A.N. Azərbaycanda şərbaflıq sənəti. Bakı, 1991.
5. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda ipəkçiliyin vəziyyəti. AEAX (tarix, fəlsəfə və hüquq seriyası), 1971, № 1.
6. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondu:1108.
7. MATM EF: 1123.
8. MATM EF: 4483.
9. MATM EF: 4572.
10. MATM EF: 5325a.
11. Шавров Н.Н. Кустарные шелковые промыслы Кавказа, Тифлис, 1902.

Farida Khalilova
Sericulture in ethnographic materials of
Rashid bek Afandiyev (on the basis of NMAH Ethnographic fund)

Summary

Key words: *Rashid bek Afandiyev, sericulture, silk, kumdarlig, drawing*

The article deals about sericulture on the basis of ethnographic materials of outstanding scientist, pedagogue and ethnographer Rashid bek Afandiyev. The scientist reported interesting facts about tools used in sericulture, silkworm technologies according to the drawings protected in NMAH Ethnography fund. Information was

acquired about features some exhibits protected in Ethnography fund.

Фарида Халилова
Шелководство в этнографических материалах
Рашид бека Афандиева (на базе этнографического фонда НМИА)

Резюме

Ключевые слова: *Рашид бек Афандиев, шелководство, шелк, червеводство*

В статье рассматривается шелководство на основе этнографических материалов выдающегося ученого, педагога и этнографа Рашид Бека Афандиева. Ученый сообщил интересные факты о инструментах, используемых в шелкопрядения, технологиях шелкопрядения в соответствии с рисунками, защищенными в этнографическом фонде НМИА. Приобретена информация об особенностях некоторых экспонатов, защищенных в этнографическом фонде.

Allahverdi Əlimirzəyev

Kaspilərin etnik tarixindən

Açar sözlər: *albanlar, mixi yazılı mətnlər, antik mənbələr, kaspi leksemləri*

UOT 94 (479.24)

Xəzər dənizi haqqında elmə məlum ən qədim fakt e.ə. IX əsrin sonuna təsadüf edir. E.ə 821-ci ildə Aşşur çarı V Şamşi-Adadın qoşunları Mutarris-Aşşurun komandanlığı ilə "Gündoğan dənizin" (akkadca: tamtim ša nipih šamši) sahillərinədək yürüş edə bilmişlər [6, № 34; 15, text A.O.103.1]. Azərbaycanın cənubunda tayfa ittifaqları və siyasi birliklər gücləndikcə Xəzər sahilindəki ərazilər aşşurlular üçün əlçatmaz olur. E.ə. I minilliyin ortalarından etibarən yunan müəllifləri bu dənizi sahilində məskunlaşmış aparıcı toplumun etnoniminə uyğun olaraq κασπι adlandırmağa başlamışlar. Antik mətnlərin məlumatına görə kaspilər Alban tayfa ittifaqının əsas subyektlərindən olmuşlar. Ehtimal edilir ki, "Alban" termini əvvəllər Cənubi Qafqazda məskunlaşan avtoxton etnoslardan birinə aid olmuş, antik dövrdə yunanlaşdırılaraq "Albaniya" formasına çevrilmiş və etnik mənsubiyyətindən asılı olmayaraq onlarla eyni hərbi-siyasi birliyə daxil olan qonşu tayfalara da şamil edilmişdir. Bu proses kifayət qədər inkişaf etmiş, müəyyən siyasi təcrübəsi və dövlətçilik ənənəsi olan, daha geniş ərazilərə yayılmış icmalarla təmsil olunan etnosun mövcudluğu şəraitində baş tuta bilərdi. Alban tayfalarından bu şərtlərə daha çox uyğun gələni kaspi etnosu idi. Hazırda kaspiləri (yunanca κασπιοι) antik müəlliflərin əsərlərində xatırlanan κοσσαιοι (Strabo, XI, 13, 6, XVII, 1, 8; Diod., XVII, 5; Just., X, 3; Polyb., V, 44 və s.), κισσιοι (Herod., III, 91), Aşşur-Babil kitabələrindəki kaššu, hurri mətnlərindəki kaššuhai etnonimləri ilə eyniləşdirirlər [17, pp. 189-190, 195-199, 303; 13, c. 91-109]. Qədim yunan dilində fışıltılı -š- səsi olmadığından yad sözlərin yazılışı zamanı onu -s- fonemi ilə əvəz edirdilər; bu səbəbdən kaššu etnonimi kossioi formasında verilirdi.

450 il (e.ə. 1595-1140-cı illər) Babilistanda hökmranlıq edən kaşşular (elmi

ədəbiyyatda "kassilər") özlərini qalzu və ya qaldu adlandırırdılar [14, s. 131-132]. Sonralar bu termin rusdilli ədəbiyyatda "xaldey", Azərbaycan dilində isə "kəldani" formasını aldı. Dillərindən 40-a yaxın teonim (tanrı adı), 440-a yaxın antroponim (şəxs ismi), 40-dan çox at ayaması, 30-dan çox söz, 8 bitki termini qalsa da, elmə kaşşu dilində tərtib olunmuş bütöv mətn məlum deyil.

Nuzi şəhərinin (müasir İraqda Yorğantəpə) e.ə. II minilliyin ortalarına aid təsərrüfat sənədlərində mixi işarələrlə kaşşu mənşəli bir şəxsin ismi: Bur-ra-al-ba-an qeydə alınıb. Adın tərkibindəki Burra- komponent qismində kaşşulara məxsus digər teofor adlarda da (Burra-Enlil, Burra-Harbe, Burra-Marduk, Burra-Laquda, Burra-Maşhu və s.) qeydə alındığından, ehtimal olunur ki, adın ikinci komponenti (-Alban) tanrı adı olmuşdur. Bu səbəbdən "Burra-Alban" teofer ismini "Tanrı Albanın himayəsində" kimi mənalandırırlar [14, ss. 50, 101, 221; 18, s. 867]. Alban teonimi kaşşu dövrü Babil sənədlərində qeydə alınmış Laban tanrı ismi ilə eyniləşdirilir [14, s. 101-102]. Laban teonimi antik dövrdə Albaniyada qeydə alınmış lpen etnonimi ilə müqayisə oluna bilər. [4, c. 151-154]. Alban teonimini bəzən islama qədərki mərhələdə ləzgilərin baş tanrı kimi sitayiş etdikləri Tsa-lpan (hərfən: "Alovun səsi" = Şimşək tanrısı) ilə müqayisə edirlər. Halbuki, Babildə tərtib olunmuş lüğətlərdə Şərqi samilərin Şimşək tanrısı Adadın kaşşu panteonunda qarşılığı "Buriaš" adlandığı göstərilir [14, ss. 2, 104].

Güman olunur ki, alba – qrammatik kateqoriya kimi sifətlərdən biri ilə bağlı idi [18, s. 867]. Bu mülahizə mâtAlbada, âluBit-Albada kimi toponimlərdə və Albadi-Sah teofor ismində özünü doğruldur [14, ss. 46, 91]. Kaşşular bu sözə -n suffiksini əlavə etməklə teonim, daha sonra isə tanrı Alban ilə bağlı toponimlər yaratmışlar. Məhz kaşşuların hakimiyyəti dövründə Diyala çayının (Dəclənin qolu) aşağı axarındakı ərazilər (müasir Qəsri-Şirin, Xanikin və Sarıpul) Halman (və ya hulvan, Alvan) adlanırdı. Şumer mənşəli mixi yazı sistemlərində -v- foneminin qrafik ifadəsi mümkün olmadığından onu Pİ ideoqramı vasitəsi ilə qeyd edirdilər. Bu səbəbdən Alvan və Hulvan toponimləri müvafiq olaraq "Alpan" və "Hulpan" kimi də oxuna bilər. Bu yer Sasanilər zamanında hlp'n, Abbasilər dönəmində isə Halvaan adlanırdı. Babilistanı İran yaylasının mərkəzi (qədim Mada) ilə birləşdirən əsas kommunikasiya xətti buradan keçdiyindən Eratosfen bu yeri "Midiya darvazaları" adlandırırdı. Maraqlıdır ki, Diyala çayının buradan axan qollarından biri indi də Abi-Alvan adlanır [17, pp. 11, 13]. Plini "Təbii tarix" əsərində (VI, 39) Albaniyanın ərazisində Xəzərə axan Alban və Kas çaylarının adını çəkir.

Kaşşuların ana vətəni və etnik mənşəyinə dair elmdə fərqli fikirlər mövcuddur. Bəzi tədqiqatçılar Luristanı onların vətəni hesab edir [7, c. 121-122]. E.ə. XXIII əsrin sonunda Urmiya gölündən cənub-şərqdəki torpaqlara hərbi yürüş edən Elam hökmdarı Puzur-İnşuşinakın qələbə stelasında Kaš-še-en toponiminin (müasir Kaşan) [7, c. 48]. xatırlanması və müasir Qəzvin şəhərinin adı kaşşuların Luristandan şərqdə də yayıldıqlarına işarə edir. e.ə. XII əsrin ikinci yarısında Kiçik

zab çayının (Dəclənin qolu) yuxarı axarındakı yerlərə hərbi yürüşü ilə əlaqədar Elam çarı Şilhak-İnşuşinak kaşşu mənşəli toponimləri (Murattaş, Kattarzah, Pit-Naşumalia və s.) işğal etdiyi barədə məlumat verir [20, s. 129, № 54].

K.Yaritsin qənaətinə görə, kaşşuların vətəni Anadolunun şimal-şərqində yerləşirdi [19, ss. 78-83]. Bu mülahizə e.ə. XVI-XIII əsrlərin het mətnlərində və sonrakı dövrün Aşşur yazılarında kaška (və ya kaska) tayfası ilə əlaqədar xatırlanan məlumatlarla əsaslandırılır. Həmin mətnlərdə bu tayfaya məxsus şəhər və dağ adları (Kaşşu, Kaşşula, Kaşşimul, Kaşşiya, kaşşia, Taq-qaşta və s.) qeydə alınıb [5, c. 166-191]. E.ə. II minilliyin sonlarından Aşşur kitabələrində Kaşiari oronimi (müasir Tur-Abdin dağı) xatırlanır [11, c. 14, 16; 3, c. 106-107]. Kaš- elementi ilə başlayan bir neçə söz kaşkların cənub-şərq qonşuları olan hurrilərin mətnlərində qeydə alınıb: kaššapte "cadu", "tilsim", "ovsun", kašti "qövs", "hilal"; mənaları bəlli olmayan kašla, kašukku, kašhara eləcədə a-al-pa [21, ss. 44, 139, 138]. kaš- komponent qismində kaşşu antroponimlərində də qeydə alınıb: Kaš-ak-ti-šuqab, kaš-til, kaš-ak-ti-yanzi, kaš-til-en-Sah, kaš-ak-ti-Ban, kaš-til-i-aš, kaš-til-li 14, s. 61, 62].

Babilistanın işğalına qədər kaşşular (və ya kaşkalar) Habur çayı hövzəsində (Fəratın orta axarı) özlərinin Hana çarlığını yaratmışlar [10, c. 386, 391, 419, 420].

Babilistanda hakimiyyətlərinin süqutundan sonra kaşşuların bir qismi buranın akkad mənşəli (Şərqi Sami) əhalisinə qarışmış, əksəriyyəti isə məskunlaşdıqları əvvəlki yerlərinə köç etmişlər. Salnamələrin məlumatına görə, III Salmanasarın zamanında (e.ə. 859-824-cü illər) onların Namar (və ya Namri; Diyala çayı hövzəsində) və Allabriyada (Urmiya gölündən cənubda) Aşşur dövlətinin maraq dairəsində olan kifayət qədər güclü siyasi birlikləri mövcud idi. Bu siyasi birliklərin çarları kaşşu mənşəli hökmdar titulu (yanzi) daşıyırdılar [11, c. 39, 138-139]. II Sarqonun zamanında isə (e.ə. 722-705-ci illər) Hubuşkia ölkəsinin (Van gölündən cənub-şərqdə) çarının da bu titulu daşıdığı məlumdur. həmin dövrdə yaşayan Manna çarı İranzunun adında da bu titulun olduğu söylənir [11, c. 138-139]. Aşşurluların "Kar-Kaşşı" (və ya "Kar-Kasiya"; həmədandan qərbdə) adlandırdıqları şəhər də kaşşularla əlaqələndirilir (hərfən: "Kaşşuların koloniyası") [7, c. 276]. Bəlkə də bu şəhər həmin mənbələrdə xatırlanan Qizin-kissi toponimi ilə eyniləşdirilməlidir. Ehtimal olunur ki, kaşkalar Kiçik Asiyanın digər avtoxton əhalisi hatlarla eyni dildə danışırdılar [5, c. 210]. Yunan forması «kaspi» mixi yazılı mənbələrdə, o cümlədən elam mətnlərində qeydə alınmadığından etnonimdəki -p sonluğunun elam dilində eyni səslənən etno-ümumiləşdirici şəkilçi ilə eyniləşdirilməsi fikri mübahisəli olaraq qalır [7, c. 103]. Hat dilində Ay tanrısının «Kaşka» adlandığını nəzərə alaraq güman olunur ki, bu adı əvvəllər Aya sitayiş edən bir tayfa daşımış, sonralar bu ad geniş tayfa birliyinə şamil olunmuşdur [5, c. 199-200]. Bu yerdə albanların Ay ilahəsinə (yunanca qarşılığı Selena) sitayiş etdikləri barədə Strabonun (XI, 4, 7) məlumatını yada salmaq yerinə düşür.

Bütün bu faktlar teonim və etnonimlərin kaş qrupu tayfalarında üst-üstə

düşməsini və "Alban" termininin də konkret tanrı ilə bağlı olduğunu bir daha təsdiq edir. Hat və kaşka (=kaşşu) etnoslarının genetik qohumluğu fikri şübhə doğurur. quruluşuna görə hatların dili Şimal-qərbi Qafqaz (abxaz-adıq) dillərini xatırladır [9, c. 26, 30, 33, 34]. Het kitabələrindən bizə təxminən 150 hat sözü çatıb və onlar müvafiq anlam daşıyan kaşu sözlərindən tamamilə fərqlənirlər. Məsələn, hatca yah, kaşşularda dagigi (və ya ilulu) "səma"; hatca ištarrazil, kaşşularda miri "yer", "torpaq"; hatca puur, kaššularda yaš "ölkə"; hatca punan (və ya zari), kaşşularda meli "insan"; hatca tabarna, kaşşularda yanzi (və ya nula) "hökmdar" və s. Ay tanrısının adı isə, əksinə, hər iki dildə eyni səslənə bilərdi. Belə ki, genetik qohumluğu olmayan Qədim Şərq xalqlarının eyni adlı tanrılara sitayiş etdiklərinə dair xeyli faktlar məlumdur. Məsələn, şumerlilərdə Enlil>akkadlılarda Ellil; şumerlilərdə An>akkadlılarda Anu; şumerlilərdə Sumukan>kaşşularda Şukamuna; hurrilərdə və Urartulularda Teşub / Teişeba > kaşşularda Tişpak; het sözü šin "tanrı" > Urartuda Şiuini «Günəş tanrısı» və s. Bu baxımdan hatların Ay tanrısı Kaşka kaşşu çarlarının soy tanrısı (əsil funksiyası bəlli deyil) Kaşşu ilə [14, s. 108-110; 7, c. 132-133] eyniləşdirilə bilər. Bəzi oxşar terminlər kaşşuların hələ Babilistana yürüşünə qədər Kiçik Asiyanın şimal-şərqində hatlarla təmasının nişanəsi kimi sayıla bilər. Məsələn, kaşşularda mašhu = hatlarda wašhab "tanrı", kaşşularda pur = hatlarda puri "cənab", kaşşularda gaddaš (və ya gandaš) hökmdar titulu = hatlarda kattah "ilahə" və s. [16, c. 73-75].

E.ə. I minilliyin əvvəllərində kaşşu elementlərinin tədricən Cənubi Qafqaza yayıldığını izləmək olur. Fikrimizi "Katarzah" adlı toponimin yer dəyişməsi təsdiq edir. belə ki, e.ə. XII əsrin ikinci yarısında bu toponim Kiçik Zab çayının yuxarı axarında qeydə alındığı halda [20, s. 129, № 54], Menuanın və I Argiştinin kitabələrində (e.ə. VIII əsrin birinci yarısı) Urartu mixi yazı sistemində eyni samitin qoşa yazılışına yol verilmədiyindən "Katarza" formasında Göyçə gölünün şimal-qərb sahilinə edilən yürüşlər zamanı xatırlandığının şahidi oluruq [12, №№ 20, 127, 128B]. K.Balkan bu toponimin anlamını kaşşu dili əsasında izah etməyin tərəfdarıdır [14, s. 159].

Əhəməni imperiyasının təbəələri kimi kaspilər e.ə. V-IV əsrlərdə iki satraplıqda (inzibati ərazi vahidliyi) təmsil olunmuşlar. Xəzər sahillərindəki kaspilər pavsiklər, pantimantlar və dareytlərlə birgə XI satraplıqda, Anadolunun şimal-şərqindəki kaspilər (kaşkalar) isə skiflərlə birgə XV satraplıqda yaşayırdılar (Herod, III, 92, 93). İmperiyanın süqutundan sonra hər iki satraplıq təxminən 140 il ərzində Atropatın varislərinin və Selevki strateqlərinin idarəçiliyinə keçir. Selevki hökmdarı III Antioxun e.ə. 190-cı ildə Maqneziya döyüşündə məğlubiyyəti onun sabiq sərkərdəsi Armeniya çarı I Artaksinin işğalçılıq planları üçün yeni imkanlar açır və Kaspiananın qərb hissəsi, digər ərazilərlə birgə, Atropatenadan qoparılaraq Armeniyanın tərkibinə qatılır [Strabo., XI, 14, 5]. Bu hadisə ilə əlaqədar Klavdi Ptolemeyin "Coğrafi təlimat" əsərində deyilir: "<Midiyanın> Armeniyaya yaxın

qərb hissəsini… Assuriya tərəfi boyunca kaspilər tuturdular".

"Coğrafiya" əsərinin digər bir yerində (XI, 4, 5) Strabon Kaspiananın Albaniyanın tərkibində olduğunu yazır. İlk nəzərdən ziddiyyətli görünən bu məlumatı Y.M.Mahmudov belə izah edir. E.ə. 165-ci ildə Selevki çarı IV Antiox Epifanın I Artaksi üzərində qələbəsindən sonra işğal altında olan ərazilər, o cümlədən Kaspiananın qərbi, Armeniyanın mərkəzi hakimiyyətinin nəzarətindən çıxır. Həmin vaxt Atropatena siyasi tənəzzül keçirdiyindən itirilmiş torpaqlarına sahib çıxa bilmir və Kaspiana bütövlükdə Albaniyanın tərkibinə qatılır [2, s. 102].

Strabonun "Coğrafiya"sında kaspilərlə bağlı ziddiyyətli görünən digər məlumat da mövcuddur. Belə ki, Strabon öncə (XI, 4, 5) kaspilərin onun zamanında artıq mövcud olmadığını qeyd edir, bir qədər sonra isə (XI, 8, 7) Eratosfenə istinadən onların Xəzərin sahillərində, hirkan, amard, anariak, kadusi və alban tayfalarından "sonrakı" ərazilərdə, yəni bu tayfalardan şimalda məskunlaşdıqlarını bildirir. Görünür, birinci məlumat kaspilərin Arazdan cənubda əvvəllər məskunlaşdıqları əraziləri tərk etdiklərinə (və ya orada artıq qeydə alınmadıqlarna) işarə edir.

Antik dövrdə kaspilərin və onlarla ittifaqda olan digər tayfaların Cənubi Qafqaza axını güclənir. Strabonun "Coğrafiya"sında (XI, 2, 15) və Yevstafinin (XII əsrin ikinci yarısı) "Dionisinin "Yerin təsviri" əsərinə şərhlər"ində (689) Qafqazın aborigen əhali tərəfindən "Kaspi" adlandığı bildirilir. Antik dövrdə Qafqazda qeydə alınan alban, kaspi, leq, lak, lpenlərlə bağlı toponim, oronim və hidronimlər buraya yeni əhali axınının nəticəsi idi. Belə bir köçün baş verdiyini etnoqrafik səpgili məlumatlar da təsdiq edir. Məsələn, strabon yazır ki, (XI, 11, 8) kaspilər yaşı 70-i keçən valideynlərini qapalı yerdə saxlayıb aclıqdan öldürür, cəsədlərini isə düzən yerlərə atırlar. Qədim coğrafiyaçı onu da qeyd edir ki, bu adət skif mənşəlidir (XI, 11, 3). Antik müəlliflərdən Porfiri (III əsr), Fələstinli Yevstafi (IV əsr) və Yestafi Yeronim (348-420-ci illər) kaspilərdə də bu adətin olduğunu qeyd edirlər. Bu adət kaspilərə cənubi Qafqazda skiflərə qonşu olarkən keçə bilərdi. Kaspilərlə skiflərin qonşuluğunu Pomponi Mela "Yerin təsviri" əsərində belə ifadə edir: "skiflərə [hamıdan yaxın] olanlar Kaspi gölünün sahilində yaşayan kaspilərdir" (I, 2, 12). Çünki onların uzun müddət yaşadıqları Babilistanda, Zaqrosda və Kiçik Asiyada belə adət qeydə alınmayıb.

Yazılı mənbələrdə "kaşşu", "kaşka", "kaspi" və "kissi" adları ilə təqdim olunan əhalinin etnik mənsubiyyəti qaranlıq olaraq qalır. Kaşşuların hakimiyyəti zamanı Babil çarlığında əhalinin müəyyən qrupu (məsələn, Kisiq şəhərinin sakinləri) həqiqətən də "kissi" (Herodotda kiσσioi) adı ilə qeyd oluna bilərdi. Kissi, Kissuk kimi kaşşu antroponimləri bu dövrün kitabələrində qeydə alınıb [14, s. 64].

Ayrı-ayrılıqda onların etnik mənşəyinə dair müəyyən mülahizələr söylənsə də, mənə məlum olduğu qədər, elmi ədəbiyyatda bütövlükdə bu etnonimlərin eyniləşdirilməsi istiqamətində hər hansı təşəbbüs göstərilməyib. Məsələn, "kaşka" etnonimi qədim mənbələrdə adıgey və çərkəzlərə verilən adlarla (qədim erməni qaş'k, qədim gürcü Kaşaq, Bizans-yunan Kasaxia, ərəb kaşak, qədim rus kosoq)

əlaqələndirilir. Bununla belə, o da qeyd olunur ki, bu fakt kaşka tayfasını adıqçərkəz (Şimal-qərbi Qafqaz) dil qrupuna aid etməyə əsas vermir [8, c. 12]. Yalnız kaşklara məxsus yer adlarındakı komponentlərin etimoloji təhlili nəticəsində onların müasir dillərlə genetik bağlılığı müəyyən oluna bilər. "Kaşşu", "Kaşka" və "Kaspi" terminləri eyni etnik substratla bağlı olduğundan onlara aid dil materiallarının paralel şəkildə öyrənilməsi bir çox mətləblərə nəinki yeni rakursdan baxmaq imkanı yaradar, hətta Qədim Şərq tarixi üçün sensasiyalı görünəcək mülahizələrə yol açа bilər. Məsələn, "kaşka" və "kaşkay" terminləri arasındakı zahiri fonoloji bənzərlik ilk baxışdan təsadüfi görünə bilər. Çünki kaşkayların türk mənşəli olması nəticə etibarı ilə prototürklərin Ön Asiyada e.ə. III minilliyin ikinci yarısından gec olmayaraq "kaşşu" və "kaşka" adları ilə yayıldıqları anlamına gəlir. Elmi ədəbiyyatda kaspi tayfasının türkmənşəli olması fikri söylənsə də, faktların birtərəfli və yetərsiz olması, mixi mətnlərdəki məlumatların müqayisəyə cəlb olunmaması və digər səbəblərdən tarixşünaslıqda ciddi qarşılanmayıb. Şübhə yoxdur ki, bu istiqamətdə araşdırmaların genişləndirilməsi təkcə Ön Asiyanın deyil, Qafqazın da miladdan öncəki etnik mənzərəsinin müəyyənləşdirilməsinə töfhə verə bilər Kaşka-türk dil materialının müqayisəli təhlilindən alınan maraqlı nəticələrə dair bax [1, s. 47-53]. Bir neçə fakta diqqət yetirək.

1. Qədim türk dilində kaşqa sözü "təmiz", "şəffaf", "açıq rəngli" anlamlarında işlənir. Bunu kaşkaların zahiri əlaməti kimi qəbul etdikdə albanlar haqqında Qay Yuli Solinin (III əsr) "Maraqlı olanlar haqqında məcmuə" əsərində yazdıqları yada düşür: "Albanlar… bəyaz saçlı doğulurlar və onların bəyazlığını xoş əlamət sayırlar…, xalq öz adını saçlarının bəyazlığından almışdır" (XV, 5).

2. Kaşşu termini yaš "torpaq", "ərazi" qədim türk dilindəki yazı "düzən yer" sözü ilə müqayisə oluna bilər [14, s. 155-156].

3. Kaşşu termini bugaš «öküz» qədim türk sözü buğa ilə müqayisə olunur [14, ss. 102-104].

4. kaşşuların daqiqi «səma» termininin tərkibindəki -gigi elementi qədim türk dilindəki gök və elam dilindəki kik «səma» sözləri ilə müqayisə oluna bilər [14, s. 147].

Bu kiçik müqayisə qədim türk sözlərinin kaşşu dilində də olmasının izahını verməyə yetməsə də, bir fakt təkzibolunmazdır ki, kaşşuların Alban teonimi çox sonralar kazaxlarda, qırğızlarda, özbəklərdə, qaraqalpaqlarda və türkmənlərdə bəzi etnik toplumlara şamil olundu [4, c. 74]. Ön Asiya və Qafqazla olan etnomədəni əlaqələr sonda Orta Asiyada kaşşularla (və ya kaşkalarla, kaspilərlə) bağlı etnotoponimlərin (Kazax, Kaşkadərə, Kaşğar, Kəşmir və s.) meydana gəlməsi ilə nəticələndi.

Beləliklə, aparılan ilkin araşdırmalar antik dövrdə alban tayfa birliyində təmsil olunan bəzi etnosların (kaspilərin, albanların, leqlərin və digərlərinin) əslində Qafqazmənşəli olmadığını və əvvəlki yüzilliklərdə Ön Asiyada gedən etnosiyasi proseslərdə yaxından iştirak etdiklərini söyləməyə əsas verir. Adlarını sitayiş etdikləri tanrılardan alan kaspilər və albanlar bu hərbi-siyasi birliyin aparıcı qüvvəsi

olmuşlar. Onların gəlişi ilə Qafqazın etnomədəni mənzərəsi xeyli zənginləşdi, tayfalararası mübadilənin intensiv hal alması ilə əlaqələr daha da genişləndi. Zəngin idarəçilik ənənəsi, hərbi qüdrəti və mədəni quruculuq təcrübəsi sayəsində kaspilər və albanlar – kaşşu və kaşkaların varisləri, yeni vətənləri Qafqazın cənubunda qonşu aborigen tayfaların potensialına arxalanaraq tarix səhnəsində 1000 il yaşayacaq Azərbaycan Alban dövlətinin təməlini qoydular.

İstifadə olunmuş ədəbiyyatın siyahısı:

1. Ağasıoğlu F. Azər xalqı. Bakı. 2006.
2. Mahmudov Y.M. Real tarix və "Böyük Ermənistan" uydurması. Bakı. 2014.
3. Арутюнян Н.В. Топонимика Урарту. Ереван, 1985.
4. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991.
5. Гиоргадзе Г.Г. К вопросу о локализации и языковой структуре каскских этнических и географических названий // Переднеазиатский сборник. Том I, Москва, 1961.
6. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту. // Вестник древней истории, 1951, № 2.
7. Дьяконов И. М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва, Ленинград, 1956.
8. Дьяконов И. М. Предыстория армянского народа. Ереван, 1968, с. 12.
9. Иванов В. В. Об отношении хеттского языка к северозападнокавказским. / Древняя Анатолия. Москва, 1985.
10. История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть первая. Москва. 1983.
11. Меликишвили Г. А. Наири-Урарту (Древневосточные материалы по истории народов Закавказья I). Тбилиси, 1954.
12. Меликишвили Г. А. Урартские клинообразные надписи. Москва, 1960.
13. Меликов Р.С. Этническая картина Азербайджана в период Ахеменидского владычества (VI-IV вв. до н.э.). Баку, 2003.
14. Balkan K. Kassitenstudien. 1. Die Sprache der Kassiten. New Haven, 1954.
15. Grayson A. K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. 2. Assyrian Rulers of the Early First Millenium BC, I (1114-859 BC). Toronto, Buffalo, London, 1991.
16. Heinz F. Zur geneologischen Einordnung der Hattischen und Kassitischen Sprache. / Georgia, Jena, Tbilisi, 1980.
17. Herzfeld E. The Persian Empire. Wiesbaden, 1968.
18. Jaritz K. Die Kassitischen Sprachreste. // Anthropos, 1957, Vol. 52, fasc. 5-6.

19. Jaritz K. Die Kulturreste der Kassiten. // Anthropos, 1960, T. 55, fasc. 1-2
20. König F. W. Die Elamische Königsinschriften. Graz, 1965.
21. Laroche E. Glossaire de la Hourrite. Paris, 1980.

Аллахверди Алимирзоев
Из этнической истории каспиев

Резюме

Ключевыу слова: *албаны, клинописные тексты, античные источники, термины каспиев.*

Первые сведения о Каспийском море датируются 821 г. до н.э., когда ассирийское войско дошло до его берегов; ассирийцы именовали это море «Морем восхода солнца». С V в. до н.э. античные авторы стали называть это море Каспийским, по имени обитавшего у его юго-западных берегов племени (древнегреческое: καστιοι, κοσσαιοι, κισσιοι). Считается, что именно этот этнос в вавилонских надписях фигурирует под термином kaššu, в хурритских – kaššuhai, в хеттских – kaška. В вавилонских текстах периода касситского владычества (XVI–XII вв. до н.э.) упоминаются теоним Албан, топонимы Албада, Бит-Албада и антропонимы Бурра-Албан, Албади-Сах. Возможно, это было связано с этно-культурной близостью каспиев и албан, создавшими одно из древних государств в северной части исторического Азербайджана.

Allahverdi Alimirzayev
From ethnic history of Caspians
Summary

Key words: *albanians, cuneiform texts, antic sources, caspian words*.

The first information about the Caspian Sea dates back to 821 year BC, when the Assyrian army came to its shores; they called it the sea «Sea Sunrise». With V century BC ancient authors call it the Caspian Sea, whose name shall dwell in the south-western coast of the tribe (Greek: καστιοι, κοσσαιοι, κισσιοι). It is believed that in the Babylonian inscriptions this ethnic group appear under term kaššu, in Hurrian – kaššuhai, in Hittite – kaška. The Babylonian texts of period Kassite domination (XVI–XII centuries BC) mention theonim Alban, toponyms Albada, Bit-Albada and anthroponomys Burr-Alban, Albadi-Sah. Perhaps this is due to ethno cultural proximity of the Caspian and Albanians, has created one of the oldest states in the northern part of historical Azerbaijan.

Səbinə Nemətzadə

Astronomiyaya dair biliklərin yaranması tarixindən

Açar sözlər: *astronomiya, qədim sivilizasiya, səma cismləri, Günəş, Ay, Qnomon*

UOT 930.2
UOT 94 (479.24)

Yazılı astronomik biliklər e.ə. 3-2-ci minilliklərə məxsusdur. Səma cisimlərinin adlandırılması ilə səmanın öyrənilməsini də nəzərə alsaq, eramızdan 4 min il əvvəl astronomik biliklərin formalaşdığını qeyd etmək olar. Bu dövrdə yaranmış ən qədim iki astronomik kəşf vardır: qnomon və astronomik cədvəl. Qnomon – Günəşin qalxma hündürlüyünü kölgəsi ilə ölçən bir dirəkdir. Günəş saatlarının öyrənilməsi üçün müxtəlif dövrlərdə istifadə olunmuşdur. Ümumilikdə günün müəyyən vaxtlarının təyini məqsədilə bu alətlə yanaşı, su və qum saatları da yaranmışdır. Qədim insanın apardığı müşahidələr bu cür cihazların yarandığı mərhələdən etibarən artıq daha yeni və konkret biliklərin əldə olunması üçün zəmin hazırlamışdır.

Artıq e.ə. I minillikdə babillilərə beş planet məlum idi. Onları ümumi olaraq "bibbu", Yupiteri isə "Ulduzlu Günəş" adlandırırdılar. Ən çox tədqiq olunan səma cismi Venera idi. Venera Aydan sonra səhər və axşam səmasında daha parlaq işıq hesab olunurdu. Veneranın parlaqlığının və mövqeyinin nisbətən sürətli dəyişkənliyinə əsasən şumer münəccimləri səma işarələrini mənalandırmağa çalışırdılar. Qeyd etmək lazımdır ki, e.ə. VII əsrdən etibarən Babildə rəsmi olaraq saray münəccimi vəzifəsi mövcud idi. Və o, səmada baş verən mühüm dəyişikliklərin sistematik şəkildə qeydə alınması ilə məşğul idi.

E.ə. VII əsrdən etibarən Mesopotamiya ərazisində sürətli şəkildə Babil riyazi astronomiyası formalaşmağa başlamışdır. Bu dövrdə səma cisimləri ilə bağlı riyazi hesablamaların aparılması və onlara adların verilməsi geniş yayılmışdır. Səma cisimlərinin, xüsusən Ayın hərəkəti (baş səma tanrısı Nanna olaraq bilinirdi) qədim gil kitabələrdə qeydə alınmışdır. Bu kitabələrdə 8 müxtəlif "tanrının" (səma cisimlərinin)

və buna uyğun olaraq da 8 səmanın mövcudluğu qeyd olunmuşdur. (6, s.28)

Riyazi hesablamaların aparılması nəticəsində qədim babillilər səma cisimlərinin ekvatorial-ekliptik qurşağını müəyyənləşdirməyi bacarmışdılar. Artıq e.ə. VII əsrin əvvəllərində səmada eni 30° olan dairəvi sahə müəyyənləşdirilmiş və oraya Ay, Günəş və planetlər daxil edilmişdi. Bu dairənin içərisində demək olar ki, hamısı heyvan adları ilə adlandırılmış 15 bürc müəyyənləşdirilmişdi. (9, s.190) Qədim şumerlər bütün riyazi və astronomik müşahidələri bir növ rəsədxana rolunu oynayan təkmil tikililər - zikkurat məbədləri vasitəsilə aparırdılar. Bu pilləli məbədlər həm ibadət ocağı, həm də astronomik rəsədxana olub, kvadrat və ya düzbucaq formalı süni təpəliklər idilər. "Zikkurat" "dağ zirvəsi" mənasına gəlib, təxminən e.ə. IV minillikdən etibarən inşa olunmağa başlanmışdır. Bu məbədlərdə tanrılara sitayişlə yanaşı, astronomik biliklər də əldə olunurdu. Təsadüfi deyildir ki, babillilərin tikdikləri yeddi pilləli "Zikkurat"ların hər pilləsi müəyyən planetin rəngi ilə rənglənmişdi.

Xetlər həm coğrafi yaxınlıq ilə əlaqədar, həm də mixi yazıdan istifadə etdikləri üçün Mesopotamiya astronomiyası və astrologiyasından çox təsirlənmişdilər. Onların astronomik bilikləri astrolojik kəhanətlər, əkinçilik, dini-mifoloji dünyagörüşü və bayramlarla əlaqədar gil lövhələrdə əks olunan mətnlərə əsaslanaraq qiymətləndirilir. Lakin əsas mahiyyəti astronomiya olmayan bu sənədlər xetlərin istifadə etdikləri təqvim ilə bağlı məlumatları verməkdə yetərsizdir. Buna baxmayaraq xetlərin (Mesopotamiyada olduğu kimi) Ay təqviminindən istifadə etdikləri və bu təqvimin ilk ayının yazda bitkilərin yaşıllaşmasıyla başladığı məlumdur. Bütün mövsümlərin bərabər uzunluqda olmadığı xet təqvimi iqlimdən asılı olaraq meydana gələn əkinçilik təqvimidir. Bu təqvimdə üç əsas mövsüm vardır. Bunlar *Hameşha* (yaz), *Zena* (payız) və *Gimdir* (qış). Lakin bəzən bu təqvimdə *Ebur* adlı bir ara mövsümdən də istifadə edilmişdir. Xet təqvimində bir ilin on iki aydan, hər ayın isə təxminən 28 və ya 29 gündən ibarət olduğu məlumdur. Xetlərin astronomiyanın yayılmasında da rolu olduğunu qeyd etmək lazımdır. Çünki xetlər vasitəsilə yunanlar babil astrologiyası ilə tanış olmuşdur. Başqa ifadə ilə, Şərqin (Mesopotamiya) astrologiya və astronomiya ilə bağlı biliklərinin Qərbə (Yunan) daxil olmasında xetlərin rolu böyükdür. (5, s.211)

Mesopotamiya sivilizasiyası qədər qədim olan, hətta daha qədim sivilizasiyaya malik olan insan məskənlərindən biri də Misirdir. Qədim misirlilərdə siyasi-iqtisadi və dövlətçilik ənənələri ilə yanaşı, elmin müxtəlif sahələri də inkişaf etmişdi. Bu elm sahələrindən biri də astronomiya idi. Misirin iqtisadi-coğrafi şəraiti ətraf mühitin öyrənilməsini və səma cisimləri ilə bioritmik əlaqələrin araşdırılmasını labüd edirdi. Belə ki, Nil çayının sahilində yerləşən Misirin kənd təsərrüfatı sistemi birbaşa bu çayın qabarma və çəkilmələrinə bağlı idi.

Misirlilər çayın deltasının dəyişməsinin mövsümlə və Günəşin gündüz çağı hündürlüyü ilə əlaqəsi olduğunu müəyyən etmişdilər və təsadüfi deyil ki, Günəş tanrısı Ra Misirin baş tanrısı hesab olunurdu. Misirdə qədim dövlətçilik sisteminin

formalaşması astronomiyanın saray elminə çevrilməsində mühüm rol oynamışdır.

Nil çayının qabarmaları yayın əvvəllərində meydana gəlirdi. Səmanın ən parlaq ulduzu olan Siriusun (qədim Misirdə - Sotis) qeliakal çıxması ilə Nilin qabarmasının üst-üstə düşməsi zamanı misirlilər unikal yerli günəş təqvimini – sotik təqvimi icad etdilər. (7, s.145) Bu təqvimdə il günəş ili idi və e.ə. 3-cü minillikdə tətbiq olunduğu hesab edilir.

Yeremeyeva və Tsitsin qeyd edirdilər ki, misirlilərin bu təqvimində il 365 gündən və 12 (hər biri 30 günlük) aydan ibarət idi, ilin sonuna isə 5 gün "əsas tanrıların doğum günləri" kimi əlavə edilirdi. Ay özü üç dekadaya bölünürdü. Qədim Misirdə ay təqvimi də mövcud idi və ictimai təqvimlə müəyyən mənada uyğunlaşdırılmışdı. Qədim misirlilər sutkanı 24 saata bölmüşdülər və 10 saat gündüz çağı hesab olunurdu. Bir saat sübh çağında, bir saat da axşam qürub vaxtı da əlavə edilmişdi. Daha sonra misirlilər gecə saatlarını da 12 hissəyə böldülər. Gündüz və gecə saatları mövsümə uyğun dəyişirdi və yalnız ellinizm dövründə, e.ə. IV əsrin sonlarına doğru bərabər saatlar tətbiq olunmağa başlandı. (6, s.34) Qədim Misirdə bir çox astronomik cihazlar – günəş və su saatları, ulduzların pik nöqtəsində müşahidəsi üçün bucaqölçən alətlər mövcud idi.

Qədim dünyanın astronomiya ilə bağlı zəngin biliklərə malik ölkələrindən biri də Çindir. Qədim Çində astronomiya elmi müxtəlif dövrlərdə çox yüksək inkişaf etmişdi. Çinlilərin istifadə etdikləri alətlər, əldə etdikləri biliklər uzun müddət dünya astronomiya elmində dərin iz buraxmışdır.

Çində ən erkən məşhur astronomik mətnlər (tısbağa çanağı və kürək sümüklərinə həkk olunmuş) e.ə XV əsrə aiddir.

Bu yazılı abidələrdə "Alovlu" (Əqrəb), "Quş" (Hidra) və digər bir qrup ulduzlar qeydə alınmışdı. Daha erkən qismən astronomik məzmunlu kitablar isə e.ə. I minilliyin ortalarına aid edilir. Bunlar Anaksaqorun müasiri olan Çin mütəfəkkiri Konfutsinin redaktəsi altında tərtib olunmuş Şu-tsin (Əfsanələr kitabı) və Şi-tsin (Nəğmələr kitabı) idi. Bu kitablarda əks olunmuş hadisələr əfsanəvi Sia sülaləsi dövründən (e.ə. III minilliyin sonu – II minilliyin əvvəlləri) başlayır. Yeremeyeva və Tsitin Çin astronomiya tarixinin tədqiqatçısı olan Startsevə istinad edərək Çin astronomiyasının e.ə. XII əsrdə tam formalaşdığını və burada astronomiya ilə bağlı saray vəzifəsinin mövcud olduğunu qeyd edirlər.

Artıq e.ə. VI əsrdə çinlilər "Süd Yolu"nu ayırd etmişdilər və onu "Gümüş Çay", "Səma Çayı" kimi adlandırmışlar. E.ə. 355-ci ildə Qan Qun və Şi Şen adlı astronomlar 800-dən artıq məlum olan ulduzların 120-si üçün ekliptik koordinatlı siyahı düzəltmişdir. Qan Qun "Sinçjan" (Ulduzlarla fal), Şi Şen isə "Tyanven" (Astronomiya) kitablarının müəllifləri idilər. Hər ikisinin kitabı "Qan və Şinin ulduzlar kitabı" adlı əsərdə cəmlənmişdir.

Artıq e.ə. XII əsrdə Çində xüsusi rəsədxana-meydançalar mövcud idi. Onlardan ən qədimi Çjouqun rəsədxanasının qalıqları indiyədək mövcuddur. E.ə. III əsrdə

Çində günəş və su saatları istifadə olunurdu. Bu dövrdə kompas da ixtira edilmişdi.

Qədim Çin təqvimlərində ilin əvvəli qış gündönümü, ayın əvvəli yeni ayın görünməsi, sutkanın əvvəli olaraq isə gecə yarısı müəyyənləşdirilmişdi. Sutkanın özü 12 qoşa saata bölünmüşdü. "Qançji" (kök və budaqlar) prinsipinə uyğun dövri sistem formalaşdırılmış, hər ilə 12 heyvanın adı verilmiş və dünyanın əsasını təşkil edən 5 təbiət ünsürlərinə ayrılmışdır. Və burada təkrarlanan 60 illik dövri təqvim ortaya çıxmışdı.

E.ə. VIII-V əsrlərdə Çində nəzəri astronomiya meydana gəlmişdir. Çin astronomları Ayın və Günəşin kəsişmə yollarından, yəni ay düyünlərindən xəbərdar idilər. E.ə. III əsrdə çinlilər ay və günəş tutulmalarının vaxtını və növünü deyə bilirdilər. Çinlilər Ay və Günəşlə yanaşı, Yupiter, Mars və Saturnla bağlı astronomik ölçüləri müəyyənləşdirməyə nail olmuşdular. (6, s.37-41)

Qədim Şərqdə astronomiya elminin formalaşdığı sivilizasiyalardan biri də Hind sivilizasiyası idi. Qədim Hindistanda astronomiya dini motivlər və mifologiya ilə bağlı şəkildə inkişaf etmişdi. Hinduizm dininin fəlsəfi cərəyanlarının hər birində astronomiyaya aid çalarlar tapmaq mümkündür. Hind çayının yuxarı ətraflarında tapılan qədim təsviri möhürlər Hind astronomik biliklərinin çox qədim köklərə malik olduğunu sübut edir.

Ən qədim dövr hind astronomik biliklərinə dair ilk məlumatlar dini himnlərin toplandığı "Riqveda"da mövcuddur. E.ə. I minilliyə aid bu nəğmələr toplusunda ilkin astronomik təsəvvürlərə yer verilmişdir. Hindlilərin ilk astronomik müşahidə obyektləri təbii olaraq, Günəş və Ay olmuşdur. Onların müaşihədələri ilə kahinlər məşğul olurdu.

Qədim hindlilərdə bir aylıq müddəti hesablamaq üçün iki üsuldan istifadə edilirdi: birinci üsulda yeniaydan yeniaya, digərində isə dolunaydan dolunaya qədərki müddət götürülmüşdür. E.ə. təxminən 1000-ci ildə hər biri 27 və ya 28 gündən ibarət olan və 12 aya bölünən 360 günlük ildən istifadə edilirdi. Bu hesablama üçün yəqinki Ayın orbiti (27, 32 gün) müşahidə edilmişdir. 12 x 27 hasili 360 günlük ildən 36 gün əskik idi. Əgər hesablama dolunaydan dolunaya (və ya yeniaydan yeniaya) edilsə 30 günlük ay müddətinin əldə edilməsi ehtimalı mümkün idi və bu da 360 günlük dövrə ilə daha uyğun idi. Veda ilahiyyatçılarının ilk iki dövrəni (27 və 28) verməsi ilə birlikdə, illər keçdikcə bunların dəyişikliyə uğradığı da təxmin edilir. Çünki e.ə. 1000-ci il tarixli «İşıq verən cisimlər» mövzusundakı bir Veda mətnində 30 günlük «nəzəri» aydan bəhs edilir. Lakin bu da Günəş ilindən 5,25 gün daha qısa olan bir təqvim verəcəkdi.

Veda dövrü hindliləri bu əskikliyi iki üsulla aradan qaldıra bilərdilər: ya müəyyən fasilələrlə təqvimə bir ay əlavə edəcək, ya da aylardan bir və ya bir neçəsinə beş və ya altı gün əlavə edəcəkdilər. Onlar hər iki yolu sınamış və nəticədə birincidə qərarlaşmışdılar. (10, s.209)

Qədim hind ədəbiyyatında – puranalarda, dini mətnlərdə və təbiət fəlsəfəsində

Kainat 3 hissəyə: Yer, Səma və onları birləşdirən hava məkanına bölünürdü. Bu məkanda müxtəlif ilahi qüvvələr – külək tanrısı Vayu, tufan tanrısı Rudra, şimşək tanrısı İndra hökmranlıq edirdi. İndra tanrılar içərisində hökmdar tanrı hesab olunurdu. Gündüzlər onun hökmranlığı ilə yer aydınlanır, gecələr isə əkiz qardaşı Aqni onu əvəz edirdi. (11, s. 4-5)

Politeist inancların mövcud olduğu qədim dövrlərdə ruslar astronomik fenomenləri ilahi qüvvələrlə bağlayırdılar. Qədim dövrdə yaşayan digər sivilizasiyaların astronomik görüşləri ilə müəyyən oxşarlıqlar olsa da, ruslar fərqli inanc və paradiqmalara malik idilər.

Qədim ruslarda yay və qış gündönümü ilə bağlı iki bayram mövcud idi: yay gündönümü ilə bağlı Kupalo, qış gündönümü ilə bağlı Kolyada bayramı qeyd edilirdi. Bu bayramlarla bağlı ruslarda xüsusi mərasimlər mövcud idi ki, hətta xristianlığı qəbul etdikdən sonra belə bu mərasimlər yerinə yetirilirdi. Bunlardan "diri alov" tapmaq, zirvədən alovlu təkərlər buraxmaq, Günəşin sutkalıq hərəkətini əks etdirən "solon" rəqsləri və digər ayinlər uzun müddət öz varlığını qoruyub saxlamışdır və bəziləri bu günədək icra edilməkdədir. Ümumiyyətlə qədim slavyanlarda Tanrılar içərisində ən üstün mövqeləri Günəşlə simvolika olunan Dajboq və Xors tuturdu. X əsr ərəb tarixçisi Məsudiyə görə rusların qızılı çöllərində yerləşən slavyan məbədlərinin gümbəzində Günəşin doğmasını müşahidə etmək üçün qiymətli daşlarla bəzədilmiş dəliklər vardı.

Qədim ruslarda səma cisimlərindən Ay da özünəməxsus Tanrı simasına malik idi. Ruslara görə ulduzlar sürü, Ay isə onları bir yerə toplayan çoban idi və beləliklə də, səma çobanı olaraq Ay "çoban" mənasını verən Volox, Volos və ya Veles adlanırdı. Qədim ruslarda Günəş tutulması da simvolik şəkildə təqdim olunmuşdu. Ruslara görə Günəş və Ay qardaş idilər və onlar arasında ara sıra mübahisə düşür və hər zaman "təqsirkar" Ay Günəşin qarşısını kəsirdi. Bununla bağlı qədim slavyan tayfaları içərisində çoxsaylı inanclar geniş yayılmışdı. Ruslarda təqvim ay fazalarına görə hesablanırdı. (8, s. 71-129)

Böyük və Kiçik Ayı bürcləri Qütb ulduzu ilə birlikdə slavyan xalq ənənəsinə görə "Çömçə", "Sığın", "Haça Xış", "Araba" və s. adlandırılırdı. "Sığın", "Haça Xış" adları, görünür ki, əsas məşğuliyyəti ovçuluq olan qədim slavyanların şimal-şərq qonşuları uqor-fin xalqlarından keçmişdir. "Araba" qədim germanlardan keçmiş, yaxud çox qədim dövrdə (e.ə.II-I minilliyin sonunda) hələ onlar ayrılmamış iki xalq üçün ümumi ad olmuşdur. Slavyanlar Qütb ulduzunu ətrafında ulduzların hərəkət etdiyi "Paya" kimi təsəvvür edirdilər. Ancaq bu cür anlam başqa xalqlarda da var idi. (4, s.23)

Əldə olunan artefaktlar, açıq səma altındakı muzey materialları və yazılı mənbələr astronomiya elminin Azərbaycanda da möhtəşəm tarixi yol keçdiyindən xəbər verir.

Azərbaycanın açıq səma altındakı muzeyi hesab edilən Qobustanda 6000-dən artıq rəsm siyahıya alınmışdır. Burada qayaüstü rəsmlər mövzu baxımından

rəngarəngliyi ilə seçilir. Bu qayaüstü təsvirlər içərisində fəza cisimləri, Günəş, Ay, bürclər və s. yer alır.

Astronomlara əsasən, qədim insanlar Qobustandakı qayalardan Günəş rəsədxanası, yaxud "Günəş saatı" kimi yararlanmışdırlar. İrəli sürülən fikirlərə əsasən, qədim insanlar ilin uzunluğunu da hesablamağı öyrənmiş, saat, ay, mövsümi rüblərlə bağlı təsəvvürlərə də yiyələnmişdirlər. Bu, Neolit dövrünün mühüm nailiyyətlərindən hesab olunur. Astronom A.Rüstəmov qayaüstü təsvirləri araşdırarakən müəyyən etmişdir ki, Qobustan qayalarında işıq-kölgə mexanizmi ilə işləyən "Qnomon təqvimi" dünyadakı ən yaxşı təqvimlərdən biridir. (3, s.14)

Gəmiqayada da Azərbaycan xalqının ulu keçmişini, tarixi həqiqətləri əks etdirən qayaüstü təsvirlər – piktoqrafik yazılar mövcuddur. Qayaüstü rəsmlər əsas etibarilə Qaranquş yaylağında cəmləşsə də, bu növ rəsmlər, həmçinin Qapıcıq zirvəsindən Nəbiyurd və Camışölən yaylağına qədər böyük bir ərazidə də mövcuddur. Bu təsvirləri stilistik baxımdan iki qrupa ayırmaq olar. Birinci qrupa simvol-işarə və astral təsvirlər (göy cisimlərinin-günəş, ay və s. qədim sənət əsərləri, əsasən qayalar üzərindəki təsvirləri), ikinci qrupa isə sujetli təsvirlər aiddir. Birinci qrupa daxil olan təsvirlər arasında əsas yeri Günəş rəsmləri tutur. Günəş təsvirlərinin çoxluğu qədim dövr insanlarının göy cisimlərinə olan marağı və təbiətə sitayişlə bağlı olmuşdur. Gəmiqaya təsvirlərində obrazlı olaraq nümayiş olunan Göy inancı, Göy cisimlərinə sitayiş, Göy aləminin başlanğıc funksiya¬sını həyata keçirməsi, bu dünya ilə o biri dünyanın qarşılıqlı müxalif qüvvələr kimi ifadə olunması Azərbaycan ərazisində yaşayan qədim tayfaların mifoloji dünyagörüşlərinin inkişafına qədim Şərq, əsasən də Şumer mədəniyyətinin təsirinin olduğunu söyləməyə əsas verir. (1, 62-63)

Azərbaycanın Qarabağ, Qazax, Naxçıvan və Mil düzü bölgələrində bədii dulusçuluq məmulatı istehsalı eramızdan əvvəl ikinci minillikdə inkişaf etmişdir. Buna Qazax rayonunun Babadərviş adlı qədim yaşayış məskənində tapılmış qabların naxışları misal ola bilər. Mütəxəssislərin fikrincə, Babadərviş piktoqramlarının birində quş və keçi timsalında göy və yer qarşılaşdırılmışdır. Burada torpağın göyə qarşı sitayişi və yağışa olan təmənnası ifadə olunmuşdur. Hətta, xeyir və şər qüvvələr arasında gedən mübarizənin şəkli yazılar vasitəsi ilə nəql edilməsinə də təsadüf edilir. Şəkli yazılarda ictimai hadisələr, ayin mərasimləri, təbiət və kainata aid animistik və kosmoqonik təsəvvürlər simvolik işarələrlə göstərilirdi. (2, s.6-7)

Milli Azərbaycan Tarixi Muzeyində I mərtəbədəki Ekspozisiya zalında Mingəçevirdə arxeoloji qazıntılar zamanı tapılan, e.ə. XIII-VIII əsrlərə aid olan Ulduz və günəş təsvirli gil qablar bu dövrdə Azərbaycandakı astronomik bilik və təsəvvürləri özündə əks etdirir.

Ümumiyyətlə, qədim sivilizasiyalarda mövcud olmuş astronomik biliklər oxşar riyazi, nəzəri və fəlsəfi sistemlər üzərində qurularaq, antik, orta əsrlər və müasir dövr astronomiyasının inkişafına böyük töhfələr vermişdir.

İstifadə olunmuş ədəbiyyatın siyahısı:

1. Naxçıvan tarixi- Ən qədimdən XVIII əsrin 40-cı illərinədək. Üç cilddə. I cild, Naxçıvan, 2013.
2. Səməngül Qafarova, Ellada Gərayzadə. Azərbaycan ədəbiyyatının tədrisi tarixi. Bakı, 2010.
3. Təranə Vahid. Böyük sivilizasiyanın beşiyi - Qobustan abidələri. Mədəniyyət qəzeti. 27 aprel 2011.
4. Uşaqlar üçün ensiklopediya. Astronomiya. Bakı, 2008.
5. Gaye Şahinbaş Erginöz. Hititlerin Astronomi Bilgisine ve Hitit Takvimine Bir Bakış. Osmanlı Bilimi Araştırmaları IX/1-2 (2007-2008).
6. Еремеева А.И., Цицин Ф.А. История астрономии: М. Изд-во МГУ, 1989.
7. И. А. Климишин — Календарь и хронология, М., «Наука», 1985.
8. Святский Д.О. Очерки истории астрономии в древней Руси, Историко-астрономические исследования. Выпуск VII, 1961.http://www.pawet.net/library/history/c_history/b_sv/1/%D0%A7%D0%B0%D1%81%D1%82%D1%8C_1.html
9. Ширяев А.А. О смещении точек равноденствий и солнцестояний // Астрон.календарь на 1988. М.,1987.
10. Colin A. Ronan. Bilim Tarihi. Dünya Kültürlerinde Bilimin Tarihi ve Gelişmesi.Başak Matbaacılık-Ankara, 2003.
11. Dimmitt, Cornelia, and J.A.B. van Buitenen. Classical Hindu Mythology: A Reader in the Sanskrit Puranas. Philadelphia: Temple University Press, 1978.

Sabina Nematzade

From the history of establishment of astronomical knowledge

Summary

Key words: *astronomy, ancient civilizations, celestial bodies, Sun, Moon.*

The article focuses on the study of astronomical knowledge in ancient civilizations. In particular, the foundations of science of astronomy in Mesopotamia, Egypt, China, India and Russia are investigated. Some of the descriptions of celestial bodies depicting the development of astronomical knowledge from ancient times in Azerbaijan are taken place in the article.

Сабина Нематзаде
Из истории возникновения астрономических знанийРезюме

Резюме

Ключевые слова: *астрономия, древние цивилизации, небесные тела, Солнце, Луна.*

Статья посвящена исследованию астрономических знаний в древних цивилизациях. В частности, изучаются первоначальные истоки астрономической науки на Руси, в Китае, Индии, Египте и Месопотамии. Здесь также рассказывается о наскальных изображениях небесных тел, отражающее развитие астрономических знаний в Азербайджане с самых древних времен.

Nərgiz Əliyeva

Əməvi xəlifələri və onların Azərbaycanla bağlı konfessional siyasəti (h.41-127/661-749)

Açar sözlər: *Azərbaycan, orta əsrlər, İslam, Əməvilər, xəlifələr*

UOT 94 (479.24)

VII əsrdə yeni teokratik dünya imperiyası-Ərəb xilafətinin yaranması imperiya tərkibinə daxil olan ölkə və xalqların sosial-iqtisadi, mədəni-konfessional həyatından məlum olduğu kimi köklü dəyişikliklərlə əlamətdardır. Bu təbəddülat Əməvilərin hakimiyyətə gəlməsindən sonra daha qabarıq şəkildə özünü biruzə vermişdir. Strategiya isə dəyişməmişdi. Yəni, Məhəmməd Peyğəmbərdən (s.a.s.) başlayaraq axırıncı əməvi xəlifəsinə qədər onların hamısını bir ideya- islam dini uğrunda mübarizə birləşdirirdi. Azərbaycanın da tərkibinə qatıldığı Xilafətin əraziləri bu dövrdə həcminə görə Roma və Çin İmperiyaları ərazilərini geridə qoya bilmişdi.

Əməvilər dövründə islamlaşma davam etmiş və müsəlman dünyası mədəniyyətinin təməli qoyulmuşdur. İslamlaşma və ərəbiləşdirmə siyasətinin təsir gücü fəth edilmiş ölkələrdə eyni cür olmamış, hər iki proses müxtəlif dərəcədə yerli xalqların dininə və dilinə təsir etmişdi. Bəziləri nə yeni dini qəbul etmiş, nə də ərəbiləşmiş, cizyə verərək Xilafət tərkibinə daxil olmuşdusa, digərləri, islamlaşmaqla bərabər həm də ərəbiləşmişdi. Azərbaycan isə islamlaşsa da, onlardan fərqli olaraq, ərəbləşməyən xalqlar arasında özünə yer almışdır.

Əməvilər mərhələsi Xilafətin daxili həyatı və xəlifələrinin bir sıra xüsusiyyətləri ilə yaddaşlarda qalmışdır. Əməvilər daha çox ibtidai islam prinsiplərinə sadiq qaldıqlarına və daha çox balanslaşdırılmış mötədil dini siyasət yeritdiklərinə baxmayaraq onların fərqli xüsusiyyətləri də nəzərə çarpırdı. Quranın hər zaman müsəlmanın yeganə kodeksi olaraq qalmasına baxmayaraq Əməvilər dövründə müsəlmanlar bəzən onun qayda-qanunlarını pozmaqdan çəkinmirdilər. Bəzi əməvi xəlifələri məişətdə islami meyarlar əvəzinə bizanslılar və ya islamaqədərki ərəblərin yolu ilə gedirdilər. Məs., Quranın qadağan etməsinə baxmayaraq xəlifə *Yəzid ibn*

Müaviyə (680-683) şərab içirdi. *Xəlifə Əbdülməlikin* (685- 86 /705) kəsdirdiyi sikkədə isə qılıncla şəkli həkk olunmuşdu (32, s. 24). Hətta Xəlifə Yəzidin ova sərxoş çıxması atdan yıxılması və ölümü ilə nəticələnmişdi (33, s. 471). Belə hadisələr dövrün müsəlman alimlərinin narazılığına səbəb olurdu. İslama qarşı imanın zəifləməsi ilkin islamı dirçəltməyə çalışan bir-neçə ifrat təəssübkeş təriqətin meydana gəlməsinə səbəb olmuşdu. Bu təriqətlərdən birinin daşıyıcıları olan xaricilər hesab edirdilər ki, onlar müsəlmanlara islamın həqiqi ruhunu qaytarmaq naminə mübarizə aparırlar. Onlar bəzən fanatikliyə gətirib çıxaran güclü enerjiləri ilə fərqlənirdilər. Bu insanlar yeri gələndə o dərəcədə fanatiklərə çevrilirdilər ki, ideyalarının qələbəsi naminə silaha əl ataraq öz canlarından keçməyə belə hazır idilər. Xaricilər Əməvilər dövründə böyük bir ərazidə yayılmışdılar. Dördüncü xəlifə *Əli ibn Əbu Talibin* (656-661) Şamda *Müaviyə ibn Əbu Süfyanla* müharibədə qələbəyə yaxın olduğu halda aldanaraq döyüşü dayandırıb danışıqlar aparmağa razı olduğu vaxt bir qrup onun ordusundan ayrılmış (xaric olmuş) və bu səbəbdən onları *xaricilər* adlandırmışlar. Onlar bu qərarı Hərur adlı yerdə qəbul etdiklərinə görə, bəzən hərurilər də adlanırdı. Burada Abdulla ibn Vahbini onlar özlərinə başçı seçmişdilər. Xaricilərin dini təlimə görə, islamın dini ehkamlarına öz işi və hərəkətilə əməl etməyən dindar özünü heç bir çətinlikdən qurtara bilməz və cənnətə nail ola bilməz. Hər bir xaricinin borcu bu təriqətin proqramını həyata keçirməkdir. İslam tarixində onlar ən ilkin dini-siyasi qüvvə sayılırlar.Yeni qələbələrdən sonra meydana çıxan bu qruplaşma "لا حكم الا لله) Lə hökm illallah)" –"Allahın hökmündan başqası yoxdur " şüarı altında qeyri-bərabər qüvvə ilə mübarizəyə başlamışdı. 685-ci ildə xəlifə *I Mərvanın* ölümündən sonra hakimiyyətə gələn Əbdülməlik ibn Mərvanın dövründə Xilafət əleyhinə xaricilərin çoxsaylı çıxışları olmuşdur. Xaricilərin təriqəti, məqsədləri və hərəkatları haqqında çox yazılmışdır. İslam tarixində mühüm yer tutan xariciliyin Xilafətin müxtəlif vilayətlərində öz təsisatları olmuşdur. İbn ən-Nədim xaricilərin Azərbaycanda da təsisatı olması haqqında məlumat vermişdir (39, s. 29).

Əli ibn Əbu Talibin ordusundan ayrılmış xaricilərin Azərbaycanda tərəfdarlarının olması burada xaricilik və mötəzililik cərəyanlarının yaranması və fəaliyyəti üçün mühüm sosial baza olmuşdur (13, s. 8). Xaricilik hələ Əməvilərin hakimiyyəti ələ almaq cəhdləri zamanı meydana çıxsa da, sonralar Xilafətə qarşı ən barışmaz mövqedə dayanan cərəyana çevrilmişdir. Xariciləri anarxiya tərəfdarları kimi qələmə verən Q.E.Qrunebaum onların kökünü kəsməyin çətin olduğunu göstərir. Bunun səbəbi kimi o, hakimiyyət orqanlarının "islama yaraşmayan" hərəkətlərinə etiraz edən xaricilərin, sosial cəhətdən incidilənlərin hamısını öz ətrafında cəmləşdirə bilmələri ilə əlaqələndirir (14, s. 81). Xəlifə *II Mərvanın* (744-750) dövründə xaricilərin dəstəsinin başında duran beyləqanlı Müsafir ibn Kəsirin başçılığı ilə başlayan üsyan şəhər qalasının alınması ilə nəticələndi. Beyləqan isə uzun müddət xaricilərin qalasına çevrildi (33, s. 23). İraqda Əməvilərə qarşı çıxmış

xarici məzhəbinə mənsub Dəhhak ibn Qeys əş-Şeybani Beyləqanda Müsafirin köməkliyi ilə hakimiyyətdən narazı yerli əhalini Xilafətə qarşı yönəldə bilmişdi (30, s. 58-59). Sonra Müsafirin tərəfinə keçən xaricilərdən Sabit ibn Nueym əl-Cüzəmi Ərdəbilə gələrək, üsyançıların bir hissəsini özünə birləşdirdi (30, s. 58-59). Azərbaycanda xaricilər hərəkatının başçısı Müsafir ibn Kəsir və Sabit ibn Nueym əl-Cüzəminin Ərdəbil və Beyləqanla bərabər Bacərvan, Varsan, Yunanda da xariciləri öz ətrafına toplaya bilməsini, Arranın şəhərlərində xariciləri dəstəkləyənlərin xeyli sayda olması kimi qəbul etmək olar. Beyləqanda baş qaldırmış və bütün Arranı bürümüş xaricilik hərəkatı Əməvilər sülaləsinin hakimiyyətdən devrilməsindən Abbasilər sülaləsinin hakimiyyətə gəlməsinə qədər davam etmişdir. Arrandakı xaricilər hərəkatını ilk Abbasi xəlifəsi Əbü-l Abbasın Azərbaycana hakim təyin etdiyi Məhəmməd ibn Sul yatıra bildi. Dəhhak ibn Qeys əl-Xaricinin özü isə daha əvvəl, 128/745-ci ildə müxalifətdə olduğu II Mərvana qarşı qiyamda öldürülmüşdü (34, s. 39). Xaricilərin yenidən baş qaldırması abbasilərin dövründə də baş vermişdi. Bu dövrdəki axırıncı toqquşmada da Beyləqandakı hadisələr mühüm rol oynamışdı. Əlbəttə, xaricilərin təqib edilərkən Azərbaycana qaçması da bu diyarda xaricilərin bazasının güclü olmasını göstərir.

Xəlifə Əli Kufədə bir xarici tərəfindən qətlə yetirildikdən sonra kufəlilərin beyəti ilə 6 ay xəlifə olmuş Əli ibn Əbu Talibin oğlu Həsən[1*] qarışıqlığın qarşısını almaq, dini-siyasi təfriqəçiliyi yüngülləşdirmək üçün xəlifəlik iddiasından əl çəkdiyini bildirdiyi haqda məktub yazaraq Müaviəyə göndərir. İslam alimləri Həsənin bu təşəbbüsünü yüksək qiymətləndirərək, islamın birliyinin təhlükəli bir vəziyyətdə olarkən bu vəziyyətdən çıxmağın ən düzgün yol olduğununu bildirirlər. Müaviyə onun tələblərini yerinə yetirməyə söz verdikdən sonra, 661-ci ildən, yəni Həsənin altı ay çəkmiş xəlifəliyindən sonra Əməvilər sülaləsinin süfyanilər nəslindən olan birinci əməvi xəlifəsi *Müaviyə* ibn Əbu Süfyan (661-680) 62 yaşında hakimiyyət başına gəlir. Onun xəlifəliyi 20 il davam edir. Müaviyə xəlifə olandan əvvəl də 20 il Suriyanı idarə etmişdi. Suriyadakı fəaliyyəti dövründə Müaviyə Bizansa qarşı hərbi əməliyyatlar aparmış və yaxşı təlim görmüş ordu yarada bilmişdi. Ümumiyyətlə o, yaddaşlarda görkəmli ərəb-müsəlman dövlət xadimi kimi qalır. Müaviyə Məkkədə yaşayan Qüreyş qəbiləsinin ən nüfuzlu və varlı bənu ümeyyə (əməvi) nəslindən idi. Məhəmməd peyğəmbərin (s.a.s.) çıxdığı bənu Haşim (haşimilər) nəslindən fərqli olaraq, üçüncü xəlifə Osman ibn Affanın da çıxdığı bənu üməyya nəsli islama qarşı ən qatı şəkildə çıxanlardan idi.

Müaviyə xəlifə olduğu dövrdə (661-680) Arran və Azərbaycan onu daha çox məşğul edirdi. Buna görə o, "Azərbaycan nədir" sorğusuna cavab tapmaq üçün etibarlı bildiyi mənbələrə müraciət etmiş, Übeyd ibn Sariyədən : "Bura qədim vaxtlardan türklərə aid bir ölkə idi" cavabını almışdı (21, s. 172; 2, s. 86-89).

1 Əs-Suyutiyə görə, altı ay bir neçə gündən sonra Müaviyə Kufəni idarə edən Həsənin üzərinə gəlmiş və onlar bəzi şərtlərlə barış sazişi imzalamışlar (bax:Celaleddin Suyuti. Halifeler tarihi. İstanbul, Ötüken nəşriyyat A.Ş. 2014, s.198).

Azərbaycan türklüyünü bir reallıq olaraq görən Müaviyə, Peyğəmbərin (s.a.s) türklər haqqındakı hədislərini xatırlayaraq öz xəlifəliyi dövründə bu hədisləri"Türklərlə bağlı bir dövlət siyasəti olaraq tətbiq etmiş və beləcə hədis mədəniyyətinə əsaslanan "Türk imici"ni islam cəmiyyəti və Azərbaycanın sərhəd xətlərinə qədər çatdırmışdı" (19, s. 52). Bu mövzuda bəzi hədisləri Peyğəmbərin(s.a.s.) dilindən Müaviyənin nəql etdiyi söylənilir. Müaviyə tərəfindən nəql olunan bir hədisdə deyilir:

قال النبى (صلعم). لا تبعثوا الرابضين أتركوهم ماتركوكم الترك والحبشة. "عن معاوية بن أبى سفيان (ر. ع.)"

(tərcüməsi: Müaviyə ibn Əbu Süfyandan (r.a.) rəvayət edildiyinə görə Peyğəmbər (s.a.s.) belə buyurmuşdur: "Sizlər iki toplum (qövm) üzərinə getməyin. Türklər və həbəşlər sizə toxunmadıqca siz də onlara toxunmayın") (19, s. 52-53).

Xəlifə *Müaviyənin* ilk qəbul etdiyi qərarlardan biri Abdullah ibn Hatim ibn Numan ibn Əmr əl-Bəhilini Azərbaycan ərazilərinə vali təyin etməsi olur[2].

Müaviyə xəlifə Əliyə qarşı digər yerlərdən orduları geri çəkdiyi kimi xəlifə Osman dövründən bəri regionda bir çox yerləri fəth edən Həbib ibn Məsləmənin tabeliyindəki böyük bir ordunu Gürcüstan və Ərminiyədən geri çağırdı (41, s. 64; 16, s. 41). O, xəlifə olduğu vaxt ərzində Azərbaycanda əsası Xəlifə Ömər tərəfindən qoyulmuş islam fəthləri və islamlaşmanı davam etdirmiş və islam dininin yayılmasına xüsusi fikir verilmişdir. Onun sayəsində bir çoxları müsəlmanlığı qəbul etmişdir (19, s. 87). 644-cü ildə Ərminiyə ərazisində bizanslılarla vuruşan Həbib ibn Məsləmə onların hücumunun qarşısını aldıqdan sonra, Tiflisi fəth edir və şəhərin əhalisi ilə müqavilə bağlayır. Müqaviləyə görə, Tiflis öz ətrafı ilə birlikdə Xilafətin Arran vilayəti tərkibinə daxil olunur. Müaviyənin xəlifəliyi dövründə "Ərminiyə əhalisi [sülh müqaviləsini] pozur və [Müaviyə] Həbib ibn Məsləməni (v.e. 662) - o zaman Həbib Curzanda (ərəblərin Gürcüstana verdikləri ad-N.Ə.) [idi]- əl-Baba (Dərbənd-N.Ə.) əmir təyin edir. Həbib yenidən Tiflis və ətraf dağların əhalisi ilə yazışmalar aparır.." (8, s.121-123.). Artıq bu dövrdə Tiflisdə xeyli müsəlmanlar var idi. Tiflis əhli oradakı müsəlmanların nümayəndələri olan Təflini Həbib ibn Məsləmənin yanına göndərir. Ət-Təbəri bu yazışmaların mətnini əsərində verir (8, s.121-123.). Məktubdan görünür ki, Tiflisdə bu dövrdə müsəlmanlar kifayət qədər çox idi və onlar islama gəldikləri üçün özlərini "doğru-dürüst" millət hesab edirdilər. Müsəlmanlar öndə gedənlərdən biri olan Təflini qiymətli hədiyyələrlə Həbib ibn Məsləmənin yanına göndərərək, öz əmniyyətlərinə inam verəcək yazılı bir sənəd istəmişlər. Digər tərəfdən aydın olur ki, Xəlifə Müaviyənin dövründə bölgələrin, o cümlədən Azərbaycanın fəthini davam etdirdikcə vali- sərkərdələr özləri ilə dinin mahiyyətini yerlərdə camaata başa salıb öyrədə biləcək Quran və ilahiyyat əhli, yəni hafizlər, qarelər (Quran oxuyanlar) göndərirdilər.

Həbib ibn Məsləmə Tiflislə Əməvilər dövründə ikinci dəfə yenidən amannamə imzaladıqdan sonra İslam dinini təbliğ etməkdən ötrü "Quran əhli və öz aralarındakı

2 Abdulla əl-Bəhili Azərbaycanda vəfat edən valilərdən biridir (Əl-Bəlazuri. Futuh əl-buldən, I c., Qahirə, 1956, s.519).

ən alim şəxs" olaraq tanıtdığı Əbdürrəhman ibn Caz əs-Suleymini buraya göndərir. Əbdürrəhmanın uğurlu təbliğ fəaliyyəti nəticəsində şəhər əhalisinin böyük bir qisminin müsəlman olduğu bildirilir (8, s. 122). Əbdürrəhmanın təbliği ilə yanaşı Yaqutun verdiyi məlumata görə Həbib ibn Məsləmənin yanına tiflislilər tərəfindən gətirilən hədiyyələrin dəyərinin təsbit edilib cizyə kimi qəbul edilməsinin, cizyə vergisinin bir qisminin buradan ödənilməsinin də Tiflisin islamlaşmasına, əhalinin kütləvi şəkildə İslamı qəbul etməsinə təsiri olmuşdur (44, s. 209). Müaviyənin hakimiyyəti həm də Azərbaycanda bir çox dağıdılmış şəhərlərin yenidən qulurması, orada məscidlərin tikilməsi ilə də yadda qalmışdır. Xilafətin Azərbaycanda idarəçilik mərkəzi sayılan Ərdəbildən başlanaraq ölkənin bir çox şəhərlərində came və məscidlər tikilmişdir. Hələ 628-ci ildə Sasani və Bizans orduları arasındakı müharibə vaxtı bizanslıların müttəfiqi olmuş xəzərlər tərəfindən dağıdılmış Bərdə Xəlifə Müaviyə tərəfindən yenidən tikilir. Müaviyənin adından Əbdüləzəz ibn Hatim Bərdə ilə bərabər Dəbil şəhərini möhkəmlətmiş, orada məscid tikdirmiş, bununla yanaşı Nəşavə və Beyləqan şəhərlərini də tikdirmişdi. Daha sonra xəlifə Mərvan isə Marağanın tikintisini başa çatdırmışdı. Əl-Bəlazuri xəbər verir ki, xəlifənin şəhərin idarə olunmasına həvalə etdiyi adamlar yerli camaatla xoş münasibət yaratdılar. Müəllifə görə, bu, oraya bir-birinə əl tutmaq, kömək etməkistəyən çox sayda adamın köçüb gəlməsinə səbəb oldu: onlar şəhəri bərpa edib abadlaşdırdılar (7, s. 182).

Xilafətin qarşısıalınmaz güc sahibinə çevrilməsi bəzi yerli hakimlərin siyasətində dəyişikliklərə səbəb olur. Xəlifə Müaviyənin dövründə Albaniyanın hakimi Cavanşir 667-670-ci illərdə Əməvilərin paytaxtı Dəməşq şəhərinə gələrək, xəlifə Müaviyə ilə görüşmüş və bu görüşdən sonra siyasətini dəyişmiş, Albaniyanı Xilafətin vassalı elan etmişdi. Görünür ki, onun atdığı bu addım, Cavanşir üçün ölkəsinin nisbi sakitliyini qorumaq imkanı vermişdisə, Müaviyə üçün islamın Albaniyada yayılmasına rəvac vermişdi. Cavanşirin bu siyasi gedişi Xilafət üçün bəzi neqativ halların yaranmasına da səbəb oldu. Belə ki, yerli zadəganlar içərisində olan bizanspərəst qüvvələr baş qaldırır və onlar 680-cı ildə (bəzi mənbələrə görə isə 681) Cavanşirə qarşı sui-qəsd təşkil edirlər. Bu məlumat ölkənin daxilində bizanspərəst qüvvələrin hələ də güclü olduğuna dəlalət edir. II əməvi xəlifəsi I Yəzid (680-683) Cavanşirdən sonra hakimiyyətə keçmiş onun qardaşı oğlu I Varaz Tiridatı (680-699) Şərq vılayətlərinin canişini, Alban padşahlığı və Uti əyalətinin hökmdarı elan edir.

Qeyd etmək lazımdır ki, xəlifə Müaviyənin zamanından başlayaraq ilk dəfə vəliəhdlik yarandı. O, ölümündən qabaq oğlu Yəzidi vəliəhd təyin etdi. Bu ənənə ondan sonra gələn xəlifələr tərəfindən də davam etdirilərək məqbul sayılmış, sülalələ hakimiyyətinin əsası qoyulmuşdu.

Atasının vəfatından sonra Xilafət taxtına çıxan *I Yəzidin (680-683)* hakimiyyətini ölkənin çox hissəsinin tanıdığına baxmayaraq o, bir sıra çətinliklərlə üzləşdi. Əli ibn Əbu Talibin ikinci oğlu Hüseyn Yəzidə beyət etməkdən imtina etdi. Məkkə,

Mədinə və Kufə sakinlərinin çoxu da ona qoşuldu. Ubeydullah ibn Ziyadın başçılıq etdiyi təcrübəli, yaxşı təlim görmüş məğlubedilməz Suriya ordusu ilə üzləşən şiələr Yuxarı Fərat boyunca yerləşən Ayn əl-Vard adlanan yerdə faktiki olaraq qırıldı. Şiə[3] hərəkatı hərəkatının yuaranmasına səbəb olan iki hadisədən birincisi məhz bu zaman Xəlifə I Yəzidin dövründə (680-682) baş verdi. Kərbəlada Peyğəmbərin (s.a.s.) nəvəsinin başını kəsərək nümayişkaranə şəkildə Şama göndərilməsi 680-ci ildə şiə hərəkatına səsəb oldu. İkinci hərəkat isə əməvi xəlifəsi Mərvanın (684-685) hakimiyyətinin son dövrlərində 16 min nəfərədək şiənin Kərbəlada şəhid olmuş Hüseynin məqbərəsi ətrafında toplaşaraq dini ekstaz atmosferində Dəməşqə Əməvilərdən qisas almağa yollanması idi. Daha sonra 685-ci ildə Muxtar ibn Übeyd Kufə şiələrini "Hüseynin qisasını almaq" şüarı ilə öz ətrafında birləşdirərək Kufə şəhərinin hakimini devirdi. Bundan sonra Kufədə Hüseynə qarşı vuruşanları planlı şəkildə məhv etməyə başladı. Muxtar tezliklə İbn Zübeyrin hakimiyyətini tanıyan Şimali İran və İraq üzərində nəzarət yarada bildi və beləliklə, dövlət Əbdülməlik (Suriya və Misir), Abdulla (Ərəbistan və İraqda Bəsrə) və yeni rəqib olan Muxtarın təsir dairəsinə bölündü.

Əməvilər dövründə ərəb ordusunun Azərbaycana gəlməsi ərəb mənşəli qəbilələrin də burada məskunlaşması ilə müşayər olunur du ki, bu da islamın yerlərdə möhkəmlənməsinə təkan verirdi. Müaviyədən sonra yeni bir ərəb ordusu axını Yəzid ibn Usaydın valiliyi vaxtında baş tutmuşdu. Buna səbəb Xəzər xaqanı qızının iki nəvəsinin ölümü olmuşdur. *Xəlifə Yəzid (680-682)* İraqdan 35 min, Suriya və Cəzirədən 20 min əsgəri Arrana göndərir. Mənbələr həmçinin İraqdan göndərilən qoşun sərkərdələrindən Cəbrail ibn Yəhya, Məhəmməd ibn əl-Həsən, Humeyd ibn Qəhtab kimi sərkərdələrin adlarını çəkirlər. Hər iki tərəf, yəni xəzərlərlə müsəlman qoşunları döyüş üçün Şirvan torpağında görüşürlər. Hərbçilərin gəlişi qəbilələrin məskunlaşması ilə müşayət olunurdu. Çox gümün ki, Şirvanda əsilləri ərəb mənşəli qəbilələr yaşayan "Ərəblər", «Ərəbqiyaslı», «Ərəbçəltikçi», «Ərəbmehdibəy», «Ərəbşamlı», «Ərəbcərbirli», «Ərəbsarvan», «Ərəbkükəl», «Ərəbocaq», «Ərəbuşağı», «Ərəbdəhnə», «Ərəbli», «Ərəbkeymurad», «Ərəbdəhnə Hacılı» və kəndlərinin əhalisi məhz bu dövrdə ərəb ordusu ilə gəlmiş qəbilələrin nəslindəndir.

Qeyd etmək yerinə düşər ki, artıq 664-cü ildə Xilafətdə hakimiyyət əməvilər sülaləsinin başqa qoluna keçdi. *Mərvan ibn əl-Hakəm* sinli yaşında xəlifə oldu. Müaviyə və onun nəsli sufyanilərdən fərqli olaraq əməvilər sülaləsinin bu qolu mərvanilər adlanmağa başladı.

3 Qeyd: Sünnilikdən sonra ikinci (əhəmiyyətinə və sayına görə) istiqamət kimi şiəlik VII əsrin ikinci yarısında İraqda xəifə Əlinin tərəfdarları arasında meydana gəlib. Şiələr Quranı ilahi vəhy kimi qəbul edirlər, lakin hesab edirlər ki, Əlinin haqqını sübut edən surənin biri və ya bir neçə ayət qəsdən Quranın Osman nüsxəsinə daxil edilməyibdir. Əlidən başqa bütün sünni xəlifələri şiələri qəsbkar hesab edir və on iki imamı onlara qarşı qoyurlar (bax: Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Bakı: Azərbaycan nəşriyyatı, 1997, s.277-278)

Xilafətə daxil olmuş ölkələrdə, o cümlədən Azərbaycanda islam mədəniyyətinin yayılmasında beşinci əməvi xəlifəsi *xəlifə Əbdülməlik ibn Mərvanın (685- 86 /705)* böyük rolu qeyd olunmalıdır. Onun ölkə daxilində apardığı islahatlar, Xilafəti möhkəmləndirməyə və Xilafətə daxil olan ölkələr arasında inzibati, siyasi vəhdət və mərkəzləşdirilmənin mənafeyinə tabe olan iqtisadi əlaqə yaratmaq üçün həyata keçirdiyi tədbirlər içərisində əlifba islahatı, divanların ərəbləşdirilməsi, ərəb dilinin Xilafət dili elan edilməsi məsələləri olduqca mühüm yer tutur (3, s. 78). Azərbaycanın görkəmli numizmatı professor Ə. Rəcəbli bu dövrdə baş verən təbəddülatı ilk növbədə dönəmin sikkə zərbi və və pul dövriyyəsi ilə bağlayır. O göstərir ki, ilk zamanlar sasani və Bizans sikkələrinə cüzi tipoloji əlavələr etməklə keçinən Xilafət Əbdülməlik 696-cı lldə keçirdiyi pul-sikkə islahatı əsasında vahid dövlət sikkə sisteminin təsis olundu. Bu sistemin tətbiqi ilə islamlaşma və "ərəbləşmə" prosesinin faktik olaraq təməl daşı qoyuldu. Azərbaycan və Aran sikkə sisteminin əsas sikkə vahidi-gümüş dirhəmin ilk zərb olunduğu Xilafət əyalətlərindən birinə çevrildi (15, s. 33-37).

Xəlifə Əbdülməlikin əlifbanı dəyişdirmək, divanları ərəb dilində aparmaq haqqında 700-701-ci illərdə başlayan islahatının müvəffəqiyyətlə həyata keçirilməsi böyük tədqiqat işləri aparmaga, mövcud elmi ədəbiyyatın xarici dillərdən ərəbcəyə tərcüməsini zəruri etmişdi. Artıq VII əsrin sonu VIII əsrin əvvəllərindən başlayaraq Əməvilər sülaləsi elm və mədəniyyətin inkişaf etdirilməsi sahəsində bir sıra addımlar atmağa başlayır. Bu nöqteyi-nəzərdən əməvi şahzadələrindən Xalid ibn Yəzid ibn Müaviyənin (ö. 85/704) rolunu xüsusi qeyd etmək lazımdır. O, tibb, astronomiya, kimya kimi elmlərə maraq göstərən şahzadə birinci olaraq bu mövzuda yazılmış yunan və qibti dilindəki əsərləri isgəndəriyyəli rahib Staphon və Maraianosa tərcümə etdirmişdi (39, s.340). Tərcümələr isə "Dərul-tərcümə"("Tərcümə evi") də aparılırdı. Bu müəssisə isə Əməvilər sülaləsinin paytaxt şəhəri olan Dəməşqdə[4*] "Beytül-hikmə"dən əvvəl inşa edilmişdi (42, s. 126). "Tərcümə evinə" kitabları da ilk dəfə Xalid ibn Yəzid toplamışdır. Onun bu işini Əməvi Xəlifələrindən Mərvan ibn əl-Hakəm (684-685) və Ömər ibn Əbdüləziz (717-720) davam etdirmişdi.

Antik müəlliflərin elm üzrə ən başlıca əsərlərinin ərəb dilinə tərcümə olunması sayəsində bu əsərlər Azərbaycanda da yayılmışdı. Azərbaycan şairi Əfzələddin Xaqaninin (1126-1199) öz əmisi Kafiəddin Şirvani haqqında yazdığı şeirdən görünür ki, o, Aristotelin, Hippokratın və Platonun ərəb dilinə tərcümə olunmuş əsərlərindən istifadə etmişdi. Bu əsərlərin tərcüməsinin əsası isə çox güman ki, "Tərcümə evində" qoyulmuşdu. Eləcə də, "Respublika", "Qanunlar", Platonun "Timsos"unu, Aristotelin məntiqdən bəhs edən əsərlərini, Arximed, Evklid, Hermes Trismegist, Fales Miletskiy, Appoloniy Tianskiy, Porfiriy Tirskiy və başqalarının əsərlərini ilə Nizami Gəncəvinin (1140-1211) yaxından tanış olması (32, s. 9), yəqin ki, əməvi sülaləsi tərəfindən qoyulmuş "Tərcümə evi"nin fəaliyyəti

4 Xəlifə Müaviyə ilk dəfə olaraq dövlətin paytaxtını Mədinədən Dəməşq şəhərinə köçürür.

sayəsində mümkün olmuşdu.

Xəlifə Əbdülməlik ibn Mərvanın (65-86/685-705) ərəbləşdirmə siyasəti uğurla aparılmağa başladı. Onun əlifba islahatı, divanların ərəbləşdirilməsi, ərəb dilinin Xilafətin rəsmi dili elan edilməsi sahəsində həyata keçirdiyi tədbirləri Xilafətin tərkibində olan xalqların da dinini, mədəniyyətini, yazılı abidələrini əvvəlkindən daha artıq sıxışdırmağa başladı. Xəlifə Əbdülməliyin Azərbaycanda həyata keçirdiyi dil siyasəti xalqın dilini dəyişdirməsə də, ideologiya, elm və mədəniyyətə təsir edirdi. Onun bu siyasəti yerli ziyalıların öz xalqından ayrılmış imtiyazlı zümrəsinin formalaşmasına olduqca əlverişli şərait yaratdı. Bioqrafik ədəbiyyat bu imtiyazlı zümrəyə daxil edilən və müsəlman adları ilə yazıb yaradan məvalilərin[5*] hərbi fəaliyyətləri haqqında haqqında yazmasalar da, onların mühəddislık və şairlik fəaliyyəti haqqında məlumat verirlər. Həmin ziyalılardan biri də Əli ibn Talibin məvlası ərdəbilli qazı Cəfər ibn İbrahim Əbu Məhəmməd əl-Qənbəridir. Ona istinadən Abdulla ibn Cəfər ibn Farisdən hədis nəql edib. Ona istinadən isə həmyerlisi ərdəbilli zahid Əbu Abdulla Məhəmməd ibn Əhməd ibn İsmayıl ibn Rəvvad hədis nəql edib (6, s. 87). İbn Quteybəyə əsaslanan M.Mahmudov məvali-şairlər Musa Şəhəvat, Əbul-Abbas, İsmayıl ibn Yasar və onun qardaşları haqqında məlumat verərək onların VII əsrin sonlarında və VIII əsrin I yarısında yaşayıb yaratmaqları haqqında məlumat verirlər (11, s. 11). Onlar ictimai ziddiyyətlərin son həddə çatdığı Əməvilər dövründə (h.41-127/661-749) öz mənafelərinə uyğun olaraq bu və ya digər siyasi dəstənin tərəfində dururdular Həmin siyasi qruplar da öz növbəsində məvalilərin xidmətindən həvəslə istifadə edirdilər. Azərbaycanda islam mədəniyyətinin yayılmasında böyük rolu olmuş Xəlifə Əbdülməlikin özü ədəbiyyata böyük maraq göstərmişdir. O, əhalinin toplandığı yerlərdə şeir oxumaq və şairlərdən söhbət açılması barədə əmr vermişdi (40, s. 70). Sözsüz ki,

5 Qeyd: "Məvali" (موالى) ərəbcə ولى felindən düzəlmış " məvla"(مولى) sözünün cəmidir ki, bunun da mənası "yaxın olmaq, kiminsə arxasınca getmək, qoşulmaq" deməkdir. Bu termin termin islamdan əvvəlki Ərəbistanda geniş yayılmışdı. Əsasən tez-tez müxtəlif asılı kateqoriyadan olan əhaliyə şamil edilirdi. Məfhum çoxmənalı (qan qohumlarından tutmuş həmiliyə qəbul edilmiş özgə xalqlardan və azad edilmiş qullara qədər) olduğuna görə mavlə sözünün qrammatik məna kimi real məzmununu yalnız kontekstən çıxış edərək açmaq olar (Bax: Негря Л.В. К вопросу о значениях понятия мавла в Аравии У-УП вв.-«Вестник МГУ». I (1977), с. 25-33). Ərəb fəthləri dövründə məvla termini yeni məzmun kəsb edir. Onlar yeni müsəlmanlar kimi ərəb ordusu tərəfdə döyüşən müsəlman-ərəblərlə bərabər tutulurdu. Qənimətlərin bölgüsündə də bu təbəqədən olanlar ərəblərlə eyni pay alırdı. Ayrı-ayrı ərəblərə təhkim olan bu qeyri-ərəblər Xilafətin həyatında öyəmli rol oynamağa başladı. Onlar təhkim olunduqları qəbilə başçıları və onun qəbilə üzvləri ilə birlikdə fəth olunmuş yerə yerləşdirilir, onu hərbi əməliyyatlarda müşayət edirdilər (Bax: Колесников А.И. Завоевание Ирана арабами. Изд-во «Наука», Москва, 1982, с.173).

bu şairlərdən Əməviləri, o cümlədən bu sülalənin nümayəndəsi olan Əbdülməliyi tərifləmək, haşimilər və xilafət fikrinə düşən başqa nəsilləri isə pisləmək tələb olunurdu (3, s. 92).

Qısa müddətdə ərəb dili fəth olunmuş ölkələrin əhalisinin dilini sıxışdırmağa başlayır, ədəbi məclislərin, ziyalılarının rəsmi dili ərəb dili olur. Bir sözlə, ərəbləşdirmə siyasəti son dərəcə sürətlə aparılırdı. Akad. V.V. Bartold göstərirdi ki, ərəb dili nəinki islam dinini qəbul etmiş ölkələrin əhalisi arasında, həm də müsəlman olmayanlar arasında da dövlət dili kimi yayılmağa başladı (22, s. 25).

Dini-siyasi təfriqəçilik Xilafətin müsəlman əhalisi arasında olduğu kimi xristian əhalisi arasında da baş verirdi. Alban patriarxı Nerses Bakurun yunan kilsəsinə tərəf meyl etməsindən ustalıqla istifadə edən erməni yepoiskopu İlya (703-707) xəlifə Əbdülməlikə yazdığı məşhur məktubu Xilafətin Albaniyanın daxili işlərinə qarışması və Alban kilsəsinin erməni kilsəsinə tabe edilməsi ilə nəticələndi. Məktubda alban katolikosunun Rum imperatoru ilə sazişə girib, ibadətlərində onun adını çəkməsi və ölkəni onun dinini qəbul etməsinə məcbur edilməsi fikri bildirilirdi. Albaniyanın Bizansla yaxınlaşması və onun təsir dairəsinə düşməsi Xilafətin ziyanına idi. Xəlifə xalkedon dini etiqadını qriqoryan dini etiqadına uyğun düzəlişlər edilməsi haqqında əmr verdi. Daxili çəkişmələr sayəsində yaranan vaqeə albanları qriqoryanlaşdırmaqla bərabər Azərbaycanın din tarixini təsdiq edən sənədlərin bir çoxunun məhv olmasına gətirib çıxardı. Erməni yepiskopu İlyanın təşkil etdiyi yığıncağın qərarı ilə Nersesin bütün kitabları sandıqlara doldurulub Tərtər çayına atıldı. Daha çox erməni kilsəsinin xeyrinə olan bu siyasi gediş, nəticə olaraq b.e. 74-cü ilindən mövcud olan Alban kilsəsinin erməni kilsəsinə tabe edilməsi və sonralar 1836-cı ildə Peterburq Müqəddəs Sinodunun qərarı ilə ləğv edilməsdi ilə sonunclandı (4, s. 91).

Əbdülməlikin hakimiyyətinin son on ilində Xilafət ölkələrinin konfessional həyatı yeni mərhələyə qədəm qoyur. Fəthlərdən sonra islamın yerlərdə bərqərar olması, islamı yerlərdə möhkəmləndirilməsi üçün sərkərdələrin üzərinə çətin vəzifə düşmüşdü; onlar qanunla qəbul olunmuş çərçivədə yerli sakinlərə islamı qəbul etdirməyə çalışırdılar, çünki zahirən elə idi ki, əhali islamı qəbul etmiş və müsəlman olmuşdur, lakin daxilən bütpərəst olaraq qalırdı. Bu yöndə sərkərdələr hər fürsətdən istifadə etməyə çalışırdılar. Ən-Nəsəfinin məlumat verdiyi kimi, əvvəllər bütlərin saxlandığı yerlərdə sərkərdələr bəzən məscid tikdirərək əmr verirdilər ki, şəhər sakinləri hər cümə günü buraya ibadətə gəlsinlər, üstəlik də əmrə əlavə olaraq bildirilirdi ki, ibadətə gələn hər adama 2 dirhəm veriləcək (21, s. 10-11). Əlavə olaraq qeyd etmək lazımdır ki, ərəb fəthləri zamanı bütpərəstlikdən fərqli olaraq xristianlığa qarşı loyal münasibət olmuşdur. "Kitab əhli kimi" Arran əhalisi onlar üçün yeni olan dini qəbul etməyə məcbur edilmirdi, əksinə, islam xristianların özləri tərəfindən xüsusilə müvəffəqiyyətlə qəbul edilirdi. Eləcə də, xristian ərəblər Xilafətdə əhəmiyyətli rol oynamış, onların tarixi isə ərəb mədəniyyəyinin maraqlı

səfihələrindən biridir (27, s. 23). Hesab edirik ki, Məhəmməd peyğəmbərdən (s.a.s.) qalan Kitab əhlinin, o cümlədən xristianların toxunulmazlığı Əməvilər tərəfindən də qorunmuşdur.

Xəlifə Əbdülməlik 693-cü ildə öz qardaşı Məhəmməd ibn Mərvan "əl-Cəzərini" (v.e.719-720) Azərbaycan və Ərminiyənin valisi təyin edərkən islamın bu yerlərdə möhkəmləndirilməsi missiyanın yerinə yetirilməsi bu valinin də üzərinə düşmüşdü. Həmin vali islamın Xilafət ölkələrində mökəmləndirilməsini və bununla bağlı ərəblərin Azərbaycanda yerləşdirilməsi prosesini davam etdirmişdir.

704–cü ildə, Ərəb-Bizans müharibələrinin başlanması ilə əlaqədar *Xəlifə Əbdülməlik* Məhəmməd ibn Mərvanın siyasətində də dəyişiklik başladı. Xəlifə Əbdülməlik Məhəmməd ibn Mərvanın başçılığı ilə Arrana qoşun göndərdi. Knyaz Şeroy və ona yaxın adamlar tutulub Dəməşqə göndərildi (29, c.259-260). 705-ci ildən Konstantinopoldan Albaniyaya qayıdan Varaz Trdadın dövründən etibarən Albaniya həm faktiki, həm də hüququ baxımdan Xilafət tərkibinə daxil olur. Varaz Tridatdan sonra Albaniyanı ərəb əmirləri idarə edirlər (12, s. 203). Knyaz və katolikos canişinlərin yanında bir növ məşvərətçi oldular; onlar müstəqil şəkildə daha heç bir qərar qəbul edə bilmirdilər (4, s. 105). Mihranilərin son nümayəndəsi Varaz Tiridatın bir neçə il davam edən nominal hökmranlığına son qoyulduqdan sonra bölgədə yeni inzibati bölgü sistemi yaradılır. Sasanilər sistemindən götürülmüş və bu inzibati bölgü sisteminə aid edilən Azərbaycan adı yalnız Araz çayından cənuba-Ərəb Azərbaycanı vilayətinə şamil olunur. Ərəb ordusunun Cənubi Qafqazda fəth etdiyi torpaqlara isə ümumi "Ərminiyə" inzibati adı verilir. Ət-Təbəri, əl-Kufi kimi mötəbər ərəb müəlliflərinə isnad edən akad. N.Vəlixanlı göstərir ki, Ərəb Ərminiyəsi inzibati bölgəsinə aid edilən Arran-Albaniya ərazisi bəzən Azərbaycan adlandırılır və beləliklə, tarixi Azərbaycan ərazisinin obyektiv coğrafi təsvirini təmin edilir (18, s.48).

Ərəblərin Cənubi Qafqazda möhkəmlənməsi prosesi xəlifə Əbdülməlikin dövründə də, ondan sonra da - VIII əsrin 30-cu illərinə qədər, II Mərvanın xəzərlər üzərinə yürüşünə qədər davam edir. Bu proses əhali və qoşun hissələrinin yerləşdirilməsi İlə bərabər islamlaşma prosesinin inkişafına gətirib çıxarır. Digər tərəfdən, Xəlifə Əbdülməlikin hakimiyyəti dövründə yaşayıb yaratmış Musa Şəhəvat, Əbul-Abbas, İsmayıl ibn Yasar və onun qardaşları kimi məvalilər VII əsrin sonlarında olduğu kimi, VIII əsrin I yarısında da xəlifələrdən *I Valid (705-715), Süleyman ibn Əbdülməlik (715-717), Ömər ibn Əbdüləziz (717-720), II Yəzid (720-724) və Hişam ibn Əbdülməlikin (724-743)* dövründə yaşayıb yaratmışlar. Əsilləri Azərbaycandan olan bu məvali şairlər ərəb dilində yazıb yaradı. Onlar ictimai ziddiyyətlərin son həddə çatdığı Əməvilər dövründə öz mənafelərinə uyğun olaraq bu və ya digər siyasi dəstənin tərəfində dururdular (11, s. 11). Həmin siyasi qruplar da öz növbəsində məvalilərin xidmətindən həvəslə istifadə edirdilər.

Azərbaycan tarixşünaslığında mənbə və tədqiqatçıların müxtəlif fikir ayrılığına

səbəb olmuş bir hadisə də vali *Məhəmməd ibn Mərvanın* adı ilə bağlıdır. Əl-Bəlazuriyə görə, Məhəmməd ibn Mərvan müqavilənin şərtlərini pozaraq üsyan etmiş ölkənin azadlarına və onların təbəələrinə qarşı yürüş etdi, zəfər çaldı, onları qətlə yetirdi, əsir tutdu və ölkəni yenidən tabe etdi. Bu zaman əl-Bəlazuriyə görə, azadları Xilat vilayətindəki kilsəyə yığdılar. O (Məhəmməd), kilsəni bağlatdı və qapılarını öz adamlarına tapşırdı və onlara od vurdurdu. N.Vəlixanlı yazır ki, əsərin əlyazmasında "yandırmaq" deyil, "qorxutmaq" sözü işlədilmişdir. Dini azadlığın qorunması üçün xüsusi fərmanın mövcud olması[6] və V.V.Bartoldun islamın zorla qəbul edilməsinin yolverilməz olduğunu (23, s. 777) qəbul etsək, əl-Bəlazurinin əlyazmasındakı "qorxutmaq" ifadəsinin səhih olmasını təsdiq edə bilərik.

Əməvilər dövründə hakimiyyətdə olmuş əməvi sülaləsinin görkəmli nümayəndələrindən Müaviyə, Əbdülməlik və Hişam xilafətin ən bacarıqlı təşkilatçılarından hesab edilməsinə baxmayaraq fəthlərin daha intensiv davam etdirilməsi məhz *I Validin (705-715)* dövrünə təsadüf edir. Onun adı daha çox yeni fəthlərlə əlaqədar çəkilir. Xəlifə *I Validin* dövründə ərəb əsgərləri uzaq dağlıq rayonlarda, ağır iqlim şəraitində müharibələr aparmalı olur. Misirdən Qərbdə Şimali Afrika fəth edilir. H.91/710-cu ildə müsəlman döyüşçüləri Cəbəllütariqdən İspaniyaya keçir, sonra isə Pireneydən keçərək Fransaya həmlələr edir. Şərqi İrana – Xarəzmə daxil olaraq tədricən Mavəraunnəhri fəth edirlər. Onlar Şərqi Anadolunun yunanlarla sərhəd rayonlarını ələ keçirməkdə davam edirdi. Bundan əlavə şərq cəbhəsində bir irəliləyiş də oldu. Ərəblər tərəfindən ilk dəfə olaraq Hindistanın bir hissəsini fəth edilir və birinci dəfə islam Hindistana gətirilir.

Xilafətin şimal hissəsində də bəzi dəyişikliklər baş verdi. Müstəbid Bizans imperatoru II Yustinian (705-711-ci illərdə hakimiyyətdə olub) öldürüldükdən sonra Bizansda yenidən xaos baş qaldırdı. Beş il ərzində hakimiyyətdə olmuş üç imperatordan (Filippik, II Anastasiy və III Feodposiy) sonra 716-cı ildə hakimiyyətə gəlmiş Lev II İsavr ölkədə nizam-intizam və birliyi yenidən yaratdı. Bizansdakı qarışıqlığın hökm sürdüyü dövrdə Bizanspərəst qüvvələrin zəiflədilməsi işi xəlifə Əbdülməlikdən sonra *xəlifə I Valid* tərəfindən davam etdirildi. Valid qardaşı Məsləməni Kiçik Asiyada Bizansın təsir gücünün azaldılmasına yönəlmiş cəhdlərini təşviq edirdi. Xəlifə Əbdülməliklə Bizansa qarşı başlamış müharibə Xəlifə I Valid tərəfindən xəzərlərə qarşı çevrilir. Ərəb-xəzər müharibələri ərəbləri məcbur edirdi ki, Azərbaycanın şimal sərhəd ərazilərində möhkəmləndirilmiş hərbi məskənlər (rabatlar) yaratsınlar. Bu məskənlərdə başlıca olaraq, xəlifədən maaş almayan könüllü (mütətaviyyə) əsgərlər toplanırdı. Bu hərbi məskənlərdə yerləşdirilmiş əsgərlər ilk dəfə Azərbaycan torpaqlarına qədəm qoyan əsgərlərdən fərqlənirdilər. İlk döyüşçülər İslam uğrunda fanatiklər idi, ikincilər isə peşəkar döyüşçülər idi

6 Fərman Məhəmməd ibn Mərvan 703-cü ildə cəza dəstəsi ilə Ərminiyəyə daxil olarkən, katolikos Saxakaya təqdim etdiyi fərman idi. Bu xüsusi fərman ölkədə dini azadlığın qorunması barədə idi (bax: Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв. М., "Наука", 1988, с.49).

(26, s. 63). Xəlifə Valid Əməvilər sülaləsinin ən görkəmli xəlifələrindən biri olan Əbdülməlikin varisi kimi atasının hərb işi ilə bərabər mülki işlərində də layiqli davamçısı idi. Onun hakimiyyət illəri sülh və bolluq illəri olmuşdur. Xəlifə Validin göstərişi ilə kimsəsiz uşaqlar sünnət edirmiş, onlar üçün müəllimlər təyin edilmişdi. Xəstəlik çəkənlərə yardımçılar, korlara da bələdçilər verilmişdi. Fəqir, gücsüz və fəqihlər günlük ərzaqla təmin edilmiş və insanların dilənməsi yasaqlanmışdı.

Bu dövrdə mədrəsə, xəstəxana, sığınacaq evləri ilə yanaşı möhtəşəm ibadət yerləri tikilmişdir. Qeyd etmək lazımdır ki, I Validin dövründə böyük şəhərlərdəki mərkəzi məscidlər təkcə ibadət edilən yer funksiyasını yerinə yetirmir, bir neçə binadan ibarət olub, toplu, kompleks, külliyyə vəzifəsini görürüdü. Bu kompleksərdə ibadətlə yanaşı, həm təhsil verilir, həm də dövlət işləri görülürdü. Məscidlərin tikintisinə önəm verən əməvilər nahiyələrin xəzinəsini (beytul malını) məscidlərdə qoruyurdular. Dəməşqdəki əməvilər məscidi[7] və Babul-Əbvabdakı məscidlə yanaşı Bərdə məscidi də belə məscidlərdən ola bilərdi.

İslam dininin ilkin çağlarında insanlar yeni cəmiyyətdə ixtilafların aradan qalxacağına və nisbətən yaxşı həyat quracaqlarına böyük ümid bəsləyirlərdi. Lakin elə bu dövrlərdən başlayaraq sosial ziddiyyətlər özünü biruzə verməyə başladı.

Əməvilər dövründə bu vəziyyət *Xəlifə II Ömər ibn Əbdüləzizin* (717-720) dövrünə qədər davam etdi. Orta əsr mənbələrində bu barədə, yəni aşağı və yuxarı təbəqənin durumu barədə kifayət qədər məlumat var. Məhz bu xəlifə hakim təbəqənin və dövlət məmurlarının özbaşınalığına qarşı mübarizəyə başladı. Xəlifə Ömər deyirdi ki, İslam peyğəmbəri insanlara əziyyət vermək üçün deyil, azad etmək üçün göndərilmişdir. Onun dövründə islamı yenicə qəbul edənlərdən cizyə alınması dayandırıldı. Xristianların üzərindən verginin görürülməsi də bu dövrə təsadüf edir. Yovxan Odznetsinin (718-728) Dəməşqə gedərək Xəlifə II Ömər ilə görüşü xəlifənin xristianlar üçün konfessional azadlığını tanıması və ruhanilərin üzərindən verginin görütülməsi ilə nəticələnir (37, s. 50). *Xəlifə II Ömərin* dövründə Kitab əhlinin toxunulmazlığı qorunmuşdu. V.Kraçkovskiyə görə hətta xristian ərəblər belə Xilafətdə əhəmiyyətli rol oynamış, onların tarixi isə ərəb mədəniyyəyinin maraqlı səfihələrindən biridir (27, s. 23).

Tarixçilərə görə, Ömər ibn Əbdüləziz Əməvilər sülaləsinin ən ədalətlisi idi[8]

7 Memarların böyük himəyadarı kimi I Validin Dəməşqdə tikdirdiyi məşhur əzəmətli Əməvilər məscidi ibadətxana olmaqla bərabər həm də dövlət başçısının qonaqları rəsmi qəbul etdiyi məkan kimi istıfadə olunurdu. Bu məqsədlə xəlifə xüsusi olaraq valehedici palata da hazırlatmışdı. Bu məscid yeni ənənəli klassik tipli məscidlərin ən böyüyüdür.

8 Qeyd: Xəlifə II Ömərin sülalənin ən ədalətli xəlifəsinə çevrilməsinə aşağıdakı hadisə səbəb olmuşdu: Xəlifə Valid ibn Əbdülməlikin dövründə o, 6 il (706-cı ildən 712-ci ilə qədər) Mədinədə canişin vəzifəsində fəaliyyət göstərdiyi dövrdə digər əməvi sülaləsinin nümayəndələri kimi, dəbdəbəli yaşamış, bahalı paltarlar geyinmişdi. Canişin olduğu müddətdə baş vermiş bir hadisə onun mənəvi həyatını tamamilə dəyişdi. Xəlifə Validin əmri ilə Əbu Bəkrin nəticəsi Abdulla ibn Zübeyrin oğlunu cəzalandırarkən o, verilən işgəncələrə dözməyərək ölmüşdü. Cəzaya görə, onu əvvəlcə şiddətlə qamçı ilə döyəndən sonra üzərinə soyuq su töküb, qış vaxtı əlləri-qolları bağlı

Hətta, bəziləri onu beşinci raşidi xəlifəsi adlandırırlar. Hakimiyyəti 2 il 5 ay sürən xəlifə II Ömər islam tarixinə mömin, ədalətli və müsəlman qanunvericiliyinin gözəl bilicisi kimi daxil olmuşdu. Məşhur zahid,din xadimi, ilkin islam ilahiyyatçılarından ən görkəmlisi Həsən əl- Bərsi (642-728) II Ömərin dövründə Bəsrənin qazısı təyin edilmişdi. Onun əhatəsində qruplaşmış ilahiyyat dərnəyi Bəsrənin və bütün Əməvilər dövlətinin intellektual həyatının mərkəzi idi. Bu mömin şəxsiyyətin və şəriət bilicisinin nüfuzu bir çox dini məktəblərin dini fikirlərinin gələcək inkişafına zəmin yaratmışdı.O, bütün gücü ilə islam aləminə Əməvilərin gətirdikləri dağıdıcı daxili parçalanmanın qarşısını almağa cəhd göstərmişdir. Xəlifə olarkən Həccac ibn Yusifin törətdiyi intriqaları mədinəlilərin yaddaşlarından silmək üçün çox səylər etmiş, Peyğəmbərin (s.a.s.) məscidini təmir etdirərək sahəsini böyütmüşdü.

II Ömər özünün qısa sürmüş hakimiyyəti dövründə bir sıra digər vacib əməliyyatlara da imza atmışdır. Bunlardan birincisi Konstantinopol üzərindən şəraitə uyğun olaraq mühasirənin götürülməsi idi. Xəlifənin ikinci fərmanı əzan vaxtı imam Əlinin ünvanına qarğış deyilməsinin qadağan edilməsi idi. Xəlifə daha bir neçə mühüm tədbirlər də həyata keçirir. Bunlardan biri Peyğəmbərin (s.a.s) hədislərinin öyrənilməsi prosesinə böyük qayğı və diqqətin göstərilməsi və onların sünnə şəklində formalaşdırılması idi.

Xəlifə II Ömərin üç ilə yaxın sürən hakimiyyəti nəinki Əməvilər sülaləsi tarixində, hətta ümumiyyətlə müsəlman dövlətçiliyi tarixində müstəsna hadisə idi (26, s. 504). Tarixçilərin rəyinə görə, Əməvilər dini icmanı dünyəvi dövlətə çevirmişdilər. Raşidi xəlifələrindən fərqli olaraq II Ömərı bəzən beşinci raşidi xəlifəsi adlandırırdılar (26, s. 504). Lakin, bu xəlifə haqqında biri digərini inkar edən mülahizələr də yürüdülürdü. Rəvayətə görə, Ömər əməvilərə diğərlərinə nisbətdə üstünlük vermirdi və onların qanundan kənar topladıqlarını əllərindən alırdı. Bu isə əməvilərin kəskin etirazına səbəb olmuşdu. Və bu hadisədən sonra o, Suriyanı tərk edərək Mədinəyə gedəcəyi və ya hakimiyyəti bir neçə müsəlmandan ibarət şuraya verəcəyi ilə hədələdi. Tarixdə bunun əksinə olan məlumatlar da özünə yer almışdır. Ət-Təbəriyə görə, II Ömər Misirdə olan Suriya hərbçilərinə artırılan məvacibdən əlavə hər bir nəfərə 10 dinar əlavə olaraq maaş verirdi. Bundan əlavə, belə bir faktı da əlavə edir ki, əməvilər II Ömərin hakimiyyəti illərində xəzinədən 200 dirhəm həcmində yüksək məvacib götürürdülər. Bu zaman Haşimilərdən olan şeyx isə cəmi 60 dirhəm maaş alırdı (26, s. 521). Buna əsasən akad.V.V. Bartold belə nəticəyə gəlir ki, Əməvilər sülaləsi ənənələrini kəsmək xəlifə II Ömərin planına daxil deyildi. Əməvilər sülaləsi xəlifələrindən ən ədalətlisi sayılan bu xəlifə öldürüldükdən sonra haqsızlıqlar daha da artdı.

720-724-cü illərdə hakimiyyət başında olmuş *II Yəzid ibn Əbdülməlikin*

şəkildə məscidin yanında saxlamışlar. Əbu Bəkrin nəticəsinin ölümü Ömərdə cox ağır təəssürat yaratmışdı. O, vəzifəsindən imtina edərək və dövlət xəzinəsindən aldığı maaşı qaytararaq Dəməşqə geri dönür. Hətta sonradan hakimiyyətə gələndə də öz ailə büdcəsini azaldaraq dövlət təminatından intina edir. Onun gəliri 200 dinarı ötməmişdi.

dövründə islam tarixi üçün təqdirəlayiq hadisələr baş verməmişdir. Əksinə, Ömər ibn Əbdüləzizin apardığı islahatların üzərindən xətt çəkilmış və əməvilər sülaləsinin süqutunun başlanğıcı olmuşdur. Onun hakimiyyəti dövründə xəzər türkləri, qıpçaq və digər türk tayfalarının köməyi ilə yaradılan 30 min nəfərlik ordunun Arrana soxulması əməvilərin məğlubiyyəti ilə nəticələndi (4, s. 106). Bundan qəzəblənən II Yəzid Kür və Araz çayı ərazilərinə Azərbaycan və Ərminiyəyə vali təyin etdiyi Cərrah ibn Abdullanın (722-725) başçılığı ilə böyük bir qoşun göndərir. Vuruşma nəticəsində bu dəfə xəzərlər məğlub olur, Cərrah fəth edilmiş şəhərlərin əhalisini Arrana, xüsusilə Qəbələyə köçürtdü. Bundan məqsəd çox güman ki, köçürülən xəzərlərin islam dinini qəbul etməsi və müsəlman olmayan xəzərlər arasında islamı yayma prosesini sürətləndirmək idi. O, Bələncərdən sonra 40 min türk evi olan Vabandar şəhərini fəth edir. Daha sonra qışlamaq üçün Şəki vilayətinə çəkilir. Onun dövründə bağlanan müqavilə ilə əvvəlki dövrdə bağlanan müqavilənin şətrləri müqayisə olunarsa axırıncı müqavilənin yerli əhalinin xeyrinə yox, ziyanına olan şərtlərin yer aldığı görünür. Belə ki, Xəlifə II Yəzidin dövründə Ərminiyə və Azərbaycanda valilik edən Cərrah ibn Abdulla ilə Tiflis əhalisi arasında bağlanan müqaviləyə görə əvvəlki müqaviləyə əsasən yerli əhalinin ixtiyarında qalmış torpaqlar, üzümlüklər, dəyirmanlar və s. yenə də onlarda qalır, lakin, bununla yanaşı üzümlük və dəyirmanlara görə ildə əlavə olaraq 100 dirhəmin ödənilməsi təyin olunurdu (18, s. 35). Xarici siyasətdə bu əməvi xəlifəsinin dövründə geriləmə baş verir. Belə ki, xəlifə II Ömərin dövründə Fransanın cənubunda fəth edilmiş bir neçə şəhər fransız hersoqu Akvitanski tərəfindən geri alınır. 4 il bir ay hakimiyyətdə olmuş Əməvilər sülaləsinin 9-cu xəlifəsi II Yəzid 40 yaşında vəfat edir. Mənbələrin verdiyi məlumata görə bu xəlifə özündən əvvəlki xəlifənin islahatlarını ləğv edərək Xilafəti fəlakətə sürükləmişdi.

Əməvilərin xəzərləri Azərbaycana kütləvi köçürməsi prosesi daha sonralar öz müsbət nəticələrini vermişdi. Sonralar onların arasından Xilafətin İshaq ibn Kundac əl –Xəzəri və Abdullah ibn Baştava əl-Xəzəri kimi məşhur sərkərdələri və Tigin ibn Abdullah əl-Xəzəri kimi valisi çıxmışdır. Köç prosesinin islamlaşdırma xarakteri daşımasını 854-cü ildə Xəzər elini tərk edən 300 xəzər ailəsi nümunəsindən də görmək olur. Belə ki, aşağı təbəqədən olan bu xəzər ailələri İslamı qəbul etmək üçün Dərbəndə gəlmiş, daha sonra Azərbaycan valisi tərəfindən şimal şəhərlərindən birinə yerləşdirilmişdilər (20, s. 204-205).

40 yaşında hakimiyyət başına gələn *Xəlifə Hişam* (724-743) əməvi xəlifələri arasında atası Əbdülməlikdən sonra hakimiyyətinin uzun sürməsinə görə ikinci yeri tuturdu. Onun hakimiyyəti illəri Əməvilərin ən ağır dövrünə, Xilafətin bir çox regionlarında kütləvi iğtişaşlar dövrünə təsadüf edir. Xorasanın valisi Aşras ibn Abdullanın ərəb olmayan müsəlmanlardan cizyə tutulması haqqındakı fərmanı bütün vilayəti iğtişaşa bürüyür. İş o yerə çatır ki, bir-bilərinə qarşı nifrət hissi bəsləyən farslar və türklər ərəblərə qarşı birləşərək silaha sarılırlar. 728-ci ildən 738-ci ilə qədər on il

müddətində davam edən müharibə hər iki tərəfin böyük itkisi bahasına başa gəlir.

Əməvilər dövründə Azərbaycana təyin edlən hakimlərin qonşu ərazilərdə islamı yaymaq üçün edilən cəhdlər davam edirdi. Xəlifə Hişam tərəfindən 730-cu ildə Azərbaycana yenidən hakim təyin edilən Məsləmə ibn Əbdülməlik Dərbənddəki müxtəlif ərəb qəbilələrinin adlarına uyğun olaraq, şəhəri yeddi məhəlləyə böldü və onların hər biri üçün məscidlər tikdirdi (5, s. 32-33). Həmin məscidlər aşağıdakılardan ibarət idi: Homs məscidi, Qeysər məscidi, Cəzayir məscidi, Mosul məscidi. Suriyadan və Fələstindən gələn ərəb sakinləri çoxluq təşkil etdiyi Dərbənd bir növ şəhər–düşərgəyə çevrilmişdi. Maraqlıdır ki, əməvilər dövründə qəbilə prinsipi əsasında yerləşdirilən ərəblər arasında artıq iraqlı hərbçilər, o cümlədən kufəlilərin adları çəkilmir. Ə.Şıxsəidov bunu kufəlilərin əməvilərə qarşı müxalifətdə olmaları ilə əlaqələndirir (38, s.17). Doğrudan da, ictimai-hərəkatların çoxaldığı bir dövrdə əməvi xəlifə və sərkərdələri şiələrin üstünlük təşkil etdikləri Kufə əhlinə ehtiyatla yanaşırdılar. Ona görə də strateji cəhətdən belə mühüm əhəmiyyət kəsb edən bölgəyə xəlifələr yalnız özlərinə sadiq tayfaların yerləşdirilməsi qənaətbəxş hesab edirdilər.

Dağıstanlı tədqiqatçı əl-Qadariyə görə, Urdun məscidi həm də Xəzər məscidi adlanırdı. Ola bilsin ki, bu məscid ilk olaraq tikilmiş, müsəlmanlığı qəbul etmiş xəzərlər bu məsciddə namazı və digər ayinləri yerinə yetirmişlər. Bunlardan başqa şəhərin mərkəzində Cümə məscidi inşa edilmişdi (20; 5, s. 33). Öz varlığını müasir dövrə qədər qoruyub saxlamış həmin məscidin üzərindəki kitabəyə əsasən, məscid h.115/733-734-cü ildə tikilmiş və Dəməşqdəki Əməvilər məscidi kimi qədim sayılır.

Xəlifə Hişam bundan altı il sonra Əsəd ibn Zəfəri Şirvan və Dərbənddə islam dininin mövqeyini gücləndirmək üçün göndərdi. Daha sonra Azərbaycan, Arran və Ərminiyənin hakimi seçilmiş Səid ibn Əmr əl-Həraşi xəstə olduğuna görə 735-ci ildə xəzərlərlə mübarizədə xüsusilə fərqlənən Mərvan ibn Məhəmməd ibn Mərvanı Azərbaycan hakimi təyin etmiş və ona xəzərlərə hücum etmək əmri verilmişdi (30, s. 49).

Xəlifə Hişamın dövründə İslamın təbliğində sərkərdələrlə bərabər tərcüməçilərin də böyük rolu olmuşdur. Xəlifə Hişamin Ərdəbilə göndərdiyi sərkərdə Səid ibn Əmr əl-Həraşi[9] daha sonra xəzərlərlə danışıqlarda və kəşfiyyatda xəzər dilində gözəl danışa bilən İbrahim ibn Asim əl-Uqeylinin xidmətindən istifadə etmişdir (30, s. 31). II Ömər kimi bu xəlifə də digər dindən olanlara hörmətlə yanaşırdı. VIII əsrin I yarısında, 732-ci ildə Məsləmə ikinci dəfə ərəblər üçün saray tikdi, lakin patriarx sarayını dağıtmadı. Moisey.Kaqankatlının məlumatına görə bu saray hələ onun yaşadığı dövrdə də mövcud idi.

Şamaxıdakı məscidin tikintisinin VIII əsrə aid edən bəzi tədqiqatçılar onun xəlifə Validin qardaşı Əbu Müslim (719-755) tərəfindən tikildiyi göstərir. Belə ki, 1902-ci ildə Şamaxı zəlzələsinin nəticələrini araşdıran komissiyanın tərkibində çalışan geoloq Şəhqulu Qacar vaxtilə came məscidinin üzərində

9 Səid ibn Əmr əl-Həraşi 721-722-ci illərdə xəlifənin Xorasanda canişini olmuşdur.

olmuş kitabə əsasında onun h. 126-cı ildə inşa edildiyini müəyyənləşdirmişdir (9, s. 49; 10, s. 169).

Hakimiyyətinin son dövrlərində siyasi və ictimai-iqtisadi həyatında gərgin hallar yaşamağa başlayan Əməvilər Xilafəti (661-750) xüsusilə Xəlifə Hişamın dövründə əhalinin iqtisadi vəziyyəti pisləşdi. 725-26-cı illərdə mal-qaranın aşağı düşməsi və aclığa baxmayaraq Zaqafqaziya ərazisində, o cümlədən Azərbaycanda əhalilin və mal-qaranın siyahıya alınması aparıldı. Azərbaycan və Arranda vəziyyət o qədər ağırlaşdı ki, torpaqlarını tərk etmiş əhali "suluklara" torpaqsız kəndlilərə çevrildilər (1). Bu, özünü icitimai sahədə də göstərirdi. Bir tərəfdən sünni-şiə, digər tərəfdən, xaricilər, üçüncü tərəfdən isə ərəb və məvalilər arasında ziddiyyətlərin son dərəcə kəskinləşdi. Və narazılıqların artması nəticə olaraq həmin narazı qüvvələrin Xilafətin müxtəlif əyalətlərində, o cümlədən Azərbaycanda Əməvilərə qarşı mübarizə şüarı altında birləşməsinə gətirib çıxardı.

Sonuncu əməvi xəlifəsi *II Mərvan ibn əl-Hakəmin (744-750)* [10]Azərbaycanla bağlı adı daha çox yuxarıda qeyd edildiyi kimi xaricilərlə əlaqədar çəkilir. Dördüncü Raşidi xəlifəsi Xəlifə Əliyə qarşı üsyan edən xaricilərin üsyanı 661-ci ildən İraqda bir müddət əməvi canişini əl-Həccacın amansız təqibləri nəticəsində yatılılsa da, sonradan onlar güc toplayaraq əməvi rejimini devirməyə cəhd etdilər. Bununla əlaqədar II Mərvan onların dayaq məntəqəsi sayılan Mosul ətrafında şiddətli müqavimətlərini qırmaq üçün tam bir hərbi ekspedisiya göndərmişdi.

İslamı yaymaq sahəsində də II Mərvan bir sıra işlər görmüşdü. Xəzərləri məğlub edərkən Xəzər Xaqanından islamı qəbul etməsini istəmişdi. Bu zaman xaqan ondan islamı ona başa salıb öyrədəcək adamlar göndərməyi xahiş etmişdi. Əl- Kufinin məlumatına görə Mərvan tərəfindən göndərilən Nuh ibn əs-Sa`ib əl-Əsədi və Əbdürrəhman ibn Fulən əl-Hauləni islamın mahiyyətini xaqana başa salmışlər (30, s. 52). Və bundan sonra xaqan və onun yaxınları islamı qəbul etmişlər.

Məhəmməd peyğəmbərin (s.a.s.) Quranın şərtləri əsasında cizyə ödəmək müqabilində "himayə olunan azlıq" və onların dininə hörmət əsasında qurduğu siyasət ümumilikdə götürdükdə bəzi sapmalara baxmayaraq əməvilər dövründə də davam etdirilmişdi. Onların mənsub olduqları dini icmalardan hər biri özlərinin dini rəhbərlərinin başçılığı altında daxili muxtariyyətlərini qoruyub saxlayırdılar. Hüquqi məsələlərdə belə, günahkarların cəzalandırılması və s. məsələlərdə əgər müsəlmana aid deyildisə, öz dinlərinə məxsus qanunlardan çıxış edərək fəaliyyət

10 Qeyd: döyüşlərdə məğlub olmuş bu xəlifə sonradan Abbasilərin təqibindən qaçaraq Misirə pənah gətirmiş, lakin misirlilər tərəfindən asanlıqla ələ keçirilmiş və abbasilərdən olan yeni hakimiyyət qüvvələrinə verilmişdir. Abbasilər sülaləsi hakimiyyətə gələrkən Əməvilər nəslinin 80-dan çox üzvü qətlə yetirildi. Sağ qalanlardan yalnız əmir Əbdürrəhman və bir neçə südəmər körpə Əndəlüsə qaçmaqla canlarını qurtara bilmişlər. Əbdürrəhman kəlbi qəbilələrinin köməyi ilə oranın hakimiyyətini ələ keçirmiş və Əndəlüs bir Əməvi əmirliyi (756-1031) olaraq qorunub saxlanılmışdı (bax: Беляев Е.А. арабы, ислам и арабский халифат в раннее средневековье. Изд.второе. М.: Наука, 1966 г., с.213)

göstərməkdə azad idilər. Müsəlmalar və digər dindən olan əhali arasında kifayət qədər yaxşı və dözümlü münasibət hökm sürürdü. Xilafətin vilavətlərində xristian icmaları var idi. Müsəlmanlarla xristian Bizans imperiyası arasındakı hərbi əməliyyatlar Xilafətin himayəsi altında olan təbəələrin vəziyyətinə təsir etmirdi. Xəlifə Müaviyənin arvadlarından biri (Xəlifə Yəzidin anası) Maysun xristian idi. Dini lider, görkəmli din xadimi dəməşqli Yuhənnənin (675-753) İslam dininin "Üçlüyün" küfr sayılmasına qarşı mübarizə aparması və bir çox açıq müzakirələrdə öz fikirlərini deməsinə baxmayaraq təqib olunmurdu.Yuhənnə əd-Diməşqinin atası Əbdülməlik ibn Mərvanın sarayında xidmət edirdi. Sonradan Yuhannanın özü də Xilafət saraynda xidmət etmişdi. Ədülməlikin dil siyasəti müsəlman olmayanlara şamil edilmirdi. Hətta xristianlara ərəb dilində danışmaq və uşaqlarını müsəlman məktəblərində oxutmaq qadağan edilmişdi. Buna baxmayaraq islam əhalinin çox böyük hissəsinin dininə çevrilmiş, hətta əhalinin islamı qəbul etməmiş hissəsi belə ərəb dilini qəbul etmişdi. Akademik V.V.Bartold ərəb dilinin müvəffəqiyyət qazanmasını hər şeydən əvvəl ərəblərin ilk başlanğıcdan alman, monqol və fərslardan fərqli olaraq tək silah gücünə və hərbi təşkilata arxalanmamaqda görür. Ərəb xalqı VII əsrdə artıq bəzi mənəvi mədəniyyətə çatmış, ədəbi dili qazanmış bəlağət və poeziyanı yüksəklərə qaldırmışdı (26, c.156).

Əməvilər digər dindən olanlara – xristian və yəhudilərə hörmətlə yanaşırdılar. Bunu qeyd etmək kifayətdir ki, Xəlifə Müaviyənin (661-680) dəftərxanasına yəhudi başçılıq etmişdir. Yəhudilərin aralarında müəyyən problem yaranarkən onlar xəlifələrə müraciət edər, xəlifələr də münsif rolunda çıxış edərdilər (27, s. 115-117).

Bunlara baxmayaraq, Əməvilər cəmiyyətində daxili ayrı –seçkilik sülalənin son dövrlərində daha kəskin şəkil almışdı. Daxili çəkişmələr dini təfriqəçilik və ictimai parçalanma kimi proseslər əsasında baş verirdi. İraqdan çıxan və özlərinin missioner işlərini Şimali Afrikada inkişaf etdirən xaricilərin Ərəbistanda olduğu kimi, İranda və Azərbaycanda da ardıcılları vardı.

Peyğəmbərin (s.a.s.) nəslindən olan ədalətli imamın hakimiyyətə gəlməsinə dəstək vermək üçün meydana çıxan *şiələr* də müxalif hərəkat kimi hakim idarə üsuluna real təhlükə idi. İran və Azərbaycandan olan məvlalar bu cərəyanın söykəndiyi əsas dayaq idi.

Əməvilər dövründə böyük qüvvəyə çevrilmiş xaricilər və onlarla bərabər şiə çıxışları daha çox narahat edirdi. Bəzi tədqiqatçılar əməvilərin süqutu və Abbasilərin hakimiyyərə gətirilməsi ideyası başında duran dəstə, qrup və təriqətlər halında mübarizə aparan quvvələr arasında daha böyük olan qüvvə kimi qeyri ərəb əsilli olan məvaliləri görür.Hər halda əməvilərin hakimiyyətinin süqutu və Abbasilərin hakimiyyətə gəlməsində hər üç qrupun- xarici, şiə və məvalilərin rollarını inkar etmək olmaz.

Beləliklə, Raşidi xəlifələri dövründə olduğu kimi, Əməvilərin də idarəetmə işinin əsasını islamı yaymaq və yerlərdə möhkəmlənmək təşkil edirdi. Vergi toplamaq işi bu vəzifənin yerinə yetirilməsi üçün vasitə olmuşdur.

İstifadə olunmuş ədəbiyyatın siyahısı:

1. Azərbaycan tarixi. II c. (III-XIII əsrlər). Məs`ul redaktor: Nailə Vəlixanlı, Bakı, 1998.
2. Azərli M.İ. IX əsrin ərəbdili mənbəyi qədim Azərbaycan haqqında. Azərb. SSR EA-nın Məruzələri, XXX c., 1974.
3. Azərli Məhəmməd. Xəlifə Əbdülməlik ibn Mərvanın islahatı və Azərbaycan. Tarix İnstitutu, elmi arxiv № 5678, B.,1964.
4. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1989.
5. Dərbəndnamələr. Bakı, Nurlan, 2010.
6. Əliyeva N.A. İbn Makula Azərbaycanlı ziyalılar haqqında. B., Turxan NPB nəşriyyatı, 2014.
7. Əl-Bəlazuri. Kitəb Futuhi-l-Buldən. Azərbaycanın VII-XII əsrlər tarixinə aid çıxarışlar/ Ərəbcədən tərcümə edəni,ön söz, qeyd və şərhlərin müəllifi Hikmət Əkbərov // Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı: Nurlan, 2005.
8. Ət-Təbəri.Tərix ər-rüsul va-l-müluk.Azərbaycanın ərəb işğalları dövrü tarixinə aid çıxarışlar. Ərəbcədən tərcümə edəni, ön söz, qeyd və şərhlərin müəllifi Cabir İsgəndərli.Qaynaqlar.B.,2005.
9. Fətullayev Fiqarov Ş. Azərbaycanın qədim məscidləri.//Azərbaycan-İrs. 2003, № 14.15.
10. İbrahimov F.Ə. Dini, xatirə və qəbir abidələri//Azərbaycan arxeologiyası, VI c., B., Şərq-Qərb nəşriyyatı, 2008.
11. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər) Bakı: Elm, 1983.
12. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. B., AND, 1993.
13. Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1986.
14. Qrünebaum Q.E. Klassik islam tarixinə dair oçerk. Azərbaycan Ensiklopediyası Nəşriyyat poliqrafiya birliyi. B.,1998.
15. Rəcəbli Ə. Azərbaycan numizmatikası. "Elm və Həyat". B., 1997.
16. Səlimli Q. Hz.Əli (m.656-661) dövründə Azərbaycan. BDU İlahiyyat fakültəsinin Elmi məcmuəsi. B.,2010.
17. Vəlixanlı N.M. Ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqnda. Bakı: Elm, 1974.
18. Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə., tarix, mənbələr, şərhlər. Bakı: Elm və təhsil nəşriyyatı, 2016.
19. Dr. Zekeriya Kitabçı. Azərbaycan-Harəzm və türk-oğuz boyları arasında

islamiyət. Konya, 2005.
20. Dunlop D.M. Hazar Yahudi Tarihi. İstanbul: Selenge yayınları, 2008 .
21. Toğan Z.V.Ümumi türk tarixinə giriş. İstanbul, 1981.
22. Gümüş N. İlk Dönem İslam-Gürcü İlişkileri. Rize, Karadeniz Basın Yayın, 2007.
23. Ан-Насафи Наджм ад-Дин Абу Хафс Умар ибн Мухаммад. Ал-Канд фи зикр улама Самарканд //Общественные науки в Узбекситане. Таншкент, 1997. № 9-10-11.
24. Бартолъд В.В. Кулътура мусулъманства. Петроград, Огни, 1918.
25. Бартольд В.В.Краткий обзор истории Азербайджана. Сочинения, т.II, ч.1. М.: Изд-во вост. лит., 1963.
26. Бартольд В.В. Халиф Омар П и противоречивые известия о его личности. Сочиненияя ,т.VI, Изд-во Наука, 1966.
27. Большаков О.Г. История Халифата. т.III, Москва, 1998.
28. Грюнебаум Г.Э.фон. Классический ислам. Очерк истории (600-1258). Москва: Наука, 1986.
29. Крачковский И.Ю. Над арабскими рукописями. Изд-во Правда, М., 1948.
30. Куфи Ахмад ибн Асам. Книга завоеваний. Пер.: З.Буниятова. Баку: Элм, 1981.
31. Мовсес Каганватци. История Агван.СП.б, 1861.
32. Низами Гянджеви. Сем красавиц. Филологический перевод с фарси, предисловие и комментарии Рустама Алиева. Б., «Элм», 1983.
33. Пахомов Е.А. Пайтакаран-Байлакан-Орен-кала // Материалы исследования по археологии СССР, № 67, М.,-Л.: Изд-во АН СССР, 1959.
34. Позднев П. Дервиши в мусульманском мире. Оренбург, Типография Б.Бреслина, 1886.
35. О.Г. и Н.О.Гудратовы. Ислам. Москва-Санкт-Петербург, Изд-во Диля, 2008.
36. Самарканди Низами Арузи. Собрание редкостей или четыре беседы. М.: Изд-во вост.лит., 1963.
37. Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв. М., “Наука», 1988.
38. Шихсаидов А.Р. Арабские источники IX-Xвв. и вопросы социально-экономического и военно-политического положения раннесредневекового Дагестана//Источниковедение средневекового Дагестана, Махачкала,Типография Дагестанского филиала АН СССР, 1986.
39. İbn ən-Nədim Məhəmməd ibn Əbi Yaqub.Əl-Fihrist. Misir, 1348.

40. İbn Qüteybə. Əl-Məarif vəl-lataif. Leyden, 1908.
41. Fayiz Nəcib. Əl-Fütuhət əl-isləmiyyə libilədi-l-Qurc.,1988.
42. Nəcdə Xəmaş. Əl-asru-l-islami hattə nihayəti əl-ahdi-l-məmluki. Əş-Şam asımətu əs-səqafə əl-islamiyyə. Diməşq, 2008.
43. Təbəri, Əbu Cəfər Muhamməd ibn Cərir. Tarix ər-Rusul və-l Muluk, 4-cü cild (Tahqiq Muhamməd Əbu-l Fadl İbrahim) Qahirə: Daru-l Maarif bi Mısr, 1970.
44. Yaqut, Şihabəddin Əbu Abdullah. Muc'əm əl-Buldən. 2-ci cild. Beyrut: Dar Sader, 1977.

Nargiz Aliyeva

The Umayyad Caliphs and their confessional policy related to Azerbaijan (41-127/661-749 CE)

Summary

Key words: *Azerbaijan, Middle Ages, Islam, Umayyad Caliphate, caliphs*

The article giving information about the Caliphs of Umayyad Dynasty analyzes their policies related to Azerbaijan during their rule and the activities of foreigners and Shiites during the rule of the Umayyad Dynasty. It is shown that the Umayyad caliphs were united by the struggle for religion of Islam. Abd al-Malik ibn Marwan, the 5th Umayyad caliph has played a great role in the spread of Islam and culture in Azerbaijan. Among its reforms throughout the country, reform of alphabet, Arabization of divans, and the proclamation of the Arabic language as the language of Caliphate are very important. From the Caliph II Omar tried to prevent the devastating internal disintegration brought by the Umayyads to the Islamic world. In the end, the decline of the Umayyad Caliphate is illuminated.

Наргиз Алиева

Халифы Омейядов и их конфессиональная политика в отношении Азербайджана (х.41-127 / 661-749)

Резюме

Ключевые слова: *Азербайджан, Средневековье, Ислам, Омейяды, Халифы*

В статье представлена информация о халифах Омей**й**ядов и анализируется

политика, проводимая ими в годы их правления, деятельность хариджитов и шиитов во время правления династии Омейядов. Показано, что халифов Омейядов объединяла борьба за Ислам. Халиф Абдулмалик сыграл большую роль в распространении Ислама и исламской культуры в Азербайджане. Среди его реформ по всей стране очень важными являются реформа алфавита, арабизация диванов (суды) и провозглашение арабского языка государственным языком халифата. Из халифов II Омар пытался предотвратить разрушительную внутреннюю дезинтеграцию, принесенную Омейядами в исламский мир. В конце освещается падение династии Омейядов.

Нигяр Гезалова

Сочинение Мухаммад Рафи Ансари «Дастур ал-Мулук» и степень его изученности в мировой историографии

Ключевые слова: *Дастур ал-Мулук, Сефевидская империя, Мухаммад Рафи, переводы, источники, административное устройство*

UOT 94 (479.24)

Сочинение Мухаммад Рафи Ансари «Дастур ал-Мулук» Устав для государей один из трех сохранившихся источников по административному устройству Сефевидского государства в XVII-XVIII вв. Рукопись стала доступна научной общественности, благодаря публикации в 1968-1969 гг. иранским ученым Мухаммед-Таги Даниш-Пажухом (8) текста *Дастур ал-Мулук* по единственному доступному списку, хранящемуся в г. Йезде в медресе Абдаррахим-хана. Текст опубликован отдельным изданием в приложении к 5-му и 6-му номерам издания журнала факультета литературы и гуманитарных наук Тегеранского университета. Как указывает Сейвори, «*До публикации Мухаммед-Таги Даниш-Пажуха Дастур аль-Мулук, Тазкират аль-Мулук был единственным источником информации об административном устройстве Сефевидского государства. Этот источник не только подтвердил в значительной степени сведения Шардена, но и позволил расширить наши знания о политическом и административном устройстве государственных учреждений Сефевидов*». (5)

Русский перевод *Дастур ал-Мулук* А. Вильдановой был опубликован в Ташкенте в 1990 году и охватывает первые 6 глав источника, вместе с подробным предисловием и примечаниями. К сожалению, этот перевод все еще не получил должного признания в научном мире (1).

Аннотированный перевод на английский язык, содержащий факсимиле, которую тогда считали полной версией рукописи, вместе с подробными аннотациями, комментариями и словарем технических терминов, был опубликована впервые немецким ученым Кристофером Марчиновским

в 2002 году (2). Персидский перевод работы Марчиновского был опубликован Али Хордабади и Мансур Сифатгола при редакции иранского Министерства иностранных дел в 2006 г. в Тегеране (3). В 2001 г. иранский ученый Ирадж Афшар нашел и опубликовал остальную часть текста, которая также была переведена на английский язык и опубликована вместе с комментариями Марчиновским (6).

В 2007 г. была опубликована новая версия перевода *Дастур ал-мулук* В.Флуром и Мохаммедом Х.Фагфуром на английском языке (7), хотя принципиальных различий в качестве данного перевода в сравнении с переводом Марчиновского мы не заметили. Авторы предлагают несколько развернутые комментарии по отдельным должностям и позициям в административном аппарате Сефевидского государства и др.

Fərhad Cabbarov
Bir fotoşəklin izi ilə və ya bir daha 1906-cı il erməni-azərbaycanlı qurultayı haqqında

Xülasə

Açar sözlər: *barışıq qurultayı, 1905-1906-cı illər erməni-azərbaycanlı münaqişəsi, millətlərarası qırğın, diskussiyalar*

Məqalədə Gürcüstan arxivlərində aşkara çıxarılan nadir fotoşəklin tarixçəsi və onun çəkildiyi məkan - 1906-cı ildə Tiflisdə keçirilən erməni-azərbaycanlı qurultayı haqqında bəhs olunur. Milli münaqişə tarixində mühüm əhəmiyyəti olan bu qurultay tərəflər arasında kəskin ziddiyyətləri, onların həlli istiqamətində qarşıya çıxan maneələri üzə çıxardı. Məqalədə elmi dövriyyəyə ilk dəfə gətirilən mənbələr əsasında barışıq komissiyalarının və canişin yanında barışıq müşavirəsinin fəaliyyəti haqqında da ətraflı məlumatlar verilir.

Farhad Jabbarov
On the trace of certain photo or once again about the Armenian-Azerbaijani congress, 1906

Summary

Key words: *conciliatory congress, Armenian-Azerbaijani conflict in 1905-1906, international slaughter, discussions*

The history of rare photograph discovered from Georgian archives and the place where it was taken, Armenian-Azerbaijani congress held in Tbilisi in 1906,

are deal with in the article. This congress which hasparticularimportance in the history of national conflict revealed the contradictions between the sides and the obstacles towards their solution. Wide information about the activity of conciliatory commissions and conciliatory council near the governor based on sources which entered in the scientific circulation for the first time is given in the article.



Тифлисъ. Хоръ Филармоническаго Общества.

Под председательством Наместника Е.И.В. на Кавказе графа И.И. Воронцова-Дашкова совещание представителей от армян по прекращении армяно-татарской резни в 1905-1906 г.г.

Vasif Qafarov

Osmanlı imperiyasının Qafqaz siyasəti və müstəqil Azərbaycan ideyası (1914-1915-ci illər)

Açar sözlər: *Osmanlı-Almaniya ittifaqı, türkçülük, turançılıq, Qafqazın statusu, müstəqil Azərbaycan ideyası, Əmiraslan xan Xoyski*

UOT 94 (479.24)

Birinci dünya müharibəsinin başlaması və Almaniya-Osmanlı müqaviləsinin imzalanmasından sonra Osmanlı dövlətinin xarici siyasətində də dəyişikliklər oldu. Almaniya Balkanlarda özünə müttəfiq olan Osmanlı, Bolqarıstan, Rumıniya və Yunanıstan ittifaqı yaratmağa çalışırdı. Osmanlı dövlətinin Egey adaları ilə bağlı iddiaları belə bir ittifaqın ərsəyə gəlməsi üçün əngəl təşkil etdiyindən, İstanbul hökumətinin bu iddialarından vaz keçməsi və ya ən azından müəyyən zamana qədər bu iddialarını təxirə salması lazım idi. Mövcud şərtlər altında Egey adaları və Balkanlardakı iddialarından bir şey əldə edə bilməyəcəyini anlayan Osmanlı dövləti, Almaniyanın təşviqi ilə bütün diqqətini Şərqə yönəltdi [24, s. 133]. İstanbuldakı alman səfiri von Vangenheym də sədrəzəm Səid Həlim paşaya ünvanladığı 6 avqust 1914-cü il tarixli məktubunda Almaniyanın müharibəni zəfərlə başa çatdıracağı, düşmənlərinə sülh müqavilələrini diktə etdirəcəyi təqdirdə Türkiyənin Rusiyadakı müsəlmanlarla əlaqə qurması üçün onun Şərq sərhədlərinin yenidən müəyyən edilməsinə yardımçı olacağı təminatını verirdi [37, s. 108-109; 20, s. 98-99; 40, s. 141-142; 36, s. 51]. Dünya müharibəsinin ilk günlərindən etibarən istər İstanbulda, istərsə də Berlində aparılan Almaniya-Osmanlı danışıqlarında almanlar müharibənin zəfərlə başa çatacağı təqdirdə Qafqazın Türkiyəyə veriləcəyi ilə bağlı üzərlərinə öhdəlik götürdülər. Məsələn, Berlindəki Osmanlı hərbi attaşesi Cəmil bəy İstanbula göndərdiyi 3 avqust tarixli raportunda Almaniya bəhriyyə naziri vəkili ilə görüşdüyünü və Almaniyanın müharibədən qalib çıxacağı təqdirdə Qafqaz və ətrafının Osmanlı dövlətinə veriləcəyini təəhhüd etdiyini bildirdi: "Bu hərbdə müvəffəqiyyət qazansaq, Qafqaz və havalisi sizə veriləcəkdir" [1]. Bu

öhdəlik İstanbul hökumətinin müharibə hədəflərinin və xarici siyasətinin turançılıq üzərində köklənməsində çox böyük rol oynadı.

Müharibənin qalibiyyətlə başa çatacağı təqdirdə qalib Almaniyanın Qafqazın Osmanlı dövlətinə veriləcəyi haqqında öhdəliyinə əməl etməyəcəyi ilə bağlı fikirlər də var idi. Məsələn, bəhs edilən dövrün Rumıniya dövlət adamı T.İonesku Tələt paşanı xəbərdarlıq edərək deyirdi: "Qalib Almaniya... sizə Qafqazı və ya Misiri vermək kimi axmaqlığa getməyəcəkdir. Bacararsa, onları özünə götürəcəkdir" [36, s. 85-86].

Almaniyanın artan təzyiqləri qarşısında oktyabrın 20-də keçirilən məhdud kabinə toplantısında (Ənvər paşa, Tələt paşa, Camal paşa, Xəlil bəy) Rusiyaya qarşı müharibəyə girmək haqqında qərar qəbul edildi və oktyabrın 22-də Ənvər paşa donanma komandanı Admiral Suşona yazılı olaraq belə bir gizli əmr verdi: "Türk donanması Qara dənizdə dəniz hakimiyyətini ələ keçirməlidir. Rus donanmasını arayın və harada görsəniz savaş elan etmədən hücum edin" [2]. Bu əmrlə hərəkət edən admiral Suşon tabeliyində olan Geben (Yavuz Sultan Səlim), Breslau (Midilli) və digər türk hərbi gəmiləri ilə oktyabrın 29-da Rusiyanın Sevastopol, Odessa, Feodosiya və Novorasiysk limanlarını bombardman etdi və bir neçə rus gəmisini batırdı [4]. Lakin istənilən nəticə (rus hərbi gəmilərinin və hərbi obyektlərin tamamilə məhv edilməsi) alınmadı. Rus donanmasının cavab atəşləri bombardmanın davam etdirilməsinə imkan vermədi. Noyabrın 2-də Rusiya Türkiyəyə müharibə elan etdi və dərhal Qafqaz cəbhəsində hərbi əməliyyatlara başladı. Elə həmin gün İstanbuldakı rus səfir Giers, fransız səfir Bompard və ingilis səfiri Ser Mallet İstanbulu tərk etdilər. Noyabrın 5-də İngiltərə və Fransa Osmanlı dövlətinə, noyabrın 11-də isə Osmanlı dövləti Antanta dövlətlərinə müharibə elan etdi. Beləliklə, Osmanlı dövləti felən müharibəyə girmiş oldu.

1914-cü il noyabrın 11-də Türkiyə xaricindəki iki yüz milyondan artıq müsəlmandan və xüsusilə də Rusiyadakı türk-müsəlman zümrələrindən geniş ölçüdə faydalanmaq məqsədilə Osmanlı dövləti "cihad" elan etdi və bütün türk-islam dünyasını Antanta dövlətlərinə qarşı müharibəyə səslədi. "Cihad" fətvası noyabrın 11-də imzalansa da, 3 gün sonra – noyabrın 14-də rəsmi olaraq ictimaiyyətə elan edildi. Qafqazda isə "türkçülük" və "turançılığ"ın əsaslarına söykənən bir siyasətin gerçəkləşdirilməsi planlaşdırıldı.

"Türkçülük" və "turançılıq" ideologiyası hələ Birinci dünya müharibəsinə qədər Osmanlı hakim dairələrində artıq özünə yer etmişdi. Siyasi məna etibarilə türk mənşəli bütün xalqların Osmanlı dövlətinin hakimiyyəti altında birləşmələrini və siyasi birlik qurmalarını nəzərdə tutan "turançılıq" ilk dəfə macarlar tərəfindən irəli sürülmüşdü. XX əsrin əvvəllərində siyasi və hərbi proseslərin sürətli axarı türkçülük və turançılıq ideyasının türk xalqları arasında geniş yayılmasına səbəb olmuşdu. İsmayıl bəy Qaspralı (Qasprinski) türkçülüyün bəzi əsaslarını işləyib hazırlamış, Ziya Göyalp isə bu cərəyanı ideologiya şəklində formalaşdırmışdı. Türkçülük cərəyanının genişlənərək ideologiyaya çevrilməsi və bu ideologiyanın

Kazan, Azərbaycan və Türküstanda geniş yayılması Rusiyada genişlənən rus şovinizmi və panslavyanizmə qarşı müqavimət kimi qiymətləndirilirdi.

Türkçülük mövzusunda, türk irqinə söykənən ilk əsaslı və sistemli siyasi tezis İsmayıl bəy Qaspralının kürəkəni Yusif Akçura tərəfindən ortaya atılmışdır [18]. Onun "üç tarz-ı siyasət" kimi ortaya qoyduğu "osmanlılıq" (bir Osmanlı milləti meydana gətirmək), "islamçılıq" (islamçılığa söykənən bir dövlət strukturu qurmaq) və "türkçülük" (irqə söykənən bir türk siyasi millətçiliyi meydana gətirmək) tezisləri XX əsrin əvvəllərində Türkiyənin siyasi və ictimai xadimləri arasında Osmanlı dövlətinin tənəzzülünün qarşısını almaq məqsədilə həyata keçirilməli olan siyasi tədbirlərlə bağlı gərgin müzakirələrin əsas mövzusu idi. "İttihad və Tərəqqi" Cəmiyyətində də bu üç yoldan hansının dövlətin tənəzzülünün qarşısını alacağı və inkişafı təmin etmək üçün reallığa daha çox uyğun olacağı ilə bağlı müzakirələr, mübahisələr getməkdə idi. İttihadçılar iqtidarı ələ keçirdikdən sonra ilk əvvəl "osmanlılıq", "islamçılıq" və "türkçülük" cərəyanlarının hər üçünə söykənən bir siyasət yürütməyə başladılar. Bir qədər sonra "Türk Ocaqları" təşkilatının ətrafında toplaşan o dövrün məşhur türkçülərindən Yusif Akçura, Məmməd Emin, Halide Edip, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp və digərlərinin "İttihad və Tərəqqi" partiyasına daxil olmaları, türkçülük ideologiyasının "İttihad və Tərəqqi" partiyası tərəfindən mənimsənilməsi, partiyanın liderlərindən Ənvər paşa, Tələt paşa və Xəlil bəy Menteşə kimi simaların bu ideologiyanı tamamilə qəbul etmələri Osmanlı dövlətinin xarici siyasətinə əsaslı təsir göstərdi və Dövlət-i Aliyənin xarici siyasətinin "turançılıq" üzərində köklənməsinə gətirib çıxardı.

Digər tərəfdən, Birinci dünya müharibəsi başladıqdan sonra baş verən ictimai, siyasi və hərbi proseslər nə "osmanlılığ"ın, nə də "islamçılığ"ın gerçəkləşməsinin mümkün olmayacağı faktını ortaya qoydu. Müharibə başladıqdan sonra ərəblərin ingilislərə, ermənilərin ruslara meyl etmələri və bununla bağlı baş verən hadisələr "türkçülüy"ü və "turançılığ"ı ön plana çıxartdı. "İttihad və Tərəqqi" partiyasının hakim dairələri bundan sonra Qafqaz və Orta Asiya ilə daha çox maraqlanmağa başladılar və "turançılıq" Osmanlı dövlətinin rəsmi siyasətinə çevrildi [35, s. 33-35]. Hakim "İttihad və Təqəqqi" partiyası liderlərinin Qafqaz və Rusiyada yaşayan türk-müsəlmanlarla bağlı mövqeyi belə idi ki, Rusiyanın Balkan slavyanları arasında müvəffəqiyyətlə yeritdiyi siyasətin eynisini Osmanlı dövləti də Rusiya türkləri arasında yeritməlidir. Bu mövqeyin nəticəsi kimi, Qafqazda "türkçülük" və "turançılığ"a söykənən bir siyasətin gerçəkləşdirilməsi planlaşdırıldı. "İslamçılıq"dan da imtina edilmir, bu cərəyandan da "türkçülük" cərəyanına yardımçı mahiyyətdə istifadə edilirdi.

Osmanlı dövlətinin müharibə hədəflərinin Şərqə, ilk növbədə Qafqaza yönəlməsinin nəticəsi idi ki, İstanbul hökuməti Antanta dövlətlərinə müharibə elan edən gün – 1914-cü il noyabrın 11-də "İttihad və Tərəqqi" Cəmiyyəti tərəfindən cəmiyyətin bütün şöbələrinə göndərilən bəyannamə cihad fətvasından fərqli olaraq

konkret hədəfləri göstərirdi. Bəyannamədə deyilirdi: "Vətənimizin və millətimizin milli idealları bizi Moskva düşmənini məhv etməyə yönəltməkdədir; beləliklə, Rusiyadakı bütün irqdaşlarımızı içinə alan, onlarla birləşməyimizə imkan verəcək təbii hüdudlarımız əldə edilmiş olacaqdır" [27, s. 12]. Dövrün məşhur türkçülərindən olan Tekin Alp bu zaman yazırdı: "Biz bu müharibəyə sadəcə bizi təhdid edən düşmənlərimizdən özümüzü qorumaq üçün girmədik. Müharibə ilə birlikdə daha böyük bir hədəfə çatmaq niyyətindəyik: Milli idealımızı gerçəkləşdirmək. Xalqımızın milli idealı, bir tərəfdən düşmənimiz olan Moskvanı məhv etmək və bununla da imperatorluğumuzun təbii sərhədlərinə yiyələnmək, bütün türk xalqları ilə birləşmək, digər tərəfdən də dini həssaslığımızdan dolayı İslam dünyasını dinsizlərin hakimiyyətindən qurtarmaq və onların müstəqilliyini verməkdir" [24, s. 134]. Ənvər paşa da 40 milyon türkü bir imperatorluq içində görmək istəyirdi. O, Rusiyaya qarşı aparılan hərbi əməliyyatların əsas məqsədini Rusiya imperiyası tərkibində olan bütün türk xalqlarının çarizmin əsarətindən azad edilməsi və Böyük Turan dövlətinin tərkibinə daxil edilməsində görürdü.

Bəhs olunan dövrdə Ənvər paşanın yaşca özündən kiçik olan əmisi Xəlil bəyin "lənət olası çölü (Mesopotamiya) ingilislərə buraxaq! Türküstana gedək! Orada kiçik Cahangirim (oğlu) üçün yeni bir imperatorluq qurmaq istəyirəm" [21, s. 242] şəklində ifadə etdiyi fikirlər hakim İttihad və Tərəqqi partiyasında turançı fikirlərin hansı miqyasda olduğunu göstərən bir nümunədir.

1916-1922-ci illərdə İngiltərənin baş naziri olmuş Devid Lloyd Corc öz xatirələrində Osmanlı dövlətinin Qafqaz siyasəti və Qafqazla bağlı planları ilə bağlı yazırdı: "1915-1916-cı illərdə... Türkiyə siyasətinin əsasını bütün Turan xalqlarının türk hakimiyyəti altında birləşdirilməsi təşkil edirdi. Türklər onlarla qohum olan tayfaların məskunlaşdığı Cənubi Qafqazı almaq, bunun xaricində İran üzərində öz ağalığını qurmaq və gücləndirmək istəyirdilər. Əbdülhəmid panislamizmi panturanizm ilə əvəzlədikdən sonra türklər özlərinə yad olan ərəblərlə az maraqlanmağa başladılar və müharibə davam etdiyi müddətdə əsas diqqəti Qafqaza yönəltdilər" [25, s. 66-67].

Amerika tarixçisi T.Svyatoçovski də haqlı olaraq yazır ki, "birinci dünya müharibəsində Osmanlı dövlətinin strateji hədəfləri panislamizm və Turana söykənmişdi. Panislamizm hədəfinin gerçəkləşməsi yolunda Misir, Turan hədəfinin gerçəkləşməsi yolunda ilk mərhələ olaraq Qafqaz alınmalı idi. Hakim üçlüyün başında gedən Ənvər paşa panislamizmin Türkiyə xaricində çox təsirli olmayacağını görərək ikinci hədəfə üstünlük verdi" [38, s. 111].

Osmanlı dövləti Qafqazla bağlı planlarını reallaşdırmaq məqsədilə Qafqaza gedən yolda maneə olan gürcü və ermənilərdən də faydalanmaq qərarına gəldi və hər iki xalqın qabaqcıl nümayəndələri ilə danışıqlar apardı. Bu danışıqların aparılmasında məqsəd həm də Qafqazın istilası üçün siyasi zəmin yaratmaq idi. İttihad və Tərəqqi partiyasının təmsilçiləri Ömər Naci, Bahəddin Şakir və Hilmi bəy 1914-cü ilin

2-14 avqust tarixlərində Daşnaksütyun partiyasının Ərzurumda keçirilən VIII konqresinə gəlib, burada daşnak liderləri Rostom, Vramyan, Aqnuni və digərləri ilə görüşərək, Osmanlı dövləti ilə Rusiya arasında başlayacaq müharibədə ermənilərin Osmanlı dövlətinə dəstək olmasını və Qafqaz ermənilərinin Rusiyaya qarşı üsyan qaldırmalarını, bunun qarşılığında daşnaklara Türkiyənin ermənilər yaşayan və müharibə nəticəsində Rusiyadan alınacaq Cənubi Qafqazın bəzi bölgələrini özündə birləşdirəcək muxtar erməni dövləti yaradılmasını təklif etdilər. Lakin bu təklif Daşnaksütyun partiyası tərəfindən rədd edildi [27, s. 15; 30, s. 26; 38, s. 111; 41, s. 282; 39, s. 251-256]. Daşnaklar partiyanın İstanbul komitəsi ilə Qafqaz bürosunun birləşdirilməsi məsələsini qəti olaraq həll edib, başlanacaq müharibədə Osmanlı dövlətinə qarşı Rusiyanın yanında yer almaq haqqında qərar qəbul etdilər [22, s. 359] və beləliklə də öz xalqlarının sonrakı taleyini müəyyənləşdirdilər.

Müharibənin əvvəllərində osmanlı-gürcü danışıqları da ilkin mərhələdə o qədər də uğurlu alınmadı. Çünki, almanların təsiri altında olan və Almaniya vasitəsilə onun qəyyumluğu altında olacaq bir Gürcüstan dövlətinin yaradılması uğrunda mübarizə aparan gürcü mühacirləri İstanbul hökumətinə qarşı inansızlıq nümayiş etdirirdilər. Müharibənin əvvəllərində Osmanlı dövləti gürcülərə muxtariyyət vəd edir, lakin gürcülər buna qarşı çıxaraq tam müstəqillik istədiklərini bəyan edirdilər. İstanbuldakı gürcü kilsəsinin təmsilçiləri hələ 1914-cü il sentyabrın 3-də gürcülərin tam müstəqillik istədiklərini, Almaniya və Avstriya-Macarıstan bu müstəqilliyə zəmanət verib gürcüləri silah-sursatla təmin edərlərsə, o zaman Rusiyaya qarşı vuruşacaqlarını İstanbuldakı Almaniya və Avstriya-Macarıstan səfirliklərinə bildirdilər. Gürcü kilsəsinin bildirdiyinə görə, Osmanlı dövləti Gürcüstana aid bir sıra bölgələri işğal edib buradakı xristian gürcülərə məhdud hüquqlar vermək istəyir. Amma gürcülər qəti olaraq Osmanlı dövlətinə bağlı və ya ondan asılı bir Gürcüstana qarşı çıxırdılar [21, s. 60].

1914-cü ilin sentyabrında Almaniya Xarici İşlər Nazirliyinin təklifi ilə bu zaman Berlində fəaliyyət göstərən "Gürcü Milli Komitəsi"nin liderlərindən Georgi Maqabeli və Mixail Sereteli alman siyasi dairələrinə özlərinin tərtib etdikləri "Cənubi Qafqazın Rusiyadan ayrılması və onun sonrakı siyasi quruluşu" adlı planlarını təqdim etdilər [34, s. 64]. Planda Cənubi Qafqazın Rusiyadan ayrılmasından sonra burada Almaniyanın siyasi təsiri altında olacaq Cənubi Qafqaz Federativ Respublikasının yaradılması ideyası irəli sürülürdü. Lakin Osmanlı dövlətinin yardımına ehtiyac duyan Almaniyanın hakim dairələri göstərilən plana Türkiyənin mənafeyi baxımından əhəmiyyətli olan bəzi düzəlişlərin əlavə edilməsini zəruri hesab etdikləri üçün, 1914-cü il sentyabrın 27-də Maqabeli və Sereteli tərəfindən Almaniya baş qərargah rəisinin müavini Vesendonka "Qafqazın gələcəkdəki siyasi quruluşu və bitərəfləşdirilməsi layihəsi" adlı yeniləşdirilmiş plan təqdim olundu. Yeni plana əsasən Qafqazda konstitusiyalı monarxiya quruluşunda "Gürcüstan Krallığı", "Erməni-Tatar Kantonu" və "Dağlı xalqların federasiyası"ndan ibarət

bitərəf bir "Qafqaz Dövlətlər Birliyi"nin yaradılması təklifi irəli sürülürdü [21, s. 60; 34, s. 66]. Gürcü Krallığı Almaniya və Avstriya-Macarıstan imperatorluqlarının yardımları ilə təşkil olunacaq, Qərbi Avropa mənşəli bir prensin (şahzadənin) hökmranlığında konstitusiyalı bir quruluşa sahib olacaqdı. Əhatə edəcəyi ərazilər Tiflis, Kutais, Batum, Suxum və Qarsın bir hissəsindən ibarət olacaqdı. Erməni-Tatar Kontonu isə Gəncə, Bakı və İrəvan vilayətləri ilə Qarsın türklərin çoxluq təşkil etmədiyi bölgələrindən meydana gələcəkdi. Erməni və tatarlar (azərbaycanlılar) mədəni muxtariyyət alacaqdılar və hətta müsəlman bir prensləri (şahzadələri) də ola bilərdi, amma qəti olaraq Osmanlı dövlətinin və ya İranın vassal bir dövləti olmayacaqdılar. Dağlı xalqlarına (çərkəzlər, çeçenlər, kabardalılar, inquşlar, osetinlər, ləzgilər) gəlincə, bunların müsəlman bir prensləri olacaq və eyni zamanda hər bir xalqın ayrıca bir "bəy"i və konstitusiyası olacaqdı. "Qafqaz Dövlətlər Birliyi"nin sərhədlərini Almaniya, Avstriya-Macarıstan, Osmanlı dövləti və bu üç Qafqaz dövlətindən təşkil olunacaq bir komissiya müəyyən edəcəkdi. Bu dövlətin vahid pul sistemi, dəniz və quru qoşunları və gömrük birliyi olacaqdı. Bütövlükdə Batum və Qarsın türklər çoxluq təşkil etməyən bölgələri heç bir halda Osmanlı dövlətinə verilməyəcək, bunun əvəzində İrəvanın bir hissəsi ilə Qarsın türklər yaşayan bölgələri Osmanlı dövlətinə veriləcəkdi [21, s. 60-61].

1914-cü il sentyabrın 14-də Almaniyanın İstanbuldakı səfiri von Vangenheym müharibənin zəfərlə başa çatacağı, düşmən barış masasına oturtdulduğu təqdirdə gürcü mühaciri Leo Keresselidzeyə aşağıdakı zəmanəti verdi: 1. Gürcüstan müstəqil bir dövlət olacaq. Nə Rusiya, nə də Osmanlı dövləti Gürcüstan üzərində hər hansı bir hökmranlıq qurmağa cəhd edəcəkdir; 2. İndiyə qədər Gürcüstanın ərazisi kimi bilinən bölgələr yenə də Gürcüstana aid olaraq qalacaqdır [21, s. 63].

Vangenheymin Keresselidzeyə verdiyi bu zəmanətlə Almaniya Gürcüstanın müstəqilliyini tanıyıb, onun sərhədlərini də müəyyən etmiş olurdu. Gürcülər də bunun müqabilində Almaniya lehinə təbliğat aparmalı və Rusiyaya qarşı üsyana qalxmalı idilər.

Vangenheym gürcülərə müstəqillik zəmanəti verdikdən sonra, elə həmin gün Gürcüstanın gələcəyi ilə bağlı danışıqlar aparmaq üçün Keresselidzeni Tələt paşa və Ənvər paşa ilə görüşdürdü. Osmanlı-gürcü müzakirələrində Batum və "müsəlman gürcülər" məsələlərində ciddi fikir ayrılıqları olsa da, gürcülərin əsas narahatçılığı Qafqazı istila edəcək Osmanlı dövlətinin bu ərazini tamamilə öz nəzarətində saxlayacağı və gürcü dövlətinin qurulması ilə bağlı öhdəlikləri yerinə yetirməyəcəyi ilə bağlı idi. Bunun üçün də gürcü mühacirləri Osmanlı dövlətinin Qafqazdan tamamilə əl çəkməsinə və Qafqazın Almaniyanın nüfuz dairəsinə daxil edilməsinə çalışırdılar. Nəhayət, uzun-uzadı aparılan osmanlı-gürcü danışıqları 1914-cü ilin dekabrında (Sarıqamış əməliyyatından əvvəl) tərəflər arasında 6 maddədən ibarət müvəqqəti bir müqavilənin imzalanması ilə nəticələndi. Bu müqaviləyə görə, Osmanlı dövləti Gürcüstanın müstəqilliyini və Osmanlı torpaqlarında bir gürcü

ordusunun təşkil edilməsini qəbul edirdi. Amma bu müstəqillik Gürcüstanın xarici işlərinə müəyyən məhdudiyyətlər qoyurdu. Gürcüstan dövləti daxili işlərində, məsələn, qanun qəbul etmək, idarəçilik və məhkəmə sahəsində tam müstəqil olmalı, xarici siyasətində isə Osmanlı dövləti ilə bərabər hərəkət etməli idi. Bunun qarşılığında Osmanlı ərazisində gürcü legionu təşkil edilməli, bu legion Rusiyaya qarşı vuruşmalı və Gürcüstandakı gürcülər də Rusiyaya qarşı qiyama qalxmalı idilər [21, s. 235-236].

Göründüyü kimi, müharibənin zəfərlə başa çatdırılacağı təqdirdə Qafqazın Osmanlı dövlətinə verilməsi ilə bağlı Almaniyadan təminat almış [1] Osmanlı hökuməti müharibənin əvvəllərində Qafqazın gələcək statusu ilə bağlı erməni və gürcülərlə danışıqlar aparıb, müharibədə Osmanlı dövlətini dəstəkləyəcəkləri halda onlara muxtariyyət vəd etmişdir. Erməni və gürcülərdən fərqli olaraq, Sarıqamış əməliyyatının məğlubiyyətlə nəticələnməsinə qədər Azərbaycan təmsilçiləri ilə belə bir danışıqlar aparılmamışdır.

Hələ dünya müharibəsindən əvvəlki illərdə Rusiya təqibindən qaçan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və digər Azərbaycan aydınları Osmanlı dövlətinə sığınmış və burada mühacir həyatı yaşamaqda idilər. Bu mühacirlər Qafqazda yaşayan türk-müsəlmanlar haqqında məlumatların alınması, onların taleyi ilə bağlı qərarların qəbul edilməsi və onlarla əlaqələrin qurulması kimi məsələlərdə Osmanlı hökumətinin əsas istinad yeri idilər. Dövrün arxiv sənədlərinin araşdırılması göstərir ki, müharibənin əvvəllərində (Sarıqamış əməliyyatına qədər) Osmanlı hökuməti ilə İstanbuldakı Azərbaycan mühacirləri arasında Azərbaycanın gələcək statusu ilə bağlı ilə hər hansı bir danışıqlar və razılaşmalar olmamışdır. Baxmayaraq ki, Osmanlı dövləti Rusiyaya qarşı aparılan müharibədə Azərbaycan və Dağıstanda yaşayan türk-müsəlmanların köməyinə ümid bəsləyirdi. Müharibənin əvvəllərində Osmanlı hökumətinin Azərbaycanın müstəqilliyinə dair heç bir vəd verməməsi və ümumiyyətlə bu barədə heç danışıqlar aparmaması onun gələcəkdə yaradılacaq Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırması ilə bağlı idi [38, s. 111-112]. Onu da qeyd etmək lazımdır ki, İstanbuldakı adı çəkilən Azərbaycan mühacirləri İttihad və Tərəqqi partiyasının üzvü olmaqla bərabər, eyni zamanda Turan ideyasının ideoloqları və təbliğatçıları idilər. Bu ideyada da Azərbaycanın müstəqilliyinə yer yox idi.

Bəhs edilən dövrdə Osmanlı imperiyasının Cənubi Azərbaycanla bağlı planları da onun ümumi Azərbaycan siyasətinin bir parçası idi. Bu plana görə rus qoşunları Cənubi Azərbaycandan çıxarılmalı, eyni zamanda Cənubi Azərbaycan türkləri milli zülmdən qurtulmalı və Osmanlı dövlətinə ilhaq olunmalı idi. Bu planın gerçəkləşdirilməsi üçün türk hərbi ilə paralel olaraq türk diplomatiyası da yorulmadan çalışırdı. Osmanlı ordusu Qafqaz cəbhəsində uğursuzluqlara düçar olduqdan sonra həm Şimali və həm də Cənubi Azərbaycanla bağlı planlara və yeridilən siyasətə düzəlişlər edildi. Cənubi Azərbaycanla Şimali Azərbaycanın Osmanlı dövlətinin

himayəsində vahid dövlətdə birləşdirilməsi, hər iki Azərbaycanın Osmanlı dövlətinə ilhaq edilməsi və digər planlar meydana gəldi.

Bütövlükdə götürdükdə, Osmanlı dövlətinin Qafqaz cəbhəsində Rusiyaya qarşı apardığı hərbi əməliyyatların məqsədi 3 mərhələdən ibarət idi. Birinci mərhələdə, Osmanlı dövlətinin 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi nəticəsində ruslara verməyə məcbur olduğu Qars, Ərdəhan və Batum vilayətləri geri qaytarılmalı idi. İkinci mərhələdə, Qafqaz işğal edilməli və burada yaşayan türk-müsəlmanlar Rusiya boyunduruğundan azad edilərək Osmanlı dövlətinə birləşdirilməli idi. Üçüncü mərhələdə isə, Xəzər dənizi vasitəsilə Orta Asiyada yaşayan türklərlə təmas qurulmalı və bununla da "Turan" planı gerçəkləşdirilməli idi [28, s. 414].

Osmanlı hərbi komandanlığı bir neçə cəbhədə müharibə aparmasına baxmayaraq, Qafqaz cəbhəsini digər cəbhələrdən daha mühüm əhəmiyyət kəsb edən döyüş meydanı hesab edirdi. Qafqaz cəbhəsində 3-cü ordunun tərkibində 1914-cü ilin sonlarında bütün türk hərbi qüvvələrini əhatə edən 40 piyada diviziyadan 11-i vuruşurdu. Bundan əlavə 3-cü ordu komandanlığının sərəncamına 1 süvari diviziyası və 4 ½ kürd irrequlyar süvari diviziyalar verilmişdi. Səciyyəvi haldır ki, ingilis ordularının ciddi-cəhdlə qoruduqları Süveyş kanalını ələ keçirmək üçün türk hərbi komandanlığının Camal paşanın başçılığı altında göndərdiyi hərbi qüvvələr Qafqazdakı türk hərbi qüvvələrindən iki dəfə az idi [26, s. 60].

1914-cü il noyabrın 1-də Qafqaz cəbhəsində hücuma keçən general Georgi Bertmanın komandanlıq etdiyi rus qoşunları Rusiya-Osmanlı sərhədini keçib Zivin, Şərqi Bəyazid və Diyadini ələ keçirdilər. Noyabrın 5-də Osmanlı ordusu baş qərargahından 3-cü ordu komandanı Həsən İzzət paşaya Köprüköy yaxınlığına gəlmiş rus ordusu üzərinə hücum əmri verildi. 7-17 noyabr tarixlərində baş vermiş Köprüköy döyüşlərində Osmanlı ordusu rus qoşunlarının irəliləyişini dayandıra bildi və onları geri oturtdu [28, s. 417]. Ərzurum-Sarıqamış istiqamətindən hücuma keçən Osmanlı ordusu Acarıstanadək irəliləməyə nail oldu. İlk uğurlardan ruhlanan və buna böyük əhəmiyyət verən Ənvər paşa dekabrın əvvəllərində orduya komandanlığı şəxsən öz üzərinə götürdü və böyük hücuma başlamaq əmrini verdi. Ənvər paşanın əsas məqsədi Qars və Sarıqamış arasında rus qoşunlarını məğlub etmək idi. Burada rusların dayaq məntəqəsi yerləşirdi. Bu əməliyyatın uğurla qurtaracağı təqdirdə Cənubi Qafqazın istilası əslində həll edilmiş olurdu [17, s. 165]. 1914-cü ilin dekabrın 22-dən 1915-ci ilin yanvarın 19-dək davam edən Sarıqamış əməliyyatında yüksək dağlar, yolsuzluq, sərt şaxtalar kimi çox ağır bir şəraitdə türk ordusu göstərdiyi fədakarlıqlara baxmayaraq, rus cəbhəsini yara bilməyib fəlakətlə üzləşdi, 90 min nəfərlik 3-cü ordu 78 min əsgər itirdi [31, s. 279]. Sarıqamış əməliyyatı Osmanlı dövlətinin Qafqazla bağlı planlarının qarşısına səd çəkdi.

Turan idealının gerçəkləşdirilməsi yolunda Qafqaz cəbhəsində ilk böyük hərbi əməliyyat olan Sarıqamış əməliyyatının Osmanlı ordusu üçün ağır məğlubiyyətlə və fəlakətlə nəticələnməsinə baxmayaraq, istər Ənvər paşa, istərsə

də İttihad və Tərəqqi partiyasının digər liderləri turançılıq ideyasından imtina etmədilər, əksinə bu planın reallaşması üçün əlverişli şəraitin yetişməsinə ümid etdilər. Bununla yanaşı, artıq təkcə öz qüvvəsi ilə Qafqazın işğalını həyata keçirə bilməyəcəyini anlayan Osmanlı hökuməti, o cümlədən Ənvər paşa Rusiyaya qarşı aparılan müharibədə Qafqazda yaşayan türk-müsəlmanların, o cümlədən gürcülərin yardımından geniş ölçüdə faydalanmaq üçün bölgə ilə bağlı planlarda bəzi əhəmiyyətli düzəlişlər etməyə məcbur oldu.

Qafqazda müstəqil müsəlman dövlətinin qurulması ilə bağlı ideya Əmiraslan xan Xoyskinin (Fətəli xan Xoyskinin qardaşı Cahangir xan Xoyskinin oğlu) Türkiyə səfəri və onun burada Osmanlı və Almaniya hərbi və siyasi xadimləri ilə apardığı danışıqlar zamanı ortaya atıldı. 1915-ci ilin fevral ayının əvvəllərində Əmiraslan xan Xoyski gizli surətdə cəbhə xəttini keçib, Trabzon yolu ilə Ərzuruma gələrək ilk əvvəl buradakı Almaniya konsulu ilə görüşdü [13, v. 1-2; 8, v. 4]. Əmiraslan xan alman konsulu ilə görüşündə bu səfərdə əsas məqsədinin Qafqazda Osmanlı dövləti və Rusiyadan asılı olmayan, ancaq Almaniya və Osmanlı dövləti ilə hərbi ittifaq müqavilələri olan, bir çox millətlərin daxil olduğu İsveçrə tipli müstəqil bir dövlət qurulması işinə Almaniya və Osmanlı dövlətinin razılığını və yardımını almaq olduğunu bildirdi. Bu dövlət Bakı, Yelizavetpol və İrəvan quberniyaları ilə Terek və Dağıstanı əhatə edəcəkdi [27, s. 16; 38, s. 115]. Qafqazda İsveçrə tipli müstəqil bir müsəlman dövlətinin qurulması işinə Almaniya və Osmanlı dövlətinin razılığı olardısa, bunun qarşılığında Qafqaz müsəlmanları Rusiyaya qarşı qiyama qalxacaqdılar.

Əmiraslan xanın Almaniyanın Ərzurum konsulu ilə görüşü və aparılan müzakirələr barədə konsul tərəfindən İstanbuldakı alman səfirinə raport verilən kimi, səfir von Vangenheym bu barədə 8 fevral 1915-ci il tarixində Almaniya Xarici İşlər Nazirliyinə teleqramla məlumat verdi. Teleqramda qeyd edilirdi ki, Gəncədən "Difai" təşkilatının hərbi qanadının məsul şəxsi, şahzadə Əmiraslan xan Ərzurumdakı alman konsulluğuna gələrək, Qafqazda 500 min müsəlmanı, xüsusilə də Şimali Qafqazı Rusiyaya qarşı ayağa qaldırmaq istədiyini bildirmiş, əsas hədəfinin isə Osmanlı dövləti və Rusiyadan asılı olmayan, ancaq Almaniya və Osmanlı dövləti ilə hərbi müqavilələri olan İsveçrə tipli bir Qafqaz dövləti qurmaq olduğunu bəyan etmişdir. Bu 500 min insanın Rusiyaya qarşı qiyamının baş tutması üçün Əmiraslan xan, 3 şərt irəli sürmüşdür: 1. Almaniyanın Qafqazın müstəqilliyinə təminat verməsi; 2. Osmanlı dövlətinin bu üsyanları bir tümən ordu ilə dəstəkləməsi; 3. İki və ya üç alman zabitinin Qafqaza göndərilməsi [24, s. 75]. Vangenheym daha sonra teleqramda qeyd edir ki, bu məqsəd üçün Vandakı Osmanlı tüməni istifadə edilə bilər, həmçinin İstanbuldan silah-sursat ilə birlikdə iki alman zabiti də göndərilə bilər. Lakin İstanbuldakı alman hərbi missiyasının rəhbəri Liman von Sanders bu layihə üçün alman zabitlərinin göndərilməsi təklifini rədd etdi.

Ərzuruma gələn Əmiraslan xanın burada Osmanlı rəsmiləri ilə heç bir təmas qurmadan ilk əvvəl Almaniya konsulu ilə görüşməsi və təklifini almanlara etməsi

maraq doğurur. Arxiv sənədlərindən anlaşılır ki, bu mövqe Osmanlı dövlətinin yeritdiyi turançı siyasətlə əlaqədar olub, türklərin Qafqazı istilası halında bu bölgələri tamamilə İstanbul hökumətinə bağlayacaqlarından yaranan narahatlıqdan irəli gəlmişdir. Çünki bu dövrdə artıq Azərbaycan aydınlarında müstəqil Azərbaycan ideyası formalaşmaqda idi. Azərbaycan aydınları etnik, dil və din baxımından bağlı olduqları Osmanlı dövlətinə simpatiya ilə yanaşsalar da, dövlət idarəçiliyi baxımından Osmanlı dövlətinin də Rusiya kimi bir istibdad olduğu qənaətində idilər və elə buna görə də Cənubi Qafqaz müsəlmanlarını müstəqil Azərbaycan ideyası ətrafında birləşdirib burada dünyəvi bir dövlət qurmağa çalışırdılar.

Bu xüsus, yəni Osmanlı dövlətinin turançı davranışlar sərgiləyib bütün Qafqazı öz himayəsinə almağa çalışması və buna görə də azərbaycanlıların türklərə güvənməməsi Almaniyanın Ərzurumdakı Qafqaz agenti Louis Moselin 3 mart 1915-ci il tarixli raportunda da diqqətə çatdırılır. Raportunda Osmanlı dövlətinin bütün Qafqazı öz himayəsinə almaq istədiyindən heç bir şübhəsi olmadığını və buna təkcə xristian gürcülərin deyil, eyni zamanda müsəlman gürcü və tatarların (azərbaycanlıların) da qarşı olduğunu, silah-sursat çatışmazlığına baxmayaraq gürcü və tatarların Rusiyaya qarşı ayağa qalxmaq üçün hazır olduğunu, lakin türklərə güvənmədiklərindən qiyama başlamadıqlarını diqqətə çatdırdıqdan sonra Mosel, zəngin bir bölgə olan Qafqazın Almaniya üçün əhəmiyyəti üzərində dayanır və Qafqazla bağlı bütün hərbi fəaliyyətlərin Almaniyanın idarəsinə verilməsini istəyirdi. Mosel 22-23 mart 1915-ci il tarixli raportlarında yenidən bu məsələləri qabardır və Türkiyənin Qafqazın müstəqilliyi ilə bağlı zəmanət verməsinin vacibliyini diqqətə çatdırırdı [24, s. 145-146].

Əmiraslan xanın Ərzuruma gəlməsi və buradakı alman konsulu ilə görüşməsi Osmanlı siyasilərinin də diqqətini cəlb etmiş və Ərzurum valisi Tahsin bəy fevralın 8-də onunla görüşüb müzakirələr aparmışdı. Bu görüşlə bağlı Tahsin bəy Osmanlı Daxili İşlər Nazirliyinə göndərdiyi 9 fevral 1915-ci il tarixli şifrəli teleqramında yazır: "Qafqazın Gəncə şəhərindən Əmiraslan xan Xoyski bir həftə əvvəl Ərzuruma gələrək, İran konsulunun qonağı olmuş və Almaniya konsulu ilə sıx əlaqələr saxlamışdır" [8, v. 4; 13, v. 1-2]. Bir gün əvvəl Əmiraslan xan Xoyski ilə görüşdüyünü qeyd edən Ərzurum valisi, bildirir ki, Xoyski özünün Gəncədə fəaliyyət göstərən "Difai" cəmiyyətinin icraiyyə komitəsinin rəisi olduğunu, 3-cü ordunun alman komandanlarının idarəsində olduğunu bilərək bir alayla İran tərəfdən Qafqaza keçmək fikriylə gəldiyini, bu məsələ ilə bağlı İstanbulda kiminləsə görüşmədiyini, onu Əhməd Ağaoğlu və Trabzon komissarlarından İsfəndiyar bəyin tanıdıqlarını söylədi. Əmiraslan xan Xoyskinin Trabzon yolu ilə gəlməsini, onun İstanbulda kiminləsə görüşmədiyini və almanlarla həqiqətən sıx təmasda olmasını, eyni zamanda Osmanlı dövlətinin himayəsində Qafqazda gürcü və Dağıstan prensliklərinin təşəkkülünə çalışacağını söyləməsinə diqqət çəkən vali, Xoyskini nəzarətə aldığını qeyd edir, Əhməd Ağaoğlu və İsfəndiyar bəydən onun

əsl kimliyi haqqında məlumat alınmasını lazım bilir [8, v. 4; 13, v. 1-2]. Təxminən eyni məzmunlu bir şifrəli teleqram da 13 mart 1915-ci il tarixində Van valisi Cevdət bəydən Daxili İşlər Nazirliyinin Ümumi Təhlükəsizlik Baş İdarəsinə daxil olur [8, v. 2]. Cevdət bəy də Əhməd Ağaoğludan Əmiraslan xan Xoyski haqqında təfsilatlı məlumat alınmasını xahiş edir. Osmanlı valilərinin, bir qədər sonra eyni zamanda alman siyasi və hərbi dairələrinin Əmiraslan xanın kimliyi və təmsil etdiyi qurum və bölgə ilə bağlı şübhələri Xoyskinin hər hansı bir sənəd və ya etimadnamə təqdim etməməsindən qaynaqlanırdı. Lakin Xoyskinin onu tanıdıqlarına istinad etdiyi şəxslər (Əhməd Ağaoğlu və İsfəndiyar bəy) Osmanlı hökumətinin güvəndiyi və etibar etdiyi şəxslər idilər.

Əmiraslan xanla bağlı Ərzurum valisinin teleqramı Osmanlı hökumətinin, ilk növbədə Xarici İşlər Nazirliyinin diqqətini çəkdi. Nazirlik Əmiraslan xanın kimliyi, onun nüfuzunun hansı əraziləri əhatə etdiyi və nə qədər atlı toplamaq iqtidarında olmasını öyrənməyə çalışdı və əlavə olaraq Xoyskinin İstanbula gələ biləcəyinin təhqiq olunmasını xahiş etdi [16, v. 7].

Osmanlı Daxili İşlər Nazirliyi fevralın 17-də "Tərcüman-ı Hakikat" qəzetinin baş yazarı olan Əhməd bəy Ağaoğludan Əmiraslan xan Xoyski haqqında məlumat, arayış istədi [7, v. 1]. Ertəsi gün bu müraciətə verdiyi cavabında Ə.Ağaoğlu bildirdi ki, "Difai cəmiyyəti 1906-cı ildə erməni-müsəlman davası zamanı mənim tərəfimdən Bakıda yaradılmışdır. İki illik fəaliyyətdən sonra Rusiya hökumətinin şiddətli təqibləri üzündən cəmiyyət dağıldı və üzvləri də hərəsi bira yana səpələndi. Hazırda "Difai"nin fəaliyyət göstərdiyinə inanmıram. Xoyski ailəsinə gəlincə, bu ailə çox böyükdür. Bunlardan Bakıda məhkəmə vəkilliyi ilə məşğul olan şəxs mənim yoldaşımdır, məktubunuzda bəhs olunan adam budursa ona tamamilə etibar edə bilərsiniz. Fəqət Xoyski ailəsindən Rusiya tərəfdarı olanlar da vardır ki, onlara etibar etmək olmaz. Bununla belə, Xoyski ailəsi Gəncə əyalətində çox məşhur və əhali içərisində nüfuz sahibi olduğundan bunlardan ehtiyata riayət edilmək şərtiylə istifadə edilə bilər" [7, v. 2].

Ə.Ağaoğlunun Xoyski ailəsindən dostu kimi təqdim etdiyi, Bakıda məhkəmə vəkilliyi ilə məşğul olan və etimad oluna bilən şəxs sonralar Azərbaycan Cümhuriyyəti yaranan zaman ölkənin ilk baş naziri olan Fətəli xan Xoyskidir. Əmiraslan xan Xoyski də Fətəli xan Xoyskinin qardaşı general Cahangir xanın oğludur. Əmiraslan xanın istinad etməsinə baxmayaraq, Ə.Ağaoğlunun konkret olaraq onu tanıması və ya xatırlaması o qədər də real deyildi. Çünki "Difai"nin qadağan edildiyi və Ə.Ağaoğlunun Azərbaycanı tərk etdiyi zaman (1908-ci il) Peterburq Universitetinin Hüquq fakültəsinin tələbəsi olan 1888-ci il təvəllüdlü Əmiraslan xanın cəmi 20 yaşı var idi və bu dövrdə o, Azərbaycan siyasi həyatında tanınmış bir şəxs deyildi.

Əmiraslan xan Xoyski haqqında Ə.Ağaoğlunun verdiyi arayış daxili işlər naziri Mehmed Tələt bəy tərəfindən fevralın 20-də şifrəli teleqramla Ərzurum valisi Tahsin

bəyə [10; 8, v. 3], martın 14-də Daxili İşlər Nazirliyinin Ümumi Təhlükəsizlik Baş İdarəsi tərəfindən də Van valisi Cevdət bəyə göndərildi [11; 8, v. 1]. Ə.Ağaoğlunun Əmiraslan xan Xoyski haqqında verdiyi "şərti istinad" arayışı Osmanlı hökumətində Əmiraslan xana münasibətdə müəyyən tərəddüdlərin yaranmasına gətirib çıxartdı. Lakin Ə.Ağaoğluya bir daha müraciət edib ondan bu barədə daha detallı məlumatların alınması və qəqiqləşdirmələr aparılması istiqamətində heç bir addım atılmadı. Bu münasibətin nəticəsi idi ki, Əmiraslan xanın İstanbula getməsinə qədər onun şəxsiyyəti və etibarlılığı Osmanlı və Almaniya siyasi və hərbi dairələri üçün müəmmalı olaraq qaldı.

Əmiraslan xan Ərzurumda alman konsulu və Osmanlı siyasi dairələri ilə keçirdiyi görüşlərdə Qafqaz müsəlmanlarını Rusiyaya qarşı ayağa qaldırmağa hazır olduğunu bildirməklə yanaşı, onu narahat edən əsas məsələ bu qiyamların müvəffəqiyyətlə başa çatacağı təqdirdə Qafqazın statusunun necə olacağı ilə bağlı idi. Əmiraslan xan, Ərzurumdakı alman konsulu ilə görüşündə Qafqazda Osmanlı dövləti və Rusiyadan asılı olmayan, ancaq Almaniya və Osmanlı dövləti ilə hərbi ittifaq müqavilələri olan, bir çox millətlərin daxil olduğu İsveçrə tipli müstəqil bir dövlət qurulması ilə bağlı layihə təqdim etmiş və bu layihə ilə bağlı Almaniyanın razılığını və yardımını almağa çalışmışdı [27, s. 16]. Almaniyanın Ərzurum konsulluğunda Əmiraslan xanla aparılmış müzakirələrin yekununda belə bir razılıq əldə edildi ki, "Difai"nin Rusiyaya qarşı qiyamı Dağıstan, Gəncə, İrəvan, Bakı və Vladiqafqaz kimi gürcülərin yaşamadığı müsəlman bölgələrində baş verəcək, bu qiyamlar müvəffəqiyyətlə başa çatacağı təqdirdə hər bir bölgənin və ya vilayətin idarəçiliyi öz bəylərinin əlinə veriləcək və bu bəylərin idarəçiliyindəki bölgələrdən ibarət Qafqaz Federasiyası təşkil olunacaq. Danışıqların bütün bu detalları Ərzurum konsulunun köməkçisi von Şoybner Rixterin (Max Erwin v. Scheubner Richter) İstanbuldakı alman səfiri von Vangenheymə göndərdiyi 19 mart 1915-ci il tarixli raportunda əks olunmuşdu [24, s. 76].

Əmiraslan xan Ərzurum valisi Tahsin bəylə söhbətində isə "Osmanlı dövlətinin himayəsində Qafqazda gürcü və Dağıstan prensliklərinin təşəkkülünə çalışacağını" [8, v. 4; 13, v. 1-2] bildirmişdi. Lakin o, 1915-ci ilin fevralında Ənvər paşanın Ərzurumdakı qərargahında apardığı müzakirələrdə "gürcü" və eyni zamanda "Osmanlı dövlətinin himayəsində olacaq bir dövlət" kimi məsələləri qabartmır, bu səfərdə əsas məqsədinin Bakı, Yelizavetpol və İrəvan quberniyaları ilə Terek və Dağıstanı əhatə edəcək bir dövlətin qurulması işinə Osmanlı dövlətinin razılığını və yardımını almaq olduğunu bəyan etmişdi [27, s. 16; 38, s. 115]. Göründüyü kimi, burada Əmiraslan xanla Tahsin bəy arasındakı söhbətdən fərqli olaraq, Osmanlı dövlətinin himayəsində olacaq bir Qafqaz dövlətindən söhbət getmir. Yəni, Ənvər paşaya təqdim edilən layihədə Azərbaycanın Osmanlı dövlətinə birləşdirilməsindən və ya onun himayəsində olmasından deyil, burada müstəqil bir dövlətin yaradılmasından söhbət gedirdi. Bunun müqabilində Əmiraslan xan

Qafqazda yüz minlərlə müsəlmanın Rusiyaya qarşı döyüşməyə hazır olduğunu bildirir və əgər Osmanlı dövləti Cənubi Azərbaycandan dəstək verərsə, Dağıstan və Cənubi Qafqaz müsəlmanlarını Rusiyaya qarşı üsyana qaldırmağa söz verirdi [21, s. 71; 38, s. 115]. Sarıqamış fəlakətini yaşamış Ənvər paşa bu layihəni məqbul hesab etdi. Bununla da, Qafqazda Rusiya və Osmanlı dövləti arasında bufer rolunu oynayacaq bir müsəlman dövlətinin qurulması fikri ortaya atılmış və Osmanlı dövləti tərəfindən təsdiqlənmiş oldu.

Qafqaz müsəlmanlarının (Azərbaycan və Dağıstanın) gələcək statusu ilə bağlı Ərzurumda Əmiraslan xan Xoyski ilə Almaniya və Osmanlı siyasi və hərbi dairələri arasında əldə edilən bu razılaşmalardan bir qədər sonra, 1915-ci ilin sentyabrında Əmiraslan xan İstanbula gəldi. Əmiraslan xanın planına görə Qafqaz müsəlmanlarının Rusiyaya qarşı ayağa qaldırılması və Qafqazın gələcək statusu ilə bağlı İstanbulda yekun qərar qəbul edilməli idi. Arxiv sənədlərindən anlaşılır ki, Əmiraslan xanın İstanbula gəlməkdə əsas məqsədi Ərzurumda əldə edilən razılaşmaları daha yüksək səviyyələrdə təsdiq etdirməkdən ibarət olmuşdur. Burada Almaniyanın səfiri von Vangenheym ilə görüşən Əmiraslan xan, səfirlə Qafqaz müsəlmanlarının Rusiyaya qarşı ayağa qaldırılması və Qafqazın gələcək statusu ilə bağlı danışıqlar apardı. Danışıqların yekunu olaraq, Əmiraslan xan Xoyski von Vangenheymdən Qafqazın müstəqil olacağına dair yazılı təminat sənədi aldı. Amma bu təminat Qafqaz müsəlmanlarının Rusiyaya qarşı qiyamı uğurla nəticələndiyi və Almaniya-Osmanlı bloku müharibədən qalib çıxdığı təqdirdə keçərli olacaqdı [35, s. 48].

Bununla da, Difai təşkilatının vasitəçiliyi ilə, mərkəzi Azərbaycan olan və Dağıstanı da əhatə edən, Osmanlı dövləti və Rusiyadan asılı olmayan, müstəqil bir Qafqaz müsəlman dövlətinin ("Şərqi Qafqaz dövləti") təşəkkülü məsələsi Almaniya tərəfindən də yüksək səviyyədə təsdiq edildi və tanındı.

Bu zaman Qafqazın gələcək statusu ilə bağlı osmanlı-gürcü danışıqlarında da canlanma müşahidə olunurdu. Bu canlanma Sarıqamış əməliyyatının uğursuzluğa düçar olmasından sonra artıq təkcə öz qüvvəsi ilə Qafqazı fəth edə bilməyəcəyini anlayan Osmanlı dövlətinin Rusiyaya qarşı aparılan müharibədə Qafqazda yaşayan yerli əhalinin yardımından maksimum şəkildə faydalanmaq niyyəti ilə bağlı olub, Qafqaza münasibətdə İstanbul hökumətinin mövqeyində baş verən yumşalma ilə əlaqədar idi. Eyni zamanda, bu məsələdə almanlar, xüsusilə də İstanbuldakı səfir von Vangenheym də İstanbul hökumətinə təsir edirdi.

Əvvəkli yarımfəsildə də qeyd etdiyimiz kimi, Qafqazın gələcək statusu ilə bağlı aparılan osmanlı-gürcü danışıqlarında tərəflər arasında qarşılıqlı inamsızlıq var idi. Bu səbəbdən gürcülər İstanbul hökuməti ilə birbaşa deyil, almanlar vasitəsilə danışıqlar aparmağa üstünlük verirdilər. 1915-ci il iyunun 15-də Milli Gürcü Komitəsi İstanbuldakı alman səfiri von Vangenheymlə birgə hazırladığı yeni bir layihəni Osmanlı hökumətinə təqdim etdi. Layihədə Gürcüstanın Osmanlı dövləti tərəfindən tanınması, Osmanlı ərazisində müvəqqəti gürcü hökumətinin və gürcü

legionunun təşkil edilməsi, bunların qarşılığında gürcülərin Osmanlı ordusunu dəstəkləmələri və Rusiyaya qarşı Türkiyə lehinə təbliğat aparmaları və digər məsələlər öz əksini tapmışdı [21, s. 239].

Osmanlı hökuməti, 1914-1915-ci illərdə Qafqaz cəbhəsində Rusiyaya qarşı aparılan hərbi kampaniya uğursuzluqla nəticələndikdən sonra, bir sıra şərtlər daxilində gürcülərlə anlaşmaya hazır olduğunu bildirdi. Nəticədə 1915-ci il sentyabrın 16-da Osmanlı hökuməti, Hərbi Nazirliyin şöbə rəisi Yarbay İsmət bəy (İnönü) və Milli Gürcü Komitəsinin liderlərindən Georgi Maqabeli tərəfindən hazırlanmış müqaviləni təsdiq etdi. Müqaviləyə görə, Osmanlı dövləti Qara dəniz sahilində Daxovskdan Abişira-Elbrus-Balta-Azaxo xəttindən Dağıstan sərhədinə, oradan Salavat-Göyçə gölünün şimal sahilindən Çıldır-Balvana və Ardanuça qədər olan ərazilərdə, tarixi sərhədlər daxilində müstəqil Gürcüstan dövlətini qeyd-şərtsiz qəbul edirdi; Bundan başqa, Osmanlı dövləti ruslardan azad olunan gürcü bölgələrində müvəqqəti gürcü hökumətinin qurulmasına və bu hökumətin fəaliyyətinə mane olmayacağını, müvəqqəti gürcü hökuməti qurulduqdan dərhal sonra bu hökuməti tanımağı və onun göndərəcəyi bir təmsilçini qəbul etməyi, rusların Gürcüstandakı dövlət təsisatları üzərində heç bir haqq iddia etməməyi və Osmanlı ordusu Gürcüstanda olduğu müddətdə gürcü xalqından hər hansı bir vergi almayacağını öz üzərinə götürürdü. Eyni zamanda, Rusiya-Osmanlı müharibəsinin sonuna qədər Osmanlı dövləti öz ərazisində Gürcü Komitəsi və gürcü xalqı üçün almanlar tərəfindən göndəriləcək silahların nəqlinə yardımçı olacağını, öz ərazisində qurulacaq gürcü legionunun təlimlərində Gürcü Komitəsinə kömək edəcəyini və gürcü legionunun zabit və komandir heyətinin Gürcü Komitəsi tərəfindən təyin olunacağına qarışmayacağını da təəhhüd edirdi [27, s. 13-14].

Bu müqavilənin digər maddələri üç bölümdən ibarət idi. Birinci bölüm gürcü ordusunun təşkili və Osmanlı ordusu ilə işbirliyi məsələlərinə aid idi. Buna görə, Osmanlı dövləti gürcü ordusunun daxili təşkilati işlərinə heç bir şəkildə qarışmayacaq, gürcü ordusunun rəhbər komanda heyətinin təyinatı hər iki tərəfin razılığı ilə Gürcü Komitəsi tərəfindən həyata keçiriləcək və gürcü ordusu Osmanlı Qafqaz ordusunun əmrində olacaqdı. İkinci bölümdə, Osmanlı dövlətinin Gürcüstandakı hüquqlarının çərçivəsi müəyyən olunurdu: Müharibə dövründə Osmanlı dövləti Gürcüstandakı dəmir yollarından, nəqliyyat vasitələrindən istifadə edə bilərdi. Həmçinin, müvəqqəti gürcü hökumətinin icazəsi ilə türklər öz ordusuna lazım olan materialları toplaya bilərdi. Üçüncü bölüm isə, Milli Gürcü Komitəsinin öz üzərinə götürdüyü öhdəliklərə aid idi. Buna görə, Gürcü Komitəsi müharibə dövründə türk ordusuna bütün sahələrdə yardım etməli, Türkiyə lehinə, Rusiya əleyhinə Gürcüstan torpaqlarında təbliğat aparmalı və bütün imkanlarını səfərbər edərək, Gürcüstanda Rusiyaya qarşı üsyanın başlaması üçün lazımi təşkilatçılığı təmin etməli idi [21, s. 74-82].

Göründüyü kimi, Almaniya və Osmanlı dövlətləri ilə Azərbaycan təmsilçiləri

arasında Azərbaycanın gələcək statusu ilə bağlı əldə edilən anlaşmalardan fərqli olaraq, Osmanlı dövləti ilə Milli Gürcü Komitəsi arasında imzalanan müqavilə daha konkret idi. Burada gürcü dövlətinin yaradılması, onun müstəqilliyinin tanınması, sərhədlərinin müəyyən edilməsi və müharibə dövründə Gürcüstanla Osmanlı dövləti arasında qurulacaq münasibətlərin bir çox detalları əks olunmuşdu. Bu müqavilə mətninin hazırlanmasında İstanbuldakı Almaniya səfirliyi yaxından iştirak etmişdi. Özünün Qafqaza artan maraqlarını gürcülər vasitəsilə təmin etməyi planlaşdıran Almaniya hökuməti gələcəkdə qurulacaq Gürcüstan dövlətini öz himayəsinə götürmək üçün onu Osmanlı dövlətinin təsirindən maksimum şəkildə qorumağa çalışırdı. Müqavilə maddələrindəki detallar da bu məqsədə xidmət edirdi.

Bu müqavilə ilə Osmanlı hökuməti gürcülərə müharibədə özünün qalib gələcəyi təqdirdə sərhədləri də müəyyən edilməklə müstəqil Gürcüstan dövlətinin yaradılacağını təəhhüd etmiş olurdu.

Beləliklə, Osmanlı dövləti Qafqazda Azərbaycan və Dağıstanı əhatə edəcək müstəqil bir müsəlman dövlətinin yaradılması layihəsindən ilə yanaşı tarixi sərhədləri daxilində müstəqil Gürcüstan dövlətinin yaradılmasını da qəbul etmiş oldu. Bu, Qafqaza, onun gələcək statusuna münasibətdə Osmanlı dövlətinin planlarında edilmiş strateji bir dəyişiklik idi. Çünki, Osmanlı hökuməti hələ dünya müharibəsinin başlanğıcında müharibənin zəfərlə başa çatacağı təqdirdə Qafqazın Osmanlı dövlətinə veriləcəyi ilə bağlı Almaniyadan təminat almışdı və elə bu səbəbdən idi ki, İstanbul hökuməti, müharibənin əvvəllərində Qafqazın gələcək statusu ilə bağlı erməni və gürcülərlə apardığı danışıqlarda müharibədə Osmanlı dövlətini dəstəkləyəcəkləri halda onlara sadəcə muxtariyyət vəd edir, azərbaycanlılarla isə heç bir danışıq aparmır, Azərbaycanı gələcəkdə yaradılacaq Turan imperiyasının tərkibində görürdü.

Qafqaza, onun gələcək statusuna münasibətdə Osmanlı dövlətinin mövqeyində baş vermiş bu dəyişiklik, Sarıqamış fəlakətindən sonra artıq təkcə öz qüvvəsi ilə Qafqazı fəth edə bilməyəcəyini anlayan İstanbul hökumətinin Rusiyaya qarşı aparılan müharibədə Qafqazda yaşayan yerli əhalinin yardımından maksimum şəkildə faydalanmaq niyyəti ilə bağlı idi. Osmanlı hökumətinin belə bir mövqeyə gəlməyində Almaniyanın İstanbuldakı səfiri von Vangeyheymin də güclü təsiri olmuşdu. Çünki, Almaniya Qafqazın gələcək statusu ilə bağlı Osmanlı dövlətindən əvvəl gürcü və Azərbaycan nümayəndələri ilə danışıqlara başlamış və Qafqazda müstəqil gürcü və Azərbaycan dövlətlərinin yaradılacağı haqqında hər iki xalqın təmsilçilərinə zəmanət vermişdi.

Qafqazda müstəqil gürcü və Azərbaycan dövlətlərinin yaradılacağı ilə bağlı Almaniya və Osmanlı dövlətlərindən rəsmi təminat almış gürcü və azərbaycanlı nümayəndələr bu təminat qarşılığında Rusiyaya qarşı xalqlarını ayağa qaldırmalı və bütün vasitələrlə Rusiyanın müharibədə məğlub olmasına çalışmalı idilər. Lakin türk qoşunları gürcü ərazilərinə girəndə gürcülərin Rusiyaya qarşı hər hansı bir qiyamına

rast gəlinmədi. Sadəcə acarlar silaha sarıldılar və Oltu-Ərdəhan cəbhəsində ruslara qarşı şiddətlə vuruşdular. Türk orduları geri çəkilmək məcburiyyətində qalanda isə, acarlar üçün fəlakət başlanmış oldu. Rusların alacağı intiqamın qorxusundan 60 mindən çox acar türk torpaqlarına sığındı [31, s. 499]. Yerdə qalan acar əhalisinə qarşı ruslar ermənilərlə birgə qətliam həyata keçirdilər [5]. Coraka vadisinin 52 min nəfərlik əhalisindən cəmi 7 min nəfəri sağ qala bildi [38, s. 113].

Qafqaz müsəlmanlarının Rusiyaya qarşı qiyamını təşkil etmək üçün, ilk növbədə onlarla əlaqələr qurulmalı və təşkilati işlər aparılmalı idi. Necə ki, ruslar ermənilərin yardımından faydalanmaq üçün uzun illər boyu onlar arasında işlər aparmış və nəticədə ermənilər təbəəsi olduqları Osmanlı dövlətinə xəyanət etmək və ruslara qulluq etmək üçün siyasi, təbliğati və hərbi cəhətdən tam hazırlanmışdılar. Rusiyanın Qafqaz cəbhəsindəki uğurlarının əsasında da məhz bu amil dayanırdı. Lakin Osmanlı dövləti Qafqazda yaşayan türk-müsəlmanlar arasında bu cür işlər aparmamışdı. Bunun nəticəsi idi ki, Qafqaz müsəlmanları Osmanlı dövlətinə dəstək üçün Rusiyaya qarşı qiyama qalxmağa nə siyasi, nə təbliğati və nə də hərbi cəhətdən hazır deyildilər. Zamanında bölgədə lazımi təşkilati işlər aparılmadığına görə türk ordusu Qafqaza girməyincəyə qədər oradan hansısa bir üsyan və ya qiyam gözləmək əbəs idi. Birinci dünya müharibəsinə qədər bir əsr yarım idi ki, Osmanlı dövləti ruslar qarşısında məğlub ola-ola Qafqazdakı ərazilərini itirməklə bərabər bölgə əhalisi arasında mövqelərini də itirməkdə idi. Bu amil, Osmanlı dövlətinin Rusiyaya qarşı aparılan müharibədə Qafqaz müsəlmanlarının yardımından istifadə edə bilməməsində mühüm rol oynadı.

İstifadə edilmiş mənbə və ədəbiyyat:

1. Türkiyə Cümhuriyyəti Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Dairesi Başkanlığı Arşivi (ATASE), BDH, K. 243, D. 1009, F. 7, 7-a.
2. ATASE, BDH, K: 1646, D. 30, F. 11.
3. ATASE, BDH, K. 1646, D. 30, F. 12-2.
4. ATASE, BDH, K: 1646, D. 30, F. 12-14.
5. ATASE, BDH, K. 3825, D. 30, F. 1-2:1-13.
6. ATASE, BDH, K. 4611, D. 10, F. 1-25.
7. Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arşivi (BOA), DH.EUM. KLH, no. 1/22.
8. BOA, DH.EUM.2.Şb., no. 5/41.
9. BOA, DH.EUM.5.Şb, no.1/12.
10. BOA, DH.ŞFR, no. 50/44.
11. BOA, DH.ŞFR, no. 51/13.
12. BOA, DH.ŞFR, no. 436/44.
13. BOA, DH.ŞFR, no. 460/102.

14. BOA, HR.HMŞ.İŞO, no.120/17.
15. BOA, HR.HMŞ.İŞO, no. 209/47.
16. BOA, HR.SFR (20), no. 121/82.
17. Azərbaycan tarixi. 7 cilddə. V cild. Bakı, Elm, 2001.
18. Akçura Y. Üç Tarz-ı Siyeset. Ankara, Türk Tarih Kurumu Basımevi, 1991.
19. Atalay B. I. Dünya Savaşı'nda Kafkas Cephesi Keşmekeşliği ve Millî Hedefsiz Millet Meydana Getirme Gayretkeşliği / Yeni Türkiye, Kafkaslar Özel Sayısı, C. III, s. 344-351.
20. Bayur Y.H. Türk İnkılabı Tarihi. C. III. 1914-1918 Genel Savaşı. Kısım I. Ankara, Türk Tarih Kurumu Yayınları, 1991.
21. Bihl W. Die Kaukasus Politik der Mittelmächte. İhre Basis inder Orient-Politik und hre Aktionen 1914-1917. Teil I. Wien-Köln-Graz, Böhlau Verlag, 1975.
22. Борян В.А. Армения, международная дипломатия и СССР. Ч. I. Москва, 1929.
23. Cemal Paşa. Hatıralar. Hazırlayan: A.Kabacalı. 5. Baskı. İstanbul, Türkiye İş Bankası Yayınları, 2010.
24. Çolak M. Alman İmperatorluğu'nun Doğu Siyaseti Çerçivesinde Kafkasya Politikası (1914-1918). Ankara, Türk Tarih Kurumu Yayınları, 2006.
25. Джордж Д.Л. Военные мемуары. Пер. с англ. И.Звавича. С предисл. Ф.А.Ротштейна. В 5 томах. Том 4. Москва, Государственное социально-экономическое издательство, 1935.
26. Hətəmov R. Almaniyanın Şərq siyasətində yeni meyllər və Qafqaz uğrunda mübarizə (1917-ci ilin sonu – 1918-ci ilin mayı). I məqalə // Tarix və onun problemləri, 1998, № 4, s. 58-66.
27. Jaschke G. Der Turanismus der Jungturken. Zur Osmanischen Aussenpolitik im Weltkriege. Die Welt des İslams, Band 23, Heft 1/2. Leipzig, 1941, p. 1-54.
28. Karal E.Z. Osmanlı tarixi. IX Cilt. İkinci Müşrutiyet ve Birinci Dünya Savaşı (1908-1918). 2. Baskı. Ankara, Türk Tarih Kurumu Basımevi, 1999.
29. Kaşıyuğun A. Arşiv Belgelerine Göre Osmanlı Devleti`nin İttifak Arayışları ve I Dünya Savaşı`na Girişi (1911-1914). Yayınlanmamış Doktora Tezi. Kahramanmaraş, 2014.
30. Kazemzadeh F. The Struggle for Transcaucasia (1917-1921). New-York, 1951.
31. Kurat A.N. Türkiye ve Rusya. Ankara, Kültür Bakanlığı Yayınları, 1990.
32. Лорей Г. Операция германо-турецких морских сил в 1914-1918 гг. 2-е изд. Москва, 1937.
33. Mahmut Muhtar Paşa. Maziye bir Nazar. Berlin Muahedesi'nden Harbi Umumi'ye kadar Avrupa ve Türkiye-Almanya Münasebetleri. İstanbul,

Matbaay-i Ahmed İhsan ve Sürekası, 1341.
34. Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг. Москва, Наука, 1978.
35. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011.
36. Готлиб В.В. Тайная дипломатия во время первой мировой война. Москва, Соцэкиздат, 1960.
37. Sabis A.İ. Birinci Dünya Harbi. Harp Hatıralarım. C. I. İstanbul, Nehir Yayınları, 1991.
38. Swietochowski T. Müslüman Cemaat'ten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. İstanbul, Bağlam Yayınları, 1988.
39. Uca A. İttihad ve Terakki Liderlerinden Doktor Bahaeddin Şakir Bey. Yayınlanmamış Doktora Tezi. Erzurum, 2009.
40. Wallach J.L. Bir Askeri Yardımın Anatomisi (Türkiye`de Prusya-Alman Askeri Heyetleri. 1835-1919). Çeviren: Fahri Çelikar. İkinci Baskı. Ankara, Genelkurmay Basımevi, 1985.
41. Yerasimos S. Milliyetler ve Sınırlar. Balkanlar, Kafkasya ve Ortadoğu. Türkçeye çeviren: Şirin Tekeli. İstanbul, İletişim Yayınları, 1994.
42. Yılmaz V. 1nci Dünya Harbi'nde Türk-Alman İttifakı ve Askeri Yardımlar. İstanbul, Cem Ofset Matbaacılık Sanayi A.Ş., 1993.

Vasif Gafarov
Caucasus polıcy of ottoman empıre end idea on independent Azerbaıjan (1914-1915)

Summary

Key words: *Ottoman-Germany alliance, Turkishism, Turanism, Caucasus status, idea on independent Azerbaijan, Amiraslan khan Khoyski*

The policy of Ottoman empire on Caucasus and Azerbaijan has been investigated for the first years of The First World War in the article. There is a special attention to plans of Ottoman empire related to Caucasus and position and role of idea on independent Azerbaijan in these plans, as well as issue on negotiations of Istanbul authority with Caucasus' representatives related to further status of region was speacially focused. It was proved by facts that, Ottoman empire had intention to own Caucasusu Caucasus in the begining of The First World War. They obtained guarantee from Germany as well. Therefore, promising autonomy to georgians and armenians under definite conditions Ottoman empire did not give such promises to Azerbaijan representatives, they accept Azerbaijan within Turan empire to be created in the future. Being lost Sarigamish operation Ottoman empire understood

thet they would not conquest Caucasus with his own power and therefore they made important corrections in the plans related to Caucasus in order to benefit support of Caucasus muslims and georgians finally promised independence to the mentioned nations.

Васиф Гафаров

Кавказская политика Османской империи и идея независимого Азербайджана (1914-1915 гг.)

Резюме

Ключевые слова*: Османо-Германский союз, тюркизм, туранизм, статус Кавказа, идея независимого Азербайджана, Амираслан хан Хойский*

В статье исследована Кавказская и Азербайджанская политика Османской империи в начале Первой мировой войны. Особое внимание уделено будущим планам Османской империи связанным с Кавказом, местом отведенным идее независимого Азербайджана в этом проекте и переговорам проведенным Стамбульским государством о будущем статусе региона с представителями Кавказа. Фактами доказывается завоевательные цели Османской империи по отношению этого региона. Османская империя в этом вопросе получила поддержку со стороны Германской империи. Грузинам и армянам было обещано автономия в некоторых условиях, Азербайджанские представители же не получили согласия об автономии, так как будущий статус Азербайджана предусматривалась в составе Туранской империи. Но потерпев поражение в военных операциях под Сарыкамышом и поняв что своими силами завоевать Кавказ не удастся, Османская империя чтобы получить поддержку и помощь Кавказских мусульман и грузин, внесли существенные изменения в свои планы связанные с Кавказом пообещав независимость этим народам.

Firdovsiyyə Əhmədova

Bolşevik hakimiyyətinin Qafqaz siyasəti və Azərbaycan

Açar sözlər: *muxtariyyət, Qafqaz, müsəlman, bolşevik, hakimiyyət, Azərbaycan, partiya, Rusiya, millət*

UOT 94 (479.24)

Rusiyada sosial-demokrat qüvvələrinin siyasi əməli fəaliyyətində Qafqaz, xüsusən də Bakı XX əsrin əvvəllərindən etibarən önəmli yer tutmuşdur. Bakının neft sənayesi mərkəzi kimi dünya əhəmiyyətli rolu bolşeviklərin ilkin və əsas sosial baza kimi fəhlə qüvvələrindən istifadə imkanları üçün Qafqazda əlverişli zəmin yaradırdı. Sovetlər birliyinə rəhbərlik etmiş görkəmli bolşeviklərin, o cümlədən şəxsən İ.Stalinin Qafqaz, Bakı ilə bağlılığı regionun sonrakı müqəddəratına ciddi təsir göstərmişdir. Rusiya sosial-demokrat fəhlə partiyasının (RSDFP) Bakı təşkilatı nəinki Azərbaycanda, Qafqazda, o cümlədən bütün Rusiya məkanında ən güclü, fəal siyasi qurum olmuşdur. Rusiya monarxiyasının süqutu ilə siyasi arenada hakimiyyət iddiasını reallaşdırmağa çalışan bolşeviklərin Qafqazda rəhbər nümayəndəsi S.Şaumyanın 1917-ci il aprelin 10-da «Hazırkı dövr haqqında» etdiyi məruzəsi üzrə qəbul edilmiş qətnamədə hədəflər konkret olaraq müəyyənləşdirilmişdir: «...hazırkı dövrdə bizim şüarımız vətəndaş sülhü şüarı deyil, sinfi mübarizə şüarıdır». Fəhlə sinfinin milli dövlət mövqeyində deyil, beynəlmiləl sinfi mövqedə durduğunu bəyan edən S.Şaumyan milli məsələdə mərkəzi qurumlardan fərqli siyasətinə sonadək sadiq qaldı. Rusiyada bolşeviklər hakimiyyəti ələ alanadək RSDF(b)P-nin Bakı komitəsi «Bütün kiçik millətlərin siyasi cəhətdən öz müqəddəratını təyin etməsi hüququ qəbul edilməlidir» mövqeyindən çıxış edirdilər. Bolşeviklərin irəli sürdüyü «öz müqəddəratını təyin etmə» hüququ Rusiya imperiyasını «həbsxana» sayan xalqlar tərəfindən rəğbətlə qarşılanan şüar olmuşdu. Müstəmləkə altında qalan xalqlar milli müqəddəratları yönündə düşünür, proqramla çıxış edir, mübarizə aparırdılar. Hələ I Dünya müharibəsi dövründə milli məsələnin

əhəmiyyəti bolşeviklərin lideri V.Leninin diqqətində olmuşdur: "Rusiya nə qədər çox azad olsa, respublikamız velikorus olmayan millətlərin ayrılmaq azadlığını nə qədər çox qətiyyətlə qəbul etsə, başqa millətlər bizimlə ittifaq bağlamağa bir o qədər qüvvətli meyl göstərərlər, çəkişmə bir o qədər az olar, həqiqi ayrılma halları bir o qədər az baş verər, bəzi millətlərin ayrıldıqları müddət bir o qədər qısa olar". "Biz xırda dövlətlər olmasının tərəfdarı deyilik" mövqeyindən çıxış edən V.Lenin "ayrılmanı" birləşmə üçün vacib şərt sayırdı: "Lakin biz, öz tərəfimizdən heç də ayrılmanı istəmirik.Biz mümkün qədər daha iri bir dövlət olmasını, mümkün qədər daha sıx ittifaq olmasını, velikoruslarla qonşuluqda yaşayan millətlərin mümkün qədər çox olmasını istəyirik". Rusiyada bolşeviklər hakimiyyəti ələ almadıqları dövrdə belə imperiyanın ərazisini milli-ərazi prinsipi əsasında ayırmaq niyyətində deyildilər. Rusiya sosial-demokrat fəhlə partiyasının bütün imperiyanı əhatə edən təşkilatları vahid mərkəzdən idarə olunurdu. Partiya mərkəziyyətçiliyi mexanizmi bolşeviklərin hakimiyyətə yiyələndiyindən sonra inzibati-ərazi idarəçiliyi üçün artıq zəmin yaratmışdı, həm də nəzərə alsaq ki, bir sıra ucqarlarda bolşevik təşkilatlarının rəhbərləri eyni zamanda mərkəzi partiya komitəsinin üzvləri statusunda idilər. Rusiyanın mərkəzində, bolşeviklər hakimiyyəti ələ keçirənədək hökumətə kifayət qədər güclü təsirə malik sovetlər fəal rol oynayırdılar. Nəinki Qafqazın, bütün Rusiyanın nüfuzlu bolşevik təşkilatının fəaliyyət göstərdiyi Bakıda fəhlə deputatları Sovetinə RSDF(b)P Mərkəzi Komitəsinin üzvü S.Şaumyan sədrlik edirdi. Rusiyada Fevral inqilabından az sonra təşkil olunmuş Bakı Sovetinin Rəyasət heyətinə qiyabi olaraq sədr seçilmiş S.Şaumyan 1917-ci il martın 17-də sürgündən Bakıya qayıtmışdır. Faktiki olaraq S.Şaumyan 1917-ci ilin martın ortalarından 1918-ci ilin avqustunadək Qafqazın, xüsusən də Bakı quberniyasının müqəddəratında həlledici rol oynamış siyasi fiqur olmuşdur. Bolşeviklərin 1917-1918-ci ildə Qafqazla bağlı planlarını şərtləndirən amillər sırasında S.Şaumyan faktoru diqqətə alınmalıdır. Onun RSDFP MK üzvü olması, Bakı Sovetinə sədrlik etməsi və millətlərin öz müqəddəratını təyinetmə məsələsində tutduğu mövqe Qafqazda, xüsusən də Bakı quberniyasında baş verən ictimai-siyasi, hərbi proseslərə ciddi təsir göstərmişdir. Belə ki, həm partiya tabeçiliyi xətti ilə, həm də Sovetlərin Rusiyanın müqəddəratı ilə bağlı mövqeyi baxımından Qafqazın gələcəyi Rusiyanın tərkibində müəyyənləşdirilmişdi. Bakı Soveti ilk müraciətini «Yaşasın demokratik respublika» şüarı ilə bitirəndə Rusiya respublikasını nəzərdə tuturdu. Azərbaycanın milli yönlü siyasi qüvvələri də Rusiyanı respublika quruluşunda arzu edirdilər, amma federativ şəkildə. «Vahid və bölünməz Rusiya» tərəfdarı eser, menşeviklərdən fərqli bolşeviklər xalqların öz müqəddəratını təyin etmə prinsipini bəyan etsələr də, nəinki Rusiya imperiyasının ərazisini ehtiva edən respublikanın, hətta dünya sosialist respublikasının bərqərar olması niyyətində idilər. «Xalqların öz müqəddəratını təyin etmə» prinsipi bolşeviklərin anlamında şərti xarakter daşıyırdı. Yəni, bu məsələni bu və ya digər millətin, bu yaxud başqa bir vaxtda ayrılmasının

məqsədəuyğunluğu haqqında məsələ ilə qarışdırmağın yolverilməz olduğunu vurğulayırdılar. (9, s.346) Bolşevik rəhbərlərinin nəzəri irsində önəmli yer alan milli məsələ ilə bağlı 1917-ci ilin aprelində RSDF(b)P-nin yeddinci Ümumrusiya konfransında məhz bu məzmunda qərar qəbul edilmişdir. «Milli-mədəni muxtariyyəti» qətiyyətlə rədd edən bolşeviklərlə Azərbaycan milli hərəkatı rəhbərlərinin mövqeyinin uyğun gəlməsi ilk baxışda təzadlı görünə bilər. Amma məsələyə yanaşma baxışında köklü fərq olduğu bəlli olur. Əgər birincilər milli-mədəni muxtariyyəti fəhlələr arasına milli zəmində ayrı-seçkilik salacağı, onları öz millətlərindən olan burjuaziya ilə yaxınlaşdıracağı səbəbindən qəbul etmirdilərsə, ikincilər Rusiya millətlərinin mədəni inkişafını milli-məhəlli muxtariyyət əsasında mümkün və düzgün sayırdılar. (7, s.169-222) Rusiya bolşevikləri bəyanatlarında federalistlərdən daha radikal mövqe nümayiş etdirirdilər. Bu yanaşma 1917-ci ilin oktyabrında bolşeviklər hakimiyyəti ələ keçirəndə, Bakı bolşeviklərinə münasibətdə «Müsavat» partiyasının mövqeyini şərtləndirmişdi. 1917-ci ilin iyulunda «Açıq söz» qəzeti yazırdı ki, «Bolşeviklərcə millətlərin nəinki muxtariyyət, istəsələr tamamilə Rusiyadan ayrılmağa belə ixtiyarları vardır… Fəhlə və Əskər Vəkilləri Şuralarının keçəndə vaqe olan ictimalarından biri məsələyi aydın bir surətdə həll eləmiş, Rusiya daxilində yaşayan hər millət üçün muxtariyyət degil, istiqlal həqqini belə caiz görmüşdü».(7, s.268) Bir neçə ay sonra, bolşeviklər Rusiyanın mərkəzində hakimiyyəti ələ almış və əvvəlki şüarlarını hökumət səviyyəsində rəsmiləşdirmişdi: «Rusiya inqilabçı demokratiyası iş başına gəldi. Bolşevik çıxışından sonra sırf əmələ, kəndçi və soldat kütlələrinə dayanan Xəlq Komissarları hökuməti millətlərin hüququnu bilaşərt və qeyd qəbul edib elan etdi ki, hanki millət nə cür istərsə, öz müqəddəratını özü həll eləsin. İstərsə muxtariyyət, istərsə istiqlal, hətta istərsə başqa bir dövlətə belə qoşulacağını elan eləsin».(7, s.407) «Açıq söz» qəzetinin «Demokratiyanın böylə bir cəsarət və qətiyyətlə meydana çıxması»nı təqdir etdiyi dekabr ayında Rusiya bolşevik hökuməti Qafqazda ölkə Sovet hakimiyyətinin təşkil olunması haqqında dekret verdi. Yəni, Qafqaz xalqlarının, millətlərinin rəyi soruşulmadan Rusiya sovet hökuməti Qafqazı öz hakimiyyəti altında elan edirdi. «Xalqların öz müqəddəratını təyin etməsi haqqında» bolşevik şüarı deklorativ xarakter daşımaqdan daha artıq, bolşevikcəsinə yozumunda şərh olunurdu. Dekreti gerçəkləşdirmək RSDF(b)P Mərkəzi Komitəsinin üzvü, Bakı rayonu fəhlə və əsgər deputatları Sovetinin sədri S.Şaumyana həvalə olunmuşdu: «Qafqaz işləri üzrə müvəqqəti Fövqəladə Komissar». (5; 3, s. 222) Həm yeni statusu, həm də RSDF(b)P MK-nın üzvü, Bakı Sovetinin sədri kimi səlahiyyətləri çərçivəsində S.Şaumyan milli məhəlli muxtariyyətin əleyhinə olmuşdur. Məhz onun Azərbaycan muxtariyyətinə qarşı kəskin münasibəti 1918-ci ilin yazından başlayaraq dinc müsəlmanların kütləvi qətliamına səbəb oldu. RSDF(b)P Mərkəzi Komitəsinin üzvü olmasına rəğmən, mərkəzi partiya orqanının muxtariyyətlə bağlı tövsiyyəsini gerçəkləşdirmək istəmədi. Baxmayaraq ki, Bakı Xalq Komissarları Soveti 1 may

1918-ci il tarixli bəyannaməsində «yenə də vahid böyük ölkənin bir hissəsi olaraq qalmaqda davam etdiyini», «Ümumrusiya Sovetlər qurultayının qərarlarını özü üçün icbari qərarlar hesab etdiyini», həmçinin «Mərkəzi İcraiyyə Komitəsi və Ali Xalq Komissarları Soveti ilə tam həmrəy hərəkət etdiyini» bəyan edən (3,s.371-373) Bakı fəhlə, əsgər və matros deputatları Sovetinin rəhbəri idi, Azərbaycana muxtariyyət məsələsində bolşevik rəhbərliyinin göstəriş və təkliflərini məqbul bilmirdi. Şamaxıda, Lənkəranda, Dərbənddə, Qubada, Salyanda və digər qəzalarda dinc müsəlman əhalini başdan-başa qətliama məruz qoymanı «Sovet hakimiyyəti yaradırlar» kimi təqdim edən Şaumyan nə Stalinin «müsəlmanlar muxtariyyət tələb edirlərsə, mərkəzdə və yerlərdə Sovet hakimiyyətini sözsüz olaraq tanımağı şərt qoymaqla onlara muxtariyyət vermək» (3,s.318) tələbini, nə də Caparidzenin «Daşkənddən və Şimaldan bizə kömək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara muxtariyyət vəd etmək olar» tövsiyəsini (5) yerinə yetirmədi. Milli məhəlli muxtariyyət məsələsində Şaumyan cüzi də olsa güzəştə getmək istəmirdi: «Zaqafqaziyanın müsəlman əyalətləri kəndli əhalisinə» müraciətini «Peterburq fəhlə-kəndli hökuməti adından» imzalayan Şaumyan bu hökumətin «Qafqaz işləri üzrə müvəqqəti Fövqəladə Komissarı» kimi ona ünvanlanan tapşırıqlarını heç də qeyd-şərtsiz icra etmək kursu yeritmirdi. Qafqazın aparıcı siyasi qüvvələri olan eser, menşevik, daşnaklardan fərqli olaraq «Müsavat» partiyasının bolşeviklərin hakimiyyətə gəlişinə, Bakı Sovetində fəaliyyətinə daha loyal yanaşması halında Şaumyanın Rusiya tərkibində muxtariyyət niyyətində və tələbində olan müsəlman siyasi qüvvələrinə qarşı sərt, silahlı mübarizədən də artıq, qanlı divan yolunu tutması faktiki olaraq Qafqazın 2 il müddətinə Sovet Rusiyası üçün itirilməsi ilə nəticələndi. Məhz 1918-ci ilin yazından başlayaraq Şaumyanın iradəsi, icazəsi, göstərişi ilə həyata keçirilmiş müsəlman qətliamları nəinki azərbaycanlı siyasi qüvvələri, bütün müsəlman əhalini sovet hakimiyyətinin düşməninə çevirdi, onları Osmanlı dövlətinə üz tutmağa vadar etdi. Şaumyanın «Biz bilərəkdən buna yol verirdik» taktikası Sovet Rusiyasının maraqları baxımından iflasa uğradı. «Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir» raportu əslində bolşeviklərin Qafqazla bağlı strateji məğlubiyyəti idi. Zor gücünə, yerli əhalinin məhv edilməsi, nifrəti hesabına qurulmuş sovet hakimiyyəti yalnız Bakı quberniyasında bərqərar olmuşdu və 3 ay davam gətirə bildi. Şaumyan 1918-ci il aprelin 13-də RSFSR Xalq Komissarları Sovetinə yazdığı məktubda strateji düşüncə nümayiş etdirərək öz taktiki gedişlərinə, «bütün cəbhə boyu hücuma başladıq»larına haqq qazandırmağa səy göstərirdi. Qabaqlayıcı tədbirlərlə qarşısını almağa çalışdığı proqnozu ehtimallarla ifadə olunan, fərziyyələrə əsaslanan, sonrakı siyasi-hərbi proseslərin yanlış olduğunu göstərdiyi mənzərə idi: «Müsəlman əksinqilabçı ünsürləri bütün Zaqafqaziyada vəziyyətin ağası ola bilərdilər. Əgər onların siyasi məqsədi – Zaqafqaziyanı Rusiyadan ayırıb Türkiyə protektoratlığına tabe etdirmək məqsədi nəzərə alınarsa, aydındır ki, Bakıda onlar qalib gəlsəydilər,

Zaqafqaziya Rusiya üçün itirilmiş olardı». (3, s.334) Göründüyü kimi, şərti zaman formasında ifadə olunan bir proqnozu əldə bəhanə tutaraq on minlərlə günahsız insanın məhvinə səbəb olmaq yalnız Şaumyanın və komandasının deyil, bütünlüklə sovet hakimiyyəti tarixi üçün bəraəti mümkünsüz bir ləkədir, siyasi-hərbi cinayətdir. Şaumyanın «proqnozuna» gəlincə, heç bir partiya sənədində, bəyanatında, nəşrində «Müsavat» partiyasının siyasi məqsədinin «Zaqafqaziyanı Türkiyə protektoratlığına tabe etdirmək məqsədi» - məramı nəinki ifadə olunmamış, əksinə partiyanın proqram məzmununa, müddəalarına ziddir. 1918-ci ilin iyununda Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçəndə rastlaşdıqları hakimiyyət böhranının kökündə də prinsipial olaraq cümhuriyyətçilərin Osmanlı dövləti ilə ilhaq deyil, istiqlal yolunu tutması idi. Mövcud olduğu dövrdə cümhuriyyətin siyasi elitası, xüsusən aparıcı «Müsavat» partiyası və onun liderləri istiqlalçılıq kursunun təntənəsinə çalışmışlar. Şaumyanın «əndişəsi» isə onun siyasətçi kimi dayazlığından daha çox qərəzliyinin göstəricisi sayıla bilər. Siyasi səriştəsizliyinə bolşevik lideri V.Lenin qanlı qırğınlar ərəfəsində irad tutmuşdu. Şaumyanın «möhkəm və qəti siyasətini» təqdir etsə də, «hələlik diplomatiyanı öyrənmək lazımdır» tövsiyəsini vermişdir. (3, s.268) Lenin bu tapşırığı təlimatlandırmaq xatirinə vermirdi. Beynəlxalq şəraiti və Rusiya bolşevik hakimiyyətinin vəziyyətini real qiymətləndirərək verirdi: «İndiki çox çətin vəziyyətin şəksiz tələb etdiyi çox ehtiyatlı bir diplomatiya ilə» siyasəti birləşdirməyi qələbənin əsas şərti sayırdı. Qafqazın siyasi mətbəxini isə Şaumyan Lenindən daha yaxından gördüyü halda Lenin daha çevik, daha ehtiyatlı, məntiqli mövqe bildirirdi: «Siz muxtariyyətə qarşısınız və əvəzində regional özünüidarə tərəfdarısınız, mən sizdən tamamilə fərqli düşünürəm. … -Niyə Polşada muxtariyyət olsun, amma Qafqazda, Cənubda və Uralda olmasın?» (6, c.19, s.499-502) Şaumyanın muxtariyyətə qarşı olduğu Lenin tərəfindən də etiraf olunur. Deməli, Qafqazın inzibati idarəçiliyilə bağlı bolşeviklərdə fikir ayrılığı var idi. Mərkəzi rəhbərlik Qafqaza muxtariyyət verilməsi tərəfdarı olduğu halda, Qafqaz işləri üzrə komissar, muxtariyyətin tətbiqinə deklorativ olaraq da razı deyildi. Və bu qərarında «möhkəm və qəti» dayanmışdı. Qafqazın muxtariyyətinə razı olmayan komissar Azərbaycanın muxtariyyətinə heç vəchlə yol vermək istəmirdi. Azərbaycan milli qüvvələrinin Rusiya Federasiyasının muxtar subyekti olmaq iddiası Qafqaz bolşeviklərinin proqramı ilə toqquşurdu. Azərbaycanı Qafqaz daxilində inzibati-təsərrüfat vahidi kimi də tam qəbul etməyən yerli bolşeviklər mərkəzi sovet hakimiyyətinin milli məsələdə mövqeyinə fərqli yanaşırdılar: Partiyamız bütün millətlərin öz müqəddəratını təyin etməsi, hətta ayrılıb ayrıca dövlət qurması hüququnu təsdiq edərək Müvəqqəti hökumətdən Rusiyada yaşayan bütün millətlər üçün, o cümlədən Qafqaz xalqları üçün bu hüququn dərhal, açıqca elan edilməsini tələb edir. Bolşevik hakimiyyətinin aparıcı rəhbərlərindən olan, Qafqaz məsələləri üzrə əsas söz sahibi kimi rol oynayan Stalinin sovet hakimiyyətini sözsüz olaraq tanımaq şərtilə müsəlmanlara muxtariyyət

vermək tapşırığını Şaumyan nəinki həyata keçirmədi, müsəlmanlara qarşı hərbi əməliyyatlar davam etdirildi, qəzalar üzrə dinc müsəlman əhali amansızlıqla məhv edildi. Erməni milli komitəsinə, erməni hərbi hissələrinə qarşı Şaumyan eyni mövqe, qəddar siyasət göstərmirdi. Şaumyanın 1918-ci ilin yazında kütləvi müsəlman qırğınlarının təşkilatçısı olması, onun milli mənsubiyyətinin siyasi baxışlarına təsiri haqqında Leninin tənəsinin - («Rusiya marksistinə eyib deyilmi ki, o bir erməni hin baxıcısı ilə eyni fikrə malik olsun?... Erməni korluğuna görə siz Piruşkeviç və onun milliyətçiliyinin əlaltısına çevrilirsiniz!») (6, c.48, s.302) əsassız olmadığını təsdiqlədi. Şaumyanın Qafqaz siyasəti yalnız sovet hakimiyyətinə, sosialist ideyalarına zərbə vurmadı, regionun müqəddəratına fərqli istiqamət verdi, 2 ildən sonra sovet hakimiyyətini süngülərlə gətirmək seçimi yaratdı. Rusiyanı federasiya idarə formasında görmək istəməyən siyasi qüvvələr ictimai-siyasi proseslərin gedişatından nəticə çıxararaq artıq 1917-ci ilin payızında bu tələblə razılaşmaq məcburiyyətində qaldılar. Qafqaz sosial-demokratları da Qafqaz müsəlman qurultayının federasiya haqqındakı qərarını məqbul bilməmişdilər. 1917-ci ilin oktyabrında, Petroqradda çevriliş ərəfəsində RSDF(b)P-nin Qafqaz təşkilatları qurultayı milli məsələyə dair qəbul etdiyi qətnamədə Qafqaza muxtariyyət verilməsini qərarlaşdırdı. Qurultay Müvəqqəti hökumətdən Rusiyada yaşayan bütün millətlər üçün, o cümlədən Qafqaz xalqları üçün millətlərin öz müqəddəratını təyin etməsi hüququnun dərhal açıqca elan edilməsini tələb etdiyi halda, əməli baxımdan bunu məqbul görmürdü: «qurultay bildirir ki, Qafqaz millətlərinə nə ayrılmağı, nə də federativ dövlətlər yaratmağı məsləhət görmür».(3, s.154) Bolşeviklərin Rusiya millət və xalqları, o cümlədən Qafqazla bağlı planlarında təzadlı bir yanaşma olmuşdur. Proqram, bəyanat, təbliğat üçün deyilən və yazılanlar, irəli sürülən tezislər taktiki xarakter daşımış, əməli baxımdan məqsədə müvafiq bilinməmiş, tətbiqinə qarşı zor işlədilmişdir. 1917-ci ilin payızı üçün federalizm ideyası Qafqazda müsəlman, gürcü siyasi qüvvələri tərəfindən qərarlaşmış məzmunda idi. Bu ideyanı qəbul etməyən gürcü sosial-demokratları belə güzəştə getmək seçimini etdilər. Bu isə Qafqaz sosial-demokratlarının fikri demək idi. Belə ki, «Qafqasiya sosial-demokrat cərəyanını idarə edən gürcü sosial-demokratları» idi. (7, s.339) Artıq Rusiya xalqları Müəssislər Məclisini gözləmədən öz müqəddəratlarını müəyyənləşdirmək yolunu tutmuşdular. Müəssislər Məclisini gözləmədən nəinki millətlər, o cümlədən siyasi qüvvələr öz seçimini edirdi. Bolşeviklər daha «çevik» tərpənərək Rusiya dövlətçiliyinin və xalqının müqəddəratını müəyyən etmək missiyasını üzərlərinə götürdülər. Mərkəzdə olduğu kimi ucqarlarda da eyni taktika ilə hərəkət edirdilər. Qafqazın etnik və dini müxtəlifliyi, ənənələrə bağlı mühiti, xüsusən müsəlman həyat tərzi diqqətə alınmırdı, ciddi önəm verilmirdi. Fevral inqilabından sonra Bakı rayonu Fəhlə deputatları Sovetinin İcraiyyə Komitəsi «öz fəaliyyətini Petroqrad fəhlə deputatları Sovetinin və bütün Rusiya mütəşəkkil proletariatının fəaliyyəti ilə qəti uyğunlaşdırmaq

niyyətində» olduğunu bəyan etmişdi. (3, s.10) RSDF(b)P Bakı təşkilatı da 1917-ci ilin aprelində qəbul etdiyi qətnamədə fəhlə sinfinin «Milli dövlət mövqeyində deyil, beynəlmiləl-sinfi mövqedə» durduğunu təsbit etmişdi. (3, s.14)

Partiya ierarxiyasının mövcudluğu bolşeviklərin Rusiya məkanını vahid dövlət ərazisi kimi görməsinin başlıca təminatçısı sayılmalıdır. Bu baxımdan Qafqaz da istisna təşkil etmirdi. RSDF(b)P-nin Bakı komitəsi təbii ki, bu qurumun Bakıda, Qafqazda siyasətinin icraçısı idi. Maliyyə, kadr, ədəbiyyat dəstəyi göstərməyi də ümumi siyasətə xidmət edirdi. 1917-ci il mayın 29-da Bakı bolşeviklərinin orqanının nəşri üçün RSDF(b)P Mərkəzi Komitəsi 2000 manat vermişdi. (9,33) «Hümmət» təşkilatının Rusiya ictimaiyun-amiyun fəhlə firqəsinə – RSDF(b)P-na daxil olması Qafqaz müsəlmanlarının müqəddəratı baxımından təsiredici amil oldu. Bir tərəfdən müsəlman əhalini sosial baza kimi öz tərəfinə çəkmək istəyən bolşeviklər üçün zəmin yaradırdısa, digər tərəfdən Qafqazda məhəlli-muxtariyyət ideyasına, xüsusən Azərbaycan muxtariyyəti hərəkatına zərbə vururdu. Bu təşkilatın 1917-ci ildə yenidən «Hümmət» adı altında fəaliyyətini lazımlı edən səbəbləri bolşevik P.A.Caparidze RSDF(b)P-nin VI qurultayında şərh etmişdir: «Bu təşkilat «Hümmət» adlanır, lakin güman etməyin ki, partiyamızda ikinci «Bund» yaranmışdır…. inqilabdan sonra guya ümumi milli təşkilat olan «müsəlman təşkilatları Şurası» adlı müsəlman-millətçi təşkilatı ortaya çıxmışdır. Bu təşkilata qarşı mübarizə aparmaq məqsədilə və bir sıra başqa səbəblər üzündən biz köhnə adı saxlamağı qərara aldıq. «Hümmət» qəzet nəşr edir, müsəlmanlar arasında təşviqat və təbliğat aparır… «Hümmət» ona bəslənilən etimadı doğruldacaq və müsəlman fəhlələrinin sinfi mənlik şüurunu yüksəltmək və onları Rusiyanın inqilabçı proletariatı ilə birləşdirmək işinə fədakarlıqla xidmət edəcəkdir». (3, s. 82) Beləliklə, «Hümmət» təşkilatının yaradılmasının, köhnə adın saxlanılmasının əsl mətləbi məşhur bolşevik tərəfindən ən yüksək kürsüdə etiraf olunmuşdur. «Hümmət» təşkilatı «Müsəlman təşkilatları şurası»na qarşı uzun müddət mübarizə aparmağı belə lüzumsuz saymış, Volqaboyu müsəlmanlarının «Birlik» təşkilatı ilə birlikdə 1917-ci il sentyabrın əvvəllərində «Müsəlman ictimai təşkilatlar komitəsini ləğv etmək haqqında» rəyə gəlmişdilər. (3,s.124)

Bolşeviklərin Qafqazın müqəddəratı ilə bağlı qərar vermək səlahiyyəti Qafqaz bolşevikləri qurultayı səviyyəsində həyata keçirildi. Qafqaz bolşeviklərinin Fevral inqilabından sonra keçirilmiş birinci qurultayı olduğundan RSDF(b)P Qafqaz ölkə qurultayı kimi gözləntilər böyük idi. Qurultay 1917-ci il oktyabrın 2-dən 7-dək Tiflis şəhərində olmuşdur. Qurultayın sonuncu günü, oktyabrın 7-də bir sıra qətnamələr qəbul edilmişdir. Elə həmin gün Bakı Sovetinə Petroqrad və Moskva fəhlə və əsgər deputatları sovetlərindən göndərilən teleqramlarda oktyabrın 20-nə təyin edilmiş II Ümumrusiya Sovetlər qurultayına nümayəndələrin dərhal göndərilməsi təklif olunurdu. (3, s.151) Bu qurultayla bağlı RSDF(b)P I Qafqaz ölkə qurultayında qəbul edilmiş qətnamədə deyilirdi: «Bu qurultay bütün dövlət hakimiyyətini öz

əlinə almalı, özünü inqilabi konvent elan etməli və inqilabın əsas tələblərini dərhal həyata keçirməyə başlamalıdır». (3, s.152) Deməli, 18 gündən sonra Petroqradda baş verəcək dövlət çevrilişi, yəni bolşeviklərin hakimiyyəti ələ keçirməsi artıq aşağı partiya qurumlarına bəlli, onlar tərəfindən belə qərarlaşdırılmış bir akt idi. Bütün hakimiyyət planlaşdırması ilə yanaşı I Qafqaz ölkə qurultayı «Müəssislər məclisinə seçkilər üçün ən ciddi iş aparmağa» çağırırdı. Qafqaz bolşevikləri hələ oktyabrın 7-də təşkilat məsələsinə dair qətnamədə regionun partiya xətti ilə idarəçiliyi strukturunu müəyyənləşdirmişdilər. Ölkə komitəsi də Tiflis şəhərində yerləşməli idi. Qurultayın milli məsələyə dair qəbul etdiyi xüsusi qətnamədə Qafqaz üçün muxtariyyət tələbi irəli sürülmüşdü. Bu qətnamə Qafqazın siyasi müqəddəratı ilə bağlı bolşevik partiyasının hakimiyyət öncəsi proqramı hesab edilə bilər: «Qafqaz daxilində yeni inzibati-təsərrüfat vahidləri müəyyən etməklə geniş yerli özünü idarə yaradılmalı... bu, vahidlər, mümkün qədər, milli tərkibinə görə yekcins olan rayonlardan ibarət əhalisinin arzusuna müvafiq olmalıdır». Qurultayın milli məsələyə dair qətnaməsi Qafqazın müqəddəratı baxımından bolşevik proqramının hüquqi məzmunlu sənədi idi. 6 bənddən ibarət qətnamə bolşeviklərin Qafqazın inzibati statusunu, Qafqaz millətlərinin müqəddəratını müəyyənləşdirdiyi qərar hesab edilə bilər. Tələb olaraq irəli sürülmüş müddəalar Müvəqqəti hökumətə ünvanlansa da sovet hakimiyyətinin Qafqaz üzrə həyata keçirəcəyi kurs kimi qəbul edilə bilər. Nəzərə alınsa ki, qurultaya rəhbərlik etmiş S.Şaumyan həm də Bakı fəhlə deputatları Sovetinin sədri idi və Oktyabr çevrilişindən az sonra, dekabrda RSFSR Xalq Komissarları Soveti (XKS) tərəfindən Qafqaz işləri üzrə Fövqəladə Komissar təyin edilmişdi, deməli qəbul etdiyi qətnaməni də reallaşdırmaq səlahiyyətlərinə malik idi. Təbii ki, nəzərdə tutulmuş müddəaları Şaumyan Qafqazda sovet hakimiyyəti bərqərar olduqda gerçəkləşdirə bilərdi. Buna müyəssər olmasa da, Bakı Xalq Komissarları Sovetinin sədri kimi fəaliyyət rayonunda geniş səlahiyyətlərə sahib olmuşdu. İstər bu statusda, istərsə də Bakı Sovetinin sədri, yaxud Qafqaz işləri üzrə Fövqəladə Komissar kimi Şaumyanın fəaliyyətində milli məsələyə dair qəbul edilmiş qətnamənin şərtləri diqqətdə saxlanıldımı, hansısa bəndlər reallaşdımı? Bir də nəzərə alınmalıdır ki, qurultayın qəbul etdiyi qətnamə Şaumyanın şəxsi təşəbbüsü və iradəsi ilə deyil, RSDF(b)P proqramı və Aprel konfransının qətnaməsi əsas götürülərək qəbul edilmişdir. Bu baxımdan Qafqaza muxtariyyət vermək tələbli birinci bənd qənaət təsdiqləyicidir. Məhz Qafqaza muxtariyyət verməyin əleyhinə olduğu üçün Lenin Şaumyanı tənbehləmişdi.

Qurultay qətnaməsinin 3-cü bəndi isə bolşevik bəyannamələrinin, şüarlarının həm də göstərici xarakter daşıdığına nümunədir. (3, s.154) Bolşeviklər «bütün millətlərin öz müqəddəratını təyin etməsi, hətta ayrılıb ayrıca dövlət qurması hüququnu təsdiq» etdiyi, o cümlədən Qafqaz xalqları üçün bu hüququn dərhal açıqca elan edilməsini Müvəqqəti hökumətdən tələb etdiyi halda «Qafqaz millətlərinə nə ayrılmağı, nə də federativ dövlətlər yaratmağı məsləhət görmür»dü. (3, s.154) Yəni

hüququ tanımaq hələ onu təmin etmək anlamı daşımırdı. Hətta bu hüququ tələb edən müsəlman siyasi qüvvələrinə qarşı amansız mübarizə aparılırdı. Belə mövqe «biz milliyyət fərqi qoymayaraq, Qafqazın bütün demokratiyasını ən sıx bir surətdə yaxınlaşıb birləşməyə çağırırıq» deyən Qafqaz bolşeviklərinəmi məxsus idi, yoxsa mərkəzi bolşevik elitasının nəzəri və əməli fəaliyyətindən qaynaqlanırdı?

Bolşeviklər Petroqradda hakimiyyəti ələ aldıqdan az sonra Leninin imzası ilə «Rusiya xalqlarının hüquq bəyannaməsi» dərc edildi. Xalq Komissarları Sovetinin xüsusi müraciətlərindən biri «Rusiya və Şərqin bütün zəhmətkeş müsəlmanlarına» (1917-ci il 20 noyabr) ünvanlandı: «Bu gündən sizin dininiz və adətləriniz, sizin milli və mədəni təsisatlarınız azad və toxunulmazdır. Öz milli həyatınızı azad və mümaniətsiz qurun. Sizin buna haqqınız vardır». (3, s.199) Sovet hökumətinin beşiyində və başında durmuş iki şəxsin - V.Leninin və İ.Stalinin imzaladığı bu müraciətdə Rusiya müsəlmanlarının hüquqlarının «inqilab və onun orqanları, fəhlə, əsgər və kəndli deputatları sovetləri» tərəfindən «var qüvvə» ilə qorunduğu bildirilirdi. Xalqların öz müqəddəratlarını azad şəkildə müəyyən etmək hüququ rəsmi şəkildə bəyan edildikdən bir qədər keçmiş, 1918-ci ilin yanvarında V.Lenin «Zəhmətkeş və istismar olunan xalqın hüquq bəyannaməsi»ni yazdı.

Verilən hüquqların icrasız qalması, tətbiqinə yol verilməməsi, qarşıdurulması bolşevik hakimiyyətinin təbiətini səciyyələndirir. Başqırd xalqının görkəmli xadimi Zəki Vəlidi Toğanın 1923-cü ildə V.Leninə məktubunda Rusiya müsəlmanlarının hüquqları ilə bağlı xatırlatdığı müraciət və razılıqları Leninin sonradan «kağız parçası» adlandırması və əvvəlki vədlərin yerinə yetirilməməsi bolşevik sosial-demokratların platformasında dayanmış müsəlman siyasətçilərinin simasında həmin xalqların da faciəsi oldu. Çar hökumətinin, Müvəqqəti hökumətin bağladığı gizli müqavilələrin «yırtılıb məhv edildiyini» dönə-dönə vurğulayan bolşevik hökuməti Rusiya və Şərq müsəlmanlarına «Siz özünüz öz ölkənizin sahibi olmalısınız! Siz özünüz öz həyatınızı istədiyiniz kimi qurmalısınız. Sizin buna haqqınız vardır, çünki sizin öz müqəddəratınız öz əlinizdədir…» deyərkən (3, s.200) sonradan asanlıqla imtina ediləcək bir bəyanatı imzalamış olurdu. Hakimiyyətə yeni sahiblənmiş bolşevik hökumətinin diplomatik manevrlər etməyi əsassız deyildi. Bəhs edilən müraciətdə göstərilən kimi, Rusiya müsəlmanlarından, Şərq müsəlmanlarından «rəğbət və kömək» gözləyirdi. Belə müraciətlərə yüzlərlə bolşevik müsəlman, o cümlədən Qafqaz müsəlman sosial-demokratları inanırdı. Həmin müraciəti «Hümmət» qəzetində dərc edən «sosializm idealının tək bir xəyal» olmadığına qəlbən inanan N.Nərimanov 1918-ci ilin yazında, sovet hakimiyyətinin Bakıda ilk təcrübəsindən təəssüflənərkən, 1920-ci ilin iyunundan başlayaraq ömrünün sonunadək V.Leninə, İ.Stalinə, partiya Mərkəzi Komitəsinə yazdığı məktublarda məhz bolşevik liderinin söylədiklərinə, yazdıqlarına istinad edərək doğruluq, dürüstlük, verilmiş vədlərin yerinə yetirilməsini tələb etmişdir. İmzaladığı müqaviləni «kağız parçası» adlandırıb asanlıqla imtina etməyi bacaran

Leninin şifahi vədlərinə sadiq qalacağı güman edilirdi: «..məgər «Müstəqil Azərbaycan» Sizin dilinizdən çıxmamışdırmı?». (10) V.Lenin öz kadrlarına da «diplomatiya məktəbinin» incəliklərindən faydalanmağı tövsiyə edirdi. Qafqaza komisssar təyin etdiyi Şaumyana da bu məqsədlə «çox ehtiyatlı bir diplomatiya» yürütməyi tapşırırdı. Şaumyanın nə dərəcədə diplomatik davrandığı, etdiyi çıxışlar, verdiyi bəyanatlarla əməli fəaliyyəti arasında uyğunluq səviyyəsi real olaraq 1917-ci ilin oktyabrından etibarən müqayisə oluna bilər. Məhz hakimiyyətə gəldikdən sonra siyasətinin idarəetmə tərzi, məzmunu onun düşüncələrinin, fikirlərinin ifadə mahiyyətini əks etdirə bilir. Bu mənada Oktyabr çevrilişi ərəfəsində RSDF(b)P I Qafqaz ölkə qurultayının qətnamələri, xüsusən də milli məsələyə dair qətnamə Şaumyanın idarəçiliyində bolşevik kursunun nəzəri platformasını təşkil edir. Qafqaz millətlərinə muxtariyyət vermək niyyətinin olmadığı birmənalı öz əksini tapmış, maarif işi, dövlət dili məsələlərində «bütün vətəndaşların bərabər hüquqlu olduqları» təsdiqlənirdi. Qətnamənin sonuncu bəndi mahiyyətinə görə sırf regionla əlaqədar, amma yanaşma tərzinə görə spesifik məzmundadır. Rusiya imperiyası hüdudlarına yaxın, rus qoşunları tərəfindən tutulmuş ərazilərlə bağlı müddəa ikili məzmunda qiymətləndirilə bilər. Bolşevik hökuməti Rusiya imperiyasının İranı bölüşdürmək, Türkiyəyə iddialı müqavilələri, tələbləri rədd etdiyi halda, mütləqiyyət zamanında rus qoşunlarının tutduğu torpaqlarda mövqeyini – nüfuzunu saxlamağa çalışırdı. Bəhs edilən üç ərazi – Türkiyə Ermənistanı, Lazistan, İran Azərbaycanı içərisində yalnız birincisi ilə bağlı sovet hökuməti həssas münasibət göstərmiş, konkret addımlar atmışdır. Qafqaza bitişik bu ərazilərlə bağlı eyni tələb qoyulsa da yalnız «Türkiyə Ermənistanı» üçün xüsusi dekret verilmişdi.

Petroqradda üsyanın qələbə xəbərini alan Bakı bolşevikləri ertəsi günü, oktyabrın 27-də Bakı Sovetinin geniş iclasında Rusiyanın yeni hökumətinə – Xalq Komissarları Sovetinə tərəfdar olmağı, bütün hakimiyyətin Bakı Sovetinə keçməsini tələb etdilər. Lakin, eser, menşevik, daşnak partiyaları bloku bu tələbə qarşı olan qətnaməni qəbul etdirdilər. Noyabrın 2-də Bakıda Sovet hakimiyyətinin müqəddəratı həll olundu. Petroqradda edildiyi kimi, Bakı fəhlə və əsgər deputatları Geniş Soveti rayon mədən-zavod komissiyaları, polk, rota, gəmi komitələrinin və başqa komitələrin nümayəndələrinin iştirakı ilə konfrans keçirərək Sovetin İcraiyyə Komitəsini Bakı şəhərində ali hakimiyyət orqanı elan etdi. Əvvəlki iclasda olduğu kimi menşeviklər, sağ eserlər və daşnaklar bolşeviklərə etibar etmədikləri haqqında bəyanat verərək yığıncağı nümayişkaranə tərk etmişdilər. İclasda qalanlar yığıncağı qanuni hesab etmişdi. «Geniş Sovet konfransı» mexanizmi ilə işləməyi əlverişli və səmərəli sayan Bakı bolşevikləri noyabrın 12-də «İctimai təhlükəsizlik Komitəsi»nin ləğvi haqqında qərara nail oldular. Eyni zamanda ictimai təşkilatların icraiyyə komitəsinin «qəti surətdə» buraxılması tələb olunurdu. Bu komitənin ləğv olunduğu haqqında Bakı Soveti İcraiyyə Komitəsi bir gün sonra, noyabrın 13-də elan və bu haqda bütün idarələrə xəbər verilməsini qərara aldı. (3, s.196) Məhz bu tələblə də ictimai

təşkilatların icraiyyə komitəsi noyabrın 17-də özünün ləğvi haqqında qərar çıxartdı.

1917-ci ilin payızında bir neçə səviyyədə – Bakı şəhər Dumasına, Bakı fəhlə və əsgər deputatları Sovetinə, Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə «Azərbaycan muxtariyyəti» ideyasının carçısı – «Müsavat» partiyasının, Azərbaycan milli hərəkatı nümayəndələrinin üstün nəticələr əldə etməsi sosialist yönümlü partiyaları, həmçinin erməni siyasi qüvvələrini narahat etməyə başladı. «Müsavat» partiyasına ciddi önəm verməyən siyasi qüvvələr üzləşdikləri seçki göstəricilərindən nəticə çıxararaq sonrakı fəaliyyətlərində və qüvvələr nisbətini müəyyənləşdirərkən diqqətə aldılar. Əslində Sovetə etibarsız ünsür kimi çoxsaylı müsəlmanın keçməsinin qarşısını almaq üçün Bakı Sovetinə yeni seçkilər keçirildi. Bolşeviklər bütün qüvvələrini səfərbər edərək istədiklərinə nail oldular. Nəhayət, dəyişdirilmiş seçki qaydası əsasında bolşeviklər Bakı Sovetinə seçkilərdə səs çoxluğu əldə etdilər. «Müsavat» partiyası seçkini qeyri-demokratik hesab etsə də, Bakı Sovetinin icraiyyə komitəsinə daxil olmağa qərar vermişdi. Əsas hədəf Müəssislər Məclisi olduğundan və bolşeviklərin proqramlarından irəli gələn ilk əməli addımları təqdir etdiyindən «Müsavat» partiyası diqqəti Müəssislər Məclisinə seçkilərə yönəltmişdi. Bu münasibətlə «Açıq söz» qəzetində ardıcıl məqalələrlə edilən çıxışlarda «Millətdaşlar!» haraylanırdı: «Biz hər zaman diyoruz ki, Zaqafqasiya bizimdir. Biz burada dörd milyonuz. Zaqafqasiyanın yarısı miqdarındayız. Miqdarımıza görə həqqimizi veriniz. Sayımıza görə şanımızı gözləyiniz… ay öz yurdunda yurd sahibi olmaq istəyən azərbaycanlı türk, ay öz evində oturmaq istəyən müsəlman, tərpən, seçki günlərini qəflətlə keçirmə, gəl seçki ayağına». (7, s.401) M.-Ə.Rəsulzadə Rusiyada gedən prosesləri təhlil edərək artıq 1917-ci il noyabrın axırları üçün tezliklə «Azərbaycan Məclisi-Müəssisanını» gerçəkləşdirməyə çağırırdı. «Rusiyanın keçirməkdə olduğu halını» yalnız «Qiyamət» ifadəsi ilə tərif etməyin mümkünlüyünü yazan Rəsulzadə ölkədə mərkəzi hökumətin olmadığı səbəbindən yubanmadan Azərbaycan muxtariyyətini qurmağı vacib sayırdı: «Bundan səkkiz ay qabaq muxtariyyət siyasi böyük bir fikirdən çıxma şüar idisə, imdi artıq bir zərurətdir». (7, s.412)

Azərbaycan muxtariyyətini gerçəkləşdirmək üçün vəziyyət hər gün daha da mürəkkəbləşirdi, bütün Rusiyanı əhatə edəcək mərkəzi hakimiyyət olmasa da, Bakı rayonundan fəhlə yığıncaqları, qarnizonun əsgər, matros və kazakları Petroqrad Xalq Komissarları Sovetinin hakimiyyətini tanımağa çağıran qətnamələr qəbul edir, Zaqafqaziya komissarlığından Xalq Komissarları Sovetinin verdiyi bütun dekretləri həyata keçirməyi tələb edirdilər. Hətta Bakı Sovetinin digər qurumlarla keçirdiyi birgə iclasında «Xalq Komissarları qarşısında dərhal neft sənayesinin milliləşdirilməsi məsələsi»nin qoyulması qərara alınmışdı. Bakı Soveti, RSDF(b)P Bakı Komitəsi artıq daha ciddi qərarlar almaq iqtidarında idilər. Üstəlik, dekabrın ortalarında RSFSR Xalq Komissarları Soveti Qafqazla bağlı mühüm qərar qəbul etdi. Bakı Sovetinin sədri Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi,

Bakı Sovetinə «təcili olaraq Daxili işlər komissarlığının smetası üzrə yarım milyon (500.000) rubl buraxılması haqqında V.Lenin dövlət xəzinəsinə göstəriş verdi. İki gün sonra, dekabrın 18-də S.Şaumyanın təyinatı xüsusi dekretlə rəsmiləşdi və Qafqaz Fövqəladə komissarlığının ehtiyacları üçün 500.000 rubl göndərilməsi haqqında S.Şaumyana bildiriş ünvanlandı. Hər iki sənəd Rusiya bolşevik hakimiyyətinin Qafqazla bağlı planlarını ifadə edirdi. Qafqaz regionu RSFSR Xalq Komissarları Sovetinə tabe bölgə kimi idarə olunurdu və Rusiyanın daxili rayonu kimi nəzərdə tutulurdu. Maliyyə vəsaiti də məhz daxili işlər komissarlığının smetası üzrə ayrılmışdı. Dekabrın 16-da və 18-də imzalanmış eyni mahiyyətli sənədlər arasında fərq cüzi də olsa, diqqəti cəlb edir. Dekabrın 16-da maliyyə vəsaitinin «Kaledinlə mübarizə aparmaq üçün Bakı Sovetinə» verilməsi qərara alınmışdısa, dekabrın 18-də eyni vəsaitin «Qafqaz Fövqəladə Komissarlığının ehtiyacları üçün» göndərildiyi bildirilirdi. Təbii ki, hər iki halda 500.000 rubl eyni şəxsə, S.Şaumyana verilirdi, amma qurumlar və istifadə təyinatı arasında fərq texniki xarakter daşımırdı. Beləliklə, mərkəzləşdirmə prosesi 1917-ci ilin sonlarından Qafqazda bolşevik siyasətinin əsas hədəfinə çevrildi. Amma bu proses «Qafqazda ölkə Sovet hakimiyyətini təşkil etmək» adı ilə həyata keçirilirdi. Bu vəzifənin həvalə olunduğu şəxs yalnız RSFSR Xalq Komissarları Sovetinin komissarı (Qafqaz işləri üzrə müvəqqəti Fövqəladə Komissarı) deyildi, həmçinin RSDF(b)P Mərkəzi Komitəsinin üzvü idi. Hər iki xətlə Rusiya mərkəzi qurumlarının tabeliyində olan S.Şaumyan eyni vaxtda Bakı Sovetinin sədri idi. Bu amilin özü Bakı rayonunun müqəddəratının bolşeviklər tərəfindən həll olunduğunu göstərir.

Mərkəzi sovet hakimiyyətindən rəsmi statusu, geniş səlahiyyətləri, maliyyə dəstəyi olan Qafqaz işləri üzrə müvəqqəti Fövqəladə komissar qarşısında dayanan vəzifələri yerinə yetirmək üçün hərbi gücünü artırmaq imkanına da malik idi. Bakı Hərbi-inqilab komitəsindən əlavə, Qafqaz ordusunun Hərbi-inqilab komitəsi də Bakı şəhərində yerləşirdi. Komitənin sədri Q.Korqanov Bakıda Qırmızı Ordu hissələrinin yaradılmasında fəal iştirak etmiş, 1918-ci ilin yazında Bakı və onun rayonlarının İnqilabi müdafiə komitəsinin üzvü, Bakı Xalq Komissarları Sovetində Xalq hərbi-dəniz işləri komissarı kimi Azərbaycan milli hərəkatına qarşı mübarizə aparmış, dinc müsəlman əhalinin qətliamında iştirak etmişdir. Korqanov eyni zamanda Qafqaz Ordusu inqilabi Ölkə Sovetinin sədri idi. Belə bir hərbi-siyasi potensial 1917-ci ilin dekabrın sonlarından S.Şaumyanın sərəncamında idi.

Bu şərtlər daxilində Azərbaycan muxtariyyətini qurmaq müşkül məsələ idi. Xarici dövlətlərin regionla, konkret Bakı rayonu ilə bağlı iddialarının yarandığı bir vaxtda, «Vahid və bölünməz Rusiya» tərəfdarlarının, «Böyük Ermənistan» niyyəti ilə daşnakların Qafqazda, xüsusən də Bakıda fəal rol oynadığı bir şəraitdə Azərbaycan muxtariyyətini qurmaq geniş və vahid bir cəbhəyə savaş açmaq demək idi. Rusiyadakı yeni hakimiyyətin hamı tərəfindən qəbul olunmaması hələ əlverişli şans sayıla bilməzdi. Bolşeviklər hərbi-siyasi gücü ilə artıq Bakıda digər

siyasi qüvvələri üstələmişdi. Müsəlmanlara münasibətdə dəyərləndirmə edərək, «Nikolay və Ümumromanov Xanədanının dövründə Rusiya hökumətini», knyaz Lvov hökumətini, sonra isə Kerenski hökumətini müqayisədə «müsəlmanlara qarşı siyasətin dəyişmədiyini» göstərmiş, bolşevik hökuməti üçün qeyd etmişdir: «Bunlar müsəlmanlarla sərbəst vətəndaş dililə danışmaya başlamışlardır». (7, s.421) Məhz belə «başlanğıc»dan ümidlənərək «Müsavat» partiyası Bakı Sovetinin hakimiyyətini dəstəkləmiş, təmsilçiliyə və əməkdaşlığa razılıq vermişdi.

Azərbaycan milli siyasi qüvvələrinin bolşevik hakimiyyətinə ümidi Rusiya Məclisi-Müəssisanının qovulması ilə sona yetdi. Üsyan, çevriliş yolu ilə hakimiyyətə gəlmiş, xüsusi seçki üsulu ilə üstünlük əldə etmək vərdişi yaratmış bolşeviklərin, təkliflərini rədd etmiş bir qurumu, özü də ölkənin müqəddəratına qərar verəcək bir təsisatı zorakılıqla ləğv etməsi qeyri-adi hadisə sayılmamalıydı. «Açıq söz» qəzeti də bu məntiqlə sonrakı gedişat üçün qəti proqnoz vermişdi: «Demokratiya arasında barışıq qeyri-mümkündür. Buna görə də Rusiya yaxın bir zamanda bütün məmləkətcə tanınmış səlahiyyətdar mərkəzi bir hökumətə malik bulunamıyacaqdır… hər vilayət və millət qəti surətdə kəndi Məclisi-Müəssisanını dəvətə başlamalıdır». (7, s.423-424)

1918-ci il yanvarın sonu üçün Qafqazda bolşeviklərlə Zaqafqaziya komissarlığı arasında qarşıdurma kəskinləşmişdi. Zaqafqaziya Seyminin açılması bolşevik hakimiyyətini ciddi şəkildə təşvişə salmışdı. Artıq bolşeviklərin qarşısında ayrı-ayrı partiyalar, komitələr deyil, bütün qüvvələrini sovet hakimiyyətinə qarşı birləşdirmiş hakimiyyət qurumu dayanırdı. Seymin fəaliyyətini əngəlləmək üçün Şaumyan çoxünvanlı müraciətini bu çağırışla yekunlaşdırırdı: «Mən Qafqazın ən iri Sovetlərinə – Bakı, Tiflis, Qroznı və s. Sovetlərinə, həmçinin ölkə mərkəzlərinin qalıqlarına müraciət edib, Mərkəzi nüfuzlu Sovet hakimiyyəti yaratmaq üçün tezliklə və təxirsiz surətdə Qafqazın bütün Sovetlərinin qurultayının çağırılması təşəbbüsünü öz üzərlərinə götürməyə çağırıram». (3, s.264) Bu yolla Qafqazda legitim fəhlə-kəndli hökuməti qurub, onun «Rusiya Sovet mərkəzləri ilə və Xalq komissarları Soveti ilə birlikdə» çalışmasına nail olmaq istəyirdi. Birinci müraciətini kafi bilmədiyindən, Şaumyan Cənubi Qafqazın müsəlman kəndlilərinə xüsusi müraciət etməyi vacib saymışdı. Belə ki, müsəlman kəndlilərin «vahid müsəlmançılıq» zəminində müsəlman mülkədarları dəstəkləməsi sovet hakimiyyəti üçün ciddi təhdid sayılırdı. Əsasən müsəlman kəndliləri hesabına gerçəkləşməli olan bu proses «müsəlman həmrəyliyi cəbhəsini» dağıtmalı idi. Bu taktikanı erməni kəndlilərinə şamil etmək üçün zəmin olmadığını şərh etsə də, nəticə etibarilə «vahid erməni millətçiliyi cəbhəsi» sarsılmamış qalırdı. Bolşeviklərin «sinifdən kənar» milli həmyerli birləşmələrə qarşı mübarizə devizi əməli olaraq 1918-ci ilin yazında əsasən «müsəlman millətçiliyinə» qarşı mübarizə məzmunu daşıyırdı. Belə «əlahiddə» münasibət səbəbindən M.-Ə.Rəsulzadə 1918-ci il yanvarın 29-da «Açıq söz» qəzetində «Bizim muxtariyyətimiz və Bakı bolşevikləri» məqaləsi

ilə çıxış etmək ehtiyacı duymuşdu. Məqaləni bolşevik mətbuatının «hücumuna» cavab hesab etmək olar. Belə ki, M.-Ə.Rəsulzadə özünün Bakı fəhlə və əsgər deputatları Şurasının İcraiyyə Komitəsindəki bir nitqinin «B.Raboçi» qəzetəsinə «Müsavat» firqəsi ilə Müsəlman Milli Komitəsinə hücum üçün bir sərmayə təşkil» etdiyini yazır. (7, s.439) Əslində, bu çıxış müsəlman milli hərəkatına münasibətdə formalaşmış bolşevik fikrinin ifadəsi üçün növbəti imkan kimi istifadə olunmuşdu. Müsəlmanların milli qoşun yaratmaq istəyi belə sosialistlər tərəfindən məhz milli-dini ayrı-seçkilik düşüncəsi ilə qiymətləndirilmişdir: «İcraiyyə Komitəsinin qəzetəsi olan «İzvestiya» milli qoşun əleyhində yazarkən şayani-etina bir cümlə işlətmişdi. «Hətta türklər, onlar da milli qoşun fikrinə düşdülər», nə qədər ki, «bu hətta türklər» zeyniyyəti İcra Komitəsində hökmfərmadır – quberniyadakı iğtişaşları yatırmaq üçün alınacaq tədbirlərə lazım olan ümumi dil tapmaq çətin olacaq». (7, s.440) «Ermənilərlə gürcülər milli qoşun düzəltdikdə heç olmazsa dəlilləri var ki, Qafqasiya cəbhəsini müdafiə edəcəklərdir. Sizdən ötrü ki, böylə bir bəhanə yoxdur» müddəasına cavabında M.-Ə.Rəsulzadə müsəlman quberniyalarının iğtişaş içində olduğunu göstərərək bildirmişdir: «Müsəlman polklarının təsisi müsəlman topraqlarındakı iğtişaşın qabağını saxlamaq üçün təşkil olunuyor. Əgər siz təmin edə bilsəniz ki, əlinizdəki beynəlmiləl qüvvətlərlə bu asayişi təmin edərsəniz, o zaman varsın müsəlmanlar qüvvə tədarük etməsinlər». (7, s.440) Bolşeviklər «beynəlmiləl qüvvətlərlə» asayişi təmin etməyin ən bariz nümunəsini bir ay sonra, 1918-ci ilin martından etibarən dinc müsəlman əhaliyə qarşı törətdikləri kütləvi və amansız qırğınlarla göstərdilər. Yəqin ki, vaxt seçimində, bütün amillərlə yanaşı, sol eser Suxartsevin mülahizəsindəki variant da diqqətə alınıbdır: «Vəqtdir ki, müsəlman təşkilatlarilə qəti bir dil ilə danışaq… Bir azdan Hacıtərxan yolu açılar, o zaman intiqam almaq asandır». (7, s.439) Müsəlman təşkilatlarından öz haqqını tələb etməyinin, muxtariyyət istəməyinin intiqamı alınırdı. Belə münasibətin qarşılığında M.-Ə.Rəsulzadə «durbin siyasilər» adlandırdığı bolşevikləri nəyəsə inandırmağın mümkün olmadığını yazırdı: «Görünüyor ki, bu durbin siyasiləri «Müsavat»ın inqilabdan yalnız muxtariyyət degil, topraqların bilaəvəz kəndlilərə keçməsi, səkkiz saətlik iş günü və əmələlərin dövlət hesabına sığorta olunması və ələlümum bütün həyati-siyasiyyə və ictimaiyyənin demokratik əsaslar üzərinə qurulmasını gözləməkdə olduğuna da heç bir vəchlə inandırmaq olamaz». (7, s.441) «Müsavat» partiyası M.-Ə.Rəsulzadənin simasında artıq bolşeviklərin Azərbaycan muxtariyyətinin gerçəkləşməsinə razı olacaqlarını güman etmirdi. Bununla belə bolşeviklərlə siyasi polemikada məntiqi sorğu-sual etməyi də lüzumsuz saymırdı: «Əcəba, nərədə qaldı bolşeviklərin bütün dünya qarşısında elədikləri elan ki, «dərəceyi-mədəniyyətlərinə baxmayaraq bütün dünya millətlərinin muxtariyyət və istiqlal həqləri vardır» - dediniz… Qafqasiya millətləri bu vədələrin nəticəsini gözlədilər, müsəlmanlar da gözlədilər. Fəqət nəticədə tamamilə başqa bir şey çıxıyor: Türkiyə Ermənistanı muxtariyyət dekretinə (fərman) nail oluyor. Ermənilər

«Daşnaksütyun» firqəsi tərəfindən təyid olunan böyük amallarına yaxınlaşıyorlar. Qafqasiya türklərinə gəlincə, Bakı bolşevikləri diyorlar ki: «siz inqilabçı bir millət olmadığınız üçün heç növlə muxtariyyət alamazsınız. Qoy «Müsavat» firqəsi də bu xüsusda artıq çalışmasın. Çünki Qafqasiya muxtariyyətinə nə Rusiya demokratiyası, nə də Rusiya burjuaziyası razı ola bilər». (7, s.442) Bu reallığı M.-Ə. Rəsulzadə "Türkiyə Ermənistanı" haqqındakı dekretə işarə edərək siyasi istehza ilə səciyyələndirmişdir: «Fəqət bununla bərabər biz həqliyiz gözləyək başqa bir Lenini ki, o da Qafqasiya müsəlmanlarının muxtariyyətinə aid bir «dekret» (fərman) çıxarsın». (7, s.442)

Rusiyada baş verən proseslər, Qafqazda, xüsusən də Bakıda bolşeviklərin davranışı müsəlman milli siyasətçilərini təşvişə salırdı, yeni hakimiyyətin öz vədlərinə sadiq qalmamaları, bəyanatları ilə əməlləri arasında ziddiyyətləri müsavatçılara yenidən əsarət altına düşmək təhlükəsini yaşadırdı: «Rusiya millətlərinin həqqi-muxtariyyətləri o demək degildir ki, Rusiya millətləri velikorus dvoryanlarının keyfindən qurtarıb velikorus əmələlərinin keyfinə tabe olsunlar». (7, s.442) Beləliklə, 1918-ci ilin fevralı üçün müsavatçılarla bolşeviklər arasında yollar nəinki ayrılmış, artıq qarşı-qarşıya gəlmişdi. Bu siyasi qüvvələrin məramnamə baxımından uyğunluğu olsa da, əməli baxımdan yolları heç üst-üstə düşmədi. Cəbhənin bir tərəfində məhəlli müxtariyyət istəyən müsavatçılar (Türk ədəmi-mərkəziyyətçilər), digər tərəfində M.-Ə.Rəsulzadənin «bizim bolşeviklər» adlandırdığı Bakı bolşevikləri görünsə də, əslində Mərkəzi bolşevik hakimiyyəti, yəni Sovet Rusiyası dayanmışdı. Qüvvələr nisbəti xüsusi araşdırma aparmadan bəlli olur.

Qafqazla bağlı, Qafqaz müsəlmanlarının müqəddəratı ilə bağlı siyasi qüvvələrin mövqeyi konkretləşdikcə yaranmış mənzərədə muxtariyyət tələbli müsəlman siyasətçilər də fəaliyyətlərini qətiləşdirmiş oldular. Bolşeviklərin düşüncəsinə görə, «Müsavat» partiyasının muxtariyyət məqsədli siyasəti və fəaliyyəti Qafqazı xarabazara döndərə bilərdi, lakin «bütün Qafqasiya demokratiyasının əlbirliğilə bu bədbəxtliği saxlamaq olarmış. Nəzərə alınsa ki, bolşeviklər müsəlman əhalini «daha Rusiya inqilabına təmas etməmiş» hesab edirdilər, onda Rəsulzadənin qənaəti məntiqidir ki, «Qafqasiya demokratiyasının əlbirligində» müsəlman hissəsi «çox az təsəvvür olunuyor»du. Tezliklə hər iki tərəfin proqnozu özünü doğrultdu: müsəlman torpaqları xarabazarlığa çevrildi, amma bolşeviklərin rəhbərliyi altında «Qafqaz demokratiyasının əlbirliyilə» və bu koalisiyada müsəlman demokratiyasının çox cüzi bir hissəsi iştirak edirdi. «Müsavat» partiyası «Azərbaycan muxtariyyəti»ni gerçəkləşdirmək əzmindən geri çəkilmək fikrində deyildi, hətta bu muxtariyyət xarabazarlar qiymətinə alınsa belə: «Bəlkə də müqəddərdir ki, biz muxtariyyətimizi xarabəzarlar qiymətinə alalım. Müqəddərati – tarixiyyədən əlbəttə ki, boyun qaçırmaq olmaz». (7, s.442)

Azərbaycan xalqı «xarabazarlar qiymətinə» yalnız Bakıya qovuşmadı, yalnız müsəlman Şərqində, türk dünyasında ilk respublikanı qurmadı, Rusiya federativ

respublikası Sovetlər respublikası olsa belə tərkibində muxtariyyət istəyi rədd edilsə də, müstəqil Cümhuriyyəti devrildikdən sonra belə, Rusiya ilə (RSFSR) müttəfiq Azərbaycan İctimai Şura Cümhuriyyəti kimi 70 il Sovetlər İttifaqında yer aldı və 1991-ci ildə yenidən istiqlaliyyətinə nail oldu.

İstifadə olunmuş ədəbiyyatın siyahısı:

1. Adıgözəlova A.P. Fevral inqilabından sonra Şimalı Azərbaycanda idarəçilik sistemi, Bakı, 2017
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi
3. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, Bakı, 1960
4. Əhmədova F., Rusya'nın "Türkiye Ermenistan'ı" Politikası (1917-1920), İstanbul, Yeni Türkiyə 60/2014
5. Əhmədova F., Qafqaz işləri üzrə müvəqqəti fövdəladə komissar/AXC ensiklopediyası, B., 2014
6. Lenin V.İ. Əsərlərinin tam külliyyatı, Moskva, 1977
7. Rəsulzadə M.Ə. Əsərləri, IV cild, Bakı, Qanun nəşriyyatı, 2013
8. Большевистское руководство.Переписка. 1912-1927 гг. М.: РОССПЭН, 1996
9. КПСС в резолюциях и решениях съездов, конференций и пленумов ЦК, ч. I, М., 1953
10. Нариманов Н., Избранные произведения, Баку, 1988
11. Rusiya dövlət sosial-siyasi tarix arxivi (RDSSTA)

Firdovsiyya Ahmadova

The Caucasian policy of bolshevian power and Azerbaijan

Summary

Keywords: *autonomy, Caucasus, muslims, bolshevik, power, Azerbaijan, party, Russia, nation*

The future of the Caucasus was defined as part of Russia, both from the point of view of subordination through the party line, and from the position of the Soviets on the fate of Russia. The presence of the party hierarchy was considered the main guarantor of the Bolsheviks, who viewed the Russian space as a single state territory.The Bolsheviks of Russia demonstrated a more radical position than the federalists, but the Bolsheviks had disagreements over the administrative rule of the Caucasus. The Commissioner for Caucasus Affairs was dissatisfied with the granting of autonomy, although the central government was in favor of granting

autonomy to the Caucasus. The demand of the national forces to define Azerbaijan as an autonomous entity of the Russian Federation was interrupted by the Bolshevik program of the Caucasus. The Caucasian policy of Shaumyan not only inflicted a blow to Soviet power, socialist ideas, gave a different direction to the destiny of the region, and two years later determined the choice of the advancement of Soviet power by bayonets of the Red Army. The hope of the national political forces of Azerbaijan for the Bolshevik government ended with the abolition of the Russian Constituent Assembly. The processes taking place in Russia, the behavior of the Bolsheviks in the Caucasus, especially in Baku, alarmed Muslim national politicians. Failure to respect the commitment of the new government to its promises and the contradictions between statements and actions forced Musavatists to re-feel the threat of falling under Russia's dependence.

Фирдовсия Ахмедова
Кавказская политика большевистской власти и Азербайджан
Резюме

Ключевые слова: *автономия, Кавказ, мусульмане, большевик, власть, Азербайджан, партия, Россия, нация*

Будущее Кавказа определялось в составе России, как с точки зрения подчинения по партийной линии, так и с позиций Советов по судьбе России. Присутствие партийной иерархии считалось главным гарантом большевиков, рассматривающих российское пространство как единую государственную территорию. Большевики России продемонстрировали более радикальную позицию, чем федералисты, однако у большевиков были разногласия в отношении административного правления Кавказа. Комиссар по делам Кавказа был недоволен предоставлением автономии, хотя центральное правительство выступало за предоставление автономии Кавказу. Требование национальных сил определить Азербайджана как автономный субъект Российской Федерации было прервано большевистской программой Кавказа. Кавказская политика Шаумяна не только наносила удар советской власти, социалистическим идеям, дала иное направление судьбе региона, и через два года определило выбор продвижению советской власти штыками Красной Армии. Надежда национальных политических сил Азербайджана на большевистское правительство закончилась с упразднением Российского Учредительного Собрания. Процессы, происходящие в России, поведение большевиков на Кавказе, особенно в Баку, встревожило мусульманских национальных политиков. Несоблюдение приверженности нового правительства своим обещаниям и противоречия между заявлениями и действиями заставило мусаватистов заново почувствовать угрозу попасть под зависимость России.

Gülşən Hüseynova

Müasir dövrdə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında elm və təhsil sahəsində qarşlıqlı əlaqələrin inkişafı

Açar sözlər: *Azərbaycan Respublikası, Özbəkistan Respublikası, müstəqillik, elm, təhsil, qarşılıqlı əlaqələr*

UOT 94 (479.24)

Azərbaycan – Özbəkistan strateji tərəfdaşlığı Ümummilli lider Heydər Əliyevin layiqli varisi, onun strateji kursunun yeni zamanın şərtlərinə uyğun surətdə uğurlu davamçısı prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilmişdir. Məhz İlham Əliyev cənabları qarşılıqlı münasibətlərin digər aspektləri ilə yanaşı mədəni-humanitar sahədə də ölkələrimiz arasındakı əməkdaşlığın forma və məzmununu daha da zənginləşdirən, onu keyfiyyətcə yeni səviyyəyə qaldıran addımların atılmasının təşəbbüsçüsü olmuşdu.

2004-cü ilin martın 23-24-də baş tutmuş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana ilk dövlət səfəri çərçivəsində Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əlaqələrin inkişaf perspektivləri, Cənubi Qafqazda və Orta Asiyada təhlükəsizlik, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq barədə, habelə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, bu zaman iqtisadi əməkdaşlığın inkişafına, habelə humanitar və mədəni əlaqələrin genişləndirilməsinə böyük diqqət yetirilmişdi. Martın 23-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamə də hərtərəfli əməkdaşlıq və bir-birinin maraqlarına hörmət əsasında çoxtərəfli əlaqələrin inkişafı məramından doğmuşdu (12, s. 1535-1538). Sözügedən sənəd iki ölkə arasında əməkdaşlığın prioritet istiqamətləri sırasında "elmi-texniki, humanitar, mədəni" sahələr də göstərilir, bu sahələrdə qarşılıqlı əlaqələrə yeni keyfiyyət verilməsi bir vəzifə olaraq irəli sürülürdü. Bu zaman tərəflər ö üzərilərinə humanitar və informasiya əməkdaşlığının genişləndirilməsinə və təkmilləşdirilməsinə, mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə

kömək edəcəklərinə dair təəhhüdlər götürürdülər. Bununla əlaqədar tələbə və şagirdlərin təhsili, mütəxəssislərin hazırlanması və ixtisasartırılması üzrə birgə proqramların işlənib hazırlanması, təhsil proqramlarının mübadiləsi, Azərbaycan və özbək dillərinin öyrənilməsinə və ədəbiyyatının yayılmasına, habelə ziyalılar, elm, ədəbiyyat və incəsənət xadimləri arasında təmasların inkişaf etdirilməsi, Daşkənddə Azərbaycan Mədəniyyət Mərkəzinin və Bakıda Azərbaycan-Özbəkistan Dostluğu Cəmiyyətinin səmərəli fəaliyyəti üçün lazımi şərait yaradılması və s. vəzifələrin həyata keçirilməsi nəzərdə tutulurdu.

Səfər zamanı İ. Əliyev Azərbaycanın Özbəkistandakı Səfirliyinin yeni binasının, Daşkənd Pedaqoji Universitetinin qarşısında, 1947-ci ildən adını daşıdığı ulu Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin, habelə iki ölkə arasında mədəni, elm və təhsil əlaqələrinin sonrakı illərdə inkişafına böyük töhfələr vermiş və verməkdə olan Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı mərasimlərində nitq ilə çıxış etmişdi. Bu çıxışların ana tezisini dərin tarixi köklərə malik olan Azərbaycan-özbək mədəni əlaqələrinin keyfiyyətcə yeni səviyyəyə çıxarmaq ideyası təşkil edirdi (Bu səfər haqqında ətraflı məlumat üçün bax: 32, s.205-248).

Səfər gedişində digər sənədlərlə yanaşı, "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Saziş də imzalanmışdı (13, s. 1560-1563). Bu sənədlə elmi-texniki əməkdaşlığın hər iki dövlətin nazirlikləri, idarələri, elmlər akademiyaları, milli elmi mərkəzləri, elm-istehsalat mərkəzləri, elmi tədqiqat institutları, ali təhsil ocaqları, firmaları, habelə ayrı-ayrı alimləri və mütəxəssisləri arasındakı ayrı-ayrı müqavilələr əsasında, səlahiyyətləri çərçivəsində və dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəyi təsbit olunurdu. Bu zaman sözügedən saziş çərçivəsində əməkdaşlığı və ümumi rəhbərliyi əlaqələndirən səlahiyyətli orqanı kimi Azərbaycan tərəfindən Milli Elmlər Akademiyası, Özbəkistan tərəfindən Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Elm və Texnologiyalar Mərkəzi çıxış edirdi. Ölkələrimiz arasında əməkdaşlığın aşağıdakı formaları nəzərdə tutulmuşdu: elmtutumlu və ehtiyat-qənaətedici texnologiyaların yaradılması və istifadə olunması üzrə birgə elmi və elmi tədqiqat proqram və layihələrinin həyata keçirilməsi; yeni texnologiyaların yaradılmasını təmin edən birgə elmi kollektivlərin, laboratoriyaların, həmçinin innovasiya firmaları və təşkilatlarının formalaşdırılması; çöl şəraitində birgə tədqiqatlar və ekspedisiyalar daxil olmaqla, Tərəflərin dövlətlərinin əməkdaşlıq edən təşkilatları, ali məktəb, arxiv, kitabxana və muzeylərində elmi işlər; elmi-texniki informasiya, sənədlər, ədəbiyyat və biblioqrafik nəşrlərin mübadiləsi; birgə seminar, elmi konfrans və işgüzar görüşlərin keçirilməsi; alim və mütəxəssislərin mübadiləsi; alim və mütəxəssislərin ixtisasının artırılması, iş təcrübəsinin təşkili; elmi və elmi-texniki proqram və layihələrin ekspertizasının keçirilməsi. Göründüyü kimi, sözügedən saziş 1996-cı ilin mayın 27-də imzalanmış analoji müqavilənin davamı və inkişafı olmaqla, elm sahəsində ölkələrimiz arasında təşəkkül tapmış

strateji münasibətlərin daha da dərinləşməsinə və vüsət almasına, başqa sözlə, elmi inteqrasiyanın güclənməsinə xidmət göstərirdi. Əslində elmi-texniki sahədə iki qardaş ölkənin inteqrasiya səyləri elmi-koqnitiv və innovativ inkişafın qlobal çağırışları ilə əlaqəli idi və qarşılıqlı faydalılıq zəminində dövlətlərimizin bu çağırışlara birgə adekvat cavab hazırlamaq məramından irəli gəlirdi.

İlham Əliyev cənablarının 2004-cü ilin martın 23-24-də Özbəkistana rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası Bakı şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikası Daşkənd şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında" Saziş (9, s. 1434-1437) iki qardaş ölkənin paytaxtlarının müxtəlif sahələrdə, o cümlədən mədəniyyət və təhsil sahəsində əməkdaşlığının yeni mərhələsini bildirirdi. Bu sənədlə tərəflər öz üzərilərinə tədqiqat institutları, kolleclər, məktəblər, liseylər və digər təhsil müəssisələri arasında əməkdaşlığa kömək göstərilməsi, habelə elmi seminarların, konfransların, işçi görüşlərinin təşkilinə yardım edəcək, habelə birgə tədqiqatlar və araşdırmalar yerinə yetirərkən, elmi-texniki informasiyanın, sənədlərin və ədəbiyyatın mübadiləsində alimlər, tədqiqatçılar, mütəxəssislər və stajorlar arasında əməkdaşlığı təşviq edilməsi kimi öhdəliklər götürürdülər.

2008-ci ilin sentyabrın 11-12-də Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfəri zamanı dövlətlər arasında 8 mühüm sənəd, o cümlədən humanitar sahədə əməkdaşlıq haqqında saziş imzalanmışdı. İ.Kərimov səfər çərçivəsində həmçinin, Heydər Əliyev Fondu ilə tanış olmuş, Azərbaycan paytaxtında böyük özbək şairi Əlişir Nəvainin abidəsinin açılış mərasimində iştirak etmişdi.

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında humanitar sahədə əməkdaşlıq haqqında" 2008-ci il sentyabrın 11-də imzalanmış Saziş (10, s. 190-193) humanitar əlaqələrin hüquqi bazasını təkmilləşdirməklə yanaşı, bu sahədə qarşılıqlı münasibətlərin yeni hədəflərini açıqlayırdı. Bəhs etdiyimiz beynəlxalq sənədin "mədəniyyət və incəsənət", "elm və təhsil", "informasiya" "gənclər və idman" adlı bölmələrdən ibarət olması humanitar əməkdaşlığın prioritet istiqamətlərini əyani şəkildə göstərirdi. Sazişin "elm və təhsil" adlanan ikinci bölməsi sözügedən sferada tərəflərin xüsusi diqqət yetirəcəyi məsələlər dairəsi aydın şəkildə cızılırdı: təhsil sistemləri, onların inkişaf planları və islahat istiqamətləri haqqında informasiya mübadiləsi; tərəflər üçün maraq kəsb edən ixtisaslar üzrə kadrların hazırlanması; bütün səviyyələrdə təhsil müəssisələri arasında qarşılıqlı əməkdaşlığın dəstəklənməsi; gənclər üçün konfrans, simpozium, eləcə də olimpiada və müsabiqələrin dəstəklənməsi; Azərbaycan dilinin Özbəkistanda və özbək dilinin Azərbaycanda öyrənilməsi üzrə suallarla bağlı fikir mübadiləsi. Həmçinin tərəflər Elmlər Akademiyaları, ali təhsil ocaqları və digər maraqlı elmi tədqiqat təşkilatları arasında aşağıdakı sahələr üzrə birbaşa əməkdaşlığın yaradılmasını dəstəkləməklə bağlı öz üzərilərinə öhdəlik götürürdülər. Bura müştərək elmi tədqiqatların həyata keçirilməsi; müştərək elmi tədqiqat

layihələri çərçivəsində alim və mütəxəssislərin mübadiləsi və tərəflərin təşkil etdiyi konqres, elmi seminar, konfrans və simpoziumlarda iştirak; elmi-texniki və patent məlumat, eləcə də doktorant, aspirant və stajor mübadiləsi daxil idi.

27-28 sentyabr 2010-cu il tarixlərində Prezident İlham Əliyevin Özbəkistan Respublikasına II rəsmi səfəri Mərkəzi Asiyanın bu nüfuzlu dövləti ilə Azərbaycan arasında münasibətlərin yeni və daha yüksək səviyyəyə çatdırılması baxımından olduqca böyük əhəmiyyətə malik oldu. Qeyd etməliyik ki, qarşılıqlı münasibətlərin onsuzda yetərincə güclü hüquqi bazası hüquq-mühafizə, teleradio, mədəniyyət, aviasiya və digər sahələr üzrə imzalanan 9 yeni sənədlə daha da genişlənmiş və möhkəmlənmişdi (5, s.2). Prezidentlərin Birgə Bəyannaməsində iqtisadiyyat, ticarət, nəqliyyat, kommunikasiya, turizm, elm, təhsil, mədəniyyət, habelə səhiyyə, ətraf mühitin qorunması və digər sahələrdə ikitərəfli münasibətlərin daha da dərinləşməsində qətiyyətləri ifadə olunurdu (15, s. 731-735).

İmzalanmış sənədlər arasında "Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu və Özbəkistan Rəssamlıq Akademiyası arasında əməkdaşlıq haqqında" müqavilə (8, s. 2697-2699) ölkələrimiz arasında incəsənət sahəsində elmi əməkdaşlığın artıq konkret institusional mücəssəmə səviyyəsinə keçməsindən, 27 may 1996-cı il və 11 sentyabr 2008-ci il tarixli sazişlərin sözügedən sferada reallaşmasına başlanılmasından xəbər verirdi. Müqavilə ilə tərəflər arasında incəsənət və sənətşünaslıq sahəsində əməkdaşlığın aşağıdakı yolları nəzərdə tutulurdu: mütəxəssislərin, təcrübəçi və aspirantların mübadiləsi; sənədlərin, nəşrlərin və elmi məlumatların mübadiləsi; qarşılıqlı maraq kəsb edən problemlərə dair konfrans və seminarların təşkili; birgə tədqiqat layihələrinin həyata keçirilməsi; birgə sərgi layihələrinin həyata keçirilməsi; birgə nəşr layihələrinin həyata keçirilməsi.

Prezident İlham Əliyevin Özbəkistana səfəri çərçivəsində ən mühüm məqamlardan biri Azərbaycanla Özbəkistan arasında ikitərəfli, o cümlədən elm və təhsil sahəsində münasibətlərin inkişafına töhfə vermiş Azərbaycan Mədəniyyət Mərkəzinin yeni binasının açılışı oldu. Yeri gəlmişkən qeyd edərdik ki, ölkələrimiz arasında hərtərəfli humanitar əlaqələrin inkişafı məqsədini güdən Özbəkistanda Azərbaycan mədəniyyət mərkəzləri artıq 2003-cü ildən geniş yayılmışdı. Elə həmin il bu mərkəzlərin assosiasiyası təsis edilmişdi (31, s. 251). Bu cür mərkəzlər dost ölkədə yaşayan 40 mindən artıq azərbaycanlını öz sıralarında birləşdirməyə çalışan Azərbaycan diaspor təşkilatları tərəfindən yaradılırdı və daha çox məhəlli mədəni tədbirlərin düzənlənməsi ilə məşğul olurdu. Halbuki istər qarşılıqlı humanitar əlaqələri uzlaşdıracaq, koordinasiya edəcək, istərsə də Azərbaycanın qardaş ölkədə mədəniyyət sahəsində siyasətini icra edəcək dövlət qurumuna ehtiyac böyük idi. Yuxarıda qeyd etdiyimiz kimi, İ. Əliyev cənablarının daha öncəki səfəri çərçivəsində, 2004-cü ilin martın 23-də Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı mərasimi də keçirilmişdi. Lakin bu Mərkəz 2010-cu ilədək bir sıra səbəblər, ən başlıcası da əsaslı

təmir üzündən demək olar ki fəaliyyət göstərməmişdi. Altı il sonra növbəti səfər ərəfəsində, 2010-cu ilin sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti ölkəmizin Özbəkistan Respublikasındakı səfirliyinin tabeliyində mədəniyyət mərkəzinin yaradılması haqqında sərəncam vermişdi (16, s. 2020-2021).

Nəhayət, 2010-cu ilin sentyabrın 27-də Daşkənddə, azərbaycanlıların yığcam yaşadıqları Mirabad rayonunda Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin binasının əsaslı təmir və bərpadan sonra açılışı oldu (28, s. 2). Heydər Əliyev küçəsində yerləşən mərkəzdə Heydər Əliyev, Azərbaycanın dövlətçilik tarixi, Azərbaycan və Özbəkistanın müştərək tarixi muzeyləri də fəaliyyət göstərir.

2012-ci ilin oktyabrın 12-13-də olmuş İslam Kərimovun Azərbaycana növbəti rəsmi səfəri ölkələrimizin strateji əməkdaşlığına xidmət edəcək yeni sənədlərin imzalanması ilə müşayiət olundu. Səfər çərçivəsində qəbul edilmiş prezidentlərin Birgə Bəyanatında digər sahələrlə yanaşı, elm və təhsil sahəsində də ikitərəfli münasibətlərin bundan sonra daha da dərinləşdirilməsi zərurəti qeyd olunurdu (14, s. 2506-2510).

Dövlət rəhbərlərinin ikitərəfli səfərləri, eləcə də ölkələrimiz arasında imzalanmış çoxsaylı sənədlər mədəniyyət, elm və təhsil sahələrində ünsiyyət və əlaqələrin bir tərəfdən daha da intensivləşməsinə, digər tərəfdən isə istər məzmun, istərsə də formaca zənginləşməsinə, yeni keyfiyyət göstəricilərə əldə etməsinə gətirib çıxarmışdır.

2009-2010-cu illər üçün Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Özbəkistan Respublikasının "Kamolot" Gənclər İctimai Hərəkatı arasında gənclər siyasəti sahəsində imzalanmış əməkdaşlıq planına müvafiq olaraq 2010-cu ilin sentyabrın 27-30-da Özbəkistan gənclərinin Azərbaycana səfəri baş tutdu. 4 gün davam etmiş səfər çərçivəsində qonaqlar Heydər Əliyev Fondu, Bakı Dövlət Universiteti ilə tanış olmuş, eləcə də Gənclər və İdman Nazirliyində, "İrəli" İctimai Birliyində və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqında görüşlər, dəyirmi masa ətrafında "Müasir gənclər siyasətinin prioritetləri" mövzusunda müzakirələr aparmışlar. Həmçinin, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında yaradıcı gənclərin görüşü keçirilmişdi.

Son illərdə ayrı-ayrı ali təhsil müəssisələri arasında təmasların artması, əməkdaşlığa dair müxtəlif sənədlərin imzalanması ölkələrimiz arasında təhsil sahəsində əlaqələrin inkişafına ən bariz şahidlikdir.

2011-ci ilin martın 28-dən Azərbaycan Diplomatik Akademiyasının (ADA) müəllimi, elmlər doktoru Anar Vəliyevin rəhbərliyi ilə akademiyanın 16 nəfərdən ibarət tələbə heyəti Özbəkistanda səfərdə olmuşdu. Səfər ADA ilə Daşkənddəki Dünya İqtisadiyyatı və Diplomatiyası Universiteti (DİDU) arasında imzalanmış əməkdaşlıq haqqında müqaviləyə uyğun olaraq baş tutmuşdu. Onun çərçivəsində tələbələr Azərbaycanın Özbəkistandakı səfirliyində, Daşkənd Dövlət İqtisad

Universitetində, Mirzə Uluğbəy adına Özbəkistan Milli Universitetində, Dövlət Dünya Dilləri Universiteti və digər ali təhsil ocaqlarında görüşlər keçirmişdilər (6). Həmçinin ADA tələbələri Daşkənddəki Beynəlxalq Vestminister Universitetində də olmuş, bu iki ali məktəb arasında əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi, informasiya mübadiləsi, qarşılıqlı səfərlərin təşkili və bir sıra digər məsələləri müzakirə etmiş, Azərbaycan, İran, Fransa, Hindistan, Pakistan, Böyük Britaniya, Misirin Özbəkistandakı səfirliklərinin yaxından iştirakı ilə bu universitetdə keçirilən mədəniyyət festivalına qatılmışdılar. Festivalda ölkəmiz üçün ayrılmış salonda ulu öndər haqqında buraxılmış müxtəlif kitablar, Azərbaycan xalçaları, Avropa-Asiya nəqliyyat dəhlizi, neft və qazın nəqlini əks etdirən stendlər, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Novorossiysk, Bakı-Supsa layihələri təqdim olunmuşdur (36, s. 7).

2011-ci ilin mayın 2-də Özbəkistanın "Mədəniyyət və İncəsənət Forumu" Fondunun, "Miras" Antikvarları Assosiasiyasının dəvəti ilə Daşkəndə gələn AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru, professor Ertəkin Salamzadə və sənətşünaslıq doktoru Rəna Abdullayeva K.Behzad adına Bədii Təsvir və Dizayn Milli İnstitutunun professor-müəllim heyəti ilə görüş keçirmişlər (22). İnstitutun rektoru Həsən Əminov Azərbaycan-Özbəkistan elmi əlaqələrindən danışmış, müasir mərhələdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd etmişdi. Öz növbəsində professor E. Salamzadə 2010-cu ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana rəsmi səfəri zamanı AMEA Memarlıq və İncəsənət İnstitutu ilə Özbəkistan Bədii Akademiyası arasında imzalanmış müqaviləyə toxunaraq incəsənət xadimləri-rəssamlar, heykəltəraşlar, dizaynerlər arasında əlaqələrin möhkəmləndirilməsi barədə danışmışdı.

Yeri gəlmişkən, 2011-ci ilin aprelində Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Daşkənddə gənc Azərbaycan rəssamlarının təntənəli sərgisi keçirilmişdi (37, s. 5).

2012-ci ilin fevralın 17-də təhsil naziri Misir Mərdanov Özbəkistanın paytaxtı Daşkənd şəhərində dünyanın 40-dan çox ölkəsindən gəlmiş nümayəndələrin qatıldığı "Təhsilli və intellektual inkişaf etmiş nəslin yetişdirilməsi – ölkənin davamlı inkişafı və modernləşdirilməsinin mühüm amili kimi" adlı beynəlxalq konfransda iştirak etmişdi. Konfransın əsas məqsədi müstəqillik illərində Özbəkistanda təhsil sahəsində əldə olunan nailiyyətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasından, rəqabət qabiliyyətli, yüksək ixtisaslı kadrların hazırlanmasında dövlətin rolu və fasiləsiz təhsilin gələcək perspektivlərinin müəyyənləşdirilməsindən ibarət olmuşdu. Misir Mərdanov konfransdakı çıxışında çıxışında dünyada təhsilin inkişaf strategiyalarının işlənməsi təcrübəsi, Azərbaycanda ölkə Prezidentinin sərəncamı ilə hazırlanmaqda olan təhsil strategiyası, eləcə də son illərdə aparılan təhsil islahatları və əldə olunmuş nailiyyətlər barədə məlumat vermişdi. Konfrans zamanı təhsil naziri özünün özbək və qırğız həmkarları və digər şəxslərlə görüşərək, təhsilin

inkişafı sahəsində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparmışdı.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentləri akademik İbrahim Quliyevin və akademik İsa Həbibbəylinin təmsil etdiyi nümayəndə heyəti 2013-cü ilin dekabrında Özbəkistan Elmlər Akademiyasının yaradılmasının 70 illik yubiley tədbirlərində iştirak etmiş, bir sıra elmi-tədqiqat qurumlarının rəhbərləri ilə işgüzar görüşlər keçirmiş, akademiyalararası əlaqələrin yenidən formalaşdırılması istiqamətində danışıqlar aparmışlar (25, s. 7). Akademik İbrahim Quliyev Özbəkistan Elmlər Akademiyasının rəhbərləri, rəyasət heyətinin üzvləri, ayrı-ayrı institutların direktorları ilə danışıqlar zamanı qarşılıqlı əlaqələrin inkişafı ilə bağlı Azərbaycan tərəfinin mövqeyini nəzərə çatdırmışdı. Özbəkistan EA rəsmi nümayəndələri Azərbaycan Milli Elmlər Akademiyası ilə əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bildirmişlər. Akademik İsa Həbibbəyli Özbəkistan yubiley münasibətilə keçirilən təntənəli yığıncaqda çıxış edərək, ölkəmizin elmi ictimaiyyətinin özbək alimlərinə yüksək və doğma münasibətini ifadə etmişdi. Azərbaycan nümayəndə heyəti həmçinin yubiley tədbiri çərçivəsində bir sıra görüşlər keçirmişdi. Özbəkistan Elmlər Akademiyasının rəhbərləri ilə görüşdə iki ölkənin akademiyalarının əlaqələrini yenidən qurmaq üçün yeni əməkdaşlıq müqaviləsinin hazırlanmasına dair razılaşma əldə olunmuşdu.

2013-cü ilin dekabrın 27-də Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetindəki Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı Mərkəzində Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ilə Daşkənd Dövlət Pedaqoji Universiteti arasında (DDPU) Anlaşma Memorandumu imzalanmışdır. Sənəd sözügedən universitetlər arasında əlaqələrin yaradılmasını və genişləndirilməsini, elmi əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutur. Memorandumda hər iki ali məktəb arasında tələbə və müəllimlərin, elmi və elmi-texniki ədəbiyyatın mübadiləsi, konfrans, seminar və simpoziumların, həmçinin elmi məsləhətləşmələrin təşkili, tədris prosesi ilə bağlı təcrübə və informasiya mübadiləsinin aparılması və digər bu kimi müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur. Sənəddə ADPU və DDPU-nun elmi jurnallarında qarşılıqlı olaraq məqalələrin verilməsi, bu ali məktəblər haqqında materialların yerləşdirilməsi haqqında da maddə yer almışdır (35).

2014-cü il aprelin 25-də Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Səfirliyi və H. Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə Kəmaləddin Behzod adına Özbəkistan Rəssamlıq və Dizayn İnstitutu ilə Azərbaycanın Rəssamlıq Akademiyası arasında əməkdaşlıq Memorandumu imzalanmışdı (23). İkitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, müəssisələr arasında təcrübə mübadiləsinin aparılması, birgə sərgilərin, festivalların keçirilməsi, rəssamlıq sənətinin inkişaf etmiş janrlarının mübadiləsi, qarşılıqlı səfərlərin, müxtəlif başqa tədbirlərin təşkili və s. bu kimi məsələlərin öz əksini tapdığı Memorandumun imzalanması mədəni ünsiyyəti daha da təşviq

etməklə bərabər, eyni zamanda həm Azərbaycanda, həm də Özbəkistanda təhsil sahəsində müstəqillik dövründə toplanmış təcrübənin bölüşməsi baxımından da böyük önəm kəsb edir.

2015-ci ilin aprelin 8-də Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovun Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov və Cəmiyyətin sədr müavini, universitetin beynəlxalq əlaqələr departamentinin rəhbəri İsroil Şamsimuxammedov ilə görüşündə Gəncə Dövlət Universiteti ilə Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti arasında əməkdaşlıq əlaqələrinin yaradılması və bununla bağlı müvafiq memorandumun hazırlanması barədə razılıq əldə olundu (33). Bu memorandum oktyabrın 20-də Gəncədə, Daşkənd Dövlət Pedaqoji Universiteti rəhbərliyinin səfəri zamanı imzalandı. Müqaviləyə əsasən, hər iki ali təhsil müəssisəsi arasında tələbə-müəllim mübadiləsi həyata keçirilməklə, elmi-tədqiqat işləri də aparılacaq. Bundan başqa memorandumda ali təhsil müəssisələrində yeni kitabların nəşri, birgə elmi konfransların keçirilməsi də nəzərdə tutulmuşdur (34). Yeri gəlmişkən, bu Memoranduma imza atan Daşkənd Dövlət Pedaqoji Universitetinin kafedra müdiri Erkin Nuriddinov həmçinin Daşkənddəki Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin (ÖADC) icraçı direktorudur. Bu cəmiyyət ölkələrimiz arasında mədəni və humanitar sahələrdə əlaqələrin möhkəmlənməsinə mühüm töhfələr vermiş və verməkdədir.

Ölkələrimiz arasında təhsil sahəsində əlaqələrdən bəhs edərkən tələbə mübadiləsi məsələsinə də toxunmaq istərdik. Azərbaycanda dövlət və qeyri-dövlət orta ixtisas təhsili müəssisələrində təhsil alan özbək tələbələrin sayı 2000-2013-cü illərdə 1 nəfər, 2015/16-cı tədris ilində isə 2 nəfər olmuşdur (18, s. 120; 19, s.146). Özbəkistandan gəlmiş tələbələrin sayında nəzərəçarpacaq artım dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində təhsil alanlar arasında müşahidə olunmaqdadır. 1995-1996-cı illərdə bu tip təhsil müəssisələrində 9 özbək tələbə oxuyurdu. Sonrakı illərdə onların sayı kəskin azalaraq, 2000/01-ci tədris ilində 1 nəfərə düşür. Lakin ölkələrimiz arasında hüquqi baza zənginləşdikcə, təhsil əlaqələri əməli müstəviyə keçdikcə vəziyyət müsbətə doğru dəyişməyə başlayır. Artıq 2005/06-cı ildə bu rəqəm 5-ə, 2010/11-ci ildə 8-ə, 2013/14-cü ildə 14-ə çatır. Ən son məlumatlara əsasən, hal-hazırda dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində 26 özbəkistanlı tələbə təhsil almaqdadır. Özü də bu rəqəm hər keçən il daha da artır (18, s. 154; 19, s. 177). Bundan başqa, əgər 2013-2014-cü təhsil ilinin əvvəlində hazırlıq şöbələrində 2 özbək vətəndaşı təhsil alırdısa və onlardan biri qadın idisə, 2015-2016-cı illərdə bu göstəricilər artaraq, müvafiq olaraq 5 və 2-yə çatmışdır (19, s. 180).

Yuxarıda haqqında bəhs etdiyimiz Özbəkistan-Azərbaycan dostluq cəmiyyəti hələ 1990-cı illərin əvvəllərində mövcud olmuş, lakin mürəkkəb siyasi hadisələr gedişində öz fəaliyyətinə ara vermişdi. Bu cəmiyyət 1998-ci ilin martında yenidən öz fəaliyyətini bərpa etmiş, Özbəkistanın əmək və sosial hüquqların müdafiəsi naziri

Bahadır Umurzakov onun sədri seçilmişdi (41, s. 3). 2007-ci ildən etibarən cəmiyyət Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti nəzdində fəaliyyət göstərməklə, ölkələrimiz arasında mədəni-humanitar sahələrdə, o cümlədən elm və təhsil əlaqələrinin inkişafında mühüm xidmətlər göstərməkdədir.

Bu cəmiyyət son zamanlar, xüsusən də 2010-cu ilin sentyabrında Azərbaycan prezidenti İ. Əliyevin qardaş ölkəyə rəsmi səfərindən sonra vüsət almaqda olan Azərbaycan-Özbəkistan münasibətləri fonunda öz fəaliyyətini daha da genişləndirmişdir. Hal-hazırda Nizami adına Pedaqoji Universitetin rektoru Şövkət Şaripov cəmiyyətin sədri, həmin universitetin professoru Erkin Nuriddinov isə, artıq qeyd etdiyimiz kimi, qurumun icraçı direktorudur. Cəmiyyət ölkəmizin Daşkənddəki səfirliyi və səfirliyin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə iki ölkə arasında mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlıqla bağlı layihələr həyata keçirməkdədir.

2012-ci ildə Azərbaycanın Özbəkistandakı səfirliyinin təşkilatçılığı ilə Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində məşhur dramaturq, şair Hüseyn Cavidin 130 illiyinə həsr olunmuş tədbir keçirildi. Həmin il Bakıda keçirilən yubiley mərasimlərinə cəmiyyətin üzvləri də qatılaraq, konfransda məruzə və çıxışlar etmişdilər (21, s. 7).

2013-cü ilin iyulun 5-də Daşkənd şəhərindəki H. Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Şavkat Şaripov ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Özbəkistan arasında mədəniyyət, elm, təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsi, hər iki ölkənin dövlət pedaqoji universitetləri arasında əlaqələrin yaradılması və inkişafı məsələləri müzakirə edilmişdi. Görüşün nəticəsi olaraq Daşkənd Dövlət Pedaqoji Universitetində "Azərbaycan guşəsinin" yaradılması, Azərbaycan dili kursunun təşkili, ali təhsil ocaqlarının kitabxanaları arasında kitab, jurnal və digər nəşrlərin mübadiləsi, universitetdə Azərbaycan və Özbəkistanın mədəniyyəti, ədəbiyyatı, habelə elmin aktual mövzularına dair konfrans və seminarların keçirilməsi haqqında razılığa gəlindi (26).

2013-cü ilin sentyabrında Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti N. Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində Özbəkistanın müstəqilliyinin 22-ci ildönümü ilə əlaqədar "Azərbaycan və özbək xalqlarının mədəni və mənəvi birliyi" adlı tədbir keçirdi (17, s. 6). Ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev, səfirliyin və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşları, universitetin professor-müəllim heyəti, tələbələr, Azərbaycan diasporunun üzvləri iştirak etdiyi tədbirdə iki qardaş və dost xalqın mədəni əlaqələrinin tarixi keçmişi, bu günü və perspektivləri haqqında dəyərli çıxışlar oldu.

Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin nümayəndə heyəti 2014-cü ilin iyununda ölkəmizə etdiyi səfər gedişində bir sıra görüşlər keçirmiş, Heydər

Əliyev Mərkəzi, Azərbaycan Rəssamlıq Akademiyası, Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyasının fəaliyyəti ilə tanış olmuşdular (24, s. 4). Səfərin əsas məqsədi Azərbaycanla tanışlıq, ikitərəfli mədəniyyət, elm, təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi idi.

2015-ci ildə Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi və iştirakı ilə Daşkənd Dövlət Pedaqoji Universitetinin müəllimi olmuş tanınmış şair, dramaturq və pedaqoq, hər iki xalqın böyük oğlu Maqsud Şeyxzadənin xatirəsinin əbədiləşdirilməsi, sözügedən universitetdə "Nizami Gəncəvi irsinin təbliği" muzeyinin yaradılması və s. sahələrdə müxtəlif işlər planlaşdırırdı (3, s. 15).

2015-ci ilin oktyabrın 15-də cəmiyyətin geniş nümayəndə heyəti Gəncəyə səfəri çərçivəsində Gəncədəki Heydər Əliyev Mərkəzində "Qafqaz tarixinin aktual problemləri" mövzusunda beynəlxalq konfransa da qatılmışdı (21, s. 7).

Ölkələrimizin mədəni əməkdaşlığını praktiki müstəvidə addımları ilə yeni keyfiyyət durumuna çıxarmaqda olan qurumlardan biri də, artıq qeyd etdiyimiz kimi, Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzidir. Bu Mərkəz qardaş Özbəkistanda Azərbaycan mədəniyyətinin və incəsənətinin təbliği və tanınması istiqamətində həqiqətən çoxcəhətli və son dərəcə məhsuldar fəaliyyəti ilə seçilir. Buna son illərdə Özbəkistanda təşkil olunmuş müxtəlif rəssamlıq və foto sərgilər, konsertlər, dram, opera və balet tamaşaları, Azərbaycan filmlərinin nümayişi sübutdur. Həmçinin sözügedən qurum elm, təhsil, turizm, ədəbiyyat sahəsində layihələr həyata keçirməkdədir. Tam haqqı ilə söyləmək mümkündür ki, Mərkəz, əslində, Özbəkistan-Azərbaycan dostluğunun təcəssümüdür.

Artıq gətirilən faktlardan bəlli olur ki, Mərkəzin təşəbbüsü ilə son illərdə Azərbaycanın və Özbəkistanın aparıcı təhsil və elm müəssisələri arasında müxtəlif sazişlər bağlanmışdır. 2013-cü ilin fevralında Samir Abbasovun Mərkəzə təyin olunmasından sonra onun fəaliyyəti daha da genişlənmişdir. Onun nəzdində tezliklə rəqs, rəsm, kompyuter, Azərbaycan dili, "Əl işləri və naxış tikmə" kursları fəaliyyətə başladı. Mədəniyyət Mərkəzinin kitabxanası kurslarla bağlı müvafiq əyani vəsait, kitab və nəşrlərlə təmin olunmuşdu. Ödənişsiz olan kurslara qəbul aparmaq üçün Daşkənddə azərbaycanlıların daha çox təhsil aldığı Mirabad rayon 147 saylı orta məktəbdə elanlar verilmişdi (29, s. 4).

2013-cü ilin dekabrında Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə N. Gəncəvi adına Özbəkistan Dövlət Pedaqoji Universitetində Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı Mərkəzinin açılışı oldu. Özbəkistan və Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinin təbliği üçün nəzərdə tutulan Mərkəzdə Azərbaycan dili kurslarının tədrisinin təşkili də planlaşdırılırdı (27, s.9).

2014-cü ilin yanvarın 9-da Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycan və Özbəkistanın elmi tibb kitabxanaları arasında əməkdaşlığa dair Memorandumun imzalanmışdır. Memorandumda tərəflər arasında kitabxana-informasiya

sahəsinin aktual məsələləri, kitabxana-informasiya proseslərinin avtomatlaşdırılmasına dair təcrübə mübadiləsinin aparılması, bu sahədə birgə elmi konfrans, seminar, kursların, habelə ONLİNE konfrans və tədbirlərin keçirilməsi, kitab, jurnal və elektron nəşrlərin mübadiləsi, qarşı tərəfin tibb sahəsində əldə etdiyi nailiyyətlərə dair guşə və sərgilərin təşkili və s. həyata keçirilməsi nəzərdə tutulmuşdur (7).

Sözügedən il Azərbaycan Mədəniyyət Mərkəzinin bilavasitə təşəbbüsü ilə xalqlarımız və dövlətlərimiz arasında mədəniyyət, ədəbiyyat və incəsənəti sahəsində əlaqələrin inkişafı məqsədi ilə Özbəkistan Dövlət Pedaqoji Universitetində Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı kabineti yaradılmışdır. Kabinetdə Azərbaycan və özbək şairlərinin yaradıcılıq və xatirə gecələrinin keçirilməsi nəzərdə tutulur (40).

Azərbaycan Mədəniyyət Mərkəzi son illərdə "Azərbaycanı tanıyaq" adlı layihə çərçivəsində Özbəkistan kitabxanalarına Azərbaycan, onun tarixi, iqtisadiyyatı, mədəniyyəti, turizmi, ədəbiyyatı, dövlətçiliyi, ümummilli lider Heydər Əliyev, prezident İlham Əliyev, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı faciəsi, ermənilərin saxtalaşdırma siyasətinə dair kitablar, jurnallar, bukletlər hədiyyə etməklə, Azərbaycan həqiqətlərinin özbək ictimaiyyətinə çatdırılması istiqamətində müntəzəm işlər görməkdədir (42).

Mədəniyyət Mərkəzinin "Azərbaycanı tanıyaq" adlı layihəsi çərçivəsində 2015-ci ilin may ayının 11-14 may tarixlərində Azərbaycan Milli Məclisinin deputatı, yazıçı-publisist Elmira Axundova, Azərbaycan və SSRİ-nin xalq artisti, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli Özbəkistana səfər etmiş və Mədəniyyət Mərkəzində çıxış etmişlər (38).

2016-cı ildə Mərkəz Daşkənddəki Vestminister Universiteti, İslam Universiteti, Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universiteti, Səmərqənd Dövlət Universiteti, Daşkənd Beynəlxalq Məktəbi, Daşkənddəki Britaniya Məktəbi ilə əlaqələrni genişləndirmiş, müxtəlif tədbirlər çərçivəsində təşkil olunan sərgi və stendlərdə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı faktlar barədə Özbəkistan ictimaiyyətini məlumatlandırmış, Azərbaycan mədəni irsinin təbliğinə dair işləri daha da artırmış, klassik və müasir Azərbaycan ədəbiyyatının nümunələrinin, o cümlədən Nizaminin əsərlərinin özbək dilinə tərcüməsini və nəşrini təşkil etmişdir (29). Həmçinin bu qurumun layihəsi ilə Daşkənddə Özbəkistan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəyli adına Azərbaycan-Özbəkistan Musiqi Mədəniyyəti Mərkəzi fəaliyyətə başlamış, Özbəkistan Milli Elmlər Akademiyasının Dövlət Tarix Muzeyində ölkəmizin maddi və mənəvi mədəniyyətinin tarixi keçmişini əks etdirən "Azərbaycan pavilyonunun" açılışı olmuş, Azərbaycanın turizm resurslarının təbliği ilə bağlı sərgilər təşkil edilmiş, nəşrlər, videoçarxlar hazırlanmışdı (43).

Azərbaycan Mədəniyyət Mərkəzi (AAM) Azərbaycan mədəniyyətinin təbliği, habelə elm, təhsil və mədəniyyət sahəsində əlaqələrin inkişafı üzrə fəaliyyətini

2017-ci ildə də uğurla davam etdirməkdədir. İyun ayında Mərkəzin layihəsi ilə Səmərqənddə keçirilən Azərbaycan mədəniyyəti günləri çərçivəsində Əlişir Nəvai adına Səmərqənd Dövlət Universitetində Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələrinə dair elmi-praktik konfrans baş tutdu (4, s. 12). Konfransa N. Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti və Ə. Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professor və müəllim heyəti də qatılmışdı. Tədbirdə Səmərqənd Dövlət Universitetinin birinci prorektoru Alişer Eşdayev, Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov və başqaları çıxış edərək, Özbəkistanla Azərbaycan arasında mədəni-ədəbi əlaqələrin tarixindən, bu istiqamətdə AMM-in həyata keçirdiyi layihələrdən, mədəniyyət, təhsil müəssisələri arasında əlaqələrin günü-gündən daha da genişləndiyindən danışmışlar. Tədbirin sonunda AMM-in təqdimatı ilə Azərbaycanın Turizm və Menecment Universitetinin təqdimatı keçirilmiş və mərkəz tərəfindən Azərbaycana dair hazırlanmış kitab kolleksiyası Səmərqənd Dövlət Universitetinə hədiyyə edilmişdir.

Beləliklə, əsasını Ümummilli lider Heydər Əliyevin qoyduğu Azərbaycanın xarici-siyasi kursunun uğurla həyata keçirilməsi sayəsində Azərbaycan və Özbəkistan respublikaları arasında sözün müstəqim mənasında strateji münasibətlər formalaşmışdır. İstər ikitərəfli münasibətlərə, istərsə Qafqazda və Mərkəzi Asiyada mürəkkəb məsələlərə, istərsə də qlobal geosiyasət problemlərinə dair iki dövlət arasında demək olar ki, ümumi mövqe formalaşmışdır. Bu günədək Özbəkistan və Azərbaycan arasında ikitərəfli münasibətləri hərtərəfli şəkildə tənzimləyən 110-dan çox normativ-hüquqi sənəd imzalanmışdır. (39, s. 237) Yuxarıda elm və təhsil sahəsində bağlanan sazişlərin təhlili söyləməyə əsas verir ki, sözügedən istiqamətlərdə ölkələrimizin strateji əməkdaşlığı üçün münbit normativ zəmin mövcuddur. Təsadüfi deyildir ki, son illərdə biz ölkələrimiz arasında istər dövlət qurumları, istərsə də ayrı-ayrı təhsil müəssisələri səviyyəsində əlaqələrin intensivləşdiyini və yeni keyfiyyət xarakteristikaları kəsb etdiyini görürük.

İstifadə edilmiş ədəbiyyat və mənbə siyahısı:

1. "Azərbaycan" qəzeti
2. Azərbaycan-Özbəkistan: Dostluğumuz daim yaşayır və möhkəmlənir. Bakı: Şərq-Qərb, 1996
3. Azərbaycan-Özbəkistan mədəni layihələri müzakirə edilib. "Mədəniyyət" qəzeti, 2015, 18 fevral
4. Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələrinə dair konfrans. Mədəniyyət" qəzeti, 2017, 21 iyun
5. Azərbaycan-Özbəkistan sənədləri imzalanmışdır. "Azərbaycan" qəzeti,

2010, 28 sentyabr, №211
6. Azərbaycan Diplomatik Akademiyasının tələbələri Özbəkistanda səfərdədirlər // http://azertag.az/xeber/Azerbaycan_Diplomatik_Akademiyasinin_telebeleri_Ozbekistanda_seferdedirler-516677
7. Azərbaycan Dövlət Tibb Kitabxanası ilə Özbəkistan Dövlət Tibb Kitabxanası arasında əməkdaşlığa dair Memorandum imzalanıb // http://azpress.az/index.php/index.php?lang=az&sectionid=news&id=20901
8. "Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu və Özbəkistan Rəssamlıq Akademiyası arasında əməkdaşlıq haqqında" Müqavilə, 27 sentyabr 2010-cu il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №12, s. 2697-2699
9. Azərbaycan Respublikası Bakı şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikası Daşkənd şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında" Saziş, 23 mart 2004-cü il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №5, s. 1434-1437
10. "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında humanitar sahədə əməkdaşlıq haqqında" Saziş, 11 sentyabr 2008-ci il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, №2, s. 190-193
11. Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında" Saziş, 18 iyun 1997-ci il / Təhsil sahəsində imzalanmış saziş və protokollar, s. 46-49 // http://edu.gov.az/upload/file/Beynelxaql-emekdashliq/beyn-elaqeler-sazishler.pdf
12. Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamə // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №6, s. 1535-1538
13. "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Saziş, 23 mart 2004-cü il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №6, s. 1560-1563
14. Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İ. Kərimovun Birgə Bəyanatı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, №12, s. 2506-2510
15. Azərbaycan Respublikası Prezidentinin və Özbəkistan Respublikası Prezidentinin Birgə Bəyannaməsi, 27 sentyabr 2010-cu il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, №4, s. 731-735
16. Azərbaycan Respublikasının Fransa Respublikasındakı və Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliklərinin tabeliyində mədəniyyət mərkəzlərinin yaradılması haqqında Azərbaycan

Respublikasının Prezidentinin Sərəncamı, 1 sentyabr 2010-cu il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №9, s. 2020-2021
17. Azərbaycan və özbək xalqlarının mədəni və mənəvi birliyi. Nizami adına Daşkənd Pedaqoji Universitetində dostluq gecəsi. "Mədəniyyət" qəzeti, 2013, 18 sentyabr
18. Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2005
19. Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016
20. Azəri L. Ortaq mədəniyyətimizi ümumi səylərlə təbliğ etməliyik. "Mədəniyyət" qəzeti, 2014, 4 iyun
21. Azəri L. "Özbəkistan-Azərbaycan" dostluq cəmiyyəti mədəni körpülər yaradır. "Mədəniyyət" qəzeti, 2015, 21 oktyabr
22. Azərbaycanlı alimlərin özbəkistanlı həmkarları ilə görüşündə ölkələrimiz arasında elmi əlaqələrin perspektivləri müzakirə edilmişdir // http://azertag.az/xeber/Azerbaycanli_alimlerin_ozbekistanli_hemkarlari_ile_gorusunde_olkelerimiz_arasinda_elmi_elaqelerin_perspektivleri_muzakire_edilmisdir-521014
23. Azərbaycanın Rəssamlıq Akademiyası ilə Özbəkistanın Kəmaləddin Behzod adına Rəssamlıq və Dizayn İnstitutu arasında əməkdaşlıq Memorandumu imzalanmışdır // http://www.azpress.az/index.php?lang=az&sectionid=news&id=24355#
24. Bu, nadir layihədir // http://axar.az/news/kult/134791.html
25. Cəfərov E. Azərbaycan-Özbəkistan elmi əlaqələrində yeni addımlar. "Azərbaycan" qəzeti, 2013, 29 dekabr
26. Daşkənd universitetində "Azərbaycan guşəsi" yaradılacaq, Azərbaycan dili kursları təşkil ediləcək // http://az.trend.az/azerbaijan/society/2167915.html
27. Daşkənddə Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı Mərkəzi. "Mədəniyyət" qəzeti, 2013, 20 dekabr
28. Daşkənddə ulu öndər Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olmuşdur. "Azərbaycan" qəzeti, 2010, 29 sentyabr, №212
29. Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzində sənət kursları. "Mədəniyyət" qəzeti, 2013, 12 iyun
30. Əhmədov Ə.X. Azərbaycan beynəlxalq münasibətlərdə (Türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri). Bakı: Elm və təhsil, 2009
31. Əliyev H. XXI əsr: Azərbaycan – MDB ölkələri (humanitar əlaqələr, 1991-2005-ci illər). Bakı: ULU, 2008, s. 116 (316 s.)
32. Əliyev İ. İnkişafımız əbədidir. Üçüncü kitab (fevral 2004 – aprel 2004). Bakı: Azərnəşr, 2009, s.205-248

33. Gəncə Dövlət Universiteti Daşkənd Dövlət Pedaqoji Universiteti ilə əməkdaşlıq edəcək // http://azertag.az/xeber/Gence_Dovlet_Universiteti_Daskend_Dovlet_Pedaqoji_Universiteti_ile_emekdasliq_edecek-844755
34. Gəncə Dövlət Universiteti ilə Özbəkistan universiteti arasında memorandum imzalanıb // http://gundelik.info/index.php?newsid=4505
35. Kəngərli Q. Azərbaycan Dövlət Pedaqoji Universiteti və Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universiteti arasında Anlaşma Memorandumu imzalanmışdır. http://azertag.az/xeber/Azerbaycan_Dovlet_Pedaqoji_Universiteti_ve_Nizami_Gencevi_adina_Daskend_Dovlet_Pedaqoji_Universiteti_arasinda_Anlasma_Memorandumu_imzalanmisdir-47872
36. Kəngərli Q. Azərbaycandan gələn gənclər Daşkənddəki Beynəlxalq Vestminister Universitetinin tələbələri ilə görüşmüş, burada keçirilən mədəniyyət festivalında iştirak etmişlər. "Azərbaycan" qəzeti, 2011, 5 aprel
37. Kəngərli Q. Özbəkistanda Azərbaycan gəncləri günləri başa çatmışdır. "Azərbaycan" qəzeti, 2011, 1 may
38. Qarşılıqlı səfərlərin təşkili // http://azculture.uz/az/our_projects.html
39. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə (məqalələr toplusu). Bakı: "BEST-TMS" MMC, 2016
40. Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində Azərbaycan Mədəniyyəti və Ədəbiyyatı kabineti açılmışdır // http://azculture.uz/az/our_projects.html
41. Özbəkistan-Azərbaycan dostluq cəmiyyəti bərpa edilmişdir. "Azərbaycan" qəzeti, 1998, 26 mart, №67
42. Özbəkistanda "Azərbaycanı tanıyaq" layihəsi çərçivəsində kitabxanalara ölkəmizlə bağlı zəngin kitab kolleksiyası hədiyyə edilmişdir //http://azpress.az/index.php?lang=az&sectionid=news&id=39660
43. Özbəkistanla turizm əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar var // http://palitranews.az/news.php?id=66679
44. Ruintən S.F. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı: Adiloğlu , 2005

Gulshan Huseynova
Interrelations between the Republic of Azerbaijan and the Republic of Uzbekistan in the field of science and education in modern age

Summary

Key words: *Republic of Azerbaijan; Republic of Uzbekistan; years of independence, science, education, interrelations*

In the presented article, the process of development of relations between the Republic of Azerbaijan and the Republic of Uzbekistan in the humanitarian fields is considered. It is noted that these ties have their roots in the deep centuries. In the Soviet period, when the two related peoples were part of a single state, their mutual relations developed especially rapidly. After Azerbaijan and Uzbekistan gained independence, with the exception of 1992-1993, strategic relations were established between the two states. To date, more than 110 laws and regulations regulating bilateral relations have been signed between the parties. Many of their signed documents cover the development of relations in the field of education and science. In recent years, humanitarian ties have been expanding between the two countries, both at the level of state organizations and at the level of individual scientific and educational institutions, which allows us to speak of a completely new qualitative nature of these ties.

Гюльшан Гусейнова

Взаимосвязи Азербайджанской Республики и Республики Узбекистан в области науки и образования в годы независимости

Резюме

Ключевые слова: *Азербайджанская Республика; Республика Узбекистан; годы независимости, наука, образование, взаимосвязи*

В представленной статье рассматривается процесс развития связей Азербайджанской Республики с Республикой Узбекистан в гуманитарных областях в современный период. Отмечается, что эти связи своими корнями уходят в глубокие столетия. В советский период, когда два родственные народы находились в составе единого государства, их взаимоотношения особенно бурно развивались. После обретения Азербайджаном и Узбекистаном независимости, за исключением 1992-1993 годов, между двумя государствами сложились стратегические отношения. На сегодня между сторонами подписано более 110 нормативно-правовых актов, регулирующих двухсторонние отношения. Многие их подписанных документов охватывают вопросы развития отношений в области образования и науки. В последние годы между двумя странами расширяются гуманитарные связи, как на уровне государственных организаций, так и на уровне отдельных научных и образовательных учреждений, что позволяет говорить о совершенно новом качественном характере этих связей.

Aynur Babayeva

Müasir dövrdə Milli Azərbaycan Tarixi Muzeyinin beynəlxalq əlaqələri (2012-2016)

Açar sözlər: *muzeylər, Milli Azərbaycan Tarixi Muzeyi, beynəlxalq əlaqələr, konfrans, sərgi, tədbir, müqavilə*

UOT 94 (479.24)

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, mədəniyyət və incəsənət sahəsində də ciddi yeniliklər baş verdi. Müasir cəmiyyətdə muzeylərin sosial-mədəni rolunun əhəmiyyətli dərəcədə yüksəlməsi onları dünyada mədəni proseslərin fəal iştirakçısına çevirir. Bu gün muzey qloballaşma və həyatın unifikasiyasının neqativ nəticələrinə qarşı dura bilən, keçmiş haqqında xatirələri öz divarları arasında saxlamağa qadir olan, mədəni irsi qoruyan mədəniyyət ocağı hesab edilir. Həyatımızda baş verən sosial dəyişikliklər muzeylərin qarşısında yeni vəzifələr qoyur. Azərbaycanda bu sosial-mədəni müəssisələrin tarixi şəraitin tələblərinə cavab verməsi onun dünya muzey sisteminə inteqrasiyasının sübutudur.

Muzeylər daim zənginləşmə məkanı kimi ümumbəşəri dəyərlərə qoşularaq öz xalqının tarixi irsinə marağı təmin edir. Müasir ictimai-mədəni cəmiyyətin inkişafının keçid dövrü olan transformasiya dövründə, dövlətin yeni siyasi-iqtisadi və mədəni əsaslarının formalaşmağa başladığı dövrdə muzeylərin rolu danılmazdır.

Ölkəmizin son illər sürətli inkişaf yoluna qədəm qoyması artıq dünya birliyində də yüksək qiymətləndirilir. Hazırda dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirmələri müstəqil dövlətimizin reytinqinin yüksək səviyyədə olmasından xəbər verir. Azərbaycan artıq mühüm beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi məkana çevrilib. Bu sürətli inkişaf muzeylərdən də yan keçməyib. Azərbaycanda fəaliyyət göstərən muzeylərin xarici muzeylərlə də əlaqələri genişlənir, muzey işi sahəsində müxtəlif beynəlxalq sənədlər imzalanır(8).

Tariximizin hər bir səhifəsini, qiymətli yadigarları olan maddi sərvətlərimizi - eksponatları gələcək nəsillərə ötürmək və eləcə də, bütün dünyaya tanıtmaq bizim mənəvi borcumuzdur. Bu baxımdan muzeylərimizin beynəlxalq aləmdə tanıdılması,

təbliği mühüm və çox əhəmiyyətli missiyadır.

Ölkəmizin aparıcı muzeylərindən olan Milli Azərbaycan Tarixi Muzeyinin müstəqillik dövründən bu günə kimi beynəlxalq əlaqələri, dünya muzeyləri ilə əməkdaşlığı geniş vüsət almışdır. Muzey son zamanlar beynəlxalq konfrans, simpoziumlarda fəal iştirak edir və xüsusilə son illər mütəmadi olaraq xarici ölkələr ilə təşkil olunmuş tədbirlərə ev sahibliyi edir. Muzey həmçinin tarixi əhəmiyyət kəsb edən maddi-mədəniyyət nümunələrimizin xarici ölkələrdə təbliği üçün muzey eksponatlarından ibarət sərgilər təşkil edir. Beynəlxalq aləmdə Azərbaycan tarixinin təbliği və tədqiqi sahəsində muzeydə mühüm addımlar atılır. Belə ki, muzeyin elmi əməkdaşları tərəfindən tariximizi və muzeyin materiallarının tədqiq və təbliği işində mühüm işlər görülür(8).

Milli Azərbaycan Tarixi Muzeyi xarici qonaqların daim diqqət mərkəzindədir. Son dövrlərdə Muzeyi ziyarət edən əcnəbi qonaqların və xarici dövlət nümayəndələrinin sayı çoxalıb. Bütün bunlar Milli Azərbaycan Tarixi Muzeyinin beynəlxalq aləmdə nüfuzunun artmasına dəlalət edir.

Azərbaycanın aparıcı muzeyi, tarixi irsimizin əsas qoruyucusu və təbliğatçısı olan Milli Azərbaycan Tarixi Muzeyinin beynəlxalq əlaqələrində əsas yeri milli tariximizin və mədəniyyətimizin xarici ölkələrdə tanıdılması, dünya muzeyləri və elmi mərkəzləri ilə əlaqələrin qurulması tutur. Həmin vəzifələrdən irəli gələrək Muzey son beş ildə bir sıra ölkələrdə öz kolleksiyasını sərgiləndirmiş, habelə özünün ekspozisiyasında xarici muzeylərin sərgilərini təşkil etmiş, muzey əməkdaşları Azərbaycanın xaricində keçirilən elmi simpozium və konfranslarda iştirak etmişlər.

2012-ci ilin əvvəlində Milli Azərbaycan Tarixi Muzeyi Avropa və Asiyanın muzeylər şəbəkəsi - ASEMUS-un layihəsi olan "Şah əsərlərin virtual kolleksiyası"na qoşulmuşdur. Layihənin məqsədi muzeylər arasında əlaqələri genişləndirmək, İnternet vasitəsilə muzey kolleksiyalarında olan ən nadir eksponatları nümayiş etdirmək, ölkələrin milli mədəniyyətini təbliğ etməkdir. Yüzdən artıq muzey ASEMUS layihəsində təmsil olunub. Onların içərisində Avstriya, Çin, Almaniya, Yaponiya, Hindistan, Pakistan, İtaliya, Fransa muzeyləri də vardır. MDB məkanında yalnız iki dövlət – Rusiya və Azərbaycan "Şah əsərlərin virtual kolleksiyası"nda iştirak etmişdir(6, s. 325).

2012-ci il martın 1-də Milli Azərbaycan Tarixi Muzeyinin Norveçin Kon-Tiki Muzeyi ilə əldə etdiyi razılığa əsasən dünya şöhrətli Norveç alimi, səyyahı Tur Heyerdala həsr olunmuş «Tur Heyerdal - Kon-Tiki adamı» («Thor-Heyerdahl – The Kon-Tiki Man») sərgisinin açılış mərasimi keçirilmişdir(8). Tədbirin təşkilatçıları Norveç Krallığının paytaxtı Oslo şəhərində yerləşən Kon-Tiki Muzeyi, Norveç Krallığının Azərbaycan Respublikasındakı Səfirliyi və Milli Azərbaycan Tarixi Muzeyi idi. Sərgidə Tur Heyerdalın həyat və fəaliyyətini əks etdirən posterlər, ekspedisiyalar zamanı istifadə olunan avadanlıq və film göstərilmişdir.

2012-ci ilin oktyabrında Muzeydə IV Beynəlxalq Türk əl toxumaları (tekstil) və ənənəvi sənətlər Konqresi keçirilmişdir(8). Konqres Milli Azərbaycan Tarixi

Muzeyi, Azərbaycan Dövlət Xalça və Xalq Tətbiqi Sənəti Muzeyi, Türkiyənin Səlcuq Universitetinin birgə təşkilatçılığı ilə həyata keçmişdir. Azərbaycan və Türkiyə alimlərinin iştirak etdikləri bu konqresdə türk əl toxumalarının və ənənəvi sənət növlərinin (dulusçuluq, xəttatlıq və s.) tarixindən və keçdiyi inkişaf və təkamül yolundan, onların hazırlanma texnologiyasından, tarixi-mədəni əhəmiyyətindən bəhs edən məruzələr dinlənilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çexiya Respublikasına rəsmi səfəri çərçivəsində 2012-ci il aprelin 5-də "Milli Azərbaycan Tarixi və Çexiya Milli Muzeyləri arasında Anlaşma Memorandumu" imzalanmışdır(6, s. 325). Memorandumda iki muzey arasında uzunmüddətli əməkdaşlıq münasibətlərinin qurulması, ümumi layihələrin, o cümlədən, sərgi və konfransların keçirilməsi, qarşılıqlı nəşr mübadiləsi və digər məsələlər nəzərdə tutulmuşdur.

2012-ci ildə Muzey əməkdaşları Çexiyanın Ostrava şəhərində keçirilən Azərbaycana həsr olunan sərgi üçün material seçmiş, sərginin kataloqu üçün mətnlər hazırlamışlar. Sərgilənəcək eksponatlar oktyabrda Ostrava Milli Muzeyinə göndərilmişdir. Həmin ilin dekabrın 18-də sərgi açılmışdır. Sərgidə Milli Azərbaycan Tarixi Muzeyinin 104, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin 118 adda müxtəlif çeşidli eksponatları nümayiş etdirilirdi. Bu eskponatlar içərisində orta əsrlərə aid müxtəlif təyinatlı soyuq silahlar, çaxmaqdaşlı tüfəng və tapancalar, müdafiə silahları sayılan zirehlər, dəbilqələr, sinəbəndlər; qədim dövrlərə aid sikkələr, XVIII-XIX əsrlərin zərgərlik məmulatlarından qızıl və gümüş bəzək əşyaları, Azərbaycan məişətini əks etdirən mis qablar, nəfis tikmə nümunələri, Azərbaycanın ayrı-ayrı xalçaçılıq məktəblərinin ənənələrini göstərən xalça və xalça məmulatları vardı. Sərgi çərçivəsində çap olunan "Əbədi odlar yurdu" kitabının 1-ci cildi Milli Azərbaycan Tarixi Muzeyinin eksponatlarına həsr olunub. Kitabın tərtibatında maraqlı üslub seçilmişdir: Azərbaycan tarix və incəsənətinin müxtəlif səhifələri Milli Azərbaycan Tarixi Muzeyinin eksponatlarına həsr olunmuş məqalələr vasitəsilə oxuculara təqdim olunur. Kitabda həm azərbaycanlı, həm də çex tədqiqatçılarının Azərbaycanın tarixi-mədəniyyət abidələri, XVIII-XIX əsrlər Azərbaycan misgərliyi, zərgərlik məmulatları, orta əsr Azərbaycan sikkələri, silahları haqqında məqalələri yer alıb(6, s. 326).

Azərbaycan-Vatikan diplomatik əlaqələrinin qurulmasının 20 illiyi ilə əlaqədar Heydər Əliyev Fondunun təşəbbüsü ilə 14 noyabr 2012-ci ildə Vatikanda "Azərbaycan inciləri" adlı sərginin açılışı oldu. Sərgidə Milli Azərbaycan Tarixi Muzeyinin maddi mədəniyyət sərvətlərimizi əks etdirən 47 eksponatı nümayiş etdirildi. Sərgini 7800 tamaşaçı ziyarət etmişdir (8).

Çexiya Milli Muzeyinin dəvəti ilə Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik N.Vəlixanlı və Elmi fond işləri üzrə direktor müavini, t.ü.f.d. M.Zeynalova iyunun 5-10-da Praqa şəhərinə ezam olunmuşlar. Səfərin məqsədi iki muzey arasında əlaqələri inkişaf etdirmək, təcrübə mübadiləsi, birgə sərgilərin

keçirilməsi haqqında razılaşma əldə etmək idi. Danışıqlar nəticəsində 2013-cü ilin 1-ci yarısında Milli Azərbaycan Tarixi Muzeyində "Çexiya qranatı (süleyman daşı)" sərgisinin, 2014-cü ildə isə Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasından ibarət sərginin Çexiyada keçirilməsi haqqında razılıq əldə edildi. Oktyabrda Çexiya Milli Muzeyinin nümayəndələri Bakıda olmuş və MATM-nin rəhbərliyi ilə "Çexiya qranatı" sərgisinin keçirilməsi ilə əlaqədar təşkilati məsələləri müzakirə etmişlər.

2014-cü il noyabrın 29-da Çexiya Milli Muzeyi ilə bağlanılan memorandum əsasən Praqa şəhərində Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında "Azərbaycan - möcüzəli odlar yurdu" sərgisi açılmış, 2015-ci ilin 15 fevralınadək davam etdirilmişdir(7, s. 14). Sərgidə Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasından ibarət 243 ədəd material, o cümlədən, Azərbaycanın qədim tarixini və mədəniyyətini əks etdirən arxeoloji, etnoqrafik, numizmatik materiallar, silahlar, bayraqlar nümayiş olunmuşdur. Sərgi çex tamaşaçısını və ölkənin qonaqlarını Azərbaycanın tarixi, dövlətçilik ənənələri, mədəniyyəti,o cümlədən musiqisi ilə əyani olaraq tanış etməklə yanaşı, Çexiyanın "Narpstek" muzeyində qorunan Azərbaycanla bağlı 50 eksponatı da ziyarətçilərə təqdim etmişdir. Noyabrın 27-də keçirilən təntənəli açılış mərasimində Çexiya Respublikasının xarici işlər, mədəniyyət nazirlikləri və digər dövlət qurumlarının nümayəndələri, habelə bu ölkədə akkreditə olunmuş diplomatik korpusların təmsilçiləri, çex və Azərbaycan icmasının nümayəndələri iştirak etdilər. İştirakçılara Azərbaycanın mədəniyyəti və tarixi haqqında müxtəlif nəşrlər, o cümlədən Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən hazırlanmış sərginin kataloqu paylanıldı (1, s. 402).

Qeyd etmək lazımdır ki, sərgilərimiz təşkil olunarkən maarifləndirici tədbirlərlə müşayət olunur. Bu dəfə də Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı ətraflı məlumatların verilməsi məqsədilə sərgi davam etdiyi müddətdə silsilə məruzələr oxunmaqda davam etmişdir. Təqdiredici haldır ki, Çexiya alimləri də Azərbaycanı təbliğetmə işində fəallıq göstərmişlər (5, s. 139). Professor, elmlər doktoru Eduard Gombar "Azərbaycan – möcüzəli odlar yurdu" mövzusundakı məruzəsində Azərbaycan xalqının mənşəyi, ölkəmizin tarixi, xalqımızın adət-ənənələri haqqında məlumat verilmişdir. Daha sonra Adriana Stibrna Azərbaycanın görkəmli şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı, onun ümumbəşəri mahiyyət daşıyan ədəbi irsindən məruzə oxumuşdur. Qonaqlara Azərbaycan mətbəxi nümunələrindən ibarət süfrə açılmış, mətbəximizin xüsusiyyətləri haqqında məlumat verilmiş, eləcə də Azərbaycan rəqsinin bəzi nümunələri nümayiş edilmişdir. Sonrakı aylarda Azərbaycan mədəniyyətinin vizit kartı olan Azərbaycan xalçalarının yaranma və inkişaf tarixi, dünya kolleksiyalarında qorunan Azərbaycan xalçaları haqqında, dahi Azərbaycan şairi N.Gəncəvinin Şərq poeziyasına verdiyi töhfələrdən, həmçinin onun əsərlərində Makedoniyalı İskəndərin obrazının əks olunmasından söhbət açılmışdı.

Sərgiyə gələn balaca uşaqlar da diqqətdənkənar qalmamışlar. Çex uşaqlarına Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı ətraflı məlumat verilməsi üçün

xüsusi uşaq proqramı tərtib edilmişdir. Uşaqlar üçün hazırlanan proqramda Azərbaycanın coğrafi mövqeyi, ölkənin adının mənası, dövlətçilik simvolları, tarix və mədəniyyətinin xüsusiyyətləri sual-cavab şəklində təqdim olunmuşdur. Bütün bu təşkil olunanlar Azərbaycanı tanıtmaq ─ tarix və mədəniyyətimizin təbliğində böyük rol oynamışdır(5, s. 140).

Son illər xarici dövlətlərin Azərbaycandakı səfirlikləri ilə əlaqələr daha da intensivləşmiş, Türkiyə Respublikası, Rusiya Federasiyası, Belarus Respublikası, Niderland krallığı səfirlikləri, eləcə də Türkiyə Kültür Mərkəzi, Rusiya Mədəniyyət Mərkəzi ilə birgə tədbirlər keçirilmişdir. Bakının erməni-boloşevik qüvvələrindən azad edilməsinin 95 illiyinə həsr olunmuş "Qafqaz İslam Ordusu və Bakının azad edilməsi – 95" sərgisi Türkiyə səfirliyi və Türkiyə Mədəniyyət Mərkəzi ilə birlikdə qurulmuşdur (16.09.2013); Belarus uğrunda vuruşmuş azərbaycanlılara həsr olunmuş "Они сражались за Беларусь» ("Onlar Belarus uğrunda vuruşmuşlar") kitabının təqdimatı Belarus səfirliyi və Azərbaycan-Belarus dostluq cəmiyyəti ilə birlikdə keçirilmişdir (27.06.2013); Muzey tərəfindən həmin kitabın və fotosərginin Minsk şəhərindəki Belarus Milli Tarix Muzeyində təqdimatı da olmuşdur (iyun, 2014) (1, s. 14).

Bütün fəaliyyəti ərzində dünyanın müxtəlif muzeyləri ilə əməkdaşlıq edən, sərgilərdə, toplantı və forumlarda iştirak edən Milli Azərbaycan Tarixi Muzeyi bu gün də bu ənənəni davam etdirir. Azərbaycanın zəngin mədəniyyətini xaricdə nümayiş etdirmək işində muzey əməkdaşları böyük səy göstərirlər. Onlar hər il Azərbaycanda və xaricdə keçirilən mötəbər elmi konfranslarda, seminarlarda, treninq kurslarında iştirak edirlər.

Muzey Rusiya, Türkiyə, ABŞ, Almaniya, Çin, Norveç, Vatikan, Çexiya və b. ölkələrlə əlaqələr qurmuş, Vatikanda (2012), Çexiyanın Ostrava (2012-2013) və Praqa (2014-2015) şəhərlərində sərgilərlə çıxış etmişdir. Muzeyin elmi əməkdaşları Norveçdə, Rusiyada, Türkiyədə, Suriyada, Birləşmiş Ərəb Əmirliklərində, Macarıstanda, İtaliyada, Fransada, İspaniyada, Avstriyada, Belarusda, Ukraynada, Özbəkistanda, Yaponiyada, Çində, Polşada, Almaniyada və b. ölkələrdə keçirilən konfrans, forum və simpoziumlarda məruzələrlə iştirak etmişlər(1, s. 11).

Muzeyin Elmi işlər üzrə direktor müavini, t.ü.e.d. Nərgiz Əliyevanın Sankt-Peterburqda Rusiya Milli Kitabxanasının və Hollandiya Krallığının Baş Konsulluğunun birgə təşkil etdiyi "Mədəni irsin aşkara çıxarılması: kitabxanalar, arxivlər və muzeylər üçün yeni çağırışlar" beynəlxalq elmi konfransında "Milli AzərbaycanTarixi Muzeyinin eksponatlarının rəqəmsallaşdırılması problemi və onların həlli yolları", Türkiyənin Samsun şəhərində Canik Bələdiyyəsi və "History Studies" beynəlxalq dərgisinin birgə təşkil etdiyi "Keçmişdən günümüzə - Qadın" V Beynəlxalq Canik simpoziumunda "XIX-XX əsrlərdə azərbaycanlı qadınların geyimlərində milli-dini dəyərlər" (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında), Astanada Qazaxıstan Respublikasının I Prezidentinin Muzeyin 10 illiyinə həsr olunmuş "Muzey – müasir cəmiyyətdə. Yeni inkişaf yollarının axtarışları"

beynəlxalq tədbirində "Azərbaycan və Qazaxıstanın dostluq əlaqələrinin inkişafında Milli Azərbayzan Tarixi Muzeyinin rolu" mövzularında məruzələri "Milli Azərbaycan Tarixi Muzeyi: Tarix, Elm və Mədəniyyət" adlı topluya daxil edilmişdir(5, s. 5).

Müəllifin bu səpgidə seçilmiş məqalə və məruzələr toplusunda toplanması Muzeyin yarandığı dövrdən etibarən müasir dövr də daxil olmaqla Azərbaycanda tarixin, elmin və mədəniyyətin inkişafına verdiyi töhfələri ön plana çıxarmaq məqsədi daşımışdır.

2014-cü ildə Muzeyin beynəlxalq əlaqələrdə əldə etdiyi mühüm uğurlardan biri iyulun 3-də Belarus Respublikasının paytaxtı Minsk şəhərində ölkənin alman-faşist işğalçılarından azad olunması ilə bağlı silsilə tədbirlər sırasında Azərbaycan döyüşçülərinə həsr olunmuş kitabın təqdimatı keçirildi. Belə ki, Belarus Milli Tarix Muzeyi ilə Milli Azərbaycan Tarixi Muzeyi arasında əldə olunmuş razılaşmaya görə əsasən MATM tərəfindən 2011-ci ildə hazırlanmış və Belarus uğrunda döyüşlərdə iştirak etmiş azərbaycanlılara həsr olumuş "Onlar Belarus uğrunda vuruşublar..." kitabının təqdimatı və müvafiq fotosərgi keçirildi. Təqdimat mərasimində və sərginin açılışında Minsk şəhərinin Azərbaycan icması, habelə Belarus ictimaiyyətinin nümayəndələri, veteranlar, KİV nümayəndələri iştirak etmişlər(1, s. 402).

Bildiyimiz kimi, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Prezident İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq milli mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulmuşdur.

2015-ci ildə Milli Azərbaycan Tarixi Muzeyi öz xarici əlaqələrini genişləndirərək Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin texniki dəstəyi ilə Rusiya Dövlət Tarixi Muzeyi ilə birbaşa telekörpü qurmuşdur. Hər iki muzeyin direktorları arasında baş tutan telekörpü zamanı birgə əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmış, mütəxəssis hazırlığı, ekspozisiyaların qurulması, elmi tədqiqatların aparılmasında təcrübə mübadiləsi barəsində razılıq əldə edilmişdir(2). Bundan başqa Muzeydə "Müasir muzeylərdə bərpa və konservasiya metodikası" mövzusunda seminar keçirilmişdir. Seminarda Ankaranın Qazi Universiteti İncəsənət fakültəsinin "Maddi mədəniyyətin qorunması" bölümünün müəllim heyəti, muzeyin Bərpa laboratoriyasının mütəxəssisləri, fond müdirləri iştirak etmişlər. Seminarda muzeylərdə maddi mədəniyyət nümunələrinin qorunması, bərpası ilə bağlı məruzələr dinlənilmiş, sənət əsərlərinin mühafizəsinə dair müzakirələr aparılmışdır(7, s. 468).

Alimlərimiz dünyanın bir çox ölkələrində elmi məqalə və kitablar nəşr etdirməklə yanaşı, tariximizlə bağlı məruzələrlə çıxışlar edirlər. Biz müasir dövrdə qonşularımızın hər vasitə ilə tariximizi saxtalaşdırmalarına qarşı faktlarla, mənbələrin dili ilə tutarlı cavab verməliyik. Muzeyin tarixçi-alimləri beynəlxalq

konfrans və simpoziumlarda qarşılaşdıqları belə bir vəziyyətdə saxtalaşdırılmış tariximizi faktlara sübut etmişlər.

Bu yaxınlarda Muzeyin numizmat-alimi, Numizmatika və Epiqrafika Elmi Fond Şöbəsinin müdiri Əli Rəcəbli tərəfindən Sankt-Peterburqda ermənilərin növbəti təxribatının qarşısı alınmışdır. 2016-cı il sentyabrın 26-dan 29-dək Sankt-Peterbuqrda, Dövlət Ermitajında İkinci Beynəlxalq "İCON II" konfransı keçirilib(8). Ə.Rəcəbli Şərq numizmatikasına həsr olunmuş konfransda erməni numizmantı tərəfindən Gəncə, Qarabağ və İrəvan torpaqlarının qədim erməni ərazisi kimi təqdim olunmasının qarşısını almış və onlara tarixi faktlara söykənərək tutarlı cavab vermişdir. Tədbirdə erməni tarixçisi Aleksandr Akopyanın "1747-1827-ci illərdə "Şərqi Ermənistan" sözləri və onunla bağlı ifadələr mətndən ixtisar edilmişdir. Konfransın son günündə professor Əli Rəcəbli "XVIII-XIX əsrlərdə Azərbaycan xanlıqlarında zərbxana işi və və pul dövriyyəsi " adlı məruzə ilə çıxış etdi. Azərbaycan aliminin çıxışı konfransın gedişində əsaslı dəyişikliyə səbəb oldu və ermənilərin növbəti yalanını yaymaq cəhdinin qarşısı alındı (5, s. 146).

2016-cı ildə (cari ildə) Milli Azərbaycan Tarixi Muzeyi ilə Çin Milli Muzeyi və Koreya Milli Muzeyi arasında əməkdaşlıq əlaqələrinin qurulmasına dair ilkin razılaşma əldə edilib. Çin Milli Muzeyinin rəhbərliyi ilə Bakıda aparılmış danışıqlar, həmçinin Koreya Milli Muzeyinin rəhbərliyi ilə rəsmi yazışmalar nəticəsində birgə əməkdaşlıq haqqında fikir mübadiləsi apaılmış, qarşılıqlı sərgilərin keçirilməsi, elmi tədqiqatların aparılmasında təcrübə mübadiləsi və s. barəsində razılıq əldə edilmişdir(3, s. 501).

Bu gün MATM-nın fəaliyyətinin əsas istiqaməti tarix elminin son nailiyyətinə və muzeyşünaslığın dünya təcrübəsi ilə təsdiq edilmiş müasir prinsiplərinə əsaslanaraq ekspozisiyanın qurulması, onun daim zənginləşdirilərək təkmilləşdirilməsini təşkil edir. Muzey həmçinin turizm və interaktiv proqramlarını hazırlamaq sahəsində bir sıra işlərin görülməsini nəzərdə tutub: turizmin inkişafı üçün muzeylərin turist marşrutlarına salınması, geniş tamaşaçı kütləsi ilə aparılacaq işlərin təkmilləşdirilməsi məqsədi ilə kataloq, təqvim, broşür və süvenirlərin hazırlanması, təşkil edilən sərgilər barədə sorğu-məlumat kitabçalarının mütəmadi buraxılışı və s. işlər həyata keçirilir.

Bütün bunlar Milli Azərbaycan Tarixi Muzeyinin beynəlxalq aləmdə nüfuzunun artması ilə şərtlənir.

Onu da qeyd edək ki, Milli Azərbaycan Tarixi Muzeyində 2020-ci ildə baş tutacaq Muzeyin 100 illiyik yubileyinin təntənəli keçirilməsi nəzərdə tutulub. Elə həmin ildə MATM muzeyin 100 illiyinə həsr olunan beynəlxalq elmi konfrans planlaşdırır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 2014-cü ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı// Milli Azərbaycan Tarixi Muzeyi-2014. Bakı. 2014.
2. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 2015-cü ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı// Milli Azərbaycan Tarixi Muzeyi-2015. Bakı. 2015.
3. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 2016-cü ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı// Milli Azərbaycan Tarixi Muzeyi-2016. Bakı. 2016.
4. Eyvazova.Y. Muzey işi - mədəni quruculuğun mühüm amili// "Xalq" qəzeti. 09 dekabr 2013.
5. Əliyeva Nərgiz. Milli Azərbaycan Tarixi Muzeyi: Tarix, Elm və Mədəniyyət (Məqalə və məruzələr toplusu). "Elm və təhsil". Bakı. 2017.
6. Milli Azərbaycan Tarixi Muzeyinin 2012-ci ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı//Milli Azərbaycan Tarixi Muzeyi-2012. Bakı-2012.
7. Milli Azərbaycan Tarixi Muzeyi- tarixi yaddaşımızın, mədəni irsimizin qoruyucusu//Azərbaycan Milli Elmlər Akademiyası 70 –Milli Azərbaycan Tarixi Muzeyi. Bakı. 2015.
8. Milli Azərbaycan Tarixi Muzeyi. http://www.azhistorymuseum.az.

Aynur Babayeva

International relations of National Azerbaijan History Museum in modern period (2012-2016)

Summary

Key words: *museums, National Museum of History of Azerbaijan, international relation, conference, exhibition, event, contract.*

Museums' tremendously enhanced role in social and cultural spheres in modern period has led to its active and strong involvement in cultural processes taking place across the world Today, museums that withstand the negative impact of globalization process and realities associated with past which are considered to be sacramental places protecting cultural heritage. This article examines the international affairs of the National Azerbaijan History Museum during the past five years.

Айнур Бабаева

Международные связи Национального Музея Истории Азербайджана в современный период (2012-2016)

Резюме

Ключевые слова: *музеи, Национальной Музей Истории Азербайджана, международные отношения, конференс, выставка, мероприятие, контракт.*

Значительное повышение социокультурной роли музеев в современный период сделало их активным участником культурных процессов на международной арене. Сегодня музеи считаются священными очагами сохранения материального наследия, противостоящие негативным последствиям глобализации, воплощают в себе факты прошлого и защищают культурное наследие. В статье рассматриваются международные связи Национального Музея Истории Азербайджана.

Şiriyev Tural

Lerik rayonunda yerləşən Bobogil türbəsi haqqında

Açar sözlər: *Lerik, Bobogil, türbə, ziyarətgah, din*

UOT 39

İslam dininin Azərbaycanın maddi mədəniyyətində əks olunduğu səciyyəvi elementlərindən biri də xalq arasında müqəddəs hesab edilən ziyarətgahlardır. Uzun əsrlər boyu insanların inanc sistemində mühüm yer alan və əhali tərəfindən kütləvi olaraq ziyarət edilən belə dini ocaqlar islam ideyalarının cəmiyyət üzərində təsirinin güclü olduğu Orta əsrlərdə xalqın sosial-siyasi və mədəni həyatında, eləcə də, ictimai münasibətlərinin möhkəmlənməsində böyük rol oynamışdır.

Qeyd edək ki, ziyarətgahların müqəddəsliyi islam dünyasının əsasən sufi və şiə əqidəsinə mənsub olan əhalisi arasında qəbul edilir. Azərbaycanda təxminən XVI əsrə qədər sufilərin, Səfəvi sülaləsinin hakimiyyətə gəldiyi və bununla əlaqədar şiəliyin geniş yayıldığı sonrakı dövrlərdə isə, ziyarətgahlar daha çox şiə təriqəti ilə əlaqələndirilir (5, s.186). Türbələrdə adətən Allaha itaət etməklə yüksək mənəvi məqamlara çatmış hesab edilən müqəddəs insanlar dəfn olunduğu üçün, belə ocaqlar bir növ Allahla yaxın ünsiyyət üçün vasitə kimi qəbul edilirdi. Odur ki, ziyarət yerləri insanların Allaha müxtəlif ehtiyac, arzu-diləklə üz tutub sığındıqları ocaqlar hesab olunurdu. Həyatlarının müxtəlif sahələrində məqsədə çatmaq, uğur əldə etmək üçün insanlar ziyarətgahlara üz tutur və burada qurbanlar kəsərək, dualar edərdilər. Qeyd edək ki, şiələr arasında dinin yüksək məqamlı şəxsiyyətlərinə ehtiram əlaməti kimi onların məzarları üzərində tikilən türbələrin ziyarət edilməsi hər zaman Allahdan yardım ummaq məqsədi daşımırdı; bəzi hallarda isə hər bir şiə-müsəlman, bütövlükdə, Allahın məhəbbətini qazanmaq, yaxud mərhəmətə layiq olmaq üçün Onun "seçilmiş müqəddəs bəndələr"inin ziyarət edilməsini özünə bir növ bəndəlik borcu hesab edirdi.

Azərbaycanda ziyarətgahlar həmişə insanların and yeri olmuşdur.

Məlumatçılar qeyd edir ki, keçmişdə də müqəddəs ziyarətgahların ehtiramını qorumaq məsələsinə olduqca diqqət göstərilirdi. Ziyarətgahların xalq arasında olan nüfuzuna dair bəzi müəlliflərin qeyd etdiyi kimi, hətta adətə uyğun olaraq, müqəssirlər, təqib olunan şəxslər də ziyarətgaha sığındığı müddətdə amanda olur və onlara toxunmaq, zərər vurmaq doğru hesab edilmirdi (10, s.4). Yolunu azanlar, yaxud uzaq səfərə çıxmış şəxslər də gecə qalmaq üçün əmin-amanlıq yeri kimi məsçidlərə, bəzən də türblərə üz tutardılar (16).

Xalq arasında məşhur olan belə ziyarətgahlardan biri də Azərbaycanın Lənkəran-Astara bölgəsində ən tanınmış dini-tarixi memarlıq abidələrindən sayılan Bobogil türbəsidir. Bölgə ərazisində xeyli sayda qədim ziyarətgahlar vardır. Lakin bu ziyarətgahlardan ən məşhuru və əhali tərəfindən daha çox əhəmiyyət veriləni məhz Bobogil türbəsidir. Lerik rayonunda, hazırda Bobogil adlanan kəndin ərazisindəki qədim qəbiristanlıqda yerləşən Bobogil//Babagil ziyarətgahı yerli əhali arasında böyük əhəmiyyət daşıdığına görə, yerləşdiyi kənd də öz adını türbənin adından almışdır (9, s.41).

Qeyd edək ki, Bobogil türbəsi sıx şumşad meşəsindən keçən magistral yolun kənarında və XV əsrə aid edilən qəbiristanlıqda yerləşir. Qəbiristanlıqda Ağqoyunlu və Səfəvi dövrlərinə aid olan müxtəlif formalı – qoç fiqurlu, günbəz, çalma papaqlı və üzərində günəş təsvirli xeyli sayda məzar daşlarına da rast gəlmək mümkündür. Sənətşünas Nəsir Rzayev yazır ki, bu qədim qəbiristanlıqda onların günəş ayini ilə yaxınlığını qəbir daşlarına həkk edilmiş günəş təsvirləri sübut edir (11, s.47).

Əhalinin inancına görə, ərazidə şumşad ağaclarının yabanı bitməsi məhz ziyarətgahın burada yerləşməsi ilə əlaqədardır (16). Məlumatçıların da dediklərinə görə, Azərbaycanda əsasən Lənkəran, Astara və Lerik rayonları ərazisində mövcud olan şumşad meşələri yalnız müqəddəs övliyaların məzarlarının yerləşdiyi ərazilərdə bitir (16).

Bobogil ziyarətgahının meydana gəlməsi tarixi ilə bağlı xalq arasında bir sıra rəvayətlər də mövcuddur. Yaşlı informatorların verdiyi məlumata görə, Bobogil ziyarətgahı burada dəfn olunmuş, bir vaxtlar Gilandan Astaraya gələn və Dəmirçilər (Osnəkəran) adlı kənddə məskən salmış yüksək dərəcəli ruhani və sərkərdə olan Sultan Babanın adı ilə əlaqədardır. Bobogil (Babagil) sözünün etimologiyası da, deyilənlərə görə, gilanlı Baba mənasını daşıyır (13). Lakin başqa məlumatçılar "Bobogil" sözünün "Baba nəsli" mənasında olduğunu bildirirlər (Burada cəm şəkilçisi olan "gil" nəsildaxili qohumluğu bildirir) ki, bu mülahizə həqiqətə daha yaxındır. (15). Sənətşünas N.Rzayev «Əsrlərin səsi» kitabında Babagil sözü haqqında belə izah verir: «Babagil-babaların torpağı, babaların yaşadığı yer deməkdir". Daha sonra qeyd edir ki: "... Qəbiristanlıqda Babagil adlı müqəddəs şəxs dəfn edildiyi üçün bu qəbiristanlıq da müqəddəs yer hesab edilir. Əslində isə, bunun səbəbi daha qədim ənənələrin indiyə kimi qorunub saxlanılmasıdır. O ənənə qədim babalara, onların ayininə olan hörmət və pərəstişkarlıqdan ibarətdir» (11, s.35).

Yerli tədqiqatçı H.Vəliməmmədov qeyd edir ki, bu nəsil əsasən Baba Davud, Baba Peyda, Baba İsa, Baba Məhəmməd, Pir Baba, Baba Rəhman və Baba Həsən adlı yeddi qardaşı özündə birləşdirməklə, "Bobogil" adlandırılmışdır (12, s.7). Məlumatçılar qeyd edirlər ki, əsl adı Nizaməddin Şahsevər Kəskəri olan Sultan Baba XI əsrdə yaşamış və öz dövrünün tanınmış din xadimlərindən olmuşdur (14). Bəziləri isə onun, eyni zamanda, sərkərdə olduğunu da qeyd edirlər (16). Lakin, yerli sakinlərin türbədə dəfn olunmuş Şahsevər Kəskərinin XI əsrdə yaşadığı haqqında verdikləri məlumatlar, görünür Əmir Şahsevərə deyil, onun sələflərinə aiddir.

Sultan Babanın etnik mənşəyi ilə bağlı geniş yayılmış digər bir rəvayət də budur ki, o, yeddinci şiə imamı Museyi-Kazımın nəvəsi olmuşdur. Bu baxımdan qeyd edilir ki, Babagil nəsli Səfəvilərlə qohumluq şəcərəsinə mənsubdurlar (14). Lakin, qeyd edək ki, bu mülahizə elmi ədəbiyyatda öz təsdiqini tapmamışdır. Digər tərəfdən Səfəvilərin şiə imamları ilə qohumluq əlaqələrinin olduğu haqqındakı fikirlər də Azərbaycan tarixşünaslığında mübahisəli mövzudur. Tarixçilər arasında Səfəvi sülaləsinin etnik mənsubiyyəti ilə bağlı kifayət qədər fərqli fikirlər mövcuddur. Səfəvilər dövrünün görkəmli tədqiqatçısı, professor O.Əfəndiyevə görə, V.V.Bartold və İ.P.Petruşevskinin Şeyx Səfiəddin və onun nəslinin Məhəmməd Peyğəmbərin nəslindən deyil, məhz türk mənşəli sülaləyə mənsub olması haqqındakı mülahizələri həqiqətə daha uyğundur (3, s.39).

Əbdül Fəttah Fuməni «Tarixi Gilan» adlı əsərində Nizaməddin Əmirə Şahsevər Gilani Kəskəri adlı şəxsin I Şah Təhmasibin zamanında yaşadığını və onun 1578-ci ildə Biyəpuş qoşunu ilə vuruşma zamanı öldürüldüyünü qeyd edir (5, s.48). Bobogil türbəsi haqqında mövcud sənədlər isə abidənin hələ Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsinə qədərki dövrdə, yəni XV əsrdə artıq mövcud olduğunu göstərir. Bu isə Tağı Musəvinin «Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər» adlı tədqiqat əsərində yer alan mövcud faktlara əsasən Sultan Babanın Bobogilin (Baba nəslinin) xələflərindən olduğu qənaətinin doğruluğuna əsas verir (7, s.6). Məlumatçıların bəzi qeydləri də deyilənləri təsdiq etməkdədir.

Etnoqrafik məlumatlara əsasən, ziyarətgah üzərindəki məqbərə XVI əsrə qədər artıq mövcud olmuşdur. Bəzilərinə görə, burada hələ XII-XV əsrlərdə böyük tikinti kompleksi olmuşdur. Bunlar əsasən xatirə türbələrindən ibarət olmuşdur (12, s.7). Əldə olan tarixi sənədlər də I Şah İsmayılın taxta çıxmasına qədərki dövrdə məqbərənin mövcud olduğunu təsdiq edir. Səfəvi sülaləsinin hakimiyyəti dövründə isə əhəmiyyətli ziyarətgahlardan biri kimi diqqətə alınmışdır.

Qeyd edək ki, Bobogil türbəsi haqqında olan sənədlərdə "Sultan Baba" nəzərdə tutulan şəxsin ləqəblərindən olmuşdur. Onun əsl adı isə sənədlərdə qeyd olunmur və tarixə məlum deyil (9, s.41). Epiqraf M.Nemət də sənədlərdə bunu əsas tutaraq, yazır ki, "... Asnaqaran kəndində məqbərədə yaşayıb, müqəddəs şeyxin işini davam etdirən övladları, müridləri onun adını unudublarsa, demək, Babagilin həyat və fəaliyyəti dövrü sufilik ideyalarının Azərbaycanda yayılmağa başladığı lap ilkin

dövrlərə - XI əsrə aiddir" (9, s.41).

XV-XVI əsrlərə aid olduğu təsdiq edilən bu abidə ilə bağlı heç bir epiqrafik kitabə aşkar edilməsə də, onun tarixi haqqında dəyərli məlumatlar verən altı tarixi sənədin orjinalı hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxivində qorunmaqdadır. Bu tarixi sənəddən başqa, abidə haqqında müfəssəl yazılı mənbə hələlik qeydə alınmamışdır.

Bobogil haqqında müxtəlif dövrlərdə yaşamış tarixçilər və təzkirəçilər öz əsərlərində müəyyən məlumatlar vermişlər. Lakin AMEA Tarix İnstitutunun Elmi arxivində saxlanılan həmin altı sənəd, hələlik türbə haqqında mövcud olan ən qədim sənəd hesab olunur və daha geniş məlumatlar verir. Üç əsrə yaxın bir dövrü əhatə edən bu sənədlərdə bir çox vergi növlərinin adı çəkilir və dövrün ictimai münasibətləri işıqlandırılır. Bu baxımdan, demək olar ki, həmin sənədlər göstərilən dövr üçün Azərbaycan tarixinin öyrənilməsi baxımından əhəmiyyətli orjinal mənbə sayıla bilər.

Mətni fars dilində yazılmış sənədlərdə ara-sıra ərəb və talış dillərindən olan sözlərə də rast gəlmək mümkündür. 1965-ci ildə Tarix İnstitutunun nəşr etdiyi T.M.Musəvinin "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" adlı əsərdə həmin sənədlər öyrənilmişdir.

Əmir Əhməd adlı məmurun göstərişi ilə hazırlanmış və hicri 915-ci ilə (miladi 1508-ci il) aid olan birinci sənəddə Bobogil türbəsinin yerləşdiyi Asnaqaran (talış dilində "dəmirçi" mənasını verən bu toponim əslində Osonəkəran//Osnəkərandır – *T.Ş*) kəndinin hələ xeyli əvvəllər türbəyə vəqf olunduğu göstərilir (1, iş №298). Qeyd edək ki, vəqf torpaqlarının gəliri vəqfi verən şəxsin vəsiyyətinə əsasən məsrəf edilə bilərdi. Vəqf olunan əmlak vəqfnaməyə müvafiq sürətdə idarə edilməli idi (4, s.51). Həsən bəy Rumlu yazır ki, əmlak çox halda mədrəsə və türbələrə vəqf edilərdi (4, s.51).

Azərbaycanda vəqf təsisatı, Səfəvilər sülaləsi hakimiyyətə gəldikdən sonra xüsusilə geniş yayıldı. Bobogil məqbərəsi və övladları ilə bağlı olan sözügedən sənədlərin, demək olar ki, hər birində onların xeyli sayda vergi mükəlləfiyyətindən azad olunmaları və onların bağışlanmaları xüsusi olaraq göstəriş verilir. O.Əfəndiyev buna işarə edərək yazır ki, vəqf torpaqlarından hökümət üçün vergi yığılmır və vəqf əmlakı toxunulmaz sayılırdı (12, s.30). Ona görə də, "vəqflər adətən vergi və inzibati toxunulmazlıq hüququndan istifadə edir və çox nadir hallarda müsadirəyə məruz qalırdı. Odur ki, feodallar bu yolla öz mülkiyyətlərini şiə ruhanilərinin etibarlı mühafizəsi altına keçirir və öz soyadının ardınca mütəvəlli (vəqf işləri müdiri – *T.Ş*) vəzifəsini yazdırmaqla xəzinəyə ödəyəcəyi vergilərdən canlarını qurtarırdılar" (3, s.246).

Sənəddə, eyni zamanda, Bobogil nəslinə mənsub olan şəxslərin bütün vergi mükəlləfiyyətlərindən azad olunduğu haqqında məlumat vardır: "Böyük Əmirzadə Əmir Əhmədin göstəriş verərək vergilərdən azad etdiyi və Əmir Sultan Mahmudun qərara aldığı və təsdiq etdiyi qaydadan kənara çıxıb, Bobogilin övladlarına əziyyət

verməsinlər" (1, iş №298). Sənədin haşiyə hissəsində verilən bu qeyd Bobogil nəslinin yüksək məqamlı ruhani kimi böyük nüfuz sahibi olduqlarını və dövlət məmurları tərəfindən onlara xüsusi ehtiramla yanaşıldığını açıq-aşkar təsdiq edir.

Qeyd edək ki, Asnaqaran kəndinin Bobogil məqbərəsi üçün vəqf edildiyi və Bobogil övladlarının vergilərdən azad edilməsi qaydası Sultan Mahmud Mirzənin təsdiq etdiyi hicri 919-cu il (1513-cü miladi il) tarixli fərmanda (2 №-li sənəd) da nəzərdə tutulurdu (1, iş №303).

Asnaqaran kəndi və Bobogil türbəsi haqqındakı üç saylı sənəddə isə Əmirə Şahsəvar Gilaninin Məşhəd şəhərinə etdiyi səfər haqqında məlumat yer alır (1, iş №299). Ehtimal edilir ki, Əmirə Şahsəvar Gilaninin bu səfəri, xüsusi olaraq, I Şah Təhmasibin göstərişi əsasında Xorasanda baş vermiş hadisələrlə əlaqədar olmuşdur (7, s.9). Belə ki, həmin illərdə Özbək xanlarının dəfələrlə Xorasana hərbi yürüşləri baş vermişdi. Onlar hətta bir neçə dəfə Astrabad ərazisinə qədər gəlib çıxmış və Xorasanın mərkəzi şəhəri olan Heratı tutmuşdular (3, s.115). Özbəklərin qələbə çalmalarının əsas səbəblərindən biri kimi yerli taciklərin müqaviməti də göstərilir (3, s.115). Görünür, Şah, Xorasanın müdafiə edilməsində yerli əhalinin kütləvi iştirakının təşkil edilməsi üçün xalq arasında nüfuzu olan Əmirə Şahsəvar Gilani kimi şəxslərdən istifadə edirdi. Çünki Səfəvilər dövründə yüksək rütbəli ruhanilər, xüsusilə də, şiələrin məsum hesab etdiyi imamlara qohumluq bağlılığı olan tanınmış şəxslər əhali arasında son dərəcə böyük hörmət və ehtirama sahib idilər.

Sənəddə göstərilir ki, bu fərman 958-ci ildə (miladi 1551-ci il) Bayandır xan tərəfindən verilmişdir (1, iş №299).

Hicri 944-cü ildə (miladi 1537-ci il) verilən fərmanın əks olunduğu Bobogil haqqındakı dörd nömrəli sənəd Babagil nəslinə mənsub olan Mirşahhüseynin Səfəvi Şeyx Səfiəddinin məzarını ziyarət etməsi və burada Səfəvi xanədanının uzunömürlü olması üçün dua etməsi haqqında məlumat verir. Sənəddə yazılır: "Qaliblərin ən seçilmişi olan Asnaqaranlı Babagilin övladı Mirşahhüseyn itaət və sədaqətlə məleykələrin dövr etdiyi astananın qarşısına (Şeyx Səfiəddin məqbərəsinə – *T.Ş.*) gələrək, təvaf və ziyarət qaydalarını həyata keçirdi. Pərvanə kimi şəmin ətrafını dövr etdi və bir çox arzularına çatdı" (1, iş №297).

Digər sənədlərdə olduğu kimi, bu sənəddə də Babagil övladlarının vergi və digər mükəlləfiyyətlərdən azad olunması məsul olan məmurlara tapşırılır (1, iş №297). Görünür, I Şah Təhmasibin dövründə Şeyx Səfiəddin məqbərəsi geniş hüquqlara malik olmuş və məqbərə mütəvəllisinin verdiyi qərarlar dövlət aparatı qarşısında hüquqi əsasa malik olmuşdur (7, s.10). Ümumiyyətlə, XVI əsrin əvvəllərindən etibarən Ərdəbil və onun ətraf ərazilərinin daxil olduğu nahiyə xüsusi imtiyazlara malik olmuşdur. Belə ki, bu nahiyəni idarə edən vəzirlər yalnız şaha tabe olub və yalnız onun qarşısında hesabat verirdilər.

I Şah Təhmasibin 1526-cı il tarixli fərmanına əsasən, Ərdəbil əhalisi nəzərdə tutulmamış vergi məsuliyyətindən, ticarətdən və sənətkarlardan alınmalı olan

tamğavat və möhtərifə vergilərindən azad edilmişdi (2, s.227). Qeyd edək ki, XVI əsrdə Ərdəbildə Şeyx Səfiəddin türbəsinin vəqfi Azərbaycanda ən böyük vəqflər (müsəlman ruhani idarələrinə vəsiyyət edilmiş torpaqlar - əraziyi-mövquf) sırasında idi.. O.Əfəndiyevə görə: "Şiəliyi dövlət dini elan etmiş Səfəvilər sülaləsindən olan şahlar onun hər yerdə genişləndirilməsində maraqlı idilər. Bu işdə şiə ruhaniliyi onların sinfi hökmranlığının ideoloji dayağı, sadiq köməkçi rolunu oynayırdı. Buna görə də, Səfəvilər ruhaniləri öz tərəflərinə çəkməyi zəruri sayır, şiə müəssisələrinin rifahına yardım göstərir və onlara əməli olaraq ruhanilərin sərəncam verdikləri vəqflər bağışlayırdılar" (3, s.245).

Məqbərə haqqında olan sənədlərin beşincisi də başlıca olaraq Bobogil övladlarının vergilərdən azad edilməsini nəzərdə tutur. Hicri 1187-ci ilə (1773-cü miladi ili) aid olan bu fərmanda, eyni zamanda Bobogil nəslinin Ahəngəran kəndində yaşadığı haqqında məlumat da yer alır (1, iş №300). Görünür, sonrakı dövrlərdə Asnakəran (Osnəkəran – T.Ş.) toponimi fonetik dəyişikliyə uğramış və "Ahəngəran" şəklini almışdır.

Məqbərə haqqında olan altıncı sənəddə hicri 1202-ci ildə (1788-ci miladi ili) Cəngəmiran (Cəngəmiran hazırda Lerik rayonuna daxil olan kənddir.) hakimi Nəcəfqulu xanın Babagilin övladları haqqında verdiyi qərar yer alır. Qərarda deyilir: "Qərar verildi ki, Cəngəmiran mahalının kəndxudaları, ağsaqqalları və vergi toplayan məmurları bilsinlər ki, Allahın rəhməti və səlavatı şamil olan Seyid Babagilin Ahəngəran kəndində yaşayan övladları – Seyid Ruhullanın oğlanları Şeyxliyin pənahları Seyid Şahhüseynin oğlu Seyid Həsən və Şeyx Seyid Nemətin oğlu Seyid Fərzi keçmiş sultanların yazılı əmrlərinə və bizdən əvvəlki hakimlərin yazılı hökümlərinə görə, qədim zamanlardan indiyədək tövqih, təqsim, sursat, bigar, şikar və səvaderdən, habelə mübaşerlərin və divan məmurlarının sair təkliflərindən azad edilmiş və bağışlanmışlar" (1, iş №301). Göründüyü kimi, qərarda Babagil nəslindən iki nəfərin – Seyid Ruhullanın oğlanları Şeyxliyin pənahları Seyid Şahhüseynin oğlu Seyid Həsən və Şeyx Seyid Nemətin oğlu Seyid Fərzinin adı çəkilir.

Ölkə əhəmiyyətli dini-tarixi adidə sayılan Bobogil türbəsinin öyrənilməsi və bərpası sahəsində son illərdə xeyli işlər görülmüşdür. Türbə (inv.№1486) 1998-1999-cu illərdə lerikli xeyriyyəçi İslam Hacı Sadıq oğlu Kərimovun dəstəyi ilə, inşaatçı-memar Hacı Ağamirzə Hacı Ataxan oğlu Mirzəyev tərəfindən bərpa edilmişdir. 2002-ci ildə türbədə yenidən bərpa işləri aparılmış, ziyarətgaha 2 km məsafədən bulaq suyu çəkilmişdir (12, s.7). Bərpa edildikdən sonra ziyarətçilər üçün dəstəmazxana, istirahət yeri, qurban kəsimləri üçün şərait qurulmuşdur.

Azərbaycanda ənənəvi olaraq hicri-qəməri tarixlə Məhərrəm ayının ilk on günündə və xüsusi olaraq aşura (yəni, onuncu) gecəsində ziyarətgahlarda mərasimlər təşkil edilər və Kərbəla şəhidlərinə həsr olunmuş mərsiyyələr, rovzələr oxunardı. Adəti üzrə aşura günündə burada ehsanlar da verilirdi. Məhərrəm ayı münasibətilə keçirilən mərasimlərin əsas mərkəzlərindən biri də Bobogil ziyarətgahı idi. Burada

mərasim daha geniş şəkildə təşkil edilərdi. Bu ənənə son illərə qədər davam etdirilirdi.

Beləliklə, Bobogil və başqa ziyarətgahlar dini-sosial və ideoloji funksiya daşımaqla, Orta əsrlərdə ictimai münasibətlərə az təsir göstərmirdi. Ziyarətgahlar, eyni zamanda, mədəniyyət və maarif mərkəzləri sayılırdı. Odur ki, Bobogol türbəsinin, eləcə də, digər dini-tarixi abidələrin tədqiq edilməsi Orta əsrlərdə Azərbaycanda ictimai-mədəni, sosial və məişət münasibətlərinin öyrənilməsində mühüm əhəmiyyət daşıyır.

İstifadə edilmiş mənbə və ədəbiyyat siyahısı:

1. AMEA Tarix İnstitutunun elmi arxivi, fond 1.
2. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. «Elm». 2007.
3. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı,"Şərq-Qərb", 2007.
4. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun Əhsənüt-təvarix əsəri üzrə). Bakı, "Elm", 1983.
5. Fuməni Ə. Tarixe-Gilan. Peterburq, 1958.
6. Məmmədova İ.G. Təbriz şəhərinin maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Çaşıoğlu", 2016.
7. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1965.
8. Münşi İ.T. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Bakı, "Şərq-Qərb", 2010.
9. Nemət M. Azərbaycanda pirlər (Sosial-ideoloji, iqtisadi-siyasi mərkəzlər), Bakı, "Azərnəşr", 1992.
10. Səfərli. H., Cəfərov H. Naxçıvan ziyarətgahları. Bakı, "Qorqud", 1998.
11. Rzayev N. Əsrlərin səsi. B., "Azərnəşr", 1974.
12. Vəliməmmədov H. Babagil türbəsi. "Mədəniyyət" qəzeti, 24 avqust 2007.
13. Эфендиев О. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961.

Məlumatçıların siyahısı:

14. Baxşıyev Qafur Murtuza oğlu. Lerik r., Vstən k. 1929
15. Bədəlov Musa Əbdülhüseyn oğlu. Lerik r. 1930
16. Əbilov Əjdər Əlibaba oğlu. Lerik r., Biləvər k. 1907
17. Heydərov Əlif Qasım oğlu. Lerik r., Blaband k.1908

Tural Shiriyev

About the Bobogil pilgrimage of Lerik district

Summary

Key words: *Lerik, Bobogil, tomb, pilgrimage, religion*

The article studies the historical facts about Bobogil pilgrimage which is situated in Babagil village of Lerik district dating back to XV-XVI centuries. Written sources and ethnographic informations have played noticable role in order to study the Bobogil pilgrimage. Due to the sources, it becomes clear that the pilgrimage was associated with the name of Sultan Baba who had come to Astara from Gilan and settled in Demirchiler village. The etymology of Bobogil is presumably connected with a person, so called Gilanly Baba who lived in XI century.

Турал Ширuев

О святилище Бобогил *в* Лерикском районе

Резюме

Ключевые слова: *Лерик, Бобогил, гробницы, паломничество, религия*

Статья посвящена изучению святилищу Бобогил Лерикского района, относящемуся **к** XV-XVI **вв. Большую роль в исследовании истории этого святого места играют дошедшие до нас письменные источники и этнографические данные согласно указанным источникам. Это святилище связано с именем деда Султан, который в свое время, приехав из Гилана в Астару, поселился в селе Демирчиляр**. Этимология слова **Бобогил связана с именем Баба Гиланлы**, **живмего по преданию** в XI **веке.**

Fatma Qəniyeva

Qafqaz xalqlarında qonaqpərvərliyin öyrənilməsinə dair

Açar sözlər: *qonaqpərvərlik, Qafqaz xalqları, Azərbaycan, qonaq, adət-ənənə, qloballaşma, hörmət, mədəniyyətlərarası ünsiyyət*

UOT 39

Qloballaşan dünyada xalqların ənənəvi mədəniyyətlərinin elementləri surətlə yox olmaqdadır. Bu dəyişikliklər təkcə, maddi mədəniyyət nümunələri ilə məhdudlaşmır. Xalqların mənəvi mədəniyyəti, dünyagörüşü, mənlik hissi də transformasiyaya məruz qalır. Belə olan halda qonaqpərvərlik kimi mənəvi dəyərlərin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir.

Qonaqpərvərlik adətinin tarixi köklərinin qədim olduğu şübhəsizdir. İbtidai icma quruluşu dövründə insanların maddi və mənəvi mədəniyyət elementləri bir-biri ilə sıx əlaqədə idi. İnsanlar arasındakı münasibətlər də adət və vərdişlərə uyğun qurulurdu. Lakin zaman keçdikcə ibtidai icma quruluşu dağıldı və ayrı-ayrı tayfalar müxtəlif həyat tərzi ilə bir-birindən fərqlənməyə başladılar. Qonaqpərvərliyin tarixini çox güman ki, qan qohumluğuna əsaslanan qəbilənin formalaşdığı və inkişaf etdiyi bir dövrdə axtarmaq lazımdır. Çünki, ayrı-ayrı qəbilələr bir-biri ilə ünsiyyət qurmağa, iqtisadi münasibətlər yaratmağa ehtiyac duymuşlar.

Tarixi qədim olan qonaqpərvərliyin hər bir xalqın mənəvi mədəniyyətində özünəməxsus yeri vardır. Qonaqpərvərlik haqqında ilkin məlumatlar əsrlərin dərinliyinə gedib çıxır. Hələ antik dövrdə ticarətin inkişafı və bununla bağlı səyahətlərin çoxalması səyyahların qalması üçün xüsusi yerlərin olmasını zəruri edirdi. "Qonaqpərvərlik" sözü müxtəlif dillərdə səslənir. Ərəb dilində müsafir alman dilində – die Gastfreundschaft, qotik dildə – gasts, qədim rus dilində, həmçinin kilsə-slavyan dilində o «гостя» və iki kökdən ibarət «гость» и «принимать» ("qonaq" və "qəbul etmək") sözlərini ifadə edir.

Qafqazın ərazisində yaşamış tayfalar etnik mənşəyində, dini baxışlarında və tarixlərində fərqlərin olmasına baxmayaraq, qonaqların qəbuluyla bağlı adətlərin və qanunların ümumi sistemini-qonaqpərvərlik mədəniyyətini formalaşdırmışlar. Qafqaz çoxmodellilik, müxtəliflik və çoxmədəniyyətliliyin etnik və konfessional (dini) gərginliyin mövcud olduğu ərazidir. Geoloji vəziyyət, landşaft xüsusiyyətləri, regionun sosial-mədəni və etno-mədəni spesifikasının müəyyənləşməsində, inkişafında tarixi-siyasi proseslər mühüm rol oynayır. Son iki əsrdə isə onun bu istiqamətdə fəallığı dünyanın, demək olar ki, bütün qitələrinə yayılmışdır. Azərbaycan da Qafqazın bir hissəsi olub, tarixi, iqtisadi, mədəni baxımdan daim dünya ölkələri ilə qarşılıqlı əlaqədə olmuşdur.

Hər millətə xas olmayan səmimi və mehriban bir münasibət ilə hərəkət edən Azərbaycan xalqı evə gələn qonağa kim olursa olsun, öz ailəsindən biri kimi davranar, ən yaxşı və ən gözəl nə varsa qonağına təqdim edər. Hər evin mütləq həmişə qonağa xidmət üçün hazır vəziyyətdə olan bir qonaq otağı olur. Qonaqpərvərlik vacib xalq adətlərindən biridir. Qonağı yola salarkən ona bir neçə gün daha qalmağı təklif edərdilər. Qafqaz ailəsində süfrədə yeməyə əyləşərkən, ailə üzvlərinin sayından əlavə bir qab artıq qoyulardı. Əgər qonaq yemək vaxtı gələrdisə, mütləq həmin stol arxasında əyləşməli idi. Əgər qonaq düşmən belə olsa, o zaman bütün incikliklər qəbul edilər, ev sahibi tərəfindən unudular. Qonağın bütün xərcləri ev sahibi tərəfindən ödənilər, lakin qonaq ev sahibinə və ya övladlarına istəsə hədiyyə də edə bilər. Qonaqla ünsiyyət qurub həmsöhbət olmaq üçün evdə həmişə bir böyük olardı. Azərbaycan xalqının adət-ənənələrinə görə gələn qonağın şərəfinə qurban kəsilərdi. Qonaqla ev sahibinin bir süfrə arxasında yemək yeməsi ilə artıq onlar "duz-çörək" kəsmiş hesab olunurlar. Azərbaycan adət-ənənəsinə görə yad birinin yeməyini yemənin və ya yad birinə yemək yedirmənin əsasında insanlar arasında "duz-çörək haqqı"nın yaranmasına inanılır. Bundan əlavə xalqımızın adətində süfrəsində yemək yediyi və yaxşılığını gördüyü insanın özü üzərində qəbul edilən haqqa və mənəvi borca "duz-çörək haqqı" deyilir. Bunun yolu isə qonaq qarşılamaq və ya qonaq olmaqdan keçər.

Qafqaz xalqlarından Azərbaycanda hələ də qonağı qarşılayarkən, "Qonaq– Allah qonağıdır", osetinlərdə "Гость – Божий гость" ifadəsi kimi işlənən deyimlər mövcuddur. Azərbaycan xalqının qonaqpərvərliyinin əsasında ölkənin gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də güclü rol oynayır. Müasir cəmiyyətin bütün mədəni fəaliyyətinin başlıca məzmununu və əsas məqsədini təşkil edən "insan şəxsiyyətinin mənəviyyatı"nın mürəkkəb strukturu, eyni zamanda, qonaqpərvərlik anlayışının olduqca mürəkkəb strukturunu aydınlaşdırır.

Xalqımızın qonaqpərvərliyinin əsas cəhətlərindən biri də müxtəlif dövrlərdə ayrı-ayrı xalqların Azərbaycan ərazisində məskunlaşmasıdır. Cəmiyyətdə ən mühüm ünsiyyət saxlamaq vasitəsi olan qonaqpərvərlik adəti müxtəlif xalqların, eləcə də, eyni xalqın və ya müxtəlif etnik qrupların üzvləri, hətta bir sıra sosial

təbəqələr arasında geniş yayılmışdır.

"Dədə Qorqud" eposundan bəlli olur ki, qonağa hörmət, ehtiram müqəddəs adət-ənənələrdən sayılıb və bu gün də sayılmaqdadır. Kimliyindən, necəliyindən asılı olmayaraq, qonaq gəldiyi evin əziz kimsəsi sayılıb. Dastanda qonağa qayğı və sayğı bəslənilib. Müqəddimədə "qonagı gəlməyən qara evlər yıqılsa, yeg!"-deyə qarğış söylənilib. Xanlar xanı Bayandır xan da ildə bir dəfə xüsusi mərasim keçirir. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsdirib Oğuz bəylərinə qonaqlıq verir. [2. s 33]

Azərbaycan şifahi xalq ədəbiyyatında qonaqpərvərliklə bağlı müxtəlif atalar sözləri mövcuddur. "Gəlmək qonaqdan, yola salmaq ev yiyəsindən". "Qonağın ruzisi özündən qabaq gələr". "Qonaq gəlməyən evlər yıxılsa yaxşıdır". "Qonaq sevənin süfrəsi boş qalmaz". "Qonaq umduğun yeməz, olduğun yeyər". "Qonağın könlündən keçən ev yiyəsindən keçməz". "Qonaqsan xoş gəlmisən, niyə əliboş gəlmisən?". "Qonağa hörmət elərlər, əyərçi kafər ola". [1. s.214-215]

Qonaqpərvərlik adətində qəbul olunmuş əsas şərtlərdən biri də qonağa hədiyyələr bəxş edilməsi idi. Bu, qonaqpərvərlikdə qəbul edilmiş adi bir hal idi. Qonaq ev sahibinə müəyyən bir şey bağışlamağa, ev sahibi isə öz növbəsində qonağını müxtəlif hədiyyələrlə yola salmağa çalışırdı.

Xalqımızda qonaqpərvərlik ənənəsinin güclü olması özü də ailədən gəlir. Çünki, bu ənənə də ailə ilə bağlıdır. Ənənəmizə görə evə gəlmiş qonaq həddən artıq əziz, hörmətli və imtiyazlıdır. Bəşər tarixi boyu insan özünə xas ali keyfiyyətləri uca tutmağa və cəmiyyətdə öz sosial rolunu dərk etməyə çalışmışdır. Azərbaycan xalqının mənəvi dəyərlərinin əsas mahiyyətində dostluq, səmimiyyət, şəfqət, mehribanlıq, ehtiyacı olana əl tutmaq, yardım etmək kimi yüksək insani keyfiyyətlər durur. Qədim dövrlərdən Azərbaycan xalqı öz duzçörəkliliyi, qonaqpərvərliliyi və zəhmətsevərliliyi ilə məşhurdur. Zəhmətsevərlik, azərbaycanlılarda insan qürurunun ölçüsü hesab olunur.

Ənənəvi qida, geyim, ornament, yaşayış evləri və s. xalqın, etnosun özünəməxsusluğunun əsas daşıyıcılarıdır. Azərbaycan etnoqrafiyasında xörəklərin kulinar təsviri, qidanın tarixi kökləri, yemək kompleksinin strukturu və dinamikası, insanların qarşılıqlı münasibətlərində onun sosial əhəmiyyəti, masaarxası etiket məhz qonaqpərvərliyin fundamental araşdırılmasını zəruri edir.

Xalqlar arasındakı fərqlər qidanın tərkibində, onun hazırlanmasında və qəbul olunma zamanında görünür. Belə ki, birinci xalqların qida rasionunun əsasını əkinçilik məhsulları (slavyan xalqları), ikincilərin ət (Şimal xalqlarının çoxu), üçüncülərin isə ixtiofaqam adlanan qidalarının əsasını balıq təşkil edənlərdir. [9]

Azərbaycan xalqı öz yeməkləri ilə lap qədimdən həm Şərqdə, həm də Avropada böyük şöhrət qazanmışdır. Məşhur tarixçilərin və səyahətçilərin qədim yazılı mənbələrində buna rast gəlmək olur. Orta əsrlərdə Azərbaycana gələn səyyahlar demək olar ki, iki məqsədlə gəlirdilər. İlk olaraq qeyd etmək olar ki, səyyahlar bura məşhur bəzəkli parçaları, ədviyyatları və s almağa gəlirdilər. Digər qrup səyyahlar

isə diplomatik danışıqların aparılması üçün gələn diplomat-səyyahlar idi.

Məhz Azərbaycan qonaqlığı xalqımızın ənənələrində özünü büruzə verir. Azərbaycan daxilində yeməklər bəzən etnoqrafik zonalar üzrə də fərqlənir. Lakin bir məqamı da qeyd etmək lazımdır ki, bütün zonalarda ən çox təqdim olunan yemək plovdur və onun özünün də müxtəlif çeşidləri vardır. Belə ki, plov süfrəyə ləvəngi, (cənub zonası) fisincan, çığırtma, düşbərə, qutab, (Bakı və Abşeron ərazisi) səbzi qovurma və s. ilə birgə təqdim edilir. Plovla bərabər kabab da mühüm yer tutur. Qonaqlıq süfrəsinə qurudlu xəngəl, balıq qızartması, badımcan və yarpaq dolması və bu kimi onlarla milli yemək növlərini də təqdim etmək mümkündür.

Şimali Qafqazda qonaqpərvərlik adəti şəxsiyyətlərarası, qruplararası və xalqlararası əlaqələrin formalaşmasında mühüm rol oynayır. Adıqlarda adətən qonaqları iki qrupa bölürlər — böyüklər və kiçiklər. Yaş və rütbəyə görə müxtəlif yerlərdə yerləşdirilirdilər. Bu halda ev sahibi onu izləyir ki, bir qrupda ata və oğul, kiçik və böyük qardaş, kürəkən və qayınata və s. olmasın. Onlara bir masanın arxasında da əyləşmək olmaz. Etiketə görə ev sahibi qonaqla bir süfrə arxasında əyləşib onunla mülayim söhbət etməlidir. Ev sahibi qonaqdan heç bir şəraitdə gəlişinin səbəbini soruşmamalıdır. Hətta belə bir qayda mövcuddur ki, ilk üç gün qonaqdan heç nə soruşmaq olmaz. Sonrakı günlərdə isə, nəzakətlə qonağın planlarını öyrənmək olar. Əgər yenə qonaq sakitliyini qoruyursa, o zaman təkid etmək olmaz. [5.179-202]

Çeçenlər çox qonaqpərvərdirlər. "Qonağın ruzisi özündən əvvəl gəlir" məsəli Azərbaycan xalqında olduğu kimi, çeçenlər arasında da tez-tez səslənən məsəldir.

Bütün Qafqazda olduğu kimi, çeçenlərdə də qonaq üçün xüsusi otaq vardır ki, ailə üzvləri bu otaqdan demək olar ki, istifadə etmirlər. Bu otaq qonaq qəbulu üçün hər zaman hazır vəziyyətdədir. Qonaq nə zaman gəlsə, ev sahibi onun qəbulu üçün hazır olur, qonaq üçün azuqə hər zaman nəzərə alınır. Qafqaz adətinə görə, burada da evə gələn qonağa, xüsusilə də, ilk üç gün ərzində sual vermək düzgün hesab edilmir. Ailənin ən şərəfli üzvü kimi qonaq onlarla birlikdə yaşayır. Gələn qonaq evə daxil olanda onun üst geyimini soyunmasına ailə üzvləri yardım edir və ailənin gənc üzvləri hətta onun ayaqqabısını belə çıxarmasına kömək edirlər. Gələn qonağın qəbulu xüsusi hörmətlə həyata keçirilir. [10. S 75]

Qafqaz xalqlarından olan abxazlarda qonaqpərvərliyin mövcud adətlərindən bir neçəsini sadalayaq. Əsas nəzərə çarpan məsələ ondadır ki, abxazların təsəvvürünə görə qonaqdan gizlədilən hər nə isə şeytana məxsusdur. Müqayisə üçün bildirək ki, Azərbaycan adətində olduğu kimi, abxazlarda da ev sahibi imkanı daxilində qonaq üçün ev heyvanı və ya quş kəsərdi. Belə hesab edilirdi ki, öncədən hazırlanmış ətdən qonağı yedizdirməklə qonaq təhqir oluna bilər. [7. s.109-118].

Məsələyə digər prizmadan yanaşdıqda abxazların folklorunda qonaqpərvərliklə bağlı atalar sözü nəzərə çarpır. "Qonaq yeddi uğur gətirir", "Abxazlılarda bir inək olar, onun zərdabını özü içər, pendirini qonaq üçün saxlayar". Abxazlarda qonağın

salamlaşmasının xarakterik xüsusiyyətlərindən «bziala şeaabeit!» adlanır ki, mənası "sizin gəlişiniz xoş olsun» deməkdir. Hesab edilir ki, bu yalnız salamlaşma deyil, həmçinin gəlmiş qonağın davranışının taktikasını qabaqcadan müəyyən edən xüsusi ovsundur. [7]

Abxazlarda yeri gəlmişkən, qonaqpərvərliyin bariz nümunəsi onunla ifadə olunur, ki, adətə görə evin qapıları yayda və qışda həmişə açıq saxlanılar. Əgər ev sahibi qapıları bağlayıbsa, o zaman düşünə bilərlər ki, o qonaq istəmir. Adətən evdə heç kim olmayanda evin qapıları bağlı olar. Abxazlarda qonaqpərvərliyin qədim adəti tam gücü ilə indi də qorunub saxlanılır. Qonağa hər zaman xüsusi diqqət və hörmət göstərilir. Qonaq evə gələn kimi, dərhal ocaq qalayırlar, toyuğu qızardırlar və ya bişirirlər və s. Əgər qonaq qalacaqsa, ona təmiz yorğan-döşək hazırlayırlar. Qonağa xüsusi diqqət göstərərək ev sahibi onun atının da qayğısına qalır. Atın təhlükəsizliyinə ev sahibi cavab verir. Hörmətli qonağı yola salmağa bütün kənd toplanırdı. Hətta bir və ya iki kişi ata minib qonaq ta ki, ev sahibini məcbur edib göndərənə kimi onu yola salırdı. [6. S 187-188]

İ. Babiçin materiallarına əsasən, XX əsrin başlanğıcına qədər kabardinlərdə qonaqların qəbulunda iyerarxik tipologiya mövcud idi ki, bu da qonaqpərvərlik mərasiminin çətinlik dərəcələrini əks etdirirdi: 1) «böyük qonağın» qəbulu (xeşe şxue), (2) «əziz qonağın» qəbulu (xeşe lape), (3) «vacib qonağın» qəbulu (xeşe dıde) və (4) «qonaq» qəbulu (xeşe). Böyük qonaqlar sırasına kabardinlər aşağıdakıları daxil edirdilər. 1) "Uzaq qonaq"- xüsusi olaraq qalmaq üçün gələn qonaq, 2) "xarici səyyahlar", 3) "qonşu kəndlərdən olan qonaqlar"- məşhur soy-kökləri olan insanlar, 4) Çox nadir hallarda gələn və "fəxri qonaq" statusuna malik qonaqlar, 5) vəzifəli şəxs qismində olan və xüsusi olaraq əfəndi deyə müraciət olunan qonaqlar. «Böyük qonağın» qəbulu qonaqpərvərlik etiketinin bütün normalarına ciddi riayət etməni maksimal mümkün olan təmtəraqla tələb edirdi. [8]

Noqaylarda təmtəraqlı qonaqlıq süfrələrinin əsasını çay təşkil edir. O, xüsusi preslənmiş çay (kərpici) növündən hazırlanır ki, onun tərkibində yarpaqlardan əlavə budaqlar da olur. Bu çayın hazırlanması xüsusi bir mərasimdir. Onun düzgün icrası isə qonaqpərvərlik etiketinin əsasını təşkil edir. Çayı içib bitirdikdən sonra qonaq əllərini yuxarı qaldırıb dua oxuyur və sonra əlini üzünə apararaq ev sahibinə deyir: "Allah bereket bersın", və ev sahibi cavabında "Aş bolsun" söyləyir. Noqayları digər Şimali Qafqaz xalqlarından fərqləndirən əsas cəhət onların qidasında at ətinin xüsusi yer tutmasıdır. O, əsas və dadlı yemək hesab olunur. Hörmətli qonağın qəbulu zamanı noqaylar at ətindən müxtəlif təamlar hazırlayırlar. Ondan qazı, beşbarmaq və kabab hazırlayırlar. [10.s 83]

Hər bir Qafqaz ailəsində olduğu kimi, Azərbaycan ailəsində də gələn qonağa ilk növbədə çay gətirirlər. Dünyada çay içməyi bu və ya digər dərəcədə hamı xoşlayır. Çay sudan sonra ikinci yerdə durur. Qonaqlıq çay ilə başlayır, çay ilə də bitir. Evə ev sahibi ilə bir neçə dəqiqəliyə görüşmək üçün gələnə də çay gətirirlər. Bu, çox

qədimdən qalan adətdir.

Adıqlarda qonaq evdən ayrılarkən ev sahibindən məmnun qalmışsa həyətin içində atına minərkən atın başını evin qapısına doğru çevirər o zaman minərdi. Əgər məmnun qalmamışsa atın başını həyət qapısına doğru çevirər o şəkildə atına minərdi. Belə bir durumun olması adıqlar üçün çox üzücü olurdu, qonağa baxa bilmədi, razı edə bilmədi deyərdilər. Bu vəziyyət heç də xoş deyildi. Ona görə adıqlar qonağa ən yüksək səviyyədə nəzakətlərini əsirgəməz onun razı qalması üçün əlindən gələni edərdilər. [10]

Orta Asiya türkləri süfrələrində onlarca çeşid yemək və içki qoyardılar. Biz bunlardan diqqətimizi çəkənləri və önəmli olanların bir qismini nəzərinizə çatdırmaq istərdik. Bu qidaların əsasında ət və ətli yeməklər dayanır. Bu ətlərdən ən çox istifadə olunan at əti, qoyun əti, maral əti, dəvə əti, quş əti, inək əti, ördək əti kimi ətlər sayıla bilər.

Maraq doğuran əlamətlərdən biri kimi qeyd etmək olar ki, Herat əfqanlarında, taciklərdə, Azərbaycan əhalisində, şirniyyatları və düşbərələri bacardıqları qədər xırda hazırlayırlar. Bununla qonağa xüsusi hörmət ifadə olunur. Günorta yeməyinə qonaqların qəbul olunması (naxar) bizim dediyimizdən fərqli olaraq çox qısa və daha az təmtəraqlı keçir. Nahara əsasən, yaxın dostlar və qonaqlar dəvət olunurlar. Ənənəvi İran cəmiyyətində süfrə etiketinin özəlliklərindən biri də növbəti, adını çəkəcəyimiz ənənədə özünü göstərir. Əgər ev sahibi qonağa qarşı xüsusi yer göstərmək istəyirsə öz əli ilə böyük dadlı tikəni götürür və onu qonağa təqdim edir. Həmçinin, bu adət Mərkəzi Asiya xalqlarında-əfqanlarda, qırğızlarda mövcuddur [3].

Qonqpərvərlikdə belə bir yanaşma da var ki, qonağın getdiyi yerdə diqqət edib, riayət etməsi önəmli olan məqamlar da vardır. Qonaq olaraq gedilən evdəki qanunlara əməl etmək lazımdır. Ev sahibinə qarşı hörmətlə davranılmalı, bəyənmədiyini bəlli etməməlidir. Ev sahibinin işinə qarışılmamalı, fikir soruşularsa onları incitməyəcək şəkildə düşüncələr açıqlanmalıdır. Qonaqlıqda yemək seçmək, təqdim olunan yeməyi bəyənməmək, həddindən artıq yeyib-içmək xoş bir davranış sayılmır. Süfrəyə qoyulan yeməyi bəyəndiyini söyləmək bir nəzakət nümunəsidir. Yeməkdən həmən sonra ya da çay içib bitirdikdən sonra tez qalxıb getmək düzgün bir davranış deyil. Ev sahibinin vəzifəsi qonağı qəbul etməkdirsə, qonağın vəzifəsi isə ona təqdim olunanları məmnuniyyətlə qəbul etmək və bəyənmədiyini söyləməklə qonağı olduğu ailəni pis vəziyyətdə qoymamaqdır.

Qonaqpərvərlik adətinin funksiyalarından biri də informasiya mübadiləsidir. Belə ki, inqilabdan əvvəl Qafqazda yeganə informasiya mənbəyi olan qonaq Qafqazın digər yerlərindəki həyat haqqında gördükləri və eşitdikləri maraqlı məlumatları insanlarla bölüşürdü. Elə buna görə də kəndə yad birinin gəlişi insanlarda həyacan və marağa səbəb olurdu. Ev sahibi tərəfindən qonaq üçün ayrılmış otaqda maraqla səyyaha qulaq asanların və sual verənlərin sayı çox olurdu. [4. s. 110–120]

Müasir dövrdə kommunikasiya vasitələrinin inkişafı mərhələsində xüsusilə də,

mobil telefonların və internetin mövcud olduğu şəraitdə insanların əlaqə imkanları daha da genişlənir. Bunun müqabilində insanlar artıq qonağın gəlişindən öncədən xəbərdar olurlar. Qonaqpərvərlik fenomeninin universal və eyni zamanda, nisbi, lokal xarakteri onunla ifadə edilir ki, onun mənasının baza komponentləri özündə bir-birindən fərqlənən etno-mədəni təcrübənin çoxlu sayda variantlarını birləşdirir.

Bu məqalədə irəli sürülən məsələ Qafqaz, o cümlədən, Azərbaycan qonaqpərvərliyi ilə bağlı məlumatın kiçik bir hissədir. Hal-hazırda qonaqpərvərlik adəti Azərbaycan ailəsində hələ də yaşadılmaqdadır.

İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı:

1. Atalar sözü və deyimlər. Bakı,"Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2007.
2. Kitabi Dədə Qorqud". Bakı: Maarif, 1988.
3. Абрамзон С. М.Киргизы и их этногенетические и историко-культурные связи [Текст] /. Ленинград. 1971.
4. Анчабадзе Ю.Д. «Прекрасный обычай гостеприимства...» // Советская этнография. 1985. No 4.
5. Бгажноков Б.Х. Прием почетного гостя в традиционной культуре адыгских (черкесских) народов// Этнические стереотипы поведения. 1985.
6. Джанашия Абхазский культ и быт. Петроград: тип. Акад. наук, 1917.
7. Инал-ипа Ш. Д. Очерки об абхазском этикете. - Сухуми: Алашара, 1984.
8. Маремшаова И.И. Балкария и Карачай в этнокультурном пространстве Кавказа. Нальчик, 2003.
9. Этнология [Текст] : учебник для студентов вузов, обучающихся по гуманитар. специальностям и направлениям подгот. /А.П. Садохин. М.: Гардарики, 2005.
10. Этноэтикет народов Северного Кавказа. Научно-учебное пособие. / Под редакцией академика В. А. Тишкова – Москва – Пятигорск: ИЭА РАН, 2014.

Fatma Ganiyeva

About the study of hospitality in the Caucasus.

Summary

Key words: *Hospitality, Peoples of the Caucasus, Azerbaijan, guest, custons globalization, respect, intercultural communication*

The article talks about the hospitality etiquette as the most important imperative of the Caucasian peoples. It shows that in the sociocultural way of life of any ethnic group there are a lot of events combining whimsical historical past. The brightest and significant phenomena of this kind are nationwide rules of conduct called customs and traditions.

Фатима Ганиева

Об изучении гостеприимство в Кавказских народах.

Резюме

Ключевые слова: *Гостеприимство, Народы Кавказа, Азербайджан, гость, обычаи, глобализация, уважение, межкультурная коммуникация*

В статье говорится о гостеприимстве как о важнейшем этикетном императиве кавказских народов. В ней показано, что в социокультурном укладе жизни любого этноса присутствует немало событий, причудливо сочетающих в себе историческое прошлое. Самыми яркими и показательными явлениями такого рода являются общенародные правила поведения, называемые обычаями и традициями.

Nardanə Yusifova

H.Z.Tağıyev mülkünə mənsub Şərq zalınındakı ornamentlərin tərtibat xüsusiyyətləri

Açar sözlər: *memarlıq xüsusiyyətləri, perspektiva, ornament, dekor, tərtibat, interyer və ksteryer*

UOT 7

Memarlıq tərtibatları, digər sənət sahələri içərisində özünəməxsus yeri olan, həmişəyaşar milli sərvətlərimizdən biridir. İnsanın onu əhatə edən dünyanı daha yaraşıqlı etmək istəyi kimi təbii ehtiyaclarından doğmuş bu sənət, xalqın milli sərvəti olmaqla yanaşı, həm də qədim və gözəl ənənələrin yaşadılmasına və dərk edilməsinə kömək edir.

Dekorativ tətbiqi sənət, xalq sənəti olaraq, xalqın əməyi sayəsində yaranıb onun həyatını təmin edən və özündə xalqın bədii zövqünü əks etdirən təsviri və tətbiqi sənətdir. Bu sahədə çalışan sənət ustalarının qarşısında duran əsas vəzifələrdən biri, milli sənət irsimizin dəyərli ənənələrindən yaradıcılıq boyu istifadə edib, gözəl və zövqlü əsərlər yaratmaqdır. Milli sənətimizin tətbiqi ilə yanaşı bədii xüsusiyyətlərini təhlil etmək vacib məsələlərdəndir. Bu sahədə yaradılan hər bir sənət əsəri kimi, H.Z.Tağıyev mülkünün istər interyerindəki və istərsə də eksteryerindəki tətribat xüsusiyyətləri sənətkarlarımızın yaradıcılıq metodunu zənginləşdirməklə bərabər, dekorativ – tətbiqi sənət əsərlərinin inkişafını əyani göstərən amillərdəndir. Belə ki, Tağıyev mülkünün memarlığı, interyer və eksteryerinin tərtibatı baxımından Azərbaycan memarlığında xüsusi yeri vardır. Binanın ornamental təsvirləri, buranı, hazırda Milli Azərbaycan Tarixi Muzeyi kimi ziyarət edənlərin yaddaşında silinməz iz qoyur.

Məqalədə əsas məqsəd, Tağıyev mülkünün daha çox bədii tərtibatı, naxışlarının işlənilməsi üslub və memarlıq xüsusiyyətləri ilə maraq doğuran Şərq zalının ornamental tərtibat xüsusiyyətlərini bir həndəsi element vasitəsilə araşdırmaqdır.

Araşdırmanı iki istiqamətdə apara bilərik. I istiqamət ornamentlərin əsasını təşkil edən bir həndəsi element, yəni, iki kvadratın kəsişməsindən alınan bir fiqurun əsasında yarandığını vurğulamaqla. II istiqamət isə zalın ornamentlərindən fraqmentlər göstərib, onların yarandığı həndəsi elementin araşdırılması ilə. Hər iki variant perspektiv qanunlar əsasında yerinə yetirilir. Naxışyaratmada çox nadir olaraq rast gəlinən bir variantda, yəni həm düz və həm də əks gedişin bərabər işlənilməsi prinsipindən istifadə edəcəyik. Belə əhatəli araşdırmaya ilk əvvəl Şərq zalının tərtibatının əsasını təşkil edən həndəsi fiqurlardan olan iki kvadratın çarpaz kəsişməsindən yaranan forma ilə başlamaq olar. Zalın tərtibatında həndəsi, nəbati və həm də qarışıq formada işlənildiyi görmək mümkündür[1,s.78-80]

Əslində, tək Şərq zalının və ya Avropa zalının tərtibatındakı naxışlara görə yox, bütün binanın memarlıq kompozisiyasına görə demək olar ki, burada çalışmış sənətkarların hər birinin, binanın memarı da daxil olmaqla bərabər, perspektivadan, memarlıq konstruksiyalarından, kompozisiyalarından, ornamentqurmada düz və əks gedişlərdən özünəməxsus bilgiləri varmış. Tikilinin memarı dekorativ materialdan istifadə edərək möhtəşəm forma verə bilmişdir. Bədii tərtibatda işlədilmiş material çox incə, naxışlar isə çox yüngül və hər kəsin zövqünü oxşayan şəkildə işifadə edilmişdir. Zalın dirək hissəsində memar üç tağdan ibarət maraqlı kompozisiya yarada bilmişdir. Bu üsulla tikilinin memarı İ. Qoslavski interyerin sakit daxili məkanına kütlələrin dinamikasını gətirmişdir. Sarayın tikintisi zamanı müxtəlif memarlıq üslublarından istifadə olunmuşdur. Tikilinin memarı klassik order sistemindən istifadə etsə də, kompozisiyanın bəzi elementlərində və zallarının interyerlərində Azərbaycan memarlıq ənənələrindən də bəhrələnmişdir. Hətta binanın məkan baxımından təyinində də memar Qoslavski rasional konstruktiv üslubdan istifadə etmişdir.

Sarayın iki ən böyük zallarından biri olan, qədim ornamentlərini özündə birləşdirən Şərq zalı möhtəşəmliyi ilə seçilir. Qapıları qoz, fıstıq, armud ağaclarından hazırlanmış Şərq zalı, xüsusi zövqlə bəzədilmişdir. Yuxarı hissədəki sütunlu tağlar möhtəşəm Şərq zalına xüsusi gözəllik verir.

Binanın interyer və eksteryeri arasında çox maraqlı və hətta hər bir memarın önəm verdiyi, fərqli bir vəhdət vardır. Belə ki, simmetrik baş fasad italyan intibahının təmtəraqlı formaları əsasında işlənilmişdir. Binada plan və həcm kompozisiyası, formaya görə ən sadə həndəsi fiqurlaqrın mürəkkəb qarşılıqlı sistemi əsasında qurulmuşdur.

Memarlıq elementlərinin əksi, yəni onun güzgü perspektivası ecazkar şərq formaları vasitəsilə ifadə olunur. Məhdud məkanda hərəkət və qalxmanın ikinci mərtəbəyə aparan pilləkənlərlə asan və rahat baş tutması və bütün bunların çox nadir insanların sezdikləri güzgü əksi ilə baş verməsi daha çox önəm daşıyır. Bu tikilinin memarının və sifarişcinin özünün də tikinti xüsusiyyətlərindən ətraflı bilgisinin olmasından xəbər verir.

Şərq zalının divarlarının həndəsi proporsional olan ornamental hissəsi, Şərq

sənətinin dekorativ tətbiqi elementləri ilə dolu geniş məkan həlli ilə qarşılıqlı əlaqədədir. Bu zalın tərtibatında Şərqin incə memarlıq həllinin, nəbati ornament motivli tağların timpanlarında görmək olur. Timpanlar dekorativ örtüklə, həndəsi elementlər vasitəsilə sadələşdirilmişdir. Belə formalı proporsional bölgüyə ancaq Şərq memarlıq xüsusiyyətlərində, interyerlərin dekorativ tərtibatı zamanı üstünlük verilirdi. Şərq memarlıq tərtibat xüsusiyyətləri Tağıyevin sarayının Şərq zalından da yan keçməmiş və sarayın bu zalının interyeri Bakıdakı ən yaxşı interyerlər sırasına daxil olmuşdur.

Şərq zalında ornamentin bütün tipləri və üslublarından qarşılıqlı olraq istifadə edilmişdir ki, bu da burada çalışan memarın, nəqqaşların əhastəli bilgisindən xəbər verir. Məlum olduğu kimi, ornamentlər elementlərin forma və quruluşuna görə bu və ya digər tiplərə bölünür [2.s.56] Zalın tərtibatında əsasən həndəsi ornamentlərdən istifadə edilmişdir. Həndəsi elementli ornamentlər müxtəlif dövr və xalqlar üçün xarakterikdir. Bu tip ornamentlər çox sadə formaya malik olmağına baxmayaraq öz estetik dəyərini hər vaxt saxlaya bilir. Həndəsi elementlərin bir-birini dəqiq və verilmiş qaydada əvəz etməsi, bu ornamentlərin əsasını təşkil edir. Belə ornamentlər əsasən digər ornament tipləri ilə birlikdə istifadə olunur. Şərq zalında işlənıimiş ornamentlərdə istifadə olunan bir çox həndəsi formalar təbiətdən götürülmüş elementlərdir. Burada yunan əyri xəttləri - dalğanı, dairə - günəşi, şəbəkə - suyu simvolizə edir.

Zalın bədii tərtibatında nəbati ornamentlərdən də istifadə edilmişdir. Belə ki, nəbati ornamenti həndəsi oramentdən sonra ən geniş istifadə olunan ornament tipidir. Əsasən nəqqaşlıqda istifadə olunan nəbati ornamenti müxtəlif dövrlərdə müxtəlif xalqlar tərəfindən özünə məxsus şəkildə təsvir olunur.

Şərq zalında kalliqrafik ornamentdən də istifadə edilmişdir. Kalliqrafik ornament naxışın ən vacib tiplərindən biri olub, əsasən Qurani Kərimdən ayələr və yaxud da hədislərdən sitatlar əsərə həkk edilən zaman istifadə olunur. Bunun əsas səbəblərindən biri bu əlifbaların hərflərinin elastik olmasıdır. Bu hərflərin nəbati ornamentlərlə işlənmiş kompozisiyaları yüksək dekorativ effektə malikdir. Şərq zalının ornamental təsvirlərini daha dərindən araşdırarkən məlum olur ki, burada demək olar ki, bədii təsvir formalarına aid bütün xarakterik xüsusiyyətləri görmək mümkündür.

Zalın tavanında da kallqrafik ornament quruluşu əsaslı Quran ayələri yazılıb. Pəncərələrin şüşələrində H.Z.A.Tağıyevin ərəb hərfləri ilə adı və soyadı yazılmışdır. Burada digər motivli ornamentlə nəbati ornamentinin bir yerdə işlənməsindən zəngin effektə malik kompozisiyalar yarandığının şahidi oluruq. Tarix boyu belə kompozisiyalardan daha çox mülki memarlıqda istifadə olunduğunu bir daha Tağıyev mülkünün, hətta bütün binanın ornamentlərini araşdırarkən sübut olunur. Burada ornament elementlərinin mürəkkəbliyi və dəqiqliyi digərlərindən fərqlənir. Ornamentin mürəkkəbliyinin əsas səbəbi burada istifadə olunan elementlərin orijinallığının təsdiqidir.

Şərq zalının tərtibatının memarlıq üslubuna gəlincə bir – birindən quruluşuna

görə fərqlənən elementlərin harmonik vəhdətini görmək olur. Üslubların yaranması prosesində memar yeni ornament motivlərinə üstünlük verməklə dekorativ həllər yaratmağa nail olmuşdur. Ümumiyyətlə üslublar incəsənətin tələb və qanunlarına uyğun olaraq müxtəlif dövrlərdə və millətlərdə özünə məxsus olmuşdur. Ornament üslublarından istifadə etməklə tətbiqi sənətdə yaranan ornament motivlərini qorumuş, onları özünəməxsus təkrarlanmış və öz estetikliyini saxlaya bilmişdir.

Şərq zalında digər zallarda olduğu kimi əsasən vahid bölgü, gözə çarpacaq dərəcədə hiss olunmur. Elə bu ornamentyaratma xüsusiyyətindən də hiss olunur ki, Tağıyev mülkünün interyerrinin memarlıq tərtibatı və eləcə də inşaası vahid fəzaya malikdir. Burada dalğavari modern formalı incə və düz tağ kompozisiyası yaradılmışdır. Dekorativ elementli zolaqlarla üfüqi vurğulanmış aşağı naxışlı panel otağın perimetri boyunca davam edir.

Divar, taxta lövhələrlə düzbucaqlı ekranlara bölünmüşdür. Bütün ekranlar modern məzmunlu yüngül dekorativ şəkillərlə doldurulub. Hətta otaqda olan əşyaların bədii tərtibatı da, daha dəqiq ətrafdakı mebel üzərində də modern üslubundan alınma dalğalı yarpaqlar təsvir olunmuş parçadan üz çəkilmişdir. Bu tərtibat xüsusiyyətləri tikilinin bütün hissələrində olan döşəməsindəki kimi, zalın döşəməsində də iri planda, modern üslublu ornament təsvir edilmişdir.

Şərq zalında və eləcə də binanın tam memarlığında, əsasən də naxışyaratmada ciddi üslub olan həcmi-məkan baxışına tam olaraq əməl edilmişdir. Şərq zalında eyni zamanda, binanın bütün interyeri boyunca üstünlük təşkil edən mürəkkəbləşmiş bədii- həndəsi-ornamental məkan kompozisiyası qurulumuşdur.

Şərq zalında dekorativ applikasiyadan və memarlıq ritmindən çox ustalıqla istifadə olunmuşdur. Əslində dekorativ applikasiyaya- haşiyə, naxış, ornament və s. daxildir. Applikasiyada işlər müəyyən ardıcıllıqla yerinə yetirilir: süjet seçilir, eskizlərin tərtib olunur, işləniləcək kağız və parça təyin olunur, detallar kəsilir və fon üzərində kəsilmiş detalların kompozisiyası əsasında yerləşdirilir. Memarlıq ritmi isə təsviri sənətdə və memarlıqda, elementlərin təkrarı deməkdir. Zalda və ümuniyyətlə bütün sarayda, ornamentlərin ritmik şəkildə təsvirlərinə və ayrı-ayrı naxışların işlənməsində tez – tez rast gəlinir.

Tək Şərq zalında yox, ümumiyyətlə, sarayın bütün ornamental tərtibatı, bir – birini ritmik şəkildə əvəz edən elementlər birliyindən yaranıb. Onament sözünün mənasına vardıqca, onun naxış, bəzək, nəqqaşlıq anlamında işlədilməisinin təsdiqini, Şərq zalında işlənilmiş ornamentin müxtəlif növlərində və istifadəsində görmək mümkündür. Əslində, ornamentlər istifadə yerinə görə üç növə bölünürlər. Bu bölgünün təsnifatını da Şərq zalının tərtibatında izləmək olur. Belə ki, ən azı dairədə işlənilmiş naxışlar, zolaqlı naxışlar– bu naxışlardan binaların eksteryer və interyerinin tərtibatında və hətta Tağıyev mülkünün keramika məmulatlarının bəzəklərində də rast gəlinir. Araşdırma zamanı o da məlum oldu ki, Şərq zalındakı torşəkilli ornamentlər həndəsi fiqurlar əsasında yaradılmışdır.

Müxtəlif memarlıq tikililərinin üzərində işlənilən ornamentlərin elementləri nöqtə, düz və əyri xəttlər formasında olur. Bu həndəsi elementlər insanların daha mürəkkəb həndəsi formalar yaratmasına birbaşa kömək olur. hər bir həndəsi formanın simvolik mənası vardır ki, bunlardan Tağıyev mülkünün Şərq zalında böyük zövqlə nəqqaşlar tərəfindən idstifadə edilmişdir. Qədim dövrdə şüaları ilə günəşi əks etdirən dairə təsviri və suyu əks etdirən dalğalı xəttlər öz mənasını itirdisə də sonralar xalq tətbiqi sənətində istifadə olunan ornament motivlərinə çevrildilər. Azərbaycan xalq tətbiqi sənətində müxtəlif növ naxışların kompozisiya xüsusiyyətləri və müxtəlif formalı ornamentin növlərinin bədii tərtibat prinsipləri öyrənilir. Əsas etibarı ilə müxtəlif əsrlərə aid xalq sənətlərində tətbiq edilmiş əsas ornament qruplarının kompozisiya qurluşları prinsiplərinin müxtəlifliyi və zənginliyi nümayiş etdirilir. Elə tərtibatını araşdırdığımız Şərq zalının ornamental kompozisiyası, bunu bir daha təsdiq etməyə imkan verir.

Mənbələrdən məlum olur ki, H,Z.Tağıyev özünün tikinti işlərinə şəxsən nəzarət edirdi. Tikdirdiyi binalarda, məsələn, özünün yaşadığı binada və şəxsən açdırdığı qızlar gimnaziyasının binasında onun dəsti-xətti hiss edilir[3.səh.35].Tağıyevin memar kimi gənc polyak mühəndis İosif Vikentiyeviç Qoslavskini seçməsi təsadüfi deyildir. O, memarın layihələrindən və onun qabiliyyətindən xəbərdar idi. Bütün tikililəri layihəsini də özü verən Qoslavski əsasən Avropa order memarlıq üslübundan istifadə edib, fərdi kompozisiya yaradırdı. Sonralar Qoslavskinin yaradıcılığının ən yaxşı nümunələri olan memarlıq əsərlərinin sifarişçisi H.Z.Tağıyev oldu.

Bu deyilənləri Tağıyev mülkünün interyer və eksteryerinin dekorunun daha çox ornamental motivlərin zənginliyi və rəngarəngliyi ilə seçilməsi ilə bir daha təsdiqləmək olur. Memarlıq tikilisinin bədii tərtibatında naxışların həndəsi şəkilli bəzəkləri düz və sınıq xətlər, ziqzaqlar, üçbucaqlar, dördbucaqlılar, altı və səkkizguşəli ulduzlar və rəmzi təsvirlərdən yaranan ornamental kompozisiyalardan istifadə olunmuşdur. Elə məqalənin əvvəlində qarşıya məqsəd kimi qoyduğumuz məsələnin həllini, Şərq zalının ornamental fraqmerntləri ilə bir daha təsdiq edə bilərik.

Beləliklə, qeyd etmək olar ki, Tağıyev mülkünə məxsus Şərq zalının interyerindəki ornamentlərin əksəriyyətini, iki kvadratın çarpaz kəsişməsindən alınan yastı həndəsi element təşkil edir. Bu həndəsi fiquru bəzən tam aydın görmək olur, bəzənsə ona daha dəqiq bir ornament araşdırıcısı gözü ilə baxmaqla görmək olur. Hər iki hal onu bir daha təsdiqləyir ki, memarlıqda və ya həyatın digər sahələrində görünən və ya dərk olunanlar vardır. Bunları görmək üçün insanlardan dərin təfəkkür tərzi, analiz və sintez etmə qabiliyyəti tələb olunur. Bu gediş əslində o qədər də mürəkkəb deyil. Hər kəsin təfəkkür tərzi vardır və insanlar öz yaradıcılıqlarında daima ondan yararlanırlar.

Qeyd edək ki, bəzək nümunələri tək bir tarixi fakt kimi deyil, həm də onu yaradan sənətkarın ustalıq bacarığından məlumat verən qiymətli mənbədir. Binanın memarı sanki digər hissələrə nisbətdə Şərq zalının tərtibatında interyer kompozisiyasının

həllində az vəsait istifadə edərək, çox ifadəliyə nail olmağa çalışmışdır.

Memarlıq elementləri və onların bədii tərtibatı, insanın daxili aləminin xarici təzahürüdür. Bütün xalqların memarlığında olduğu kimi Azərbaycanın möhtəşəm memarlığında da, müasir memarlıqla milli memarlıq sintezi özünə xüsusi yer tapıb. Lakin bütün bunları incə zövqlə, peşəkarlıqla, ifrat dərəcəyə çatdırmamaq şərti ilə yerinə yetirmək hər memara nəsib olmur. Ümumiyyətlə, ornamental kompozisiyaların müasir memarlıqda istifadəsi xalq yaradıcılığının qorunması və gələcək nəsillərə çatdırılması və həm də xalqımızın zəngin yaradıcılığının xarici vətəndaşlara aşılanması deməkdir. Belə memarlıq xüsusiyyətinə malik H.Z.Tağıyev mülkünün bədii tərtibatı keçmiş və gələcək arasında öz bədii sözüsnü deyən və bu möhtəşəmliyi gələcəyə çatdıra biləcək bir tarixi sədadır.

Ədəbiyyat siyahısı:

- Yusifova N. Fəza təfəkkürü və incəsənət.monoqrafiya Bakı 2010, 298 səh.
- Dünyamaliyeva S. Ornament (tarixi, nəzəriyyəsi, qurulması). Bakı 2014. 271 səh
- Cabbarov F. Müasirləri H.Z.Tağıyev haqqında. Bakı, 2013, 290 səh.

Нардана Юсифова
Конструктивные особенности орнамента в Восточном зале, принадлежащие собственности Г.З.Тагиева

Резюме

Ключевые слова: *архитектурные особенности, перспективы, орнамент, декор, дизайн, интерьер и экстерьер*

В статье рассматриваются архитектурные особенности дизайна Восточного Зала им. Г. З. Тагиева. Это исследование проводится через поперечное сечение двух квадратов, первоначально из геометрического элемента, а так же о художественных особенностях орнаментального искусства, типах и стилях орнамента в дизайне восточного зала. Подчеркивается место и роль декоративных украшений, используемых в декоративно-прикладном искусстве в архитектурном оформлении Азербайджана.

Nardana Yusifova

Design features of the ornament in the Eastern Hall belonging to H.Z.Taghiyev's property

Summary

Keywords: *architectural features, perspectives, ornament, decor, design, interior and exterio*r


The article examines architectural features of the design of the East Hall. G.Z. Tagieva. This research is carried out through the cross-section of two squares, originally from a geometric element, as well as the artistic features of ornamental art, types and styles of ornament in the design of the eastern hall. The place and role of decorative ornaments used in decorative and applied art in the architectural design of Azerbaijan is underlined.













Elfira Məlikova-Qurbanova

Azərbaycanın ilk bərpaçı-rəssamı Fərhad Hacıyevin yaradıcılığına dair

Açar sözlər: *bərpaçı-rəssam, sənət əsərləri, tarix, muzey*

Azərbaycanda elmi-bərpaçılıq işnin yaranması və inkişaf tarixi Sovet dövrünə təsadüf edir. Sovet dövrü Azərbaycanda professional bərpaçılıq məktəbinin yaranması Fərhad Hacıyevin adı ilə bağlıdır. Özündən sonra böyük sənət izi qoymuş bərpaçı-rəssamın Azərbaycan və Dünya mədəniyyəti tarixinə dəyərli töhvələr verməsi danılmaz faktdır. Fərhad müəllimin yaradıcılığı çoxşaxəli idu. Belə ki, F.Hacıyev bərpaçı-rəssam, rəssam, pedaqoq kimi tanınırdı. Bütün bu faktlar, elmi mənbələrdə öz əksini layiqincə tapmışdır.

Respublikanın ilk bərpaçı-rəssamı Fərhad İbrahim oğlu Hacıyev 1929-cu ildə Şamaxıda müəllim ailəsində anadan olmuşdur. Təhsilə böyük dəyər verən valideynlər, övladları Fərhadın rəssamlığa marağını hiss edərək, onun bu arzusuna qarşı çıxmamışlar. Fərhad Hacıyev Şamaxıda orta məktəbi bitirdikdan sonra 1947-1951-ci illərdə Ə. Əzimzadə adına Bakı rəssamlıq məktəbində təhsil almışdır. Bakı şəhərində təhsilini bitirdikdən sonra Moskva şəhəri Surikov adına Ali Rəssamlıq İnstitutuna qəbul olur. Burada təhsil alarkən, bərpaçılıq sənətinin sirlərinə tam yiyələnir. Ona dərs deyən müəllimlər, görkəmli sənətşünas-alimlər, korifey bərpaçılar idi. Bərpaçı-rəssam olmaq fikri F.Hacıyevdə Bakı rəssamlıq məktəbində təhsil alarkən meydana çıxır. Bu maraq, dərs otaqlarının birində, təsviri aydın olmayan bir tablonun diqqətini cəlb etməsi ilə başlayır. Fərhad Hacıyev naməlum əsəri bərpa etmək istəsə də, bunu bacarmır. Moskva şəhəri Mədəniyyət Nazirliyinin Təsviri sənət üzrə Ali Dövlət Baş İdarəsinin Bədii emalatxanasında təhsilini bitirən F.Hacıyev bacarıqlı mütəxəssis kimi formalaşaraq vətənə qayıdır. F.Hacıyevin yaradıcılığını çox diqqətlə araşdıran görkəmli rus sənətşünas- alim V.Otradinski yazırdı:"Rəssam va bərpaçı, bu iki peşə arasında elə də böyük fərq olmadığı halda, hər bərpaçı, demək olar ki, rəssamdır. Lakin, hər rəssam, bərpaçı ola bilməz. Farhad Hacıyev də təkcə professional bərpaçı

deyil, eyni zamanda gözəl rəssam olaraq; “Bakı ritmləri”, ‘’Görüş’’, “Dağlarda texnika”, “İliç buxtası” və s. kimi əsərlərin müəllifdir” (8). F.Haciyev silsilə tipli əsərlərini, böyüyüb boya - basa çatdığı, gözəl təbiəti olan Şamaxıda yaratmışdır: Buna misal olarag; «Simlərin oxuması “, “ Şamaxı rəsətxanası “, “ Qədim Şamaxının gəncliyi “ və.s. əsərlərin adini çəkmək olar.

F.Hacıyev Moskvada təhsil aldığı illərdə 400-ə qədər əsəri bərpa etmişdir. Bu əsərlər sırasında Drezden qalereyasına aid olan şedevrlər, trofey əsərlər xususi yer tutur. 1945-ci ildə Drezden qalereyasından xilas edilməsi vacib olan əsərlər, bərpa edilmək üçün Moskva şəhərinə gətirilmişdir. SSRİ Dövlət başçısının sərəncamı ilə «Əsərlər üzərində yüksək peşəkarlıqla bərpa əməliyyatlarının aparılması» işi tapşırılmışdı. Bu əsərlərdən başqa, F.Hacıyev kurs yoldaşları ilə birgə, Pskov, Novqorod və Vladimir şəhərlərindən gətirilən ikonalar, Kiyevin “Müqəddəs Sofiya” kilsəsindən mozaikalı panno,Vilnusdan-A.Çurlyonesin qrafika əsərləri, Moldaviyanın Kişinyov şəhərindən, Moskva şəhəri A.S.Puşkin adına Təsviri-İncəsənət muzeyindən və Tretyakov qaleriyasından çox sayda müxtəlif dövrlərə və ölkələrə aid olan rəngkarlıq əsərləri üzərində bərpa işləri aparmışdır. Müxtəlif növdə olan bədii əsərlərin bərpası gənc mütəxəssis üçün, gələcəkdə gözəl təcrübə məktəbinə çevrildi.Rusiyada təhsil zamanı professional bərpaçıların formalaşması üçün görülən işlər diqqətəlayiqdir. Artıq 1918-ci ildə Rusiyada bərpaçıların ilk konfransının keçirilməsi, bu sahə üzrə gələcəkdə ciddi işlərin aparılacağına bir əsas verirdi. SSRİ məkanında bərpaçılıq işinin inkişaf etməsi 1950-ci illərdən sonrakı dövrü əhatə edir. Sovet Respublikaları məkanında yeni bərpa bölmələrinin yaranması nəticəsində, mütəxəssislərin sayı artmış, emalatxana və laboratoriyalara - fizik və kimyaçı alimlər, bioloqlar və dəqiq elm sahələri üzrə məşğul olan mütəxəssislər də cəlb edilmişdir.

1957-ci ildə Moskvada təhsilini bitirdikdən sonra, kamil bərpaçı-rəssam kımı Bakıya qayıdan Fərhad Hacıyev Azərbaycan Dövlət İncəsənət Muzeyində yeni açılmış «bərpaçiliq emalatxanası»nda bərpaçı-rəssam kimi fəaliyyətə başlayır. 1957-ci ilə qədər bərpası vacib olan əsərlər yalnız Moskva və Leninqrad (Sankt-Peterburq) şəhərlərinə göndərilir və ya nadir hallarda həmən şəhərlərdən Azərbaycana bərpaçı-rəssamlar dəvət olunurdu. İncəsənət muzeyinin fondunda bərpası vacib olan əsərlər, həddindən artıq çox idi. Fəaliyyətə başladığı ilk gündən, sona qədər böyük əmək sərf edən bərpaçı-rəssam çətinliklə də olsa tədricən professional işçi qrupunun yaradılmasına nail olmuşdur. İncəsənət Muzeyində fəaliyyətə başladıqdan sonra Fərhad müəllimə bərpa edilmək üçün verilən ilk yaradıcılıq işlərindən biri «Çərkəzin duası» əsəridir. 1958-ci ildə təcili olaraq bərpaya verilən bu əsərin arxa hissəsində “1842-ci ildə Böyük knyaz Mixail Nikolayeviç tərəfindən alınmışdır.” cümləsi yazılmışdı. Əsərin çox pis vəziyyətdə olması bərpa işində ciddi çətinliklər yaratmışdır. Böyük vaxt tələb edən və bərpasi çətin olan bu əsərin restavrasiyasına Fərhad müəllim cəmi iki il sərf etmişdir. F.Hacıyevin 1958-ci ildə bərpa etdiyi digər

yaradıcılıq işlərindən biri də Holland rəssamı Omeqanq Valtazarın «Qoyun sürüsü otlaqda» adli əsərdir. Mənbələrdə verilən məlumata görə bu tablo XVIII əsirdə çəkilmişdir. Əsər ağac üzərində yağlı boya ilə işlənmişdir. R.Mustafayev adina Azərbaycan Dövlət İncəsənət muzeyinin fondunda qorunan bu əsərin vəziyyətini görən sənətşünas-ekspertlər, bərpanin mümkün olmayacağını bildirərək, onun üzərində restovrasiya işinin aparılmasını məsləhət görməmişlər. Bir neçə aydan sonra əsərin yeni vəziyyətini görən ekspertlər işdən çox razı qalmışlar. Davamlı olaraq 1958-ci ildə bərpaya verilən yeni iş, XIX əsr Holland məktəbinə məxsus olan, naməlum rəssamın çəkdiyi «Monastır apteki» adlı əsər idi. Əsər üzərində işləyən F.Hacıyev bərpanın üsul və metodlarını öyrənmək üçün bir sıra professiınal tədqiqatlar aparmışdır. O dövrüm mətbuat səhifələrində, məhz bu əsərin bərpası haqqinda dəfələrlə məlumatlar çap edilmişdi. Bərpaçı-rəssamın üzərində iş apardığı ən böyük əsərlərdən biri də görkəmli rus rəssamı İ.İ.Brodski tərəfindən çəkilən, xeyriyyəçi Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin portreti idi. Bu portret sifarişlə deyil, Fərhad müəllimin şəxsi təşəbbüsü ilə bərpa edilmişdir. Belə ki, Sovet dövründə mövcud olan ideya - siyasi düşüncəyə görə bu portretın, geniş tamaşaçı kütləsi üçün nümayiş edilməsi qadağan edilmişdir. H.Z.Tağıyevin xeyirxah əməlləri haqqında rəsmi sənədlərdə həkk edilən çoxsaylı faktları silməyə çalışan, Sovet rejiminin nümayəndələri bu məlumatları başqa istiqamətə yönəltməyə çalışırdılar. Muzeydə, Fərhad Hacıyevin, Haci Zeynalabdin Tağıyevin portretini bərpa etmək istəyini eşidəndə, onu bu fikirdən yayındırmağa çalışırlar. Lakin sənətkar razılaşmır. Şəkili bərpa etməyi qərara alır və təxminən il yarımlıq (1959-1960) məşəqqətli "reanimasiya" işi başlayır. Portret ilkin görkəmini alır və fonda qaytarılır, daha doğrusu, yardımçı otaqlardan birində... daha 20 il beləcə "həbs"də qalir. Bərpaçı rəssam F.Hacıyev öz "əl işinin" işıq üzü görməsi üçün çox mübarizə aparmışdır. 1979-cu ildə F.Hacıyevin 50 illik yubileyi münasibətilə Azərbaycan Rəssamlar İttifaqı və R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyi tərəfindən "Ali dərəcəli bərpaçı rəssamın sərgisi" adlı kataloq çap edilmişdir. Böyük mübarizə nəticəsində kataloqun səhifəsində Haci Zeynalabdin Tagiyevin bərpadan əvvəl və sonra olan portreti yerləsdirilsə də, şəklin altinda H.Z. Tağıyevin adının yazilmasina icazə verilməmişdir.Əsər " Naməlum insanın potreti" adi ilə çap edilmişdir.

1979-cu ildə F.Hacıyevin 50 illik yubileyi münasibətilə fərdi sərgisi açılanda, bərpaçı, Levitanın, Brullovun tabloları ilə yanaşı Brodskinin "Tağıyevin portreti " əsərini də nümayiş etdirmək üçün icazə istəyir. Mədəniyyət rəhbərləri qəti imtina edərək: "Kapitalistin portretini nümayiş etdirmək olmaz. Bu portreti, ümumiyyətlə, məhv etmək lazımdır» fikrini bildirmişlər. F.Hacıyevin tablonu başqa adla "Kişi portreti" adı ilə nümayiş etdirmək təklifinə də razı olmayıblar. Deyirlər, Fərhad bu adi portret üçün uğurlu hesab edirmiş. Bu portretin tarixçəsi Sovet hakimiyyəti dövrünün süquta yetməsinə qədər davam etdi. Amma çox təəssüf ki, bərpaçı rəssamın bu xoş sonluqdan xəbəri olmayıb. O, 1987-ci ildə vəfat edib" (3). Fərhad

müəllimin bu tablonu xilas etməsi Azərbaycan tarixi üçün bir qalibiyyətdir, bir şərəfdir. F.Haciyev Haci Zeynalabdin Tagiyevi xalqa təqdim etdi və onun ruhunu yaşatdı. Artıq neçə illərdir ki, bu əsərin reproduksiyası böyük populyarlığa malikdir. Portret təkcə kitab və jurnallarda deyil, eyni zamanda plakatlar, təqvim, açıqca və s. poliqrafik əsərlərdə də çap edilir. Sovet dövründə, böyük şəxsiyyətin qızı Sara xanım. atası Hacı Zeynalabdin Tağıyeva qarşı aparılan neqativ təbliğatın qarşısını almaq üçün, illərlə haqsızlığa qarşı mübarizə aparmışdır. Millətini sevən, görkəmli xeyriyyəçinin əvəzedilməz və dəyərli fəaliyyətini təsdiq və sübut edən rəsmi sənədləri dəfələrlə lazımi idarələrə təqdim etməyə çalışmışdır. Lakin, Sara xanım xoş qarşılanmamış,kömək üçün müraciət etdiyi yerlərdən uzaqlaşdırılmışdır. Zeynalabdin Tağıyevə "layiq olduğu ad" çox gec olsa da, qaytarıldı. Bərpaçı-rəssam F.Hacıyev, 1960-cı illərin ortalarına qədər onlarla əsər bərpa etmişdir. O cümlədən, XIX əsrin rus rəssamlarından: V.V.Vereşaginin "Devadiya", F.P.Rizniçenkonun "Krım sahilləri", A.M.Kolosovun "Savrasovun portreti", V.A.Tropininin "Qərib". F.A.Vasilyevin, I.N.Zankovskinin, A.M.Komsovun və başqa sənətkarların əsərləri üzərində bərpa işi aparmışdır. 1960-cı ildə Şəki Xan sarayının bərpa edilməsi üçün Rusiyadan, Azərbaycana bir sıra bərpaçı-rəssamlar qrupu dəvət edilmişdir. Bu qrupun tərkibinə F.Hacıyev də daxil edilmişdir. O, 960 ədəd taxta parçası üzərində pozulan naxışları yenidən bərpa edərək həyata qaytarmışdır. 1960-cı ilin birinci yarısında bərpaçı-rəssam "Yelizavetpol yaxınlığında döyüş" adlı tablonu bərpa edir. Bu əsərin müəllifi, tanınmış batalist-rəssam, akademik Frans Rubo (1856-1928) olmuşdur. Batal janrının ustası tərəfindən böyük məharətlə çəkılmış "Yelezavetpol yaxınlığında döyüş" tablosu Azərbaycan tarixində məşhur epizodlardan birini əks etdirir. "Vaxtilə parlaq rəngləri olan bu əsərin boyaları solmuş, lövhənin bəzi yerlərində quruyaraq tamamilə tökülmüşdür. Əsəri bərpa edərkən, rəssam xüsusi materiallardan istifadə etmişdir. Batal janrına aid olan digər bərpa işi: R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyinin eksponatı rəssam S.A.Korovinin "Kulikov döyüşü" (1901) əsəri olmuşdur. F.Hacıyev 1963-cü ildə görkəmli marenist, dəniz nəğməkarı, özünün məşhur "Doqquzuncu dalğa", "Qara dəniz", "Dalğalar arasında" əsərləri ilə dünya şöhrəti qazanmış, İ.K.Ayvazovskinin "Aylı gecə", rəssam A.F.Petersin "Elbrus mənzərəsi" əsərləri üzərində bərpa işi apararkən, çox, vaxt sərf etmiş, demək olar ki, tabloları təzələmişdir. Yuxarıda adı çəkilən iki əsər, bərpa olunaraq yenilənmiş, eksponat şəklində Azərbaycan Dövlət İncəsənət muzeyinə qaytarılmışdır. 1965-ci ildə Fərhad Hacıyevə İncəsənət Muzeyinin əsərlər toplusundan üzərində kişi başı təsvir edilmiş köhnə, qaralmış əsər verilir. Böyük ehtimalla, bu əsərin, rəssam N.N.Qenin əsərinin əsli olması atributlaşdırılmışdır. F.Hacıyevin fikrinə görə bərpaya təqdim edilmiş bu etüd "Saul Aendor falçısının yanında"əsərinə aiddir.Məlum olduğu kimi əsər, 1856-cı ildə çəkilmişdir. Əsərin vəziyyəti bərpa emalatxanasına daxil olarkən çox acınacaqlı idi: rəng qatı qabarmış və qaralmışdır. Bir sıra zərgər incəlikləri ilə "reanimasiya" əməliyyatları aparıldıqdan

sonra, yenilənmiş tablo - "Saulun başı" əsəri 1967-ci ildə muzeyə qaytarıldı.1960-ci illərin əvvəllərində R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində daimi ekspozisiyaya aid olan sərgi salonlarının sahəsi genişləndirildi. Milli təsviri-sənət və dekorativ-tətbiqi sənət əsərlərinin sərgilənməsi üçün yeni zallar açıldı. Bu zallarda XX əsrin 20-30-cu illərində Azərbaycan rəssamlarının çəkdiyi əsərlər nümayiş edilirdi. Bu əsərlərdən əksəriyyəti F.Hacıyev tərəfindən bərpa edilmişdir. Onlardan: A.Y.Qaziyevin «Dəmirçixanada iki dəmirçi", A.A.Rzaquliyevin "Güləş", "Başında düyünçə daşıyan Türk qızı»,"Qadınlar şöbəsi», Q.A.Xaliqovun "Orden almış çobanın portreti", "Firdovsinin dəfni", Əli bəy Hüseynzadənin "Bibi-heybət məsçidi", **"**Seyxülislamın portreti**»,** Bəhruz Kəngərlinin "Peyzaj" və "Naxçıvanda Məscid", S.A.Salamzadənin "Toxuculuq fabrikində", "Peyzaj" və s. göstərmək olar. Fərhad Hacıyev 1960-70-ci illərdə onlarla əsər üzərində bərpa işi aparmışdır. Nisbətən çox nadir olan, batal janrına aid əsərlərdən biri də rus rəssamı N.S.Samokişin - 1884-cü ildə çəkdiyi "Kiçik Yaroslavl yaxınlığında döyüş" əsəridir. 1960-cı ildə bərpaçı-rəssamın emalatxanasına daxil olan bu əsər üzərində uzun müddət bərpa işi aparılmışdır. Əsər 1925-ci ildə Leninqrad (Sankt-Peterburq) Dövlət muzeyinin fondundan "zədəli vəziyyətdə" Azərbaycan Dövlət muzeyinə göndərilmişdir.(2) Bərpaçı-rəssamın 1962-ci ildə həyata qaytardığı dəyərli tablolardan biri də, Əli bəy Hüseynzadənin çəkdiyi "Bibi-Heybət məscidi" əsəridi. Məlum olduğu kimi Bibi Heybət məscidi, başqa dini abidələr kimi 1930-cu ildə məhv edilmişdi. Memarlıq abidəsinin yeganə, ilkin görünüşü məhz bu tablo üzərində qalmışdır. Əsərin vəziyyəti çox acınacaqlı idi. Rəng qatı parça-parça olmuş, dərin və çox sayda krakelyurlar yaranmışdır. F.Hacıyev bu əsəri bərpa etməklə, ''tarixdən bir fraqment''i xilas etmişdir. Bu əsər Azərbaycan xalqına iki dəfə qaytarılmışdı. Birinci dəfə, böyük şəxsiyyət olan Zeynalabdin Tağıyevin köməkliyi ilə. Yazıçı Manaf Süleymanov "Eşitdiklərim, gördüklərim, bildiklərim" adlı kitabında bu haqda belə məlumat verir: "Orucov qardaşları öz mağazalarının vitrininə satış üçün iki, böyük olmayan əsərlər qoymuşlar, onlardan biri "Bibi-Heybət məscidi" əsəri idi. Bu əsəri, Bakı şəhərində konsul kimi fəaliyyət göstərən Mak Donnald almaq istəyirdi. Konsul bu əsəri Londona aparmaq fikrində idi. O, pulu əvvəlcədən verərək tablonu sabah səhər konsulluğa aparmalarını xahiş edir. Həmin günün axşamı Zeynalabdin Tağıyevin evində qonaq olan Orucov qardaşlarından böyüyü Hacıya bu hadisəni danışır. Tağıyev tacirə beş yüz manat verib şəkli ona bir şərtlə göndərməyi xahiş edir: "Şəklin müəllifi bu haqda heç nə bilməməlidir. Əli bəy Hüseynzadə "Həyat" qəzetinin və "Füyuzat" jurnalının redaktorudur. Mən ona maaş verirəm, o məndən pul almaz". Bibi-Heybət məscidi"nin təsviri olan əsəri isə yaxşı olar ki, Bakıda qalsın."(2)

F.Hacıyev İncəsənət muzeyində işlədiyi müddətdə, yəni 1957-ci ildən 1973-cü ilədək yüzlərlə əsər bərpa etmişdir. 1973-cü ildə F.Hacıyevin təşəbbüsü və təkidi ilə respublikamızda bədii sənətkarlıq nümunələrinin bərpası işini yaxşılaşdırmaq

məqsədilə İncəsənət Muzeyinin nəzdində xüsusi emalatxana təşkil olundu. 1981-ci ildə bərpa emalatxanasının əsasında Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərkibində "Muzey sərvətlərinin və xatirə əşyalarının elmi-bərpa mərkəzi" yaradıldı. Bu mərkəz, İçərişəhər XIX əsr memarlıq abidəsi olan Bəylər məsçidində ''muvəqqəti olaraq'' qırx ildən artıq fəaliyyət göstərdi. Bərpa mərkəzinin məsçiddə yerləşməsi məntiqə uyğun olmasa da, bu unikal işin sahibləri böyük səbirlə yeni binanın ayrılacağını gözləmişlər.Yarıqaranlıq məscid otaqlarında laborator cihazların, (stol, şkaflar, xalçalar, parçalar, metal və keramika materialları arasında) kimyəvi reaktivlərin saxlanması və bərpaçıların bu şəraitdə fəaliyyəti, onların işə sevgisinin bariz nümunəsi idi. Bu şəraitdə, yüzlərlə əsərin ''xilas olması'' böyük sevincə səbəb olurdu. Fərhad müallim: «Bütün bu sənət əsərləri Azərbaycan xalqının irsidir'' deyirdi.Fərhad müəllim emalatxanada çalışmaq üçün, rəssamlar içərisindən 5 mütəxəssis seçmişdir. Onlardan birincisi, böyük qizi Gülşən Hacıyeva idi. Atasi Fərhad, həm yaradici rəssam, həm də usta-bərpaçı kimi qızına əla nümunə olmuş, gələcəkdə mükəmməl, peşəkar barpaci-rassam olmasinin təməlini qoymuşdur. 50 ilə yaxındır ki, Gülşən xanım sevə-sevə öz məsləkini davam etdirir. Gülşən xanım rəsmi olaraq 1970-ci ildən bərpa mərkəzində çalışmağa başlamışdır.Fərhad müəllim özü də bilmədən qızı Gülşənin qəlbində bu sənətə məhəbbət yaratmışdır. Gülşən xanım İ.Y.Repin adına Leninqrad (Sankt-Peterburq) Rəssamlıq Akademiyasının «Rəngkarlıq,heykəltəraşlıq və memarlıq institutu»nun Sənətşünasliq fakültəsini bitirdikdən sonra, Bərpaçılıq ixtisası üzrə təhsil almışdır.Fərhad müəllim bərpa mərkəzinə, Ə.Əzimzadə adına Rəssamlıq məktəbini bitirən, gənc və istedadli rəssam Əskər Əskərovu dəvət etmişdir. Çox bacarıqlı və ciddi olan bu rəssam bərpaçılıq sənətini sevmişdi.

1965-69-cu illərdə Ə.Əzimzadə adına Rəssamlıq məktəbini bitirən, Ələskər Əliyev də Fərhad müəllimin dəvəti ilə bərpaçılıq mərkəzində işə başlamışdı. O, rənkgarlıq şöbəsində işləyərək, dəfələrlə Moskva şəhəri mərkəzi muzeylərin bərpa laboratoriyalarında, həm də Ümumittifaq elmi-barpaçılığ İnstitutunda təşkil edilən kurslarda da olmuşdur. 1976-78-ci illərdə Fərhad müəllimlə birgə Azərbaycanda bərpaçılıq sənətinin inkişafı ilə əlaqədar sənədli film çəkərək «Ümumittifaq Həvəskar film çəkənlər» arasında lauriat diplomuna layiq görülmüşlər. Bu film ''Azərbaycan Rəssamlarının 1-ci Respublika sərgisində'' də nümayiş edilmişdir. Ələskər Əliyev SSRI Mədəniyyət Nazirliyi tərəfindən ''Yüksək dərəçəli bərpaçi'' adina layiq görülmüşdür. 25 ilə yaxin o, Fərhad müəllimin təşkil etdiyi mərkəzdə çalişaraq bərpası çətin olan əsərlərinin öhdəsindən bacarıqla gəlmişdir. Bərpa mərkəzinə ilklər sırasında qəbul olan şəxslərdən biri də Qənahi Rəhim Qulam oğlu idi. Bərpaçılıq mərkəzində işə xalça üzrə bərpaçı-rəssam kimi qəbul edilmişdir.1973-cü ildə İncəsənət Muzeyi tərkibində bərpa mərkəzinin olmasından xəbər tutan Rəhim Qənahi özü Fərhad müəllimin yanına gəlmişdir. Fərhad müallim onun sənətkarlıq bacarığı ilə tanış olduqdan sonra: ''Çox ciddi və bacarıqlı olan bu

şəxs, gənclərə xalça sənətinin sirlərini öyrədə bilər'' demişdir. Rəhim Qənahinin toxuduğu xalçalar tez-tez sərgilərdə nümayiş edilirdi. Bərpa mərkəzində onun davamçıları da var idi. Məsələn, Ziba xanim Əliyeva, Ədibə xanım Əsədzadə və başqaları. Kecmiş SSRİ-də Azərbaycan yeganə Respublika idi ki, burada xalça və xalça məmulatları yüksək peşəkarliqla bərpa olunurdu. Rəhim Qənahi Leninqrad şəhərinin (Sankt-Peterburq) Etnoqrafiya muzeyindən, bərpaçı-rəssamlara xalca sənəti üzrə kurs kecmək üçün, dəvət almişdi. Rəhim müəllim orda çalişan bərpaçilara xalça sənətinin incəliklərini öyrətmişdir. Muzeyin direktoru, Rəhim Qənahiyə rəsmi qaydada təşəkkür məktubunu vermişdir. Təbii ki, Fərhad müəllim əldə edilən belə nəticələrdən qürur duyaraq, bərpa emalatxanasında məhz belə sənətkarların olması üçün çalışırdı. Bərpa işinə cəlb edilən sənətkarlardan biri də Rafik Əsgərov idi. O, Ə.Əzimzadə adina Rəssamliq məktəbini bitirdikdən sonra 1973-cü ildə Fərhad müəllimin yanında işə başlamışdır. Rafik Əsədov milli misgərlik nümunələri, soyuq silahlar, məişətdə işlənən metal əşyalar üzərində məharətlə bərpa və konservasiya əməliyyatı aparırdı.Yuxarida adları çəkilən ilk bərpaçı-rəssamlardan sonra, işə bir sıra yeni sənətkarlar qəbul edilmişdir. Onlardan biri, öz sahəsi üzrə yeganə mütəxəssis olan Aydın Qurbanov idi. O, qədim qapılar daxil olmaqla, şəkil çərçivələri və ən incə zərgərlik nümunələri üzərində professional bərpa işi aparırdı. Bərpaçılıq emalatxanasının aparıcı işçilərindən biri də Rühəngiz Əliyeva idi. 1977-ci ildə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Texnikomunu bitirdikdən sonra V.İ.Lenin (Haci Zeynalabdin Tagiyev kombinati) kombinatına göndəriş verilsə də o, Fərhad müəllimin dəvətinə üstünlük verərək, Bərpaçılıq Mərkəzini seçmişdir. Buna səbəb Rühəngiz Əliyevanin 1978-ci ildə ''Azərbaycanın bərpaçı-rəssamlarının 1-ci Respublika qurultayı''nda iştirak etməsi olmuşdur. Rəssam Rühəngiz Əliyeva respublikada ilk dəfə olaraq, Fərhad müəllim tərəfindən keçirilən sərgidə bərpaçı rəssamların möcüzəli, eyni zamanda həddindən artıq çətin işinə məftun olmuş, respublikada bərpaçı-rassamlara olan böyük ehtiyacı hiss etmisdir. Qurultayda sərgi ilə tanış olması və sənədli filmə tamaşa etməsi Rühəngiz xanımın gələcək taleyini bərpa mərkəzi ilə bağladı. Rühəngiz xanımın Moskva və Sankt-Peterburq şəhərlərində təcrübə keçməsi, şərq incəsənəti nümunələrini ustalıqla bərpa etməsində böyük rol oynamışdır. Bərpa emalatxanasına qəbul edilən digər rəssam, Natiq Səfərov, Ə.Əzimzadə adına Bakı Rəssamlıq məktəbini «Bədii çəkmə sənəti» üzrə bitirdikdən sonra Fərhad müəllimin emalatxanasında işləməyə başlamışdır. Fərhad Hacıyev bir pedaqoq kimi işə qəbul etdiyi hər bir rəssamı yüksək səviyyəli bərpaçı kimi görmək istəyirdi. Mükəmməl şəkildə bərpaçı-rəssamlar qrupunu yaradan və onlara rəhbərlik edən, Fərhad Hacıyev gərgin əmək vaxtına baxmayaraq 1959-cu ildən Beynəlxalq sərgilərdə fəxri üzv kimi də iştirak edirdi. F.Hacıyevin çəkdiyi əsərlərin əksəriyyəti sərgi zamanı SSRİ Mədəniyyət Nazirliyi tərəfindən bəyənilərək milli muzeylərimiz ucun alınırdı. Hal-hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyinin fondunda Fərhad Hacıyevin kətan üzərində yağlı boya ilə

çəkdiyi beş əsəri saxlanir.Bu əsərlər aşağıdakılardır:

1. «Görüş» 1960-cı il. (214 x 90)
2. «Bakı ritmləri» 1970-ci il.(140 x 90)
3. »Şamaxı rəsədxanasının tikintisində»(və ya «Romantiklər»)-1970-ci il. (175x125)
4. «Oxuyan simlər». 1971-ci il.(145 x 135)
5. »Qaradağ sement zavodu».1971-ci il. (145 x 135) Mədəniyyət Nazirliyinin Şəkil Qaleriyasının fondunda aşağıda adları çəkilən əsərlər saxlanır. Onlardan:
1. «İnqilab ərəfəsində». 1977-ci il. (130 x150)
2. «Qədim Şamaxının gəncliyi». 1979-ci il. (140 x160)
3. «Dostluq körpüsü». 1982-ci il. (170 x150)
4. « Şamaxıda Novruz bayramı». 1982-ci il.(140 x170)
5. «40-cı bahar». 1985-ci il. (130 x160) əsərləridir.

Milli Azərbaycan Tarixi Muzeyinin keçmiş direktoru, mərhum Püstəxanım Əzizbəyova, fondda olan eksponatlardan: Mirzə Qədim İrəvaninin 3 miniatür üslubda çəkilən əsərlərinin surətinin çıxarılmasını Fərhad müallimə sifariş etmişdir. Hal-hazırda bu əsərlər Tarix muzeyinin fondunda saxlanır.

Bərpaçı-rəssam F.Haciyevin əsərləri, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin va Səttar Bəhlulzadə adına Bədii-Sərgi Salonunun ekspozisiya və fondlarında da qorunub saxlanır. Yerli və xarici sənət sevərlərin şəxsi kolleksiyalarında rəssamın çəkdiyi etüdlər, doğma Azərbaycanın peyzajları, lirizm və romantizmi özündə əks etdirən rəngkarlıq əsərlərinin olması bir faktdır. Bu əsərlərin hər birində həyatın bir parçası, bir anı verilmişdir. Azərbaycan torpağını, xüsusən Şamaxının füsunkar təbiətini odlu məhəbbətlə sevən rəssam Fərhad Haciyev ümumiyyətlə bütün respublikanı az qala qarış-qarış gəzmişdir. Onun əsərlərində həyata fəlsəfi baxış, milli kolorit aydın hiss olunur, onlardan:

1.“Ağaclar” və “Portda” əsərləri 1959-cu ildə Bakı və Moskva şəhərlərində keçirilən Azərbaycanın dekada sərgisi.

2.“Görüş (Neft daşlarında)” əsəri 1960-cı ildə Respublika , 1961-ci ildə Tiflis şəhərində Azərbaycan rəssamlarının sərgisi.

3.“Dağlarda texnika” əsəri 1961-ci il Respublika sərgisi “Bizim müasirlər”, “Arzular” (“Arzu edənlər”) əsərlari Şamaxıda Observatoriya inşa edilərkən yaranmışdır. Bu əsərlar 1963-cü ildə Respublika sərgisi.

4 “Şamaxı” əsəri 1966-ci ildə Respublika payız sərgisi, “İliç buxtası” 1966-ci il Respublika sərgisi.

5. “Baki ritmləri” 1967-ci il Respublika sərgisi.

6.“Sükut”,"Gənclik metro-stansiyasının inşası" əsərləri 1968-ci ildə “Sovet Ordusunun 50 illiyi” və “Komsomolun 50 illiyi” münasibətilə keçirilən sərgi.

7." Pəncərədə gül" əsəri 1969-cu ildə Respublika sərgisi.

8.“Məftillərin səsi” əsəri - 1970-ci ildə Respublika və Moskva şəhərində

Azərbaycan rəssamlarının sərgisi.

9.“Ərəfədə” əsəri 1970-ci ildə Az. SSR KP -50 illiyi”nə həsr edilmiş sərgi.

10."Qarabağ sementi" əsəri 1971-ci ildə keçirilən Respublika sərgisi.

11."Mayak" əsəri 1973-cü ildə “Payız" sərgisi.

12."Dərinliyi araşdıranlar"əsəri 1976-77-cı ildə keçirilən Respublika sərgisi.

13.”Leninin yolu ilə”, “Dostluq körpüsü” əsərləri - Moskva şəhərində, Bolqarıstanda, Çexoslovakiyada (1978), Rumuniyada keçirilən sərgi.

Yuxarıda adları çəkilən əsərlərin müxtəlif sərgilərdə nümayiş edilməsi bərpaçı-rəssamın sevə-sevə həyata keçirdiyi əsas işlərindən biri idi. Mədəniyyət Nazirliyinin Şəkil Qalereyasının fondunda saxlanan "40-cı bahar" əsəri 1985-ci ildə çəkilmişdi. (Kətan üzərində yağlı boya ilə çəkilmiş bu əsərin ölçüsü 130x160 sm.) Bu əsər Vətən müharibəsinin bitməsinin 40 illiyinə həsr edilmişdi. Tablonun çox maraqlı kompozisiyası var. Əsərə baxdıqda, əks tərəfdən, kənardan bütün mənzərəni seyr edən bir veteranın dayandığını fərz edirsən. O,öz keçmiş xatirələri ilə gerçək həyati seyr edir. Sanki, təbiət də 9 May bayramını qeyd edir. İsti yaz havası, çiçəklənən meyvə ağacları, yaşıl çəmənliklər, nəhayət sakit axan çayın ətrafına yığılan insanlar. Bəzi ailələr otlaqda oturaraq, gözəl təbiəti seyir edib, romantik hisslər keçirir. Lakin rəssam tərəfindən romantikaya zidd olaraq təsvir edilən kababın tüstüsü insani reallığa qaytarır. Gözləri yaşaran veteran da boşqab ilə dolu yeməkləri kənara qoyub, ağ kağızın üzərində müharibədən qalan atributlara baxıb, o qorxulu, təhlükəli günləri yada salaraq, bu günə sevinir.

“Şamaxıda Novruz bayramı” əsəri F.Hacıyev tərəfindən 1982-ci ildə çəkilmişdir. Əsər, xalqımızın sevimli bahar bayramı - Novruza həsr olunub. Şən əhvali-ruhiyyəli, işıqlı, açıq koloritli bu gözəl kompozisiya ekspressiv və yüksək emossional təsir göstərir. 1982-ci ildə Şamaxı şəhərində yeni tikilən stadionun təntənəli açılışı keçirilmişdu. Rəssam keçirilən bu tədbiri zəngin boyalarla, dolğun epizodlarla çəkmişdir. Əsərdə təsvir edilən stadion meydanında, gənclərin milli koloritə uyğun olaraq,buta formasinda düzülərk rəqs etməsi gözəl təəssürat yaradır. Uzaqda, dağların arasında Şamaxı şəhəri, Cümə məscidi və “7gümbəz” görünür. Əsərdə çox maraqlı epizodlardan biri Sovet dövründə çəkilən bu tabloda 3 rəngli bayrağımızın təsvir edilməsidir.

Bu Fərhad müəllimin yaradıcı işlərinin qısaldılmış siyahısıdır. Onun qara qələmlə çəkilən yüzlərlə rəsm əsərləri vardır. Bu əsərlər Gülşən xanımın şəxsi ailə arxivində qorunur. Bir neçə iri albomlarda qorunan rəsimlər, böyük əsərlərin fotoşəkilləri, gözəl dizaynla tərtib edilib. Azərbaycanda ilk peşəkar ixtisasçı, bərpaçı-rəssam Fərhad Hacıyev təsviri - incəsənətimiz üçün çox vacib olan bərpaçılıq sənətinə İncəsənət muzeyinin zirzəmisindən başlamış (1957-1973-cü ilə qədər), böyük inkişafa doğru gedərək 1981-ci ildə möhtəşəm "Muzey Sərvətləri və Xatirə Əşyalarının Bərpa Mərkəzi"ni yarada bilmışdır.Yüzlərlə istedadlı rəssamların, bərpaçıların müəllimi olmuş, gözəl ixtisasçı kadrlar yetişdirmişdir.

Fərhad müəllimin şəxsi yaradıcılıq əsərlərinin və bərpa etdiyi dəyərli əsərlərin, (onun üçün doğma olan) İncəsənət Muzeyinin ekspozisiyasında nümayiş edilməsi periodik şəkildə həyata keçirilməlidir. Muzey tərəfindən tərtib olunan elmi-məlumatlandırıcı əsərlərdə bərpaçı-rəssam Fərhad Hacıyevin yaradıcılıgı xüsusi yer verilməlidir. Bu istiqamətdə görülən işlər Azərbaycan incəsənətı tarixinin bəlli dövürdə işıqlandırılaraq öyrənilməsi üçün yeni elmi cığırı açmış olar.

Fərhad Hacıyev bir mütəxəssis kimi böyük çətinliklərlə qarşılaşırdı. Dünya mədəniyyəti incilərinə göstərdiyi qayğı sərhədsiz və hədsiz idi. Bərpaçı-rəssam çalışdığı müddət ərzində, şəxsi təcrübəsində qarşilaşdığı çətinliklərlə üz-üzə qaldıqda, mətbuat səhifələrində öz məqalələri ilə çıxış edirdi. Fərhad müəllim müxbirlərə verdiyi müsahibələrdə də böyük cəsarətlə öz fikrini bildirirdi. Bərpaya məruz qalan əsərlərin həqiqi səbəblərini araşdıraraq, düzgün fikir mübadiləsi yürüdürdü. Aşağıda adları çəkilən məqalələrdə bərpa işi ilə əlaqədar olan hər bir problem ciddi şəkildə müzakirə edilərək, qüsurların aradan qaldirilması ön plana çəkilirdi.

1. "Vacib məsələ" – Ədəbiyyat və incəsənət qəzeti, 12 fevral 1966, №7.

2. "Это очень нужно" газ. Ваку, 1 ноября 1968 г.

3. «Долгую жизнь» журнал, Советская живопись, 1970г.

4. «Сохранить на века» газ. Баку, 2 января 1980г.

5. «Кто поможет реставраторам». Специалист ставит проблемы, газ.Баку 18 января.1986 .

Bu məqalələrdə qarşıya qoyularaq, təhlil edilən real problemlər diqqəti cəlb edir. Məsələn, 1966-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində "Vacib məsələ" başlığı altında çap edilmiş məqalədən oxuyuruq: "...düzünü deyim ki, bərpaya ehtiyacı olan təzə əsərlərin içərisində 5-10 il əvvəl çəkilmiş əsərlərə rast gələndə kədərlənirəm. Axı necə olur ki, üç-dörd yüz il əvvəl rəssamlar əsərlərini çəkərkən bədii əsəri əmələ gətirən "böyük" və "kiçik"liyindən asılı olmayaraq bütün elementlərə qayğı və diqqətlə yanaşırdılar, bizim müasirlərimiz isə rəngkarlığın "adi" və "kiçik" görünən, lakin əsərin gələcək taleyi üzərində çox böyük təsiri olan bu tələblərdən sərf-nəzər etmişlər. Bu "adi" və "kiçik" görünən tələblər nədən ibarətdir? Bəzən, rəssam, padramnik seçərkən, onun materialının keyfiyyətinə əhəmiyyət vermir. Bəzən, kətan üzərində çəkilən əsəri çərçivəyə salarkən isladır, rəngləri qatışdırarkən bir-birinə mənfi təsir göstərən boyaları nəzərə almır: bütün bunların nəticəsində böyük yaradıcılıq zəhmətinin barı olan əsər, çox keçmir ki, qaralmağa, çatlamağa, xarab olmağa başlayır. Sərgi komitələri və qəbul komissiyaları əsər qəbul edəndə əsərin ancaq ideya-sənətkarlıq cəhətinə fikir verməklə kifayətlənir və yuxarıda deyilən "kiçik" cəhətlərə əhəmiyyət vermirlər. Bu ümumi nöqsan aradan qalxmadıqca, biz, vaxtından çox-çox qabaq bərpaya ehtiyacı olan əsərlərin sayını azalda bilməyəcəyik. Eyni zamanda, sənət əsərlərinin texniki cəhətdən ömrünün uzun olmasının tək bir rəssamdan asılı olduğunu da demək düz deyildir. Bu mühüm tələb Azərbaycan SSR Mədəniyyət Nazirliyinin sərgi salonlarının rəhbərlərinin

də qarşısına qoyulmalıdır". Bu məqaləni konkret faktlara əsaslanaraq yazan sənətkar davam edərək yazır: "Rəsm əsərlərinin uzun ömürlü olması sahəsində keçirilən Ümumittifaq müşavirənin göstərişləri incəsənətimizin inkişafı üçün çox faydalı, xeyirli fikir və mülahizələrinə əsaslanmışdır. Müşavirənin materiallarını öyrənmək və yerlərə göndərilmiş qərarları həyata keçirmək üçün rəssamlıq məktəblərinin tələbə və müəllimlərindən tutmuş rəssamlar ittifaqının bütün üzvləri səy göstərməli və bu sahədə əlaqədar təşkilatlar üzərinə düşən vəzifələri layiqli şəkildə yerinə yetirməlidirlər. Əvvəlcə SSRİ Rəssamlıq Akademiyasının keçən ilin axırlarında 1965-ci ildə Moskva şəhərində bərpaçılıq məsələlərinə dair çağırdığı xüsusi müşavirədən yazmaq istəyirəm (Bu mövzuda müşavirə ilk dəfə 1954-cü ildə kecirilmisdir). Mən də Azərbaycan rəssamlarının bir nümayəndəsi kimi bu müşavirədə iştirak edirdim. Bu xüsusi müşavirə Sovet İttifaqi Kommunist Partiyasi və SSRİ Nazirlər Sovetinin rəssamlıq ictimaiyyəti qarşısında qoyduğu mühüm bir vəzifə olan – ''Sovet incəsənəti əsərlərinin texnoloji cəhətdən uzunömürlü olmasının təminati'' probleminə həsr edilmişdir. Ümumittifaq mühafizə və bərpa laboratoriyasının direktoru I.P.Qorin müşavirədəki çıxışında bəzi sənət əsərlərinin vaxtından əvvəl sıradan çıxması, yəni xarab olma səbəblərini tahlil edərək, bu ciddi qüsurun çox zaman, rəssamın öz əsərinin gələcək taleyinə biganə qalması və rəngkarlıq texnikasının ən adi tələblərinə riayət etməməsindən irəli gəlməsini bildirmişdir. Bədii ekspert şurasının üzvləri, rəssamlıq akademiyasının nümayəndələri, rəssamlıq əsərlərinin texnikası və texnologiyasi sahəsində çalışan mütəxəssislər, öz çıxışlarında bədii material və rəngkarlıq emalının son illərdə yaxşılaşmağa doğru getdiyini söyləmiş, laboratoriyalarda bu sahədə aparılan elmi tədqiqat işlərinin inkişafı haqqında danışmışlar."(4) F.Hacıyev müşavirədə deyilənlərə elmi təhlillər verərək , professional mütəxəssis dəqiqliyi ilə hər bir çıxışı müzakirə edirdi: "Muzey və sərgi salonlarına qəbul edilən rəssamlıq əsərlərinin saxlanma və mühafizə şəraiti muvafiq qayda uzərində aparılır. Lakin, ela əsərlər var ki, onların vaxtından əvvəl xarab olmasının səbabkarı bəzən rassamın özüdür. Əsərin müəllifi ilk baxışda "kiçik" görünən bir sıra texnoloji tələbləri yerinə yetirməyibsə, onun əsəri uzun müddət yaşaya bilməz. Mən, bərpaçı-rəssam kimi, bir əsirlik və hətta daha çox ömrü olan bir çox rəsm əsərlərinə ikinci hayatı vermişəm. Lakin, qədim əsərlərin düşmənləri çoxdur. Məsələn, vaxtın özü, gün işığı və qaranlıq, temperatur dəyişikliyi, nəmişlik, qarşılıqlı kimyəvi təsirlər qədim rəssamlıq əsərlərinin "düşmən"ləridir" (9). Nəzəri va təcrübi biliklərdən yararlanan ustad-sanatkar əsərləri barpa etmədən , onların nə səbəbdən bu vəziyyətə düşməsini davamlı olaraq tadqiq edirdi.

13 sentyabr 1969-cu il "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunan "Sənət incilərimizin taleyi" adlı məqalədən oxuyuruq: "Respublikamızda ki, maddi-mədəniyyət abidələrinin, əsəri-ətiqənin bərpa vəziyyəti o qədər də ürəkaçan deyildir. Mən bu barədə bərpaçı rəssam Fərhad Hacıyevlə söhbət etməli oldum.

O, qəzet üçün material hazırladığımı biləndə narazılıqla dedi: Məni bağışlayın, açıq deyəcəyəm. Bu qovluğu görürsünüz. Burada heç bilirsiniz, nə qədər məqalə var? Qədim mədəniyyətimizin mühüm məsələlərinə toxunan onlarca məqalə... Amma nə xeyri?...

Doğurdan qəribə haldır, çoxlu qiymətli sənət əsərlərinin məhv olması, klassik irsimizin təbliğ edilməməsi və s. haqqında onlarca yazı dərc olunub. Amma əlaqədar təşkilatların rəhbər işçiləri bir dəfə də olsun deyilənlərin nə təsdiqi, nə də təkzibi ilə çıxış etmişlər. Yeganə bərpaçı-rəssamımız ürək ağrısı ilə danışırdı: Respublikanın muzeylərində və fondlarında saxlanılan incəsənət nümunələrinin, əsəri-ətiqənin ümumi vəziyyətini yoxlamaq üçün 1967-ci ildə Mədəniyyət Nazirliyinin xüsusi komissiyasının üzvü kimi, rayonlarımızın, şəhərlərimizin müxtəlif qoruq və muzeylərində oldum. Memarlıq abidələr ilə işim yoxdur. Mən tətbiqi, təsviri sənət nümunələrinə baxıram. Bir mütəxəssis kimi bütün məsuliyyəti ilə deyirəm: Respublikamızın muzey və fondlarına səpələnmiş incəsənət nümunələrinin, əsəri-ətiqənin 65-70 faizinin tam elmi restovrasiyaya ehtiyacı var"(6).

"Qobustan" jurnalının müxbiri, İsrail Mustafayev 1971-ci ildə "Sənətin sıra nəfəsi" adlı məqaləsində, Fərhad müəllimdən aldığı müsahibəni beiə şərh edir: "Azərbaycan təsviri və tətbiqi sənətinin bir sıra qiymətli nümunələri Fərhadın gərgin əməyi ilə bərpa edilmişdir. Şəki Xan sarayının pərvazı xarab olub təhlükəli vəziyyətə düşmüşdür. Mütəxəssislər, sənətşünaslar bu işin bərpası üçün yollar axtarırdı. Yenə Fərhad köməyə gəlmiş, Pərvazın bərpası doqquz aya tamam olmuşdur. Bərpaçı-rəssamla söhbət zamanı, məni maraqlandıran bu məsələni öyrənməyə çalışdım və Fərhad müəllimə belə bir sual ünvanladım: "Bərpa üçün təqdim olunan əsərlərin əksəriyyətinin əvvəlki həyatını nişan verən heç bir reproduksiya olmadığı halda nə etmək olar ki, əsər bərpa edilərkən ilkin, yəni orijinal formasını itirməsin, olduğu kimi qalsın, bərpaçı-rəssamın əlavə və təhriflərinə yol verilməsin? Fərhad həmən suala cavab verərkən çox arxayınlıq və inamla dedi ki, burada məsuliyyət təmamilə bərpaçı-rəssamın üzərinə düşür. Məncə sənətkar duyğusu olan hər kəsin vicdanı yol verməz ki, o, nəyisə təhrif etsin..." (5). Fərhad Hacıyev 1980-ci ildə rus dilində dərc etdirdiyi, "Сохраниц на века"-("Əsirlər üçün qorumaq") adlı məqaləsində yazır: "60 il Sovet hakimiyyəti dövründə, bərpaçılıq kustar işdən uzaqlaşmış, sərbəst bir elmə çevrilmişdir. Sovet bərpaçıları öz işini gözəl bilən, ustad sənətkarlardır. Onlar bərpa etdikləri "dürr dənələri" olan təsviri-incəsənət əsərlərini dünyaya tanıtmışlar. Əvvəllər məlum olmayan unikal, ümumdünya mədəniyyət və incəsənəti üçün böyük əhəmiyyət kəsb edən abidələr tədqiq edilmiş, elmi mənbələrə daxil olmuşlar. Bu gün ölkədə muzey dəyərləri və mədəniyyət abidələrini bərpa edən bir sıra mütəxəssislər çalışır. Bunlar kimya və fizika elmləri üzrə çalışan mütəxəssislər, bioloq və sənətşünaslar, sənət əsərlərinin düzgün qorunmasının elmi-metodlarını bilən bərpaçı-rəssamlardır. Tiflis şəhərində keçirilən elmi-nəzəri konfransda "İtirilmiş dəyərlərin qaytarılması və

monumental rəngkarlıq əsərlərinin surətinin çıxarılması metodlarının prinsipləri" adlı məqaləsi ilə çıxış edən, Ümumittifaq Bərpa Elmi - tədqiqat Institutunun direktoru - İ.P.Qorin çoxsaylı tədqiqatlara əsaslanaraq bir sıra misallar çəkmiş, əsas iki mövzuya toxunmuşdur. 1-ci «İtirilmiş abidələrin qaytarılması», 2-ci «Rəngkarlıq əsərlərinin surətinin çıxarılması». Konfransda, monumental rəngkarlıq əsərlərinin bərpa edilməsi qaydalarının, qüvvədə olan qanun əsasında, yəni yeganə bir sistemə uyğun şəkildə aparılmasının vacibliyi qeyd edilirdi. Bu və ya digər səbəblərdən bizə qədər gəlib çatmayan və yaxud pis vəziyyətdə olan abidələr haqqında təsəvvürlərin yaranması üçün əsas şərtlərdən biri, həmin əsərlərin sürətinin çıxarılmasıdır. Bu işin aparılması yeni elmi informasiyaların nəşri üçün böyük yardımdır. Surəti çıxarılmış əsər "qiymətli sənəd" sayılır. Belə əsərlər ekspozisiyada öz dəyərli yerini tapır. İncəsənət əsərlərinin surətinin çıxarılması üçün xüsusi "yaradıcı qrupun" təşkil edilməsinin vaxtı çatmışdır. Hal-hazırda bu, dövlətin işinə çevrilmişdir. Muzey və sərgi salonlarında olan əsərlərin və arxitektur abidələrin surətinin çıxarılmasına ehtiyac duyulur. Belə xidmətlərin reallaşması üçün bacarıqlı mütəxəssislər tələb olunur. Lakin hələ ki, ölkədə belə mütəxəssislər çox azdır. Konfransda otuzdan artıq mühazirələr dinlənildi. Çıxışlar bərpaçı-rəssamların fəaliyyətinə əsaslanaraq illüstrasiyalar, filmlər vasitəsilə çatdırıldı".(6) Konfransın gedişatını təhlil edən Fərhad Hacıyev bu sahə üzrə araşdırmaların aparılmasına böyük önəm verirdi. Bərpaçı-rəssam fikrini davam edərək yazır: "Konfransda Bolqarıstan, Macarıstan, Rumın, Polşa, ADR (Almaniya Demokratik Respublikası) kimi ölkələrdən qonaqlar iştirak etmişlər. Mütləq olan problemlərin həll edilməsi və bu istiqamətdə işlərin aparılması üçün sərəncam qəbul edildi. Son 6-7 il ərzində (1973-80) respublikada bərpa işləri üzrə müəyyən irəliləyişlər var. 1973-cü ildə Azərbaycan SSRİ Mədəniyyət Nazirliyinin sərəncamı ilə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində "Bədii bərpaçılıq mərkəzi" yaradılmışdır. Mərkəzdə rəngkarlıq və rəngli boya, qrafika, metal, xalça məmulatları, parça, ağac, mühəndis - kimyaçı sahələri üzrə şöbələr açılmışdır. Elmi-bərpa işləri üzrə xüsusi istehsalat emalatxanası yaranmaq üzrədir. Respublikada memarlıq abidələrinin bərpa edilməsi də tədricən mühüm məsələlərdən birinə çevrilmək üzrədir. Bu təşkilatlarda işçi ştatının artırılması, mərkəzləşdirilmiş qaydada material-avadanlıqlarla təchiz olunması işin daha çox yaxşılaşmasına zəmin yarada bilər". Hesabat xarakteri daşıyan bu məqalə də, bərpaçı bir pedaqoq kimi çıxış edir: "Tiflisdə konfransda meydana çıxan suallar, bizim respublikamız üçün də aktual və vacibdir" (6) – demişdir. Fərhad Hacıyev böyük çətinliklərə baxmayaraq, 1981-ci ildə Bakıda "Muzey sərvətlərinin və xatirə əşyalarının Elmi Bərpa mərkəzi"ni yaratdı. Bu Fərhad müəllimin böyük sevincinə səbəb oldu. Çünki bu, onun ən böyük arzusu olan – respublikamızda bərpaçılıq üzrə elmi-tədqiqat institutunun yaradılmasına doğru atılmış daha bir addım idi. «Muzey Sərvətlərinin və Xatira əşyalarının Elmi-Bərpa Mərkəzi»ndə o, öz ətrafında istedadlı rəssamları və

sənətşünasları toplayıb, daha böyük həvəslə çalışırdı. Bərpaçılıq emalatxanasının strukturu tez bir zamanda dəyişildi və işçi ştatının sayı artdı. Elmi-bərpaçılıq mərkəzi sərbəst təşkilata çevrilərək İncəsənət Muzeyindən ayrıldı. 35 nəfərdən ibarət işçi qrupu yaradıldı. Azərbaycan, SSRİ məkanında Moskva, Leninqrad (Sankt-Peterburq), Vilnüs şəhərlərindən sonra bərpaçılığ isinin inkişafina görə dördüncü yeri tuturdu. Emalatxanaya yeni qəbul olan rassamlara yardım etmək üçün, Fərhad müəllim başda olmaqla köhnə əməkdaşlar da, bərpa işinin texnikası və xüsusiyyətlərini öyrədirdilər. Statistik məlumata görə, Azərbaycanda bərpaçılıq işinin başladigi 1957-ci ildən 2001-ci ilə (yəni, Gülşən xanım Türkiyəyə getməmişdən qabaq) kimi 25000-dən çox incəsənət əsəri həyata qaytarılmış, elə bu qədər də əsər bərpa va konservasiya edilmək üçün qeydiyyata alınmışdır. 1983-cü ildə "Vışka" qəzetində çap olunan məqalənin müəllifi bərpa emalatxanasının fəaliyyəti haqqında çox maraqlı məlumatlar verərək yazırdı: "Bərpaçılıq emalatxanasında mənə, mərkəzin müdiri Fərhad Hacıyev bələdçilik etdi. Mərkəzdə ilk tanış olduğum "Qrafika" söbəsı idi. Şöbədə, Azərbaycanın xalq rəssamı Əzim Əzimzadənin qrafika əsərləri bərpa edilirdi. Bu əsərlər bərpa mərkəzinə İncəsənət muzeyindən gətirilmişdir. Şöbənin müdiri, Gülşən Hacıyeva məni, təmizlənmək üçün xüsusi mayedə saxlanılan böyük vərəqin ağardılması və qrafika əsərlərində zədələrin aradan qaldırılması prosesi ilə tanış etdi. Bərpaçı-rəssam Sevda Məmmədova incə fırça ilə pozulmuş rəngləri yenidən yaradırdı. Bu iş böyük səbir tələb edən iş idi. "Parça" şöbəsində usta bərpaçı Ruhəngiz Quliyeva bizə XIX əsrə aid olan örtüyü göstərərəkdedi «Artıq bir ay olar ki, bu örtüyün üzərində olan bəzi ləkələri təmizləmək üçün xüsusi məhlulu axtarıram, daha sonra parçanın üzərində tikmələri ipək saplarla yenidən əvvəlki yerlərinə əlavə etməliyik. Xalça üzrə bərpaçılar Ziba xanım Hüseynova, Ədilə Əsədzadə, Ədilə Yuldayeva, gənc işçi Nailə Yarəliyeva xalça məmulatlarına ikinci həyat verən proseslə tanış etdi. Bərpaçılıq mərkəzində müxtəlif dövrlərə və məktəblərə aid olan rəngkarlıq əsərləri bərpa edilir. Tətbiqi- incəsənət şöbəsində eyni zamanda ağac, metal, keramika əsərləri də həyata qaytarılır. Bu şöbənin rəhbəri Toğrul Əfəndiyevdir. Mərkəzin bərpaçıları bir sıra çətinliklər ucbatından problemlər yaşayır. Əvvəla, məsciddə fəaliyyət göstərən bərpa mərkəzi üçün lazımi şəraitin olmamasıdır. Bu səbəbdən burada fotolaboratoriya, bioloji və kimyəvi laboratoriyalar, rentgen üçün yerin ayrılması qeyri mümkündür. Halbuki, bərpa işi üçün bu imkanlar mütləqdir. Hal-hazırda bizim respublikanın hər bir rayonunda tarix-diyarşünaslıq muzeyləri yaradılır. Eksponatların çoxunun bərpaya ehtiyacı var. Onları yerindəcə bərpa etmək daha yaxşı nəticələr verə bilər. Bunun üçün səyyar laboratoriyaların yaradılması yaxşı olar. Belə laboratoriya üçün ayrılacaq avtobus yoxdur. Mədəniyyət Nazirliyinin bu haqda düşünməsi yaxşı olardı: Xalq yaradıcılığı nümunələrinin bərpası təbii ki çox amillərdən aslıdır" (10).

1984-cü ilin iyun ayında Moskva şəhərində SSRİ Mərkəzi Rəssamlar evində

"Muzey dəyərlərinin bərpası" adlı Ümumittifaq sərgi təşkil edilmişdir. Azərbaycan SSRİ Mədəniyyət Nazirliyinin Muzey dəyərlərinin və relikviyaların elmi bərpa mərkəzinin ekspozisiyasında nümayiş etdirilən, praporşik S.Proxorovun portreti ən yaxşı əsərlər sırasına daxil oldu. Bu əsər XIX əsrin əvvəlləri naməlum rus rəngkarın fırçasına aiddir. Muzey qoruyucularında uzun müddət qalmış əsərdə insan obrazı çətinliklə seçilirdi. Bu şəklin xilaskarı bərpaçılıq mərkəzinin direktoru F.Hacıyev olmuşdur. Tablonun taleyi onun tullanması ilə nəticələnəcəkdir. Yeddi il bu tablonun üzərində fasiləsiz bərpa işi aparılmışdır..."(11). 1987-ci ildə Fərhad İbrahim oğlu Hacıyev iş başında, özü yaratdığı Elmi Bərpa Mərkəzində öz şagirdləri və iş yoldaşlarının arasında gözlərini əbədi olaraq yumdu. Fərhad müəllim ən çətin bərpa olunan əsərləri öz üzərinə götürərək böyük zəhmət çəkərək, professional şəkildə həyata qaytarmışdır. Fərhad Hacıyev bütün ömrünü Azərbaycan bərpaçılıq məktəbinin yaradılmasına və inkişafına sərf etmişdir. Azərbaycan SSRİ xalq rəssamı Kazım Kazımzadə Fərhad müəllimin vəfat etməsi münasibətilə yazdığı "vida sözü" ndə, bu böyük şəxsiyyəti çox yaxindan taniyan insan kimi fikrini bela bildirir : "Moskvada təhsilini başa vurduqdan sonra İncəsənət muzeyində işləməyə gəlmişdi. O vaxtlar respublikamızda bir nəfər də olsun ixtisaslı bərpaçı-rəssam yox idi. Odur ki, onun kimi mütəxəssisin gəlişinə hamımız ürəkdən sevinirdik. Ötən bu illər ərzində onun böyük ustalıqla bərpa etdiyi sənət incilərinin, rəssamlıq sərgilərində fəal iştirakının da yaxından şahidi olmuşam. Fərhad yaddaşıma öz peşəsini sonsuz məhəbbətlə sevən sənətkar, prinsipial və olduqca tələbkar bir iş yoldaşı kimi həkk olunub. Mən respublikamızda təsviri sənətlərin bərpası sahəsində qazanılan uğurları onun adı ilə bağlasam, elə bilərəm ki, səhv etmərəm. F.Hacıyev Azərbaycanda bərpaçılıq məktəbinin əsasını qoymuş və bu yoldakı bir çox çətinliklərə baxmayaraq xeyli iş görmüşdür. İndi Bakıda ayrıca elmi-bərpa mərkəzinin fəaliyyət göstərməsi də onun ardıcıl səyinin nəticəsidir. Onun ölümü sözsüz ki, təsviri sənətimiz üçün ağır itkidir. Ancaq Fərhadla birlikdə çalışan gəncləri gördükdə bir az təskinlik tapıram. Hiss edirəm ki, özü cismən aramızda olmasa da, əməllərini şagirdləri layiqincə davam etdirəcəklər".(11) Fərhad müəllimin davamçilarindan biri də onun oğlu İbrahim Fərhad oğlu Haciyevdir. O, 1990-ci ildan Barpaciliq mərkəzində çalışır. Çox sayda rəngkarləq əsərlərinə yeni həyat vermisdir. 2004-cu ildən Milli Azərbaycan Tarix muzeyində bərpa laboratoriyasinda gözəl mütəxəssis kimi çalışır.

F.Hacıyevin yaratdığı bərpaçılıq məktəbinin davamçıları respublikada hörmətli bərpaçılarıdır. Bu mərkəzə 1987-ci ildən sənətkarın qızı, əməkdar mədəniyyət işçisi, bərpaçı-rəssam Gülşən xanım Hacıyeva rəhbərlik etmişdir. Bərpaçılıq Mərkəzinin qorunması, saxlanması, məhz Gülşən xanımın çalışqanlığı və zəhməti bahasına başa gəlmişdir. Hal-hazırda Gülşən xanım Milli Azərbaycan Tarixi Muzeyində fəaliyyət göstərən bərpa laboratoriyasinda çalışır, bu çətin işin öhdəsindən layiqincə gəlir. Muzey əsərlərinin qorunub saxlanmasında böyük əmək sərf edən sənətkarlar dəyərli tərifə layiqdir.

İstifadə edilmiş mənbə və ədəbiyyat siyahısı:

1. Əsədullayeva S. Əsərlərə ikinci həyat verilir. "Ədəbiyyat və incəsənət" qəzeti, №35 (1840) şənbə, 28 avqust 1965.
2. Süleymanov M. F. Eşitdiklərim, gördüklərim, bildiklərim. Bakı, 1990.
3. Rüfətoğlu Z. Fərhad Həcini necə xilas etdi və ya bir portretin tarixindən. "Kommunist" qəzeti, 10 avqust 1990.
4. Mustafayev Firuz. Sənət incilərimizin taleyi. "Ədəbiyyat və incəsənət" qəzeti, 13 sentyabr 1969.
5. Mustafayev İsrail. Sənətin sıra nəfəsi. "Qobustan" incəsənət toplusu, № (10) 1971, s. 7 - 11
6. Hacıyev Fərhad. Vacib məsələ. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 fevral 1966-cı il, № 7.
7. Kazımzadə K. Vida sözü. "Bakı" qəzeti, 17 dekabr 1987-ci il
8. Отрадинский В. ''Реставратор'' газ. '' Вышка'' 31 января 1970.
9. Закиев Ф. Реставраторы. Их энтузиазм. Достижение. Проблемы. газ, «Бакинский рабочий», 29 ноября, 1999.
10. Парфенова И. Истелители старены. газ. «Вышка», 26 июня 1983.
11. Ю.Гладилников. Воскресение шедевра. Репортаж с выставки. Рестоврация музейных ценностей в СССР.газета, «Советская Россия». 10. 06. 84.

Elfira Melikova-Gurbanova
The history of the first restorer-artist of Azerbaijan Farhad Hajiyev

Summary

Keywords: *artist-restorer art-work history*

The article is dedicated to the first restorer-artist Farhad Hajiyev in Azerbaijan. Creativity is very versatile; Farhad Hajiyev - as an Artist - As an Artist-Restorer, as well as a Research Scientist and a Teacher. Exploring the life and work of the first master of his case, it reveals very interesting facts about his work on the creation of a restoration center and a scientific.

Эльфира Меликова - Гурбанова
История творчества первого азербайджанского художника-рестовратора Фархада Гаджиева

Резюме

Ключевые слова: *художник-реставратор, художественное-произведение, история*

Статья посвящена первому в Азербайджане художнику-реставратору Фархаду Гаджиев, творчество которого очень многогранно. Фархад Гаджиев был художником, художником-реставратором, научным работником и педагогом. Исследуя жизнь и творчество первого мастера своего дела, выясняются очень интересные факты о его работе.

İradə Avşarova

Öküz (buğa) inancı izləri Azərbaycanın arxeoloji abidələrində

Açar sözlər: *öküz, inanc, tanrı, arxeoloji abidələr, dəfn adətləri, əkinçilik, mifologiya, totemizm, obraz*

UOT 902

Tədqiq olunan dövrdə mifoloji xüsusiyyətləri ilə diqqəti çəkən totemlərdən biri də öküz ilə bağlanır. Həmin dövrdə iribuynuzlu heyvanlardan olan öküzdən xış əkinçiliyində qoşqu qüvvəsi və yük arabalarının hərəkətini təmin etmək üçün ilk nəqliyyat vasitəsi kimi istifadə olunması nəticəsində dövrün əkinçi tayfaların əməyi yüngülləşmiş, öküzün qüvvəsinə inam, ona olan pərəstiş, sonrakı dövrlərdə artıq insanların təsəvvüründə bu heyvanları mifləşməsi ilə nəticələnmişdi. Göründüyü kimi, insanların cəmiyyətdə fəlsəfi duyumlarının təsirinin artması, onların inanclardan da yan keçməmiş, bəzi heyvanlar, o cümlədən iribuynuzlu heyvanlar inanc obyektinə çevrilərək ilahi, bəzən isə tanrı obr7azında qədim tayfaların mifoloji düşüncələrində yer almış və sonunda əcdad kultlarının yaranmasına belə gətirib çıxarmışdi. Elə həmin səbəbdən də dövrün tayfalarının mifoloji dünyagörüşlərini əlaqəli şəkildə izləmək və nəticələr çıxarmaq qarşıda duran əsas məqsədlərimizdən biridir. Tədqiqata cəlb olunan mövzu bu günədək tam və əlaqəli şəkildə elmi şərhini tapmadığı üçün aktualdı.

E.ə. IV – I minilliklərdə Azərbaycan ərazisində məskunlaşmış tayfaların təsərrüfat həyatında baş verən əsaslı dəyişikliklər, maldarlıq və əkinçiliyin intensiv inkişafına səbəb olmuş və nəticədə tayfalar arası iqtisadi-mədəni əlaqələr genişlənmişdi. Təbii ki, həmin dəyişikliklər onların dünyagörüşlərinə, ideoloji baxışlarına və cəmiyyətin daxili quruluşuna təsirsiz ötüşməyə bilməzdi. Bu sahədə olan irəliləyişlər özünü dövrün arxeoloji abidələrində və həmin abidələrin yaradıcısı olan insanlarının mifoloji baxışlarında da göstərir. Həmin mövzuya aid prosesi izləmək üçün Azərbaycan dekorativ-tətbiqi incəsənətində tarixən mövcud olmuş heyvan stilləri və o cümlədən, öküz obrazı ilə bağlı nümunələrin tədqiqi əvəzsiz

mənbələr sayılır. Həmin mənbələrdə aparılan tədqiqatlar öküzlə bağlı inancların ərazidə yaşayan tayfaların mifoloji düşüncələrində bir əcdad kultu kimi yer almasını, əsasən xış əkinçiliyinin yarandığı ata xaqanlıq dövründə meydana gəldiyini göstərir. Elə bu səbəbdən də maddi-mədəniyyət nümunələrində təsadüf olunan öküz təsvirləri üzərində bəzən şumla bağlı naxış və işarələrə rast gəlinir.

Azərbaycan ərazisində tunc dövrünə aid arxeoloji abidələrdə və maddi-mədəniyyət nümunələri arasında ibtidai-dini təsəvvürlərinin məhsulu olan öküzlə bağlı inanclar əsasən təbiət və əcdadla bağlı kultlarda və folklor mətnlərində izlənilir. Həmin kultla bağlı olan əsatirlər Azərbaycan mifologiyasında ən çox yayılmış obrazlardan sayılır.

Dünya mifoloji sistemində aid modelləşdirilmənin mərhələlərindən birində tanrı, yarımtanrı və digər mifik personajlarının mövcudluğu mühüm yer tutur. Digər mərhələlərdən fərqli olaraq həmin sistemdə tanrıların müvafiq təbiət və mədəni hadisələrdən abstraktlaşdırılması nəzəri cəlb edir. Tanrı simvolunun heyvan olduğu mifoloji modelləşdirmə üsulunun teriomorfizm, yaxud da zoomorfizm kimi adlanması mifoloqlar tərəfindən qəbul olunmuşdu. Müasir baxışlara görə, onların əksəriyyəti fantastik obrazlar kimi anlaşılır. Bir sıra təsvirlərdə isə bu tip obrazlar bir təbiət predmeti, yaxud heyvan və digər təbiət hadisələrinin təsviri ilə tamamlanır. Məsələn, Mahenco-Darodan olan ”şah möhürü” üzərində çox üzlü“ allah-öküz”təsvir olunur [15, s.35-36].

Atəşpərəstlikdə-Zərdüştlüyün ilk kitabı olan “Avestada” yer üzündə yaranan ilk heyvanın öküz olduğu qeyd olunur. Qədim Misirlilərin mifologiyasında yer almış tanrı Buxis qara öküz obrazlı verilir. Onun anası səma inəyi kimi təqdim olunur. Qədim təsəvvürlərə görə günəşi də o doğmuşdu [25,s.200]. Misirlilərin sevib-seçilən tanrılardan olan Osiris, nəsil-artımı tanrısı, ölüb-dirilən tanrı, Günəş tanrısı, dünyasını dəyişmiş insanların hər zaman hökm verən hakimi kimi təqdim edilir və müxtəlif obrazlarda təsvir olunur; iki təkərli arabada, əynində od əlamətləri ilə seçilən libasda, insan bədənli, öküz buynuzlu, qırğı başlı əlində cida ilə verilir [28,s.162]. Belə ki, qədim dövrlərdə bir çox tayfaların, o cümlədən hunlar, monqollar və buryatlar öz başlanğıclarını öküz nəslindən götürdükləri hesab olunurdu. Onlar hətta öküzün buynuzlarını cəsarət, hünər və güc rəmzi ilə əlaqələndirirdilər.

Tunc dövründən etibarən mifoloji düşüncələr dəfn adətlərinə daha çox yol tapır. Dəfn zamanı qəbrlərə inanclara uyğun müxtəlif əşyalar qoyulur. O cümlədən, həmin dövrün inanclarında yer almış totemizmim əsas xüsusiyyətlərdən biri də ölmüş totem-heyvanı anmaq olmuşdur. Əgər totem-heyvan ölmüş tanrıdırsa, ona görə insanlar öz kədərlərini bildirməli və onun üçün dəfn mərasimi keçirib, onu dəbdəbəli şəkildə dəfn etməliydilər. Məsələn: Yakutlarda ölmüş qartalı ağac labaza qoyub insan kimi dəfn edirdilər. Afinalıların adətinə görə isə, hər kəs qurdu öldürsə, onu dəfn etməli idi [28,s.42]. Azərbaycanın tunc dövrü dəfn adətlərində müxtəlif heyvanların, o cümlədən öküzün dəbdəbəli dəfn adətinə rast gəlinmişdi. Öküz

dəfni ilə müşaiyət olunan qəbir E. Resler tərəfindən tədqiq olunmuş 2 saylı Xocalı kurqanından məlumdur. Burada dəfn olunan iki öküzün kəlləsinə tuncdan (qapağı xatırladan) bəzək qoyulmuşdu.

Gəncə-Qazax bölgəsində Həsənsu çayının sol sahilində qeydə alınmış Həsənsu kurqanlarında aparılan arxeoloji qazıntılar zamanı e.ə. XVIII-XVII əsrlərə aid kurqanda insana məxsus skelet oval formalı əhəngdaşı düzümünün içərisinə təsadüf olunmuşdu. Kurqanın qəbir kamerasında qəbir avadanlığı ilə yanaşı künclərində öküz başlarına, ətrafında isə öküz ayaqlarının sümüklərinə rast gəlinmişdi. Öküzlərin digər sümükləri ilə yanaşı, taxta qırıntılarının da bütün qəbir kamerasına səpələnməsi müşahidə olunmuşdu [11,s 6,26]. Elə bu səbəbdən də Müseyibli N. Həsənsu kurqanındakı dəfnin öküzlər qoşulmuş arabanın üzərində icra olunduğuna dəlalət edir.Öküzün müxtəlif hissələrinin qəbrlərə qoyulması adətinə 2, 7 saylı Xocalı, Ballıqaya Sirxəvənd kurqanında rast gəlini r[7,s.88-87].

Öküzlə müşaət olunan dəfn adətinə Azərbaycanın antik dövr qəbir abidələrində də təsadüf olunmuşdu. Belə ki, Şəki rayonu ərazisində (Fazil kəndi) Təpə-başı nekropolunda tədqiq edilən qəbir abidəsinin ikisində öküz skeleti və öküz başına təsadüf edilmişdi. 2 saylı qəbirdə isə bütöv halda öküz skeleti aşkar olunmuşdu [10,s.114]. Heç şübhəsiz ki, öküz dəfni və öküzün bədən hissələrinin qəbirlərə qoyulması ilə müşaət olunan müxtəlif tip dəfn adətləri dövrün dini inancları ilə bağlı olub, özündə əcdad kultunun əlamətlərini qoruyub saxlayır.

V. A. Kuftin bu tip kurqanları Anadolu və Mesopotamiyanın dəfn adətləri ilə əlaqələndirmişdi [22]. Heyvanların müxtəlif hissələrinin qəbirlərə qoyulma adətinə bir çox yerlərdə, o cümlədən (XVIII əsrdə) Amerikanın Şimal-Qərbində yaşayan hinduların dəfn adətlərində də rast gəlinir. Belə ki, göstərilən ərazidə keçirilən ayinlər vaxtı qəbirlərə heyvanların bütöv cəsədləri yox, müxtəlif hissələri qoyulur. Bir çox yerlərdə, o cümlədən Don sahilində Kostenkada, Kurs yaxınlığında Avdeevdə qazma evlərdə də aparılan arxeoloji tədqiqatlar zamanı, evlərin künclərinə muskus qoyun-öküzlərinin kəllələrinin basdırılma adətinə rast gəlinmişdi [28,s.40].

Öküz inancının təsdiqi özünü Qobustan [19], Astara Rəfənuğ [4,s.39] qayaüstü petroqliflərdə və s. abidələrdə də göstərir. Qayalar üzərində təsadüf olunan buğalar natural ölçülərdə cızma üsulu ilə çəkilmişlər. Bu tip təsvirlər əsasən realizm üslubunda olub, profildən verilmişdi.

Öküz təsvirləri Azərbaycan ərazisində son tunc dövrünə aid qəbir abidələrindən əldə olunan tunc kəmərlər [30] üzərində fantastik obrazlarla verilir. Onlar müxtəlif hərəkət dinamikasında olmaqla yanaşı, əsasən aypara buynuzlu təsvir olunur Buna misal Cənnət qalası (47, 95 saylı) daş qutu qəbirlərdən əldə edilmiş tunc kəmərlərin üzərindəki öküz və bir-biri ilə döyüşən digər heyvan təsvirləridir. Çox güman ki, həmin təsvirlərdə "xeyir vəşər", "işıq və zülmət" in mübarizəsi öz əksini tapmışdı. Belə ki, Azərbaycanda Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən əldə olunmuş mifik təsvirli tunc kəmərlərin bəzi nümunələrinin üzərində aypara buynuzlu öküz

təsvirlərinin olması təbii ki, qədim Azərbaycanda da öküzə bir ilahi qüvvə və "Ay tanrısı" kimi sitayiş edilməsi ilə bağlanır [1].

Öküz təsvirləri e.ə. III-I minilliklərdə qədim İranda, Orta Asiyada, Hindistanda və Azərbaycan türk tayfaları arasında "Ay tanrısı" kimi çıxış edirdi. Qədim Misir və Şumer mifologiyasında öküz təsvirləri tanrıların yer üzünə zühuru kimi verilirdi. Öküz-buğa təsvirləri e. ə. III-I minilliklərdə qədim Misir, Türkiyə, Şumer-Akkad, İran, Hindistan, Ora Asiya, yuxarıda qeyd olunan yazılanlardan göründüyü kimi, Azərbaycan tayfalarının mifoloji düşüncələrində "Ay tanrısı" kimi çıxış etmişdir [26,s. 203].

Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı çox sayda gildən hazırlanmış öküz fiqurlarına da təsadüf olunmuşdu, onlar əsasən, Baba-Dərviş [20,s.77],Qara-köpək-təpə, Günəş-təpə [9,s.28], Uzuntəpə [8,s.76] və s. abidələrdən əldə olunmuşdur. Gildən hazırlanmış kiçik ölçülü, aypara buynuzlu, öküz-buğa fiqurlarının daha çox tapıntılarına I Kül-təpə abidəsində 21 ədəd, I Maxtada 4 ədəd təsadüf olunmuşdu [2,s.93-94]. Bu tip fiqurlar Cənubi Azərbaycanın Urmiya gölü Quşçu kəndi ərazisində son tunc dövrü qəbir abidəsindən [24,s.179,tablo 5, şək.8], o cümlədən Türkmənistanın Altın-təpə, Qara-təpə yaşayış yerlərdən və s. abidələrdən tapılmışdı [23,s. 142].

Azərbaycanın dini ibadətgahlardan əldə olunan zoomorf obrazlı tanrılara aid olan heykəltəraşlıq nümunələri, heç şübhəsiz ki, qədim Azərbaycan tayfalarının dini inancları ilə bağlı olan ayinlərin icrası zamanı bir kult obyekti kimi istifadə olunmuşdu.

İlk tunc dövründə geniş yayılmış gil qabların bir qisminin üzərində ilk tunc dövrü Kür-Araz mədəniyyəti üçün xarakterik olan öküz burnu formalı (sinvolik xarakter daşıyan) yapma qulplara təsadüf olunur. Həmin qulplar qablar üzərində öküzün sinvolu olaraq yer alır. Öküz təsvirlərinə tunc dövrünün keramika nümunələri üzərində də rast gəlinir. Azərbaycanın arxeoloji abidələrində tuncdan tökülmüş öküz başı formalı cida (əsa) başlıqlarına da rast gəlinir. Belə ki, son tunc və ilk dəmir dövrü heykəltəraşlığında bəzi heyvanların başlarının təsvirləri üstünlük təşkil edirdi ki, bu da ibtidai animist incəsənətin xüsusiyyətlərindən sayılır. Öküz baş formalı cida(əsa) başlıqları Mingəçevir, Şəmkir, Gədəbəy və s. ərazilərdən məlumdur [29**, s.**70].

II Sarqonun oğlu Sinaxxeribin kəşfiyyat məktublarından birində (e.ə. I minillik) belə yazılıb: Müsasirə yola düşdüm. Şəhərin giriş qapısında zəfərə oturdum. O, qaçmasın deyə, canişimlərimə, vilayət başçılarına və qoşunlarıma əmr verib, tələsik göndərdim [....] yürüşümün gedişini gördü [....] tez [Urar]tu çarı Mu[sasirə] çar imarətinə, Hal[di onun ila]hisi olduğu yerə [....] Urartu dövlətinin bütün hüdudlarıma kimi, ondan böyük nə göydə, nə yer üzündə olmayıb [....] çünki hakimiyyətliyi bildirən əsa və tac qoymamışlar [....] Ġlahi Haldinin qarşısında ona hakimlik tacı qoyurlar, Urartu çarlığının əsasını verirlər [5,s.51]. Göründüyü kimi, cidalar şahlığa məxsus olub, hakimiyyətin atributlarından sayılır. Belə ki, Qədim Mingəçevir şəhərinin xərabəliklərindən əldə olunmuş öküz başı formalı cida başlığının üzərinə qızıldan təbəqə çəkilmişdi [17,s.114]. Şəmkir, Gədəbəy

ərazilərdən əldə olunan öküz təsvirli cida başlıqlarında öküzün alın hissəsinə tək üçbucaq kəsilmişdi. Üçbucağın öküzün alın hissəsində verilməsi, hakimiyyət rəmzi kimi türk tayfalarının düşüncələrində yer alır. Həmin təsvir heç şübhəsiz ki, həm də qədim türk tayfalarının inanclarında dünya modelinin üç hissədən ibarət olduğu düşüncələri ilə bağlanır. Məlumdur ki, qədim türklərdə dünya modeli üç qatdan ibarətdir. Üçlük modelində - yuxarı dünya- göy, orta dünya-yer, aşağı dünya isə- yer altı dünya (axirət dünyası) kimi izah olunur. Bu da cidaların (əsaların) hakimiyyət rəmzi olduğunu bir daha sübut edir. Öküz başı fiqurları Dağıstandan, İrandan [31,s.108] və başqa ölkələrdən də məlumdu.

A.M. Saqalayevə görə Azərbaycan folklor nümunələrində dünyanın üç qat olduğu haqqında təsəvvürlər yer almışdı [27,s.48]. A. M .Saqalayevin fikirlərində həqiqət vardır. Belə ki, üçbucaq təsvirlərinə maddi-mədəniyyət nümunələri üzərində də az rast gəlinmir. Öküzün başı üzərindəki həndəsi naxış olan tək üçbucaq isə bəzən torpağın gücünü, Baş Allahı, dağı-odu,-həyatı- ölümü və s. göstərən semantik işarə də sayılır [25, s.273]. Çox ehtimal ki, həmin simvol qədim tayfaların fəlsəfi düşüncələrində torpağın həyat, bərəkət mənbəyi olan qüdrətini, məhsuldarlığı göstərən semantik işarə kimi də qəbul olmuşdu. Bunu Xocalı kəməri üzərində yer alan, aramla bir-birinə keçən öküz təsviri üzərindəki üçbucaq formalı ornament bir daha təsdiqləyir. Göründüyü kimi, qədim maldar-əkinçi tayfaların nəzərində heyvanın başı onun tam obrazını özündə təcəssüm etdirirdi və ibtidai düşüncənin məhsulu olan həmin təsəvvürlərdə olan bu xüsusiyyətlər, onları həmin təsvirləri daha aydın şəkildə dərk etməyə vadar edirdi. Bunu da qeyd etmək yerinə düşər ki, Azərbaycanın arxeoloji abidələrində təsadüf olunan tuncdan tökülmüş bu tip fiqurlar əsasən öküz başı formasında hazırlanmışdı.

Mirəli Seyidov V. L, Dyakonova əsaslanaraq dağ ruhunu belə, haqlı olaraq yerlə, günəşlə, öküz, qəbir və s. ilə bağlayır [13,s.164].

Türkiyənin Konya şəhərində tədqiq olunmuş Çatal-hüyük yaşayış yerinin ilk neolit dövrü təbəqəsində (e.ə. VII-VI minilliklər) öküz və bizon təsvirlərində öküz kainatın yaradıcısı kimi təqdim olunur və kainatın simvolu sayılır.

Çatal-hüyük neolit dövrü abidəsinin IX-VI təbəqələrdə öküz heykəli tapılmışdı. Heykəlin başının işlənməsində həqiqi öküz buynuzlarından və kəllə sümüyünün bir hissəsindən istifadə olunmuşdu. Bu da ilk mağara incəsənəti üçün xarakterik olan üslublardan sayılır. VI təbəqədə rast gəlinən skamyaların ətrafı isə öküz buynuzları ilə bəzədilmişdi. Demək olar ki, VI-II təbəqədə təsadüf olunan hər bir sütunun üzərinə öküz buynuzu yerləşdirilmişdi. Göründüyü kimi öküzə ehtiqad Çatalhüyükün saxsı qablarından əvvəlki dövrdə, neolitdə artıq meydana çıxmışdı. [25,s. 203]. Hələ keçən əsrə qədər İnquşetiya dağlarında salınan islamaqədərki ibadətgahlarin yanları öküz buynuzları ilə bəzədilirdi. Qoruyucu əlamət kimi isə dövrün tayfaları heyvan buynuzundan, ən qədim dövrlərdə isə kəlləsindən istifadə edirdilər [28,s.40].

Azərbaycan və o cümlədən qədim türk tayfaları da öküzün buynuzundan və kəlləsindən qoruyucu qüvvə kimi istifadə etmiş və onun kəlləsini evin çöl divarından asmışlar. Bəzi ərazilərdə hələ də həmin adət qorunub saxlanılır.

Göründüyü kimi, Azərbaycanın qədim tarixi bütüm Qədim Şərq ölkələrinin tarixi ilə sıx şəkildə əlaqəlidir. Assur-Babil mənşəli mənbələr, əsasən Urmiya gölü ətrafındakı əraziləri işıqlandırır. Naxçıvan və Zəngəzur bölgələrində iki qayaüstü yazının aşkar olunması Assur-Babil və Urartu hökmdarlarının bu ərazilərdə də basqın törətdiyindən xəbər verir. Mənbələrin bəzilərində döyüşlər zamanı əldə olunan qənimətlərdən bəhs olunur. Həmin qənimətlərin içində öküz fiqurlarının da olması diqqəti cəlb edir. Məsələn: II Aşşur-nasir-apal (e.ə. 884-859). Mənbədəki yazıda deyilir ki; Ameka mənim silahımın gücündən və döyüşün dəhşətindən qorxub, sıldırım dağlara qalxdı. Çar (Ameka) öz qoşunu ilə birlikdə Etini dağma qalxdı. Mən onun var- dövlətini - saysız mis əşya, misdən vəhşi öküz və s. onun sarayının sərvətini, onun topladığı xəzinəni dağdan apardım [5,s.15]. II Sarqon (Şarruken, e.ə. 721-705). Mənbədə olan digər mətndən: ..Hakimiyyətimin səkkizinci ilində mən Mannalılar ölkəsinə və Madahlar ölkəsinə yürüş etdim; Mannalılar ölkəsindən, Ellipidən və dağ məskənlərinin başçılarından bac aldım; Gizilbunda ölkəsinin məskən başçıları Zizi və Zaladan bac aldım; məndən öncə olan hökmdarlardan heç biri buradan bac almamışdı. Mən Musasir şəhərini, ilahi Haldinin məskənini hər tərəfdən mühasirəyə aldım; müxtəlif qiymətli qənimətləri [....] o cümlədən, misdən öküz, misdən inək, misdən buzov ilə birlikdə apardım [....] ilahi Aşşura gətirdim. Onların qalan əmlakına od [vurdum] [5,s.25]. Digər bir mətndən: Musasirə, Haldinin yaşayış yerinə zəfərlə girdim, hökmdarları kimi, Urzananın imarətində yerləşdim.İşpuininin oğlu Sarduri tərəfindən 1 öküz, 1 inək, öz buzovu ilə Haldi məbədində olan əridilmiş misdən tökülmüşdür, şir, vəhşi öküz başları ilə haşiyələnmiş 12 ağır gümüş qalxan və s. qənimətlər götürdüm [5,s.52,53]. Mixi yazılı mənbələrdən də göründüyü kimi, döyüşlər zamanı əldə olunan qənimətlər arasında öküz fiqurlarının və heykəllərinin olması, bir daha öküz inancının Azərbaycan ərazisində yayıldığını göstərir.

Öküz inancının ərazidə yayılmasını sübut edən dəlillərdən biri də ilk tunc dövründən başlayaraq Azərbaycan ərazisində olan bəzi qədim memarlıq nümunələrində, o cümlədən "Günəş-Od" məbədlərində izlənilən ocaqlardır. Maraqlıdır ki, ilk tunc dövründə geniş yayılan ocaq qurğularının bir qismi öküz başı formalı olmuşdu [16,s. 134]. İnanc yerlərində təsadüf olunan öküz başı və öküz buynuzu formasında hazırlanmış ocaq qurğuları orijinallıqları ilə seçilir. Bu da həmin qurğuların əsasən öküz başının simvolık forması olduğu barədə təsəvvür yaradır. Bu tip qurğular Fizuli rayonundakı Qara-köpək-təpə, Naxçıvandakı Şor-təpə, I və II Kül-təpə, Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindəki Şereşblur, Moxrablur, Zvartnos, Tiqnis (qədim Azərbaycan abidələrində izlənilən yer adları ermənilər tərəfindən sonradan dəyişilib, özünküləşdirilmişdir) yaşayış yerlərindən və s. tapılmışdı [3,s.82-83]. S. Aşurov E. İ. Krupnova istinad edərək yazır ki, "bu

tip ocaqlardan odun ətrafında keçirilən müxtəlif inamlarla bağlı mərasimlərin keçirilməsində istifadə edilmişdi" [3,s.84].

T. Bunyadov yazır ki, tunc dövründə insanların rifahının yüksəlməsi sənətkarlığın inkişafında yeniliklərə səbəb olmuş və həmin yeniliklərin nəticələri od-ocaqla bağlı olan yeni adət-ənənələrin, kollektiv ritual dini ayinlərin, keçirilməsində istifadə olunan nal və öküz başı formalı ocaq qurğuları idi. Belə ki, Naxçıvanın ilk tunc dövrü abidələrində geniş yayılmış ocaq qurğularının bir növü də buynuzvari çıxıntıları olan dördkünc formalı qurğulardır. Bu tip qurğuların ilk nümunələrinə ilk dəfə Şor-təpə abidəsində təsadüf edilmişdi [18,s.87-88].

Göründüyü kimi, Azərbaycanda yaşamış qədim tayfalar ocaq qurğularının hazırlanmasında belə öküz kultuna önəm vermişlər. Belə ki, Qazax rayonunun Baba-dərviş son tunc-ilk dəmir dövrü yaşayış yerindəki "Od-Günəş məbəd"inin gil ocaq kompleksinin od yanan hissəsi öküz başı formalı olub, buynuzları aypara şəkillidir [6,s. 106-107].

Sonrakı tarixi dövrdə də öküzə inam geniş yayılır. Belə ki, Qazax rayonu ərazisində dəmir dövrünə aid Sarı-təpə abidəsinin memarlıq kompleksində yer almış məbədin kapitelləri (sütun başlıqları) öküz başı formalıdı [14].

Bakı şəhərinin orta əsrlər dövrünə aid qədim qalasının qoşa qapıları üzərində verilmiş relyefdə də öküz başı iki tərəfdən dünya mifologiyasında hakimiyyət rəmzi kimi yer almış şir təsvirlərinin arasında verilmişdi. Öküz başınının aşağı hissəsində kainat simvolu olan "günəş" və "ay" rəmzi işarəsi yer almışdı. Təsvirdən göründüyü kimi şirlər müqəddəs öküzü qoruyur.

Qüdrət İsmayılzadə qeyd edir ki, Azərbaycanda və Cənubi Qafqazın bir çox yerlərində ev heyvanları, xüsusən də inək və öküz müqəddəs hesab edilərək sitayiş obyekti olmuşdur. Məişət və təsərrüfatda, ümumiyyətlə iqtisadiyyatın inkişafında mühüm yer tutan bu növ heyvanlarda ilk tunc dövrünün əhalisi çox güman ki, qeyri-təbii qüvvələrin mənbəyini görmüş və oda etiqad mərasimlərində məhz onları qurban gətirmişlər. Elə bu əsasdan da ocaq qurğularının bir çoxu bilavasitə öküz başı formasında düzəldilmiş və ya öküz buynuzları ilə bəzədilmişdir. Diqqəti cəlb edən cəhət ondadır ki, Qara-köpək abidəsindən belə ocaq qurğularının nəinki özü, hətta müəyyən bir əməli əhəmiyyət kəsb etməyən kiçik ölçülü modelləri də tapılmışdı. Bütün bunların əsasında zənn etmək olar ki, od ayini və iri buynuzlu heyvanlara etiqad, ərazinin qədim əhalisinin təsəvvürlərində bir-biri ilə bağlı olmuş və onlar birlikdə məhsuldarlıq rəmzini təmsil etmişlər [9,s.34].

Od-ocaq qurğularının öküz başı formasında hazırlanması Orta Asiyanın arxeoloji abidələrində də izlənilir. Cənubi Türkmənistanda Göy-təpə ərazisində tədqiq olunmuş e.ə. VI minilliyə aid Pessecik-təpə yaşayış yerində aparılan tədqiqatlar zamanı, abidədə bir neçə ibadətgah qeydə alınmışdı. Bu ibadətgahların birində dərin rəflərin yanında divarlardan qabarıq şəkildə çıxan öküz başları öz əksini tapmışdı. Şərq istiqamətdə olan ibadətgahın divarının yuxarı hissəsi isə

qabarıq konus şəklində hər iki tərəfdən irəliyə doğru çıxaraq, iki öküz buynuzu forması almışdı [23,s.144]. Cənubi Türkmənistanın Altın-təpə abidəsində aparılan arxeoloji qazıntılar zamanı da tunc dövrünə aid ibadətgah aşkar edilmişdi. İbadət evinin qərb divarında, qabarıq konus formalı, stilizə olunmuş iri buynuzlu heyvan təsviri yer alır. Təsvirlər özündə öküzün obrazını simvollaşdırır [23,s. 141-142].

Göründüyü kimi Azərbaycan, Türkmənistan və eyni soy köklü digər türk tayfaların bir-biri ilə qohumluq bağlantıları onların dini-adət ənənələrindən də yan keçməmişdi. Türk mənşəli tayfalara məxsus ibadətgahlarda "Günəş - Od" məbədlərinin yaxınlığı, həmin ibadətgahlarda keçirilən "Günəş-Od" ayinləri zamanı heyvan obrazlı tanrıların, əsasən öküz fiqurlarının müqəddəs ocaqlarda yandırılmalarının şahidi oluruq.

Azərbaycanın arxeoloji maddi-mədəniyyət nümunələrində yer almış öküzlə bağlı təsəvvürlər özünü qədim dövrlərə söykənən folklor mənbələrində də göstərir. Belə ki, öküz inancı ilə bağlı mətnlərdə öküz-buğa kultu mifoloji obrazlarda yer alır. Qədim ənənələrə söykənən türk tayfalarının dastan və nəğmələrində; "Oğuz-namə", "Kitabi Dədə-Qorqud", "Qilqamış və Səma öküzü" nəğməsində öküzlə bağlı olan inanclarda öküz, bir ilahi qüvvə kimi mifologiyada öz əksini tapır. Şumer nəğmələrindən olan "Qilqamış və Səma öküzü"ndə Qilqamış ilahə İnnin məhəbbətini rədd etdiyi üçün o, Qilqamışa əsəbləşir və ondan hayıfını almaq üçün, tanrıların "Səma öküzünü" yaratmasına nail olur. Şumer möhüründə insanla, yarı insan-yarı öküzün döyüş səhnəsi təsvir olunmuşdu [25,s. 203]. Məsələn: "Oğuz-xaqan"- oğuzların mifoloji mətinlərində Oğuz nəslinin ondan törədiyi qeyd olunur. Oğuz –xaqan türk nəsllərinin yaradıcılarından biridir, mifoloji-mədəni qəhrəmandır. Oğuz-xaqan haqqında miflərə uyğurların "Oğuz-namə" XV əsr, karluk-uyğur (XIII-XIV əsr) əlyazmalarında rast gəlinmişdi.

Qədim Oğuzlar çox əski mədəniyyətə malik türk dilli qəbilələrdir. Etnoqraf Q. T. Qoşqarlı Oğuzun Ay qağan və Öküzün izdivacından yarandığını qeyd edir [21,s. 25]. Mirəli Seyidov A.M. Şerbaka əsaslanaraq yazır ki, Paris milli kitabxanasındakı "Oğuz-namənin" əlyazması üzərində ciddi elmi iş aparan və onu çap edən A.M. Şerbak qeyd edir ki, əlyazmasının ikinci sətrinin birinci və üçüncü sözlərinin arasında göy öküz təsviri çəkilmişdi [12,s.22]. Mirəli Seyidov A. M. Bernştama əsaslanaraq yazır ki, Oğuzun anası Ay qağandır. Ay qağan haqqında elmi aləmdə maraqlı fikirlər vardır. A. N. Bernştam Ay qağan haqqında bəhs edərkən, onu akkadların, şumerlərin tanrılar anası və sonralar doğum ilahəsi kimi də şöhrətlənmiş Niştara oxşadır. Doğrudur, Niştar da ilkin tanrılar anası olmuşdur. Ay qağan da Oğuzun-yarım totemin, yarım tanrının, yarım zoomorfik obrazın anasıdır [12,s.23]. A. M. Bernştam "Ay Qağan"nın həm oğuzlara, həm şumerlərə, həm də akkadlara aid bir ilahi-mifik obraz olduğunu qeyd edir. Belə ki, bu elmi mülahizəyə əsaslansaq, bu qənaətə gəmək olar ki, bu üç xalqın mifologiyası bir-biri ilə bağlı olmuşdu. Bu da onu deməyə əsas verir ki, bu xalqlar bir-biri ilə qohumluq əlaqələrində olmuş və

eyni soy kökə mənsub olmuşlar.

Belə ki, Oğuz türklərinin mifik təfəkkürlərində Oğuz Ay qağan və Öküzün izdivacından yaranan yarı zoomorf obrazda təsvir olunur. Məhz buna görədir ki, Qərbi Azərbaycan ərazisində olan "Günəş-Od" məbədlərinin ocaq qurğuları və son tunc və ilk dəmir dövrü abidələrdən əldə olunan tunc kəmərlərin üzəri aypara buynuzlu öküz təsvirləri ilə işlənmişdir.

Oğuz-namə" də qeyd olunur ki, Oğuz xaqan, səhər şəfəqinin anası ilə izdivacdan doğulmuşdu. O, anadan olarkən artıq pəhləvan cüssəli idi.

Oğuz xaqanın görünüşünə gələnlər (qədim türklərin mifoloji təsəvvürlərində) onu belə təsvir edirdilər: "onun ayaqları öküz ayağına, beli qurd belinə, çiyinləri samur çiyninə, sinəsi isə ayı sinəsinə bənzəyirdi". Oğuz-xaqan göydən yerə sübh işığı içərisində enən kainat qızı ilə evlənir. Oğuz-xaqanın həmin qızla izdivacından üç böyük oğlu - Günəş, Ay, və Ulduz doğulur. İkinci arvadı olan dünya gözəli ilə olan izdivacından isə daha üç oğlu –Göy, Dağ, Dəniz doğulur [26,s.240]. Görüldüyü kimi mifik obraz olan Oğuz-xaqan və onun izdivacından yaranan oğulları türk mifologiyasında əsasən kainatın yaranışı ilə bağlı olan obrazlarda yer alır.

Oğuz-Xaqanla bağlı əfsanələr bir çox türk xalqlarının da, o cümlədən Şumer-Akkad, Misir, Monqol, Türk, Qırğız və s. xalqların mifoloji baxışlarında yer almışdı. Mirəli Seyidov Q. N. Potaninn "Şimal- Monqolustanın oçerkləri" əsərinə istinad edərək yazır ki, "Qərbi Qırğız"əfsanələrindən birində, öküzün (inəyin) sudan yaranmış olduğu qeyd olunur ". Digər Qırğız əfsanələrindən birində də deyilir ki, əski zamanlarda yer üzündə su yox idi. Böyük Göy öküzü iki nəfər otarırdı. Onlar susuzluqdan yanırdılar. Göy öküz buynuzları ilə yeri qazmağa başladı, su fışqırdı, axdı-daşdı və iki böyük su hovuzu yarandı. Bunlardan biri Zaysan gölü, digəri isə Tenqiz dənizi idi [21,s.253]. Şumer və Akkad mifologiyasında isə Ay tanrısı Sin göy öküz təsvirlidir. Altay türklərinə aid əfsanədə öküz obrazı haqqında belə deyilir: Dənizin üstündə olan dumanın yuxarısında, dumanın üzərində djain-caindaşı vardır. Həmin daşın üzərində Göy öküz durmuş və buynuzları ilə göyü saxlayır. Deməli, öküz zoomorfik totemdir-onqondur [21,s.254]. Qədim Azərbaycan tayfaları isə öküzün buynuzları üzərində yer kürəsinin belə dayandığını güman etmişlər. Belə ki, Qırğız, Altay, Azərbaycan (ümumiyyətlə ümumtürk) əfsanələrindən göründüyü kimi öküz əcdad kultu olmaqla yanaşı səma və yer kultları ilə də bir başa bağlı olub, türk mifologiyasında geniş yer alır.

Göründüyü kimi, İbtidai təsəvvürlərdə yaranan öküzlə bağlı inancların obrazlı şəkildə tədqiqi, dövrün insanlarının həyat ideyası ilə bağlı fəlsəfi duyumlarının, dini baxışlarının, mifoloji və dini etiqadlarla bağlı yaranan təsəvvürlərinin, əsasən zoomorf və antrozoomorf obrazlarla ifadə etdiyini və ayin xarakterli əşyalarda belə zoomorf təsvirlərdən istifadə edildiyini göstərir. Azərbaycanın tunc dövrü arxeoloji abidələrində öküzün başı, ayaqları və buynuzları bir totem atributu, əcdad kultu və hakimiyyət rəmzi kimi tunc dövründən etibarən, orta əsirlərədək müxtəlif tip

abidələrdə, o cümlədən qəbir abidələrində və ibadətgahlarda, qala divarlarının üzərində yer alır. Öküz (buğa) kultu ilə bağlı olan əsatirlər də həmin dövrlərdə Azərbaycan mifologiyasında fəlsəfi duyumların nəticəsi olaraq yaranır. Belə ki, ərazidə aparılan arxeoloji qazıntılar zamanı qədim ibadətgahlarda təsadüf olunan ocaq qurğularının öküz başı və öküz buynuzu formalı olması, qəbir abidələrində öküzlərin dəfni ilə bağlı izlənilən müxtəlif dövrlərə aid dəfn adətləri, öküz-buğa fiqurları və təsvirləri dövrün dini inancları ilə bağlı olub, özündə tanrı və əcdad kultu əlamətlərini qoruyub saxlayır.

Belə ki, Azərbaycanda və o cümlədən ümumtürk qədim dövr arxeoloji abidələrində və folklor mətinlərində geniş yer almış öküz (buğa) obrazları müxtəlif tərzdə mifologiyada təqdim olunsa da, eyni mifoloji xüsusiyyətləri özündə xarakterizə edir və sonunda hamısı "Kainatın yaradıcısı" və "Günəş-Od" məbədləri və "Ay tanrısı" ilə bağlanır. Aparılan tədqiqatlar Azərbaycan ərazisində tunc dövrünə aid arxeoloji abidələrdə öküzün kainat, təbiət, hakimiyyət və əcdadla bağlı kultlarının geniş yayıldığını göstərir. Tədqiqatların nəticəsi, yazılı mənbələrdən əldə olunmuş məlumatlar və ərazidəki arxeoloyi tapıntılar bir daha onu göstərir ki, ərazidə yaşayan tayfalar əkinçilik və maldarlıqla yanaşı, sənətkarlıq sahəsində də yüksək nailiyyətlər əldə etmiş və tədqiq olunan dövrdə yüksək ictimai-iqtisadi inkişaf səviyyəsində olmuşlar. Memarlıq abidələrində izlənilən bədii formalar, qəbir abidələridə olan dəfn adətləri, maddi mədəniyyət nümunələrindəki heyvan obrazları, məişət əşyalarına verilən heyvan təsvirli formalar bir daha dünyanın, kainatın yaranışı və insanın təkamülü ilə bağlı mifoloji düşüncələri özündə əks etdirir. Dövrün tayfalarının fəlsəfi duyumlarının nəticəsi olan həmin sənət əsərləri Azərbaycan tapixinin və maddi-mədəniyyətinin və o cümlədən incəsənətinin ayrılmaz tərkib hissəsidir.

İstifadə olunmuş ədəbiyyat:

1. Avşarova İ Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər).Bakı, 2007,
2. Axundov T. Astarada 20 gün. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya institutu. Bakı, 2009.
3. Aşurov S; Baxşəliyev V. Hüseynova S.A., Əliyeva F. A.. I Maxta qədim yaşayış yerində arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar 2011. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. Bakı,2012.
4. Aşurov S.Naxçıvanın ilk tunc dövrü keramikası. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. Bakı-2002.
5. Cəfərov H. Azərbaycan e.ə. IV minilliyin axrı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında).

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu.Bakı, 200.
6. Əliyev. V. Baba-Dərvişdə son tunc və ilk dəmir dövrü yaşayış yerləri. AMM, VIII c., Bakı,1976.
7. İsmayılov Q. Fizuli rayonunda Uzun-təpə ilk tunc dövrü yaşayış yeri. Azərbaycan SSR EA "Xəbərləri" (TFHS), №4, 1973
8. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Azərbaycan SSR Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya sektoru. Bakı,1981.
9. Qaşqay S.Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Bakı, 2006.
10. Muxtarov N.M., Bədəlova İ.N., Əmrullah qızı B. Azərbaycanın şimali-qərb rayonlarında arxeoloji tədqiqatlar. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. Azərbaycanda Arxeoloji tədqiqatlar 2012. Bakı-2013.
11. Müseyibli N; Ağazadə A. Həsənsu kurqanları. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. Bakı-2013.
12. Seyidov Mirəli. Azərbaycanın mifik təfəkküründün qaynaqları. Bakı,1983
13. Seyidov Mirəli. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış. Bakı, 1994.
14. Şükürov Ağayar. Mifologiya. 4-cü kitab(Qədim hind mifologiyası) .Bakı, 1996.
15. Yampolski Z. "İki öküz başı" formalı kapitellər haqqında. "Qobustan" jurnalı, № 2, 1973.
16. Абибуллаев О.А. Энеолит и бронзанатерриторииНахичеванской АССР. Ваку, 1982.
17. Асланов Г. М., Ваидов Р. М., Ионе Г. И. Древний Мингечаур. Эпоха энеолита и бронзы. Баку; 1956.
18. Бунятов Т. А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Ваку-1957
19. Джафарзаде И.М. Гобустан. Наскальные изображения. Баку, 1973.
20. Исмаилов Г. С. Новые данные о развитии крупного рогатого скота в древнем Азербайджане.-ДАНАз. ССР,т.XXII,№11,1966
21. Кошкарлы К. Т. Материальная культура азербайджанцев. Северо-Восточной и ЦентральнойзонМалогоКавказа. Баку, 1964.
22. Куфтин Б.А. Археологические раскорки в Триалети. Тбилиси, 1941, CXXIII табл.
23. Масимов И.С.Раскопки сятилища эпохи бронзы на Алтын-депе. Советская археология.ном.2, Москва, 1973.
24. Мифы народов мира. I т. Москва, «Советская Энциклопедия»,1992.
25. Мифы народов мира. II т. Москва, «Советская Энциклопедия»,1992.
26. Мошкова М.Г. Комплекснаходок с ритоном из Уральской области.

Советская археология № 4. 1981.
27. Пиотровский Б.Б. Археология Закавказья. Ленинград, Изд-во Ленинградского Государственного Университета им. А.А.Жданова. Л.: 1949, 12 таб.
28. Сагалаев А. М. Мифология и верования алтайцев. Новасибирск, 1984
29. Соколова З. П. Культ животных в религиях. Москва, 1972
30. Pope A. A survey of Persian art. From prehistoric times to the present. / Editor. Tokyo: Miyi-Shobo. 1965, (An Asia institute book) XXX, 492 p., fig. 126.
31. Wolfram Nagel, E.Strommenger. Kalakent. Frucisenzeitliche grabfunde aus dem transkavkasischen Gebul von Kirovabad (Jelizavetpol). Berlin: 192 p. 78 taf., (Berliner Beitrage Kur vor und Fruhgeschichte; B 4) 1985.

Irada Avsharova

Thetraces of the ox (bull) belief on the archaeological monuments in Azerbaijan

Summary

Keywords: *bull, belief, god, archaeological monuments, burial customs, agriculture, mythology, totemism, an image*

The cultural heritage of the ancient farming – cattle – breeder tribesis investigated through archaeological sites in the article. The mythological beings in the image of animals found on material – cultural samples and beliefs associated with the maretracedin association with folklor e-texts inherited from ancient times. One of the animals distinguishedforits mythological characteristicsin the studied periodis considered the ox (bull).

No doubt, the use of the ox – one of the bovine animals in wooden plow farming at the time as a mean of transport - the beast of burden to provide drawing of the cart, contributed to relieve the labor of farming tribes, thus believe, reverence in bull'spower, in subsequent periods had resulted with the mythicization of this orother animals in human imagination. As we see, an increase in the influence of the philosophical sense of people in society had also impact on the irreligious beliefs, and some animals, including cattle, became an object of faith in God, and sometimes it had taken place in the ancient tribal beliefs in the image of God, which led to the creation of ancestral cults.

Thus, the notion of the ox (bull) is traced in Turkish mythology sometimes in the same plot and images, and sometimes with slight differences. Therefore our main goal is to trace the out look of the tribes at the time in connection with each other, and to draw conclusions about them. It can be considered topical, since the


subject involved in research has not found its interpretation to the present day.


Авшарова Ирада
Следы верований в Быка (тельца) в археологических памятниках Азербайджана.

Резюме


Ключевые слова: *бык, верование, бог, археологические памятники, похоронные обычаи, земледелие, мифология, тотемизм, образ*


Резюме: в данной статье посредством археологических памятников отображено культурное наследие древних племён земледельцев-скотоводов, живших на территории Азербайджана. В найденных материально-культурных образцах отслеживается связь мифических существ в образе животных и связанных с ними верований с древними фольклорными текстами. Одним из животных, отличающимся мифологическими характеристиками в исследуемый период является бык. Использование крупнорогатого скота, а именно быков, запряжённых в соху, в пахотных работах, а также использование их как транспортного средства, обеспечивающего движение грузовых повозок, облегчало работу земледельцев того времени. Несомненно, что вера в силу быка и поклонение ему в последующий период привело к мифизации этого и других животных. Рост влияния в обществе философских мыслей отразился и на верованиях людей. Некоторые животные, в том числе и представители крупнорогатого скота стали объектом веры, божествами, а иной раз и богами, чьи образы заняли место в верованиях племён, что привело к образованию древних культов. Таким образом, быки представлены в мифологии тюркских народов как в одинаковых образах и сюжетах, так и с небольшими различиями. По этой причине нашей основной целью является отследить мировоззрение племён того периода и сделать определённые выводы. Тема, взятая для исследования, до сих пор не нашла полного и скоординированного научного обоснования и может считаться актуальной.





1-2. Xocalı, Gədəbəy tunc kəmər;






3-4. Qaraköpəktəpə, II Kültəpə - ocaq qrupları;



5. Polixrom boyalı qab qırığı II Kültəpə;



6. Qobustan qaya təsviri;



7. I Kültəpə öküz fiqurları

Həbibə Əliyeva

Şirvan ərazisindəki ən böyük xanəgahın kitabələri haqqında

Açar sözlər: *karvan-ticarət yolu, xanəgahlar, kitabələr, restavrasiya*

UOT 39

Azərbaycan coğrafiyası insanlıq tarixinin ən qədim yaşayış məskənlərindən biri olmuş və fərqlı dil, din və mədəniyyətə mənsub millətlərin memarı mirası üzərində olmaqdadır. Orta çağlardan Avropanın qapısı sayılan Anadolunu Çin ilə birləşdirən karvan-ticarət (İpək) yolu Araz boyu Azərbaycandan keçirdi. Bu yol üzərində inşa olunan qorunma, xatirə, mülki tiklilər – qəsr, xanəgah, məscid, məqbərə, türbə, karvansara, körpü və çeşmələr Azərbaycan torpaqlarındakı maddi mədəniyyət abidələri sırasındadır.

İlk orta çağlardan Azərbaycan ərazisindəki Şirvanşahlar (861-1538) və Atabəylər-Eldənizlər (1136-1225) dövləti qonşu dövlətlər arasındakı dostluq siyasəti, iqtisadi inkişafa və mədəniyyətin tərəqqisinə müsbət təsir göstərməsi Gəncə, Şəmkir, Bərdə, Naxçıvan, Dərbənd, Təbriz, Şamaxı, Bakı və başqa şəhərlərə gələn karvan-ticarət yolu üzərində inşa olunan memarlıq abidələrinin sayının artmasına təkan verdi (13, c. 309). Bu dövrdə Azərbaycan da Qarabağ, Təbriz, Naxçıvan və Şirvan memarlıq məktəbi zamanla forma və bədii xüsusiyyətlərinə görə inkişaf edərək məşhurlaşmışlar.

Yaxın Şərqi Avropa ölkələri ilə birləşdirən karvan-ticarət yolu üzərində yerləşən Şirvan memarlıq məktəbinə aid Azərbaycanın görkəmli alim-filosofu Şirvanlı Şeyx Pir Hüseyn xanəgah kompleksinə (XI-XV əsrlər) türbə, məscid, mədrəsə, kitabxana, karvansara daxildir. Liman şəhəri Bakıda Şirvanşahlar saray (XII-XV əsrlər) kompleksin ətrafındakı karvansaralar (Xan – XII əsr. Multani – XV əsr, Buxara – XV əsr, Qasım bəy – XVII əsr), orta əsr karvan-ticarət yolu üzərində meydana çıxmış ictimai-dini mərkəzlərdən - Bibi Heybət və Sufi Həmid (XIV əsr) məqbərəsi ətrafındakı karvansara qalıqları zəmanəmizə qədər bir sıra yerlərdə

qalmışdır (2,s. 53, 56, 59-66, 73).

Dövrün dövlət başçılarının və yerli əhalinin həm ehtiyac, həm rəqabət, həm də hakimiyyət və güc göstəricisi olaraq Azərbaycanda memarlıq abidələri üzərində hər biri bir-birindən gözəl ərəb hərifli yazı üslubu ilə işlənilmiş yazılar – kitabə qeydləri mövcuddur (17, s.12-15).

Beynəlxalq ticarət yolları üzərində olan şəhərlərin geniş formada inkişaf etməsində əsasən "İpək yolu"nun fəaliyyəti olmuşdur. Belə ki, qədim Cini, Mərkəzi Asyanı və Hindistanı Aralıq və Qara dəniz sahillərindəki başlıca ticarət mərkəzlərini birləşdirən beynəlxalq karvan ticarət yollarının əsas 2 qolu Azərbaycandan keçirdi. Birinci qol Kür çayı boyunca Kolxidaya, İberiyaya (Gürcüstan), ikinci qol isə Xəzər dənizinin qərb sahilləri ilə Dərbənddən Şimali Qafqaz yolları ilə Yunan şəhərlərinə gedirdi. XIV-XV əsrlərdə Şirvanın ticarət yolları öz əhəmiyyətini itirməmiş və beynəlxalq ticarət əlaqələrində Şamaxıdan Avropa və Şərq ölkələrinə, İrana, Kiçik Asiyaya, Suriyaya ipək daşınırdı (1, s.353-361).

Ümumiyyətlə, XVI əsrdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrində ipək xüsusi rol oynadığı üçün Şamaxı ipəyinin Rusiyaya, İngiltərəyə ixracında bu şəhər xüsusi rol oynayırdı. XVII əsrin ortalarında Şamaxıda olmuş Alman səyyahı Adam Olearinin məlumatına görə Şamaxıda Azərbaycan türklərindən başqa gürcü, yəhudi, rus, hind tacirlərinin ticarətlə məşğul olduğu sənaye mərkəzi idi. Həmçinin XVII əsrin məşhur Osmanlı səyyahı Evliya Çələbi Şamaxı şəhərində 5 böyük məscid, 7 mədrəsə, 40 məktəb, 7 hamam, 44 daş karvansara, iki yüzə qədər dükanın olduğunu qeyd edirdi (3, s. 80-118).

Mənbələrdən də məlum olur ki, xanəgahlar əsasən karvan-ticarət yolları üstündə yerləşir və bir sıra abidələrdən ibarət olurdu. Xanəgah kompleksinə ribat, karvansara, türbə, məscid, ovdan, hamamlar və s. dini və ictimai binalar daxil olurdu (7, s. 50). Şirvan memarlıq məktəbinə məxsus XII-XIV əsrlərə aid ən böyük xanəgah Bakı-Salyan karvan-ticarət yolu üzərində yerləşən Pir Hüseyin Şirvani Xanəgahı olub. (8, s.4). Azərbaycanın böyük sufi şeyxi, görkəmli alim-filosof, elmi-fəlsəfi fikir tarixində, islam-fəlsəfi dünyagörüşünün formalaşmasında mühüm rol oynamış Şeyx Pir Hüseynin Rəvvanın (Şirvaninin) (954-1072-ci il) qəbri ətrafındakı möhtəşəm xanəgah olmuşdur (10, s.14-15). Böyük karvan yolu üstündə yerləşən Pir Hüseyn Xanəgah qapısının üzərində olan altı parça daşdan ibarət kitabədə ərəb dilində süls elementli nəsx xətlə yazı həkk olunmuşdur:

١) امر هذه المعرة بعهد الملك العام العادل الموید

المظفر علاء الدین ملك الاسلام و المسلمین تاج

Bu imarətin (tikilməsi) müdrik, ədalətli, Allahın yardımı ilə qalibiyyətli əla əd-Dünya v-əd- Din, İslam və müsəlmanların hakimi.

٢) الملوك السلاطین وارث جم افریدون ابو ١

المظفر فریبرز بن گرشاسب بن فرخزاد بن منوچهر ناصر المومنین

Çağların və Sultanların tacı, Afridunun tam varisi Əbu- 1.

Müzəffər Fəribürz ibn (oğlu) Gərşasb ibn Fərruxzad ibn
Mənuçöhrün hakimiyyəti dövründə, möminlərin müdafiəçisi

(٣) اعز الله انصاره بمال الصدر الكبير المفضل المحسب
افتخار خراسان اشر[ف] الدولة و الدين

Allah onun tərəfdarlarını möhkəmləndirsin - əzəmətli, hörmətli, Xorasanın şöhrəti, dövlətin və dinin əşrəfi, iftixarı (möhtərəm)

(٤) حسن بن محمد بن حسن الباود ئ المعروف بهزار وثاق دام
توفيقه علئ الخيرات في تاريخ ماه رجب سنه احد و اربعين و ستمائه

Hazar Visaq kimi tanınmış sədr Həsən ibn Muhəmməd ibn Həsən əl-Bavidi - Allah onun xeyirxah işlərdə müvəffəqiyyətini artırsın – öz hesabına əmr etmişdir. Rəcəb ayı, altı yüz qırx birinci ildə (hicri 641= miladi 1243/44) (16, c. 44).

Kitabələrinə əsasən Sirvanşah tərəfindən tikilmiş xanəgah kompleksinə türbə, məscid, mədrəsə, kitabxana, karvansara və qala divarları daxildir. Hündür bürclü divarlarla əhatə edilmiş xanəgah kompleksinin memarlıq abidələri orta əsr əzəmətini bu gün belə saxlamışdır (14, c.161; 6, s. 100-111; 2, s.73).

XI-XIII əsr mənbələrindən və arxeoloji qazıntılardan əldə olunan məlumatlara görə Azərbaycanın bu əsirlərdə bir çox şəhərlərindəki memarlıq abidələrinin-məscidlərin, türbələrin, hamamların, sarayların xarici və daxili tərtibatında müxtəlif formalı bədii kaşılardan geniş surətdə istifadə olunmuşdur. Belə ki, Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Bərdədə və Şirvanın bəzi yerlərində inşa olunan memarlıq abidələrinin bədii tərtibatında istifadə olunan xüsusən abı (tünd göy rəng), mavi, firuzəyi, qəhvəyi rəngli kaşıların nümunələri bu günə qədər qalmaqdadır (11, s. 6-7).

Xanəgahın bədii kaşıları ağ, yaşıl, firuzəyi və mavi rənglərlə boyanmış nəbati naxışların fonunda iri nəsx xəttilə ərəb dilində Qurani-Kərimdən hikmətli kəlamlar, Xəqani Şirvani və Cəlaləddin Rumiyə məxsus şerlər ümumi kompozisiyanı zənginləşdirməyə bacaran dövrünün sənətkarının mahir olduğuna dəlalət edir. Bu kaşıların xanəgahın üzərinə qoyulduğunu bildirən tarix hicri 684-cü ildir (miladi 1285) (9, s. 8-9). XIX əsrin əvvəllərindən başlayaraq Rus çarlarının Azərbaycana işğalçılıq siyasəti geniş surətdə aparılırdı. Azərbaycanı ikiyə parçalayan bu siyasətin qurbanlarınadan biri də Xanəgah kompleksi oldu. Belə ki, 1858-ci ildə ilk dəfə Pir Hüseyn xanəgahında olmuş Rusiya Peterburq Akademiyasının bir neçə şərqşünas alimləri arasında olan numizmat İ.A.Bartolomey buranın xaraba halında olmasını qeyd etmişdir. Türbənin və məscidin nadir inciləri sayılan kaşı parçalarını yerindən qoparıldığını görən alim kompleksin Peterburqa köçürülməsini təklif etmiş, lakin sonra bu kompleksin Tbilisi köçürülməsini qərara almışdır. Nədənsə bu qərar o zamanlar yerinə yetirilməmiş və 1907-ci ildə xanəgahda fəaliyyətə başlayan Tbilisidə Qafqazşünaslıq İnstitutunun elmi katibi olan S.V.Ter-Avetiyan olmuşdur. Ter-Avetiyan kompleksin bir neçə kaşılarının təsvir və fotosunu məşhur rus şərqşünas alimi V.A. Kraçkovckayaya oxumaq üçün təqdim etmişdir. V.A.

Kraçkovckaya yazdığına görə, məhz Ter-Avetiyanın xanəgahda olduğu zamandan sonra bütün kaşı parçaları yoxa çıxmış və sonralar həmin nadir incilərin sorağı Avropa muzeylərindən gəlmişdir. Pir Hüseyn xanəgahının al-əlvan rəngli, yazılı və mürəkkəb ornamentlərlə bəzədilmiş kaşıları dünya muzeylərindən Sankt- Peterburq Dövlət Ermitajında, Moskva Şərq Mədəniyyət Muzeyində, Parisin Luvr, Britaniya muzeylərində və həmçinin də Gürcüstanın İncəsənət muzeyində nümayiş etdirilir (5, s. 62-63; 16, s. 45; 9, s. 10-13).

Xanəgahın bir kitabəsi isə Milli Azərbaycan Tarixi Muzeyində nümayiş olunur. Kitabədə- محمد- شيخ حاجي / زاده حبيب الله بن شيخ [ه] العمار [ةّ] المعمر بهز "Bu tikintinin (binanin) Memarı Şeyxzadə Həbubullah ibn Şeyx Hacı Muhəmməddir" sözləri ərəb dilində süls elementli nəsx xəttilə həkk olunmuşdur. Azərbaycanın məşhur epiqrafist alimi Məşədixanım Nemət öz əsrində qeyd edir ki, Azərbaycanın bəzi tarixi abidələrinin estampını çıxararaq, Sankt-Peterburqda geniş bir arxiv yaratmağa nail olmuş akademik B.A.Dorn 1861-ci ildə məscidin həyətində atılıb qalmış kitabəni yerinə qoymağı əmr etməmiş, sadəcə mətni oxumaqla kifayətlənmişdir (15,c.307, 16, c. 44).

Xanəgahın minarəsi üzərində başqa tarixlərdə həkk olunmuşdur. Minarə üzərindəki kitabədə isə 1256-cı il və eyni memarın adı yazılmışdır. Şərəfə altındkı kitabədə isə Ustad Mahmud İbn Məsudun adı həkk olunmuşdur. Xanəgahın kaşıları ağ, yaşıl, firuzəyi və mavi rənglərlə boyanmış nəbati naxışların fonunda iri nəsx xəttilə ərəb dilində Qurani-Kərimdən hikmətli kəlamlar, Xəqani Şirvani və Cəlaləddin Rumiyə məxsus şerlər və xanəgahın üzərinə qoyulduğunu bildirən tarix hicri 684-cü il (miladi 1285) həkk olunmuşdur (9, s. 8-13).

Əsrlərin sınağından keçib günümüzə qədər gəlib çatan Pir Hüseyn Xanəgahı 2004 –cü ildən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Tarix-Memarlıq Qoruğu elan edıldi və bu sənət incisinin təbliğatının güclənməsinə təkan verdi. Ölkəmizdə gedən quruculuq işləri zamanı bu nadir tarixi abidə də diqqətdən kənar qalmadı. Tarixi –memarlıq abidələrinin restavrasiyasının dövlət səviyyəsində həyata keçirilməsi nəticəsində XII-XIV əsrıərə aid Pir Hüseyin Xanədahı kompleksi 2007-ci il tarixindən əsaslı bərpa olunuraq, məscidin ön bölməsində kitabələri və kiçik tapıntıları ilə nümayiş etdirilməkdədir (4, s. 14).

Azərbaycanın orta əsrlərə aid İslam memarlıq abidələri keçmiş Sovetlər dövründə, yəni 70 il (1920-1991) ərzində bir qismi məhv edilmiş və ya bir hissəsi günümüzə qədər gəlib çatmışdır. O dövrdə dinə qarşı çıxan ateist dövlət başçıları memarlıq abidələrimizin dağıdılmasına və yaxud da anbarlara çevrilməsinə şərait yaradırdılar. Bu hadisələr Azərbaycanda daha dəhşətli surətdə aparıldı. Əslində xalqın tarixi yaddaşının üstündən qələm çəkmək siyasəti yeridən qeyri –millətdən olan dövlət məmurları bu tiklilər üzərindəki ərəb qrafikası ilə yazılan kitabələrin əksəriyyətini Azərbaycan tarixindən silmişdilər. Bu səbəbdən də bu günümüzə gəlib çatan cüzi yazılı kitabələri məqalədə şərh etməyə çalışmışıq.

Azərbaycandakı tarixi abidələr üzərindəki türkcə, ərəbcə və farsca olaraq yazılan

kitabələrin önəmli bir qısmı ya parçalanmış ya da olduqları yerlərdən sökülüb başqa məkanlara daşınmışdır. Lakin hələ orijinal yerlərində qalan yazıların isə çox azı restavrasiya və konservasiya olaraq qoruma altına alınmışdır. Bu abidələrin əksər qismi dövlət tərəfindən qorunur və bərpa edilərək yenidən xalqın istifadəsinə verilir. Lakin, Azərbaycanın bəzi işğal altında qalan bölgələrimizdəki tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələrimiz təəssüflər olsun ki, 1991- ci ildən mənfur qonşumuz ermənilər tərəfindən məhv edilərək xarabalığa çevrilib.

Məhz, Azərbaycan Respublikasında qədim və orta əsrlərə aid tarixi abidələrin bərpası 1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini qazandıqdan sonra geniş vüsət aldı. Son zamanlar Azərbaycanın memarlıq abidələrinin bərpa məsələsi yüksək səviyyədə həll olunmağa başlanılmışdır. Azərbaycan ərazisindəki orta əsrlərdə inşa olunan qorunma, xatirə və mülki tiklilərin əsaslı bərpası, keçmiş ənənələrə sadiq qalmaq məqsədilə onların müxtəlif çeşidli həndəsi və nəbati ornamentli motivləri, zəngin kompozisiya quruluşuna malik epiqrafik kitabələri dövlət tərəfindən qorumaq və dünya əhəmiyyətli abidəyə çevrilməsinə inanırıq.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər).Bakı: Azərnəşr, 1996
2. Azərbaycanin tarixi abidələri. Bakı: "Qızıl Şərq", 1958
3. Evliya Çələbi. Səyahətnaməsində Azərbaycan , Bakı, Nurlar, 2013
4. Xəlilov M. Hacıqabul Rayon Pir Hüseyn Xanəgahı Tarix- Memarlıq Qoruğu //Pir Hüseyin Sirvanı. Bakı; Təhsil, 2013
5. Kərimov K.C., Əfəndiyev R.S., Rzayev H.İ., Həbibov N.D. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992
6. Qarabağlı R. Qarabağın İslam Memarlığı. Bakı: Elm və Təhsil, 2009
7. Qiyasi C. Nizami dövrünün memarlıq abidələri, Bakı, İşıq nəşriyyatı, 1991
8. Qiyasi C., İbrahimov K. " Bir xanəgahın tarixi", // Azərbaycan " qəzeti, 13.04.4014
9. Nemət M.S. Azərbaycanda pirlər (Sosial-ideloji iqtisadi-siyasi mərkəzlər). Bakı: Azərnəşr, 1992
10. Rıhtım M.., Xəlilli F,S. Mövlanə İsmayıl Siracəddin Şirvani. Bakı:CBS, 2011
11. Tərlanov M.Ə., Əfəndiyev R.S. Azərbaycan xalq sənəti. Bakı : Qızıl Şərq, 1960.
12. Аскерова Н. Архитектурный орнамент Азербайджана. Баку: Азернешр, 1961
13. Ахундов Д. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, Азернешр, 1986

14. Бретаницкий Л.С. Архитектурные школы средневекового Азербайджана (XII-XV вв.) «Искусство Азербайджана» , т.II. Баку, 1944
15. Дорна Б. Отчет об ученом путешествии по Кавказу и южному берегу Каспийского моря // Спб., 1861
16. Неймат. М.С. Корпус эпиграфических памятников Азербайджана. Баку:Элм,1991
17. Alyılmaz Cengiz. Azerbaycan`da Eski Türk İzleri // I. Uluslararası Uzak Asyadan Ön Asyaya Eski Türkçe Bilgi Şöleni Bildirileri. Afyonkarahisar:AKÜY., 2010, 9-23

Habiba Aliyeva

Towards inscriptions on the largest khanaqah in Shirvan region

Summary

Key words: *caravan trade routes, khanegahs, inscriptions, restoration*

This article reviews the khanaqah of Pir Husein Shirvani that was the largest khanaqah of Shirvan in the 11th - 15th centuries located on Baku-Salyan caravan trade route; furthermore, as a result of occupation policy of Russian tsarist's intervention in Azerbaijan this khanaqah complex was damaged at the beginning of the 19th century. The article examines incriptions which had been damaged and afterwards, *had* to *undergo* a restoration when Azerbaijan gained its independence in 1991.

Габиба Алиева

Об надписях одной из крупнейших обителей на территории Ширвана


Резюме

Ключевые слова: *торговый караванный путь, обитель, надписи, реставрация*

Статья повествует о крупнейшей в Ширване обители – Пире (святилище) Гусейна Ширвани XII-XIV вв., расположенном на торгово-караванном пути Баку-Сальян. Этот молельный комплекс стал одной из жертв завоевательной политики русского царизма в начале XIX в. В статье рассказывается о том, как этот памятник был подвергнут разрушению и его реставрированных после обретения Азербайджаном независимости в 1991 году надписях.







Xəqani Alməmmədov

Qarabağ düzənliyində yerləşən erkən əkinçi-maldar tayfalarına məxsus yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar (2013-cü ilin çöl-tədqiqatları əsasında)

Açar sözlər: *neolit-eneolit, İsmayılbəytəpə, Qarabağ, keramika, sapand daşları*

UOT 902

"Qarabağ neolit-eneolit ekspedisiya"sı tədqiqat planına əsasən, 2013-cü il çöl-tədqiqat mövsümündə Qarabağın erkən əkinçi-maldar tayfalarına aid yaşayış yerlərinin arxeoloji tədqiqini davam etdirmişdir. Belə ki, həmin ildə abidələrin elektron qeydiyyatı və xəritələşdirilməsinin ilkin mərhələsi başa çatdırılmış, ekspedisiyanın əsas tədqiqat obyekti olan İsmayılbəytəpə neolit dövrü yaşayış yerində (3, s. 17-32; 5, s. 46-47) arxeoloji qazıntı sahəsi genişləndirilmişdir.

"Qarabağ neolit-eneolit ekspedisiyası" Qarabağ düzənliyi ərazisində yerləşən arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşdirilməsinə hələ 2010-cu ildən başlamışdır. 2012-ci ildən etibarən isə Qarabağ düzənliyində mövcud olan arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşdirilməsi işi Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun ayırdığı qrant çərçivəsində aparılmışdır. Fondun ayırdığı maliyyə vəsaiti hesabına bir il ərzində Ağdam rayonunun işğal edilməmiş əraziləri və Ağcabədi rayonunun şimal-qərb hissəsini əhatə etməklə, təxminən 990 kv km ərazidə arxeoloji kəşfiyyat işləri aparılmış, 169 arxeoloji abidə elektron şəkildə qeydiyyata alınaraq 1:50000 miqyasında "Qarabağın arxeoloji abidələri xəritəsi" tərtib edilmişdir. Qeydiyyata alınmış bu abidələrdən 125-i erkən əkinçi-maldar tayfalarına aid yaşayış yerləridir (1, s. 22-25; 2).

Ekspedisiyanın əsas tədqiqat obyekti olan İsmayılbəytəpə neolit dövrü yaşayış məskənində (*şəkil 1*) arxeoloji qazıntılara 2012-ci ildə başlanılmışdır. 2013-cü ildə qazıntı sahəsinə daha 2 kvadrat (3A və 2B) əlavə edilmiş və onun ümumi sahəsi 400 kv m-ə çatdırılmışdır (*şəkil 2*).

1A kvadratında təmizləmə işləri başa çatdırıldıqdan sonra 2A kvadratında qazıntılara başlanıldı. İlkin olaraq bir hissə, 1A kvadratında olan 9 saylı tikili

qalığı təmizlənərək onun divarlarının üst hissəsi üzə çıxarıldı. 9 saylı tikili qalığı yaşayış yerinin II tikinti dövrünə aiddir. Dairəvi plan quruluşuna malik olan bu evin diametri 5,4 m, divarlarının qalınlığı isə 30-45 sm arası dəyişir (*şəkil 3*). Evin indiki vəziyyətdə hündürlüyü 147 sm-dir. Tikinti zamanı ölçüləri 40x19x13 sm və 35x15x12 sm olan samansız çiy kərpiclərdən istifadə olunub. Divarlar kərpiclərin bir-birinə paralel qoyularaq inşa edilib. Evin aşağı hissəsində divarlar bir qədər enlidir və kərpiclər arasında bərkidici palçıqdan istifadə edilməmişdir. Böyük ehtimal ki, burada kərpiclər divara yaş halda hörülmüşdür. Bu cür tikinti texnikası təməlsiz olan bu cür evlərin möhkəmliyini təmin etmək üçün tədbiq oluna bilərdi.

Döşəmə səviyyələrinə görə 9 saylı tikili qalığının zamanında ən azı üç dəfə bərpa olunaraq yenidən istifadə edildiyini söyləyə bilərik (1, s. 22-25). Hər iki döşəmədə təsərrüfat küpü basdırılmışdır. III döşəmədə, evin şimal-şərq hissəsində basdırılmış küpün hündürlüyü 46 sm olub, səthi zoğalı qırmızı rəngdə boyanmışdır. Armudvari quruluşa malik küpün bir hissəsi divarın içində idi. Onun digər ətrafı möhrə ilə bərkidilmişdir. Küp deformasiyaya uğramış və parçalanmışdır. Belə vəziyyətdə onu bütöv halda çıxara bilməyəcəyimizi nəzərə alaraq qabın parçalanmış hissələrini işarələyərək götürdük. Küpün ağız tərəfdən hissələrini götürdükdə burada sapand daşlarının saxlanıldığını gördük. Bu sapand daşları öz ölçüləri və çəkisinə görə indiyə kimi bütün həmdövr abidələrdən aşkar edilmiş sapand daşlarından fərqlənir. Yumru topu xatırladan sapand daşları samansız palçıqdan hazırlanmış, diametrləri 8-13 sm, çəkiləri isə 150-400 qr arası dəyişir. III döşəmədə aşkar edilmiş küpdə çox yaxşı vəziyyətdə qalmış 40 ədəd sapand daşı aşkar edilmişdir.

2A kvadratında aşkar edilən ən maraqlı memarlıq nümunələrindən birini də 10 saylı tikili qalığını hesab etmək olar. Tikili qalığı 2A kvadratının cənub-qərb hissəsində -1,50 sm-də qeydə alınıb. Onun bir hissəsi 2012-ci il qazıntıları zamanı üzə çıxarılmış və 8 saylı tikili qalığı kimi qeydiyyata alınmışdır. Dairəvi plana malikdir və bütünlüklə samansız yaş kərpiclə inşa edilib. Formasına görə başıkəsik konusu xatırladan tikilinin hündürlüyü 330 sm-dən çoxdur. Yuxarı hissədə onun perimetri boyunca 65 sm hündürlüyündə ciy kərpicdən təkqat divar hörülüb və döşəməsi çiy kərpiclə döşənib. Onun ən aşağı hissəsini müəyyənləşdirməkdən ötrü kiçik kəşfiyyat şurfu qoysaqda, yerin darısqal olması səbəbindən qazıntıları saxladıq. Tikili qalığının ən maraqlı cəhəti onun aşağı hissəsinin təpənin təbii qatından ən azı 1,2 m dərində inşa edilməsidir. Diametri 5 m-dən çox olan bu tikili qalığının hansı məqsədlə tikildiyi məlum deyil. Onun ölçüləri, forması və təyinatını tam olaraq qazıntılar başa çatdıqdan sonra müəyyənləşdirmək mümkündür.

12 saylı tikili qalığı 2A kvadratının mərkəzi hissəsində yerləşir (*şəkil 4*). Samansız çiy kərpicdən inşa edilən düzbucaqlı plan quruluşlu bu tikili qalığı sahələri müvafiq olaraq 5,6 və 5 kv m olan 2 otaqdan ibarətdir. İnşa zamanı 35x13x16 sm ölçüləri olan samansız çiy kərpicdən istifadə olunmuş, kərpiclər arasında bərkidici məhlul kimi qalınlığı 1,5-2 sm olan palçıqdan istifadə edilmişdir. Burada divarların eni 46

sm-dən 125 sm-ə kimi dəyişir. İndiki vəziyyətdə onların hündürlüyü təxminən 50-75 sm arasındadır. Otaqları bir-birindən ayıran arakəsmə divar əsas divara bitişdirilərək inşa edilmişdir ki, onlar arasında da havalandırma funksiyasını daşıyan dəliyin açıldığını ehtimal edirik. Birinci otaqda arakəsmə divara bitişik uzunluğu 135 sm, dərinliyi təxminən 57 sm olan quyu formasında ocaq yeri aşkar edilmişdir ki, onun da eni 29-57 sm arasında dəyişir. Formasına görə ocaq yeri Çalağantəpədən (6; 14, s. 31-40) aşkar edilmiş dulus kürələrinin odluq kamerasını xatırladır.

12 saylı tikili qalığında aparılan arxeoloi qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələrindən ən maraqlısı sapand daşına bənzər kürə formalı əşyadır. I otağın döşəməsində (-2,95 sm) təsadüf edilən kürənin diametri 48 mm, kütləsi 218 qr-dır. Öz rəngi və çəkisinə görə gildən olan sapand daşlarından kəskin fərqlənən kürənin AMEA Geologiya İnstitutunun müvafiq laboratoriyasında element analizi aparılmış və məlum olmuşdur ki, onun 98,654 % - ni dəmir elementi təşkil edir (*şəkil 5*). Əşyanın xarakteri, təyinatı və müxtəlif mübahisəli məsələlərə son qoymaq üçün kürədən götürülmüş nümunələr analiz üçün Almaniyanın Bohum şəhərində yerləşən Almaniya Dağ-mədən muzeyi arxeometallurgiya laboratoriyasına göndərilmişdi. Analizlərin cavabından sonra bu əşyanın tərkibi və xüsusiyyətləri haqqında dəqiq fikirlər söyləmək mümkündür.

2013-cü il çöl-tədqiqat mövsümündə qazıntı sahəsinə əlavə edilmiş 2B kvadratında aparılmış arxeoloji qazıntılar zamanı 15 saylı tikili qalığı aşkar edilmişdir (*şəkil 6*). Tikili qalığı öz ölçülərinə görə çox möhtəşəmdir. Burada əsas maraq doğuran enli və hündür divarlara malik I otaqdır ki, onun da sahəsi 12,5 kv m-dir. Otağın divarları daxili hissədə üç tərəfdən kontrforslarla möhkəmləndirilmişdir. Divarlar 40x15x18 sm ölçülərində samansız çiy kərpiclərlə hörülmüşdür. Kərpiclərarası bərkidici məhlul kimi də samansız palçıqdan istifadə edilmişdir ki, onun da qalınlığı 1-2 sm arası dəyişir. Divarlar həm daxildən, həm də xaricdən samansız palçıqla suvanmışdır. Suvağın qalınlığı divarın vəziyyətindən asılı olaraq 3-12 sm-dir. 15 saylı tikili qalığının divarlarının eni 56-140 sm aralığında dəyişir. I otağın əsas divarının hündürlüyü 192 sm-dir. Divar daxili hissədə 55x53 sm ölçüsündə kontrforsla möhkəmləndirilmişdir. Divarın eni 1,4 m-dir (*şəkil 7*). I otağa bitişik, onun cənub hissəsində II otaq da qeydə alınmışdır ki, onun da bir hissəsi 2A kvadratına daxildir. Ehtimal edirik ki, II otaq 14 saylı tikili qalığı ilə əlaqəlidir. I otaqla II otaq arasında 3 saylı divarda diametri 36 sm olan oval formada dəlik qeydə alınmışdır. Dəlik divar hörüldükdən sonra oyularaq açılmışdır. Ehtimal ki, havalandırma və ya saxlanc kimi istifadə edilmişdir (*şəkil 8*).

I otağın 2 saylı divarının uzunluğu 5,7 m, eni isə 51 sm-dir. Bu divarda kontrforsla möhkəmləndirilmişdir. Divarın kontrforsdan aşağıda olan hissəsi bağlama olmadan, sadəcə kontrforsa birləşdirilərək inşa edilmişdir. I otağın şərq hissəsində uzunluğu 3,7 m, eni isə 42 sm olan divar qalığı aşkar edilmişdir ki, onun da hər hansı bir tikili ilə bağlantısı yoxdur. Kvadratda qazıntılar başa çatmadığı üçün bu tikili qalığının

ilkin forması və vəziyyəti haqqında qəti fikir söyləyə bilmirik. Ehtimal ki, bu divar qalığı I və II otaqlardan öncə inşa edilmiş və daha erkən tikinti dövrünə aiddir (2).

2B kvadratında qazıntılar zamanı qeydə alınan ən uzun divar qalığı kvadratın qərb divarı boyunca şimal-qərb, cənub-şərq istiqamətində uzanan uzunluğu 8,1 m olan divardır. Divarın inşası zamanı istifadə edilən kərpiclər öz rənginə görə bütün qazıntı sahəsində aşkar edilmiş tikili qalıqlarında istifadə edilmiş kərpiclərdən fərqlənir. Burada istifadə edilən kərpiclər sarımtıl-qəhvəyi rəngli gildən, samansız olaraq kəsilmiş və digər kərpiclərdən fərqli olaraq kövrəkdirlər. Belə ki, qazıntılar zamanı suvaqları təmizlənmiş bu kərpiclər günəş şüaları və rütubətə qarşı dayanıqsız olub, tez bir zamanda aşınmaya məruz qalmışdılar (2).

İsmayılbəytəpə neolit dövrü yaşayış yerində aşkar edilmiş memarlıq nümunələrinin təsnifatını yekunlaşdıraraq qeyd etmək istərdik ki, abidə memarlıq quruluşuna görə yerli Cənubi Qafqaz ənənələrilə yanaşı, Anadolu (11, s. 29-34; 12, s. 21-29) və İranın (8, s. 31-40) son neolit dövrü memarlıq mədəniyyətinin bəzi xüsusiyyətlərini özündə əks etdirir.

Qazıntılar zamanı diqqətimizi çəkən ən maraqlı faktlardan biri buradan tapılan sapand daşlarıdır (48 ədəd). Ölçüləri və quruluşuna görə onları 3 qrupa bölmək olar. Kürə formalı sapand daşları böyükdür, çiy samansız palçıqdan hazırlanıb ki, onun da ölçüləri haqqında yuxarıda məlumat verilib.

İkinci qrup sapand daşları öz formasına görə limonu xatırladır. Onların uzunluğu 7-9 sm, eni isə 4-5 sm-dir. Çəkiləri 150-240 qr-dır. Qazıntılar zamanı cəmi 4 ədəd bu tip sapand daşı aşkar edilmişdir.

Üçüncü qrup sapand daşları kiçik ölçülü olub, qoza bənzəyirlər. Onların uzunluğu 2-3 sm, eni isə 1,2-1,7 sm-dir. Çəkiləri 40-75 qr arası dəyişən bu qrup sapand daşları Muğan, Mil-Qarabağın həmdövr abidələrindən məlumdur. İsmayılbəytəpə yaşayış məskənində aparılan qazıntılar zamanı 19 bu tip sapand daşına təsadüf edilmişdir.

I və II qrup sapand daşlarına həmdövr abidələr içərisində ancaq İsmayılbəytəpə yaşayış yerinin qazıntılarında təsadüf edildiyi üçün onları «İsmayılbəytəpə tipli sapand daşları» olaraq adlandırılmasını məqbul sayırıq.

İsmayılbəytəpə neolit dövrü yaşayış yerində 2013-cü ildə aparılmış arxeoloji qazıntılar zamanı 2603 ədəd saxsı qab fraqmenti, iki ədəd bütöv qab aşkar edilmişdir. Hər iki bütöv qab 9 saylı tikili qalığının döşəməsində aşkar edilmiş və onlar haqqında yuxarıda da qeyd edilmişdir. Saxsı qab fraqmentlərinin 494 ədədi (19%) qabların ağız (*şəkil 9*), 158 ədədi (6 %) isə oturacaq hissələrinə aiddir. Qeydə alınmış saxsı qab oturacaqları düz formalıdır. İkitərəfli dəliyi və ya lüləyi olan oturacaq fraqmentləri 4 ədəddir. Saxsı fraqmentlərinin 1951 ədədi (75%) isə forması təyin olunmayan nümunələrdir. Saxsı məmulatı içərisində hər hansı formada qulplara təsadüf edilməmişdir. Formalaşdırılan zaman ağız kənarı qabın daxili hissəsinə doğru əyildilmiş qab fraqmentlərinə (11 ədəd) təsadüf edilmişdir ki, biz də bunun qabların daşınmasını asanlaşdırmaq üçün edildiyini ehtimal edirik (*şəkil 10*).

Saxsı qab fraqmentlərinin tədqiqi nəticəsində qabların forma etibarilə elə də böyük çeşidə malik olmadığını söyləyə bilərik. Qabların ağız formalarına görə qazan (23 ədəd), tava (17 ədəd), boşqab (14 ədəd), küp (57 ədəd), küpə (167 ədəd), xeyrə (64 ədəd), kasa (151 ədəd) və bardaq (1 ədəd) tipli qabların hazırlandığını müəyyənləşdirmək mümkün olmuşdur.

Saxsı məmulatı tərkibinə müxtəlif qatışıqlar əlavə edilmiş gildən hazırlanmışdır. Burada əsasən bitki tərkibli fraqmentlər üstünlük təşkil edir ki, onların da sayı 2239 ədəddir (86%). Gilinin tərkibinə qeyri orqanik qatışıqlar-qum və xırda daşlar əlavə edilmiş nümunələrin sayı 104 ədəddir (4%). Bu tip nümunələrin səthləri texniki baxımdan işlənilməmiş olub, çox kobuddur. Gilinin tərkibinə qeyri-orqanik və bitki qatışıqları birgə əlavə olunmuş fraqmentlərə də təsadüf olunmuşdur ki, onların da sayı 260 ədəddir (10 %). Bu tip nümunələr digərlərindən davamlılığı ilə seçilir. Ehtimal ki, bu kombinasiyadan istifadə etməklə qədim dulusçular qabların dayanıqlığını artırmaq məqsədi güdmüşdülər.

Saxsı qablar əldə, bad üsuli ilə formalaşdırılmışdır. İki mərhələdə formalaşdırılmış qab fraqmentlərinə də təsadüf edilmişdir. Bu cür formalaşdırılma üsulu qalın divarlı qablarda müşayət edilmişdir.

Saxsı qab fraqmentlərinin böyük əksəriyyətinin səthləri texniki baxımdan işlənilmişdir. Belə ki, burada şüyrə və anqobdan istifadə edilərək qabların səthləri texniki baxımdan işlənilmişdir. Fraqmentlərin 937 ədədinin (36 %) səthi şüyrələnmişdir. Bir çox nümunələrdə şüyrələmə çox keyfiyyətlə edilsə də, əksəriyyət fraqmentlərdə bu iş kobud aparılmışdır.

Saxsı qab məmulatının 27%-i, yəni 703 ədədi anqoblanmışdır. Əsasən açıq qəhvəyi və qırmızımtıl-qəhvəyi rəngli sadə anqoblardan istifadə edilmişdir. 2013-cü ildə aşkar edilmiş saxsı məmulatının nəzəri-statistik müqayisəsini apardığımız zaman boyalı saxsı məmulatının kəmiyyət artımını müşayət etdik. Belə ki, nümunələrin 35 %-dən çox hissəsi (927 ədəd) al qırmızı rəngli boyadan istifadə edilməklə, 11 ədəd fraqment isə şabalıdı rəngdə boya ilə boyanmışdır.

Boyalı saxsı məmulatının artımı fonunda təsadüf edilmiş boyanaxışlı nümunələr elə də nəzərəçarpacaq miqdarda olmasa da (6 ədəd), naxışların motivləri baxımından maraqlıdırlar. Burada əsasən həndəsi naxışlamadan istifadə edilmiş, motiv seçimi və naxışların çəkilmə texnikası çox bəsit və kobuddur. Boya ilə naxışlamadan başqa burada daha iki naxışlama üsulundan istifadə edilmişdir. Bunlardan birincisi və ən geniş tətbiq olunanı dırnağabənzər izləri xatırladan basma naxış növüdür. Belə naxış qablar formalaşdırıldıqdan sonra onun yaş səthinə dırnaq və ya dirnaq izlərinə bənzər izlər buraxan alətlə döyülürdü. Qazıntılar zamanı 83 ədəd bu cür naxışlanmış fraqmentə təsadüf edilmişdir. İkinci naxış növünə aid olan qabartma köbə (dekor) yalnız bir fraqmentdə təsadüf edilmişdir. Saxsı məmulatının təsnifini yekunlaşdıraraq qeyd etmək istərdik ki, bişirilmə keyfiyyətinə görə fraqmentlər bir-birindən fərqlənir. Daha qalın divarlı fraqmentlərin daxili hissəsi qaralmış, istənilən

səviyyədə bişirilməmişdir. Çox böyük ehtimal ki, iri həcmli qablar açıq ocaqlarda bişirildiyindən qeyri-bərabər istilik paylanması səbəbindən istənilən keyfiyyətdə bişirilməmiş və bir o qədər də davamlı olmamışdılar. Nazik divarlı fraqmentlər isə daha keyfiyyətlə bişirilmişdilər. Güman ki, kiçik həcmli qablar dulus sobaları və ya xüsusi quyularda bişirildiyindən iri həcmli qablara nisbətən daha keyfiyyətlidirlər.

Nümunələr üzərində aparılmış ilkin tədqiqatlar saxsı qab istehsalında qonşu bölgələrlə oxşar və fərqli cəhətlərin mövcudluğunu təsdiq edir (7, s. 166-169; 9, s. 38-46; 10, s. 1-14; 13). Bizim apardığımız çöl tədqiqatları və bütün toplanılmış keramika kolleksiyasının kompleks analizi nəticəsində Qarabağın neolit dövrü keramikası haqqında, onun texniki, texnoloji və bədii-estetik xüsusiyyətləri ilə birgə danışmaq imkanı yaranmışdır. Bu isə yalnız birinci addımdır. Düşünürük ki, gələcəkdə bu regionun əsas abidələrində aparılacaq stasionar arxeoloji qazıntılar Qarabağın neolit dövrü abidələrinin arxeoloji kompleksinin digər kateqoriyalarının da xarakterik xüsusiyyətlərini ayırmaq, eləcə də bütünlüklə Qarabağın neolit mədəniyyəti haqqında danışmaq imkanı verəcək (3, s. 428-433; 4).

2013-cü il qazıntıları zamanı daş alətlər çox az miqdarda aşkar edilmişdir. Bunlar dən daşı fraqmentləri (5 ədəd), bülöv daşı, 2 ədəd ağ daşdan yonulmuş qab fraqmentləri və obsidiandan alət fraqmentləridir.

İsmayılbəytəpə neolit dövrü yaşayış yerində 2013-cü ildə aparılmış arxeoloji qazıntıların təsnifatına yekun vuraraq qeyd etmək istərdik ki, abidə ümumilikdə Qafqaz neolitinin açıq qalmış problemlərinin öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Klassik Qarabağ neolitinə xas olan abidədən aşkar edilmiş maddi mədəniyyət nümunələrinin müqayisəli təhlili nəticəsində İsmayılbəytəpə yaşayış yerini xronoloji baxımdan e.ə VI minilliyin I yarısına aid etmək olar.

"Qarabağ neolit-eneolit ekspedisiyası"nın 2013-cü ildə apardığı arxeoloji tədqiqatların qısa nəticələri aşağıdakılardır:

Qarabağ düzənliyində təxminən 900 kv km ərazidə ilk dəfə olaraq arxeoloji abidələrin elektron qeydiyyatı aparılmışdır;

Azərbaycan arxeologiyasında ilk dəfə olaraq 1:50000 miqyasında elektron arxeoloji xəritə - "Qarabağın arxeoloji abidələri xəritəsi" tərtib edilmişdir. Xəritəyə 169 arxeoloji abidə daxil edilmişdir ki, onlardan da 125-i neolit-eneolit dövrünə aiddir;

Qeydiyyata alınmış abidələrin hər birinin elektron pasportu hazırlanmışdır;

"Qarabağın arxeoloji abidələri toplusu" nun I cildi tərtib edilmişdir;

İsmayılbəytəpə neolit dövrü yaşayış yerində qazıntı sahəsi 400 kv m-ə kimi artırılmış, dövrün memarlığı, təsərrüfat həyatına aid çox unikal artefaktlar əldə edilmişdir.

İstifadə edilmiş mənbə və ədəbiyyat siyahısı

1. Alməmmədov X.İ., Quluzadə N.V. Qarabağ neolit-eneolit ekspedisiyası"nın 2013-cü ildə apardığı arxeoloji tədqiqatların qısa hesabatı / Azərbaycanda 2013-cü ildə aparılmış arxeoloji və etnoqrafiq çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 2014.
2. Alməmmədov X.İ, Quluzadə N.V. "Qarabağ neolit-eneolit ekspedisiyası"nın 2013-2014-cü illərdə apardığı arxeoloji tədqiqat işlərinin qısa hesabatı / Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014, Bakı, 2015.
3. Alməmmədov X. İ. "Qarabağin arxeoloji abidələri toplusu" I kitab. Bakı, 2016.
4. Alməmmədov X.İ., Quluzadə N.V. İsmayılbəytəpə abidəsinin saxsı məmulatı Qarabağ bölgəsinin neolit dövrü dulusçuluğunun öyrənilməsində mənbə kimi / Milli Azərbaycan Tarixi Muzeyi - 2016, Bakı, 2016.
5. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпоха энеолита VI-IV тыс. до н. э.). Баку, 1987.
6. Нариманов И.Г, Азимов М.С. Энеолитическое поселение Чалагантепе. Из серии «Памятники материальной культуры Азербайджана». Баку, 1985.
7. Alakbarov V. A. Pottery production at Neolithic Göytepe (West Azerbaijan). Гілея Науковий вісник збірник наукових праць. Випуск 102 (№ 11), Київ, 2015.
8. Bahram Ajorloo. The Early Neolithic Period in the Urmia Lake Region. jocO quarterly, Vol.1, No.1. Autumn 2013.
9. Bertille Lyonnet et.al. Ancient Kura (2010–2011): The first two seasons of joint field work in the Southern Caucasus. Archaologische Mitteilungenaus Iran und Turan 44. Berlin, 2012.
10. Bertille Lyonnet et.al. Mentesh Tepe. an early settlement of the Shomu-Shulaveri Culture in Azerbaijan. Quaternary International XXX. 2015.
11. Mehmet Özdoğan Transition from the round plan to rectangular – reconsidering the evidence of Çayönü. BAR International Series 2097, vol. 48, 2010.
12. Mehmet Özdoğan The Dynamics of Cultural Change in Anatolia A supra-regional Perspective. Anatolian Metal V. Bochum, 2011.
13. Farhad Guliyev, Yoshihiro Nishiaki. The starting point of sivilization - early village of Goytepe. Baku, 2012.
14. Tufan Akhundov, Khagani Almamedov. South Caucasia in the Neolithic to Early Bronze Age (Central and Eastern Regions). Azerbaijan-Land between East and West. Transfer of knowledge and technology during the "First

Globalization" of the VIth-IVth millennium BC. International Symposium Baku, 2009.

Khagani Almammadov
Archaeological studies of the settlements of early sedentary farmer-breeder tribes in Karabakh Plain
(Based on field research in 2013)

Summary

Key words: *Neolithic-Eneolithic, Ismailbaytepe, Garabagh, pottery, Sling stones*

In accordance with its research plan, "Karabakh Neolithic-Eneolithic Expedition" has continued the archaeological research in settlements belonging to Karabakh's early farmer-cattle breeder tribes. During the year the initial stage of electronic registration and mapping of monuments was finalized, and archaeological excavations were continued in Neolithic-age Ismayiltepe settlement which were the main focus areas of the expedition's research.

Discovery and archaeological study of new archaeological sites, including the new monuments belonging to early farmer-cattle breeder tribes, began in 2010 under the "Karabakh Neolithic-Eneolithic Expedition.". As of 2012, the work for electronic registration and mapping of the archaeological monuments located in the Karabakh Plain was carried out within the framework of a grant award by the Science Development Foundation under the President of the Republic of Azerbaijan. Within a year, with the help of Foundation's financial support, archaeological survey works were carried out in approximately 990 sq.km territory including the unoccupied areas of Aghdam district and the northwestern parts of Aghjabedi district, and, with e-registration of 169 archaeological monuments, "The Map of Karabakh's Archaeological Sites" was created with a 1:50000 scale. 125 of these registered monuments were residence areas of early farmer-cattle breeder tribes.

Archaeological excavations in Ismayiltepe settlement of Neolithic Age, which was the main research focus of the expedition, began in 2012. In 2013 the exploration area was expanded with 2 more squares (3A and 2B), thus bringing the overall area to 400 sq. m. Remnants of 8 housing constructions were discovered, bearing rectangular and circular design structures. The houses are of much curiosity due to their sizes and construction techniques. Chaff-free raw bricks and mud were used as construction materials, and the walls were plastered. The width of house walls varied between 0.5-1.4 m. One of the uncovered housing remnants – the house numbered 16 – had a height of 1.9 m.

In 2013, during archaeological excavations in Ismailbeytepe settlement of

Neolithic period, 2603 items of earthenware fragments and two items of intact plates were discovered. Both plates were uncovered in the floor layer of remnant housing construction number 9, as mentioned above. 494 of earthenware fragments are pottery mouth pieces, while 158 items (6%) are bottom pieces. Registered earthenware bottoms are straight-shaped. 1951 items (75%) of pottery fragments are samples without specific shapes. There were no pottery handles of any shape among the earthenware fragments.

Excavations in 2013 revealed very few stone instruments. These were grinder mill fragments (5 items), fragments of two plates carved out of white stone, and fragments of instruments made from obsidian.

One of the most interesting aspects of archaeological excavations, as was the case during 2012, was the small number of osteological remains and bone tools. The uncovered 12 samples were mainly fragments of small-sized awls.

Summarizing the classification of archaeological findings in 2013 from Ismayilbeytepe residence area of Neolithic Age, we would like to note that overall the monument bears much significance for studying the unresolved issues of Caucasus Neolithic. Based on the comparative analysis of material-cultural samples found in the monument area that is characteristic of classical Caucasus Neolithic, Ismayilbeytepe residence area can be chronologically placed at the first half of VI millennium BC.

Хагани Алмамедов

Археологические исследования на поселениях племен земледельцев и скотоводов, расположенных на Гарабагской равнине (на основе полевых исследований в 2013 году)

Резюме

Ключевые слова: *неолит-энеолит, Исмаилбейтепе, Гарабах, керамика, ядер для пращи.*

В истекшем полевом сезоне «Гарабагская неолит-енеолитическая элспедиция» продолжила начатые в предшествующие годы исследования поселений ранних земледельческо-скотоводческих племён Гарабага. Ею был завершён первый этап фиксации и электронного картографирования памятников этого региона, были продолжены археологические работы на основном объекте исследования неолитическом поселение Исмаилбейтепе.

Работы по фиксации, в том числе памятников ранних земледельческо-скотоводческих племён Гарабага, были начаты в 2010 году. За прошедшее время работами экспедиции на неокупированной территории Агдамского и

северо-западной части Агджабединского районов зафиксировано и электронно картографировано 169 археологических объекта, из которых 125 - поселения ранних земледельцев-скотоводов. В результате, в масштабе 1:50000 была составлена «Карта археологических памятников Гарабага».


Работы на неолитическом поселении Исмаилбейтепе были начаты в 2012 году на площади 200 кв.м. В 2013 году исследуемая площадь была доведена до 400 кв.м. Раскопками были выявлены остатки 16 строений круглого и прямоугольного плана. В качестве строительного материала для этих строений использовался сырцовый кирпич без растительной примеси и глинобит, с последующей обмазкой поверхностей. Толщина стен этих строений колебалась от 0,5 до 1,4 м. Высота сохранившихсястен одного (№16) из строений 1,9 м.

В 2013 году на поселении Исмаилбейтепе найдено два целых керамических сосуда и 2603 фрагментов. Среди фрагментов керамических сосудов 494 (19%) фрагмента горловин, 158 (6%) фрагмента доньев и 1951 (75%) формынеопределяющих фрагмента. Все найденные донья плоские.


В 2013 году каменные находки представлены всего 5 фрагментами зернотёрок, один точил, 2 фрагментами сосудов из белого камня и фрагментами обсидиановых орудий.

Как и в прошлом сезоне,найдено очень мало, всего 12 образцов костяных орудий, главным образом, шильев небольшого размера.

Завершая описание исследований на поселении Исмаилбейтепе в 2013 году, хотим отметить, что памятник имеет особое значение для изучения проблем Кавказского неолита. Сопоставительный анализ материалов поселения Исмаилбейтепе с материалами классического Гарабагского неолита, позволил отнести этот памятник к первой половине VI тыс. до н.э.




Şəkil 1



Şəkil 2



Şəkil 3



Şəkil 4



S2 PICOFOX - TRACE ELEMENT ANALYSIS

Listed at 08.11.2013 10:42:36

User: Administrator
Sample:
Disc:
Blank value: 0.0 %
Meas.date: 08.11.2013 10:21:45
Count rate: 2272 cps
Voltage: 50 kV
Excitation: W Bremsstrahlung
Filter: Al 200.00 µm

Serial number: 421151110
ID-No.:
Quant. type: Standardless
Spectrum: arxeologiya ins.
Live time: 1000 s
Dead time: 0.5 %
Current: 1000 µA
Anode: W
Optic: Monochromator 35.000

Method: Standard (Profile bayes normal fit)
Comment:

Element	Line	Conc./ %	Sigma/ %	RSD/ %	LLD/ %	Net area	Backgr.	Chi
Ca	K12	0,408	0,026	6,3	0,050	1580	4184	1,96
Cr	K12	0,023	0,009	40,6	0,020	248	4943	1,20
Mn	K12	0,213	0,008	3,9	0,016	3025	5375	12,37
Fe	K12	98,654	0,077	0,1	0,012	1638806	4667	331,72
Cu	K12	0,015	0,001	7,9	0,002	442	395	1,09
Zn	K12	0,243	0,003	1,1	0,002	8768	390	6,17
As	K12	0,002	0,001	30,9	0,001	94	370	13,33
Se	K12	Not det.			0,001	46	375	2,33
Rb	K12	0,003	0,000	16,5	0,001	179	351	2,51
Sr	K12	0,013	0,001	4,4	0,001	904	328	1,10
Zr	K12	0,001	0,000	37,5	0,001	72	329	1,25
Mo	K12	0,008	0,001	6,7	0,001	506	317	3,37
Sb	K12	0,021	0,002	7,7	0,003	654	990	1,09
La	L1	0,386	0,020	5,1	0,037	1918	3818	5,46
Pb	L1	0,011	0,001	7,7	0,001	432	343	14,27

Şəkil 5




Şəkil 6




Şəkil 7



Şəkil 8



Şəkil 9



Şəkil 10

Наргиз Алиярлы

Вклад Салеха Казиева в изучение материальной и духовной культуры древней Габалы

Ключевые слова: *Салех Казиев, музей, Габала, Кавказская Албания, археологические раскопки*

UOT 902

Фонд археологии Национального музея истории Азербайджана на протяжении столетия его деятельности собирал, изучал и исследовал памятники материальной культуры Азербайджана. У истоков создания и развития археологии, этнографии, нумизматики в республике, наряду с такими крупными учеными, как Л.В.Яновский, А.А.Ивановский, В.Бельк, М.Н.Никольский, Э. Реслер, Н.Я. Марр, И.И. Мещанинов, Я.И. Гуммель, стояли и отечественные археологи – Д.Шарифов, И.Джафарзаде, А.Алекперов, И.Азимбеков, Д.Багиров и С.Казиев.

Одним из известных археологов, внесших неоценимый вклад в изучение материальной и духовной культуры азербайджанского народа, является Салех Казиев.

Салех Казиев родился в 1893 году в селении Хачмас Варташенского (ныне Огузского) района Азербайджанской Республики. Будучи еще сельским учителем, он проявлял большой интерес к изучению материальной культуры прошлых веков [3, с.91-92].

Археологическая деятельность С. Казиева начинается в 1926 году с изучения материальной культуры Албании на месте находки памятников Ялойлутепинской культуры [6, с.14].

Профессиональная деятельность в области археологии С. Казиева началась в 1934 году в отделе древней истории и археологии Музея истории Азербайджана.

Вскоре после учреждения Азербайджанского филиала Академии Наук СССР в 1935 году его направляют в аспирантуру, тема кандидатской

диссертации «Древности Кабалинского магала», в 1941 году С. Казиев с успехом защитил кандидатскую диссертацию. Выбор С. Казиевым темы «Древности Кабалинского магала» в качестве научного исследования не было случайным. На основании имеющихся в распоряжении материалов, он представил развернутый анализ памятников исследуемого района [12, с.49].

Салех Казиев наряду с археологическими раскопками древних памятников Габалы, изучал и исследовал этнографию азербайджанского народа, рассматривал пережитки древних верований, обычаев, связанных с браком, рождением и воспитанием детей и т.д. [7, с.14].

Видное место среди них занимает древнее городище Габала (Хабала или Кабалака), которая впервые упоминается в древнегреческих и римских письменных источниках.

Для их исследования особое значение имеют археологические раскопки из городов Кавказской Албании, упоминаемых в древних письменных источниках, исследователи того периода особое внимания уделили Габале. Почему Габала? Потому, что основной причиной является упоминание Габалы Плинием Старшим в I веке н.э. в качестве главного города Кавказской Албании в период античности [4, с.17].

Габала отличалась своей грациозностью, являясь важным политико-экономическим и торговым центром. В эпоху эллинизма и средневековья через ее территорию проходил Великий торговый путь, связывающий Восток с Западом.

Краткое сообщение о Габале было опубликовано в 1927 году директором школы в селении Чухуркабала Р. Эфендиевым [1, с.233-244].

Эта заметка была посвящена устным преданиям о крепости, ее укреплениях и взятии этого укрепления гявурами. Жителей Гявур калы Р. Эфендиев считал огнепоклонниками [13, с.68]. Отсюда и пошло названия Гявур каласы (крепость неверных).

Впервые разведочные работы на территории Габалы были проведены Давуд беком Шарифовым в 1926 году.

Трудовая деятельность Салех муаллима как научного сотрудника в Музее истории Азербайджана ныне (Национального музея истории Азербайджана) началась с 1934 года.

Согласно решению Азербайджанского филиала академии наук СССР, Салех муаллим с 1947 по 1952 гг. был назначен директором этого учреждения, являвшегося в те годы основным научным центром археологических и этнографических исследований в Азербайджане.

Салех Казиев на посту директора Музея, вложил много сил и энергию в развитие музейного дела, а также переорганизовал Музей в подлинный центр научных исследований.

В 1952 году Салех Казиев продолжил работу в Институте истории Академии наук Азербайджанской ССР, где с 1952-1954 годы заведовал отделом истории материальной культуры, в 1955 г. руководил отделом этнографии, а в последующие годы работал на должности старшего научного сотрудника [5, с.306-307].

С 1938 года С. Казиев организовал экспедицию в Варданлы, 1939 г. под руководством проф. Е. Пахомова обследовал археологические памятники Мингечаура, а позднее в 1941 г. стал руководителем Мингечаурской экспедиции, но реализовать археологические работы им так и не удалось в связи с началом II-ой мировой войны.

Однако после окончания Великой Отечественной войны в 1945 году Азербайджанский филиал академии наук СССР был преобразован в Академию наук Азербайджана. Согласно постановлению Академии наук Азербайджана наряду со строительством на территории Мингечаура, одной из крупнейшей на Кавказе гидроэлектростанции археологические работы возобновились.

Систематическое и планомерное обследование территории Мингечаура имело важное значение для исторических исследований.

В связи со строительством Мингечаурской ГЭС, по инициативе Президиума Академии наук Азербайджанской ССР в апреле 1946 г. вновь была организована Мингечаурская археологическая экспедиция, в состав которой вошли сотрудники Музея истории Азербайджана, а с 1952 г. руководство экспедиции было передано в ведение Института истории и философии Академии наук Азербайджанской ССР. Раскопки продолжались до августа 1953 г. [2, с.8].

Главным руководителем археологической экспедиции назначили видного археолога С.М. Казиева. С. Казиев с 1946 по 1953 гг. руководил археологическим проектом вплоть до завершения строительства и запуска Мингечаурского ГЭС.

В данной экспедиции также приняли участия видные археологи, этнографы, антропологи и т.д. и из стран бывшего СССР.

Весьма богатый археологический, а также материал Мингечаурской экспедицией впервые С. Казиевым был подразделен, исследован, были определены принадлежность материалов на исторические периоды начиная с эпохи конца энеолита вплоть позднего средневековья XVIII века.

В 1960 году С. Казиев издал «Альбом кувшинных погребений» [8, с.27], богато иллюстрированный, изданный на азербайджанском и русском языках. Широкоформатный альбом является ценным источником для изучения обряда кувшинных погребений древнего Азербайджана.

Эта работа стала важным этапом в изучении особенностей городских некрополей древнего периода в Азербайджане.

После завершения Мингечаурской археологической экспедиции, с 1959 г. были организованы систематические археологические раскопки в Габале под руководством С. Казиева.

Археологические работы в Габале выявили остатки сооружения древнего города, относящиеся к античному и средневековому периоду.

Раскопки велись на обеих частях древнего городища, где были исследованы оборонительные сооружения [9, с.71-73].

Раскопки и исследования установили возраст города просуществовавшего более II тыс. лет, что интересно городище античной эпохи расположено на расстоянии 2 км к юго-востоку от средневековых развалин города Габалы.

Габала – один из древнейших, красивейших уголков и культурных городов Азербайджана, о чем свидетельствуют многочисленные археологические артефакты, а также архитектурные памятники, обнаруженные на её территории. По данным археологических исследований, возраст Габалы составляет около 3000 лет. Габала до конца VI века н.э. была столицей Кавказской Албании, которая имела свою письменность.

Античный город находился в междуречье Карачая и Гочаланчая. Город в свое время имел оборонительные сооружения. Особенно хорошо прослеживаются остатки оборонительного вала длиной более 1 км, защищавшего город с южной стороны. Следует отметить, что первоначальная ширина вала была не менее 6 м [10, с.317-319].

Археологические исследования городища установили культурный слой толщиной 2,6 м., нижний горизонт его мощности 0,3-0,4 м. относится к эпохе ранней бронзы.

Непосредственно на этом слое лежат уровень с IV века до н.э. по I век н.э. На раскопанном участке к этому периоду относятся три строительных горизонта.

На основе стратиграфии и полученных материалов С. Казиев и И. Бабаев датируют их соответственно концом IV– III векмм до н.э. и II – первой половиной I века до н.э. и, наконец, третий уровень относится ко второй половине I века до н.э. – I век н.э.

Археологические раскопки, проводившиеся в Габале и в ее окрестностях, позволяют проследить историю этого города с эллинистической эпохи вплоть до XVIII века.

Одним из несомненно больших достижений Габалинской экспедиции Салеха Казиева является установление самого местонахождения древнего городища, а также некрополя античного периода.

Следует особо отметить, что материалы археологических раскопок в Габале были подробно описаны в специальном V томе сборника «Материальная культура Азербайджана», издании Музея Истории Азербайджана в 1964 году.

Результаты этих исследований нашли отражение также и в ряде других научных статьях С. Казиева и его коллег об экспедициях в Габале.

Салех Мустафа оглы Казиев автор более 50 научных работ, опубликованных в различных научных изданиях. С его участием было проведено свыше 70

археологических экспедиций и поездок, охвативших почти всю территории Азербайджана [11, с.21].

Салех Казиев прекрасно владел несколькими восточными языками арабским, персидским и турецким, что позволило ему при написании научных трудов привлечь обширный материал в области религии, обычаев, литературы и искусства Востока.

Салех Казиев был консультантом, редактором, рецензентом многих научных работ по истории, археологии и этнографии Азербайджана, внесший неоценимый вклад в становление и развитие отечественной науки в области археологии.

Список использованной литературы:

1. Алиев К.Г. О неопубликованных сырцовых гробницах, раскопанных Я.И. Гуммелем в 1938 г.// Материальная культура Азербайджана. Баку, 1973, том VII.
2. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур (эпоха энеолита и бронзы) Баку, 1959.
3. Бабаев И.А. К 75-летию Салеха Мустафа оглы Казиева // Советская Археология. Москва, 1969, № 3.
4. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку,1990
5. Бабаев И.А., Нариманов И.Г. Салех Мустафа оглы Казиев// Советская Археология. №4, Москва, 1971.
6. Джафарова Э. Вклад Салех Мустафа оглы Казиева в развитие археологии Азербайджана. Баку, 2009.
7. Казиев С.М. Этнографическое исследование районов Азербайджана.// Научный архив НМИА. Инв. № 113.
8. Казиев С.М. Альбом кувшинных погребений. Баку, 1960.
9. Казиев С.М. Раскопки Кабалы. Известия АзФАН АН СССР. 1945, № 1.
10. Казиев С.М., Бабаев И.А. Раскопки древней Кабалы//Археологические открытия 1967. Москва, 1968.
11. Казиев С.М. Археологические экспедиции музея за 1941 год. Научный архив НМИА, инв. № 361.
12. Научный архив НМИА. Инв. № 130.
13. Эфендиев Р. Памятники древности в Нухинском уезде. Известия Азгомстарис, выпуск III, 1927.

Nərgiz Əliyarlı

Saleh Qazıyev Qədim Qəbələnin maddi və mənəvi mədəniyyətinin öyrənilməsinə töhfəsi

Xülasə

Açar sözlər: *Saleh Qazıyev, Muzey, Qəbələ, Qafqaz Albaniyası, arxeoloji qazıntılar*

Məqalədə Azərbaycanın tanınmış arxeoloqu, bilikli, fəhmli şəxsiyyət, ciddi və əzmkar tədqiqatçı Saleh Qazıyevin nəzəri və təcrübi elmi fəaliyyətindən bəhs olunur. Qafqaz Albaniyasının paytaxtı qədim Qəbələ şəhərinin xarabalığlarında apardığı arxeoloji tədqiqatların nəticələri müəllifin elmi əsərlərində öz əksini tapıb. Məqalədə həmçinin bu bölgədəki arxeoloji qazıntıların qısa icmalı verilir.

Qeyd edilir ki, Saleh Qazıyevin rəhbərliyi ilə yetmişdən artıq arxeoloji ekspedisiya və səfər həyata keçirilmiş, həmin tədqiqatların nəticələri çoxsaylı elmi nəşirlərdə işıq üzü görmüşdür.

Saleh Gaziyev

İs one of the oldest archaeologists who made an invaluable contribution to the study of the material and spiritual culture of ancient Gabala

Summary


Key words: *Saleh Kaziyev, Museum, Gabala, Caucasus Albania, archeological excavations*

The article deals with the theoretical and experimental scientific activity of well-known Azerbaijan archaeologist, well-educated, knowledgeable, serious and persistent researcher Saleh Gaziyev. It was informed on the archeological woks and fundings of the ruins of the ancient Gabala city which was the capital of the Caucasian Albania. The article provides a brief overview of the archeological excavations conducted in this region.


It is noted that more than seventy archaeological expeditions and visits were conducted under the leadership and participation of Saleh Gaziyev, the results of which constituted the basis of more than half scientific works published in various scientific publications.



Остаток стен и башни на южной стороне Гявур кала



План древнего городища Габалы, составленный С.М. Казиевым



Археологические раскопки в Сельбире и Гала. Руководитель экспедиции С.М. Казиев 1959-1964 гг.

Anar Ağalarzadə, Mətanət Hüseynova, Aslan Qasımov

Yardımlı rayonu ərazisindəki son tunc-erkən dəmir dövrü qəbir abidələri (Alar və Arvana kəndlərinin materialları əsasında)

Açar sözlər: *Kurqan, daş qutu qəbir, Son Tunc-Erkən dəmir dövrü*

UOT-902

Yardımlı rayonu arxeoloji abidlələrlə zəngin olan bölgələrdən biridir. Rayon ərazisində yayılmış arxeoloji abidələrin əksəriyyəti tunc-antik dövr abidələridir. Bu dövr abidələrinin geniş yayılmasının səbəbi də məhz ərazidə tarixən yaylaq maldarlığı ilə məşğul olan tayfaların yaşamasıdır.

2014-cü il çöl tədqiqatları mövsümündə Yardımlı rayonu ərazisindəki arxeoloji tədqiqatlar zamanı kəşfiyyat xarakterli qazıntılar üçün hədəf olaraq Sarıbulaq yaylaqlarındakı daş qutu qəbirləri nekropolu seçilmişdir. Sarıbulaq nekropolu Alar kəndindən 7 km şimal-qərbdə, yaylaqlarda, geniş bir düzən yerdə, dəmyə əkin sahələrinin ətrafında yerləşir. Nekropolu Alar kəndinə gedən torpaq yol 2 hissəyə bölmüşdür. Burada irili-xırdalı sal daşların mövcudluğu sahənin əkin yerlərinə çevrilməsinə imkan verməmişdir. Kəşfiyyat qazıntıları zamanı 3 qəbir tədqiq olunmuşdur. Bunlar aşağıdakılardır:

1 №li qəbir - 3,30x1,20 m ölçülü olub şərq-qərb istiqamətlidir. Qəbirin yan və aşağı-yuxarı tərəflərində yastı və enli sal daşlar qoyulmuş və üst örtüyü isə daşlara perpendikulyar şəkildə düzülmüşdür. Qəbirin qazıntısı 70 sm dərinliyə çatdırılmışdır. Dəfn prosesinə aid skelet və salamat vəziyyətdə qəbir avadanlığı aşkar edilməsə də, lakin bir neçə ədəd saxsı fraqmentləri əldə edilmişdir. Bunlar qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmiş hər hansı bir saxsı qablara məxsus fraqmentlərdir. Dəfn abidəsi dəniz səviyyəsindən 1942 m hündürlükdə tapılıb. Onun coğrafi yerləşmə koordinatları: **N - 370 77/ 37,0//; E - 0480 01/ 39,3//.**

2 №li qəbir - sərdabə tipli olub 8,50x3,50 m ölçülüdür. Şimali-qərb-cənubi-şərq istiqamətli qəbirin yan tərəflərində iri və yastı sal qaya daşlarından ibarət qutu formalı düzüm vardır. Üst hissəsinin örtük üçün sal daşları da 3 ədəd olub

lakin xaotik vəziyyətdə yanlara düşmüşdür. Çox ehtimal ki, bu qəbir vaxtilə qədim dövrdə qarət olunmuşdur. Qəbir dəniz səviyyəsindən 1957 m yüksəklikdə aşkar edilib. Onun coğrafi yerləşmə koordinatları: **N - 370 77/ 79,0//; E - 0480 01/ 40,1//.**

3 №li qəbir - kəndə gedən yolun sol tərəfində, dağın ətəklərində yerləşir. Nekropolun burada salınmış hissəsinə çox yaxın müsəlman qəbristanlığı vardır. Eynilə 2 №li qəbir kimi sərdabə tipli olan bu dəfn abidəsi şimali-qərb-cənubi-şərq istiqamətlidir. Uzunluğu 5,50 m, eni 80 sm olan qəbirin qazıntısı xam torpağına kimi, yəni 1,20 m dərinliyə qədər davam etdirilmişdir. Qəbir kamerasının döşəməsinə nazik lövhəli qaya daşları qoyulmuşdur. Ətrafında olan sal daşlar içəri tərəfdən yonularaq nisbətən hamarlanmışdır. Sərdabənin üst hissəsinə perpendikulyar olaraq 4 ədəd iri sal qaya daşları örtülmüşdür. Çox ehtimal ki dəfn, bu yerdə təbii halda qalmış daşların daxilində icra edilmiş, lakin bir qədər yonulmaqla müəyyən formaya salınmışdır. Qəbir kamerasının daxilindən 1 m dərinlikdən insana məxsus yalnız bud sümükləri tapılmışdır. Eyni zamanda saxsı qab fraqmentləri, tuncdan bəzək əşyaları, daş və muncuqlar əldə edilmişdir. Dəfn abidəsi dəniz səviyyəsindən 1967 m yüksəklikdə aşkar edilib. Qəbirin coğrafi yerləşmə koordinatları belədir: **N - 370 77/ 69,0//; E - 0480 02/ 03,6//.** Qəbirdən aşkar edilmiş maddi mədəniyyət nümunələri aşağıdakılardır:

1. Küpə - orta tutumlu olub qabın ağız fraqmentindən ibarətdir. Gen və yana qatlanan ağzı, daralan çiyni və şarşəkilli gövdəsi vardır. Ağız kənarı bişirilmədən əvvəl burma şəklində naxışlanmışdır. Qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmiş qabın səthinə ağ anqob qatı çəkilib. Dulus çarxında fırlanmanın izi daxilində aydın seçilir. Ağzının diametri - 25, 5 sm, divarının qalınlığı - 5 mm-dir.

2. Kasa - kiçik həcmli olub qabın bir hissəsidir. Nazik divarlı, qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmiş qab şarşəkilli gövdəyə və ovalvari altlığa malikdir. Əldə kobud formalaşdırıldığı ağız kənarının qeyri-simmetrikliyindən aydın seçilir. Sadə biçimli ağız kənarının bayır tərəfindən bir-birindən 3-4 sm aralı düyməşəkilli yapma bəzəklər vurulmuşdur. Qabın bir tərəfində salamat qalmış 4 ədəd bu yapma bəzəyin olduğunu nəzərə alsaq, deməli onların ümumi sayı 8 ədəd olmuşdur. Yapma bəzəklərin simmetrikliyi çox aydın seçilir. Ölçüləri: ağ.d. - 12,8 sm, hün. - 5,5 sm, div.qal. - 5 mm-dir.

3. Boşqab - qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmiş qab orta həcmli olub nisbətən dərindir. Ağız kənarı nazik divarlı olub yana geniş açılır. Ağız kənarının bu formaya salınmasından bayır tərəfdən kanalvari çökəkliyi əmələ gəlmişdir. Oturacağı dairəvi və yastıdır, az çıxıntılıdır, dabanlıdır. Səthinə ağ rəngli anqob qatı çəkilərək yaxşı hamarlanmışdır. Dulus çarxında fırlanmanın izləri qabın daxilində aydın seçilir. Nisbətən salamat qalan qab bərpa edilmişdir. Ölçüləri: ağ.d.- 22,5 sm, hün. - 6 sm, ot.diam. - 8,5 sm, div.qal. - 8 mm-dir. Bu tipli boşqabın analogiyalarına İranın Talış vilayətinin Xalxal və Miyanə yaxınlığındakı e. ə. I minilliyin sonlarına aid Vaskə qəbir abidələrində rast gəlinir (8, 26).

4. Vaza - boz rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmiş qabın orta tutumlu olması ehtimal edilir. Hündür dabanlı olub içəri tərəfi enli və dayazdır. Səthi hamarlanmışdır. Fraqment halında aşkarlandığı üçün qabın tam ölçüsünü vermək mümkün olmamışdır. Divarının qalınlığı 7 mm-dir.

5. Saxsı qabın gövdəsi - kiçik həcmli küpəyə məxsusdur. Qırmızı rəngli, təmiz tərkibli gildən yaxşı bişirilmiş qabın səthi hamarlanmışdır. Gövdənin ortasını çıxıntışəkilli kəmərvari xətt qurşaqlayır. Eyni zamanda bu xəttin üstündə bişirilmədən əvvəl çəpinə formada burmaşəkilli naxışlar çəkilib. Divarının qalınlığı - 5 mm-dir.

6. Saxsı qabın oturacağı - qalın divarlı, qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmiş qaba məxsusdur. Orta həcmli olduğu ehtimal edilir. Oturacaq hissəsi nahamardır. Divarının qalınlığı - 6 mm-dir.

7. Daş əşya - tünd qonur rəngli, sıx tərkibli çaydaşından hazırlanmış əşyanın yarı hissəsi. Dairəvi formalı əşyanın alt tərəfi yastıdır və sınmışdır. Üst və yan tərəfləri uzunmüddətli istifadədən yaxşı hamarlanıb. Orta hissəsindən ikitərəfli dəlik açılmışdır. Əşyanın diam. - 7,2 sm, hün. - 2,2 sm, dəliyin diam. - 1,2 sm-dir. Hansı məqsədlə istifadəsi məlum deyildir.

8. Tunc sancaq - dairəvi en kəsikli, papaqşəkilli başlıqlı və iti uclu sonluğa malikdir. Başlıq hissəsi şəbəkəli, ondan 2,5 sm aşağıya doğru isə dairəvi xətlərdən ibarət naxışlıdır. Bu hissədə ikitərəfli deşik açılmışdır. Ehtimal ki, bu dəlik digər əşya ilə bir-birinə sıx bərkidilməsi üçün hazırlanmışdır. Əşyanın uzunluğu - 12,5 sm-dir. Bu tipli sancaqlar Muğandakı Uzuntəpə qazıntılarından (5, 37-38) və İranın Talış vilayətinin Tüli-Gilan ərazisindəki e. ə. I minilliyin erkən dövrlərinə aid daş qutu qəbirlərdən məlumdur (8, 35; 2, 294).

9. Tunc üzük - yastı və enli lövhədən hazırlanmış bəzək əşyası sadə formalıdır. Əşyanın diametri - 2,5 sm-dir.

10. Tunc iynə - Nazik tunc məftildən hazırlanmış iynə fraqmenti. Dairəvi en kəsiklidir. Salamat qalmış hissənin uzunluğu - 2 sm-dir.

11. Muncuqlar - 11 ədəd olub onlardan 1 ədədi tuncdan, 1 ədədi qırmızı əqiqdən, 1 ədədi kauridən (qarnıyarıq), 1 ədədi yaşıl pastadan, 6 ədədi ağ pastadan və 1 ədədi gildən hazırlanmışdır. Tuncdan hazırlanmış muncuq dairəvi olub boruşəkillidir. Qırmızı əqiq muncuq da həmçinin dairəvi en kəsikli olub yastıdır. Gildən hazırlanmış muncuq nisbətən iridir. Bu muncuğun analoqu İran ərazisindən də məlumdur (4, 296). Yaşıl və ağ pasta muncuqlar çəlləkvari formalı olub yaxşı hazırlanmışdır. "Misir pastası" adlanan bu tipli bəzək əşyaları Divəlonadan da tapılmışdır (3, 51-55).

Alar kəndinin cənub-şərq tərəfində təxminən 1 hektara yaxın sahədə xeyli sayda daş qutu qəbirlərin salındığı Gavurqəbirləri nekropolu yerləşir. Yerli sakinlərin dediyinə görə XX əsrin 90-cı illərində bu qəbirlər "qızılaxtaranlar" tərəfindən məhv edilmişdir. Demək olar ki, nekropolda qəbirlərin salamat qalması ehtimalı azdır. Dağıdılmış qəbirlərin üst örtüyü yanlara atılmış vəziyyətdə səpələnmişdir.

Nekropol dəniz səviyyəsindən 1524 m hündürlükdə yerləşir. Onun coğrafi yerləşmə koordinatları belədir: **N - 370 81/ 81,0//; E - 0480 00/ 87,5//.**

Kənddən 2 km cənubda Alar mağarası adlanan abidə yerləşir. Mağaranın üstündə geniş bir düzən sahə vardır. Bu sahə son vaxtlara qədər əkin yeri kimi istifadə edilmişdir. Sahədə bir neçə yerdə sıx şəkildə daş tökümü olan, üstü örtülü, yanları təbii düzümlü daşlardan ibarət qəbirlər salınmışdır. Seyrək halda salınmış qəbirlərin ölçüsü 2,70x1,50 m-dir. Dəniz səviyyəsindən 1884 m yüksəklikdən tapılan qəbirlərin coğrafi yerləşmə koordinatları belədir: **N - 370 83/ 09,0//; E - 0480 00/ 29,1//.**

Vaxtaşırı olaraq həm Gavurqəbirləri, həm də Alar mağarasının yaxınlığındakı daş qutu qəbirləri nekropolundan dağıntılar zamanı tapılan arxeoloji maddi mədəniyyət nümunələri kənd sakinləri tərəfindən toplanılmışdır. Bu materiallardan bir qismi Alar kənd orta məktəbinin tarix müəllimi Yusif Bəxtiyar oğlu Əliyevin evində saxlanılır. Tədqiqatlar zamanı bu artefaktlara da baxış keçirilmiş və onların təyinatı aparılmışdır. Dağıdılmış qəbirlərdən tapılan materiallar aşağıdakılardır:

1. **Küpə** - açıq-qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilmişdir. Dar ağızlı, armudvari gövdəli, yastı oturacaqlı qabın boğaz hissəsindən şaquli istiqamətdə zəif cilalı naxışlar çəkilmişdir. Ağzı sınmış olsa da demək olar ki, digər hissəsi salamatdır. Onun ölçüləri: hün. - 30 sm, göv.diam. - 25 sm, ot.diam. - 15 sm-dir.
2. **Miniatür formalı küpə** - qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilib. Yana açılan ağız kənarı zəif köbəlidir. Şarşəkilli gövdəsi və yastı oturacağı vardır. Ölçüləri: ağ.diam. - 6 sm, hün. - 8 sm, göv.diam. - 7,5 sm, ot.diam. - 5 sm-dir.
3. **2 qulplu balaca küpə** - qalın divarlı olub tünd qonur rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilib. Qabın şarşəkilli gövdəsi, az çıxıntılı-dabanlı oturacağı vardır. Ağız kənarı zəif köbəli olub xaricə qatlanmışdır. Ağız kənarı ilə çiynini hər iki tərəfdən dairəvi en kəsikli qulp birləşdirir. Qulplardan birinin üstündə çıxıntışəkilli, digər qulpun üstündə isə kanalvari və düyməşəkilli yapma naxış vardır. Qab salamat vəziyyətdə tapılıb. Onun ölçüləri: ağ.diam. - 6,5 sm, hün. - 8 sm, göv.diam. - 12 sm, ot.diam. - 7 sm-dir.
4. **Balaca küpə** - qalın divarlı, açıq-qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilib. Qabın ağız kənarı yana geniş açılıb. Əldə kobud formalaşdırılan küpənin gövdəsi nahamar, lakin şarşəkillidir. Oturacağı yastı və enlidir. Ölçüləri: ağ.diam. - 7,5 sm, hün. - 10 sm, göv.diam. - 10 sm, ot.diam. - 8 sm-dir.
5. **Bardaq** - qırmızı rəngli, təmiz tərkibli gildən yaxşı bişirilmiş dar boğazlı qabın divarı qalındır. Ağız kənarı köbəli olub yana açılır. Boğaz hissəsi çiyninə kəskin keçidlidir. Gövdəsi şarşəkilli olub oturacağa doğru kəskin daralır və oturacağı yastıdır. Qabın ağız kənarı ilə çiynini dairəvi qulp

birləşdirir. Ölçüləri: ağ.diam. - 10 sm, boğ.hün. - 7 sm, hün. - 29 sm, göv. diam. - 22 sm, ot.diam. - 13 sm-dir.

6. **Daş əşya** - bozumtul rəngli, sıx tərkibli qum daşından hazırlanmışdır. Dairəvi formalıdır. Ortasında 5 sm diametrində ikitərəfli dərin oyuq açılmışdır. Uzunmüddətli istifadə nəticəsində əşyanın yanları cilalı şəkil almışdır. Bütövdür. Diametri - 13 sm, hündürlüyü - 8,5 sm-dir.

Ümumiyyətlə, daş qutularda dəfn etmə adəti ilk dəfə erkən tunc dövründə meydana gəlir. Sonrakı orta və son tunc dövlərində, daha sonra ilk dəmir dövründə onlar bütün Qafqazda aparıcı dəfn tiplərindən birinə çevrilir. Bu qəbir tipi xüsusən Talış-Muğanda, Azərbaycanın son tunc-ilk dəmir dövrünün Xocalı-Gədəbəy arxeoloji mədəniyyətində, elə həmin dövrün Dağıstandakı Qayakənd-Xoroçoyevsk mədəniyyətində, Şimali Qafqazın Koban mədəniyyətində qəbirlərin əsas tipi hesab edilir. Son tunc-ilk dəmir dövrünün daş qutu qəbirlərində dəfnlər, həmçinin Gürcüstanın və müasir Ermənistanın ərazilərindən də yaxşı məlumdur (4, 131).

Bölgədə dəmir və antik dövr daş qutu qəbirlərinin qarışıq olduğunu nəzərə alsaq bu baxımdan qəbirlərdən aşkar olunan materialların təhlilinə ciddi ehtiyac vardır. Nəzərə alsaq ki, artıq dəmir dövründən antik dövrə keçid mərhələsində istehsalatda ciddi dəyişikliklər baş verməsə də, lakin bəzi məqamlara aydınlıq gətirilməsi lazımdır. Q.Qoşqarlının fikrincə, "...antik dövrün daş qutulardakı dəfni qədim dəfn ənənəsinin davamıdır və buna görə də antik daş qutular öz quruluş xüsusiyyətinə görə əvvəlki dövrün daş qutularına olduqca yaxındırlar. Çox vaxt antik dövrdə bu tip qəbirlərin lokal xüsusiyyətləri də saxlanılır. Belə ki, Talış-Muğan zonasında son tunc-ilk dəmir dövründə iki bölmədən ibarət daş qutulara təsadüf olunur. Birində ölən adam, digər bölmədə isə dəfn avadanlığı yerləşdirilir. Həmin zonanın antik dövr daş qutularında bu ənənə saxlanılır ki, bunu da Xanbulaq və Peştəsər qəbiristanlıqlarının nümunəsində görmək olar" (4, 132) və aparılmış təhlillərdən belə bir nəticəyə gəlinmişdir ki, antik dövrdə Azərbaycanın və bütün Cənubi Qafqazın ərazisində xronoloji cəhətdən sabit və yayılmış qəbir tiplərindən biri də daş qutularda dəfnetmə olmuşdur. Əslində onlar bu regionda tunc dövründə təşəkkül tapmış dəfn adəti ənənəsini davam etdirir ki, bu da yerli ənənənin dayanıqlığından və Azərbaycanın avtaxton əhalisinin bir çox nəsilləri tərəfindən yaradılan maddi və mənəvi mədəniyyətinin irsiliyindən xəbər verir (4, 132).

Son illərdə də daş qutu qəbirlərin tədqiqi Azərbaycanın qərb bölgəsində həmdövr abidələrdə aparılan qazıntılar zamanı qeydə alınmışdır. Gədəbəy rayonunun İvanovka kəndi yaxınlığındakı Arabaçı kəndi ərazisində, eyniadlı çayın sağ sahilində aşkarlanmış Xocalı-Gədəbəy mədəniyyətinə aid bir nekropol təxminən 6-10 sot sahəni əhatə edir (1, 148). T.Göyüşova bu bölgədə yerli əhalinin adətən son tunc-erkən dəmir dövrünə aid olan daş qutu qəbirlərə oğuz qəbirləri dediklərini qeyd edir. Lakin tədqiqatçı bu qəbirlərdə arxeoloji qazıntı işləri aparmadan və qəbir materialları əldə etmədən onların dəqiq dövrü barədə məlumat verməyin bir qədər

çətin olduğunu söyləyir (1, 149).

Qeyd olunduğu kimi, bölgənin daş qutu qəbirlərinin yaxın analogiyasını İran ərazisində də axtarmaq lazımdır. Çünki XIX əsrin sonlarında Morqan Azərbaycan ilə yanaşı İran ərazisində də (1888-1901-ci illər) qazıntılar apararaq burada çoxlu sayda daş qutu qəbirləri qeydə almış və onları e. ə. II minilliyin ikinci yarısı - I minilliyin əvvəllərinə aid etmişdir (8, 11). XX əsrin 90-cı illərində isə M.R.Xələtbərinin Xəzərin cənub-qərb tərəfində, Gilan vilayətindəki Talış rayonu ərazisində daş qutu qəbirləri nekropollarında apardığı arxeoloji qazıntılar (8) nəticəsində əldə olunan materiallar müqayisələr üçün çox maraqlı faktlar verir. Şəfirud vadisindəki Miyanrud, Şakiri-Dəşt rayonu ərazisindəki Asbsara, Cənubi Kəngərud vadisi yaxınlığındakı Mariyan, Tündvin, Tüli-Gilan və Küramar kəndlərindəki daş qutulardan və dolmen qəbirlərdən tapılan artefaktlar yaxın analogiyalarını burada tapır (8, 11-18). Tədqiqatçı eyni zamanda Təndabin və Mariyan daş qutu nekropollarına əsasən qeyd edir ki, bu ərazilər əkinçilik, yaylaq maldarlığı və xarici hücumlardan qorunmaq üçün kifayət qədər əlverişli yerlər olmuşdur. Onun fikrincə, vaxtilə dəmir dövrünün ilkin mərhələsində Qafqazda yaşayan tayfaların məskunlaşdığı dənizkənarı ərazilər subasmalara səbəb olmuş və bunun nəticəsində onlar İran yaylaqlarına gələrək Gilan ərazisindəki yüksəkliklərdə məskən salmışlar (2, 23).

Bölgənin son tunc-ilk dəmir dövrü kurqanları da kifayət qədər geniş bir ərazidə yayılmışdır. Alar kəndi yaxınlığındakı Sarıbulaq və Dərəkeçməz yaylaqlarında onlarla belə abidələr mövcuddur. Arxeoloji kəşfiyyat işləri zamanı təkcə Sarıbulaq yaylağında 30-dan çox kurqanlar qeydə alınmışdır. Müxtəlif ölçülü bu kurqanların yerləşmə xüsusiyyətləri də maraqlıdır. Belə ki, kurqanlar şərq-qərb istiqamətində ardıcıllıqla düzülmüş vəziyyətdədirlər. Demək olar ki, onların böyük əksəriyyəti salamat qalmışdır. Kənd sakinlərinin dediyinə görə, bir neçə il bundan əvvəl kurqanlardan ikisi mərkəzi hissəsindən dağıdılmış və qəbirdən insan sümükləri, tunc xəncər, tuncdan bəzək əşyaları, muncuqlar və saxsı qablar tapılmış və uğursuz "qızıl" axtarışı digər kurqanların salamat qalmasına səbəb olmuşdur.

Kəşfiyyat işləri zamanı kurqanlardan bir neçəsinin qeydiyyatı aparılmışdır. Kurqanlardan birinin diametri 13 m, hündürlüyü 1 m olub üst örtüyü daş tökülmüş və ətrafına kromlexi düzülmüş qəbir abidəsidir. Qəbirin mərkəzindəki kamerası aydın seçilir. Bu hissədə qəbir kamerası şərq-qərb istiqamətli olub yanları qaya daşlarından ibarət qutu formasındadır. Kurqan dəniz səviyyəsindən 1964 m yüksəklikdə yerləşir. Onun coğrafi yerləşmə koordinatları: **N - 370 77/ 74,0//; E - 0480 01/ 97,3//.**

Digər kurqan da əvvəlki kurqan kimi eyni ölçüyə malik olub, lakin daş tökümü və kromlexi ilə nisbətən fərqli xüsusiyyətləri vardır. Belə ki, kurqanın ətrafına tökülmüş daşlar xırda ölçülüdür. Qəbirin mərkəzi kamerasının üstündə isə seyrək şəkildə xırda çay daşlarından ibarət töküm əmələ gətirilmişdir. Bu kurqan dəniz səviyyəsindən 1967 m hündürlükdədir. Onun coğrafi yerləşmə koordinatları belədir:

N - 370 77/ 76,2//; E - 0480 02/ 00,3//.

Yardımlı rayonunun Arvana kəndi yaxınlığındakı Komanı yaylağında da onlarla bu tipli və həmdövr kurqanlar mövcuddur. Əfsuslar olsun ki, kurqanlardan bir neçəsi XX əsrin 90-cı illərində İran ərazisindən gələn "qızılaxtaranlar" tərəfindən dağıdılaraq qarət edilmişdir. Dağıdılmış bir kurqanın mərkəzi qəbir kamerasında nəhəng çala əmələ gəlmiş və ətrafa xeyli sayda insan sümükləri və saxsı qablara məxsus fraqmentlər səpələnmişdir. Bu saxsı fraqmentləri qara və boz rəngli gildən yaxşı bişirilmiş, iri və narın qum qatışıqlı tərkibə malikdirlər. Bəzilərinin üstü hamar, bəzilər isə zəif cilalıdır. Oturacaq və gövdə fraqmentlərinə əsasən saxsıların son tunc-ilk dəmir dövrünə aid olması ehtimal edilir.

Qeyd etdiyimiz kimi, Komanı yaylaqlarında yerləşən kurqanlar müxtəlif ölçülüdürlər. Demək olar ki, bu qəbir abidələri də sanki bir cərgədə salınmaqla şimali-şərq-cənubi-qərb istiqamətində düzülmüşdür. Kurqanlardan birinin diametri 20 m, hündürlüyü 1 m-dir. Əsasən ətrafı sıx şəkildə daş düzümlü kromlexlərdən ibarət olub, mərkəzi qəbir kamerasının üstünə irili-xırdalı çay daşları tökülmüşdür. Qəbir abidəsi dəniz səviyyəsindən 2077 m hündürlükdə yerləşir. Onun coğrafi yerləşmə koordinatları: N - 370 70/ 00,4//; E - 0480 06/ 89,3//.

Yaylaqda kiçik ölçülü kurqanlar da mövcuddur. Onlardan biri 5x5 m ölçülü olub, hündürlüyü 40 sm-dir. Kurqanın üstü bütünlüklə xırda çay daşlarından ibarət sıx örtüklüdür. Dəniz səviyyəsindən 2093 m hündürlükdə olan qəbir abidəsinin coğrafi yerləşmə koordinatları belədir: N - 370 69/ 81,6//; E - 0480 06/ 59,9//.

S.Korenevski tunc dövrünə aid daş quruluşlu və hündürlüyü 1 metrə qədər olan kurqanları kiçik ölçülü kurqanlar adlandırır (6, 8) və Mərkəzi Zaqafqaziya ərazisində bu tipli qəbir abidələrinin geniş yayıldığını qeyd edir (6, 34). Bəzi tədqiqatçılar bu tipli kurqanların analoqlarını Qafqaz və Yaxın Şərqin materialları ilə müqayisə edirlər (7, 65).

Beləliklə, məqalədə yazılan fikirlərdən belə bir ümumi nəticəyə gəlmək olur ki, Azərbaycanın cənub bölgəsinin Tunc - Erkən Dəmir dövrü cəmiyyətlərinin maddi mənəvi mədəniyyəti zəngin olmuşdur. Qədim tayfaların təsərrüfat həyatı, dəfn adətləri və dini inancları haqqında tutarlı sübutlar verə biləcək arxeoloji abidələrin zənginliyi mühüm faktorlardan biridir. Gələcəkdə Yardımlı rayonu ərazisindəki Tunc - Erkən dəmir dövrü abidələrinin – yaşayış məskənləri və qəbir abidələrinin geniş tədqiqi bölgədə e. ə. III-I minilliklərdə məskunlaşmış qədim tayfaların maddi mədəniyyəti, həyat tərzi haqqında kifayət qədər zəngin məlumat verəcəkdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Göyüşova T.N. Gədəbəy rayonunda aparılmış arxeoloji tədqiqatlar// Azərbaycanda arxeoloji tədqiqatlar 2012. Bakı 2013, səh. 145-149.
2. Xələtbəri M.R. Talış vilayətindəki arxeoloji qazıntıların nəticələri (Təndabin və Mariyan nekropollarının materialları əsasında)// Gilan 1383, 297 səh, (fars dilində).
3. Mahmudov F.R., Kəsəmənli H.P. Lənkəran yaxınlığındakı qədim qəbristanlıq haqqında// Azərbaycan SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası. Bakı, 1974, №4, s. 47-56.
4. Гошгарлы Г. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку, Элм 2012, 248 ст.
5. Джафарзаде И.М. Элементы археологической культуры древней Мугани// Изв. АН Азерб. ССР, 1946, №9, с. 21-51.
6. Короневский С.Н. Раскопки курганов Предкавказя. Москва 2011, 52 ст.
7. Мимоход Р.А. Курганы эпохи бронзы - раннего железного века в Саратовском Поволжье. Москва, Таус 2009, 292 ст.
8. Khalatbari M.R. A report in Occasion of the Second Congress for Talish// Culture and civilization. Gilan 2007, 60 pag.

Anar Aghalarzadeh, Metanet Huseynova, Aslan Gasimov
Late Bronze and Early Iron Age grave monuments
in the territory of Yardimli district

Summary

Keywords: *kurgan, stone box graves, The Late Bronze and Iron Age*

In in 2014, archaeological investigations were carried out by us in stone box grave necropolis and kurgans in Saribulaq, Arvana and Derekechmez summer pastures in Yardimli region. During the exploratory excavations 3 stone box graves were researched and interesting findings were revealed. According to G.O.Goshgarly, Ancient burial in stone boxes is the continuation of the old burial traditions and therefore, the ancient stone boxes for structural features are pretty close to the stone boxes of the previous periods.

The late Bronze Age and early Iron Age kurgans of the region spread over a fairly wide area. During archaeological research only in Saribulag and Komanly summer pastures have been recorded more than 30 kurgans. As the late Bronze and early Iron Age kurgans of the south-east region have not been fully explored in the scientific literature have given perfunctory imformation about some of them.


Анар Агаларзаде, Метанет Гусейнова, Аслан Гасимов

Погребальные памятники поздней бронзы и раннего железа на территории Ярдымлинского района


Резюме

Ключевые слова: *курган, могильники из каменных ящиков, эпоха поздней бронзы и раннего железа*


В 2014 г. были проведены археологические исследования курганов и некрополей каменных ящиков на яйлагах Сарыбулаг, Арвана и Дерекечмез в Ярдымлинском районе. Во время разведочных раскопок были исследованы 3 каменных ящика, содержащие интересные находки. По мнению Г. О. Гошгарлы, погребения в каменных ящиках эпохи античности являются продолжением древней традиции погребения и поэтому античные каменные ящики по особенностям своей структуры близки к каменным ящикам предыдущих эпох. Курганы этого региона эпохи поздней бронзы-раннего железа также достаточно распространены на обширной территории. В ходе археологических работ только на яйлагах Сарыбулага и Команы было выявлено свыше 30 курганов. Из-за недостаточного изучения курганов эпохи поздней бронзы-раннего железа юго-восточного региона в научной литературе о некоторых из них существуют лишь поверхностные сообщения.



Şəkil 1
Daş qutu qəbirlər



Şəkil 2
Arxeoloji materiallar



Şəkil 3
Kurqanlar



Şəkil 4
Təsadüfü tapıntılar

Sənurə Dostiyeva

XVI əsr Qərbi Avropa səyyahları Azərbaycanın pul dövriyyəsi haqqında

Açar sözlər: *Səfəvilər dövləti, beynəlxalq ticarət əlaqələri, pul dövriyyəsi, şahi, bisti.*

UOT 902

XV əsrin sonuncu onilliyindəki Böyük coğrafi kəşflər (Yeni dünyanın kəşf olunması və Vasko da Qamanın Ümid Burnuna gedib çıxması) XVI əsrdə beynəlxalq münasibətlərdə və beynəlxalq ticarətdə köklü dəyişiklikləri şərtləndirən amillərdən oldu. XVI əsrdə beytnəlxalq ticarətdə Azərbaycan şəhərləri əhəmiyyətli rol oynamaqda idilər. Sultan II Mehmedin Konstantinopolu fəth etməsi və Osmanlı dövlətinin paytaxtına çevirməsi ilə Avropa-Asiya ticarətində Təbriz şəhərinin mühüm ticarət mərkəzi kimi əhəmiyyəti daha artdı. Avropa səyyah və tacirləri Təbrizi "ticarət şəhəri" adlandırırdılar. Tədqiqatçılar, IX-X əsrlərdə Yaxın Şərq və Şimal ölkələri arasında sıx ticarət dövrü istisna olunarsa, XVI-XVII əsrlərdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrinin ən yüksək səviyyəyə çatdığının bildirirlər (5, s. 44). Yazılı mənbələr bu dövrdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrinin genişləndiyini təsdiqləyir. Avropa manufakturalarının xammala, xüsusilə ipəyə, pambığa və dəriyə böyük ehtiyacı vardı. Həmin məhsulların satış bazarı isə Təbrizdə cəmləşmişdi. Bu dövrdə Qərbi Avropa ölkələrinə həmçinin Azərbaycan nefti daşınırdı (3 s.122). Əsas ticarət obyekti Azərbaycan ipəyi idi. Avropanın kapitalist, manufaktura sənayesi Azərbaycanda bol istehsal edilən ipəyə kəskin ehtiyac duyurdu. Onun ixracını inhisara almaq uğrunda ingilis, venetsiyalı, türk və rus tacirləri arasında mübarizə gedirdi. Azərbaycan dünya bazarını xammal ilə təchiz edən başlıca tədarükçülərdən biri idi (2, s.282). Digər tərəfdən Avropanın təşəkkül tapmaqda olan kapitalist sənayesi özünün manufaktura mallarını satmaq üçün əlverişli bazarlar əldə etməkdə maraqlı idi (2, s.286). XVI əsrdə osmanlı-səfəvi müharibələri Azərbaycan, Suriya və Türkiyə ərazilərindən keçən beynəlxalq ticarət

yolunun fəaliyyətinə ciddi əngəl törədirdi. Bununla belə Osmanlı imperiyasının həmin ticarət xəttini və onun başlıca mərkəzlərini nəzarət altına almaq niyyəti XVI əsrin 70-ci illərinədək uğursuz olmuşdu (7, c.12). Azərbaycan bazarlarında mövqelərini möhkəmlətmək, Gilan və Şirvan ipəyinin Avropaya aparılmasında inhisar əldə etmək uğrunda mübarizə bir çox Avropa ölkəsini Türkiyə ərazisindən yan keçməklə yeni beynəlxalq ticarət magistralını axtarmasını şərtləndirdi. Belə ticarət magistralı Volqa-Xəzər ticarət yolu oldu. 1555-ci ildə Londonda ingilis ticarət kapitalının iri nümayəndələri tərəfindən təsis olunan "Moskva şirkəti" bu ticarətdə fəal idi (7, c.12-13; 2, s.287).

Azərbaycanın Qərbi Avropa dövlətləri ilə ticarət əlaqələrini numizmatik materiallar da təsdiq edir. Məsələn, Azərbaycanda aşkara çıxarılmış Mirik pul dəfinəsi 1541-1572-ci illərdə zərb edilmiş Qərbi Avropa talerlərindən ibarətdir.

Dəfinədəki sikkələr Avropanın müxtəlif ölkələrində: Almaniya (Şvabiya, Bohemiya, Bavariya, Friziya, Saksoniya, Köln, Drezden, Nürnberq, Hamburq və s.), Avstriya, İsveçrə (Sürix), Belçika (Lyoj) və başqa ölkələrin knyazlıqlarında zərb edimişdi (8, c. 71-85). Mirik pul dəfinəsini araşdıraraq Y.A.Paxomov haqlı olaraq qeyd edir ki, bu sikkələr "özünün müxtəlifliyi ilə ipək sayəsində indiki Qafqaz Azərbaycanı ərazisi ilə Qərbi Avropanın orta hissəsi arasında XVI əsrdə mövcud olmuş iqtisadi əlaqələri yaxşı səciyyələndirir" (8, c. 85).

XVI əsr Qərbi Avropa səyyahları Azərbaycan bazarları, başlıca ixracat malları, burada satılan rəvac Avropa malları haqqında məlumat verməklə yanaşı həm də Səvəfilər dövlətinin pul-çəki sistemi, əsas sikkə nominalları, onların Avropanın əsas pul vahidləri ilə nisbəti haqqında böyük elmi əhəmiyyətə malik informasiya verirlər. Bu nöqteyi-nəzərdən XVI əsrdə Səvəfilər dövlətində öz mövqelərini möhkəmlətmək uğrunda mübarizə aparan Venesiya və İngiltərə tacirlərinin Azərbaycan iqtisadiyyatı, Səfəvilər dövlətinin pul dövriyyəsi haqqında məlumatını araşdırmaq xüsusi aktuallıq kəsb edir.

Şah I Təhmasibin sarayında olmuş venesiyalı Mikele Membre Təbriz şəhərindən bəhs edərkən, burada dövriyyədə olan sikkələr haqqında məlumat verərək yazır: "Təbriz şəhəri barədə hekayətimə qayıdaraq, onun pulu barədə demək istəyirəm ki, bu, bir yarım sazo çəkisində olan gümüş aspradır. Bu puldan altısının bir qızıl dukata bərabər olanını şahi adlandırırlar. Onlar türk axcasına oxşar, baqatin böyüklükdə qazibəyi adlandırdıqları mis pul və həmçinin pul adlandırdıqları bir qədər böyük sikkə hazırlayırlar. Bunlardan ikisi bir altun, 50 altun isə gümüş şahı edir; həmçinin sultanı qızıl dukat kimidir. Onların bütün sikkələri üzərindəki yazılarla təsdiq olunur."(6,s.73). Məlum olduğu kimi, aspra Mərkəzi və Şərqi Avropada dövriyyədə olmuş türk axçasının yunan adıdır. Axça Osmanlı dövlətində XIV əsrdən XIX əsrədək zərb olunmuşdur. İlk vaxtlar bir axçanın çəkisi 1,15 qr. olsa da, sonradan onun çəkisi azalmışdır. Mikele Membre altı şahinin bir qızıl dukata bərabər tutulduğunun qeyd edir. Dukat Venesiyanın qızıl pul vahidi olub 1284-cü

ildən 1797-ci ilədək zərb olunub. Dukatın çəkisi 3,5 qrama yaxın (3,44-3,45 qr.) olub bir üzündə Venesiyanın himayədarı hesab edilən müqəddəs Markdan bayrağı alan dojun təsviri, digər üzündə İsa peyğəmbərin təsviri verilib. Bu da bəlli olur ki, XVI əsrin ortalarında Səfəvilər dövlətində pul dövriyyəsində əsas vahid olan şahi 50 mis altuna bərabər idi. "Şahi" terminin mənşəyi Səfəvi dövləti ilə əlaqədar olub hökmdar titulu "şah" sözündən törəmişdir (4, s.214).

Venesiyalı səyyahın qazibəyi nominalına dair məlumatı da əhəmiyyətlidir. (1, s. 233-235).

Azərbaycan Tarixi Muzeyinin əməkdaşı olmuş A.Rəhimov şirvanşah Qazi bəy ibn Fərrux Yəssar adından zərb olunmuş sikkə barədə məlumat vermişdir (9, s.113-115).

Qeyd edək ki, Qərbi Avropa tacirləri müqayisə üçün bəzən Rusiya pul-çəki sistemində hesablama vahidi kimi istifadə olunan "altun", "altın"a müraciət edirlər. Q.A.Fyodorov-Davıdov bildirir ki, artıq XIV əsrdə "altın" Rusiyada hesablamada 6 denqaya bərabər tutulurdu. Sovet dövrünədək 3 kopeek "altın" adını daşıyırdı (12, c. 150). Mikele Membrenin məlumatı 50 mis altının 1 şahiyə bərabər tutulduğunu təsdiqləyir.

Mikele Membre həmçinin türk "sultanı" nominalını qeyd edir və onun dukata bərabər olduğunu bildirir. Bu sikkə Osmanlı dövlətində 1454-cü ildən zərb olunmağa başlamış, beynəlxalq ticarətdə geniş tətbiq olunmuşdur. Aversdə sultan tuğrası və zərb tarixi, reversdə titulların göstərildiyi, tərkibinin altıda beşi təmiz qızıl, altıda biri liqatur olan sultaninin çəkisi 3,43-3,51 qr. olmuşdur.

Ingilis səyyahı Artur Eduardsın XVI əsrin ortalarında Səfəvilər dövlətinin iqtisadi həyatı, o cümlədən pul-çəki sistemi haqqında məlumatı da bizim tədqiqat üçün olduqca əhəmiyyətlidir. Artur Eduardsın məlumatından aydın olur ki, XVI əsrin 60-cı illərində 200 şahi bir tümənə, 1 şahi 50 mis dinara bərabər idi. Bir şahi altı ingilis pensinə bərabər tutulurdu.(13, s.223-226). Bu da maraqlıdır ki, səyyah Qərbi Avropa talerlərinin Səfəvi dövlətində 10 şahiyə satıldığını qeyd edir : " ... buradakı ölkələrdən çoxlu ipək aparılır. Misal üçün, türklər bir dəfəyə 400 və ya 500 at yükü aparır, əvəzində sikkə zərbi üçün gümüş, məhz biri 10 şahiyə satılan talerlər gətirirlər. Macar dukatı 12 şahiyə alınır (13, s.233). Prof. Əli Rəcəbli ingilis səyyahının bu məlumatına diqqət yetirmiş və şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvilər dövlətində dövriyyədə olan şahinin çəkisini müəyyənləşdirməkdə bir mənbə kimi istifadə etmişdir. İngilis pensi 0,47 qr., Qərbi Avropa taleri 28 qr. olduğundan bir şahinin nominalı 2,82 qr. uyğun gəlməli idi. Amma, Səfəvi dövləti ərazisində ticarət əməliyyatlarında haqq-hesab yerli sikkələrlə aparılırdı. Xarici sikkələr aşağı kursla dəyişdirilirdi və Səfəvi zərbxanalarının gümüşlə təchizində bu sikkələrdən də istifadə olunur, onlar əridilərək yerli nominallar, o cümlədən şahi zərb edilirdi (10, c.120-121). Müvafiq olaraq, bir taler şahi ilə müqayisədə real gümüş çəkisində deyil, təxminən 23 qr. civarında qiymətləndirilirdi. Bunu nəzərə

alaraq prof. Əli Rəcəbli bir şahinin 2,33 qr. olduğunu bildirir (11, s.60). Bunu da qeyd etmək lazımdır ki, səyyah Azərbaycandan İngiltərəyə aparılmalı olan malların qiymətini şahi və bisti ilə, çəki vahidi isə batman ilə göstərmişdir:

1. Xam ipək – batmanı 60 şahi.
2. İstiot - batmanı 32 şahi.
3. Zəncəfil - batmanı 18-20 şahi.
4. Qoz (cövüz) - batmanı 30 şahi.
5. Kükürd – böyük batmanla 4 şahi. Böyük batman 12 ingilis funtuna bərabərdir.
6. Zəy – batmanı 2,5 bisti və ucuz.
7. Düyü – batmanı yarım bisti.
8. Fındıq - batmanı yarım bisti.
9. Mixək – batmanı 40 şahi." (13, c.226).

Bisti şah I Təhmasibin hakimiyyəti dövrində zərb olunmağa başlanan ən kiçik gümüş sikkə nominalı idi. Küncləri zəif dəyirmilənən düzbucaqlı, 8x13 mm ölçüdə lövhə şəkilli, 1 qrama yaxın çəkidə olan bu nominalın zərbinə nə vaxtdan başlanılıb sualına dəqiq çavab vermək çətindir. Y.A.Paxomov bisti adlı sikkələrin XVI əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərindən zərb olunduğunu vurğulasa da, başqa bir əsərində özünün təyin etdiyi bistilərdən birinin zərb ili h. 965-ci ildir (1557/8) (11, s.62). Venesiya səyyahı Vincenso Alessandrinin və ingilis səyyahı Artur Eduardsın məlumatında XVI əsrin ikinci yarısından Səfəvilər dövlətində pul dövriyyəsində işlədilən bisti haqqında maraqlı qeydlər vardır. Artur Eduards bir bistinin 2,5 ingilis pensinə və ya 3 rus pensinə ("moskovki") bərabər olduğunu, Vincenso Alessandri isə 15 bistinin 3 dukata bərabər olduğunu bildirir (13, s.226; 5, s.93). Vincenso Alessandrinin əsərində qeyd edir ki, "Heyvanlardan hər 40 qoyundan ibarət sürüdən bizim pulla 3 dukata bərabər 15 bisti məbləğində gəlir alınır..." (6, s.93). Artur Eduards isə məktubunda bildirir ki, Gilandan " buraya Şamaxıya ucuz zəy gətirirlər və batmanı 2 bistiyə satırlar, bu bizim pulla 5 pensə bərabərdir" (13, s. 224). Səyyah – tacir İngiltərədən gətiriləcək mallar, onların Azərbaycan bazarında qiymətləri haqqında məlumatda göstərir ki, "1.Karazeya 18 şahiyə satılır, yəni bütöv top İranda (Səfəvilər dövlətində - S.D.) 4 funt 10 şillingə satılır. Belə ki, hər bir şahi 6 ingilis pensinə, hər bir bisti isə 2,5 ingilis pensinə, rus denqası- 3 pensə bərabərdir" (13, s. 226). Rəcəbli ingilis səyyahının məlumatını təhlil edərək bir ingilis pensinin 0, 47 qr., bir rus pensi -"moskovki"nin 0,34 qr. olduğunu nəzərə almaqla bistinin 1,17 və ya 1,02 qr. çəkidə olması ehtimalının ortaya çıxdığını qeyd edir. Araşdırmanı davam edərək prof. Əli Rəcəbli bir bistinin 20 mis dinara bərabər tutulduğunu və 0,93-1,0 qr. çəkidə zərb olunduğunu bildirir (11, s. 63).

Beləliklə, XVI əsr Qərbi Avropa səyyahlarının məlumatının araşdırılması Səfəvilər dövlətində ticarət əməliyyatlarında ödəniş vasitəsi olaraq yerli sikkələrin işlənildiyi, şahi və bistinin pul dövriyyəsində başlıca nominallar olduğunu, Qərbi

Avropa sikkələrinin aşağı kursla yerli sikkələrlə dəyişdirildiyinin və sərrafların bundan böyük qazanc əldə etdiyini təsdiqləməyə əsas verir.

İstifadə edilmiş mənbə və ədəbiyyat:

1. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı: "Əbilov, Zeynalov və oğulları", 2006, 277 s.
2. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı:"Şərq-Qərb", 2007, 344 s.
3. Əzimli D. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin ikinci yarısı və XVII əsrin birinci yarısı). Bakı: Turxan NPB, 2014, 292 s.
4. Rəcəbli Ə.M. Azərbaycan sikkələri. Bakı, Xalq Bank, 2012, 360 s.
5. Rəcəbli Ə., Ələsgərova Z., Mustafayeva M. Ağdam gümüş sikkələri dəfinəsi və Azərbaycan - Qərbi Avropa qarşılıqlı əlaqələrinə dair // Azərbaycan Tarixi Muzeyi – 2004. Bakı: Elm, 2004, s. 44-48.
6. Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vincenso Alessandri). İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər O.Əfəndiyevindir. Bakı:Təhsil, 2005.
7. Гейдаров М.Х. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Баку: Элм, 1999, 168 с.
8. Пахомов Е.А. Монетные находки в АССР в 1924 г. // Известия Азербайджанского археологического Комитета, Баку, 1925, вып. 1, с.71-85.
9. Рагимов А.В. Бакинский клад // Материальная культура Азербайджана. Баку: Изд-во АН Азерб.ССР, 1953, с.98-126.
10. Раджабли А.М. Нумизматика Азербайджана. Очерки истории монетного дела и денежного обращения Азербайджана. Баку: Изд-во «Элм вэХаят», 1997, 232 с.
11. Раджабли А.М. Монетное дело Азербайджанского Государства Сефевидов. Баку, «Зия», 2014, 232 с.
12. Федоров-Давыдов Г.А. Монеты свидетели прошлого. Популярная нумизматика. Москва: Изд-во Моск. Ун-та, 1985, 176 с.
13. Эдуарс А. Письма Артура Эдуарса, написанное 26 апреля 1666 года из Шемахи в Мидии достопочтенному сэру Томасу Лоджу // Английские путешественники в Московском государстве в XVI в. Ленинград, 1937, с. 220-226

Sanura Dostiyeva

Western European travelers about money circulation of Azerbaijan in XVI century

Summary

Key words: *Safavid state, international trade relations, money circulation, shah, bisti*

The article is dedicated to interpretation of Venetian and English traveler's information about trade in Azerbaijan in XVI century; special attention is concentrated on information about money circulation in the Safavid state. We get very valuable information about local coins with comparison of them European coins. These written sources also preserved information about the exchange of European coins, which, as a rule, were valued below their dignity. Trade transactions were carried out by local coins in the Safavid state and foreign coins were estimated by their metal weight.

Санура Достиева

Западноевропейские путешественники XVI века о денежном обращении Азербайджана

Резюме

Ключевые слова: *государство Сефевидов, международные торговые связи, монетное обращение, шахи, бисти*

Статья посвящена интерпретации сведений венецианских и английских путешественников XVI века о торговле в Азербайджане, особое внимание концентрируется сведениям о денежном обращении в Сефевидском государстве. Весьма ценны сведения о местных монетах, сравнению их с европейскими монетами. Эти письменные источники сохранили также сведения относительно об обмене европейских монет, которые, как правило, ценились ниже их достоинства. В Сефевидском государстве торговые сделки осуществлялись местными монетами, а иностранные монеты оценивались по их металлическому весу.

Nərgiz Əliyeva

Azərbaycanin bir nömrəli numizmati (Professor Əli Rəcəblinin 90 illik yubileyinə ithaf edilir)

Hər bir xalqın mədəniyyət göstəricisi onun mədəni irsinin zənginliyi ilə ölçülürsə, bu xəzinənin nə dərəcədə zəngin olması onu kimin yaratmasından asılıdır. Yaradılan maddi-mənəvi irsin tədqiq edilərək qiymətinin ortaya çıxarılması isə mürəkkəbinin bir damlası 70 şəhid qanına bərabər alimlərin əlindədir.

Bu alimlərdən biri yaşadığı uzun mənəvi ömrünü dövlətçiliyiminin öyrənilməsində onsuz keçinə bilinməyən numizmatikaya həsr etmiş professor Əli müəllim Rəcəblidir.

Azərbaycan Respublikasının numizmatik irsi çox zəngindir. Onun ərazisindən tapılmış sikkə dəfinələri dövlətimizin iqtisadi, ictimai-siyasi və konfessional proseslərin öyrənilməsində əhəmiyyətli rol oynayır. Digər maddi-mənəvi abidələr kimi, onları tədqiq edərək ikinci həyat vermək işində ən böyük məsuliyyət Azərbaycanda numizmat nömrə bir sayılan professor Əli Rəcəblinin üzərinə düşür. Bu sahədəki müxtəlif mübahisəli məsələlərdə son nöqtəni o qoyur.

Mən bu çıxışımda Əli müəllimin yolu ilə gedərək onun müəllimi olmuş məşhur kolleksiyaçı, numizmat, arxeoloq alim, AMEA-nın müxbir üzvü, professor Yevgeni Paxomov (1880-1965) haqqında məlumat vermədən onun özü haqqında danışmağa keçmək istəməzdim. İki min ildən artıq bir dövr ərzində dövlətçiliyimizi müşayiət edən Azərbaycan sikkələrinin öyənilməsində Yevgeniy Paxomovun böyük rolu olmuşdur. Azərbaycan Cümhuriyyətinin dəvəti ilə 1919–cu ildə Tiflisdən Bakıya, ilk Azərbaycan Universiteti – Bakı Darülfünunda dərs demək üçün gələn məşhur Paxomovun 35 illik əsas fəaliyyəti Muzekskursla (indiki Milli Azərbaycan Tarixi muzeyi ilə) bağlı olmuşdur.

Deyirlər ki, alimdən sonra qalan üç dəyərdən biri onun öyrətdiyi elm, yetişdirdiyi davamçıdır. Bu missiya Y.Paxomovdan sonra Əli müəllimin üzərinə düşüb. Belə ki, 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirən Əli Rəcəbli görkəmli alim Yevgeni Paxomovun məsləhəti və Azərbaycan Dövlət Muzeyinin (hazırda Milli Azərbaycan Tarixi Muzeyi) direktoru, məşhur arxeoloq S.Qazıyevin təklifi ilə "numizmatika" ixtisası üzrə Respublikada ilk aspirant olaraq muzeyin aspiranturasına daxil olur.

1960-ci illərdən hələ o vaxtlar gənc Əli Rəcəbli numizmatika elmi sahəsində uğurlar əldə etməyə başlayır. O, Sovet numizmatikasında 60-cı illərə qədər öyrənilməmiş Səfəvilər dövlətində məskukət işinin təşkili məsələsini araşdırmağa başlayır.

Səfəvilər dövlətində mis sikkələr zərbi məsələsi ümumi pul dövriyyəsinin 1960-cı illərə qədər çox az öyrənilmiş sahələrindən birini təşkil edirdi. Numizmat alim Əli Rəcəbli buna görə öz tədqiqatını bu məcraya yönəldti. Onun 1962-ci ildə çap edilmiş elmi məqaləsində göstərilir ki, Səfəvi şahı II İsmayıl hakimiyyət başına gəldikdən sonra dövlətin daxili siyasəti sahəsində həyata keçirdiyi ilk və mühüm tədbirlər içərisində islam dininin iki əsas təriqəti-şiəliklə sünnülük arasındakı nifaqı ləğv etmək məqsədi ilə bir sıra fərman vermişdi. Yazılı mənbələrə müraciət edən müəllif göstərir ki, bu dini islahat məskukət işinə də təsir göstərmiş, II İsmayılın adı ilə vurulan sikkələrin üzərindəki yazılardan bir təbliğat vasitəsi kimi istifadə olunmuşdu. Bu sikkələrin tədqiqi II İsmayılın hökmranlığı zamanı zərbxanaların ixtisara salındığını göstərir. Ə.Rəcəbli göstərir ki, həmin vaxt zərbxanaların sayı 13-dən çox deyildi və həmin zərbxanaların əksəriyyəti Azərbaycan şəhərlərində yerləşdirilmişdi . Numizmat alim Ə.Rəcəbli 1963-cü ildə çap etdirdiyi digər elmi məqaləsində bu məsələləri tədqiqat çevrəsinə daxil edərək, Səfəvilər dövlətində mis sikkə buraxılışının muxtar xüsusiyyəti daşıdığını, yəni ayrı-ayrı vilayətlərin mərkəzi şəhərlərində vurulan mis sikkələrin yalnız öz vilayətlərinin iqtisadi və ticarət ehtiyaclarını ödəmək məqsədini daşıdığını, beləliklə də, zərb olunduğu yerdən başqa, digər şəhər və vilayətlərdə tədavüldə iştirak etmədiyini sübut edir. Bu da, öz növbəsində, müəllifin qeyd etdiyi kimi, yerli hakimlərin bundan sui-istifadə etməsi, ölkədə daxili, şəhərlərarası ticarətin inkişafına maneçilik törədir, digər tərəfdən də əhalinin maddi vəziyyətinə mənfi təsir göstərirdi.

Bu tədqiqatlardan sonra Əli Rəcəbli 1963-cü ildə "Səfəvilər dövlətində məskukat işi – XVI-XVIII əsrlər" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir.

Hər bir təltif və ya mükafatın arxasında görülən işlər, əldə edilən nailiyyətlər durur. Əli müəllim 1970-ci ildə "Fədakar əməyinə görə" medalı ilə təltif edilir. Bunu Əli müəllimə muzeyin mövzu-ekspozisiya planlarının tərtibində, muzey ekspozisiyasının təşkili və reekspozisiya işlərində, habelə respublikanın bir sıra diyarşünaslıq muzeylərinin mövzu-ekspozisiya planlarının tərtibi, ekspozisiyalarının montajı, eksponatların təyin və tədqiqi işində bilavasitə yaxından iştirak etdiyinə görə verilmişdir.

Respublika daxilində və xaricdə keçirilən elmi yığıncaqlarda müntəzəm olaraq elmi məruzələrlə iştirak edən Əli Rəcəblinin elmi yaradıcılıqla bərabər, bir muzey işçisi kimi Azərbaycan irsinin təşviq və təbliğində rolu böyükdür. O, mətbuat, radio və TV-də Azərbaycan tarixi və numizmatikası problemləri üzrə çıxışlar etmişdir. Dəfələrlə muzey müdiriyyəti, AMEA-nın Rəyasət Heyəti, Mədəniyyət Nazirliyi tərəfindən təşəkkürlər almış Əli müəllim muzeydə böyük elmi işçi vəzifəsində

çalışdığı 1972-ci ildə "əməkdar mədəniyyət işçisi" adına layiq görülmüşdür.

Əli müəllim Paxomovdan sonra ikinci bir dəstəyi 1998-ci ildə Muzeyə direktor təyin olunmuş Nailə xanim Vəlixanlıdan aldı. Elmin inkişafına daima dəstək verən Nailə xanım Əli Rəcəblinin elmi potensialına yaxşı bələd olduğu üçün ona elmi tədqiqat işlərini gücləndirməyi və tezliklə doktorluq dissertasiyasını müdafiə etməsini tapşırdı. Əli müəllim 2000-ci ildə "Azərbaycan numizmatikası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi.

2006-cı ildə AAK-ın qərarı ilə professor elmi adına layiq görülmüş Əli müəllim, 2010-cu ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Onun uzun illər boyu apardığı elmi axtarışları Azərbaycanın numizmatik abidələrinə həsr edilmiş 100-dən artıq yerli və xarici elmi məqalələrdə və samballı əsərlərdə öz əksini tapmışdır. Müəllifin "Azərbaycan numizmatikası", "Azərbaycanın qədim və ortacağ sikkələri", "Azərbaycan sikkələri" (Azərbaycan və rus dillərində), "Azərbaycan Səfəvilər dövlətinin məskukat (sikkə) işi", "Şirvanşahlar dövlətində sikkə zərbi", "Qafqaz pulları" kitab-albomlarında Azərbaycan numizmatikası layiqli şəkildə təmsil edilmişdir.

Elm aləmində müəllim-tələbə qarşılıqlı əlaqələri bütün dövrlərdə mövcud olmuşdur. Orta əsrlərdə də, bu gün də yaxşı müəllim tələbələrinə təmənnasız elm öyrədir, bilgi verir, yaxşı tələbə isə müəlliminin başladığı, lakin sona yetirə bilmədiyi, yarımçıq qoyub getdiyi işi davam etdirir, başa çatdırır. Necə ki, Şirvanşahlar dövlətçiliyinin sikkələri vasitəsilə öyrənilməsi ilk dəfə olaraq böyük numizmat alim prof. Y.Paxomov tərəfindən başlanmış, lakin, ömür vəfa etməmiş, iş sona çatdırılmadığından, bu işi professor Əli müəllim Rəcəbli öz dəst-xətti ilə davam etdirmişdir. O, Azərbaycan ərazisində fəaliyyət göstərmiş sülalələrdən ən uzundövrlüsü olan Şirvanşahlar adından kəsilmiş sikkəri tarixin prizmasından öyrənərək tədqiqat süzgəcindən keçirmiş, "Şirvanşahlar dövlətinin sikkə zərbi"monoqrafiyasını ərsəyə gətirmişdir. Monoqrafiyada göstərililr ki, yüzillər ərzində daxili çəkişmələr və çoxsaylı hərbi müdaxilələrlə üzləşən, daha güclü dövlətlərin hücumuna məruz qalaraq zaman-zaman müstəqilliyindən məhrum olan şirvanşahlar bütün çətinliklərə baxmayaraq dövlətçilik ənənələrini davam etdirmişdir. Numizmatik materiallara əsaslanaraq, yazılı mənbə və arxeoloji materialları əlavə edərək Əli Rəcəbli belə nəticəyə gəlir ki, Şirvanşahlar dövləti özünün iqtisadi potensialı və yüksək sosial –mədəni inkişaf səviyyəsinə görə III Mənuçöhr ibn Afridunun (1126-1160) dövründə "Müsəlman intibahı" nın ən möhtəşəm mərkəzlərindən birinə çevrilmişdir.

Müəllifə görə müasir dövrə qədər gəlib çatan çoxsaylı sikkələri və gümüş suyuna tutulmuş dirhəmlərdən ibarət bütöv bir dəfinə də , sikkələr üzərindəki kitabələrdəki şahın dəbdəbəli titulu (ədalətli məlik, dünya və dinin cəlalı şirvanşah) da onun müstəqilliyinə dəlalət edir.

1960-1970-ci illərdə Azərbaycan numizmatikası elmi məsələlərin həllində yeni

fazaya qədəm qoydu. Yeni numizmatik materialların tapılması, muzeydə numizmatık materialların toplandığı baza əsasında sikkə zərbi və orta əsr Azərbaycanın pul dövriyyəsinin ayrı-ayrı məsələlərini tədqiq edən bir sıra monoqrafiyaların meydana gəlməsi həll edilməsi vacib olan məsələlər dairəsini daha da genişləndirmək imkanı verirdi. Onillikdə tapılmış sikkə dəfinələri nəinki sikkə zərbi tarixi və pul tədavülü məsələlərini öyrənməyə yardım edir, eyni zamanda Azərbaycan tarixinin ictimai-iqtisadi həyatının ayrı-ayrı sahələrini, eləcə də müxtəlif tarixi dövrlərdə onun xarici aləmlə mədəni, siyasi və digər əlaqələrinin öyrənilməsinə kömək edirdi. Xınıslı dəfinəsindən sonra 1960-cı illərdə tapılmış Əli Bayramlı (1961-ci il), Çuxur-Qəbələ (1963-cü il) və Gədəbəy (1967 -ci il) pul dəfinələri, müəllifin qeyd etdiyi kimi, qədim Azərbaycanın yerli pul dövriyyəsi və ticarət-pul tədavülünün inkişaf dərəcəsi haqqında alimlərin fikrini əhəmiyyətli dərəcədə dəyişdirdi. Daim axtarışda olan Əli Rəcəbli yeni tapılmış sikkə dəfinələrinin (Gədəbəy,Çuxur –Qəbələ, Cəlilabad, Qazax və Zakatala dəfinələri) Azərbaycan tarixinin öyrənilməsi üçün rolunu aşkara çıxara bildi . Müəllif yeni dəfinələrin tapılma dövrünü mərhələlərə bölməklə elmi təsnifatını vermiş, Azərbaycanın qədim və orta əsrlər dövrü tarixinin öyrənilməsi üçün qiymətli mənbə kimi əhəmiyyətini göstərmişdir.

Onun "Azərbaycan" xoronimi, dövlət başçılarının onomastikası, ortaçağ şəhərlərinin topoqrafiya və toponomiyası, adları və izləri tarixdən silinmiş orta əsr Azərbaycan şəhərləri-zərbxanaları barədə tədqiqatlarında, ilk dəfə olaraq nadir sikkələr əsasında "sikkə" və "xütbə" hüququna malik bir sıra müstəqil Azərbaycan feodal hakimləri haqqında məlumatlar verilmişdir. Bundan əlavə,Azərbaycanda monetar pul dövriyyəsi ərzində baş vermiş ciddi iqtisadi-siyasi dəyişikliklər, Azərbaycanda əmtəə-pul münasibətlərində XI - XIII yüzillərdə baş vermiş "gümüş böhranı"nın səbəb və nəticələri öyrənilmiş, sikkə islahatlarının mahiyyəti və s. haqqında ilkin və təkzibedilməz bilgilər öz əksini tapmışdır.

Əli Rəcəblinin şəxsi səyləri nəticəsində rəhbərlik etdiyi AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika fondu Respublikanın vahid numizmatik tədqiqatlar mərkəzi və MDB məkanında ən zəngin numizmatik fondlardan sayılır.

1968-ci ildən hal-hazıradək Azərbaycan Tarixi Muzeyinin numizmatika və epiqrafika şöbəsinin müdiri vəzifəsində işləyən Əli müəllim həm də pedaqoji fəaliyyət göstərərək respublikamızın bir sıra ali təhsil ocaqlarında (BDU, LDU, ADMİU mühazirələr aparmış, bir sıra dərs proqramları hazırlamışdır. Onun müəllifi olduğu və 1997-ci ildə çap edilmiş "Azərbaycan numizmatikası" (rus dilində) dərsliyi dəyərli və təcrübi əhəmiyyətli əsərlərdəndir.

Professor Əli Rəcəbli əldə etdiyi nailiyyətlərə görə AMEA Rəyasət Heyətinin qərarı ilə 2017-ci ildə A.A.Bakıxanov adına mükafatın laureatı adına layiq görülmüşdür.

Yevgeni Paxomovun davamçısı prof. Əli Rəcəblinin bu gün artıq öz davamçıları var. Bir sıra aspirant və dissertanların işlərinə rəhbərlik edən, doktorluq və namizədlik

dissertasiyalarına opponentlik edən, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Şurasının, Arxeologiya və Etnoqrafiya İnstitutunun Müdafiə Şurasının üzvü olan Əli müəllim həm də Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın ekspertidir.

Mən orta əsrlər müsəlman mədəniyyəti tədqiqatçısıyam. Bilirəm ki, Azərbaycan alimləri elm öyrənmək üçün hər cür çətinlikləri dəf etmişlər. Necə ki, əl-Məərrinin "Kitab əl-Təhzib fi-l-luğə" əsərini əldə edən Xətib Xəbrizi kitabı torbaya qoyub çiyninə ataraq Təbrizdən əl-Məərrəyə aparır. Xətib Təbrizinin kürəklərindən axan tər kitabı islatmışdı. Hadisədən xəbəri olmayanlar ona baxdıqda suya düşdüyünü zənn edirlər. Halbuki, o, yalnız Xətibin təri idi. Sonradan elm sahəsində yüksələrək, hətta Nizamiyyə mədrəsəsində dilçilik kafedrasına rəhbərlik edən bu alimin vaxtilə minik tutmaq üçün pulu yox idi, lakin elm əldə etmək üçün sonsuz həvəsi var idi. Hazırda da belə alimlərimiz var.

Keçən il və bu il Əli müəllim yaşının çox olmasına baxmayaraq, riskə gedərək uzaq yola – Sankt-Peterburq və Novqorod şəhərlərinə səfər etdi, tutarlı elmi əsaslarla Azərbaycan tarixini təhrif edənlərin cavabını verdi.

Elə insanlar var çox yaşayır, lakin mənasız yaşayır, elələri də var ki, qısa yaşayır, lakin mənalı yaşayır. Uzun ömür sürmək və mənalı yaşamaq isə hər kəsə nəsib olmur. Mən Əli müəllimi mənalı ömrünün uzanması və sağlamlığının daimi olması arzusu ilə təbrik edirəm.

Milli Azərbaycan Tarixi Muzeyinin 2017-cı ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının icrası ilə əlaqədar tapşırılmış işlərin yerinə yetirilməsi haqqında məlumat

Azərbaycan Respublikası Prezidentinin "2017-ci ili Azərbaycan Respublikasında "İslam həmrəyliyi ili" elan edilməsi haqqında sərəncamının icrası çərçivəsində hesabat dövründə Milli Azərbaycan Tarixi Muzeyində silsilə tədbirlər keçirilmişdir. İl boyu muzey əməkdaşları, ali və orta təhsil müəssisələrinin müəllim, tələbə və şagirdləri üçün 10 seminar təşkil olunmuşdur. Seminarlarda muzeyin Xarici əlaqələr və elmi-kütləvi iş şöbəsinin əməkdaşları "Corci Zeydanın yaradıcılığı və azərbaycanca tərcümələri haqqında", "Nəsimi yaradıcılığında sufizm və hürufilik vəhdəti", "Azərbaycanın multikultural modeli" və digər mövzularda mühazirələrlə çıxış etmişlər. Muzey həmçinin Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu ilə birgə islam həmrəyliyi, Azərbaycanda multikulturalizm modeli mövzularına həsr edilmiş seminarların təşkilində yaxından iştirak etmiş, muzey əməkdaşları həmin seminarlarda mühazirələrlə çıxış etmişlər. Prezident sərəncamının icrası çərçivəsində muzeyin Arxeologiya elmi-fond şöbəsi tərəfindən "İslam intibahı dövründə Azərbaycanın maddi və mənəvi mədəniyyəti", Etnoqrafiya elmi-fond şöbəsi tərəfindən "Azərbaycan xalqının məişət mədəniyyətinin formalaşmasında islamın rolu" mövzusunda seminarlar təşkil olunmuşdur.

Muzeyin "İslam həmrəyliyi ili" ilə əlaqədar tədbirlər planında həmçinin tədqiqat işlərinin aparılması da nəzərdə tutulmuşdur. Bununla əlaqədar t.ü.e.d. Nərgiz Əliyevanın "İslam mədəniyyəti və Azərbaycan (VII-XIII əsrlər)", t.ü.f.d. Məhfuzə Zeynalovanın "Azərbaycan-özbək xalqlarının tarixi əlaqələri", elmi işçi Əli Fərhadovun "Şimali Azərbaycanda islam maarifçiliyi hərəkatı (XIX əsr-XX əsrin əvvəlləri)" monoqrafiyaları nəşrə hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" sərəncamına uyğun olaraq mayın

22-də muzeydə "Azərbaycan tarixində almanlar" fotosərgisi təşkil edilmişdir. Fotosərgidə orta əsrlər dövründə Azərbaycanda olmuş alman səyyahları, XIX əsrdə almanların Azərbaycana köçürülməsi, XIX-XX əsrin əvvəllərində Azərbaycanda alman koloniyalarının həyatını əks etdirən materiallar nümayiş olunmuşdur. Fotomateriallar onları izah edən müvafiq elmi məlumatla zənginləşdirilmişdir. Sərgidə 140-a yaxın fotoşəkil, müxtəlif illərdə alman ictimai-siyasi, mədəni təşkilatlarının Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyələri nümayiş etdirilmiş, informasiya panelləri quraşdırılmışdır. Noyabrın 2-dək fəaliyyət göstərən fotosərgini 2000 tamaşaçı ziyarət edib.

Elmi tədqiqat işləri planlarının yerinə yetirilməsi haqqında məlumat

Təsdiq olunmuş plana əsasən Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi mədəniyyət abidələrinin toplanması, mühafizəsi, tədqiqi, nəşri, onların ekspozisiya və sərgilər vasitəsilə nümayişi və təbliği istiqamətində 4 problem üzrə 5 mövzunu əhatə edən 22 iş üzərində çalışmışlar. 2017-ci il ərzində planda nəzərdə tutulmuş 19 iş yerinə yetirilmiş, 3 keçici mövzu 2018-ci ildə tamamlanacaqdır.

Muzeyin elmi tədqiqat planına daxil olan **I problem** *"Azərbaycan xalqının qədim dövrdən bu günə qədərki tarixini əks etdirən maddi və mənəvi mədəniyyət nümunələrinin muzeyin ekspozisiyasında və sərgilərində nümayişi və təbliği"* adlanır.

Problemə daxil olan "Azərbaycanın qədim, orta əsrlər, yeni və Xalq Cümhuriyyət dövrlərini, Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətini əks etdirən ekspozisiyanın daimi təkmilləşdirilməsi və yeniləşdirilməsi, müxtəlif mövzularda sərgilərin qurulması" mövzusu üzrə (mövzunun rəhbəri: Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri t.ü.f.d. S.Əhmədov) daimi ekspozisiyada "Azərbaycan 1904-1913-cü illərdə" bölməsi yeni materiallarla zənginləşdirilmiş, 1905-1907-ci illərdə baş vermiş inqilabi hadisələri əks etdirən heykəl və rəsm əsərləri bölmədə yerləşdirilmişdir. Daimi ekspozisiyada "Qarabağ atı" adlı yeni bir bölmə yaradılmışdır, informasiya panellərində Qarabağ atı haqqında tarixi məlumat, rəsm əsərlərinin işlərinin surətləri, fotoşəkillər yerləşdirilmişdir. Arxeologiya və Etnoqrafiya elmi-fond şöbələrinin əməkdaşları müvafiq vitrinlərdə təkmilləşdirmə işlərini aparmış, ümumilikdə 70-dən artıq yeni eksponatı (sferokonuslar, saxsı qablar, geyimlər və s.) ekspozisiyada yerləşdirmişlər.

Mayın 15-də "Reinkarnasiya – tarixi eksponatlar" gənc rəssam və heykəltəraşlarının sərgisi açılmışdır. Sərgidə bir sıra yeni təsviri sənət və heykəltəraşlıq əsərləri yaratmış müasir rəssamların işləri geniş tamaşaçı auditoriyasına təqdim olunmuşdur. Sərgidə muzeyin 20 tarixi eksponatı və onların əsasında yaradılmış 27 müasir sənət əsəri nümayiş olunub. Sərgi 15 may-2 iyun tarixlərində fəaliyyət göstərmişdir.

İyulun 4-də Milli Azərbaycan Tarixi Muzeyi Milli Təhsil Texnologiyaları Mərkəzi ilə birlikdə təşkil etdiyi "Azərbaycan milli geyimləri olduğu kimi" sərgisi

açılmışdır. Sərginin əsas məqsədi qloballaşan dünyada Azərbaycan mədəniyyətinin qorunub saxlanmasına və gələcək nəslə təhrifsiz ötürülməsinə töhfə verməkdir. Sərgidə XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycanda mövcud olmuş geyimlərə aid 150-dən artıq eksponat, 20-dən artıq qadın və kişi geyim dəstləri, unikal rəsmlər və fotoşəkillər təqdim olunmuşdur. Sərgi noyabrın 1-dək fəaliyyət göstərmişdir.

Təsdiq olunmuş plana əsasən dekabrın sonunda muzeydə "Azərbaycan Şirvanşahlar dövləti" sərgisi açılmışdır. Sərginin əsas məqsədi IX-XVI əsrlərdə mövcud olmuş Şirvanşahlar dövlətinin Azərbaycan tarixində tutduğu yeri və oynadığı rolu nümayiş etdirməkdir. Sərgidə muzeyin Arxeologiya, Silahlar və bayraqlar fondunda qorunan eksponatlar nümayiş olunub, müvafiq informasiya panelləri quraşdırılıb. Sərgi mayın 1-dək davam edəcək.

Bununla yanaşı Milli Azərbaycan Tarixi Muzeyində qısamüddətli sərgilər də təşkil olunmuşdur. Onların içərisində mayın 3-də muzeyin dəstəyi və Azərbaycan Britaniya Kollecinin təşkilatçılığı ilə "Nə mutlu türkəm deyənə" adlı tədbir çərçivəsində sərgi, mayın 11-15-də İstək Liseyi (Əhmədli filialı) ilə birgə "ART İstedad" layihəsi çərçivəsində "ART-Show" adlı rəsm sərgisi, 3-5 noyabrda Bakı şəhərində yerləşən 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzinin təşkilatçılığı ilə gənclərin əl işlərindən ibarət "Duyğularımın rəngi" sərgi.

II Problem "*Muzeyin fondlarında qorunan maddi mədəniyyət nümunələrinin, Azərbaycan tarixinin müxtəlif dövrlərinin elmi tədqiqi və nəşri, respublika və beynəlxalq səviyyəli elmi konfransların, seminarların keçirilməsi, Azərbaycanın müxtəlif bölgələrinə toplama işi məqsədilə ekspedisiyaların təşkili"dir.* Bu problem 2 mövzunu əhatə edir.

"Azərbaycan tarixi problemlərinin elmi tədqiqi və nəşri" mövzusuna daxil olan birinci iş çərçivəsində iyunun 20-də "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası" mövzusu üzrə I respublika konfransı keçirilmişdir. Konfransda müasir cəmiyyətdə muzeylər; muzey eksponatları elmi tədqiqatların mənbə bazası kimi; muzey, arxiv və kitabxanalarda qorunan materialların tədqiqi, bərpası və konservasiyası istiqamətləri üzrə 50-yə yaxın məruzə dinlənilmişdir. Konfransda Milli Azərbaycan Tarixi Muzeyinin, AMEA-nın elmi müəssisələrinin, respublika muzeylərinin, ali məktəblərin alim və mütəxəssisləri iştirak etmişlər (icraçı: elmi işlər üzrə direktor müavini t.ü.e.d. N.Əliyeva).

Oktyabrın 23-də muzeydə *"İslam intibahı dövründə Azərbaycanın maddi və mənəvi mədəniyyəti" mövzusunda elmi seminar* keçirilmişdir. Arxeologiya elmi fond şöbəsinin təşkilatçılığı ilə baş tutan seminarda "İslam dünyasının intibahı: elm, memarlıq, incəsənəti" məruzəsi dinlənilmiş, məruzə ətrafında müzakirələr aparılmışdır (icraçı: Arxeologiya elmi fond şöbəsinin müdiri t.ü.f.d. N.Quluzadə).

Mövzuya daxil olan *"İslam mədəniyyəti və Azərbaycan" monoqrafiyasının*

hazırlanması" işi çərçivəsində adı çəkilən əsər hazırlanmış, üzərində redaktə işi aparılır. Monoqrafiyada Azərbaycanda islam dininin, islam mədəniyyətinin yaranması və inkişafı, azərbaycanlı ziyalıların təsnifatı, onların Xilafətin idarəetmə strukturlarında fəaliyyəti, Xilafətin mədəniyyət mərkəzləri ilə elmi-mədəni əlaqələri və tədris fəaliyyəti, Azərbaycanda müsəlman monumental tikililəri və s. məsələlər öz əksini tapmışdır (icraçı: elmi işlər üzrə direktor müavini t.ü.e.d. N.Əliyeva).

"Azərbaycan-özbək xalqlarının tarixi əlaqələri" monoqrafiyasının hazırlanması" adlı iş yerinə yetirilmiş, əsər çapa təqdim olunmuşdur. Monoqrafiyada Azərbaycan-özbək əlaqələrinin qədim zamanlardan 1991-ci ilə qədərki inkişafı, ticari-iqtisadi, mədəni, elmi, ictimai sahələrdə qarşılıqlı təsirlər, XIX əsrin sonu-XX əsrin əvvəllərində ümumtürk və ümummüsəlman milli hərəkatında azərbaycanlıların və özbəklərin rolu, həmçinin digər məsələlər öz əksini tapmışdır (icraçı: elmi-fond işləri üzrə direktor müavini – baş mühafiz t.ü.f.d. M.Zeynalova).

Mövzuya daxil olan *"Azərbaycan sikkəsi milli dövlətçiliyimizin rəmzidir" kitab-albomunun hazırlanması"* işi çərçivəsində adı çəkilən əsər çapa hazırlanmışdır. Kitab-albom muzeyin zəngin numizmatik kolleksiyası, digər muzey kolleksiyalarının nadir numizmatik artefaktları əsasında hazırlanmışdır. Əsərdə Azərbaycan dövlət sikkəsi tarixi mənbə qismində, çoxəsrli Azərbaycan dövlətçiliyinin ən mühüm atributlarından biri kimi əhəmiyyəti göstərilmişdir (icraçı: Numizmatika və epiqrafika elmi-fond şöbəsinin müdiri t.ü.e.d., prof. Ə.Rəcəbli).

"Şimali Azərbaycanda islam maarifçiliyi hərəkatı (XIX əsr-XX əsrin əvvəlləri)" monoqrafiyasının hazırlanması" işi tamamlanmış, monoqrafiya çapa təqdim olunmuşdur. Əsərdə XIX əsr-XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai durum, maarifçilik hərəkatının təşəkkülü və bu prosesdə islam maarifçiliyinin rolu məsələləri öz əksini tapmışdır (icraçı: Xarici əlaqələr və elmi-kütləvi iş şöbəsinin elmi işçisi Ə.Fərhadov).

Muzeyin Arxeologiya elmi-fond şöbəsi tərəfindən icrası nəzərdə tutulmuş *"Azərbaycanda hərb sənəti (arxeoloji silahlar əsasında)" kitab-albomunun hazırlanması"* işinin hesabat ili üçün nəzərdə tutulmuş birinci mərhələsi başa çatmış, kitab-alboma daxil olacaq fond materialları seçilmişdir. Kitab-albomun 2018-ci ildə - Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi ərəfəsində tamamlanması nəzərdə tutulub (icraçı: Arxeologiya elmi fond şöbəsinin müdiri t.ü.f.d. N.Quluzadə).

"Muzeyin fondlarında qorunan maddi mədəniyyət nümunələrinin, Azərbaycan tarixinin müxtəlif dövrlərinin elmi tədqiqi və nəşri, respublika və beynəlxalq səviyyəli elmi konfransların, seminarların keçirilməsi, Azərbaycanın müxtəlif bölgələrinə toplama işi məqsədilə ekspedisiyaların təşkili" probleminə daxil olan ikinci mövzu "*Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası Azərbaycan tarixinin və mədəniyyətinin öyrənilməsində mənbə kimi"* adlanır. Bu mövzu üzrə 3 elmi əsər üzərində iş aparılmışdır. Muzeyin kolleksiyası əsasında *"20 Yanvar şəhidləri" kataloqu* çapa hazırlanmışdır (icraçı: Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin

elmi işçisi İ.Muradəliyeva). Nəşri 2018-ci ildə nəzərdə tutulan *"Azərbaycanda balıqçılıq" kitab-albomu* (icraçı: Xarici əlaqələr və elmi-kütləvi iş şöbəsinin aparıcı elmi işçisi t.ü.f.d. B.Kərimov), və *"Şərqin qızıl sikkələri" kataloqu* (icraçılar: Numizmatika və epiqrafika elmi-fond şöbəsinin müdiri t.ü.e.d., prof. Ə.Rəcəbli, Xüsusi fondun müdiri t.ü.f.d. A.Rüstəmbəyova) üçün hesabat ili ərzində material toplanmış, kitab-alboma və kataloqa daxil olacaq muzey materiallarının təsviri və təyinatı verilmişdir.

III Problem *"Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında cari texniki işlərin aparılması, mühafizənin və təhlükəsizliyin təmin olunması məqsədilə müasir infrastrukturun təşkili"* adlanır.

Problemə bir mövzu – *"Fond kolleksiyalarının işlənməsi, pasportlaşdırılması, yeni materiallarla zənginləşdirilməsi"* daxildir (mövzunun rəhbəri: elmi fond işləri üzrə direktor müavini – baş mühafiz t.ü.f.d. M.Zeynalova). Mövzu üzrə aşağıdakı işlər yerinə yetirilmişdir:

- elmi fond şöbələri və fondlar 2017-ci ilin iş planına uyğun olaraq fond işi çərçivəsində ekspozisiyaya verilmiş, həmçinin geriyə qaytarılmış eksponatları aktlaşdırmış;
- fondlara daxil olmuş yeni materiallar ilkin işlənərək, inventar kitabında qeydiyyatdan keçirilmişdir;
- eksponatların sanitar-təmizləmə işləri aparılmışdır;
- fond əməkdaşları muzeyə müraciət edən müxtəlif yerli və xarici təşkilatlara və tədqiqatçılara (o cümlədən, televiziya şirkətlərinə, Elmlər Akademiyasının müvafiq institut və təşkilatlarına, ali təhsil müəssisələrinə, dövlət qurumlarına, ictimai təşkilatlara və s.) metodiki və əməli yardım göstərmişlər.

Hesabat dövründə Arxeologiya və Etnoqrafiya fondlarında tam, digər fondlarda seçmə inventarlaşdırma aparılmışdır.

Mövzuya daxil olan *"Bərpaya və konservasiyaya ehtiyacı olan fond materiallarının bərpa və konservasiyası"* işi çərçivəsində 2017-ci il ərzində muzeyin Bərpa laboratoriyası tərəfindən 2937 muzey eksponatı bərpa və konservasiya edilmişdir.

Mövzu üzrə *"Muzeyin məlumat bazasının təkmilləşdirilməsi"* işi davam etdirilmişdir. Hesabat dövründə fondlarda pasportlaşdırma işi çərçivəsində 10130 eksponatın elektron pasportu hazırlanmışdır.

"AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyalarında iştirak və etnoqrafik ekspedisiyaların təşkili" işi çərçivəsində muzeyin Arxeologiya fondunun əməkdaşları Tovuz, Bərdə, Quba rayonlarında elmi ezamiyyətlərdə, Etnoqrafiya elmi-fond şöbəsinin əməkdaşları t.ü.f.d. G.Abdulova, t.ü.f.d. T.Şiriyev, k.e.i. S.Nəsirova Quba, Xaçmaz, Yardımlı rayonlarında etnoqrafik səfərdə olmuşlar.

Cari ildə Tarixi Əşyaların Fond-Satınalma Komissiyası tərəfindən muzeyə 1290 ədəd yeni eksponat qəbul edilmiş, onlardan 1136 ədəd hədiyyə olaraq, 94 ədəd satınalma yolu ilə fondlara təhvil verilmişdir. Muzeyə qəbul olunan yeni

materialdan 100-dən artıq saxlama vahidi Qarabağ müharibəsi iştirakçılarına və şəhidlərə aid materiallardır. Onların arasında Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimov, Aqil Quliyev, Yunis Nəcəfov, Cavid Dədəkişiyev, Şahlar Şükürovun materiallarını xüsusi qeyd etmək olar.

IV Problem *"Elmi maarif, elmi kütləvi işlər"*i əhatə edir. Problemə daxil olan mövzu *"Azərbaycan tarixinin KİV, internet vasitəsilə təbliği, təhsil müəssisələri, ictimai təşkilatlarla əlaqələrin genişləndirilməsi"* adlanır (mövzunun rəhbərləri: Xarici əlaqələr və elmi kütləvi iş şöbəsinin müdiri E.Dadaşov, Elmi maarif və ekskursiyalar şöbəsinin müdiri t.ü.f.d. B.Sayılov). Hesabat dövründə muzeydə 20 Yanvar və Xocalı faciələrinə, Ümummilli Lider H.Əliyevin anadan olmasının 94-cü ildönümünə, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 99-cu ildönümünə, 31 mart – Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbirlər keçirilmişdir.

Elmlə təhsilin əlaqələrini genişləndirmək məqsədilə ali məktəblərin SABAH qrupları tələbələrinin AMEA-nın institut və müəssisələrində təcrübə keçməsi haqqında AMEA ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında razılıq əldə olunmuşdur. Bu məqsədlə 2016-cı il dekabrın 1-dən Milli Azərbaycan Tarixi Muzeyində SABAH qruplarının tələbələri üçün yarımillik təcrübə məşğələləri fəaliyyətə başlamışdır. Hesabat ili ərzində muzey əməkdaşları BDU-nun tarix fakültəsinin SABAH qruplarının üzvü olan tələbələri üçün mühazirələr mühazirələr oxumuş, onların muzeyin ekspozisiyası və fondları ilə, aparılan elmi tədqiqatlarla tanış etmişlər.

Tədbirlər arasında muzeyin ictimai təbliği və tanıdılması baxımından 18 May – Beynəlxalq muzeylər günü çərçivəsində "Açıq qapı" gününün, muzeyin 2016-cı ildə nəşr etdirdiyi kitabların təqdimat mərasiminin, "Azərbaycan multikulturalizmi" mövzusunda, Milli Qəhrəman Şəhlar Şükürovun anadan olmasının 65 illiyinə həsr olunmuş "Xalq qəhrəmanları ilə tanınar" mövzusunda, Muzeyin Bakı Şəhər Təhsil İdarəsi ilə birgə "Ekoloji mədəniyyət və incəsənət, Azərbaycanın ekoloji tarixi və etnoqrafiyası" mövzusunda tədbirlərin təşkili və keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Cari ildə Şollar-Bakı su kəmərinin 100 illiyi münasibətilə ölkəmizdə keçirilən yubiley tədbirlərinin ilki martın 13-də Milli Azərbaycan Tarixi Muzeyində keçirilmişdir. Muzeyin "Azərsu" ASC ilə birlikdə təşkil etdiyi mərasimdə H.Z.Tağıyevin və su kəmərinin baş mühəndisi U.Lindleyin varisləri ilə görüş və muzeyin əməkdaşları t.ü.f.d. F.Cabbarov və t.ü.f.d. M.Məmmədovun müəllifi olduqları "Şollar-Bakı su kəmərinin tarixindən" kitabının təqdimatı keçirilmişdir.

Muzeydə ənənəvi "Hacı Zeynalabdin Tağıyev" klubunun məşğələləri davam etdirilmiş, yeni "Gənc muzeyşünaslar və muzeysevərlər" klubu fəaliyyətə başlamış, "Tarix fənninin başqa fənlərə inteqrasiyası" layihəsi çərçivəsində mühazirələr, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi ilə birlikdə keçirilən "Sənət barəsində söhbət" layihəsi çərçivəsində məşğələlər təşkil olunmuşdur.

İl ərzində muzeydə 1261 ekskursiya aparılmış, 17500 nəfər muzey

ekspozisiyasını ziyarət etmişdir (dekabrın 1-nə olan məlumat).

Hesabat dövründə muzeyin bir sıra əməkdaşları muzeyin fəaliyyətinə, Azərbaycan tarixinin müxtəlif problemlərinə dair televiziya, radio, mətbuat və İnternet vasitəsilə çıxış etmişlər.

Beynəlxalq əlaqələr

Cari ildə muzey əməkdaşları aşağıdakı beynəlxalq elmi tədbirlərdə iştirak etmişlər:

1. "Azərbaycanı və Qafqazı öyrənmək" Beynəlxalq konfransı. Böyük Britaniya Krallığı, London, 25-28 yanvar (direktor akademik N.Vəlixanlı).
2. "Arxeoloji tədqiqatlarda yeni metod və materiallar. Arxeoloji mənbədən tarixi yeniliklərə" adlı IV Beynəlxalq elmi konfrans. Rusiya Federasiyası, Moskva şəhəri, 28-30 mart (Arxeologiya elmi-fond şöbəsinin kiçik elmi işçisi L.Mustafayev).
3. Türk Tarix Qurumunun təşkil etdiyi "Tarix və tarixçilik" Beynəlxalq simpozium. Türkiyə, Ankara şəhəri, 10-13 aprel (elmi işlər üzrə direktor müavini t.ü.e.d. N.Əliyeva).
4. XIX Ümumrusiya Numizmatika Konfransı. Rusiya Federasiyası, Novqorod şəhəri,18-22 aprel (Numizmatika və epiqrafika elmi fond şöbəsinin müdiri, t.ü.e.d. prof. Ə.Rəcəbli).
5. II. Uluslararası Anadolu Uyğarlıqları beynəlxalq simpozium. Türkiyə, Çorum şəhəri, 27-28 aprel (ekspozisiyanın təhlükəsizliyi üzrə direktor müavini-ekspozisiya müdiri t.ü.f.d. H.Əliyeva).
6. VII. Uluslararası Türk sənəti, tarixi və folkloru Beynəlxalq simpozium. Türkiyə, Konya şəhəri, 4-6 may (ekspozisiyanın təhlükəsizliyi üzrə direktor müavini-ekspozisiya müdiri t.ü.f.d. H.Əliyeva).
7. VII. Uluslararası Türk sənəti, tarixi və folkloru Beynəlxalq simpozium,Konya şəhəri, 4-6 may (Etnoqrafiya elmi fond şöbəsinin müdiri t.ü.f.d. G.Abdulova).
8. "The reading nation in the reading world" beynəlxalq simpoziumu, Qazaxıstan Respublikası, Astana şəhəri, 26 iyun (direktor akademik N.Vəlixanlı, elmi işlər üzrə direktor müavini t.ü.e.d. N.Əliyeva, elmi işlər üzrə direktor müavini-baş mühafiz t.ü.f.d. M.Zeynalova).
9. "Muzeylərdə inklüziv proqram" regional seminar-təlim. Gürcüstan, Tbilisi şəhəri, 24-26 iyun (Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin müdiri E.Dadaşov).
10. "Tarix. Mədəniyyət. Yaddaş: yeni nəslin baxışı" Gənc tarixçi, mədəniyyətşünas və muzey işçilərinin beynəlxalq məktəbi. Rusiya, Perm şəhəri, 2-7 sentyabr (Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin müdiri E.Dadaşov).

Nəşriyyat fəaliyyəti, elmi məqalələr:

Cari ildə muzey əməkdaşlarının aşağıdakı kitabları nəşr olunmuşdur:

1. Əliyeva N. Milli Azərbaycan Tarixi Muzeyi: tarix, elm və mədəniyyət (məqalə və məruzələr toplusu), Bakı, Elm və təhsil, 2017, 200 səh.
2. "Reinkarnasiya – tarixi eksponatlar" sərgisinin kataloqu (tərtibatçı: Əhmədov S.). Bakı, 2017, 23 səh.
3. "Azərbaycan milli geyimləri olduğu kimi" sərgisinin kataloqu (tərtibatçı: Əhmədov S.). Bakı, 2017, 16 səh.
4. Hacı Zeynalabdin Tağıyev haqqında xatirələr. Tərtib edən: F.Cabbarov. Bakı: XAN nəşriyyatı, 2017, 196 səh. (ikinci, təkmilləşdirilmiş nəşri).
5. Rəcəbli Ə. Azərbaycan sikkəsi milli dövlətçiliyimizin rəmzidir. Kitab-albom. Bakı: AFPOLİQRAF, 2017, 180 səh.
6. Зейналова М. Исторические связи азербайджанского и узбекского народов. Баку: AFPOLİQRAF, 2017, 190 с.
7. Fərhadov Ə. Şimali Azərbaycanda islam maarifçiliyi hərəkatı (XIX əsr-XX əsrin əvvəlləri). Bakı: AFPOLİQRAF, 2017, 490 səh.
8. Əhmədov S. Azərbaycan silahları IX-XVII əsrlərdə: təkamül və inkişafı. Bakı: AFPOLİQRAF, 2017, 538 səh.
9. Əliyeva N. İslam mədəniyyəti və Azərbaycan (VII-XIII əsrlər). Bakı: Elm və təhsil, 2017, 400 s.
10. Milli Azərbaycan Tarixi Muzeyinin elmi məqalələr toplusu. Bakı: Elm və təhsil, 2017, 326 səh.
11. Hesabat dövründə muzey əməkdaşlarının 61 məqaləsi, 29 məruzəsi və 2 tezisi çap olunmuşdur. Xarici elmi jurnallarda dərc olunan məqalələrin sayı 11-dur, onlardan 7-si impakt faktorlu jurnallarda dərc olunub.

Muzey əməkdaşlarının iştirak etdiyi ölkədaxili elmi forumlar:

Hesabat dövründə muzeyin 16 əməkdaşı 2 respublika və 17 beynəlxalq səviyyəli elmi forumlarda iştirak etmişlər.

Muzeydə keçirilmiş konfranslar, seminarlar:

Cari ildə Milli Azərbaycan Tarixi Muzeyində 3 konfrans və 1 elmi seminar keçirilmişdir:

"VII Beynəlxalq Türk sənəti, tarixi və folkloru" mövzusunda beynəlxalq konfrans (11-15 aprel 2017) Bakıda Milli Azərbaycan Tarixi Muzeyi, Türkiyə Cümhuriyyətinin Konya şəhərindəki Səlcuq Universiteti və Ağrıdağ Çeçen İbrahim Universiteti tərəfindən təşkil olunmuşdur.

Akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri")

mövzusunda beynəlxalq elmi konfrans (AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə birlikdə) (16-17 oktyabr 2017).

"Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği,mühafizəsi və bərpası" I Respublika elmi konfransı (20 iyun 2017).

"İslam intibahı dövründə Azərbaycanın maddi və mənəvi mədəniyyəti" mövzusunda respublika seminarı (23 oktyabr 2017).

Kadr hazırlığı

Cari ildə muzeydə 185 əməkdaş (onlardan 52 nəfər elmi işçi) fəaliyyət göstərir. Əməkdaşlardan 1 nəfər akademik, 3 nəfər elmlər doktoru, 17 nəfər fəlsəfə doktorudur. Muzeyin fəlsəfə doktoru hazırlığı üzrə 7 dissertantı, elmlər doktoru hazırlığı üzrə 3 dissertantı və 1 doktorantı (qiyabi) var. Hesabat dövründə muzeyin əməkdaşı F.Ağayev tarix üzrə fəlsəfə doktoru diplomunu almış, doktorant G.Hüseynova fəlsəfə doktoru hazırlığı üzrə, muzeyin əməkdaşı mem.ü.f.d. N.Yusifova elmlər doktoru hazırlığı üzrə dissertasiyalarını müdafiə etmişlər.

Elmi-təşkilati fəaliyyət

Elmi Şuranın 8 iclası keçirilmişdir.

Mükafatlar

Muzeyin Numizmatika və epiqrafika elmi-fond şöbəsinin müdiri t.ü.e.d., prof. Əli Rəcəbli Azərbaycanın numizmatik irsinin tədqiqində əldə etdiyi mühüm elmi nəticələrə görə Abbasqulu ağa Bakıxanov adına mükafata və anadan olmasının 90 illiyi münasibətilə AMEA-nın Fəxri fərmanına layiq görülmüşdür.

MÜNDƏRİCAT

Muzey kolleksiyasının materialları Vətən tarixinin öyrənilməsində mənbə kimi

Sevinc Vahabova. Azərbaycan dekorativ-tətbiqi sənət nümunələri üzərindəki hərbi janr təsvirləri 4

Агасалим Эфендиев. Об одном новом экспонате Национального музея истории Азербайджана 12

Bəhman Kərimov. Azərbaycan travmatologiya elminin banisi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) 24

Инна Костина. Краткий обзор почтового дела в Азербайджане (по материалам Национального музея истории Азербайжана) 31

Фуад Агаев. К истории детского туберкулезного санатория в Бузовнах (по материалам известного врача Е.Я. Гиндеса)..... 39

Nüşabə Əsədova. Görkəmli rəssam Əzim Əzimzadənin əsərləri tarixi mənbə kimi 45

Севиль Казиева. Об одном автографе Узеира Гаджибейлиса 53

Инара Мурадалиева. О вкладе Мансуровых в азербайджанскую музыкальную культуру XIX-XX вв. (по материалам Национального музея истории Азербайджана) 59

Rəna Səfərova. Partizan Firuzə Fətəliyeva 66

Günel Alıyeva. Akademik Yusif Məmmədəliyevin İkinci Dünya müharibəsi illərindəki fəaliyyətinə dair (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) 74

Ilyas Babayev, Kay Kaniyut, Laçın Mustafayev, Martin Qruber. 2016-ci ildə Şəmkir-Qaracəmirli Beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən MATM-ın Arxeologiya fonduna təhvil verilən arxeoloji tapıntılar 81

Aida İsmayılova. Azərbaycanın orta əsr basmanaxışlı küplərində dini-fəlsəfi dünyagörüşünün izləri 92

Эмин Мамедов, Геннадий Агаев. Статистические данные о ходе раскопок археологического комплекса в Мингечауре в 1946-1953 гг..... 100

Aygün Məmmədova. 2016-2017-ci illərdə Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika fonduna təqdim olunan numizmatik materiallar.... 109

Aygün Quliyeva. Etnoqraf Mariya Quliyevanın elmi və ictimai fəaliyyətinə dair (MATM Sənədli mənbələr fondunun materialları əsasında)..... 116

Fəridə Xəlilova. Rəşid bəy Əfəndiyevin MATM Etnoqrafiya fondunda mühafizə edilən bəzi materialları haqqında 127

Tarix

Allahverdi Əlimirzəyev. Kaspilərin etnik tarixindən 134

Səbinə Nemətzadə. Astronomiyaya dair biliklərin yaranması tarixindən 142

Nərgiz Əliyeva. Əməvi xəlifələri və onların Azərbaycanla bağlı konfessional siyasəti (h.41-127/661-749) 150

Нигяр Гезалова. Сочинение Мухаммад Рафи Ансари «Дастур ал-Мулук» и степень его изученности в мировой историографии 171

Əli Fərhadov. Bir daha Corci Zeydanın həyat və yaradıcılığına dair (MATM-in materialları əsasında) 177

Мамед Мамедов. Вопросы здравоохранения на Съездах бакинских нефтепромышленников 186

Эсмира Вагабова. К вопросу о состоянии здравоохранения в азербайджанском городе Иреван в XIX-начале XX вв. 204

Солмаз Рустамова-Тогиди. Защита прав рабочих мусульман –профессиональная деятельность или национальный долг. Петиция Али Мардан бека Топчибашева 222

Фархад Джаббаров. По следам одной фотографии или еще раз об армяно-азербайджанском съезде 1906 г. 238

Vasif Qafarov. Osmanlı imperiyasının Qafqaz siyasəti və müstəqil Azərbaycan ideyası (1914-1915-ci illər) 256

Firdovsiyyə Əhmədova. Bolşevik hakimiyyətinin Qafqaz siyasəti və Azərbaycan 275

Gülşən Hüseynova. Müasir dövrdə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında elm və təhsil sahəsində qarşlıqlı əlaqələrin inkişafı 292

Aynur Babayeva. Müasir dövrdə Milli Azərbaycan Tarixi Muzeyinin beynəlxalq əlaqələri (2012-2016) 308

Etnoqrafiya və sənətşünaslıq

Şiriyev Tural. Lerik rayonunda yerləşən Bobogil türbəsi haqqında 317

Fatma Qəniyeva. Qafqaz xalqlarında qonaqpərvərliyin öyrənilməsinə dair 325

Nardanə Yusifova. H.Z.Tağıyev mülkünə mənsub Şərq zalınındakı ornamentlərin tərtibat xüsusiyyətləri 333

Elfira Məlikova-Qurbanova. Azərbaycanın ilk bərpaçı-rəssamı Fərhad Hacıyevin yaradıcılığına dair 341

Arxeologiya

İradə Avşarova. Öküz (buğa) inancı izləri Azərbaycanın arxeoloji abidələrində 358

Həbibə Əliyeva. Şirvan ərazisindəki ən böyük xanəgahın kitabələri haqqında 372

Xəqani Alməmmədov. Qarabağ düzənliyində yerləşən erkən əkinçi-maldar tayfalarına məxsus yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar (2013-cü ilin çöl-tədqiqatları əsasında) 379

Наргиз Алиярлы. Вклад Салеха Казиева в изучение материальной и духовной культуры древней Габалы 391

Anar Ağalarzadə, Mətanət Hüseynova, Aslan Qasımov. Yardımlı rayonu ərazisindəki son tunc-erkən dəmir dövrü qəbir abidələri (Alar və Arvana kəndlərinin materialları əsasında) 398

Sənurə Dostiyeva. XVI əsr Qərbi Avropa səyyahları Azərbaycanın pul dövriyyəsi haqqında 408

Yubiley

Nərgiz Əliyeva. Azərbaycanin bir nömrəli numizmati (Professor Əli Rəcəblinin 90 illik yubileyinə ithaf edilir) 414

Milli Azərbaycan Tarixi Muzeyinin 2017-ci ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı 419

Qeyd üçün

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ
- 2017 -

Kompüter tərtibatı:
Emin Dadaşov, Aynurə İsmayılova